AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR və PSİXOLOGİYA FAKÜLTƏSİ
PEDAQOGİKA KAFEDRASI




# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 100-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ "TƏHSİLDƏ MODERNLƏŞMƏ VƏ İNNOVASİYALAR DÖVRÜN TƏLƏBİDİR" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSIN

# MATERİALLARI

2-3 may 2023-cü il

BAKI – 2023

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**SOSİAL ELMLƏR və PSİXOLOGİYA FAKÜLTƏSİ**

**PEDAQOGİKA KAFEDRASI**

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ
100-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
«**TƏHSİLDƏ MODERNLƏŞMƏ VƏ
İNNOVASİYALAR DÖVRÜN TƏLƏBİDİR**»
MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSIN

# M A T E R İ A L L A R I

**2-3 may 2023-cü il**

**B A K I – 2 0 2 3**

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş «**Təhsildə modernləşmə və innovasiyalar dövrün tələbidir**» mövzusunda Respublika elmi konfransının

# T Ə Ş K İ L A T K O M İ T Ə S İ

| | | | |
|---|---|---|---|
| **1** | Rövşən Cavadov | BDU, Sosial elmlər və psixologiya fakültəsinin dekanı | Sədr |
| **2** | Ləzifə Qasımova | BDU, Pedaqogika kafedrasının müdiri | Sədr müavini |
| **3** | Daxil Vəliyev | BDU, Sosial elmlər və psixologiya fakültəsinin tədris işləri üzrə dekan müavini | Üzv |
| **4** | Qızılgül Abbasova | BDU, Sosial elmlər və psixologiya fakültəsinin elmi işlər üzrə dekan müavini | Üzv |
| **5** | Nəzakət Kərimova | BDU, Sosial elmlər və psixologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini | Üzv |
| **6** | Nübar Muxtarova | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Pedaqogika kafedrasının professoru | Üzv |
| **7** | Hikmət Əlizadə | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Pedaqogika kafedrasının professoru | Üzv |
| **8** | Məcid İsmixanov | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Pedaqogika kafedrasının dosenti | Üzv |
| **9** | Nəzakət İmamverdiyeva | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Pedaqogika kafedrasının dosenti | Üzv |
| **10** | Rəhimə Mahmudova | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Pedaqogika kafedrasının dosenti | Üzv |
| **11** | Kəmalə Qəhrəmanova | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Pedaqogika kafedrasının dosenti | Üzv |

# PROQRAM KOMİTƏSİ

| | | | |
|---|---|---|---|
| **1** | Elza Mollayeva | BDU, Pedaqogika kafedrasının professoru | Sədr |
| **2** | İbrahim Zeynalov | BDU, Tarix fakültəsinin dekanı | Üzv |
| **3** | Elxan Bəylərov | Azərbaycan Respublikasının Təhsil İnstitutu, Psixologiya və xüsusi təhsil şöbəsinin müdiri | Üzv |
| **4** | Kamalə Pənahova | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Fəlsəfə kafedrasının müdiri | Üzv |
| **5** | Kamilə Əliyeva | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Sosial və pedaqoji psixologiya kafedrasının müdiri | Üzv |
| **6** | Rafael Həsənov | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Sosiologiya kafedrasının müdiri | Üzv |
| **7** | Rəbiyyət Aslanova | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının müdiri | Üzv |
| **8** | Rəna İbrahimbəyova | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Gender və tətbiqi psixologiya kafedrasının müdiri | Üzv |
| **9** | Səxavət Əliyeva | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Psixologiya kafedrasının müdiri | Üzv |
| **10** | Üzeyir Şəfiyev | BDU, Sosial elmlər və psixologiya fakültəsi, Sosial iş kafedrasının müdiri | Üzv |
| **11** | Fərrux Rüstəmov | Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı | Üzv |

*I B Ö L M Ə*

# *PEDAQOGİKANIN ÜMUMİ ƏSASLARI*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN PEDAQOJİ FƏALİYYƏTİMDƏ YERİ

***Nübar Muxtar qızı Muxtarova***
***BDU, Pedaqogika kafedrasının professoru***
***professormukhtarova@gmail.com***

**BU İLİN MAY AYININ 10-DA MÜASİR DÖVLƏTÇİLİYİMİZİN MEMARI, GÖRKƏMLİ SİYASİ XADİM, BÖYÜK ÖNDƏRİMİZİN 100 YAŞI TAMAM OLUR. BİZİM ARAMIZDAN GETMƏSİNƏ BAXMAYARAQ, BU DAHİ İNSAN AZƏRBAYCAN XALQININ VƏ ŞƏXSƏN MƏNİM QƏLBİMDƏ ƏBƏDİ OLARAQ YAŞAYIR VƏ YAŞAYACAQDIR.**

*Artıq 30 ilə yaxındır ki, bizim Azərbaycan dövlətimiz müstəqildir. Bu müstəqillik bizə çox çətinliklə başa gəlib. Bu müstəqilliyin yaradıcısı, qurucusu dahi şəxsiyyət, öz taleyi ilə örnək olan, bir vicudda "iki cahan"ı sığışdıran, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyev olmuşdur. O,Tanrının könlünün xoş saatlarında dünyaya gəlib. İlahinin bahara qovuşduğu müdriklik camından su içib. Sərv qamətli, xeyirxah, nəcib, sağlığında əfsanəyə çevrilmiş, özündən çox xalqını düşünən bir şəxsiyyət olmuşdur.*

*Azərbaycanın ən ağır vəziyyətində onun dahiyanə uzaqgörənliyi sayəsində, böyük siyasi təcrübəsi, ən əsası isə xalqının ona inamı, bir böyük qüvvə tək dəstək olaraq onun arxasınca getməsi, xalqının səsini eşidib hakimiyyətə gələrək, dövlətçiliyimizi qoruyub saxlamağa təkan verdi. Böyük öndərin vətənpərvərlik hissləri ilə yaşayan, onun kəlamlarından qaynaqlanan milyon insandan biri də mənəm. Bu*

*çətin bir dövrdə mən də bir Azərbaycanın fəal vətəndaşı kimi, Bakı Dövlət Universitetinin müəllimi, alimi kimi, o vaxtlar Pedaqogika kafedrasının müdiri kimi bu siyasətə qoşuldum, dövlətçiliyimizin qorunması və çiçəklənməsi üçün əlimdən gələni əsirgəmədim.*

1992-ci ildən mənim siyasi həyatım kökündən dəyişdi. Ölkə prezidenti seçkilərində Azərbaycanın layiqli oğlu Heydər Əliyevin namizədliyinin irəli sürülməsində Bakı Dövlət Universiteti də qoşuldu, komissiya yaradılmış və sədr professor Səfiyar Musayev olmuşdur. Professorun təşəbbüsü ilə mən bu işə qoşuldum, komissiya üzvü oldum. Azərbaycan xanımı kimi, ana kimi, ziyalı kimi çox gözəl dərk edirdim ki, bu çətin bir məqamda xalqımızı, müstəqilliyimizi ancaq dahi siyasətçi xilas edə bilər və əlbəttə ki, bu yeganə şəxs Heydər Əliyev idi. Mən özüm onun hakimiyyətə gəlməsi üçün qapı-qapı, blok-blok, mərtəbə-mərtəbə gəzib minlərlə səs toplamışam və bu işdə mənim iki oğlum bu ağır işdə mənə dəstək olmuşdular və mənim əlimdən gələn bir şərəfli iş oldu. Heydər Əliyevin hakimiyyətə gəlməsi isə zəhmətimin hədərə getməməsinə işarə oldu.



АРАЈЫШ

М.Ә.Рәсулзадә адына БДУ-нун Педагоҝика кафедрасынын мүдири профессор Нубар Мухтар гызы Мухтароваја ондан өтрү ки, о,1992-ҹи илдә мөһтәрәм Һејдәр Әлирза оғлу Әлијев ҹәнабларынын 1993-ҹү ил сечкиләриндә Азәрбајҹан Республикасынын Президентлијинә намизәд ирәли сүрүлмәсилә әлагәдар тәшкил олунмуш имзатоплама комиссијасынын үзвү олмушдур.

Бу тәшәббүс Јени Азәрбајҹан Партијасы тәрәфиндән ирәли сүрүлмүшдүр.

Имзатоплама комиссијасынын
сәдри,М.Ә.Рәсулзадә адына
БДУ-нун һуманитар факүлтәләр
үзрә Сијаси тарих кафедрасынын
мүдири,профессор С.Б.Мусајев

Имзасы тәсдиг едирәм.
БДУ елми катиби /проф. Н.Бабајев/

1991-2012-ci illərdə mən BDU-nun Pedaqogika kafedrasının müdiri vəzifəsində çalışmışam. İşlədiyim müddət ərzində mən və həmkarlarım gənc nəslin Heydər Əliyev ideyaları ətrafında cəmləşməsinə və onların yüksək mənəvi əxlaqa sahib olmalarına can atmışıq.

1998-ci ildə sentyabr ayında Respublika Sarayında Azərbaycan müəllimlərinin XI qurultayında BDU-dan nümayəndə seçilmişdim. Bu qurultayda ölkə başçısı Heydər Əliyev geniş və dərin məzmunlu nitq söyləmiş, öz fəaliyyətinin təhsillə bağlı məqamlarını açıqlamışdır.

1999-2014-cü illərdə mən YAP-nın Bakı Səbayıl rayon təşkilatının Qadınlar məclisinin sədri idim. Onun cərgələrində 12000-dən çox insan birləşmiş və bir nəfər kimi, həm xoş, həm də ağır günlərdə biz Heydər Əliyevin ətrafında sıx birləşərək, siyasətini dəstəkləmiş və fəallıqla həyata keçirirdik. 15 il bu vəzifədə işləmişəm. Hər bir iclasımızda öncə Ulu öndərimizin həm sağlığında, həm də dünyasını dəyişəndən sonra biz öz qürurumuzu və məhəbbətimizi bu insana bildirmək üçün onun ziyarət edərək, əklillər qoyurduq. İşlədiyim müddət ərzində bir neçə dəfə toplantılara nümayəndə seçilmişəm. Onu da qeyd edim ki, ulu öndərin prezident seçkilərindən sonra andiçmə mərasimlərində də iştirak etmişəm.

Siyasi fəaliyyətimlə bağlı tez-tez respublika səviyyəli tədbirlərdə iştirak edirdim. Bu tədbirlərdə prezidentimiz Heydər Əliyev də iştirak edirdi. Onunla hər bir görüş mənim üçün dərin, silinməz iz qoymuş, ondan bir ülvü varlıq kimi yeni nailiyyətlərə təkan vermiş, bu görüşlər mənim yaddaşımda xoş bir xatirələrə çevrilmişdir.



Dəqiq yadımdadır, Bakıda 1998-ci ildə Moskva Balet teatrının konserti keçirilirdi. Cənab prezident də bu konsertdə iştirak edirdi. Fasilə zamanı onun gözəl bir xüsusiyyəti vardır- foyeyə çıxıb tamaşaçılarla ünsiyyət qurardı. Mən də fürsəti əldən vermədim, prezidentimə yaxınlaşdım və özümü təqdim etdim: *"Cənab Prezident! Özümə borc bilirəm, Siz dediyiniz kimi, alimlər bu günkü tarixi faktları gələcək nəslə olduğu kimi düzgün çatdırmağı. Bu, Sizin ideyaya əsaslanaraq "Heydər Əliyev – milli "Mən"in oriyentiri" adlı kitabımı üç dildə: azərbaycan, rus, ingilis dillərində çapa hazırlamışam".* O gülümsədi və mənə uğurlar arzuladı. Sonra ətrafdakı insanlarla birgə biz şəkil çəkdirdik. Bizim söhbətimiz isə davam etdi. Bu söhbətdə təkcə siyasətdən deyil, həm də alimlərin gündəlik həyatından da bəhs olundu. Heydər Əliyev hər bir xırdalıqlarla müəllimin indiki durumunu öyrənmək istəyirdi. Bir neçə olmuş hadisələrdən bəhs etdim və o çox diqqətlə mənə qulaq asırdı: "*Kislovodsk şəhərində anam müalicə alırdı və mən onun həkimi ilə söhbət açdım, millətcə yəhudi idi, söhbət əsnasında Bakının gözəlliyindən söz açdı, Sizin haqqınızda isə belə bir fikir söylədi: "Sizin çox gözəl prezidentiniz var – belə qısa müddət ərzində əmin-amanlıq yaratmaq hər insanın işi deyil. Əgər Əlcəzairə getməsəydim, böyük məmnuniyyətlə çiçəklənən Bakıya qayıdardım". Bu sözlərlə mən böyük qürur hissi keçirdim". Söhbətimə davam etdirərək bir hadisəni də təqdim etdim*



*prezidentimizə: "Yunan Kiprində olanda isə bir ailə bizləri qonaq etdi. Haradan gəldiyimizi soruşdu, lakin, təəssüflər olsun, Azərbaycan dövlətini tanımadılar, Sizin, cənab prezident, adınızı çəkəndə – ailə başçısı ayağa qalxdı, əlini göyə tutub "O, Haydar!" sevinc və qürurla söylədi. Siz, Ulu öndərimiz, dövlətimizin "vizit kartı" imişsiniz. Bu anda fəxr edirəm ki, belə bir şəxsiyyətlə eyni zaman kəsiyində yaşamışam".* Dövlət başçısının bu sözlərdən çox xoşu gəldi, öz minnətdarlığını bildirdi və məndən nə isə köməklik lazım olduğunu soruşdu. Mən: "Çox sağ olun!" dedim. Ətrafa boylandım. Artıq zalın böyük girişinə yaxınlaşmışdıq. Həyacandan orada daha qala bilmədim, tələsik evə döndüm.

1998-ci ildə Azərbaycan qadınlarının I-ci qurultayında mən BDU-dan nümayəndə seçilmişdim. Dövlət başçısı öz çıxışında Azərbaycan qadınlarının çox gözəl olduğunu dəfələflə vurğuladı və çıxışının yekununda "Hamınızı öpurəm!" söylədi. Çıxışlardan sonra fasilə elan olundu və ulu öndər həmişəki kimi, sarayın foyesinə çıxdı. Kafedra həmkarım, dosent, mərhum Fatma xanım Ələsgərova və mən Ulu öndərə yaxınlaşdıq, hal-əhval tutduq. Fatma xanım dedi: *"Cənab Prezident! Çıxışınızda dediniz ki, hamınızı öpürəm. İcazə verin indi bizim adımızdan mənim kafedra müdürüm, professor Nübar xanım Sizi öpsün".* O, etiraz etmədi və mən, utanaraq, Ulu öndərin yanağından öpdüm.




1999-cu il aprel ayı. Respublika sarayında Respublika Prezidenti ilə mənim üçüncü görüşüm oldu. Bu dəfə "Pedaqoji aləm" təsisçisi və baş redaktoru olduğum jurnalı ümummilli liderə təqdim etdim. O jurnalı vərəqlədi, bəyəndi və mənə

uğurlar arzuladı. Mən özümü çox xoşbəxt hiss etdim ki, belə bir insan mənim zəhmətimə yüksək qiymət verdi.

20 dekabr 1999-cu ildə YAP-ın I-ci qurultayı zamanı, respublikamızın nailiyyətlərini özündə əks etdirən sərgi təşkil olunmuşdur. Bu sərgidə mənim “Heydər Əliyev milli “Mən”in oriyentiri” kitabım da vardı. Fasilə zamanı prezidentimiz sərgiyə tamaşa edirdi, mən isə öz kitabım olan stendin yanında durmuşdum. Camaatla ünsiyyətə qoşuldu və mənim durduğum yerə yaxınlaşdı, mən özümü toplayıb: *“Cənab Prezident mən, söz verdiyim kitabımı çapdan çıxarmışam və böyük fəxrlə Sizə təqdim edirəm...”* O, razılığını bildirdi və ilk növbədə kitabımın məzmunundan bəhs etdim. Onu da deyim ki, kitabimin təqdimatı həm BDU-da, həm də Şamaxı şəhərinin İcra Hakimiyətinin binasında geniş keçirilmişdir.

*“Cənab prezident! Sizin Müvəffəqiyyətlik Formulunuzu ilk dəfə mən öz kitabımda işıqlandırmağa çalışdım: analitik təfəkkür, uzaqgörənlik, fenomenal yaddaş, zəhmətsevərlik, müdriklik, ecazkar cazibə qüvvəsi hamımıza bir örnəkdir”*





Ulu öndərin Boris Yeltsenlə şəklinə çatanda isə əlavə etdim: *“Kitabdakı şəkillərin arasında Sizin Rusiya prezidenti Boris*

*Yeltsenlə şəkliniz verilmişdir. Bu şəklə baxanlar bir ağızdan “Boris Nikolayevic nə yaxşı çıxmış” deyirdilər və mən belə cavab verdim: “Sevimli prezidentimizin nuru Boris Yeltsenin üzünə düşüb, ona görə yaxşı çıxıb”.*

Dövlət başçısı səmimi gülümsədi. Yenə şəkil çəkdirdik. Fürsətdən istifadə edib, Respublika sarayında çıkdirdiyimiz birgə şəklimizə imza atmasını xahiş etdim. İki şəklin ikisini də ona uzatdım, birinə imza atıb mənalı mənə baxdı. Mən həyacanımı gizlətmədən söylədim: ”İki oğlum var, sonra dalaşarlar”. Təbəssümlə şəkillərə imza atdı.

Bizim doğma Bakı Dövlət Universiteti onu dünyada məşhurlaşdıran, xalqımızın fəxri olan böyük alimlər, ictimai xadimlər, yaradıcı ziyalılar yetirmişdir. Lakin BDU-nun ən görkəmli məzunu, obrazlı şəkildə desək, şah əsəri Heydər Əliyevdir. Ona görə ki, bu universiteti, eləcə də bütünlükdə Azərbaycan xalqını Heydər Əliyev qədər yüksəkliklərə qaldıran ikinci məzun yoxdur. Heydər Əliyevin Bakı Dövlət Universitetinə qayğısı və diqqəti bu müdrik dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi dövrdə özünü xüsusilə qabarıq göstərmişdir. Ulu öndərin BDU-ya diqqət və qayğısının daha bir göstəricisi bu ali təhsil ocağının yubileylərinin keçirilməsidir.


Азербайджанской Республики

ПРЕЗИДЕНТУ АЗЕРБАЙДЖАНА
ЕГО ПРЕВОСХОДИТЕЛЬСТВУ
ГЕЙДАРУ АЛИЕВУ

Дорогой наш Гейдар Алиевич,здравствуйте!

Професорско-преподавательский состав кафедры “Педагогика” желает Вам , любимый наш Президент , скорейшего выздоровления и возвращения на Родину , которая своим положительным биополем поможет в скором времени приступить к своим осударственным делам!

Долгие лета Вам!С уважением

От имени коллег кафедры "Педагогика" БГУ имени М.Э. Расулзаде професор Нубар Мухтарова

Bakı Dövlət Universitetinin 85 və 90-illik yubileylərində mən də iştirak etmişəm. Yadımdadır ki, “Respublika Sarayı”nda (indiki

“Heydər Əliyev” sarayı) təntənəli qeyd edilmişdirlər, yubileylərdə Ulu öndər də iştirak edirdi. Öz çıxışında BDU-nun ünvanına çox gözəl sözlər demişdir. Ümummilli liderimizin nitqindən daha çox bunu xatırlamaq istərdim: “Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Bakı Dövlət Universitetində inkişaf etdirilmişdir”. Yubiley iştirakçılarına hədiyyələr də təqdim olunmuşdur. Tədbirin davamını Gülüstan restoranında professor, müəllim və qonaqlar üçün ziyafət təşkil olunmuşdur. Bu tədbirdə çox yadımda qalan isə dövlət başçısının müəllimlərlə gözəl rəqs etməsi oldu. O qədər səmimiyyətlə keçirildi ki, bu tədbirlərdən heç evə getmək istəmirdik.

Dövlət başçısı *Heydər Əliyevin* ABŞ-ın Ohayo ştatındakı Klivlend *xəstəxanasında* xəstə yatdığı vaxtlarda biz biganə qalmayaraq, mən və həmkarlarım ona teleqram imzalayaraq, can sağlığı və tezliklə vətənə qayıtmasını arzulamışdıq.

Bu gündə, YAP-nın veteranı kimi, bir onu təsdiqləyə bilərəm ki, dahi şəxsiyyət Heydər Əliyevin ideyaları və YAP-ın proqramı bu gün də həyata keçirilməkdə davam edir. Mən isə, bu gün də çalışıram onun dərin mənalı kəlamlarından dərs alım, nəticə çıxarım, ulu öndərimiz kimi Vətənimə sadiq olum, dövlətin mənafeyini öz canım bahasına yüksək tuta bilim və artıq onun həyat təcrübəsini özümə və tələbələrimə bir nümunə seçmişəm.

***HƏYAT TƏSDİQ ETDİ Kİ, ÜMUMMİLLİ LİDERLƏR HƏR BİR XALQA NƏSİB OLMUR. YALNIZ QÜDRƏTLİ XALQLAR ÜMUMMİLLİ LİDERLƏR YETİŞDİRİR. AZƏRBAYCAN XALQI XOŞBƏXTDİR Kİ, ONUN HEYDƏR ƏLİYEV KİMİ ÜMUMMİLLİ LİDERİ VAR.***

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ MÜƏLLİMLİK

***Rüfət Lətif oğlu Hüseynzadə***
***Pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim***
***prof.rufat@mail.ru***

Bütün tarixi dövrlərdə görkəmli şəxsiyyətlər, dövlət adamları müəllimlik peşəsinə yüksək qiymət vermiş və müəllimliyi cəmiyyətin ən şərəfli peşəsi hesab etmişlər.

XX əsrin dahi şəxsiyyəti, böyük dövlət xadimi, Ümummili Lider Heydər Əliyevin müəllimlik peşəsi haqqında dediyi sözlər öz xüsusi dəyəri, əhəmiyyəti və müəllimlik peşəsinə verdiyi yüksək qiyməti ilə hər zaman üçün aktualdır: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə,minnətdarlıqla qəlbimizdə yaşadırıq". Bu qiymətli sözlər Ulu Öndərimizin müəllimlik peşəsi ilə sıx bağlı olmasından, bu peşəyə yaxından bələd olmasından, ilk peşə ixtisasının da müəllimlik olmasından və ilk vəzifə təyinatının da müəllimlik olmasından irəli gəlməkdədir. O bu barədə Azərbaycan Müəllimlərinin I qurultayındakı nitqində demişdir: "Doğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz... mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim. ... Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona

görə də mənim o vaxtdan dərs vermək təcrübəm olubdur...". Heydər Əliyevin məktəblə, maariflə həmişə sıx bağlı olması haqda özü belə deyirdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam...Hesab edirəm ki, cəmiyyət harada olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir..." O müəllimlik peşəsini ürəkdən sevmiş, müəllim əməyinə yüksək qiymət vermiş və heç də təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız "Xalq müəllimi" fəxri adını məmnuniyyətlə qəbul etmişdir.

Heydər Əliyev müəllimlik adını çox yüksəkdə tutmuş və ona müqəddəs bir peşə kimi baxmışdır. " …Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir..." -demişdir. Heydər Əliyev bir pedaqoq məharəti ilə müəllimlərə məktəbliləri, tələbə -gəncləri Vətənə sədaqətlə xidmət etmək ruhunda böyütməyi, xalqımızın milli xüsusiyyətləri əsasında tərbiyə etməyi, onları milli-mənəvi dəyərlər əsasında yetişdirməyi tövsiyə edirdi. Ulu öndərimizin 1 sentyabr 1997-si ildə Bakının 18 №-li məktəbində keçirilən görüşdəki nitqindı deyirdi: "Uşaqlar gərək orta məktəblərdə bütün fənləri mənimsəsinlər. Bunların hamısı ilə bərabər, bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, çatdırmaq, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur. Mən arzu edərdim ki, müəllimlər bunu heç vaxt unutmasınlar....".

Ulu Öndərimiz Heydər Əliyev özlərini vətən torpağının bir zərrəsi sayan gənslərin tərbiyə edilib yetişdirilməsində müəllim əməyinə, onun şəxsiyyətinə yüksək qiymət vermişdir. Heydər Əliyev deyirdi ki, "müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, səmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaş hazırlayır. Müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət öz gələcəyini – uşaqlarının tərbiyəsini yalnız ona etibar edir. Təhsil və tərbiyə prosesində müəllimin peşə hazırlığı, savadı, mənəviyyatı mühüm əhəmiyyət daşıyır.Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır".

Dahi rəhbərimizin müdrik tövsiyəsi belədir ki, əsl pedaqoq olmaq, şagird və tələbələrə mükəmməl, hərtərəfli bilik vermək, onları

nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün məktəblərdə müvafiq şərait, lazımi mühit yaradılmalı, müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, yetirmələrinə nümunə olmalıdır:

Heydər Əliyev hələ Naxçıvanda orta məktəbdə oxuduğu illərdə və daha sonrakı təhsil illərində də yalnız "əla" qiymətlərlə oxumuş, həmişə də öz müəllimlərinə böyük hörmət və ehtiramla yanaşmış, onları daim minnətdarlıqla xatırlamışdır: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimlərimin hamısı yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumağım mənim üçün çətin olmayıb, tələbələr arasında həmişə seçilmişəm...."

Heydər Əliyev Naxçıvanda orta məktəbi "əla" qiymətlərlə başa vurduqdan sonra Naxçıvan Pedaqoji Texnikumuna daxil olmuş və burada təhsil aldığı dövrdə ən fəal və əlaçı tələbə olmuş, ictimai işlərdə fəal iştirak etmiş, idman yarışlarında birincilik qazanmış, incəsənətlə - rəssamlıqla, aktyorluqla məşğul olmuş, daim mütaliə etmiş, kitablar oxumuş və hərtərəfli inkişaf etmiş, fiziki cəhətdən güclü qamətli, yaraşıqlı bir gənc olmuşdur. Texnikumun peşəkar, tələbkar müəllimləri Heydər Əliyevin ən sevimli müəllimləri olmuş və özünün dediyi kimi: "…39-cu ildə burada pedaqoji texnikumu qurtarmışam. O dövrdə aldığım təhsil gələcək həyatımın bütün mərhələlərində mənə yardım edibdir... Naxçıvan məktəbində müəllimlərimin mənə verdiyi dərslər, o cümlədən başqaları ilə bərabər ana dili, ədəbiyyat dərsləri mənim bu günkü dilimin əsasını təşkil edir. Ona görə mən öz müəllimlərimi həmişə xatırlayıram.

Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm, çox böyük şəxsiyyətlər görmüşəm. Yadda qalanları da, qalmayanları da var. Az yadda qalanı var, çox yadda qalanı var. Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir...".

Bəli, o müəllimlərini heç zaman unutmadı, onları yüksək

qiymətləndirdi, onların hər biri haqqında, onların pedaqoji məharəti, pedaqoji ustalığı haqqında çox dəyərli fikirlər söylədi: ”Pedaqoji texnikumda bizə Azərbaycan dilinin incəliklərini öyrədən, Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı öyrədən gözəl müəllimlərimiz var idi. Amma bu müəllimlərin içərisində Lətif Hüseynzadə xüsusi yer tuturdu...O sinifdə lövhədə Azərbaycan dilinin qrammatikasından sözləri yazırdı, hər bir sözün düzgün yazılışını və mənasını izah edirdi... Bir də Azərbaycan ədəbiyyatını-şairlərimizi, yazıçılarımızı çox yaxşı öyrədirdi...Lətif müəllim özü canlı bir tarixdir”.

Yeri gəlmişkən qeyd edək ki, Naxçıvan Pedaqoji Texnikumu öz məzunları və müəllimləri ilə məktəb və pedaqoji fikri tariximizdə çox layiqli yer tutmuş və Azərbaycan pedaqoji kadrlarının hazırlanmasında mühüm xidmətləri olmuşdur. Texnikumun məzunları çox dəyərli, ləyaqətli, vətənpərvər məzunlar olmuşlar ki, onları Qori Müəllimlər Seminariyasının məzunları ilə də müqayisə etmək olar. Burada dərs deyən müəllimlər də çox təcrübəli, bilikli, peşəkar müəllimlər olmuşlar, dövrün hər cür çətinliklərinə baxmayaraq həvəslə, fədakarlıqla çalışmışlar. Onların bir çoxu Qori Müəllimlər Seminariyasını, İrəvan Müəllimlər Seminariyasını bitirmiş, bəziləri də Rusiya universitetlərində təhsil almış həvəslə çalışan, peşəkar müəllimlər olmuşlar.

Heydər Əliyevin müəllimlik peşəsinə olan münasibətində həmişə bir müdriklik, qayğıkeşlik, bu sənətə böyük hörmət və ehtiramı görünməkdədir. Bu, bir tərəfdən onun dövlət başçısı kimi vəzifəsindən irəli gəlsə də, digər tərəfdən onun yenə də ilk ixtisasca müəllim olması ilə bağlı olduğunu deyə bilərik. Onun insanlara yanaşma tərzi, onlarla ünsiyyət və münasibəti, hər bir adamın “öz dilində danışması” ulu öndərimizin pedaqoji məharətindən, psixoloji, etik, estetik biliklərə dərindən yiyələnməsindən, geniş dünyagörüşündən, çevik və hərtərəfli bilik və məlumatlılığa malik olmasından, “Heydər Əliyev pedaqogikası”ndan xəbər verir. Heydər Əliyevin səlis və aydın nitqi, insanlara humanist münasibəti, demokratik düşüncələri, tolerantlığı, əzmkarlığı, peşə fədakarlığı, dərin zəkası, incə yumoru, dəmir iradəyə sahibliyi, habelə səliqəli geyimi, vüqarlı yerişi, ifadəli baxışları, düzgün davranış və

hərəkətləri hər bir müəllimin peşə keyfiyyətləri, peşə fəaliyyəti üçün ən dəyərli nümunədir.

## MÜASİR MÜƏLLİMİ XARAKTERİZƏ EDƏN BAŞLICA KEYFİYYƏTLƏR

*Müseyib İbrahim oğlu İlyasov*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*müseyibilyas@gmail.com*

Bütün dövrlərdə şəxsiyyətinə, intellektual səviyyəsinə, peşəkarlıq qabiliyyətlərinə görə yüksək tələb veriilən peşə sahiblərindən biri və birincisi müəllim olmuş və bu gün də bunlar artmaqda davam edir. Müasir müəllim həyatın artan tələblərinə cavab vermək üçün daim, fasiləsiz olaraq öz üzərində işləməli, peşə, ixtisas və xüsusi bacarıq və qabiliyyətlərini dərinləşdirməli və inkişaf etdirməlidir. 2013-cü ildə qəbul edilən "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Müəllim amili təhsilalanın öyrənilməsi və inkişafı, nailiyyətlərinin monitorinqi prosesində həlledici rol oynayır. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən çox asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur"(1).

Təhsilalanların müvəffəqiyyətinin əsas sükançısı və lokomotivi müəllimdir, təhsilverənlərdir. Nə müasir təlim texnologiyaları, nə də təlim prosesində İKT-nin rolunun arması müəllimin peşə fəaliyyətini, onun əsas funksiyalarını və üzərinə düşən vəzifələri azaltmır. İnformasiya texnologiyalarının da, digər müasir təlim texnologiyalarını da, sinif otaqlarına gətirən, təlim prosesini intensivləşdirən də, öyrənənləri fəal fəaliyyətə qoşan da müəllimdir, öyrədənlərdir. Tədrisin mərkəzində öyrənənlər dayansa da, yenə də məktəbdə əsas sima müəllimdir, təhsilverənlərdir. Bu gün də tədrisin necəliyi onlardan, onların bacarıq və səriştəsindən, işinə məsuliyyətli münasibətindən həlledici dərəcədə asılıdır. Lakin müasir müəllim heç də çox uzaqda olmayan müəllimdən bir çox

xüsusiyyətlərinə görə fərqlənən müəllimdir. Müasir müəllim yenilikçidir, verilənlərlə kifayətlənməyən, pedaqoji prosesdə özünün kreativ düşüncəsi ilə yeniliklər edən, öyrənənləri pedaqoji prosesin sehrinə sala bilən müəllimdir. Bunlar müasir müəllimi özündən əvvəlkilərdən müəyyən xüsusiyyətlərinə görə fərqləndirir və müəllimi daha da irəliyə getməyə sövq edir. Bu baxımdan müasir müəllimi xarakterizə edən bir sıra keyfiyyətlər vardır ki, bunlar da əsasən aşağıdakılardan ibarətdir:

1) təhsilin şagirdə yönəlişliyinin təmin edilməsi (şəxsiyyətyönümlü təhsil bacarıqları);

2) təlim prosesinin fərdiləşdirirlməsi və fərdi yanaşmanı reallaşdıra bilməsi (təlimin diferensiallaşdırılması);

3) innovativ metod və texnologiyalardan istifadə edilməsi (tədrisdə yenilikçilik, kreativ düşüncə tərzi);

4) tədris prosesinin tamlığına nail olunması (təhsil standartlarının təmin olunması);

5) özünüinkişaf meyli ilə özünütəhsil bacarıqlarının vəhdətinə nail olunması (özünütəkmilləşdirmə və özünüaktuallaşdırma bacarıqlarının olması) və s.

Xarakterik cəhət ondan ibarətdir ki, bu keyfiyyətlər vahid kontekstdə, bir-biri ilə əlaqədə, biri-digərini tamamlamaqla reallaşdıqda müasir müəllim modelini görmək olur. Burada müəllimin analitik təfəkkür nümayiş etdirə bilməsi, tədris prosesini proqnozlaşdırmaq, layihələşdirmək, yüksək təşkilatçılıq və idarəetmə bacarığına malik olması xüsusi əhəmiyyət kəsb edir.

Bütün bunlar və bunlardan doğan bir sıra keyfiyyətlər müasir müəllimi peşəsinin fövqündə durmağı təmin edən çox mühüm amillərdir. Heç kəsə sirr deyildir ki, istər orta məktəblərdə, istərsə də təhsilin yuxarı pillələrində öz işinin əsl ustası olan, yaradıcı, müəllimliyin şərəfini hər şeydən uca tutan, təhsilalanların sevimlisi olan müəllimlərlə yanaşı, müəllimliyi maaş almaq xatirinə edən, fəaliyyətini yalnız dərs deməklə məhdudlaşdıran, öz üzərində işləməyən müəllimlər də az deyildir. Təhsilin müasir inkişaf tendensiyaları, məktəbin və müəllimin qarşısında duran hazırkı və perspektiv tələblər belə müəllimləri təbii ki, qəbul edə bilmir. Buna görə də müəllimlərin attestasiyası, serifikatlaşdırılması, əvvəllər

mövcud olan ixtisasartırma kurslarının bərpa olunması, müəllimlərin vaxtaşırı olaraq yeniliklərlə tanış etdirilmələri günümüzün aktual problemlərindən birinə çevrilir. Qeyd edək ki, müxtəlif QHT-nın və ya şəxslərin 3-5 günlük təşkil etdilkəri və bəzi müəllimlərin sertifikatlar xatirinə iştirak etdikləri qısamüddətli təlimlər çox vaxt müəllimlərin fəaliyyətinə bir o qədər də yeniliklər gətirə bilmir və nəticələr praktik fəaliyyət üçün heç də əhıəmiyyətli olmur. Buna görə də hazırda belə təlimlərin və qısamüddətli kursların özlərinin də təkmilləşdiriməsinə böyük ehtiyac vardır.

Müəllimlərin peşəkarlıq və səriştəlilik keyfiyyətləri ilə təhsilalanların təhsil naliyyətləri arasında düzmütənasiblik vardır. Peşəkarlıq və səriştəlilik yüksəldikcə bunların nəticəsi təhsilalanların nailiyyətlərində də özünü göstərə bilir. Buna görə də müasir müəlllimi xarakterizə edən keyfiyyətlər içərisində onun ozünün peşəkarlıq və səriştəliliyinin yüksəldilməsi qayğısına qalması mühüm yerlərdən birini tutur. Bunun üçün işlədiyi təhsil müəssisəsindən asılı olaraq müəllimlərin özlərində aşağıdakı bir sıra keyfiyyətlərin formalaşdırılmasına nail olması olduqca əhəmiyyətlidir:

1.Pedaqoji intellektə malik olmaq.

2. Peşəkar fəaliyyətində innovasilara nail olmaq, yeniliklərə canatma.

3. Peşə səriştəliliyinə malik olmaq, hər növ pedaqoji situasiyalara səriştəli yanaşma.

4. Özünəməxsus tərzlərə malik olmaq, müəllif texnologiyalarına yiyələnmək.

5. Pedaqoji əməyə yaradıcı yanaşa bilmək.

Bunlarla yanaşı, müəllim ilk növbədə öz peşəsinə və ixtisasına, pedaqoji işə həm nəzəri, həm də praktik cəhətdən istiqamətli şəxs olmalıdır. Yəni, müəllimlik onun arzusunda olduğu peşə olmalı və bir peşəkar kimi pedaqoji işə hazır olmalıdır. Həmçinin:

1) yüksək nəzəri hazırlığı ilə seçilməli, təkcə öz ixtisasını deyil, cəmiyyətin sosial-siyasi və mədəni inkişafını izləməli, yeniliklərdən xəbərdar olmalıdır;

2) müntəzəm olaraq ixtisası sahəsində özünütəhsillə məşğul olmalı, pedaqogika, psixologiya və texnoloji yenilikləri öz

fəaliyyətinə gətirə bilməlidir;

3) peşəkar inkişafa nail olmalı, öz potensialından istifadə etməyi bacarmalıdır;

4) humanist şəxs olmalıdır;

5) əlverişli pedaqoji texnikalardan istifadə edə bilməlidir;

6) ünsiyyət ustalığına malik olmalı və pedaqoji mədəniyyətə yiyələnməlidir və s.

Müasir müəllim səriştəli müəllimdir, novatordur. Qabaqcıl pedaqoji təcrübədən ustalıqla, məharətlə istifadə edə bilən müəllimdir. Müxtəlif pedaqoji problemləri, qarşılaşdığı pedaqoji və psixoloji maneələri özünün eridusiyası, peşəkarlığı, pedaqoji məharəti ilə əlverişli metodlardan və tərzlərdən istifadə edərək həll etməyi bacaran müəllimdir. Onun keçdiyi dərslər, məşğələlər təhsilalanlar üçün həmişə maraqlıdır və yeniliklərlə zəngindir. Təhsilalanlar onun dərsinə həvəslə, həmişə hazırlıqlı gəlirlər və özlərini çox rahat hiss edirlər. Onlar passiv dinləyici, müşahidəçi deyil, fəaldırlar, daim axtarışdadırlar. Sinif otağı sanki bir pedaqoji laboratoriyanı xatırladır.

Yaxşı müəllimi xarakterizə edən keyfiyyətlər içərisində ABŞ Mərkəzi Təhsil Departamentinin irəli sürdüyü aşağıdakı keyfiyyətlər də maraqlıdır:

1. Həyat təcrübəsinə malikdir.
2. Hər şagirdin nə ilə motivasiya olunduğunu hiss edə bilir.
3. Bir qəhrəman deyildir, insandır.
4. Müasir texnologiyaya tam hakim olmasa da, öyrənməyə daim meyillidir.
5. Şagirdlərinə riskli olmağı öyrədə bilir.
6. Rəhbərliyin nə düşünəcəyi haqqında o qədər də narahat olmadan öyrənənlər üçün xeyirli olanları edir.
7. Özünə güvənli olduğunu göstərə bilir.
8. Önəmli olan hissələrə diqqətini yönəldə bilir.
9. Özünüdərk və özünütəhsili mühüm səriştə kimi qiymətləndirir.
10. Özünütəkmilləşməyə səy göstərir (6).

Beləliklə, nəticə olaraq demək olar ki, müasir müəllimi xarakterizə edən müsbət keyfiyyətlər olduqca çoxdur və bunların

hamısı təhsilin şəxsiyyətyönəlişliyini və nəticəyönümlülüyünü təmin etmək baxımından əlverişlidir, faydalıdır. Yetər ki, müəllimlər öz fəaliyyətlərində bunları tətbiq etməyə maraqlı öz işlərini sevən müəllimlər olsunlar.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013.
2. İlyasov M. Müasir müəllim modeli və onun əsas parametrləri. //Pedaqoji Universitetin Xəbərləri, 2018, № 4, səh. 284-292.
3. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil, 2018.
4. Müəllimlərin Etik Davranış Qaydaları. Bakı: 2014.
5. http://www.fill:IIIC:/users/toshiba//.


# İNSAN VƏ ONUN İNKİŞAFI İLƏ BAĞLI KONSEPTUAL YANAŞMALAR


***prof. Məcid Abdulla oğlu İsmixanov***
***p.ü.f.d. Vəfa Məsim qızı Çıraqova***
***BDU, Pedaqogika kafedrası***
***m.ismixanov@mail.ru***
***chiraqova@gmail.com***


İnsan və onun inkişafı ilə bağlı tarixən müxtəlif konseptual yanaşmalar mövcud olmuşdur. Fəlsəfi, sosial və pedaqoji ədəbiyyatda (Podlasıy İ., Rüstəmov F., Hüseynzadə R. və b.) onlar üç istiqamətdə qruplaşdırılır: bioloji, sosioloji və biososial konsepsiyalar.

Bioloji konsepsiya nümayəndələri (Z.Freyd və b.) insanı sırf bioloji (təbii) varlıq kimi dəyərləndirir, onun inkişafını anadangəlmə (irsi) imkanlarla izah edirlər. Freydin təliminə görə, insanın davranışı irsən özü ilə gətirdiyi bioloji imkan və instinklərdən asılıdır. İnsanın davranışı iki prinsipə: a) zövq və ya həzzalma, b) cəmiyyətin tələblərinə müvafiq «reallıq prinsipi»nə tabe edilir.

Bioloji inkişaf üç istiqamətdə gedir:

- morfoloji inkişaf (boy, çəki, həcm və s.);
- biokimyəvi inkişaf (sümük, əzələ və s.);
- fizioloji inkişaf (sinir sistemi, qan dövranı və s.).

Bu inkişaf istiqamətləri kompleks halda orqanizmin normal inkişafı üçün mühüm şərtdir, amma onun sosial inkişafını təmin etmir.

Sosioloji konsepsiya nümayəndələrinə görə, insan bioloji varlıq (fərd) kimi doğulur, həyatda sosial mühitin - ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşır. İnsanın sosial inkişafı onun cəmiyyət həyatına daxil olması ilə başlayır.

Sosioloji konsepsiyaya görə, insanın sosial inkişafı üç istiqamətdə gedir:

- psixoloji inkişaf (yaddaş, təfəkkür, iradə və s.);
- mənəvi inkişaf (əxlaqi, estetik keyfiyyətlər və s.);
- intellektual inkişaf (biliklər, bacarıqlar, dünyagörüşü və s.).

Sosial konsepsiyaya görə, insanın keyfiyyətləri, qabiliyyət və xasiyyətləri anadangəlmə deyil, sosial və mədəni inkişaf nəti-cəsində yaranır; o, şüurlu fəaliyyət göstərir və ictimai münasibətlərə daxil olur. Bəziləri (C.Mid və b.) insanın sosial inkişafının əsas mexanizmini onun düşdüyü şəraitlə, oynadığı rolla izah etməyə çalışırlar.

Biososial konsepsiya insanın inkişafında həm bioloji, həm də sosial amilləri vəhdətdə götürür. Bu konsepsiyaya görə, psixi proseslərin (duyğu, qavrayış, təfəkkür və s.) bioloji təbiəti olsa da insan şəxsiyyət kimi sosial mühitdə, münasibətlərdə formalaşır. O, hazır qabiliyyət və xüsusiyyətlə doğulmur, onun irsən gətirdiyi əlamətlər sonrakı inkişaf üçün ancaq imkan rolunu oynayır.

Müasir pedaqogika insana inkişafda, dinamikada olan tam bir sistem kimi baxır. Bu inkişafda sosial və bioloji xüsusiyyətlər ayrılmazdır. Şəxsiyyət ictimai həyatın məhsulu olmaqla həm də canlı orqanizmdir.

Şəxsiyyətin ahəngdar inkişafı tərbiyənin başlıca məqsədidir. Bəs, şəxsiyyətin inkişafı nə deməkdir? Buraya hansı amillər təsir edir? Nə üçün həyatda bir-birinə daxilən tam bənzər iki insan tapmaq olmur?

Bu sualların düzgün həlli problemin mahiyyətini başa düşməkdə mühüm əhəmiyyətə malikdir.

Şəxsiyyət dedikdə, müəyyən sosial keyfiyyətlərə, mənlik hissinə malik olan şüurlu və fəal fərd başa düşülür. İnsan fərd (bioloji varlıq) kimi doğulur, sonradan müxtəlif amillərin təsiri ilə şəxsiyyətə çevrilir.

Şəxsiyyətin inkişafı dedikdə, insanın müəyyən keyfiyyətlərə (zehni, psixi, mənəvi, əmək, fiziki və s.) yiyələnməsi və özünü təkmilləşdirməsi başa düşülür. Şəxsiyyət birdən-birə formalaşmır; o, müəyyən səviyyələrdən (aşağı, orta, yüksək, ideal səviyyə) keçir. Psixoloqlar 3-5 yaşlı uşaqların da şəxsiyyətin müəyyən keyfiyyətlərinə malik olduğunu qeyd edirlər.

Şəxsiyyətin inkişafına dair iki baxış mövcuddur: metafizik və dialektik baxış. Bu baxışlar bir-birindən iki göstəriciyə görə fərqlənir: 1) inkişaf nədir? 2) inkişafın mənbəyi (səbəbi) nədən ibarətdir? Metafizik baxış inkişafı mexaniki proses kimi başa düşür: ona kəmiyyət dəyişməsi kimi baxır, inkişafın mənbəyini isə genetik proqramda axtarır, yəni insan hansı genetik proqramla doğulursa, o cür də inkişaf edəcək.

Dialektik baxış isə şəxsiyyətin inkişafına kəmiyyət dəyişmələrindən keyfiyyət dəyişmələrinə keçid kimi yanaşır, inkişafın mənbəyini ziddiyyətlərin həlli prosesi ilə bağlayır. Dialektik baxışa görə, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsini ziddiyyətlərin yaranması və həlli təşkil edir. Əsas daxili ziddiyyət insanın tələbatları ilə imkanları arasındakı ziddiyyətdir. İnsan öz ehtiyacını (tələbatını) ödəmək üçün bütün imkanlarını (biliyini, bacarığını, iradi qüvvəsini və s.) səfərbərliyə alır və nəticədə tələbatını ödəyir. Bu prosesdə öz inkişafında irəliyə doğru müəyyən addım atır – bu və ya digər keyfiyyətə yiyələnir. Beləliklə, ziddiyyət həll olunur. Lakin insan yeni-yeni tələbatlarını ödəmək zərurəti qarşısında qalır, yeni ziddiyyətlərlə qarşılaşır və onların həlli üçün yeni vasitələrə (biliyə, bacarığa) yiyələnir. Hər dəfə ziddiyyət həll olunduqca şəxsiyyətin inkişafında yeni cəhətlər, xüsusiyyətlər, keyfiyyətlər əmələ gəlir. Bu zəmində insan tədricən həyatı, başqa adamları, özünü dərk edir, yeni təsəvvürlərə yiyələnir. Onun sərvət

meylləri, dünyagörüşü, münasibətlər sistemi formalaşır, ideya-mənəvi keyfiyyətləri inkişaf edir.

İnsan şəxsiyyəti müxtəlif amillərin nəticəsində formalaşır. Şəxsiyyətin formalaşmasına təsir edən amillər çoxcəhətlidir: onlar daxili və xarici, təbii və ictimai, subyektiv və obyektiv, planlı və kortəbii olur.

Bəs, şəxsiyyətin inkişafına təsir göstərən amillərdən hansı əsasdır, həlledicidir? Bu sualla əlaqədar şəxsiyyətin inkişafına dair müxtəlif nəzəriyyələr meydana gəlmişdir. Şəxsiyyətin inkişafında hansı amillərə üstünlük verilməsindən asılı olaraq həmin nəzəriyyələri bir neçə qrupa bölmək olar:

1. Bioloji amilin roluna üstünlük verən nəzəriyyələr. Orta əsrlərdə mövcud olan "irsiyyət" nəzəriyyəsi, XIX əsrin sonlarında mövcud olan "biogenetik" nəzəriyyə şəxsiyyətin inkişafında irsiyyət amilini əsas götürür. Guya insan hazır qabiliyyət və xasiyyətlə doğulur. Bəzi alimlər – E.Torndayk, C.Dyui (ABŞ) qabiliyyətlərin göz və qulaq kimi insana genlər vasitəsilə hazır verildiyini qeyd edirlər.

Dinin «qismət» nəzəriyyəsi də bu mövqedən çıxış edir: guya insanın taleyi doğularkən onun alnına yazılır: yazılanı isə pozmaq olmaz; heç kəs qismətdən artıq yeyə bilməz. "Ot kökü üstə bitər", "Qozbeli qəbir düzəldər" ifadələri də irsiyyətin rolunu şişirtməyə, tərbiyə və mühitin rolunu inkar etməyə yönəlmişdir. Görkəmli filosof, əxlaq nəzəriyyəçisi N.Tusi xasiyyətin fitriliyini qəbul edən alimlərə etiraz edərək göstərirdi ki, əgər xasiyyət fitri olsaydı, ağıllı adamlar öz uşaqlarının tərbiyəsini məsləhət görməzdilər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana gəlmiş bəzi nəzəriyyələrdə də irsiyyət həlledici amil kimi irəli sürülür. "Biheviorizm", "Freydizm", "İrqçilik" və "Elita" nəzəriyyələri məhz bu mövqedə durmuşlar. Onlar insanların zehni, mənəvi, sosial fərqlərini onların təbiəti ilə - irsi amillərlə izah edirlər.

2. Tərbiyənin roluna üstünlük verən nəzəriyyələr. Y.A.Komenski (XVII əsr), K.A.Helvetsi (XVIII əsr) tərbiyənin roluna böyük qiymət vermişlər. Y.Komenskiyə görə, insan tərbiyə sayəsində insan olur. O, "hamıya hər şeyi öyrətməyin" mümkün olduğunu qeyd edirdi. Fransız materialisti K.Helvetsi də tərbiyənin

rolunu şişirdirdi. O deyirdi: “Tərbiyə hər şeyə qadirdir”. Onun fikrincə, insanların xarakterindəki və zehni inkişafındakı fərqlər tərbiyənin nəticəsidir. N.Tusi də tərbiyənin, tərbiyəçinin roluna yüksək qiymət verərək deyirdi ki, varlıqları ən aşağı dərəcədən kainatın ən şərəfli mərtəbəsinə qaldıran sənətdən daha şərəflisi nə ola bilər?!

3. Mühitin roluna üstünlük verən nəzəriyyələr. J.J.Russo “Azad və təbii tərbiyə” nəzəriyyəsi (XVIII əsr) ilə bu mövqedə durmuşdur. Onun fikrincə, tərbiyə üç mənbədən – təbiətdən, insanlardan və ətraf mühitdən alınır.

4. Mühit və tərbiyənin roluna üstünlük verən nəzəriyyələr. C.Lokk “Ağ lövhə” nəzəriyyəsi ilə (XVII əsr) məhz bu mövqedən çıxış edirdi: guya insan “ağ lövhə” kimi doğulur, yəni özü ilə heç nə gətirmir, bütün keyfiyyətləri sonradan tərbiyə və mühitin təsiri ilə qazanır. Bu nəzəriyyə şəxsiyyətin inkişafında bioloji amili inkar edirdi. Rus inqilabçı-demokratı V.Q.Belinski irsiyyətin rolunu inkar etməyin əleyhinə çıxırdı. O deyirdi ki, körpənin ruhu üzərində istənilən şeylər yazıla bilən “ağ lövhə” deyildir; o, elə bir toxumdur ki, ondan ağac ola bilər, elə bir imkandır ki, ondan adam ola bilər. Palıd ağacından alma yetişdirmək olmaz, çünki onda belə imkan yoxdur. Lakin meşədə cır alma ağacında dadlı almalar yetişdirmək olar.

5. İrsiyyət və tərbiyənin roluna üstünlük verən nəzəriy-yələr. Fransız filosofu D.Didro (XVIII əsr), İsveçrə pedaqoqu İ.Pestalotsi (XVIII-XIX əsrlər) bu mövqedən çıxış etmişlər. D.Didro Helvetsinin “Tərbiyə hər şeyi həll edir” tezisinə qarşı çıxaraq deyirdi: “Tərbiyə hər şeyə yox, çox şeyə qadirdir”. Onun fikrincə, tərbiyə insanın təbii qüvvələrinə istinad etməlidir: tərbiyə yolu ilə insanın müsbət təbii imkanlarını inkişaf etdirmək, mənfilərin isə qarşısını almaq olar.

İ.Pestalotsi insanın təbii qüvvələrini (irsi imkanlarını) mütləqləşdirməyin (J.J.Russonun “Təbii tərbiyə” nəzəriyyəsində olduğu kimi) əleyhinə çıxırdı. Təbii imkanlar özlüyündə, tərbiyə-nin iştirakı olmadan inkişaf edə bilməz: özbaşına buraxılmış, kortəbii inkişaf edən insan (J.J.Russonun “Azad tərbiyə” nəzəriyyəsində olduğu kimi) ahəngdar şəxsiyyət kimi formalaşa bilməz, onun təbii qüvvələri lazımi dərəcədə inkişaf etməz.

6. İrsiyyət və mühitin roluna üstünlük verən nəzəriyyələr. "İki amil" nəzəriyyəsi (XIX əsr) bu mövqedə durmuşdur: guya hər şey insanın irsiyyətindən və düşdüyü mühitdən asılıdır. Sonrakı dövrlərdə irəli sürülən bəzi nəzəriyyələr də - "Konvergensiya" nəzəriyyəsi (J.Piaje, Ştern), "İstedadlılıq" nəzəriyyəsi (Q.Ayzek, Qrey) irsiyyət və mühitin rolunu şişirdir, tərbiyənin rolunu inkar edirdi. Hətta bəziləri genlərin təsir faizini rəqəmlə göstərməyə cəhd etmişlər: guya şəxsiyyətin zehni inkişafı 80% genlərin, 20% isə mühitin təsiri ilə formalaşır (Q.Ayzek).

Qeyd etdiyimiz nəzəriyyələr şəxsiyyətin formalaşması məsələsinə birtərəfli yanaşmış, bu prosesə təsir göstərən amillərdən ya birini, ya da ikisini qəbul edərək digərlərinin rolunu inkar etmiş və ya məhdudlaşdırmışlar. Bu nəzəriyyələrdə habelə şəxsiyyətin özünün fəallığı qiymətləndirilməmişdir.

7. Bioloji və sosial amilləri, eləcə də insanın şəxsi fəallığını vəhdətdə götürən nəzəriyyə. Dialektik nəzəriyyə (XX əsr) məhz bu mövqedə durur. Bu nəzəriyyəyə görə, şəxsiyyətin inkişafında irsiyyət amili müəyyənedici, sosial amillər isə həlledici rol oynayır. İrsiyyətin müəyyənedici rolu onunla əlaqədardır ki, irsi imkanlar tərbiyə və mühitin iştirakı olmadan öz-özünə inkişaf edib qabiliyyətlərə çevrilə bilməz. Tərbiyə və mühit insanın təbii imkanlarını üzə çıxarıb inkişaf etdirə də bilər, onların inkişafına mane ola da bilər. Buna görə də hər bir uşağın təbii imkanlarını vaxtında (kiçik yaşlardan) üzə çıxarmaq və onların inkişafı üçün əlverişli şərait yaratmaq lazımdır. Əks halda cəmiyyət bir çox istedadlardan məhrum ola bilər.

Dialektik nəzəriyyə şəxsiyyətin inkişafında insanın şəxsi fəallığının da rolunu qəbul edir. İnsan mühitin və tərbiyənin passiv obyekti deyildir; o, mühitə fəal təsir göstərə bilər. Şəxsiyyətin formalaşmasında tərbiyə ilə yanaşı, insanın özünütərbiyəsi də mühüm şərtdir.

İnsan şəxsiyyətinin inkişafında bioloji və sosial amillərin rolunu toxumun cücərib inkişaf etməsi ilə müqayisə etsək, irsiyyəti toxuma, mühiti onun inkişafı üçün zəruri olan münbit torpağa və iqlimə, tərbiyəni isə bağbanın işinə bənzətmək olar ("Tərbiyə" ərəbcə "bəsləmək", "yetişdirmək" deməkdir).

İnsan mühit və tərbiyənin passiv obyekti kimi yox, fəal

subyekti kimi çıxış edir; mühitə və tərbiyə prosesinə, özünün şəxsiyyyət kimi formalaşmasına fəal təsir göstərir. Tərbiyə uşaq və yeniyetmələri ancaq obyekt kimi qəbul edərsə, çox şeydən məhrum olar, öz məqsədinə çata bilməz. Tarixən tərbiyə işində insana münasibətdə bir-birinə zidd baxışlar olmuşdur. Orta əsrlərdə tərbiyəyə insanı idarə etmək vasitəsi kimi baxılırdı: uşaq qoyulmuş qaydalara, verilən tələblərə sadəcə tabe olmalı idi. Belə tərbiyə avtoritar tərbiyə adlanırdı. Onun əsas vasitəsi tələb, qadağa, nəzarət, qorxu, cəza idi. Sonralar bu yanaşmanı alman pedaqoqu İ.Herbart (XIX əsr) davam etdirmişdi. Bu halda uşaq tərbiyənin sadəcə obyekti kimi çıxış edir; özü heç bir təşəbbüs, fəallıq göstərmirdi.

Kapitalizmin inkişafı ilə əlaqədar tərbiyəyə baxış dəyişdi. Uşağa tam sərbəstlik vermək, hərəkət və davranışını müstəqil seçmək imkanı verildi. Azad tərbiyə ideyasını irəli sürən fransız filosofu və pedaqoqu J.J.Russo deyirdi ki, insan azad doğulur, azad da yaşamalıdır. Bu ideyanı sonralar Rusiyada L.N.Tolstoy müdafiə etmiş, hətta işlədiyi Yasnaya Polyana məktəbində tətbiq etmişdi. Lakin müəyyən təcrübə qazandıqdan sonra belə qərara gəlmişdi ki, uşağa tam sərbəstlik yox, müəyyən çərçivədə sərbəstlik vermək lazımdır.

Tərbiyəyə müasir baxış həm avtoritar, həm də sərbəst tərbiyəni inkar edir: birinci halda tərbiyə insanı obyekt kimi qəbul edir, fəallığını məhdudlaşdırırsa, ikinci halda ifrat sərbəstliyə gətirib çıxarır. Tərbiyə insana müəyyən sərbəstlik verməklə ağıllı pedaqoji rəhbərliyi uzlaşdırmalı, onun fəallığı üçün şərait yaratmalıdır. Şəxsiyyətin inkişafına dair dialektik nəzəriyyə məhz bu mövqedən çıxış edir. İnsanın şəxsiyyət kimi inkişafında tərbiyə və mühitlə yanaşı özü də fəallıq göstərməli, müxtəlif fəaliyyət növlərində – əmək, idman, oyun, zehni, mənəvi, estetik, ictimai, sosial, təşkilatçılıq fəaliyyətində iştirak etməklə özünün ahəngdar şəxsiyyət kimi inkişafını təmin etmək imkanı qazanır.

Əməkdə iştirak etməklə insan bir çox keyfiyyətlərə yiyələnir: o, əməyə alışır, əmək vərdişləri qazanır, iradəcə möhkəmlənir, tənbəllikdən, bekarçılıqdan, başqalarına möhtac olmaqdan, pis təsirlər altına düşməkdən uzaqlaşır, onda şəxsi ləyaqət hissi, məmnunluq hissi, başqalarına, ehtiyacı olanlara, cəmiyyətə, xalqa

fayda verməklə xoşbəxtlik hissləri formalaşır. Əmək rahat yaşayışın, sərbəstliyin açarıdır.

Digər fəaliyyət sahələri də böyük tərbiyə imkanlarına malikdir. Məsələn, oyun və idman insanın iradəsini möhkəmlədir, onda kollektivçilik, yoldaşlıq, dostluq, intizam tərbiyə edir. İctimai iş, fəaliyyət insanda məsuliyyət, dəqiqlik, fəallıq, təşkilatçılıq keyfiyyətləri aşılayır. Buna görə də uşaq, yeniyetmə və gəncləri müxtəlif fəaliyyət növlərinə cəlb etmək, bu yolla onlarda düzgün davranış, ünsiyyət təcrübəsi formalaşdırmaq lazımdır.

Həyatının ayrı-ayrı sahələrində fəallıq göstərən, verilən tapşırıqları vaxtında və yüksək səviyyədə yerinə yetirən uşaq və gənclər çətinliklərdən qorxmur, ən çətin işlərin öhdəsindən gəlir, gördüyü işlərə məsuliyyətlə yanaşır, öz işindən həzz alır, ətrafındakı adamların hörmətini qazanır. Eyni ailədə iki uşaqdan biri tapşırılan işləri vaxtında və lazımi səviyyədə görür, digəri isə əməkdən yayınır, yaxud tənbəllik edib iş görmürsə onların tərbiyəsində, xarakter və işə münasibətində fərqli cəhətlər özünü göstərir. Tədricən birində əməksevərlik, intizam, məsuliyyət hissləri, digərində isə ona əks keyfiyyətlər – tənbəllik, intizamsızlıq, məsuliyyətsizlik kimi keyfiyyətlər formalaşır. Getdikcə bu keyfiyyətlər inkişaf edib möhkəmlənir, xarakter əlamətinə çevrilir. Bunu nəzərə alaraq valideyn, müəllim və tərbiyəçilər kiçik yaşlardan uşaqları əməyə və digər fəaliyyət sahələrinə cəlb etməli, onlarda fəal həyat mövqeyinin formalaşmasına çalışmalıdırlar.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Təhsil standartları. B., 2000.
2. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. B., 2001.
3. Abbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxəbat. B., Mütərcim, 2021.
4. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. B., 2013.
5. Hüseynzadə R.L., Məmmədov T. Pedaqogika. B., 2015.
6. İlyasov M., Nəzərov M. Didaktika. Dərs vəsaiti. B., 2015.
7. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (Dərslik). B., Ekoprint, 2021.

8. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2022.
9. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). B., 2002.
10. Veysova Z. Fəal (interaktiv) təlim. B., 2007.

## PEDAQOJİ PROSES VƏ ONUN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

***prof. Məcid Abdulla oğlu İsmixanov***
***müəl. Cəmilə Sahib qızı Hüseynova***
***BDU, Pedaqogika kafedrası***
***m.ismixanov@mail.ru, camilahuseynova@bsu.edu.az***

Pedaqoji proses dedikdə, şəxsiyyətin tərbiyəsi, təhsili, təlimi və inkişafı ilə bağlı aparılan bütün məqsədyönlü, planlı və mütəşəkkil işlər nəzərdə tutulur.

Pedaqoji proses – tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı proseslərinin məcmusudur. O, göstərilən proseslərin mexaniki birləşməsi kimi yox, onların vəhdəti, qarşılıqlı əlaqəsi kimi başa düşülür.

Pedaqoji prosesin özünəməxsus səciyyəvi cəhətləri vardır. Onlara aşagıdakılar daxildir:

a) pedaqoji proses tam, bütöv sistemdir: Pedaqoji prosesin tamlığı onun tərkib hissələrinin vəhdətində özünü göstərir;

b) pedaqoji prosesin obyekti və subyekti də vəhdət təşkil edir;

c) pedaqoji proses daim inkişaf edən, dinamik sistemdir. Nəticədə gənc nəslin tərbiyəsi, təlimi, inkişaf səviyyəsi dəyişir, təkmilləşir.

ç) pedaqoji proses ümumi səciyyə daşıyır. Bu isə özünü ümumi məqsəd və qanunauyğunluqlarda, ümumi metod və formalarda göstərir.

Bu xüsusiyyətləri ayrılıqda nəzərdən keçirək.

Pedaqoji proses tam və bütöv sistem kimi. Pedaqoji prosesin müxtəlif sahələri – tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı bir-birilə sıx vəhdət təşkil edir, bir-birini tamamlayır. Təlim və təhsil şəxsiyyətin tərbiyəsinə, ümumi və psixi inkişafına güclü təsir

göstərir. Tərbiyə və inkişaf prosesi isə, öz növbəsində, təlim və təhsil prosesinə – şagirdin zehni işdə daha səylə çalışmasına, fəallığına, borc və məsuliyyət hissinin güclənməsinə kömək edir. Pedaqoji prosesin tərkibinə daxil olan sistemlər alt sistemləri təşkil edir. Onlardan əlavə müəllim və şagird münasibətləri, əməkdaşlığı, pedaqoji prosesin şəraiti, istifadə olunan metod, forma və vasitələr, məktəb, ailə və ictimaiyyətin əlaqəsi və s. ümumi pedaqoji sistemin alt sistemləri kimi çıxış edir. Pedaqoji sistemə daxil olan bütün alt sistemləri ümumi məqsəd ətrafında birləşərək son nəticənin əldə edilməsinə yönəlir. Onlar bir-birilə qarşılıqlı əlaqə və asılılıqda olur: bir-birini tamamlamağa yönəlir. Məsələn, məktəblini pedaqoji prosesin müxtəlif sahələrinə – zehni, mənəvi, fiziki, əmək, bədii yaradıcılıq fəaliyyətinə kompleks şəkildə cəlb etməklə nəinki bütövlükdə pedaqoji sistemin, həm də onun ayrı-ayrı elementlərinin səmərə və keyfiyyətinə əlverişli şərait yaranacaqdır.

Bu da onunla bağlıdır ki, real həyatda insan şəxsiyyəti hissə-hissə formalaşmır. Məsələn, o, əvvəlcə fiziki, sonra zehni, daha sonra mənəvi cəhətdən inkişaf etmir. Bu proses bir-birilə vəhdətdə həyata keçirilir. Uşaq və ya gənc bu sahələrdən ancaq birinə (məsələn, musiqi və ya idmana) aludə olduqda onun inkişafı hərtərəfli yox, birtərəfli istiqamət ala bilər.

Pedaqoji proses qarşılıqlı əlaqə və asılılıqda olan müxtəlif proseslərin məcmusudur. Lakin bu heç də prosesə daxil olan alt sistemlərin mexaniki birləşməsi demək deyildir; onlar vahid məqsədə tabe olur və aralarında qarşılıqlı münasibətlərin dialektikası özünü göstrir. Bu dialektika prosesə daxil olan sistemlərin vəhdəti və tabeçilik asılılığında, onlar üçün ümumi və spesifik cəhətlərin qorunub saxlanmasında mühüm rol oynayır.

Pedaqoji prosesin ayrı-ayrı tərkib hissələrinin, məsələn, təlim, tərbiyə və şəxsiyyətin psixi inkişafının spesifikliyi onların hər birinin əsas funksiyalarında özünü göstərir. Təlim prosesinin əsas funksiyası öyrətmək, təhsilalma prosesinin əsas funksiyası təhsil almaq, tərbiyə prosesinin əsas funksiyası tərbiyə etmək, inkişaf prosesinin əsas funksiyası isə insanı inkişaf etdirməkdir. Lakin tam pedaqoji prosesin tərkib ünsürləri həm də digər funksiyaları da yerinə yetirir. Məsələn, təlim təkcə öyrətmə funksiyasını yox, həm də tərbiyə və

inkişafetdirici funksiyalarını, yaxud təhsil prosesi təhsilalma funksiyası ilə yanaşı, tərbiyə funksiyasını da həyata keçirir. Eləcə də təlim həm təhsilləndirici, həm tərbiyəedici, həm də inkişafetdirici, habelə nəzarətedici funksiyanı yerinə yetirir.

Təlim və tərbiyənin məqsədində məzmun və təşkili formalarındakı ümumilik pedaqoji prsesin tamlığına imkan verir. Təlimin təşkili formalarından hər birinin (dərsin, fakultativ məşğələlərin, təlim ekskursiyalarının, əlavə məşğələlərin, ev tapşırıqlarının, qeyri-standart dərs formalarının və s.) bilik və bacarıqlar aşılamaqla yanaşı, tərbiyə imkanları da böyükdür. Onların əlaqələndirilməsi və vahid məqsədin həyata keçirilməsi pedaqoji prosesin tamlığını gücləndirir və səmərəliliyini yüksəltməyə imkan verir.

Pedaqoji prosesin inkişaf dinamikası obyektlə subyekt arasında qarşılıqlı münasibətlərin xarakterindən də asılıdır. Pedaqoji prosesin obyektini ayrı-ayrı fərdlər (şagirdlər) və onların qrupları (sinif, məktəb kollektivi) təşkil edir. Pedaqoji prosesin subyekti kimi isə ayrı-ayrı şəxslər (müəllim, tərbiyəçi, valideyn və b.), habelə kollektiv orqanlar (pedaqoji şura, ictimai təşkilatlar, pedaqoji kollektiv və b.) çıxış edir. Pedaqoji prosesdə tərbiyənin obyekti eyni zamanda onun subyektinə çevrilə bilər. Bu cəhətin nəzərə alınmaması pedaqoji prosesdə ciddi qüsurlar doğura bilər (avtoritar tərbiyə, şəxsiyyətin passivliyi və s.).

Pedaqoji prosesdə obyekt və subyekt arasında daimi qarşılıqlı pedaqoji təsir baş verir. O, müxtəlif formalarda ola bilər; buraya məlumat, ünsiyyət, idarəçilik, təşkilati əlaqə, səbəb-nəticə əlaqəsi və s. daxildir.

Pedaqoji prosesin səciyyəvi cəhətlərindən biri də onun inkişafı, mütəhərrikliyidir. Bunun da sayəsində gənc nəslin tərbiyə, təhsil, təlim və inkişaf səviyyəsi dəyişir, təkmilləşir. Pedaqoji prosesin əsas hərəkətverici qüvvəsini şagirdlər qarşısında qoyulan tələblərlə onların bu tələbləri yerinə yetirmək üçün real imkanları arasındakı ziddiyyət təşkil edir. Bu ziddiyyət o zaman inkişafın mənbəyi olur ki, irəli sürülən tələblər şagirdlərin imkanlarına müvafiq gəlsin. Tərbiyəçinin vəzifəsi şagirdlərin və uşaq kollektivinin təlim-tərbiyə səviyyəsini öyrənməkdən, onlar qarşısında real tələblər qoymaqdan, şəxsiyyət və

kollektivin inkişaf perspektivlərini layihələşdirməkdən ibarətdir.

Pedaqoji prosesin quruluşu (komponentləri). Pedaqoji proses özünəməxsus strukturu (quruluşu) və struktur ünsürləri (komponentləri) olan mürəkkəb dinamik bir sistemdir. Bu komponentlərə məqsəd, məzmun, fəaliyyət və nəticə komponentləri daxildir. Onlar ciddi bir sistem təşkil edir. Komponentlərdən hər hansı biri (məsələn, fəaliyyət komponenti) düzgün planlaşdırılıb həyata keçirilməzsə, o, son nəticəyə mənfi təsir göstərəcəkdir.

Pedaqoji prosesdə əsas və həlledici komponent kimi, məqsəd çıxış edir. Hər hansı bir işi görərkən ilk növbədə onun məqsədini dəqiq müəyyənləşdirmək lazım gəlir. Çünki o, insanı əldə oluna-caq son nəticəyə istiqamətləndirir. Bunun da sayəsində görülən iş, fəaliyyət məqsədyönlü xarakter daşıyır. Təlim-tərbiyə prosesində bəzən bu vacib məsələyə lazımi diqqət yetirilmir: ya məqsəd düzgün müəyyənləşdirilmir, ya da o, unudulur; şagird və ya tələbə öz fəaliyyətini məqsədyönlü qura bilmir, məqsədə çatmaq üçün vacib olan əməliyyatları – vasitə və metodları düzgün seçib tətbiq etməkdə çətinlik çəkir, çox zaman kortəbii hərəkət edir.

Pedaqoji prosesin komponentlərini qısaca nəzərdən keşirək:

Məqsəd komponenti pedaqoji fəaliyyətin digər komponentlərin özündə birləşdirir, onları son nəticəyə yönəldir.

Məzmun komponenti qarşıya qoyulan məqsədə və vəzifələrə nail olmaq üçün hansı işin (işlərin) görüləcəyini əks etdirir.

Fəaliyyət komponenti görüləcək işin məqsəd və məzmununa uyğun olaraq zəruri olan vasitə, metod və formaları, texnologiyaları düzgün müəyyənləşdirib həyata keçirməyə, prosesin təşkilatı məsələlərini, o cümlədən müəllim və şagirdlərin qarşılıqlı təsirini, əməkdaşlığını, idarəetmə məsələlərini, bütövlükdə strategiyasını müəyyən edir.

Nəticə komponenti qarşıya qoyulmuş məqsədin nə dərəcədə əldə edildiyini, bu baxımdan pedaqoji prosesin səmərəliliyini əks etdirir.

Pedaqoji prosesin nəzərdən keçirilən komponentləri arasında əlaqələr mövcuddur. Qarşılıqlı pedaqoji təsir prosesində informasiya, təşkilati-fəaliyyət, kommunikativ, idarəetmə əlaqələri özünü göstərir. Belə əlaqələr bütövlükdə pedaqoji proses üçün mühüm əhəmiyyət

kəsb edir.

Pedaqoji prosesi səciyyələndirən cəhətlərdən biri də bu prosesdə ümumi məqsədin, qanunauyğunluq və prinsiplərin, forma və metodların olmasıdır.

Pedaqoji prosesin qanunauyğunluqları: Qanunauyğunluq dedikdə bu prosesə obyektiv şəkildə xas olan ümumi, mühüm, sabit və təkrarlanan əlaqələri – səbəb-nəticə asılılıqları başa düşülür.

Mövcud ədəbiyyatda pedaqoji prosesin aşağıdakı ümumi qanunauyğunluqları qeyd edilir:

1. Pedaqoji prosesin inkişafının bu prosesdə baş verən dəyişikliklərin kəmiyyətindən asılılığı: əvvəlki uğurlar nə qədər çox olarsa, ümumi uğur (nəticə) daha yüksək olar.

2. Pedaqoji prosesdə şəxsiyyətin inkişafının ona təsir edən amillərdən (irsiyyət, mühit, tərbiyə, təlim və s.) asılılığı.

3. Pedaqoji prosesin səmərəliliyinin onun idarə olunmasından (əks əlaqədən, təsirin xarakteri və gücündən) asılılığı.

4. Pedaqoji prosesin nəticəsinin stimullaşdırıcı metod və vasitələrdən (xarici və daxili stimullardan) asılılığı.

5. Pedaqoji prosesin səmərəliliyinin hissi və məntiqi idrakın, habelə praktikanın vəhdətindən (keyfiyyətindən) asılılığı.

6. Pedaqoji prosesin məhsuldarlığının stimullaşdırma vasitələrindən (daxili və xarici stimullar intensivliyi və xarakterindən, vaxtında tətbiqindən) asılılığı.

7. Pedaqoji prosesin cəmiyyətin və şəxsiyyətin tələbatlarından, imkanlarından və yaradılan şəraitdən (mənəvi-psixoloji, estetik və s.) asılılığı.

Əgər bu qanunauyğunluqlardan (eləcə də onları əks etdirən pedaqoji prinsiplərdən) hər hansı biri nəzərə alınmazsa, pedaqoji prosesi lazımi səviyyədə qurmaq olmaz.

Pedaqoji prosesdə mövcud olan qanunauyğun əlaqələr göstərilənlərlə məhdudlaşmır. Əslində onlar çoxdur və tədqiqatçılar yeni qanunauyğunluqları aşkar etmək istiqamətində axtarışlar aparırlar. Pedaqoji prosesin qanunauyğunluqları nə qədər çox öyrənilərsə və əməli fəaliyyətdə nəzərə alınarsa, təlim və tərbiyənin səmərəliliyi də bir o qədər yüksələ bilər.

Pedaqoji prosesin tamlığı onun qanunauyğunluqlarında ol-duğu

kimi, prinsiplərində də ifadə olunur.

Pedaqoji prosesin prinsipləri. Bununla bağlı pedaqoji ədəbiyyatda fərqli yanaşmalar vardır. Prof.B.Əhmədov pedaqoji prosesin qanunlarına müvafiq olaraq onun prinsiplərini üç qrupa bölür: a) pedaqoji prosesin ən ümumi prinsipləri; b) təlim prosesinin spesifik prinsipləri; c) tərbiyə prosesinin spesifik prinsipləri.

Pedaqodi prosesin ən ümumi prinsipləri bu prosesin ünsürlərini (məqsəd, məzmun, vasitə, metod və nəticəni), onların sistem və ardıcıllığını, əlaqə və asılılıqlarını nə ilə şərtləndiklərini əks etdirir. Ən ümumi prinsiplərə daxildir:

- pedaqoji prosesin daxili məntiqinin gözlənilməsi prinsipi;
- ümumi pedaqoji məqsədin sosial-ictimai məqsədlə şərtlənməsi prinsipi;
- məzmunun məqsəd tərəfindən şərtlənməsi prinsipi;
- vasitənin məzmun tərəfindən şərtlənməsi prinsipi;
- metodun vasitə tərəfindən şərtlənməsi prinsipi;
- nəticənin metod tərəfindən şərtlənməsi prinsipi;
- kompleks yanaşma prinsipi.

Pedaqoji prosesin bu ümumi prinsipləri prosesual səciyyə daşıyır; Yəni prosesə daxil olan ünsürlər, onların əlaqə və asılılıqlarını əks etdirir. Məsələn, metodla bağlı prinsip belə bir ardıcıllığı nəzərdə tutur: pedaqoji prosesin metodları vasitəyə uyğun seçilməli və tətbiq olunmalıdır. Metod vasitənin təbiətinə və tələblərinə nə qədər uyğun seçilib tətbiq edilərsə, əldə ediləcək səmərə də bir o qədər yüksək olar. Məqsəd-məzmun-vasitə-metod ardıcıllığındakı hər hansı sonrakı ünsür (komponent) özündən əvvəlkiləri də əks etdirir və onlarla şərtlənir. Bu halda qazanılan uğur metodun (metodların) düzgün seçilib tətbiq edilməsindən asılıdır. Əgər şagird (tələbə) fəaldırsa, deməli, müəllim (tərbiyəçi) fəal metodlardan istifadə etmişdir. Əks halda, şagird fəal olmazdı. Necə deyərlər, «məsul işlər tapşırılmadan məsuliyyət tərbiyə etmək olmaz».

Nəzərdən keçirilən prinsiplər pedaqoji prosesi düzgün təşkil etmək, onun sistemini, ünsürlərini müəyyənləşdirmək və idarə etmək baxımından əhəmiyyətlidir.

Pedaqoji proses prinsiplərinə digər yanaşmalarda daha çox (13-

21) ümumi prinsiplər irəli sürülmüşdür. Bu prinsiplər həm pedaqoji prosesin komponentlərinə, həm onun iştirakçıları olan subyekt və obyektlərin fəaliyyəti və qarşılıqlı əlaqəsinə, habelə pedaqoji prosesin şəraitinə, imkanlarına verilən tələbləri, başlıca ideyaları əks etdirməyə yönəlmişdir.

Pedaqoji ədəbiyyatda təlim və tərbiyənin qanunauyğunluqları, eləcə də prisnipləri, bir qayda olaraq, ayrılıqda nəzərdən keçirilir. Lakin son dövrlərdə (XX əsrin 80-90-cı illərindən başlayaraq) bütöv pedaqoji prosesin ümumi qanunauyğunluq və prinsiplərini müəyyənləşdirmək təşəbbüsləri olmuşdur (Y.K. Babanski, B.A.Əhmədov, N.İ.Kazımov və b.). Bu hal pedaqoji prinsiplərin ümumi qanunauyğunluqlar əsasında təsnif edilməsi ilə bağlı olmuşdur. Lakin bununla belə, təlim və tərbiyə prosesi üçün səciyyəvi olan məzmun, forma və metodların özünəməxsusluğundan çıxış edərək münasib qanunauyğunluq və prinsipləri konkretləşdirməyə, diferensasiya etməyə ehtiyac vardır.

Pedaqoji prosesdə istifadə olunan prinsiplər çoxdur. Onların bəziləri təlim, bəziləri isə tərbiyə prosesi üçün daha çox səciyyəvidir. Elə prisniplər də vardır ki, həm təlimdə, həm də tərbiyədə tətbiq olunur. Onlardan aşağıdakı prisnipləri göstərmək olar:

- pedaqoji prosesin tamlığı prinsipi;
- pedaqoji prosesin həyatla əlaqələndirilməsi prinsipi;
- insanın yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi;
- bilik, bacarıq və adətlərin möhkəmləndirilməsi prinsiri;
- məqsədyönlülük prinsipi;
- kompleks yanaşma prinsipi;
- fəallıq və şüurluluq prinsipi;
- sistematiklik və ardıcıllıq prinsipi;
- müvafiqlik prinsipi;
- optimallıq prinsipi.

Bu prinsiplərin hər biri təlim, tərbiyə və şəxsiyyətin inkişafı proseslərini vəhdət halında özündə birləşdirir. Pedaqoji prosesin tamlığı prinsipi bu prosesləri bir tam halında həyata keçirməyi nəzərdə tutur. Məsələn, təlim eyni zamanda bir neçə funksiyanı – təhsilverici, tərbiyə və inkişaftedirici funksiyaları yerinə yetirir.

Digər proseslər də həmçinin.

Pedaqoji prosesin həyatla əlaqəsi prinsipi həm təlim və təhsili, həm də tərbiyə və inkişaf proseslərini həyatla əlaqələndirməyi, ayrı-ayrı sahələrə tətbiq etməyi nəzərdə tutur; bununla da onların hər birinin səviyyəsi yüksəlir.

Uşaq və gənclərin yaş, fərdi və cinsi xüsusiyyətlərinin pedaqoji prosesdə düzgün nəzərə alınması təlimin, tərbiyə və psixi inkişafın vacib şərtini təşkil edir. Atalar demişkən, «Gücünə bax, şələni bağla».

Bilik, bacarıq və adətlərin möhkəmləndirilməsi pedaqoji prosesin komponentlərinin hər birinin vacib şərtini təşkil edir: təlimdə öyrənilən bilik və bacarıqlar, tərbiyədə davranış adətləri, psixi inkişafda yaradıcı təfəkkür vərdişləri çalışma və təkrarlar yolu ilə möhkəmlənir, həyata tətbiqi imkanları genişlənir. N.Tusiyə görə, «öyrənilənləri yaşatmaq gərəkdir».

Məqsədyönlülük prinsipi pedaqoji prosesin bütün ünsürləri üçün səciyyəvidir. İstər təlim, istərsə də tərbiyə və psixi inkişaf prosesi məqsədin müəyyənləşdirilməsindən başlayır. Düzgün məqsəd təlim-tərbiyə fəaliyyətini uğurla həyata keçirməyə və yüksək nəticə almağa kömək edir. Böyük tərbiyə ustası A.S. Makarenko göstərirdi ki, «biz qarşıya ümumi məqsəd qoymadan insanı sadəcə tərbiyə edə bilmərik». Bu hal pedaqoji prosesin digər sahələrinə də (təlim, təhsil və inkişafa) aiddir. Bütün sahələrdə qarşıya düzgün məqsəd qoyub, onun həyata keçirilməsi yollarını (məzmun, vasitə, metodları) müəyyən etməklə son məqsədə yönəltmək lazımdır.

Pedaqoji prosesin ümumi metodları və formaları fəaliyyətin tamlığı konsepsiyası baxımından müəyyən olunur. Bu metodlar həm təlim, həm də tərbiyə fəaliyyətində özünü göstərir:

- şəxsiyyətin ağlını, şüurunu formalaşdıran metodlar;
- zehni və mənəvi fəaliyyəti, ünsiyyəti və ictimai davranış təcrübəsini formalaşdıran metodlar;
- fəaliyyəti və davranışı stimullaşdıran və motivləşdirən metodlar;
- nəzarət, özünənəzarət və özünüqiymətləndirmə metodları.

Pedaqoji prosesin təşkili formalarında da ümumi cəhətlər özünü göstərir: həm təlim, həm də tərbiyə prosesində fərdi, qrup və

kollektiv formalar tətbiq olunur.

Pedaqoji prosesə xas olan ümumi cəhətlərlə yanaşı, bu prosesə daxil olan sahələrin spesifik cəhətləri, özlərinə məxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlərin nəzərə alınması təlim, təhsil, tərbiyə və şəxsiyyətin inkişafı proseslərini daha səmərəli təşkil etməyə imkan verir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Təhsil standartları. B., 2000.
2. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. B., 2001.
3. Abbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxəbat. B., Mütərcim, 2021.
4. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. B., 2013.
5. Hüseynzadə R.L., Məmmədov T. Pedaqogika. B., 2015.
6. İlyasov M., Nəzərov M. Didaktika. Dərs vəsaiti. B., 2015.
7. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (Dərslik). B., Ekoprint, 2021.
8. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2022.
9. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). B., 2002.
10. Veysova Z. Fəal (interaktiv) təlim. B., 2007.


## PEDAQOJİ SİSTEMİN YENİLƏŞMƏSİ VƏ OPTİMALLAŞDIRILMASI


***prof. Məcid Abdulla oğlu İsmixanov***
***dos. Rəfiqə Ələkbər qızı Bəxtiyarova***
***BDU, Pedaqogika kafedrası***
***m.ismixanov@mail.ru***


Pedaqoji sistemin yeniləşməsi (innovasiya). İnnovasiya (ingiliscə “innovation”) yenilik deməkdir və pedaqoji sistemin daxili ehtiyatları hesabına (in – daxili deməkdir) baş verir. Deməli, innovasiya dedikdə pedaqoji prosesin (təlim-təhsil, tərbiyə və psixoloji inkişafın) gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədi ilə pedaqoji sistemin daxili ehtiyatları hesabına həyata keçirilən

yenilik başa düşülür. Belə yeniliklər olmasa pedaqoji sistem dəyişməz qalar, inkişaf edib təkmilləşməz, cəmiyyətin artan tələblərinə lazımınca cavab verə bilməz. Nəticədə pedaqoji prosesin – təhsil və tərbiyənin səmərə və keyfiyyəti aşağı düşər.

Pedaqoji yeniləşmə iki yolla həyata keçirilir: intensiv və ekstensiv yolla. İntensiv (fransızca "intensif" – gücləndirmək) yol pedaqoji sistemin inkişafını daxili ehtiyatlar hesabına həyata keçirməyi nəzərdə tutur. Ekstensiv (latınca "ekstensivus" – genişləndirmək) yol isə pedaqoji sistemin təkmilləşdirilməsi, inkişafı üçün əlavə qüvvə və vasitələrin (investisiyaların), avadanlıq və texnologiyaların, kapital qoyuluşlarının və s. cəlb edilməsinə əsaslanır.

Pedaqoji ədəbiyyatda üçüncü bir yol da təklif olunur: intensiv və ekstensiv inkişaf yollarını birləşdirməklə pedaqoji sistemin səmərəliliyini artırmaq olar. Bu halda həmin sistemin potensial imkanlarını, istifadə olunmayan ehtiyatlarını diqqətlə öyrənib aşkara çıxarmaq və onlardan yararlanmaq lazım gəlir.

Pedaqoji prosesdə yeniləşmənin miqyasları müxtəlifdir:

- müəyyən bir metodu, formanı təkmilləşdirmək;
- yeni texnologiyaları tətbiq etmək;
- təhsil-tərbiyə sistemini yeniləşdirmək və s.

Pedaqoji sistemi yeniləşdirməyin başlıca istiqamətləri (obyektləri) kimi aşağıdakıları göstərmək olar:

- məktəbin demokratikləşdirilməsi;
- pedaqoji prosesin humanistləşdirilməsi;
- təhsil-tərbiyənin məzmununun yeniləşdirilməsi;
- təlim-tərbiyə prosesinin fərdiləşdirilməsi;
- yeni pedaqoji texnologiyaların tətbiqi;
- məktəbin idarə edilməsi sisteminin təkmilləşdirilməsi;
- əməkdaşlıq pedaqogikasının tətbiqi;
- inteqrasiyanın genişləndirilməsi;
- pedaqoji sistemin optimallaşdırılması;
- təlim və tərbiyə fəaliyyətinin motivasiyası;
- vaxt itkisinin aradan qaldırılması;
- "öyrənməyi öyrətmək" (şagirdlərə müstəqil öyrənmə vasitə və yollarının öyrədilməsi) və s.

Bu və ya digər istiqamətlərdə pedaqoji innovasiyalar həyata keçirmək üçün pedaqogikanın metodoloji əsasını yeniləşdirmək lazımdır. Bəzi metodoloji prinsiplər, məsələn, uşaqların irsən bərabər imkanlarla doğulması, təhsil-tərbiyə işində bərabər imkanlara malik olması və s. kimi qeyri-real metodoloji ideyalar pedaqoji təcrübədə özünü doğrultmur. Pedaqoqika nəzəriyyəsi və təcrübəsinin gələcək inkişaf yolu təhsilin, təlim-tərbiyə prosesinin fundamental əsaslarının düzgün müəyyənləşdirilməsindən, yeni nəzəriyyə və təcrübənin hansı metodoloji əsas üzərində qurulma-sından çox asılıdır.

Pedaqogikanın metodoloji əsasını yeniləşdirməklə yanaşı bu istiqamətdə digər şərtləri də nəzərə almaq vacibdir:

- yeni pedaqoji təfəkkürə yiyələnmək;
- dünya təhsilinə inteqrasiya etmək;
- elmi-tədqiqatların səmərəsini artırmaq;
- yeni elmi konsepsiyalar, nəzəriyyələr yaratmaq üzərində işləmək və s.

Pedaqogika elmi nəzəriyyələr sistemi olduğu üçün elmi prinsiplərə əsaslanmalıdır: obyektivlik, məqsədyönlülük, komplekslilik və s. onun əsas səciyyəvi xüsusiyyətlərini təşkil edir.

Pedaqoji sistemin optimallaşdırılması. Pedaqoji sistemin səmərə və keyfiyyətinin yüksəldilməsində təlim-tərbiyə prosesinin optimallaşdırılması mühüm əhəmiyyətə malikdir. Optimallaşdırma (latınca "optimum" - ən münasib, ən yaxşı) müəyyən meyarlar baxımından mümkün olan variantlardan ən münasibini, ən yaxşısını seçib tətbiq etmək deməkdir. Buna görə də hər bir sahədə (təlim və ya tərbiyə işində) görülcək işin səmərəliliyini qiymətləndirmək üçün vacib olan dəqiq və konkret meyarları müəyyənləşdirmək tələb olunur. Pedaqoji sistem kimi çətin, mürəkkəb və dinamik bir sahədə müəyyən məsələlərin (təlim, tərbiyə və inkişafla bağlı çoxsaylı vəzifələrin) həllində müxtəlif variantlar mümkündür. Onlardan ancaq birini seçib tətbiq etmək lazım gəlir. Optimallaşdırmanın vəzifəsi də elə bundan ibarətdir.

Bu məqsədlə konkret şərait üçün mümkün olan variantları ayırıb müqayisə etmək və alternativləri qiymətləndirmək tələb olunur. Həm də nəzərə almaq lazımdır ki, seçilən variant qarşıya qoyulan məqsədə və konkret şəraitə uyğun gəlsin. Çünki hər hansı bir

şəraitdə əldə edilən optimallıq digər şərait üçün yararlı olmaya bilər. Ona görə ki, optimallaşdırma anlayışı həmişə konkretdir.

Təlim və tərbiyə prosesində hər hansı bir sahə üzrə optimallaşdırmanı təmin edərkən nəzərə almaq lazımdır ki, bütün hallar üçün birdəfəlik və qəti müəyyən edilmiş meyarlar mümkün deyildir. Ona görə də müəllim (və ya tədqiqatçı) konkret şərait üçün mümkün ola bilən nəticəni, sərf olunacaq vaxtı, tətbiq olunacaq qüvvə və vasitələri dəqiq müəyyənləşdirməyə çalışmalıdır. Çünki optimallıq anlayışı təkcə şagirdlər baxımından yox, həm də konkret şəhər, rayon və məktəbin tipik şəraiti baxımından nisbi səciyyə daşıyır və gözlənilən nəticəyə təsir göstərir.

Müəllim, tərbiyəçi öz fəaliyyətində sinfin (qrupun) səviyyəsini, xüsusiyyətlərini nəzərə almadıqda, konkret şərait üçün səmərəli məzmun, metod və formalar seçib tətbiq etmədikdə şagirdlərin təlim və tərbiyəsində gözlənilən nəticələri əldə edə bilmir, sinifdənxaric məşğələlərə əlavə vaxt sərf etməli olur, şagirdlər də lazımi diqqət, maraq və səy göstərmirlər.

Təlim-tərbiyə prosesində optimal variant seçilməsi metodikasına xüsusi diqqət yetirmək lazımdır. Bu isə bir neçə mərhələdə həyata keçirilir. Əvvəlcə şagirdlərin mənimsəmə tərbiyə və inkişaf səviyyəsi qiymətləndirilir. İkinci mərhələdə şagirdlərin müvəffəqiyyət səviyyəsi həmin yaşdakı uşaqlar üçün gözlənilən səviyyə ilə müqayisə olunur. Üçüncü mərhələdə şagirdlərin ev tapşırıqlarına və sinifdənxaric işlərə sərf etdikləri vaxt hər yaş üçün müəyyən edilən vaxt və norması ilə müqayisə edilir.

Təlim nəticələrinin qiymətləndirilməsi zamanı şagirdlərin dərsdə təhsil, tərbiyə və inkişaf səviyyəsinin qiymətləndirilməsi məqsədilə müəyyən meyarlardan istifadə edilir. Məsələn, bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi zamanı üç göstərici tətbiq olunur: mənimsəmənin tamlığı, şüurluluğu, bilik və bacarıqların tətbiqi.

Bilik, bacarıq və vərdişlərin bu göstəriciləri müvafiq əlamətlər üzrə qiymətləndirilir:

- Bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin tamlığının əlamətləri:

a) bilik və bacarıqların əsas ünsürlərini ayırmaq;

b) hər birini izah etmək;

c) əsas əlamətləri (göstəriciləri) səciyyələndirmək.

- Mənimsəmənin şüurluluğunun əlamətləri:

a) fakt və anlayışlar arasındakı əlaqələri müəyyən etmək;

b) onları müqayisə etmək;

c) səbəb-nəticə əlaqələrini müəyyən etmək;

d) ümumiləşdirmək, nəticə çıxarqmaq.

- Bilik və bacarıqların tətbiqinin əlamətləri:

a) blik və bacarıqları tətbiq etmək (çalışmalar).

Təlim-tərbiyə prosesinin optimallaşdırılması üzrə iş müəyyən sistemdə həyata keçirilir:

1. Qarşıda duran pedaqoji məsələnin optimal həlli üçün lazım olan meyarları və əlamətləri nəzəri cəhətdən əsaslandırmaq;

2. Müəyyən edilən meyarlar əsasında kollektivin və ya şagirdin kompleks öyrənilməsi proqramını layihələşdirmək;

3. Aparılan işin ilkin və son göstəricilərini öyrənib konkret şərait üçün maksimum mümkün olan nəticə ilə müqayisə etmək;

4. Sinfin (qrupun) müəyyən görülən işə sərf etdiyi vaxtı müəyyən edib müvafiq iş üçün tələb olunan vaxt norması ilə tutuşdurmaq;

5. Alınan fərqi müəyyənləşdirib təhlil etmək;

6. Müsbət nəticələri optimallıq meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyənləşdirmək.

Optimallaşdırmanın iki istiqaməti ayırd edilir: nəzəri və praktik istiqamət. Nəzəri istiqamət optimallaşdırma baxımından vəziyyətin təhlili, konkret şərait üçün meyarların müəyyənləşdiril-məsi, ən münasib variantın tapılması, müqayisə, təhlil, diaqnozlaşdırma, proqnozlaşdırma aparılması və s. sahələrdə ifadə olunur.

Praktik istiqamət müəyyən bir sistemin, prosesin təkmilləşdirilməsi, yenidən təşkili, ən yaxşı vəziyyətə gətirilməsi və s. məsələlərdə özünü göstərir.

Pedaqoji ədəbiyyatda (Y.K.Babanski və b.) pedaqoji prosesin optimallaşdırılmasının iki əsas meyarı (göstəricisi) müəyyən edilmişdir:

- konkret şəraitdə şagirdin təlim, tərbiyə və inkişafında mümkün olan ən yaxşı (münasib) nəticənin əldə edilməsi;

- şagirdin mümkün olan yüksək nəticəyə ayrılmış vaxt normasına uyğun (az vaxt və qüvvə sərf etməklə) nail olması.

Pedaqoji prosesin optimal təşkili üçün hər iki meyar vəhdətdə götürülməli və həyata keçirilməlidir. Təlim, tərbiyə və psixi inkişafın optimallığının qiymətləndirilməsi müəyyən ardıcıllıqla aparılır:

- Əvvəlcə şagirdlərin təhsil, tərbiyə və inkişaf səviyyəsi müəyyən edilir.
- Şagirdin müvəffəqiyyət səviyyəsi həmin şərait üçün nəzərdə tutulan müvafiq səviyyə ilə müqayisə edilir.
- Şagirdin gördüyü işə sərf etdiyi vaxt müvafiq yaş dövrü üçün nəzərdə tutulan vaxt norması ilə müqayisə olunur.

Nəticələrin qiymətləndirilməsi zamanı onların təlim, tərbiyə və inkişaf səviyyələri üçün müəyyən edilmiş meyarlardan istifadə olunur. Məsələn, təlimdə bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi dörd göstərici əsasında aparılır: mənimsəmənin tamlığı, şüurluluğu, tətbiqi və düzgün ifadə olunması.

Təlimin tərbiyəedici və inkişafetdirici təsirini qiymətləndirərkən isə şagirdlərin emosional reaksiyaları, fikir və mülahizələri, maraq və fəallığı, sualları və s. əsas götürülür. Bu zaman görülən işə sərf olunan vaxt amili də mühüm göstərici kimi nəzərə alınır.

Pedaqoji prosesin optimallaşdırılması vasitələri sırasında aşağıdakıları göstərmək olar:

- məktəblilərin təhsil, tərbiyə və inkişafı ilə bağlı vəzifələrin kompleks planlaşdırılması;
- müəyyən qrup şagirdlərin xüsusiyyətlərindən çıxış edərək təlim-tərbiyə vəzifələrinin konkretləşdirilməsi;
- görüləcək işin (dərsin, tərbiyə tədbirinin) optimal məzmununun və adrıcıllığının müəyyənləşdirilməsi;
- müvafiq şərait üçün təlim və tərbiyənin optimal metod, vasitə və formalarının müəyyənləşdirilməsi.
- müxtəlif təhsil, tərbiyə və inkişaf səviyyəli şagirdlər üçün diferensial yanaşmanın təmin edilməsi;
- müəyyən olunmuş optimal variantın yaradıcı şəkildə tətbiq edilməsi;
- təlim-tərbiyə nəticələrinin kompeks təhlili və eyni zamanda

görülən işə vaxt sərfinin optimallığının müəyyən edilməsi.

Pedaqoji sistemin optimallaşdırılmasının layihələşdirilməsi zamanı bu və ya digər təlim-tərbiyə vəzifələrinin real praktik həllinin öyrənilməsini təşkil etmək, eyni zamanda yol verilən tipik nöqsanları aşkara çıxarmaq və aradan qaldırmaq və ya pedaqoji prosesin səmərəliliyini azaldan səbəblərin qarşısını almaq istiqamətində tədbirlər görmək vacibdir. Ümumiyyətlə, pedaqoji prosesi optimallaşdırmaq üçün standartlıqdan qaçmaq, təlim-tərbiyənin səmərə və keyfiyyətini yüksəltmək üçün konkret şəraitə uyğun daha münasib variantlar seçmək, bu vacib məsələyə şüurlu və yaradıcı yanaşmaq tələb olunur.

Pedaqoji işə universiallıq yaddır. Bu iş konkret şəraitdə cərəyan etdiyi üçün şəraiti nəzərə almadan keçinmək olmaz. Müəllimin bir sinifdə tətbiq etdiyi təlim metodu yaxşı nəticə verdiyi halda, başqa sinifdə həmin nəticəni vermir. İki paralel sinifdən birində müəllimin dərsi alındığı halda, digərində alınmaya bilər. Odur ki, müəllim (tərbiyəçi) hər hansı təlim və ya tərbiyə metod və ya vasitəsini tətbiq etməzdən əvvəl konkret şəraiti – şagirdin (sinfin) səviyyəsini, təlimə və müəllimə, habelə fənnə münasibətini, maraq və tələbatını və s. nəzərə almalı, həmin şəraitə münasib olan ən əlverişli – optimal metod və vasitələr seçib tətbiq etməlidir. Görkəmli tərbiyə ustası A.S.Makarenko pedaqoji vasitə və metodların universiallaşdırılmasına qarşı çıxaraq göstərirdi ki, heç bir mütləq pedaqoji tədbir və ya sistem yoxdur. Həmin dəqiqənin, həmin dövrün şərait və tələblərindən nəşət etməyən hər cür doğmatik müddəa həmişə qüsurlu olacaqdır. Böyük pedaqoq təlim-tərbiyə işində konkret şəraitdən çıxış edərək pedaqoji vasitə və metodları həmin şəraitə uyğun seçib tətbiq etməyi, pedaqoji prosesi optimal və yaradıcı qurmağı tövsiyə edirdi. Görkəmli pedaqoqun bu tövsiyəsi bu günümüz üçün də aktualdır.

### Ədəbiyyat


1. Azərbaycan Respublikası Təhsil standartları. B., 2000.
2. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. B., 2001.
3. Abbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxəbat. B., Mütərcim, 2021.

4. Əlizadə H.Ə., Mahmudova R.M.  Sosial pedaqogika. B., 2013.
5. Hüseynzadə R.L., Məmmədov T. Pedaqogika. B., 2015.
6. İlyasov M., Nəzərov M. Didaktika. Dərs vəsaiti. B., 2015.
7. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (Dərslik). B., Ekoprint, 2021.
8. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2022.
9. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). B., 2002.
10. Бабанский Ю.К. Проблемы повышения эффективности педагогических исследований. М. 1982. .

## MÜƏLLİMİN PEDAQOJİ NÜFUZU

***Məcid İsmixanov***
***BDU, Pedaqogika kafedrasının professoru***
***Fatma Əliyeva***
***BDU, Tətbiqi riyaziyyat və kibernetika fakültəsi, I kurs magistrantı***
***m.ismixanov@mail.ru, aliyevafatma2901@gmail.com***

Pedaqoji nüfuz pedaqoji proseslə, onun nəticələri ilə sıx bağlı olan və böyük əhəmiyyət kəsb edən ən mühüm pedaqoji-etik kateqoriyadır. Məktəbdə müəllim və şagirdlər, habelə valideynlər arasında yüksək nüfuz qazanan müəllimin pedaqoji fəaliyyəti də səmərəli nəticə verir və əksinə. V.A.Suxomlinskinin sözləri ilə desək, tərbiyənin müdrikliyi ondadır ki, şagird, xüsusən yeniyetmə kimdənsə nümunə götürür, kiməsə inanır və onu özünə ideal seçir. Belə bir ideal isə müəllim olmalıdır; o, öz daxili zənginliyi ilə gənc ağlı özünə aludə etməyi və ruhlandırmağı bacarmalı, yüksək nüfuz qazanmalıdır. Müəllimin şagirdlər yanında hörmət və nüfuzu yoxdursa, uşaqlar ona inanmırlarsa, bu halda tərbiyə də yoxdur.

Pedaqoji-etik ədəbiyyatda pedaqoji nüfuzun mahiyyəti müəllimin kollektivdəki və uşaqlar yanındakı mənəvi statusu, hörməti kimi səciyyələndirilir. «Nüfuz» latın sözündən götürülmüş avtoritet (auctoritas) – hakimiyyət, təsir deməkdir. O şəxsiyyətin

(kollektivin) hərəkət və fəaliyyətinin ictimaiyyət tərəfindən qəbul edilmiş təsir gücünü ifadə edir. Bəzi müəllim və tərbiyəçilər belə hesab edirlər ki, guya müəllimlik işi özlüyündə ona nüfuz gətirir. Bu fikir pedaqoji peşə nüfuzuna münasibətdə qəbul edilə bilər; lakin müəllimin fərdi nüfuzu isə peşə nüfuzundan daha çox onun şəxsi məziyyətləri ilə, mənəvi və iş keyfiyyətləri ilə bağlıdır.

Psixoloji baxımdan nüfuzun iki növü fərqləndirilir: həqiqi və saxta nüfuz. Həqiqi nüfuz – insanın başqa adamlara təsir gücündə ifadə olunur; bu təsir məcburiyyətə, insanın sosial vəziyyətinə, habelə vəzifə və səlahiyyətlərinə deyil, onun xidmətinə, əxlaqi məziyyətlərinə və qazandığı hörmətə əsaslanır. Saxta nüfuz isə subyektiv mülahizə və münasibətlərə, habelə müxtəlif yollarla insanların ələ alınmasına əsaslanan süni, yalançı nüfuzdur. O, insanın özü haqqında yalan rəy yaratması və saxta hörmət qazanması niyyəti güdür. Riyakarlıqla, hiylə və yalanla, hay-küylə, özünü gözə saxlamaqla qazanılan saxta «nüfuz» uzun sürmür; çox keçmədən belələrinin əsl siması üzə çıxır və onlar «qazandıqları hörmət və nüfuzdan» məhrum olurlar.

Bəs həqiqi nüfuz necə əldə edilir? Onun hansı şərtləri vardır?

Nüfuz qazanmağın şərtləri çoxdur. Onların əsaslarını nəzərdən keçirək. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, nüfuz hazır verilmir, onu qazanmaq lazımdır. Bu isə birdən-birə başa gəlmir; müəllim gündəlik, səbrlə öz zehni, mənəvi, peşə keyfiyyətlərinin formalaşması və inkişafı qeydinə qalmalıdır.

Pedaqoji nüfuzun başlıca şərti müəllimin şəxsiyyət kimi yüksək insani keyfiyyətlərə yiyələnməsi və şagird şəxsiyyətinə səmərəli təsir göstərməsidir. Uşaqların faydalı şəxsiyyətlər kimi yetişməsi üçün onların ağıllı, bacarıqlı, müdrik tərbiyəçiyə – Şəxsiyyətə ehtiyacı vardır. V.A.Suxomlinski müəllimlik peşəsini «insanşünaslıq» adlandıraraq göstərirdi ki, müəllim müntəzəm olaraq şagirdlərin mürəkkəb daxili aləminə nüfuz etməli, onda nə isə yeni şey tapmalı və bundan qürur duymalıdır. O, insanı inkişafda görməli və onun mənəvi yüksəlişinə kömək göstərməlidir.

Pedaqoji nüfuzun digər vacib şərti öz yetirmələrinin zehni, mənəvi inkişafı və hər birinin taleyi üçün müəllimin böyük mənəvi məsuliyyət hissi ilə çalışmasıdır. Müəllim ən qiymətli kapital olan

insanla işləyir. Bu işdə isə səhvə yol vermək olmaz. Böyük yunan filosofu Platon bu münasibətlə demişdir ki, başmaqçı zay başmaq tikərsə, bundan ancaq bir adam zərər çəkər; müəllim öz işinin öhdəsindən pis gələrsə, cəmiyyətdə cahil və yaramaz adamlardan ibarət bütöv bir nəsil yetişəcəkdir. Bu sözlərdə böyük həqiqət vardır. Müəllim daim məsuliyyət hissi ilə yaşamalı və öz işinə də böyük məsuliyyətlə yanaşmalıdır.

Məsuliyyət hissi pedaqoji nüfuzun vacib bir keyfiyyəti və şərti ilə – insana hörmət və sevgi ilə sıx bağlıdır. Müəllim peşəsi insandan humanizm, xeyirxahlıq, həssaslıq, səmimilik tələb edir. Pedaqoji işdə hər şey insana – şagirdə (tələbəyə) xeyirxah münasibətdən, sevgidən başlayır. Pedaqogika tarixindən tanıdığımız bütün görkəmli pedaqoqlar (Y.Komenski, İ.Pestalotsi, K.Uşinski, L.Tolstoy, Y.Korçak, A.S.Makarenko, V.Suxomnski, Y.Talıbov və b.) uşaqlara yüksək məhəbbət göstərməklə pedaqoji zirvələrə yüksələ bilmişlər. Həm də uşağa sevgi kor-koranə yox, qəlb hərarəti və xeyirxah münasibətlə, müdrikcəsinə olmalıdır. İnsanı sevmədən onu dərk etmək, düzgün formalaşdırmaq və qəlbinə yol tapmaq mümkün deyildir. V.Suxomlinski bu münasibətlə demişdir ki, uşağı tanımadan, onun qəlbində gedən mürəkkəb prosesləri başa düşmədən verilən tərbiyə kordur və buna görə də mənasızdır. Pedaqogika klassikləri müəllimin uşaqlara sevgi və qayğısını bağban qayğısı ilə müqayisə etmişlər: yaxşı bağban kimi, yaxşı müəllimin də məhsulu keyfiyyətli və sağlam olmalıdır.

Müəllimlik işində insana sevgi fənnə və peşəyə sevgi ilə çulğalaşır. Müəllimin nüfuzu, ilk növbədə, onun biliyi, elmi hazırlığı və peşəkarlığı ilə şərtlənir. Müəllim təhsilli, ağıllı məlumatlı, öyrənməyə və axtarışa can yandıran əsl ziyalı olmalıdır. Y.A.Komenski, haqlı olaraq, biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Şagirdlər müəllimə qiymət verərkən onun elmi hazırlığını, fənnini nə dərəcədə bilməsi və sevməsini ön plana çəkirlər.

Yaxşı müəllim fənnini tədris proqramında olduğundan qat-qat çox bilir; tədris fənni onun üçün ancaq elmin əlifbasıdır. Əsl müəllim bununla kifayətlənmir; öz elmi hazırlığı üzərində müntəzəm çalışır, elmi yenilikləri izləyir və onları sinif otağına gətirir. Dərin bilik,

geniş dünyagörüşü, elmi problemlərə canlı maraq sayəsində müəllim şagirdlər qarşısında biliklərin, fənnin, elmin cazibə qüvvəsini açır, onlarda fənnə və elmi biliklərə maraq oyadır. Müəllimin pedaqoji nüfuzunun əsas sirri bundadır. V.A.Suxomlinski müəllimin dərin biliyə, geniş elmi görüşə, erudisiyaya malik olmasını və daim mütaliə etməsini pedaqoji mədəniyyətin əsası adlandıraraq göstərirdi ki, kitabsız, mütaliəsiz müəllim yoxdur; mütaliə – pedaqoqun fikir və yaradıcılıq mənbəyidir, həyatın özüdür. Müəllim tək bircə gün öz intellektual inkişafından qalarsa, o yetirmələri üçün bilik məşəli olmaqdan məhrum olacaqdır.

Pedaqoji nüfuza təsir edən başlıca amillərdən biri də müəllim-şagird münasibətləridir. Bu münasibətlər qarşılıqlı inam, etimad və səmimiyyətə əsaslandıqda müəllimin uşaq yanında nüfuzu bir o qədər yüksək olur. İnsana etibar etmək və inanmaq tərbiyədə böyük təsir gücünə malikdir: bundan o, özündə mənəvi qüvvə tapır, çətinlikləri dəf edir. Yaxşı müəllim-tərbiyəçi şagirdə, onun mənəvi və fiziki imkanlarına, xeyirxah başlanğıcına inanmalı, onu öz şübhələri və inamsızlığı ilə təlim-tərbiyə işindən soyutmamalıdır. Müdrik pedaqoqlar uşağa inanmadan onu tərbiyə etməyin mümkün olmadığını qeyd etmişlər: belə inam və etibar olmadan bütün pedaqoji müdriklik, bütün metod və priyomlar kağız evcik kimi dağılıb məhv olacaqdır.

Müəllim-şagird münasibətlərində hörmət və tələbkarlığın vəhdəti mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətə hörmət-özünəhörmətin ilkin şərtini təşkil edir. Özünə hörmət olmadan əxlaqi saflıq və şəxsiyyətin mənəvi zənginliyi də yoxdur. Pedaqoji prosesdə qarşılıqlı münasibətlər həm insanın özü üçün, həm də başqaları üçün sevinc yaratmaq arzusu və səyinin yaranmasına yönəlməli və bundan doğan şəxsi ləyaqət və iftixar hisslərinin formalaşmasına gətirib çıxarmalıdır. Humanizm, xeyirxahlıq, başqa adamlar və kollektiv üçün fədakarlıq mənəvi tələbata çevrildikdə şəxsiyyətin ən qiymətli sərvəti olur, insana böyük hörmət və nüfuz gətirir.

Tələbkarlıq təkcə başqa adamlara (şagirdlərə) yox, həm də insanın özünə münasibətlə bağlı olmalıdır. Özünə tələbkarlıq məsuliyyət hissi ilə, daxili mütəşəkkillik və intizamla bağlıdır. Hər kəs əvvəlcə özündən tələb etməli, özündən başlamalıdır. Prof.

Z.Göyüşovun yazdığı kimi, tələbkar adamın özü səmimi və mənəvi cəhətdən saf olmalıdır. Özü natəmiz, riyakar, xəbis, həyatda yüz dona girən adamın tələbkarlığı nəinki heç bir mənəvi təsir qüvvəsinə və nüfuza malik olmur, həm də insanda hiddət doğurur. Özünə tələbkar olmayıb başqalarına yüksək tələbkarlıq göstərənlərin tələbkarlığı lazımi nəticə verə bilməz. Sərtliklə, qışqırıq və hay-küylə, adamları qorxutmaq və hədələmək yolu ilə nüfuz qazanmaq olmaz.

Biz yuxarıda pedaqoji nüfuzun ən mühüm şərtlərini nəzərdən keçirdik. Onların hər hansı biri gözlənilmədikdə müəllimin (və ya məktəb rəhbərinin) nüfuzu zəifləyə və ya itə bilər. Buna görə də qazanılan nüfuzun möhkəmləndirilməsi vacibdir. Bunun üçün, ilk növbədə, nüfuza xələl gətirən səbəbləri öyrənmək və onları aradan qaldırmaq lazımdır. Onlardan başlıcaları aşağıdakılardan ibarətdir:

- pedaqoji kollektivdə lazımi səviyyədə mənəvi-psixoloji iqlimin olmaması, ictimai rəyin və qınağın zəifliyi, habelə müəllimin nüfuzu haqqında kollektiv qayğının olmaması;
- bəzi məktəb rəhbərləri tərəfindən müəllimlərin fəaliyyətinin düzgün qiymətləndirilməməsi, müəllimlər arasında ayrıseçkilik qoyulması; müəllimlərə qarşı sərt tələbkarlığın göstərilməsi; onların hörmət və nüfuzunun aşağı olması;
- bir qisim müəllim və tərbiyəçilərin mənəvi mədəniyyətinin aşağı səviyyədə olması, onların mənəvi-etik və elmi-metodik hazırlığının zəifliyi;
- müəllimlərin müəyyən hissəsində əxlaqi borc, nüfuz və şəxsi ləyaqətə dair təsəvvürlərin məhdudluğu; pedaqoji fəaliyyətə və uşaqlara baxışlarda mühafizəkarlığın, təfəkkür stereotiplərinin mövcudluğu, yeni pedaqoji təfəkkürün formalaşmaması;
- bəzi müəllimlərin pedaqoji taktı pozmaları; uşaq şəxsiyyətinə hörmətlə yanaşmamaları, onlara qarşı kobud, təhqiredici münasibət göstərmələri; şagirdlərin maraq və ehtiyaclarına qayğısız münasibətləri; yeniyetmə və gənc qız və oğlanların dostluğuna hörmətsizlik; uşaq kollektivinin rəyinə laqeydlik göstərmələri; qiymətləndirmədə obyektivliyin gözlənilməməsi; müəllimlərin öz səhvlərini etiraf etməmələri və s.

Müasir həyat müəllimə, onun şəxsiyyətinə, mənəviyyatına və

peşə keyfiyyətlərinə yüksək tələblər verir. Müəllim və tərbiyəçilər bu tələblərə cavab vermək üçün daim öz şəxsi və peşə keyfiyyətlərini inkişaf etdirməli, şagirdlərin görmək istədikləri ideal müəllim obrazına çatmağa çalışmalıdırlar. Pedaqoji kollektivlər isə bütövlükdə kollektivin və ayrı-ayrı müəllimlərin nüfuzunu yüksəltmək istiqamətində mübarizə aparmalıdır. Bu mübarizə nə qədər prinsipial və kollektiv nə qədər sağlam olarsa, oradakı mənəvi-psixoloji mühit nə qədər əlverişli olarsa, hər bir müəllimin nüfuzu da bir o qədər yüksək olar. Unutmaq olmaz ki, nüfuzu qazanmaq çətin, onu itirmək isə asandır: yersiz bir hərəkət, ehtiyatsız bir söz, ədalətsiz münasibət müəllimi nüfuzdan sala bilər. Buna görə də hər bir müəllim sözlərinə və hərəkətlərinə diqqət və məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Təhsil standartları. B., 2000.
2. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. B., 2001.
3. Abbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxəbat. B., Mütərcim, 2021.
4. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. B., 2013.
5. Hüseynzadə R.L., Məmmədov T. Pedaqogika. B., 2015.
6. İlyasov M., Nəzərov M. Didaktika. Dərs vəsaiti. B., 2015.
7. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (Dərslik). B., Ekoprint, 2021.
8. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2022.
9. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). B., 2002.
10. Veysova Z. Fəal (interaktiv) təlim. B., 2007.

# TƏDRİS PROSESİNDƏ MÜƏLLİM MÜHÜM FİQUR KİMİ

***Kamalə Kamal qızı Qəhrəmanova***
***BDU, Pedaqogika kafedrası***
***(kamala.qahraman@yahoo.com)***

Gənc nəslə həyatı boyu lazım olacaq bir çox xüsusiyyətlər və cəmiyyətdə davranış qaydaları məktəbdə aşılanır. Gələcəyimizi müəyyən edəcək nəslin formalaşmasında mühüm rol oynayan müəllim şəxsiyyətin azad və hərtərəfli inkişafını təmin etmək, işin keyfiyyətinə və nəticələrinə gorə və hər bir təhsilalanın intellektual, emosional, mənəvi inkişafı ucun cəmiyyət qarşısında məsuliyyət daşıyır.

Müəllim həmişə mədəniyyət daşıyıcısıdır. O, qazanılan təcrübənin gənc nəslə ötürülməsi funksiyasını yerinə yetirməklə yanaşı, onun inkişaf etməsi üçün də çalışmalıdır.

Müasir şərait demokratik üslublu müəllimlər tələb edir. Bu tələb Azərbaycanda bəzi komponentlərin dəyişdirilməsinin zəruriliyini ortaya qoydu, bunlardan biri də ünsiyyət idi. Bu səbəbdən təhsildə islahatlar aparıldı və müəllimlərin etik davranış kodeksi yenidən hazırlandı.

Demokratik mədəniyyətə malik, demokratik dəyərləri öyrədən müəllimlərin rolu önəmlidir. Çünki dəyərlərin mənimsənilməsi və onların subyektləşdirilməsi pedaqoji fəaliyyət prosesində müəllimin rolu, münasibəti ilə formalaşır.

Təhsil islahatının demokratik və humanist prinsiplər əsasında uğurla həyata keçirilməsi müəllimin pedaqoji dühası, peşə etikası, xüsusiyyətləri və münasibəti ilə bağlıdır. Elmi-texniki inkişafın sürətli inkişafı, məlumatlı cəmiyyətin formalaşması müəllim şagird münasibətlərinin məzmununa böyük təsir göstərir, ona görə də ədalət zəminində müəllim-şagird yanaşmasının formalaşdırılması vacib hesab olunur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri ilə müəllimlərin etik davranış qaydaları təsdiq edilmişdir. Bu sənəddə təhsilalanlarla münasibət qarşılıqlı hörmətə əsaslanan ünsiyyət tərzi secməsi tələbi irəli sürülür.

Müəllim pedaqoji ünsiyyət mədəniyyətinə yiyələnməli, tələbələrlə ünsiyyət formasını təkmilləşdirməyə çalışmalıdır. Bunun üçün ünsiyyətin dəyişən şəraitinə operativ bələdləşmək; kommunikasiya sistemlərinin, xüsusən sözlə təsiri düzgün planlaşdırmaq və həyata keçirmək; ünsiyyət şəraitinə, şagirdlərin fərdi xüsusiyyətlərinə görə adekvat ünsiyyət vasitələrini düzgün müəyyənləşdirmək; qrup və ayrı-ayrı şagirdlər haqqında məlumar əldə etmək; şagirdlərlə ünsiyyətdə neqativ şərait yaradan stereotipləri aradan qaldırmaq vacibdir. Müasir şəraitdə əməkdaşlıq pedaqogikasının başlıca tələblərindən biri də müəllim ilə şagird münasibətlərinin humanistləşdirilməsi və demokratikləşdirilməsidir.

Müəllim şagırd münasibətləri pedaqoji etika tələblərinə pedaqoji peşə borcu və ləyaqəti, peşə vicdanı, ədalətlilik, pedaqoji nüfuz kimi kateqoriyalar daxildir.

Ünsiyyətin düzgün qurulmasında təhsil sistemi işçilərinin öz hüquqlarını, vəzifə və öhdəliklərini, habelə təhsil alanların hüquqlarını bilməsi və onlara hörmət etməsi, münasibətlər sisteminin doğru formalaşması və təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərinə humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik, varislik və s. riayət edilməsi mühüm əhəmiyyət kəsb edir.

Hüquq mədəniyyətinə malik gənc nəslin də qaydalara uyğun hərəkət etməsi vacibdir. Hər bir vətəndaş qanunun bu prinsiplərini bilməli, onlara tabe olmalı, məsuliyyətini dərk etməlidir, o zaman münasibət də doğru bir şəkildə qurular. Burada müəllimin şəxsi keyfiyyətindən, ünsiyyət mədəniyyətindən çox şey asılıdır. Müəllimin şəxsi keyfiyyətləri – müdriklik, mərhəmət, insanpərvərlik və yüksək vətəndaş mövqeyi, perspektiv, dərin bilik və erudisiya uğurlu ünsiyyət üçün mühüm ilkin şərtlərdir. Münasibətlər sistemini öz şəxsi düşüncələri ilə deyil, hüquq normaları ilə gənc nəslə öz nümunəsi ilə aşılamalıdır.

Müəllim təhsilalanların fəaliyyətinə rəhbərlik edən, insanların qarşılıqlı münasibətlərini mədəni hüquqi qaydalarla tənzimləyən, müasir dövrlə ayaqlaşan şəxs rolunu oynayır.

Humanist müəllim tələbələri cəmiyyətimizin, millətimizin gələcəyi, aparıcı qüvvəsi kimi görür, gələcəyimiz üçün bütün gücünü səfərbər edir. Belə müəllimlər şagird müəllim, tələbə müəllim

münasibətlərini yüksək intellektual və mənəvi tələblər əsasında qururlar.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Təhsil Strategiyası. 24 oktyabr, 2013-cü il Prezident sərəncamı/ Xalq qəzeti, 25 oktyabr, 2013.
2. R. Hüseynzadə, K.Qəhrəmanova,Tərbiyənin hüquqi normativ əsasları, F.2022
3. Müəllimlərin etik davranış qaydaları. Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri.
4. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2010


## ELMİ FƏRZİYYƏNİN YOXLANILMASINDA PEDAQOJİ EKSPERİMENTİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ


***Firudin Zirəddin oğlu Məmmədov***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi, p.ü.f.d.***
***firidunmemmedov 333@gmail.com***


Hər bir elmin özünəməxsus tədqiqat metodları mövcuddur. Pedaqogikanın tədqiqat metodlarından biri də pedaqoji eksperimentdir.

Pedaqoji eksperiment hər hansı pedaqoji ideyanın, fərziyyənin xüsusi təşkil edilmiş şəraitdə öyrənilməsidir. Məsələn, 5 yaşlı uşağın məktəbə hazırlıq səviyyəsinin öyrənilməsi. [ 1, səh 117]

Pedaqoji eksperimentin əsas vəzifələrindən biri də onun tədqiqat predmetinin düzgün müəyyənləşdirilməsidir. Tədqiqatın ayrı-ayrı mərhələlərində eksperime tin predmeti dəyişdirilə, ya da dərinləşdirilərək şaxələnə bilər.

Pedaqoji eksperimentin predmeti kimi pedaqoji prosesin idarə edilməsi, təlim və tərbiyə işlərində iştirak edənlərin fəaliyyəti, tədris prosesinin təşkili və aparılması metodikası, müəllimin pedaqoji

ustalığı, müəllim və şagirdlərin, ailə və məktəbin birgə fəaliyyəti, şagirdlərin zehni, əxlaq, əmək, fi ziki və estetik tərbiyəsi, onların dünyagörüşünün formalaşması və s. aid fərziyyənin yoxlanılması götürülə bilər. [8,səh 61]

Bu tədqiqat metodunun mahiyyəti müəllim və şagirdlərin pedaqoji fəaliyyətini xüsusi təşkil edərək, irəli sürülən pedaqoji ideyanı, fərziyyəni həmin şəraitdə öyrənməkdən, yoxlamaqdan ibarətdir. Məqsəd hadisələr arasındakı qarşılıqlı əlaqələri, pedaqoji ideyaların, fərziyyənin faydalılığını öyrənmək, aşkara çıxarmaq və əsaslandırmaqdan ibarətdir. Pedaqoji ideya və fərziyyə təcrübədə özünü doğrultduqca, tədricən müvafiq nəzəri ümumiləşdirmələr və nəticələr meydana çıxır.[3]

Empirik tədqiqatlar sırasında pedaqoji eksperimentin xüsusi yeri var. Onun köməyi ilə fərziyənin doğruluğu təsdiq edilir. Pedaqoji eksperiment fərziyyənin mahiyyətinə uyğun irəli sürülən fikir və ya ideyaların səmərəliliyinin təcrübədə yoxlanılaraq təsdiq edilməsinə yönəlir. Bu metodun köməyilə real elmi nəticələrə gəlmək mümkündür. Tədqiqatçı problemin mövcud durumundan fərqli olaraq, yeni istiqamət, yol, forma, metod, vasitələrin tətbiq edilməsi ilə pedaqoji prosesə empirik yolla fəal təsir göstərir. Onun planlaşdırılıb həyata keçirilməsində obyektivliyə ciddi əməl olunması, süni, quraşdırılmış faktlardan uzaq olunması əsas tələblərdəndir. Tədqiqatçının əldə ediləcək nəticələrin öz istəyinə uyğun qeyri real faktlarla əsaslandırılması yolverilməz hal kimi qiymətləndirilir. O zaman onun elmi dəyərlərə söykənməyən fi kir və ideyaları elmi ictimaiyyət tərəfi ndən qəbul edilmir

Keçirilmə yerinə görə pedaqoji eksperiment təbii və laborator eksperiment kimi fərqləndirilir. Təbii eksperimentin obyekti tədris planları, proqramları, dərslik və dərs vəsaitləri, pedaqoji prosesin prinsipləri, metodları ola bilər. Təbii eksperimentdə müşahidə ilə eksperimentin xüsusiyyətləri bir növ birləşir. Laborator eksperiment pedaqoji tədqiqatın daha ciddi elmi formasıdır. Laborator eksperiment zamanı xüsusi pedaqoji şərait yaradılır.[ 2,səh 124]

Tədqiqatın məqsədindən asılı olaraq pedaqoji eksperimentin aşağıdakı növlərindən istifadə olunur. Müəyyənedici eksperiment tədqiqatın başlanğıcında aparılır, öyrənilən problem üzrə məktəb

təcrübəsindəki işin vəziyyətini üzə çıxarmaq vəzifəsini həyata keçirir. Sonra tədqiqatın ikinci mərhələsi başlayır və yaradıcı dəyişdirici eksperiment keçirilir. Tədqiqatçı tərəfindən hipoteza (fərziyyə) və ya öyrənilən problemin həllinin nəzəri əsasları və konkret metodiki yolları işlənib hazırlanır. Öyrənilən problemin tədqiqinin sonrakı mərhələsi alınan nəticələrin və işlənib hazırlanan metodikanın kütləvi məktəb təcrübəsində tətbiqini yoxlamaqdan ibarətdir. Bu vəzifə yoxlayıcı eksperimentin köməyi ilə həyata keçirilir. Onun mahiyyəti sınaqdan keçirilmiş metodikanı başqa məktəbdə və müəllimlərin işində tətbiq etməkdən və alınan nəticənin düzgünlüyünü bir daha dəqiqləşdirməkdən ibarətdir.[7,səh 32]

Pedaqoji tədqiqatlarda paralel və çarpaz eksperimentlərdən də istifadə olunur. Qarşıya qoyulmuş məqsəddən asılı olmayaraq pedaqoji eksperiment üç mərhələdə (eksperimentin planlaşdırılması, aparılması və yekunlaşdırılması) həyatakeçirilir.

Eksperimentin təşkili üçün iki paralel sinif (qrup) götürülür: bunlardan birində iş yeni qaydada təşkil edilir (eksperimental sinif və ya qrup), digərində isə ənənəvi qaydada aparılır (kontrol sinif və ya qrup). Müəyyən müddətdən (1 rüb, 1 il) sonra hər iki sinifdə (qrupda) işin nəticəsi yoxlanılır və bir-biri ilə müqayisə edilir.

Eksperiment yaxşı nəticə verərsə, onu bir qədər geniş miqyasda keçirmək lazımdır.

Eksperimentin səmərəli nəticə verməsi üçün onu başqa metodlarla (müşahidə, müsahibə, anket sorğusu və s.) əlaqələndirmək mühüm şərtdir. Pedaqoji tədqiqatlarda eksperiment metodu ilə yanaşı təcrübi-eksperimental iş, sınaq metodları da tətbiq olunur. Bu zaman müəyyən plan üzrə təcrübə işləri aparılır,onların səmərəliliyi öyrənilir.

Pedaqoji tədqiqatlarda yeri gəldikcə riyazi-statistik və sosioloji metodlara da müraciət olunur. Riyazi-statistik metodlar tədqiqatın nəticələrini kəmiyyət baxımından təhlil etməyə imkan verir. Sosioloji metodlar pedaqogikanın sosial məsələlərinin (təlim-tərbiyə işinə ailə və mühitin təsiri, kollektiv və fərdin münasibətləri, peşə seçmə və s.) həllində geniş tətbiq olunur. Sosioloji metodlara kütləvi sorğular, sosiometrik metodlar (şkala, sosioqramma və s.) daxildir. Pedaqoji tədqiqatda nəzərdən keçirilən metodların kompleks tətbiqi tədqiqatın

uğurlu və obyektiv olmasını təmin edən əsas şərtdir.[4]

Pedaqoji eksperimentin düzgün planlaşdırılıb həyata keçirilməsi üçün tədqiqatçının özünün dərin nəzəri və metodiki biliyinin olması, problemin fəlsəfi, psixoloji aspektlərini aydın görməsi, problemlə bilavasitə əlaqələri olan elmlərin dəyərlərinin mənimsənilməsi əsas tələblərdəndir.

Pedaqoji eksperimentin aparılması prosesində digər elmitədqiqat metodları

– müşahidə, müsahibə, anket sorğuları, intervyü, məktəb sənədləri, şagird əməyinin araşdırılması və s. tətbiq olunarsa, alınacaq nəticələr daha real və inandırıcı olar.

Eksperimental sinif və ya məktəbdə əldə edilən nəticələr kütləvi məktəblərdə də istifadə edilərsə və müsbət nəticələr ortaya qoyularsa, deməli eksperiment baş tutmuş hesab edilir.

Birdəfəlik və ya bir sinifdə, bir rayonda aparılan eksperimental işin nəticələrini mütləq reallıq kimi qəbul etmək olmaz. Cürbəcür mühit, şəraitdə fərziyyənin yoxlanılması daha doğru nəticələr əldə etməyə şərait yaradır.

Bir sıra tədqiqatçılar «kütləvilik» anlayışını dərk etməyərək, eksperimental işi başa çatdırmadan onun bir mərhələsi və ya sahəsini bir məktəbdə və rayonda, digər mərhələsini başqa məktəb və rayonda keçirməklə, eksperimentin kütləviliyini təsdiq etməyə səy göstərir. Belə yanaşmalar eksperimentin nəticələrinin doğruluğuna dəlalət etmir. [8,səh 58]

Pedaqoji eksperiment pedaqoji tədqiqat prosesində öyrənilən hadisənin effektliyini müqayisəli şəkildə, sübutedici yolla aşkara çıxaran, düzgün, dəqiq, mötəbər nəticəyə gəlməyə imkan verən xüsusi növ empirik metoddur.Pedaqoji eksperiment tədqiqatın məqsədinə uyğun olaraq yeni şərait yaratmaq yolu ilə pedaqoji hadisəyə fəal təsir göstərir. Eksperiment tədris-tərbiyə prosesinin gedişində planlaşdırılmış şəkildə məqsədyönlü dəyişikliklər aparmağa, pedaqoji faktorların təsiri ilə xüsusi yaradılmış ictimai-tərbiyəvi mühitdə şəxsiyyətin tərbiyəsinin bu və ya digər cəhətini öyrənməyə imkan verir. Eksperimentin gedişində hadisəni daha əlverişli şəkildə öyrənmək üçün süni yolla məqsədyönlü dəyişmək, yaxud yenidən yaratmaq mümkün olur. Beləliklə, hadisə prosesə

nazarət edilən və idarə olunan şəraitdə öyrənilir.

Elmdə böyük mübahisələrin mənbəyi çox vaxt eksperiment zaman qarşıya çıxa biləcək səhvləri düzgün hesaba almağı və qiymətləndirməyi bacarmamaqdır.Eksperiment qoyarkən tədqiqatçı onda insanların iştirak etdiklərini unutmamalıdır. İnsan, onun inkişafı üzərində necə gəldi eksperiment qoyub, sonra buraxılmış ciddi nöqsana, bütöv bir nəslin tərbiyəsinə dəymiş zərərə görə üzr istəməklə yaxa qurtarmaq olmaz. Eksperimentin variantlarını, şəraiti eksperimentatordan xəbərsiz başqasının sərbəst dəyişməsi şagirdlərin inkişafına zərbə endirə bilər.

Eksperimental tədqiqat zamanı bəzən təsadüfən şüursuz səhvə yol verilir, bəzən isə bu,müntəzəm baş verməklə sistem şəklini alır. Elə hallar olur ki, eksperimentin obyektivliyi onda iştirak edən müəllimlər tərəfindən pozulur. Onlar elə hesab edirlər ki, eksperimentin nəticələri ümumiləşdirilərkən özlərinin fəaliyyətini tənqid edəcəklər. Məhz buna görə də eksperimentin gedişi təhrif olunur. Beləlləri yüksək nəticə göstərmək üçün çox çalışır, əlverişli şərait yaradır, hər an şagirdlərə kömək göstərir, bir-birindən köçürməyə, kitaba baxmağa, şparqalkadan istifadə etməyə imkan verirlər. Beləliklə, tədqiqatın pedaqoji etikası pozulur. [9,səh 119]

Eksperimentatorun nəzəri hazırlığı olmadıqda eksperimenti planlaşdıra bilmir, qiymətləndirmədə subyektivliyə yol verir. Təcrübə göstərir ki, bəzən obyektiv, düzgün fərziyyə qurulmasına baxmayaraq, pis keçirilmiş eksperiment nəticəsində fərziyyənin düzgünlüyü təsdiq olunmur. Bəzən isə tədqiqatçı yanlış fərziyyə qurur, lakin düzəlişsiz aparılan eksperiment ela nəticə verir ki, ona əsasən səhv fərziyyə düzgün kimi qəbul edilir.

Bəzən eksperimentator eksperimentdə sinanılacaq material müəllimlərə çatdırmaqla kifayətlənir, prosesin gedişində bilavasitə iştirak etmir. Belə kabinet eksperimenti, şübhəsiz, tədqiqatçının düzgün nəticəyə gəlməsinə əsas vermir. Elə tədqiqatçılar da olur ki, fərziyyənin doğruluğunu sübuta yetirmək üçün eksperimental siniflərdə faizi süni şəkildə artırır. Bela bayağı səhvə yol vermək istəməyən bəzi tədqiqatçılar işini əvvəlcədən möhkəm tutur, nəticə yekunlaşdırılarkən eksperimental siniflərdə şagirdlərə bilavasitə kömək göstərir (izahat aparır, çətinlikləri yada salır, tapşırığı

yüngülləşdirir), müəllimə, sinfə tam sərbəstlik verirlər.

Onlar unudurlar ki, eksperimental siniflərdə yüksək nəticənin alınmaması, uğursuzluqla əlaqədar elmi nəticənin özü də elmə xidmətdir. Belə nəticə ilə tanış olan tədqiqatçılar gələcəkdə ona istinadən tədqiqatı başqa fərziyyə, başqa sistem, başqa priyomlarla aparacaq, problemin həlli ilə elmə yenilik gətirəcəklər. Bir çox hallarda eksperimentin nəticələrinin qeyri-obyektivliyi eksperimentatorun pedaqoji hazırlığımın zəifliyi və eksperimenti aparmağın metodikasını bilməməsi üzündən irəli gəlir. Eksperimentin məqsədi, gedişi, alına biləcək nəticə tədqiqatçının təfəkkürü süzgəcindən keçməli, düşünülmüş şəkildə planlaşdırılmalıdır. [10,səh 177]

Eksperimental tədqiqatda diqqət tələb edən cəhət nəzəriyyə ilə təcrübə, elmi müəssisə ilə təhsil tərbiyə ocağı alimlə müəllim, tərbiyəçi arasında qarşılıqlı anlaşmanın təmin edilməsidir.

Eksperiment əksər hallarda tədqiqatçının istiqaməti və nəzarəti ilə müəllim va tərbiyəçilər tərəfindən aparılır. Bəzən bu praktik vəzifəni eksperimentatoru özü yerinə yetirməli olur. Bu isə o qədər də asan məsələ deyil. Tədqiqatçı müəllimin vəziyyətində olmaq üçün çox çalışmaldir. Alim sinfə daxil olanda yalnız araşdırdığı məsələ ilə məhdudlaşmamalı, tədqiqatla bilavasitə əlaqəsi olmayan digər məsələlərin həllinə də hazır olmalıdır.

Tədqiqatçı ilə müəllim arasında mehriban əlaqə, elmi əməkdaşlıq olmasa, istər təcrübəsi öyrəniləndə, istərsə də eksperimental iş aparanda müəllim öz bacarığından maksimum dərəcədə istifadə edə bilməyəcək, təbii şərait yarat- mayacaqdır. Təbii şəraitin olmaması isə, şübhəsiz, müəllim-şagird münasibətlərinə də təsir göstərəcəkdir. Belə vəziyyətdə eksperiment obyektiv nəticə çıxarmağa imkan verməz. [9,səh 120]

Bir çox hallarda eksperimentin nəticələrinin obyektivliyi ona hazırlıqdan asılı olur. Eksperimentə başlamazdan əvvəl problemin nəzəri məsələləri, metodik ədəbiyyatda, məktəb təcrübəsində qoyuluşu təhlil olunmalı, həll edilmiş məsələlər aşkara çıxarılmalı, alınan nəticələr elmi əsaslarla qiymətləndirilməli, eksperimentin məqsədi və vəzifələri müəyyənləşdirilməli, tədqiqatın fərziyyəsi formalaşdırılmalıdır. Bunlar eksperimentatora şüurlu və inamla

hərəkət etmək imkanı verir.

Eksperimentə hazırlığın təşkilati cəhəti, xarici cəhəti də az əhəmiyyət kəsb etmir. Tədqiqatçının araşdırdığı problemdən asılı olaraq obyekt düzgün müəyyənləşdirilməlidir.

Eksperiment hadisələr arasında təkrarlanan davamlı, zəruri,mühüm əlaqələri tapmağa, başqa sözlə, pedaqoji proses üçün xarakterik qanunauyğunluğu öyrənməyə şərait yaradır. Adətən, pedaqoji hadisə təbii şəraitdə bilavasitə müşahidə yolu ilə öyrənilir. Eksperiment isə öyrənilən hadisəni digər hadisələrdən ayıraraq sınaqdan keçirmək imkanı verir. Elmi idrakın spesifik xüsusiyyəti ondadır ki, idrak fəaliyyətini elmi işçilər, tədqiqatçılar yerinə yetirirlər. Elmi idrak insanların idrak vasitələri, obyektləri və bilikləri əsasında yaranır. İnsan araşdırdığı hadisə ətrafinda nəzəri təhlil aparır, onu təfəkkür süzgəcindən keçirir, ciddi məntiqi mühakimələrin köməyi ilə müəyyən elmi nəticələrə gəlir.Elmi idrakdan fərqli olaraq kortəbii idrakın mənbəyi hər hansı obyektlə praktik fəaliyyətdir. Xalq pedaqogikası, dərman bitkilərindən istifadə buna misal ola bilər. [9,səh 121]

Təcrübə göstərir ki, bəziləri düşünməyin, araşdırmağın, elmi nəticə çıxarmağı, irəli sürdüyü ideyam sübuta yetirməyin çətinliyindən qaçaraq düzgün nəticənin əvvəlcədən göründüyü problem üzrə eksperiment qoyurlar. Halbuki təcrübənin öyrənilib, ümumiləşdirilməsi və tədqiqatının nəzəri hazırlığı (təfəkkürün gücünə arxayın olaraq fikri nəticə çıxarması) pedaqoji hadisənin mahiyyətinə daxil olmağa imkan vermədikdə, sübut olunması zəruri sayılan, alternativin ola biləcəyinə şübhə doğuran nəzəri müddəanın başqa yolla sübuta yetirilməsi mümkün olmadıqda tədqiqatçı eksperimentə müraciət etməlidir. Deməli, tədqiqat zamanı ziddiyyətin baş verdiyi, öyrənilən hadisənin şübhə altına alındığı halda, həqiqəti müəyyənləşdirmək üçün eksperimentə müraciət olunur. Tədqiqatın növü, xarakteri elmi problemin yaranmasından asılıdır. Elmi problemin mahiyyəti elmi istiqamətin, konkret tədqiqatın genişləndirilməsi, açılması nəticəsində büruzə verilir. Elmi problem çox vaxt təlim prosesində materialın mənimsənilməsi üzrə işin gedişində qarşıya çıxan çətinliyin məntiqi həlli ilə bağlı olur. Bəzən isə elmi problem sosial sifariş nəticəsində yaranan praktik

problem kimi özünü göstərir. Valideynlər, ictimaiyyət bütün məktəblilərin doğma diyarına sadiq asil vətəndaş kimi formalaşmasını, yaxud, bütün şagirdlərin əqli inkişafını, yaxşı oxumalarını tələb edir. Belə qlobal tələblər hom todqiqatçı pedaqoqların, həm da psixoloqların qarşı sında həllini gözləyən bir problem kimi durur. Valideynlər. cəmiyyət həmin problemlərin həlli üçün müəyyən biliklərin tətbiqi qaydasını tələb edir. Elmi problem baxımından araşdırma prosesində obyekt haqqında yeni biliklərin aşkara çıxarılacağı zənn edilir. Pedaqoji hadisənin, onda baş verən dəyişikliklərin və onların səbəblərinin daha dərindən başa düşülməsi üçün hadisənin baş verdiyi şəraitin dəyişdirilməsinə, tədqiqatın məqsədinə uyğun yeni şəraitin yaradılmasına çalışmaq lazım gəlir. Eksperiment prosesində tədqiqatçı ona yeni faktlar daxil etməklə hər hansı hadisəni öz arzusuna görə idarə edir, şüurlu şəkildə dəyişir, inkişaf etdirir. İ.Pavlovun dediyi kimi, o, təbiətin, situasiyanın təklif etdiyini deyil, istədiyini götürür. Bu zaman eksperiment faktorların mənbəyi olur, lakin eksperiment yalnız faktlar yığmağa xidmət etmir, həm də eksperimentatorun ixtiyarında olan praktik material üzərində düşünməsinə, həmin material əsasında mühakimə yürütməsinə, nəticə çıxarmasına təsir göstərir. Eksperiment həm də tədqiqatçının gəldiyi nəticələrin yoxlanmasının mühüm vasitələrindən biridir.

[ 9,səh 122]

Pedaqoji eksperiment təhsilin bütün sahələri ilə əlaqədar müxtəlif problemlər üzrə qoyula bilər. Məktəbəqədər tərbiyə və təlimdən başlayaraq ümumtəhsil məktəbləri, xüsusi məktəblər, texniki peşə məktəbləri, orta ixtisas və ali təhsil müəssisələri, məktəbdənkənar tərbiyə ocaqları, onlarda tərbiyə və təhsil alan körpələr, kiçikyaşlı məktəblilər, yeniyetmələr və gənclər, həmçinin müəllimlər, məktəb rəhbərləri, təhsil işçiləri, valideynlər, ictimaiyyətin nümayəndələri pedaqoji eksperimentə cəlb oluna bilər. [6,səh 67]

Pedaqoji ədəbiyyatda eksperimenti çox vaxt müşahidə,təcrübi işin məntiqi davamı, metodlar kompleksi hesab edirlər, çünki o, elmi idrakin metodlarından müşahidəni, müsahibəni, anketləşdirməni, məktəb sənədlərinin öyrənilməsini, təcrübi pedaqoji işin sosiometrik dəyişmələrini qismən əhatə edir.

Pedaqoji eksperiment bəzən təcrübi pedaqoji işlə (təcrübi təlimlə) qarışdırılır. Buna bir qədər aydınlıq gətirək. Təcrübi təlimi esperiment hesab edənlər çox vaxt dəqiq obyektiv nəticə ala bilmirlər. Təcrübi pedaqoji iş eksperimentdən nə ilə fərqlənir? Eksperimentdə tədris prosesi, onun vasitələri haqqında yeni biliklərin alınması nəzərdə tutulur. Həmin biliklərin təlim prosesində tətbiqi qaydasının doğruluğunun yoxlanması təcrübi iş hesab olunur. Təcrübi 15 təlimin real şəraitinə uyğunlaşırsa, eksperiment həmin şəraiti verilmiş məqsədə müvafiq şəkildə quraşdırır. Beləliklə, eksperiment didaktik vasitələrin qurulmasına, metod və priyomların nə dərəcədə faydalı olmasının müəyyənləşdirilməsinə xidmət edirsə, təcrübi iş onların korrekts olunmasına, müəllimlərin onlara alışmalarına, alınan nəticənin kütləvi şəkildə tətbiqinin mümkün olub-olmamasını müəyyənləşdirməyə xidmət edir.

Didaktikanın bu üsulu pedaqoji ideyanın, hipotezin təşkil edilmiş xüsusi şəraitdə öyrənilməsi və yoxlanılmasına xidmət edir. Eksperiment təlim prosesinə yeni məzmunun, metodlann və metodik üsullann, tədris işinin təşkili formalannın və s. düşünülmüş şəkildə təcrübəyə daxil edilməsini nəzərdə tutur. Eksperiment qoyulmuş məsələnin həllini, sonra isə bu hipotezin yoxlanılmasını nəzərdə tutan əsaslandınimış fərziyyənin tətbiqidir. Əsas məqsəd didaktik ideyalann, hipotezin faydalılığını öyrənib aşkara çıxarmaqdır. [12,səh 127]

Müşahidədən, müsahibədən və digər tədqiqat üsullanndan çıxanlan nəticələrin doğru olduğunu yoxlamaq məqsədilə eksperiment təşkil edilir. Didaktik tədqiqatlarda tətbiq olunan eksperimentlərin məzmunu əsasən aşağıdakı kimi olur: müəllimin, məktəbin iş planına tətdiqatçılan maraqlandıran yeni üsulların, materiallann daxil edilməsi və onların tətbiqi, səmərəliliyinin yoxlamiması; eyni şəraitdə tətbiq olunan müxtəlif metodların, üsullann və materiallann müqayisəsi; - müxtəlif şəraitdən asılı olaraq, işdə hansı variantların tətbiq olunmasının aydınlaşdırılması; uzun dövr müddətində işin yeni qaydada (məsələn, yeni proqramın, yeni dərsliyin, tədris işini təşkilin yeni formasımn yoxlanılması) qoyuluşu;

Eksperiment üç mərhələ üzrə həyata keçirilir: müəyyənedici, öyrədici, yoxlayıcı.

Müəyyənedici eksperiment mərhələsində tədris prosesində müəyyən məqsədlə müəyyənləşdirilməsi nəzərdə tutulan problemlə bağlı əsasən qüsurlar, çatışmazlıqlar üzə çıxanlır və onlann aradan qaldınıması üçün müvafiq tövsiyyələr hazurlanır. Həmin tövsiyyələrə uyğun olaraq öyrədici materiallar hazırlanır.

Öyrədici mərhələdə həmin öyrədici materiallar tətbiq olunur.

Nəticəsi isə yoxlayıcı mərhələdə yoxlanaraq, sınaqdan keçirilir.

Bəzi ədəbiyyatda eksperimentin yuxarıda sadaladığımız mərhələləri onun növləri kimi də təqdim edilir. Fikrimizcə eksperimentin mərhələlər üzrə aparılması elə onun özlüyündə növlərini də müəyyənləşdirir. Eksperiment bir qrup şagirdi, sinfi, bütöv bir tədris müəssisəsini əhatə etməsi, eksperiment aparmaq üçün planlaşdırma apanılması, eksperimentin yekunlaşdınimasında onun mərhələlərindən hesab edilir. Eksperiment həmişə yeni elmi ideyalann meydana çıxarılmasına. xidmət edir. Eksperiment nəticəsində əldə edilən yeni ideya, təcrübədə, təlim prosesində müəyyən dəyişikliklər həyata keçirməyə gətirib çıxanr. Öz-özlüyündə məlumdur ki, eksperimentin tətbiqi ilə hər bir tədqiqat işi alınmış bütün materialın özünəməxsus tərzdə işlənilməsi, tədqiqat mövzusu üzrə obyektiv nəticələri almaq üçün təcrübəni dərindən və hərtərəfli təhlil etməyi tələb edir. [5]

Eksperiment yeniliyin adı ilə, yaxud yeniliyin müxtəlif variantlan arasında müqayisəni nəzərdə tutur. Sinifdə apanlan eksperiment ayrı-ayrı şagirdlərin eksperimentə qədər dərslərinin laboratoriya qaydasında öyrənilməsi və bundan sonra yoxlanılan materiallann şagirdlər tərəfindən biliklərin, qabiliyyətlərin və vərdişlərin mənimsənilməsinə təsirini dərindən aydınlaşdırmaq, çətinlikləri və nöqsanları tapmaq, uşaqlara fərdi yanaşma yollan axtarmaq üçün əlaqələndirilə bilər. Bəzən tədqiqatçı üçün şagirdlərin yazı işlərinin, onlann kalliqrafiya qaydalanna necə əməl etməsini öyrənmək, hansı səhvlərə yol verdiyini, hansı sahələrdə çətinlik çəkdiyini, biliyindəki çatışmazlıqları aşkara çıxarmaq zərurəti yaranır. Bu zaman məktəb sənədlərinin və şagirdlərin yaradıcılıq məhsullarının öyrənilməsi bu sahədəki vəziyyəti aşkara çıxarmağa imkan verir. Mümkün olan amillərin eksperimentə təsirini aradan qaldırmaq və nəticənin tam obyektivliyini təmin etmək nəqsədilə

çarpazlaşan eksperimentdən istifadə edilir. Burada paralel sinifdə və ya məktəblərdə tətbiq olunan iş tərzlərinin yeləri dəyişdirilir və eksperiment davam etdirilir. Qarşıya qoyulmuş məqsəddənaslı olmayaraq eksperiment 3 mərhələdə(eksperimentin planlaşdırılması, aparılması və yekunlaşdırılması) aparılır.

Eksperimentçi pedaqoqlar pedaqogika elmində az iş görməmişlər. Onlar- dan çoxu pedaqoji nəzəriyyənin qızıl fonduna daxil olmuşlar. Müəyyən səbəblər üzündən XX əsrin 30-cu illərinin ortalarında SSRİ-də pedaqoji problemlər üzrə eksperimental tədqiqatlar dayandırılmış və ancaq 70-ci illərdə yenidən bərpa olunmuşdu. .[ 11, səh 24]

Adətən yazırlar ki, pedaqogika eksperimentləri təbiət elmlərindən götürülmüşdür. Çətin ki, bu həqiqətə uyğun olsun. Halbuki, hələ eramızdan əvvəl IX-VIII əsrlərdə Likurq sosial-pedaqoji eksperiment qoyarkən, təbiat elmlərində bu heç yada da salınmırdı. O zaman görün nə baş vermişdi.

Təqribən 30 əsr əvvəl müasir Yunanıstanın ən cənub hissəsində, Peloponnes yarımadasında güclü Sparta dövləti vardı. Vəziyyət elə gətirmişdi ki, dövlətin taxt-tacına çar Xarilayın azyaşlı oğlu varis olmuşdu. O, ölkəni idarə edə bilmədiyindən, bütün dövlət hakimiyyəti onun qohumu olan dayısı Likurqun əlinə keçmişdi.

Likurq təbiəti çox sevən və müşahidə qabiliyyəti olan şəxs imiş. O, təbiət hadisələrini öyrənməyi sevərmiş və bunun üçün çox çalışarmış. Başlıcası odur ki, öz müşahidələrindən cəsarətli nəticələr çıxarmaqdan da çəkinməzmiş.

Bir gün o, yeni doğulmuş iki it küçüyünü dərin çalada, digər ikisini isə sərbəst olaraq böyüdür. Küçüklər böyüdükdən sonra əmr edir ki, onlar olan yerə dovşanlar buraxsınlar. Bu zaman gözlənilən nəticə baş verir. Sərbəst böyüyən küçüklər dovşanları qovaraq, onları tutub parçalayırlar. Çalada böyüyən küçükler isə biganəliklə aradan çıxırlar.

Likurq tarixi insan müdrikliyinin nümunəsi sayılan bir sıra qanunların müəllifi kimi daxil olmuşdur. Bunlar yüz illər ərzində heç bir dəyişikliyə uğramadan tətbiq olunmuşdur. Sparta vətəndaşları sağlam və sakit həyat tərzi keçirirdilər. Onlar ölənə kimi əsgərlik edir, şəxsi məişətlərinə çox diqqət yetirir, ancaq ümumi

yeməkxanalarda nahar edirdilər. Uşaqlar təcrübəli müəllimlərin rəhbərliyi altında dövlət məktəblərində tərbiyə alırdılar.[ 11, səh 25]

Eksperimentə xas olan bir sıra metodoloji əlamətlər mövcuddur. Belə əlamətlər sırasında aşağıdakıları qeyd etmək olar: eksperimental tədqiqatın obyektinin eyni kateqoriyalı, tipli olması; köhnə fi kir və ideyalara istinad edilməsi; tədqiqat parametrlərinin kəmiyyət və keyfi yyət ölçüləri; nəticələrin təhlil və tətbiq edilmə imkanları; səbəb və nəticə əlaqələrinin qanunauyğunluqlarının üzə çıxarma istiqaməti; tədqiqatçının pdaqoji prosesə aktiv müdaxiləsi.Pedaqoji tədqiqatda eyni tip dedikdə diqqət mərkəzində tədqiqata cəlb edilən məktəbli, tələbə, ya da qrup, kollektiv (şagird və ya müəllim kollektivi) və s. dayanır. O da məlumdur ki, onların keyfi yyət parametrləri də eyni ola bilməz. Onların fərdi psixoloji xüsusiyyətləri heç vaxt üst-üstə düşə bilməz. Pedaqoji baxımdan da onların formalaşmasına cürbəcür vasitələr təsir edə bilər və bunlar da pedaqoji eksperimentin ayrı-ayrı mərhələlərində başqa-başqa təsir gücünə malik ola bilərlər. Köhnə fikir və ideyalara tədqiqatçının yeni yanaşmasının necə olması da əsas tələblərdəndir. Yeni təlim metodları, kollektiv anlayışına yeni yanaşmalar, siyasi mədəniyyət, dünyagörüşünə yeni yanaşmaları və s. buna misal göstərmək olar. Eksperimentin planlaşdırılıb aparılmasında bir sıra şərtlərə əməl edilməsi əsas tələblərdəndir.

Eksperimentə saysız-hesabsız daimi və təsadüfi amillər təsir göstərir. Obyektiv nəticənin alınması üçün lazım olmayan təsirlərə yol vermək olmaz. O, aşağıdakı şərtlərin gözlənilməsini vacib hesab edir: [9,səh 129].

– eksperimentin aparılacağı təhsil müəssisələrinin növünü müəyyən etmək (məktəbəqədər müəssisələrdən başlayaraq ali məktəbə qədər);

eksperimentin kimlərlə (təhsil alanlarla, yoxsa təhsil verənlərlə) aparılacağını müəyyən etmək;

eksperimentə cəlb ediləcək subyektlərin sayının müəyyən edilməsi (3, 5, 10, 20, 30, 40 və s.);

eksperimentin aparılması coğrafi yasını müəyyən etmək (şəhər, rayon, kənd, qəsəbə);

təhsil müəssisələrinin maddi bazası, tədris avadanlıqları,

müəllim kadrların hazırlığının nəzərə alınması;

eksperimentə rəhbərlik imkanlarının nəzərə alınması (frontal, differensial, şifahi və ya yazılı sorğuların keçirilməsi);

eksperimental tədqiqatların əksəriyyətində müqayisə yolu ilə effektliyi sübuta yetirməyə imkan verən alternativ tərəfi n (kontrol sinif və ya məktəblərin) müəyyən edilməsi;

tədqiqat obyektlərinin tərbiyəlilik və ya bilik səviyyəsinin eyni olması .

Eksperimentin aparılması prosesində kənar təsirlər, müdaxilələr yol verilməz haldır. Kənar təsir və müdaxilələr eksperimentin təbii axarına, real nəticələr əldə olunmasına mənfi təsir göstərə bilər. [8,səh 59]

Eksperimentin ilkin mərhələsində kontrol və eksperimental məktəb, sinif və ya qruplar müəyyənləşdirilir. Eksperimentin nəticələrinin doğru olması üçün obyekt və ya obyektlərin keyfi yyət göstəriciləri də eyni olmalıdır. Hər hansı bir sinif və ya qrupa xüsusi istedadı olan şagirdləri toplayıb eksperimental sinif və ya qrup adlandırmaq yolverilməzdir. Həmin sinif və ya qruplarda əldə edilən nəticələri real dəyər kimi qəbul etmək də olmaz. Şagirdlərin fərdi xüsusiyyətləri, psixoloji durumları eyni olmadığından, on-ların fəaliyyətinin nəticələri, keyfi yyət göstəriciləri də eyni ola bilməz. Bütün bunları nəzərə almaq, düzgün nəticələr çıxarmaq eksperimentatordan xüsusi ustalıq tələb edir. Burada fərdi bilik, bacarıq, vərdişlər, obyektin pedaqoji prosesə marağı, meylləri, yönümü və motivləri nəzərə alınmalıdır ki, bunlara müvafi q eksperimental işi düzgün təşkil etmək mümkün olsun.

Tədqiqat predmetinin xüsusiyyətlərinə uyğun eksperimental iş qısa müddətli və ya uzun müddətli ola bilər. Əgər tədqiqatın predmeti ibtidai sinif şagirdlərinin ayrı-ayrı siniflərdəki təlim motivlərinə aid müəyyən edilirsə, I sinif şagirdləri ilə aparılan eksperimental iş bir il, II sinif şagirdləri üçün iki il, III siniflər üçün üç və dörd il, yeniyetməlik dövrünü əhatə edirsə, beş il, yuxarı sinif şagirdləri üçün üç ilə aparıla bilər.

Eksperimental işin predmeti I-XI sinif şagirdlərinin formalaşması dinamikasını əks etdirirsə, eksperimental iş 11 və daha çox müddəti əhatə edə bilər. [8,səh 60].

## Ədəbiyyat


1. Bədəlova Ə. Təlim-Tərbiyə. Bakı, 2015, 294 səh
2. Feyziyev C.Ə., İbrahimov F.N., Bədiyev S.R. Didaktika Bakı, 2011, 623 səh
3. https://aztehsil.com/pedoqojitcrb/695-pedaqoji-eksperiment.html
4. https://pedaqoji-təkayzen.az/blog/pedaqoq/401/dqiqat-və-onun-metodları.html
5. https://www.academia.edu/41024418/Pedaqogika
6. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı, 2008, 234 səh
7. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, 2011, 458 səh
8. Məmmədov K. Elmi-Tədqiqat işlərinin Metodikası. Bakı, 2013, 104 səh
9. Kərimov Ə. Pedaqoji Tədqiqat metodları. Bakı, 2009, 279 səh
10. Paşayev Ə., Rüstəmov F. Pedaqogika (yeni kurs). Bakı, 2010, 464 səh
11. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Bakı, 2012, 548 səh
12. Sadıqov F.B Pedaqogika -Bakı Biznes Universitetinin nəşriyyatı, 2006 səh 556


# İNKİŞAFETDİRİCİ MÜHİTİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ROLU


***Aytən Təmraz qızı Daşdəmirova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***“Ümumi pedaqogika” kafedrasının müəllimi***
***aytentt@icloud.com***


Şəxsiyyətin formalaşdığı gerçək reallığa mühit adlanır. Şəxsiyyətin inkişafında sosial mühit mühüm əhəmiyyətə malikdir. Ətraf mühit insanın yaşadığı, formalaşdığı və sosial, maddi, mənəvi fəaliyyətini əhatə edən təbii şərtlər, habelə bu şərtlərin qarşılıqlı əlaqəsidir. Ətraf mühit - kortəbii olaraq bir insana və onun inkişafına təsir edən xarici hadisələr toplusudur.

Sosial mühitdə insan ictimailəşir - sosial təcrübəni, dəyərləri, normaları, münasibətləri mənimsəyir, sosial əlaqələr sistemində fəal iştirak edir. Eyni zamanda müstəqil olaraq cəmiyyətdə öz müqəddəratını təyin etmənin təsirli yollarını tapır. İnsan yalnız ətraf mühitdən asılı deyil, həm də aktiv bir varlıqdır. Ətraf aləm birbaşa obyektiv mühitdir. Şəxsiyyətin formalaşmasına ətraf mühitin təsirindən danışanda, ilk növbədə, sosial və məişət mühiti nəzərdə tutulur.

Ətraf mühit uşağın meyllərini, maraqlarını, fəaliyyət səviyyəsini nəzərə almaq və fərdiliyinin ən səmərəli inkişafı üçün məkan hesab olunur. Uşağın zəngin və maraqlı həyatı üçün hər cür şəraiti olan parlaq, bənzərsiz dünya yaratmaq lazımdır. Uşaq günün çox hissəsini bağçada olur və ətraf mühitin onun sevinməsinə, onda müsbət emosiyalar oyanmasına, zövqünün inkişafına töhfə verməsi lazımdır. Uşaq bağçasında estetik dizayna xüsusi diqqət yetirilir, çünki uşaqların şəxsi keyfiyyətlərinin formalaşmasında ətraf mühit böyük rol oynayır.

İnkişafetdirici mühitin əsası ailədə və daha sonra məktəbəqədər təhsil müəssisəsində qoyulur. Çünki uşaq üçün kiçik yaşdan etibarən ailədə münbit şəraitin yaradılması vacib məsələdir. Daha sonra bu iş məktəbəqədər təhsil müəssisəsində davam etdirilir.

Uşaq bağçasında təhsil prosesinin keyfiyyətinə təsir edən əsas komponentlər belə müəyyən edilir:

• pedaqoji prosesin tədris-metodiki materiallarla təchiz edilməsi;
• təhsil prosesi iştirakçılarının qarşılıqlı əlaqəsi;
• inkişafetdirici təlim mühitinin yaradılması.

Uşaq bağçasının tədris-metodiki təchizatı müəllimlərə tədris prosesini kifayət qədər yaxşı səviyyədə aparmağa imkan verir. Uşaq bağçasında əsas ümumi təhsil proqramının həyata keçirilməsi üçün aşağıdakı təhsil sahələrində işin aparılması zəruridir:

• fiziki inkişaf;
• sosial və kommunikativ inkişaf;
• bədii və estetik inkişaf;
• koqnitiv inkişaf;
• nitqin inkişafı.

Adlarını qeyd etdiyim məsələlər inkişafetdirici mühit üçün bir çox vacib nüansları özündə birləşdirir. Belə ki, istər fiziki, istər sosial, istərsə nitq və digərləri uşaqların sağlamlıqları, bir-biri ilə ünsiyyət saxlamaları üçün mühümdür.

Pedaqogikada tərbiyə amili kimi ətraf mühitə gəldikdə isə biz insan mühitini, orada qəbul edilən münasibət və fəaliyyət normalarını nəzərdə tuturuq. Müasir pedaqogikada "inkişaftdirici mühit" anlayışı var (uşağa ən təsirli təsir göstərmək üçün xüsusi şəkildə qurulan). Bəzi müəlliflər insanın inkişafında tərbiyənin əhəmiyyətini əsaslandırmaq üçün təhsilin təsiri altında psixikanın yeni fikirlər əldə etdiyini qəbul edirlər. Bu məqsədlə yetişən nəsildə tərbiyə işlərini asanlaşdıran inkişafetdirici mühitin yaradılması zəruridir.

Müasir məktəbəqədər pedaqogikada tərbiyə və təhsil prosesinin humanistləşdirilməsi, uşaqların psixi və fiziki sağlamlığının qorunması və möhkəmləndirilməsi, onların hərtərəfli inkişafı vəzifələri ön plana çəkilir. Eyni zamanda müasir təhsil sistemində inkişafetdirici mühiti yaratmadan bu problemin həlli mümkün deyil. İnkişafetdirici mühit dedikdə, məkan və zamanda rasional şəkildə təşkil edilmiş, müxtəlif obyektlər və oyun materialları ilə təmin edilmiş təbii rahat mühit başa düşülməlidir. Belə bir mühitdə qrupdakı bütün uşaqları eyni vaxtda aktiv idrak və yaradıcı fəaliyyətə daxil etmək mümkündür.

İnkişafetdirici mühit uşağın inkişafının bütün aspektlərinə formalaşdırıcı təsir göstərir: əqli, fiziki, əxlaqi, estetik və s.

Uşaqların fiziki vəziyyəti əsasən onların emosional rahatlığı ilə müəyyən edilir. Eyni zamanda ətraf məkanın kifayət qədər mənimsənilməsini təmin edən avadanlıqlar uşaqların sağlamlığı və vaxtında fiziki inkişafı üçün əsasdır. Digər bədən funksiyaları ilə müqayisədə formalaşması daha uzun sürən dayaq-hərəkət aparatının vaxtında yetişməsi, uşağın aktiv hərəkət etməsi üçün çox vacibdir.

Məktəbəqədər yaşlı uşaqların həyatının bütün aspektləri ilə əlaqəli olan zehni inkişafına xüsusi diqqət yetirilməlidir. Geniş və dar mənada mühit körpənin idrak fəaliyyətinin formalaşmasına təsir göstərir.

Həyatın erkən dövründə uşaq dünyanı özünəməxsus şəkildə, emosional-sensor şəkildə öyrənir. Həm də yalnız səthi olanı, onun

görmə və dərki üçün əlçatan olanı mənimsəyir. Bununla belə müəllim nəzərə almalıdır ki, ilk bilik reallığın sonrakı inkişafında öz əhəmiyyətini saxlayaraq, ətraf aləm haqqında bilikdə əsas rol oynayır. Buna görə də, uşağı əhatə edən obyekt mühiti uşağın idraki inkişafına uyğun sadələşdirilmiş şəkildə başa düşülməlidir. Həyatın bu dövründə uşaq təəssüratları toplayır və hiss təcrübəsini genişləndirir. Uşaq ətrafındakı dünyada gəzməyi öyrənir, onda bilik sistemi formalaşmağa başlayır ki, bu da məcazi mənada beynin "rəflər"ində yerləşdirilir. Bu prosesin nizamlanması gələcəkdə böyük ölçüdə idrak fəaliyyətinin inkişafı üçün məzmunun, materialın və üsulların seçilməsinə gətirib çıxarır.

İnkişafetdirici mühit uşaqların təhsil və tərbiyəsinin bütün komponentlərinin həyata keçirilməsinə kömək etməlidir. Uşaqların hərtərəfli inkişafı, tərbiyəsi və təhsili yalnız müəyyən şərtlər daxilində həyata keçirilə bilər:

- Uşağın yanında sevgi dolu, anlayışlı, məsuliyyətli və yüksək peşəkar tərbiyəçi-müəllimlər olmalıdır;
- Uşaq üçün onların yaşına uyğun əşyalar və oyuncaqlarla təmin edilmiş inkişafetdirici mühit yaradılmalıdır;
- İnkişafetdirici mühiti emosional rahatlıq, əyləncə və təhsil üçün təlim materialları ilə doldurmaq vacibdir.

Uşaq üçün mühit onun həyatının inkişaf etdiyi məkandır. İnkişafetdirici təlim mühiti - uşağın fəaliyyətinin maddi obyektlər sistemi, uşaqların müxtəlif fəaliyyətini təmin edən sosial və obyektiv vasitələrin birliyidir. Bu mühit uşağın şəxsiyyətinin qurulmasının təməli kimi qəbul edilməlidir.

İnkişafetdirici təlim mühiti böyüklər və uşaqlar arasında qarşılıqlı əlaqədə vasitəçi rolunu oynaya bilər və etməlidir. Burada uşaq öz təcrübələrini başqaları ilə bölüşə, həyatını və fəaliyyətini qura bilər. Bu mühit uşağın sevinclə məşğul olduğu və mümkün qədər uzun müddət qalmaq istədiyi ikinci ev olmalıdır. Ətrafdakı məkanı elə qurmaq lazımdır ki, hər bir uşaq orada özünü rahat hiss etsin, öz fərdiliyini dərk etmək, qrupdakı digər "şəxsiyyətlər" arasında "şəxsiyyət" olmaq imkanı əldə etsin.

Beləliklə, inkişafetdirici təlim mühiti uşağın şəxsiyyətinin formalaşmasının əsas vasitəsidir, onun bilik və sosial təcrübəsinin

mənbəyidir. Uşaq bağçasında uşaqları əhatə edən mühit onların həyatının təhlükəsizliyini təmin etməli və sağlamlığını möhkəmləndirməlidir.

## MÜASİR MÜƏLLİM MODELİ


***Təranə Əsgər qızı Tağıyeva***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi***
***tarana.tagiyeva 56@mail.ru***


Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda göstərilmişdir: ”Təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması üçün zəmin yaradır. Təhsil insana texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir”. Son illər elm və texniki tərəqqinin sürətlə inkişaf etməsi insan təfəkkürünün də inkişafına səbəb olmuşdur. İnformasiyaların sürətlə çoxaldığı bir şəraitdə müəllimin funksiyası daha çox artır. Bu, bir tərəfdən pedaqoji biliklərin daim yeniləşməsi və inkişaf etməsi, həmçinin siyasi və mədəni aləmdə böyük dəyişikliklərin baş verməsi ilə əlaqədardır. İnnovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənlərin formalaşdırılması tələb olunur. Bəs, müasir müəllim nə cür olmalıdır?

Müəllimin məhsuldar fəaliyyətini təmin edən əsas amillərdən biri pedaqoji ustalıqdır. Ustad müəllim tədris materialının öyrənən tərəfindən müstəqil, şüurlu və yaradıcı tərzdə mənimsənilməsinə nail olmaqla yanaşı, onların vətəndaş kimi formalaşmasını və fəal həyat mövqeyi qazanmasını təmin edir.O, həm də pedaqoji texnikaya yaxşı yiyələnmiş olur. A.Makarenko zahirən əhəmiyyətsiz görünən, lakin pedaqoji prosesdə həlledici əhəmiyyəti olan zahiri görkəmə, geyimə, necə dayanmaq, stol arxasında necə oturmaq və necə qalxmaq, səsi necə idarə etmək, necə gülümsəmək kimi detallara xüsusi diqqət yetirirdi.

Müəllimin bacarıqları aşağıdakı amillərlə təyin olunur:

* ümumi mədəni səviyyəni əks etdirən bacarıqlar;
* metodoloji bacarıqlar;
* fənyönümlü bacarıqlar.

Bu bacarıqlara əsasən müəllim:

* ilk növbədə uşaqları sevməli, onları necə varsa –ağıllı, istedadlı, intizamlı, tənbəl və ya nadinc- qəbul etməlidir;
* yenilikçi, yaradıcı düşüncəyə malik olmalıdır;
* bilikli olmalıdır. Hər şeyi bilmək ondan tələb də olunmur. Müasir dövrün uşaqları onları maraqlandıran məlumatları kompüterdən ala bilirlər. Büna rəğmən, müəllim öz ixtisasını dərindən bilməlidir. Həm də bu biliklərə dinamik yanaşmağı, onların ardıcıl və sistemli olaraq inkişaf etdirməyi vacib bir məsələ kimi qarşısına qoymalıdır;
* klassik təcrübəyə söykənməklə yanaşı, qabaqcıl təcrübələr əsasında öz işini qurmağı bacarmalıdır;
* həmişə dərsə hazır olmalıdır. Müəllim dərs zamanı nə edəcəyindən əmin olmayanda, şagirdlər dərhal bunu hiss edirlər,
* aydın izah etməyi, materialı təqdim etməyi bacarmalı,oyrənməyi öyrətməlidir;
* alınan biliyi həyati bacarıqlara çevirməyi bacarmalıdır;
* bilikləri bir-biri ilə uzlaşdıraraq yeni bir bilik yaratmağı bacarmalıdır;
* sakit və səbrli , təmkinli olmalıdır;
* özünə tənqidi yanaşmalı, öz səhvlərini görməyi və lazım gələrcə, üzr istəməyi bacarmalıdır . Səhv fikirdir ki, müəllim hər bir halda haqlıdır. Hamı səhv edə bilər. Lakin müəllimin səhfi həkimlərinki kimi çox sonralar üzə çıxır;
* uşağın dostu, psixoloqu olmalıdır .Kiçikyaşlı məktəblilərin özlərini yaxşı hiss etmələri üçün məktəbə daxil olduqları andan onlar üçün ən əziz məxluq olan ananı əvəz etməlidir.. Çünki uşaqların hər an müəllimin qayğısına,diqqətinə, dəstəyinə ehtiyacı var;
* müəllim-şagird, şagird-şagird, şagird-müəllim-valideyn ünsiyyətini qurmağı bacarmalıdır;
* mədəni olmalı,davranışı, geyimi, hərəkətləri ilə şagird üçün nümunə olmalıdır;

* ədalətli olmalıdır. Müəllimdən böyük ustalıq tələb edilir ki, obyektiv olsun, vəziyyəti düzgün qiymətləndirə bilsin;

* öz işini sevməlidir. Peşəsini sevən müəllim uşaqlar üçün yaradıcı gecələr, ekskursiyalar, gəzintilər təşkil edir, onları layihələrə, məktəb və rayon səviyyəsində müsabiqələrə hazırlaşdırır. Məktəbin saytında bu barədə xəbərlər, müəllimlərin portfoliosunda isə diplomlar, sertifikatlar, fəxri fərmanlar olmalıdır;

* peşəkar, işinin ustası olmalıdır. Səriştəli olmağı, apardığı pedaqoji işi böyük ustalıqla həyata keçirməyi bacarmalıdır;

* sinifdə öyrədici mühit yaratmalıdır. Uşaqlarla ünsiyyət qurmalı, onların sevgi və hörmətini qazanmalıdır. Müəllim hər zaman uşağın əhvali-ruhiyyəsini anlamalı, onun sağlamlığının qeydinə qalmalı, asudə vaxtından düzgün istifadə etməsində ona yardımçı olmalıdır;

* şagirdlərinin potensial imkanlarının üzə çıxarılması üçün şərait yaratmalıdır;

* əyani vasitələrdən, yeni təlim üsullarından və elektron məlumatlardan geniş istifadə etməlidir. Bu, dərsin daha yaxşı mənimsənilməsinə kömək edir. Qeyri-standart dərslər, oyunlar uşaqlarda boyük maraq oyadır.

* innovasiyalara ( yeniliklərə) hazır olmalı və daim inkişaf etməyə can atmalıdır;

* təlimlərdə, kurslarda iştirak etməlidir;

* yaradıcı dərslər verməlidir;

* müsabiqələrdə iştirak etməlidir;

Dünyada tanınmış məşhur müəllim və mütəfəkkir Yan Amos Komenski demişdir: "İnsanları elə öyrətmək lazımdır ki, onlar mümkün qədər bilikləri kitablardan yox, səmadan və torpaqdan, palıd ağacı və fısdıqdan ala bilsinlər, yəni hər bir kəs hadisələri, əşyaları, bütün baş verənləri özü öyrənib, təhlil edib dərk etməli və başqalarının müşahidə və dəlilləri ilə kifayətlənməməlidir". Nəticə olaraq, deyə bilərik ki, müasir müəllim hər şeyi şagirdlərə hazır şəkildə verməməli, şagirdlərin də müstəqil düşünmələrinə, təcrübə və müşahidələr aparmasına, təhlil etməsinə, məntiqi nəticələr çıxarmasına çalışmalıdır.

# MÜASİR MÜƏLLİM MODELİ

***Nəzakət İbrahim qızı Zamanova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti(müəllim)***
***Xəzər Universiteti( doktorant)***
***zamanovanazakat13@gmail.com***

Rəqəmsal dünyada informasiya cəmiyyətində sürətli dəyişikliklər baş verir, bu dəyişikliklər cəmiyyətin bütün həyatını iqtisadi, siyasi, mədəni sahələrdə təsir etməklə yanaşı, bütövlükdə sosial mühütündə yeni tendensiyalara səbəb olur. Yeni baxışlar, dəyərlər, meyarlar yaranır. Müasir texnologiyalarının vastəsilə insanlar zaman və məkandan aslı olmayaraq əlaqə yarada bilirlər. Bu əlaqələr milli iqtisadiyyatı dünya iqtisadiyyatına, milli təhsili qlobal təhsilin bir parçasına çevirə bilir. Bütün sahələrdə olduğu kimi elmdə və təhsildə böyük dəyişikliklər baş verir. Bu dəyişikliklər bir çox peşələrin aradan çıxmasına və yenilərlə əvəz edilməsi ilə müşayət olunur. Amma müəllimlik peşəsi həmişə mövcud olub və olmaqda da davam edir və edəcək. Bu peşənin tarixi peşələr içərisində ən qədim olub insanlıq tarixi ilə üst-üstə düşür. İnovativ texnologiya müəllimin işini asanlaşdıra bilər amma rolunu dəyişdirə bilmir. Təməl prinsiplər saxlanılmaqala bu peşənin dövrə görə rolu və funksiyaları dəyişir. Müəllim peşəsi dinamik, stiutativ ollub sağlam təhsil mühitin formalaşmasında da payı olan subyektlərdən biridir.

Xüsusilə cəmiyyətin inkişaf aqoritmlərinə təsir gücünə və hər kəsin formalaşmasında əməyi olan müəllim kadrlarının üzərinə tale yüklü məsələlər düşür. III minillikdə müəllim yeniliyə uyğun fədin formalaşmasında əsas fiqurlardan biridir.Yeniliyə adekvatlığı təmin etməklə yanaşı, eyni zamanda hadisələrə milli məfkurə ilə yanaşmağı bacarmalıdır. Əlbətdə güclü infrastrukturla yanaşı kompleks işlərin görülməsini gərəkdirir.[2]

Hər bir ölkənin gücü onun elm və təhsil müəssisələriin gücü ilə ölçülür. Keyfiyyətli təhsil fərdin inkişafına, fərdin inkişafı cəmiyyətin inkişafına, cəmiyyətin inkişaf isə dövlətin inkişafı deməkdir. Fərdin inkişafının başlanğıcının əsasını qoyanlardan

biridə müəllimdir. Bəzən müəllimi ikinci valdeyin adlandırırlar. Gələcəyimizin əmanətçiləri sayıla müəllimlər zaman və öyrənənlər arasında əlaqənin yaradılmasında əsas rol oynayılar. Halhazırda rəqəmsal dünyada, informasiya cəmiyyətində yaşayırıq və bu dövrdə sürətli dəyişikiklər baş verir. Baş berən dəyişikliyə adekvatlığın təminatında müəllim kadrlarının üzərinə böyük vəzifələr düşür.Təbiki yenilikləri tarixi təcrübi bazadan varislikdən, görkəmli səxsiyyətlərin bizə buraxdıqları ideya irsindən yararlanmaqla yanaşı müasir metodlarla inovativ yollarla nail olmaq mümkün ola bilər. Biliyin baza hissəsi verildikdən sonra təcürbi yollarla dərslər qurulmalıdır .Təhsil dinamik stiuatvdir.

Rəqəmsal dünyada müəllimdən gözləntilər konkret olaraq hansılardır?

Ugurlu müəllim modeli necədir?

İdeal müəllim kimdi

Uğurlu müəllim formulu varmı?

Əslində bu suallar mahiyyət formas ilə eyni olsa da məzmun forması ilə fərqli və o qədər də incə mürəkkəb çox məsələlərin həlli dayanır.

Təməl prinsiplər saxlanılmaqala bu peşənin dövrə görə rolu və funksiyaları dəyişir. Müəllim peşəsi dinamik, stiutativ ollub sağlam təhsil mühitin formalaşmasında da payı olan subyektlərdən biridir.

Müəllimin intelekt səviyyəsi, ixtisas sahəsi biliyi, tədris təcrübəsi, peşəkarlığı təhsilalanın arzu və istəyinin reallaşdırılmasında rol oynaya bilər. Məlumdur ki, təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşması müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların arzusu reallaşdırıla bilər və əlbəttə pedaqoji proseslərin qanun-qaydaları, forma və metodlarına əməl edilən innovativ idarəetmə sistemi və sağlam mühit olarsa. Eyni zamanda müəllimin milli kimliyinin qorunması və statusunun cəmiyyət və dövlətin qayğısı olarsa.

“ Hər bir ölkədə təhsilin keyfiyyəti əsasən onun müəllim ordusunun keyfiyyətindən qaynaqlanır. Odur ki, müəllim təhsilinin keyfiyyətini yüksəltməklə tədris və təlimin keyfiyyətinin yüksəldilməsində sıçrayışa nail omaq mümkündür.”[5]

## Ədəbiyyat


1. İsaxanlı, H.A. Müasir dünyada ali təhsil sistemində nələr baş verir və 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqramı necə olsa yaxşıdır / H.A.İsaxanlı. – Bakı: Xəzər Universiteti, – 2008. – 116 s.
2. Nazakat İbrahim Zamanova.The impact of digitization on science and education//7th International New York Conference on Evolving Trends in Interdisciplinary research And Practices 2022.p341-342
3. bill-gatese-gore-gelecek-bes-sene-icinde-internet-en boyuk eitim kaynagi-olacak.html. [Elektron resurs] /– Türkiyə, –01,2022,
4. http://wwwteknoblog/com/interne
5. https://ec2018.ada.edu.az › files › AfetSuleyman
6. https://tehsil.biz/news/az/2830/Sinqapur


## TƏHSİLİMİZİN BÖYÜK HİMAYƏDARI


***Gülmira Sahib qızı Hacıyeva***
***Pedaqogika üzrə fəlsəfə doktoru, Naxçıvan Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasının baş müəllimi.***
***gulmirahaciyeva90@gmail.com***


Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı müasir müstəqil Azərbaycan Respublikası regionun ən nüfuzlu, qüdrətli və sabit ölkəsidir. Ölkəmiz haqq, ədalət uğrunda mübarizədə, işğal edilmiş ərazimizin azad edilməsində qalib ölkə kimi dünyada tanınır. Ölkəmizin iqtisadiyyatı, sənaayesi, maarif və mədəniyyəti getdikcə inkişaf edir, dünya standartlarına uyğun olaraq müstəqi olaraq öz yolunu davam etdirir. Bütün bu uğurların, bu qələblərin təməli ulu öndər Heydər Əliyev dövründən qoyulmuşdur.

Müstəqilliyimzin ilk illərindən başalayaraq təhsilin əsil himayədarı kimi dahi rəhbər təhsilimzin inkişafına, tərəqqisinə xüsusi diqqət və qayğı göstərdi. O yaxşı bilirdi ki, hər cür inkişafın, bütün

uğurların, qələbələrin təməlində təhsil dayanır. Təhsiilsiz heç bir inkişaf ola bilməz. Təhsilin cəmiyyətin tərəqqi və inkişafında xüsusi rolu olduğunu dəyərləndirən Heydər Əliyev deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir" (1, s.438).***

Təhsilin cəmiyyətin inkişafında rolunu və insan şəxsiyyətinin hərtərəfli formalaşmasında vacibliyini qiymətləndirən Heydər Əliyevin bu sahədə qəbul etdiyi sərəncamlar, dəyərli göstəriş və tövsiyələr bu gün də aktual və əhəmiyyətlidir.

Ulu öndər yetişən gənc nəslin düzgün tərbiyə olunmasını və onların həyatda fəal mövqe tutmasını, hərtərəfli inkişafını ilk növbədə mükəmməl təhsildə, xalqımızın milli-mənəvi dəyərlərini mənimsəməkdə görürdü. O məktəbdən, müəllimdən, təhsilədn danışarkən çox böyük hörmətlə, məhəbbətlə danışırdı. Bu da şübhəsiz onun ilk peşə itisas təhsilinin pedaqoji peşə olmasından irəli gəlmişdir.O müəllimlərini həmişə böyük hörmətlə xatırlayır, onların adlarını çəkir, tədris etdiyi fənlər haqqında böyük həvəslə danışr. Burada qeyd edək ki, Heydər Əliyev harada təhsil almışdırsa orada onun qiymətləri yalnız "əla" qiymətlər olmuşdur. Bütün təhsil illərində o həmişə qabaqcıl olmuş, lider olmuşdur.

Onun ölkəmizə birinci dəfə rəhbərlik etdiyi - 1969-82-ci illərdə milli təhsilimizin inkişafı istiqamətində gördüyü işləri, atdığı addımları yaşlı nəslin nümayəndələri heç vaxt unutmur, gənc nəslin nümayəndələri, tələbələrimiz isə böyük maraqla oxuyub öyrənirlər.

Ulu öndərin ölkəmizə birinci dəfə rəhbərlik itdiyi dövrdə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar Azərbaycanda təhsilin inkişafına qüvvətli təsir göstərmişdir. Məhz onun təşəbbüsü ilə 1970-80-ci illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər

artırılmışdır. Onun uzaqgörənliyinin nəticəsi idi ki, keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində daha çox azərbaycanlı gəncin təhsil almasına imkan yaradılmışdı.

Bundan başqa, perspektivdə müstəqil Azərbaycan dövlətinin qurulacağına əmin olan Heydər Əliyev milli hərbçi mütəxəssislərin hazırlanmasını xüsusi diqqət edirdi. O respublika gənclərinin bilavasitə Bakıda hərbi təhsil alması üçün o zamanlar mümkün olan bütün addımları ataraq, imperiya rəhbərlərinin etirazına baxmayaraq, Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail olmuşdur.

Heydər Əliyev ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi illərdə də təhsil məsələsini daim diqqət mərkəzində saxlayırdı. Onun 2002-ci il oktyabrın 4-də imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Həmin sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə əsaslı zəmin yaratmışdır.

Təhsil sahəsində aparılan işləri sistemli və planlı şəkildə həyata keçirmək məqsədi ***"Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"*** xalqın geniş müzakirəsinə verildikdən sonra Heydər Əliyev tərəfindən 1999-cu il iyunun 15-də tarixi bir gündə - Milli qurtuluş günündə xüsusi sərəncamla təsdiqləndi (2). Beləliklə, müasir təhsil və pedaqoji fikir tariximizə yeni bir səhifə yazıldı ki, bu səhifəyə sonrakı illərdə daha yeni təhsil proqramları, təhsil standartları, təhsil Qanunu, kurikulumlar və ulu öndər Heydər Əliyevin layiqli varisi, siyasi kursunun davamçısı ölkə prezidenti, cənab İlham Əliyev ***"Azərbaycan Respublikasında təhsilin inkilşafı üzrə Dövlət Təhsil Strategiyası"- 24 oktyabr, 2013 cü il tarixli mühüm sərncam imzaladı (3).*** Bu sərəncam təhsilimizin inkişafı üçün uzun müddətli strateji proqramdır ki, təməli Heydər Əliyevin Təhsil İslahat proqramında qoyulmuşdur.

## Ədəbiyyat

1. Əliyev H.Ə Müstəqillik yollarında. Bakı, "Azərbaycan", 1997, 538 s.

2. Əliyev H.Ə. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı". Bakı, "Çaşıoğlu, 1999, 72 səh
3. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı/ Xalq, 25 oktyabr 2013-cü il.

## YARADICI MƏKTƏBLƏR YARADICI ŞƏXSİYYƏT FORMALAŞDIRIR

***Günel Çingizxan qızı Muradova***
***ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***
***BDU-in Pedaqogika kafedrasının doktorantı***
***Gunelm753@gmail.com***

Cəmiyyət gənc nəslə nəyi necə öyrətməyi, onda hansı şəxsi keyfiyyətləri tərbiyə etməyi özü müəyyənləşdirir. Eyni zamanda cəmiyyət özü də daim inkişaf edir, ona görə də təlim, təhsil, tərbiyə qarşısında yeni və daha çox tələblər qoyur. Bu gün birinci sinfə gedən şagirdlər 10-11 ildən sonra cəmiyyət həyatına daxil olacaqlar. Amma o vaxta qədər cəmiyyətin özü də fərqli olacaq. Müvafiq olaraq, onun məktəbə olan tələbləri də dəyişəcək. İlk baxışdan belə görünür ki, bu vəziyyətdə məktəb daim həyatdan geri qalmağa məhkumdur. Ancaq məktəb təkcə bu günün deyil, həm də, həyatın sabahkı tələblərinə diqqət yetirsə, geriləmənin qarşısını ala bilər. Ona görə də didaktika sosial inkişaf meylərini pedaqoji nöqteyi-nəzərdən diqqətlə təhlil etməlidir. Bu əsasdan gənc nəslin təlim-tərbiyəsi ilə bağlı gələcək tələbləri müəyyən etməlidir. Məktəb, təhsilin məqsədlərini, məzmununu, metodlarını və təşkili prosesini işləyib hazırlanarkən məhz bu gələcək tələbləri rəhbər tutmalıdır. Müasir və gələcək işçiyə geniş politexnik dünyagörüşü və yeni vəziyyətlərə asanlıqla alışa bilən çevik politexnik bacarıqlar lazımdır. Hər il daha çox işçilərin qoşulacağı yaradıcı fəaliyyətdə uğurlu iştirak təkcə geniş və dərin ümumi təhsil və politexniki bilikləri deyil, həm də inkişaf

etmiş müstəqil yaradıcı təfəkkür və təxəyyül tələb edir. Təxəyyül subyektin obyektiv fəaliyyətinin vasitələrinin və yekun nəticəsinin təsvirinin qurulmasında, obyektin təsvirinə uyğun obrazların yaradılmasında ifadə olunan psixi prosesdir. Xəyalın ən vacib vəzifəsi əməyin nəticəsini başlamazdan əvvəl təqdim etmək və bununla da insanı fəaliyyət prosesinə yönəltməkdir. Təxəyyülün tərbiyəsi üçün bədii, elmi-ixtiraçılıq, texniki yaradıcılıq mühüm rol oynayır. Fəaliyyət prosesində yaradıcılığın bütün növləri həyata keçirilir. Təfəkkür prossesi də intellektin aktiv fəaliyyət forması olub, əqli nəticələr çıxarılması qabiyyətidir. Təfəkkürün inkişafı insanın fikirləşməsinə və fikri əməliyyatlar aparmasına imkan verir. Bu da inkişaf etməkdə olan şəxsiyyətin hərtərəfli formalaşmasına şərait yaradır. Təlim prosesində təfəkkür prosesinin inkişafı problemli situasiyanın yaradılması ilə mümkündür. Belə halda şagird nəzəri və praktik məsələlərin həllinə yönəlir və əvvəl qazandığı təcrübə ilə indiki təcrübəsindən istifadə edərək müstəqil zehni fəaliyyətə cəlb olunur. Bu və digər idrakı qabiliyyətlərin inkişaf etməsi üçün məktəblər iş sistemini, strukturunu gələcək inkişaf perspektivindən qurmalıdır ki, yaradıcı, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirsin. Yəni məktəb özü ilk növbədə yaradıcı olmalıdır. Bu səbəbdən də yaradıcı məktəblər necə olmalıdır sualı ətrafında düşünməliyik.

Ölkəmizdə yaradıcı şəxsiyyətin formalaşdırılması prosesi hər zaman mühüm məsələ olmuşdur. Bu sahədə işlər 90-cı illərin sonlarından daha da möhkəmləndirildi. Təhsil Qanununda aparılan dəyişikliklər, aparılan təhsil islahatları və yeni strategiyalar, qəbul olunan konsepsiyalar [1], gələcək insan kapitalına yatırım, hərtərəfli inkişaf etmiş yaradıcı şəxsiyyətin yetişdirilməsinə xidmət edir. Hal-hazırda məktəblərdə yaradıcı şəxsiyyətin formalaşdırılması yolunda müəyyən işlər görülür. İstər dövlət ümümtəhsil müəsisələrində istərsə də, özəl məktəblər bu prossesi proritet vəzifə kimi görürlər. Məktəblərdə pilot layihələr "Sağlam siniflər", "STEAM", "Rəqəmsal bacarıqlar", "Peşə təmaüllü siniflər" [2] tətbiq olunur, bir sıra tədqiqatçıların fikirləri də ön görülür. Bunlardan biri də Ken Robinsonundur. O, "Yaradıcı məktəblər" kitabında apardığı tədqiqatlar nəticəsində "Dəyişikliklər qarşısında duran ən böyük maneələrdən biri onların ərsəyə gətilirməsi üçün ehtiyac duyulan

müxtəlif elementlər arasında uzlaşmanın olmamasıdır.” [3] fikrini qeyd edib, buradan belə nəticəyə gəlmək olar ki, görülən işlər bir-biri ilə vahid sistemdə getmir, şagirdlərin motivləri, həyata baxış tərzləri nəzərə alınmır. C.Bruner isə təhsil prosesinin yaxşılaşdırılması üçün dörtlü yanaşmanı əsas götürüb.

1. Biliyin strukturu- necə etməliyik ki, bilik təhsil prosesinin mərkəzi olsun.
2. Təlimə hazırlıq.
3. Intiusiyanın təbiəti-intellektual hazırlıq və təfəkkürümüzün hazırlığı.
4. Təlimə yönəlmə, mərkəzləşmə,stimulun veriləsi və motivin gücləndirilməsi. [4]

Sübut edilmişdir ki, uşağın yaradıcılıq qabiliyyətlərinin inkişafına, fəaliyyət motivinin gücləndirilməsinə və nizam-intizamına kollektiv yaradıcılıq fəaliyyəti əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də, uşağın ətraf mühitinin rolunu çox önəmlidir. Bu, ilk növbədə, pedaqoji prosesin təşkilatçısı və rəhbəri kimi “müəllim”dir. Yaradıcı şəxsiyyətin tərbiyəsi həm də, pedaqoji yaradıcılığın olmasını şərtləndirir. Yalnız yaradıcı müəllim yaradıcı şəxsiyyət yetişdirə bilər.[5] Təlim prossesində müəllim bütün tələb olunan qabiliyyətlərini səfərbər etməlidir. Yəni, uşağın yaradıcı şəxsiyyətinin hərtərəfli inkişafına kömək edəcək xüsusi şərait yaratmaq lazımdır. Bunun üçün pedaqoji təcrübədə şagirdləri yaradıcılığa sövq edən, onların təfəkkürünü, təxəyyülünü, emosiyalarını inkişaf etdirən üsul və vasitələrin tətbiqi zəruridir. Uşağın yaradıcı şəxsiyyət kimi yetişdirilməsində özünü inkişaf üçün əlverişli şərait mühüm rol oynayır. Özünüinkişaf həm, məktəb mühitində həm də, ailə mühitində təşkil olunmalıdır.

Belə nəticəyə gəlmək olar ki, yaradıcı şəxsiyyətin tərbiyəsi üçün əsas şərtlər bunlardır:

- Təhsil prosesinin yaradıcı şəxsiyyətin yetişdirilməsinə yönəldilməsi;
- Yaradıcı fəaliyyət üçün motivasiyanın formalaşdırılması;
- Təhsil prosesinin mənəvi və yaradıcı məqsədyönlülüyü;
- Ailədə və uşaq bağçasında, məktəblərdə əlverişli yaradıcı mikroiqlimin yaradılması.

## Ədəbiyyat


1. https://president.az/az/articles/view/9779
2. https://edu.gov.az/az/programmes
3. Ken Robinson, Lu Aronika "Yaradıcı məktəblər" təhsili dəyişdirən kütəvi inqilab. "Şərq Qərb" ASC mətbəəsi 2018
4. C.Bruner "Təlim prossesi" Harvard Universiti press Cambridge 1960
5. https://pedlib.ru/Books/3/0167/3_0167-79.shtml#book_page_top. Скаткин М.Н. "Проблемы современной дидактики".


# MÜNAQİŞƏLƏRİN YARANMA SƏBƏBLƏRİNDƏN


***Günel Azad qızı Nağıyeva***
***Bakı Dövlət Universiteti Pedaqogika kafedrasının dissertantı***
***guneloruj@gmail.com***


Münaqişələr uzun müddətdir elmə məlum olan, mürəkkəb, özünəməxsus, xüsusi məna kəsb edən anlayışdır. Müxtəlif ədəbiyyatlarda qəbul edilmiş münaqişə təriflərinin təhlilindən onların əsasən eyniyyət təşkil etdiyi görünür.. C. Bernard sosial konfliktə tərif verərkən dəyərlər məqsədlər və mənafelər anlayışından çıxış edir. Konflikt o yerdə mövcüddur ki, bir insanın və ya sosial birliyin dəyərlərdən məhrum edilməsi, məqsəd və mənafelərinə nail olmaması ilə nəticələnir.

Tədqiqatlarda münaqişə anlayışının məzmunu aşağıdakı mənalar vasitəsilə açılır.

1. Açıq, çox vaxt uzanan mübarizə vəziyyəti,

2. İnsanlar, ideyalar və ya maraqlar arasında uyğunsuzluq vəziyyəti; əkslərin toqquşması.

3. Bir-birini istisna edən maraq, istək və ya meyllərin eyni vaxtda fəaliyyət göstərməsi nəticəsində yaranan mübarizə.

4. Müxtəlif qrup və ya qüvvələrin qarşıdurması və s.

Münaqişələrin qaçılmaz olduğu qəbul etmək məqsədəuyğundur. Bəzən münaqişələri şəxsiyyətin inkişafı üçün

motivasiya mənbəyi kimi hesab etmək olar. Çünki, bəzi hallarda münaqişələr insanı canlandırır, həvəsləndirir, öz üzərində işləməyə sövq edir, mənəvi və psixoloji cəhətdən gücləndirir. Lakin, münaqişələr bəzən insanı mənfi emosiyalarla yükləyən, psixoloji gərginlik yaradan, qarşılıqlı münasibətləri poza bilən fenomen kimi çıxış edə bilir.

Münaqişələr demək olar ki, bütün sferalarda yarana bilir. Münaqişənin müxtəlif yaranma formaları olsa da, onların hər biri ziddiyyətləri özündə birləşdirir. Bu ziddiyyətlər daxilində qarşılıqlı fəaliyyət nəticəsində yaranan narahatlıq və narazıçılığı ifadə edir. Münaqişələrin mahiyyətinin analizi, idarəsinin təşkili, həlli yollarının irəli sürülməsi baxımından onların yaranması səbəbləri, növləri, inkişaf dinamikasının, funksiyalarının, mərhələlərinin öyrənilməsi vacibdir. Çünki, münaqişələr düzgün və səmərəli idarə edilməzsə onlar cəmiyyətdə qarşılıqlı münasibətlərin, sosial-psixoloji mühitin mənfi yöndə inkişafına gətirib çıxarar. Bu səbəbdən münaqişələrin təhlili və öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Münaqişələrin ən geniş rast gəlindiyi sahələrdən biri də cəmiyyətin ən  mühüm təşkilatlarından biri olan  təhsil sistemidir. İctimai təşkilatlar arasında həyati qurumlarından olan təhsil müəssisələrində münaqişələr müasir dövrümüzdə daha çox görünür. Əlbəttə bu qurumlarda münaqişələrin ortaya çıxması  təbii prosesdir. Məktəblərdə münaqişələrin mahiyyətinə baş vermə səbəbi, idarə olunması, müxtəlif istək və gözləntilərə malik olan şəxslərin qarşılıqlı əlaqəsi nəticəsində baş verir.

Məktəblər münaqişə üçün geniş potensial yaradan qurumlardır. Müəllimlər və şagirdlər arasında təlim-tərbiyə prosesi zamanı münaqişə vəziyyətinə tez-tez rast gəlinir. Bu prosesin inkişafı ziddiyyətlər və münaqişələr olmadan mümkün deyil.  Təhsil sistemində müəllimlə şagird arasındakı münaqişələri aşağıdakı kimi təsnif etmək olar:

1. Akademik fəaliyyətlə bağlı münaqişələr; tapşırıqların vaxtında və qaydasında yerinə yetirilib yetirilməməsinə görə yarana bilər
2. Şagirdin davranış qaydalarını pozması ilə bağlı yaranan münaqişələr.

3. Şagirdlərin və müəllimlərin emosional və şəxsi münasibətləri sferasında yaranan münasibətlərlə bağlı münaqişələr.

Fəaliyyət münaqişələri müəllimlə şagird arasında, yaranır və şagirdin tədris tapşırığını yerinə yetirməkdən imtina etməsində və ya onun zəif icrası zamanı ortaya çıxa bilir. Bu cür münaqişələr tez-tez materialı öyrənməkdə çətinlik çəkən şagirdlərdə, həmçinin müəllimin və şagird arasında münasibətlərin yalnız tədris işi ilə məhdudlaşdığı zaman baş verir. Bəzən şagird tədris materialını mənimsəməkdə çətinlik çəkir, bu halda müəllim kömək etmək əvəzinə şagirdə yersiz irad bildirir, tənqid edir və ya laqeyd münasibət bəsləyir. nəticədə münaqişələrin ortaya çıxması qaçılmaz olur.

Akademik nailiyyətləri ilə bağlı problemlər, şagirdin müəyyən tapşırığı yerinə yetirmək istəməməsi və ya diqqətsizliyi ilə ifadə oluna bilər. Belə münaqişələr daha çox müəllim və şagird aralarındakı münasibətlər yalnız formal səviyyədə məhdudlaşdıqda ortaya çıxır. Bəzən müəllimin şagirdlərinə qarşı şişirdilmiş tələbkarlığı da münaqişələrə səbəb ola bilər.

Şagirdlərin davranış pozuntuları müxtəlif motivlərlə diktə oluna bilər. Müəllim bəzən şagirdlərin davranışlarını düzəltməyə çalışır, Bəzən o, yalnız hərəkətlərin səbəbləri haqqında sadəcə olaraq təxmin edir, məsələnin məğzini araşdırmır. Bəzi hallarda, müəllim şagirdin hər hansı bir davranışını səhv şərh edə bilər. Bu zaman müəllim şagirdin real davranışlarını düzgün qiymətləndirmədiyi üçün onları korreksiya etməkdə problemlər yaşayır. Bu hal müəllimin şagirdləri ilə arasındakı münasibətin səthi xarakter daşıması ilə bağlıdır.

Müəllimlə şagird arasında münaqişələr emosional və şəxsi sferada münasibətləri gərginləşməsindən qaynaqlana bilər. Bəzən tərəflər hadisələri və onların səbəblərini müxtəlif şəkildə başa düşür, "müəllimin gözü ilə" və "şagirdin gözü ilə" konflikt müxtəlif formalarda görünür. Müəllim həmişə uşağın hisslərini dərk etmir və ya şagird emosiyalarının öhdəsindən gələ bilmir. Bu zaman müəllim və şagird arasında yaranan münaqişələr şəxsi ixtilaf mərhələsinə keçməsi və uzun sürməsi ilə seçilir. Uzunmüddətli qarşılıqlı münaqişə halı müəllim və şagird arasında normal qarşılıqlı əlaqənin pozulması ilə nəticələnir.

# TƏHSİLDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ

***Ülkər Malik qızı Mirzəyeva***
***Bakı Qızlar Universitetinin magistrı***
***E-mail: ulkermirzeyeva002@gmail.com***
***Rəyçi: prof.Bayramov Həsən***

Azərbaycan müstəqillik qazanmasından sonra təhsilimizdə də müstəqil siyasət yürüdülməyə başlandı.Müstəqilliyimizin ilk illərində inkişafı ləngidən bir çox amillər var idi.Bunlardan biri də kiril əlifbasından latın əlifbasına keçid olmuşdur.Xalqımızın bir ictimai formasiyadan başqasına keçdiyindən təhsilimiz də sovet ideologiyasından çıxaraq bəşəri xarakter almağa başladı. Bu nə qədər mürəkkəb olsa da çox vacib bir prosesdir. Bugünkü siyasət və ideologiya keçmiş siyasətin və ideologiyanın davamı olmadığından,bugünkü təhsilimiz də yeni cəmiyyətin qanunlarına, yaşam prinsiplərinə uyğunlaşdırılmalı idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın təhsil siyasətində yeni dövrün başlanğıcını qoydu.Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi təhsil hər bir millətin gələcəyidir.Təhsilsiz inkişaf ola bilməz.Həyat göstərir ki,millətin, dövlətin tərəqqi yolu təhsildən,elmdən keçir.Təhsil dövlətin ideyalarını həyata keçirir.

"Təhsil Qanunu vətəndaşların təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir".[6.səh 5

"Hər bir ölkənin fasiləsiz təhsil sisteminin əsasında müəyyən prinsiplər durur.Yəni hər bir ölkə öz ictimai-siyasi quruluşuna və sosial-iqtiasi mövqeyinə uyğun olan təhsil sistemini yaradarkən konkret prinsiplərə istinad edir.Bu prinsiplər isə həmin ölkədə dövlət tərəfindən təsdiq edilən təhsil qanunlarında təsbit olunan müvafiq müddəalarda ifadə olunur.Bizim ölkəmizdə vahid təhsil qanunu əsasında həyata keçirilən təhsil quruculuğu fasiləsiz təhsil siseminin əsasında duran konkret prinsiplərə istinad olunur". [1.səh 80]

Azərbaycan Respublikasının təhsil sistemi bu prinsiplərə əsaslanır.Bu prinsipləri nəzərdən keçirək.

1.Humanistlik prinsipi
2.Demokratiklik prinsipi
3.Bərabərlik prinsipi
4.Millilik və dünyəvilik prinsipi
5.Keyfiyyətlilik prinsipi
6.Səmərəlilik prinsipi
7.Fasiləsizlik,vəhdətlik,daimilik prinsipi
8.Varislik prinsipi
9.Liberallaşma prinsipi
10.İnteqrasiya prinsipi [5.səh 13]

İndi isə bu prinsipləri ayrı-ayrılıqda şərh edək.

**Humanizm**-latın sözü olub insanlıq,insanpərvərlik deməkdir.Humanizm insanların bilik və bacarılarından istifadə edərək daha humanist bir cəmiyyətin yaradılmasını tələb edir.Bu prinsipin əsas hədəfi insanların inkişaf etməsi və həyatı insanlar üçün yaxşılaşdırmaqdır.Humanistlik prinsipi bizdən təlim prosesində yaşından asılı olmayaraq hər bir şagirdə şəxsiyyət kimi yanaşmağı tələb edir.Nəticədə şagirdin özünə inamı daha da artır, bu isə təlimdə müsbət nəticə əldə etməyə imkan verir.Humanistlik müstəqil ölkəmizdə həyata keçirilən mükəmməl siyasətin əsasını təşkil edir.Azərbaycan Respublikasında dövlət siyasətinin əsas məqsədlərindən biri də məhz insanın hüquq və azadlıqlarının hərtərəfli təmin edilməsi və insanlara münasibətdə isə dözümlülük və tolerantlıq göstərilməsidir.Humanistlik prinsipi həmçinin milli və dünyəvi dəyərlərin üstün bir sahə kimi qəbul edilməsini nəzərdə tutur.Respublikamız müstəqillik qazandıqdan sonra dahi şəxsiyyət Heydər Əliyev hər bir sahədə humanizm prinsipini bərqərar etmişdir. Cənab İlham Əliyevin hakimiyyətə gəldiyi ilk gündən insanlara qarşı humanist mövqe tutması isə inkaredilməz bir reallıqdır.

**Demokratiya**-insana,onun şəxsiyyətinə hörmətdir.Bildiyimiz kimi Demokratiya cinsindən,dilindən,dinindən,ictimai mövqeyindən və s.asılı olmayaraq bütün vətəndaşların bərabərliyini nəzərdə tutur.Burada bərabərlik dedikdə həm imkanların bərabərliyi,həm qanun qarşısında bərabərlik,həm də nümayəndəlik bərabərliyi başa düşülür.Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq

demokratiklik prinsipi yalnız təhsildə deyil,bütün fəaliyyət sahələrində hökm sürür.Demokratiklik prinsipi təhsil alan hər bir kəsin azad düşüncə ruhunda tərbiyə olunmasını,onların azadlıqlarının və səlahiyyətlərinin genişləndirilməsini nəzərdə tutur. Burada əsas məqsəd Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın adət-ənənələrinə,insanların hüquqlarına və azadlıqlarına,demokratik prinsiplərə hörmət edən vətəndaş,şəxsiyyət yetişdirməkdir.

**Bərabərlik** prinsipi yalnız təlim-tərbiyə prosesində deyil,bütün fəaliyyət sahələrində əsas götürülməlidir.Bu prinsip ölkədə yaşayan bütün vətəndaşların bərabər şərtlər daxilində təhsil alması üçün imkan yaradılmasını,həmçinin vətəndaşların təhsil hüquqlarının təmin edilməsinə əsaslanır.Xalqların hüquq bərabərliyi məsələsi Təhsil Qanununda (2009) konkret prinsip kimi öz əksini tapıb.Statistikaya əsaslaaraq,deyə bilərik ki,son illərdə Azərbaycanda milyondan artıq qeyri-azərbaycanlı təhsil almışdır.Bunların içərisində müxtəlif millətlərin nümayəndələri vardır.Azərbaycanda digər millətlərin dilində məktəblərin açılması,onların öz dillərində tədris materiallarının nəşr edilməsi xalqların hüquq bərabərliyi prinsipi əsasında qurulmasına dəlalət edir.

**Millilik və dünyəvilik**-təhsilimizin qarşısında duran ən vacib məsələlərdən biri də millilik və dünyəvilik ideyalarını paralel şəkildə vətəndaşlara çatdırmaqdır. Millilik-xalqın mədəniyyətini, tarixini, adət-ənənələrini, coğrafiyasını öyrənərkən digər tərəfdən də bəşərilik ideyaları-inkişafa aparan düşüncələr hakim kəsilməli,xalqı daima irəliyə aparmalıdır. Bunlar prinsipin əsas qayəsini təşkil edir. Təhsilimizi,elmimizi milli və dünyəvi dəyərlər nə qədər çox qidalandırarsa bizim də dünya səviyyəsində özümüzü sübut etmək imkanlarımız bir o qədər genişlənəcəkdir. Müstəqil Azərbaycanın təhsil sistemi milli zəminə və bəşəri dəyərlərə əsaslanır.

**Keyfiyyətlilik** prinsipi-təhsilin standartlara, normalara, cəmiyyətin tələblərinə, dövlətin,şəxsiyyətin maraqlarına uyğun olmasını nəzərdə tutur.

**Səmərəlilik** prinsipi-elmi yaradıcılıq prosesində,təhsildə müasir metodları tətbiq etməklə səmərəli nəticə əldə etməyə əsaslanır.

**Fasiləsizlik, vəhdətlik, daimilik** prinsipi-təhsil sahəsində əsas prinsiplərdən biri olub,təhsil standartı,tədris planları və proqramları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsini,təhsilin ayrı-ayrı səviyyələri,pillələri arasında qarşılıqlı əlaqənin təmin olunmasını,təhsilin bütün həyat boyu davam etməsini nəzərdə tutur.

**Varislik** prinsipi-yalnız varislik prinsipinə riayət edən mütərəqqi qüvvələrin birgə fəaliyyəti nəticəsində milli-mənəvi dəyərləri qorumaq və bərpa etməklə gələcək nəsillərə düzgün şəkildə çatdırmaq mümkündür.Təhsildə varislik prinsipi dedikdə,təhsil sahəsində qazanılan bilik və təcrübənin,nailiyyətlərin gələcək nəsilə,təhsilin bir pilləsindən başqa bir pilləsinə ötürülməsinə əsaslanır.Təhsilin varislik,humanist və demokratik prinsiplər əsasında idarə edilməsi üçün bu sahədə çalışan hər bir kəs,Təhsil nazirindən başlamış pedaqoji işçiyə qədər hamı təhsil sahəsində dövlət siyasətini,onun mahiyyətini və milli-mənəvi tələblərini bilməsi vacib bir şərtdir.

**Liberalizm**-azadlıq,idarə edilənlərin qanun qarşısında bərabərliyinə əsaslanan bir anlayışdır.Liberallaşma prinsipi təhsil prosesinin və təhsil müəssisələrinin vətəndaşlar üçün açıq olmasına əsaslanır.Yəni ictimaiyyət,vətəndaşlar təhsil prosesində,təhsillə bağlı problemlərin həll edilməsində iştirak etmək imkanı qazanmalıdır.

**İnteqrasiya** prinsipi-araşdırmalar göstərir ki,inteqrasiya termini XX əsrin axırlarında daha çox istifadə edilməyə başladı.Müasir dövrdə inteqrasiya təhsildə aparıcı yer tutur.Təhsildə inteqrasiya dedikdə,insan fəaliyyətinin bütün sahəsini əks etdirən bir tendensiya nəzərdə tutulur.İnteqrasiya milli təhsilimizin dünya təhsil sisteminə qoşulmasısıdır.Dünya təhsil sisteminə inteqrasiya etmək üçün son illərdə həyata keçirilən islahatlar təqdirəlayiqdir.

**Nəticə.**Uzun illər sovet hakimiyyətinin təsiri altında olmasına baxmayaraq,Azərbaycan öz təhsil sistemini qoruyub saxlamış və dünya təhsil sisteminə inteqrasiya etmək üçün çoxlu sayda islahatlar həyata keçirmişdir.Bu gün təlim prosesində prinsiplərə kompleks şəkildə yanaşılması təlimdə yüksək müvəffəqiyyət əldə etməyə imkan yaradır.Bu prinsiplərdən hər hansısa birinə laqeyid yanaşan müəllim təlimdə istənilən nəticəni əldə edə bilməz.Buna görə hər bir

müəllim,pedaqoji işçi Təhsil qanununun III maddəsində öz əksini tapan təhsil sahəsində dövlət siyasətinin prinsiplərinə əməl etməlidir.Bu çox vacib bir tələbdir.Onu da qeyd edək ki,prinsiplərə əməl edilməsi qarşıya qoyulmuş məqsədə çatmağı sürətləndirir. Ümumi təhsilin məzmunu məhz fərdin,cəmiyyətin,dövlətin maraq və tələbatlarını,milli və dünyəvi dəyərləri əks etdirməklə yanaşı humanistlik, varislik, dünyəvilik, inteqrativlik prinsipləri əsasında müəyyən edilir. Dövlətimiz günü-gündən daha da güclənir, gücləndikcə təhsil sahəsinə dövlətin qayğısı artır.

Ulu öndərimiz Heydər Əliyevin sözləri ilə desək, cəmiyyət hardan olur-olsun, nədən olursa kəsib təhsilə xərcləməli,gənc nəslin təhsilinə,müəllimə kömək etməlidir. Heydər Əliyevin siyasi xəttini davam etdirən prezidentimiz təhsilin inkişafına heç nəyi əsirgəmir. Tarixən başı çox böyük bəlalar görmüş milli təhsil sistemimiz aparılan uğurlu islahatların nəticəsi olaraq yüksək səviyyədə inkişaf etmişdir. Bu mənada məmnunluq hissi ilə deyə bilərik ki,müstəqil Azərbaycan Respublikası təhsil sahəsində müasir dövrün tələblərinə doğru inamla irəliləyir.

## Ədəbiyyat


1. Nəzərov A.M, Mollayeva E.Ə.Müasir dövrün təhsil problemləri. Bakı:2011
2. Zamanova M.Təhsildə keyfiyyətin sistemli idarə edilməsi. Bakı: Elm və təhsil,2017
3. Mərdanov M.Azərbaycan təhsili dünən,bu gün, sabah. Bakı: Təhsil, 2006
4. Məmmədzadə R.M, Abdullayev A, Kərimova A, Cabbarov R, Rəsulov S, Quliyev Ə.XXI əsr təhsil.Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı: 2008
5. İsmixanov M.A, Bayramov H.B, Vəliyeva S.V. Ali məktəb pedaqogikası. Bakı: 2019

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÜNYAGÖRÜŞÜNDƏ MÜƏLLİM

***Səidə Maarif qızı Qurbanlı***
***Bakı Dövlət Universiteti, Filologiya fakültəsi***
***II kurs, Fl-147***

*“Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir”*

***Heydər Əliyev***

“Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır” deyən Azərbaycan xalqının ümummilli lideri, görkəmli siyasi və dövlət xadimi, dünya tarixinə və Azərbaycan tarixinə silinməz iz qoyan dahi şəxsiyyət Heydər Əliyev Əlirza oğlu  həyatı boyu müəllimlik peşəsinə çox böyük dəyər vermiş, onu sənətlərin ən şərəflisi adlandırmışdır.

“Təhsil millətin gələcəyidir” deyən Heydər Əliyev məhz bu gələcəyin müəllimin yaratdığı əsər olacağını anlayır, müasir cəmiyyəti və  savadlı şəxsləri müəllimin təhsillə formalaşdıracağını bilirdi. Bəs müəllim kimdir və necə olmalıdır?

“Müəllim kimdir?” deyəndə bəzi insanlar çox təəssüf ki, dar mənada düşünür. Dar mənada "müəllim" ərəbcədən tərcümədə "dərs keçən, tədris edən, kiməsə, nəyisə öyrədən şəxs" deməkdir. Amma biz müəllimlik sənətinə dar mənadan baxa bilmərik. Çünki müəllimşagirdlərlə bağlıdır, onların həyatına toxunur, onları gələcəyə hazırlayır. Bizim görüşümüzcə, müəllim- yüksək mənəviyyata,mədəniyyətəvə əqidəyə sahib olan məslək sahibi olmalıdır.

Müəllim ilk növbədə xüsusi təhsil görmüş, ümumtəhsil məktəblərində uşaqlara bilik və bacarıq vərdişləri bəxş edən, fənnini, peşəsini və uşaqları sevən , uşaqları xalqın, vətənin gələcəyi üçün hazırlayan vətənpərvərdir, vətəndaşdır, ictimai xadimdir.

Prof. Ləzifə Qasımova öz dərsliyində müəllimə belə bir tərif vermişdir: “Müəllim gənc nəsli sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə

silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan, xalq təsərrüfatının, elmin, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji tahsilli işçidir (şəxsdir).”

Hər zaman müəllim əməyini yüksək qiymətləndirmiş Heydər Əliyev deyirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq". Müəllimliyə hər daim yüksək dəyər vermiş Heydər Əliyevin dediyi sözləri “müəllim” sözünü açır, yəni müəllimin necə olmalı olduğunu izah edir.

Müəllimin səbirli olmalı, şagirdləri hər şeydən əvvəl vətəndaş kimi formalaşdırmalı, şagirdlərə vətənini sevməyi öyrətməli, müdrik və savadlı olmalı, vicdanla işləməyi bacarmalı və ən əsası uşaqların qəlbində yer tutmağı bacarmalı, onların ömür boyu xatirələrini qəlbində yaşadacağı şəxsiyyət olmalıdır.

“Müəllim” yüksək nüfuz sahibi şəxsdir. O, öz nüfuzu ilə uşaqlara asanlıqla təsir edir, onlarda müəyyən düşüncə formalaşdıra bilir. Onun qarşısında duran vəzifələrdən biridə şagirdlərdə “vətəndaşlıq” hissini formalaşdırmaqdır. Heydər Əliyevin də dediyi kimi” Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır”. 44 gün davam edən II Qarabağ müharibəsi zamanı vətənin keşiyində duran əsgərlərimizdə olan yüksək vətəndaşlıq hissini də müəllimlər formalaşdırmış, onlara aşılamışdır. Ona görə də biz bu gün deyirik ki, müəllimin gənc nəslin formalaşmasında, onların aldığı tərbiyədə rolu əvəzsiz və danılmazdır.

“Müəllimlik” çox çətin peşədir. Sözün əsl mənasında müəllim olmaq humanizm tələb edir, səbir tələb edir, peşəni sevməyi tələb edir. Biz, fikrimizi Heydər Əliyevin bu dəyərli fikri ilə təsdiqləyirik:”Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.”

Uşaqların həyatına toxuna bilmək, onlara yüksək keyfiyyətlər

aşılamaq üçün peşə qabiliyyətlərinə , şəxsi keyfiyyətlərə, aydın, səlis nitqə malik olmalıdır. Peşə qabiliyyəti dedikdə nəzəri( akademik) ,didaktik, təşkilati-kommunikativ(təşkilati qabiliyyətlərə bunlar aid edilir: təşkilatçılıq, kommunikativ, avtoritar,perseptov, suqqestik, pedaqoji mərifət qabiliyyəti), konstruktiv ,iradi-emosional ,pedaqoji qabiliyyətlər və s. nəzərdə tutulur.

Müəllimin nəzəri( akademik) qabiliyyəti onun elm haqqında ətraflı anlayışını; didaktik qabiliyyəti uşaqlara bilik səviyyəsini necə çatdırmasını; ünsiyyət qabiliyyəti onun öz nitqi ilə uşaqlar və valideynlərə təsir etməsini; konstruktik qabiliyyəti ilə özünün və uşaqların fəaliyyətini düzgün qurmağı; iradi-emosional qabiliyyəti ilə səbirli olmağı ;perseptiv qabiliyyəti ııə uşağın daxili dünyasına təsir etməsini, onun şəxsi keyfiyyətlərini fərqləndirməsini; suqqestik qabiliyyəti iləuşaqlara iradi təsir göstərməsini;pedaqoji qabiliyyəti ilə isə humanist və pedaqoji yönümlü olmağı tələb edir.

Əsl müəllim bu qabiliyyətlərlə əhatə olmalı, uşaqlarla işləməyi bacarmalıdır. Uşaqların gələcəkdə kim olacağı, hansı peşəni seçəcəyi də bilavasitə müəllimlə bağlıdır. Buna görə də müəllim hər bir şagirdə fərdi yanaşmalı,onların şəxsi qabiliyyətlərin nəzərə alaraqgələcəkdə hansı ixtisasda daha uğurlu olacağı ilə bağlı öz şəxsi yönləndirmələrini etməlidir.Bu, onların həyatında çox önəmli nöqtədir.

Heydər Əliyev bu barədə belə demişdir:" Öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbim, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilməli və qiymətləndirməlidir. Mən isə həmişə həyatımda bütün varlığımla, keçdiyim həyat yoluyla məktəbə borcluyam, müəllimə borcluyam". Müasir Azərbaycan Respublikasının qurucusu olan Heydər Əliyev özünün bu qədər yüksəklərə çatmasının, prezidentlik vəzifəsinə qədər ucalmasının müəllimlər sayəsində olduğunu demişdir. Deməli, cəmiyyətdə olan bütün yüksək mövqelərdə işləyənləri müəllim yaradır: prezidenti, istər müəllimin özünü, həkimi, vəkili və s.

Heydər Əliyevin də dediyi kimi "Bu gün mən bəyan edirəm ki, müstəqil Azərbaycanda, Azərbaycan cəmiyyətində müəllim bu gündə, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir".

Müəllim uşaqlara təhsillə yanaşı tərbiyə də verməlidir.

Müəllim təlimin, təhsilin, tərbiyənin prinsip və metodlarından xəbərdar olmalı; məlumatlandıcı, səfərbəredici,inkişafetdirici, istiqamətləndirici bacarıq və vərdişlərə yiyələnməli; uşaqlarla müxtəlif formalarda ünsiyyət qurmağı bacarmalı: yüksək peşəkarlıq baxımından, dostluq münasibətləri əsasında, qorxu əsasında və oyun əsasında ünsiyyət qurmalı; qarşılıqlı əlaqə modeli ilə (Bu modeldən fərqli də müəllimin sinifdə davranışını xarakterizə edən modeller vardır: dikdator, zəif əlaqə, xüsusi diqqət, qapalı, tərəddüdlü qeyri-stabil, qeyri-çevik, avtoritar, qarşılıqlı əlaqə modeli. Lakin bunların içərisində ən əlverişlisi qarşlıqlı əlaqə modelidir.) dərsi qurmağı bacarmalıdır.

Müəllim ideal pedaqoq, tərbiyəçi, usta, yeri gələndə aktyor olmalıdır. Mövcud şəraitdə isə müəllimi menecer, köməkçi( fasilitator), mentor( yol göstərən), məsləhətçi və s. adlandırmaq olar.

Bütün bu xüsusiyyətləri nəzərə alaraq deyə bilərik ki, müəllimlik sənəti çox müqəddəs və məşəqqətlidir. Uşaqların həyatına günəş kimi işıq saçan, onlara ulduz kimi qaranlıqlarda yol göstərən, M.K.Atatürkün də dediyi kimi "şam kimi özünü əridərək başqalarına işıq verən" dəyərli müəllimlərimizə həyatımızda hər an minnətdarıq.

**Ədəbiyyat**

1. Ləzifə Qasımova və Rəhimə Mahmudova. Pedaqogika dərsliyi. Bakı, 2021
2. Ulu öndər Heydər Əliyev təhsil haqqında: http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm

# МОДЕЛЬ СОВРЕМЕННОГО УЧИТЕЛЯ

***Ганга Нариман кызы Насирова***
***АГПУ Кафедра ДО***
***ganga_51@mail.ru***

Личность, организующая и реализующая учебно-воспитательный процесс в школе, это учитель. Для рассмотрения профессиональной подготовки учителя можно представить модель современного учителя, которая будет отражать все модули профессиональной подготовки учителя. Для продуктивной педагогической деятельности каждый педагог должен владеть конкретными знаниями, а также для его работы необходимы определенные умения и навыки.

Современному учителю необходимо в совершенстве владеть преподаваемыми дисциплинами, знать их теорию, основы теории смежных предметов. Он должен обладать общенаучными знаниями, физиологическими, психическими, педагогическими и методическими. К общенаучным знаниям относятся философские, экономические, социально-правовые, этические, определяют методологическую основу предметных знаний и углубляют их.

Физиологические и психологические знания предполагают довольно обширные представления учителя о возрастных особенностях развития организма школьника, познания закономерностей школьников старшего возраста, сензитивных и критических периодов возрастного развития, знания особенностей воспитания и обучения, психологических особенностей педагогической деятельности и психологии личности самого учителя.

Педагогические и методические знания включают в себя хорошее владение вопросами истории педагогики, вопросами философии педагогики, особенностями теории воспитания и обучения, школоведения. Особенно важны нормативные знания педагогики, определяющие сущность учебно-воспитательного процесса, основные категории педагогической науки,

закономерности и принципы деятельности учителя.

Продуктивная деятельность педагога, как уже было отмечено ранее, включает в себя также умения и навыки. К ним относятся познавательные умения, организаторские, информационные, конструктивные, коммуникативные и исследовательские .

Познавательные умения заключают в себе умения воспринимать и понимать психическое состояние ребенка в данный момент; осуществлять контроль за своим психическим состоянием; ориентироваться в содержании обучения и воспитания; расширять свои знания и умения, анализировать педагогический опыт. Организаторские же направлены на включение учащихся в различные виды деятельности, создание коллектива и организацию совместной деятельности. К этим умениям, как общепедагогическим, относят мобилизационные, развивающие и ориентационные. Мобилизационные умения связаны с привлечением внимания учащихся и развитием у них устойчивых интересов к учению, труду и другим видам деятельности; формированием потребности в знаниях и вооружением учащихся навыками учебной работы и основами научной организации учебного труда т.д.; развивающие умения предполагают определение «зоны ближайшего развития» (Л.С. Выготский) отдельных учащихся, класса в целом; создание проблемных ситуаций и других условий для развития познавательных процессов, чувств и воли воспитанников; стимулирование познавательной самостоятельности и творческого мышления, потребности в установлении логических и функциональных отношений; формирование и постановку вопросов, требующих применения усвоенных ранее знаний; создание условий для развития индивидуальных особенностей, осуществление в этих целях индивидуального подхода к учащимся; ориентационные умения направлены на формирование морально-ценностных установок воспитанников и научного мировоззрения, привитие устойчивого интереса к учебной деятельности и науке, к производству и профессиональной деятельности и т.д.).

Информационные умения. Это умения и навыки работы с печатными источниками и библиографирования, умения добывать информацию из других источников и дидактически ее преобразовывать, т.е. умения интерпретировать и адаптировать информацию к задачам обучения и воспитания.

Конструктивные умения- представляют собой как внутренне взаимосвязанные аналитические, прогностические и проективные умения.

Аналитические умения - это один из критериев педагогического мастерства, ибо с их помощью извлекаются знания из практики. Через аналитические умения проявляется обобщенное умение педагогически мыслить. Такое умение состоит из ряда частных умений: расчленять педагогические явления на составляющие элементы (условия, мотивы, стимулы, средства, формы проявления и пр.); осмысливать каждую часть в связи с целым и во взаимодействии с ведущими сторонами; находить в теории обучения и воспитания идеи, выводы. Закономерности, адекватные логике рассматриваемого явления; правильно диагностировать педагогическое явление; находить основную педагогическую задачу и способы ее оптимального решения. Прогностические умения представляют собой выдвижение педагогических целей и задач, отбор способов достижения педагогических целей, предвидение результата возможных отклонений и нежелательных явлений, определение этапов педагогического процесса, распределение времени, планирование совместно с учащимися жизнедеятельности. Их, в зависимости от объекта прогнозирования, можно объединить в три группы: 1) прогнозирование развития коллектива: динамики его структуры, развития системы взаимоотношений, изменения положения актива и отдельных учащихся в системе взаимоотношений и т.п.; 2) прогнозирование развития личности: ее личностно-деловых качеств, чувств, воли и поведения, возможных отклонений в развитии личности. Трудностей в установлении взаимоотношений со сверстниками и т.п.; 3) прогнозирование педагогического процесса: образовательных, воспитательных и развивающих возможностей учебного

материала, затруднений учащихся в учении и других видах деятельности; результатов применения тех или иных методов, приемов и средств обучения и воспитания и т.п. Проективные умения включают: 1) перевод цели и содержания образования и воспитания в конкретные педагогические задачи; 2) учет при определении педагогических задач и отборе содержания деятельности учащихся их потребностей и интересов; 3) планирование индивидуальной работы с учащимися с целью преодоления имеющихся недостатков в развитии их способностей, творческих сил и дарований и т.д. Рефлексивные умения имеют место при осуществлении педагогом контрольно-оценочной деятельности, направленной на себя. Для эффективного осуществления контроля педагог должен быть способен к рефлексии, позволяющей разумно и объективно анализировать свои суждения, поступки и в конечном итоге деятельность с точки зрения их соответствия замыслу и условиям. Коммуникативные умения это взаимосвязанные группы перцептивных умений, собственно умений общения (вербального) и умений и навыков педагогической техники. Перцептивные умения: 1) воспринимать и адекватно интерпретировать информацию о сигналах от партнера по общению, получаемых в ходе совместной деятельности; 2) глубоко проникать в личностную сеть других людей; устанавливать индивидуальное своеобразие человека; на основе быстрой оценки внешних характеристик человека и манер поведения определять внутренний мир, направленность и возможные будущие действия человека; 3) определить, к какому типу личности и темперамента относится человек; по незначительным признакам улавливать характер переживаний. Состояние человека, его причастность или непричастность к тем или иным событиям; 4) находить в действиях и других проявлениях человека признаки, отличающие его от других и самого себя в сходных обстоятельствах в прошлом; 5) видеть главное в другом человеке, правильно определять его отношение к социальным ценностям, учитывать в поведении людей «поправки» на воспринимающего, противостоять стереотипам

восприятия другого человека. Умения педагогического общения. На этапе моделирования предстоящего общения педагог опирается прежде всего на свою память и воображение. Он должен мысленно восстановить особенности предыдущего общения с классом и отдельными учащимися, при этом помнить индивидуальные особенности, проявляющиеся в их реакциях и поведении. Воображение на этом этапе проявляется в умении ставить себя на место другого человека. Организация непосредственного общения требует владения умением осуществлять коммуникативную атаку, т.е. привлекать к себе внимание. Педагогическая техника представляет собой совокупность умений и навыков, необходимых для педагогического стимулирования активности, как отдельных учащихся, так и коллектив в целом: умения выбрать правильный стиль и тон в общении с воспитанниками, управлять их вниманием, чувство темпа и др. Кроме названных умений и навыков педагогической техники, необходимо отнести следующее: управлять своим телом, снимать мышечное напряжение в процессе выполнения педагогических действий; регулировать свои психические состояния; вызывать «по заказу» чувства удивления, радости, гнева и т.п.; владеть техникой интонирования для выражения разных чувств (просьба, требования, вопроса, приказа, совета, пожелания и т.п.); располагать к себе собеседника; образно передавать информацию и др. Исследовательские умения - осмысление и творческое развитие научных теорий, педагогических и методических идей, предполагающих решение типичных и нестандартных учебно-воспитательных ситуаций. Таким образом, объективно-необходимый модуль, который включает в себя знания, умения и навыки, необходим каждому профессионально-творческому педагогу. Знания закладывают прочную основу для развития умений и навыков, без которых невозможна динамика и эффективность педагогической деятельности, а также модули личностных качеств учителя, потому что знания способствуют повышению не только профессионального, но и общекультурного уровня педагога, а

следовательно, и развитию его личности. Педагогическая культура-это профессиональная культура человека, занимающегося педагогической деятельностью, гармония высокоразвитого педагогического мышления, знаний, чувств и профессиональной творческой деятельности, способствующая эффективной организации педагогического процесса. Она определяет характер осуществления всех основных функций учителя: образовательной, воспитательной, развивающей.

Признаками педагогической культуры учителя являются интеллигентность, развитый интеллект, устойчивая педагогическая направленность интересов и потребностей, гармония умственного, нравственного и физического развития, гуманизм, общительность и педагогический такт, широкий кругозор, способность к творчеству и педагогическое мастерство.

Культура педагогического труда - является неотъемлемой частью общей культуры. Компонентами культуры педагогического труда являются: а) учет психологических аспектов урока, б) характер требований учителя к учащимся, в) создание эмоционально-интеллектуального фона урока, г) темп урока, д) самоконтроль урока, ж) качественная сторона урока, з) чувство юмора [4].

Таким образом, учитель является творцом культурных ценностей, и чем выше его культура, тем больших успехов он достигает в своей педагогической деятельности. Личностно-этические качества - это чувство долга и гражданской ответственности, гуманизм, сострадание, чуткость, доброжелательность, трудолюбие и дисциплинированность, принципиальность, скромность, общительность, объективность, самокритичность, самобытность, эстетическая выразительность, артистичность, общая эрудиция, терпение и настойчивость.

Индивидуально-психологические качества - это широта и глубина познавательных интересов, ясность и критичность ума, изобретательность, эмоциональная отзывчивость и устойчивость, долговременная память, развитость наблюдательности, воли, воображения, большой объем и

переключаемость внимания, культура темперамента, объективная самооценка.

Профессионально-педагогические качества - это интерес к педагогической деятельности, любовь к людям, педагогический такт, педагогическое мышление, профессионально-педагогическая работоспособность, стремление к научно-педагогическому творчеству, культура и выразительность речи, чувство юмора

Таким образом, модель современного профессионального учителя складывается из нескольких модулей: объективно-необходимого, культурологического и модуля качеств личности. В свою же очередь, они представляют профессионального педагога как всесторонне развитую, организованную, культурную личность, которой присущи совокупность многочисленных качеств, таких как: коммуникативность, педагогический такт, педагогический долг, ответственность и др., а самым главным из них будет педагогическое призвание. Основой педагогического призвания есть любовь к детям. Это основополагающее качество является предпосылкой самосовершенствования, целенаправленного саморазвития многих профессионально значимых качеств педагога.

## *II B Ö L M Ə*

## *TƏLİM VƏ TƏHSİL NƏZƏRİYYƏSİ*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV TƏHSİLİMİZİN İNKİŞAFI VƏ MÜƏLLİM ŞƏXSİYYƏTİ HAQQINDA

***Akif Nurağa oğlu Abbasov***
***pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim***
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi***
***prof.akif@mail.ru***

Azərbaycan təhsilinin Heydər Əliyev mərhələsi var. Ümummilli Liderimizin ölkəmizə rəhbərlik etdiyi vaxtlar təhsilimizin çiçəklənməsi dövrü olmuşdur. Ulu Öndər müəllimlərin qurultayına xüsusi həvəslə gələr, şərəfli peşəni seçmiş şəxslərin əməyinə yüksək qiymət verərdi. Müstəqil Azərbaycan Respublikasının ilk qurultayına 24 sentyabr 1998-ci ildə təbrik məktubu göndərməklə yanaşı, 25 sentyabrda qurultayın işində iştirak etmiş və geniş nitq söyləmişdir. Öz nitqində Ümummilli Lider Azərbaycan təhsilinin keçdiyi yollara nəzər salmış, cəmiyyətimizin, ölkəmizin, vətəndaşların, uşaq və gənclərin həyatında və gələcəyində təsilin, məktəbin, müəllimin oynadığı böyük rola aydınlıq gətirmişdir.

Məlum olduğu kimi, ötən əsrin 80-ci illərində Heydər Əliyev keçmiş SSRİ dövlətinin rəhbərliyində mühüm vəzifə daşımışdır. O, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini daşıyırdı.

Sovet İttifaqının bir sıra nazirlikləri (Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi) bilavasitə onun rəhbərliyi altında idi. O, həmin nazirliklərə 5 il rəhbərlik etmişdi. ,

Ümummilli Lider iyirminci yüzilliyin səksəninci illərində SSRİ-də məktəb islahatı ilə bağlı komissiyanın sədri olmuşdu. O vaxtlar məktəb islahatı hazırlandı, 1984-cü ildə SSRİ Ali Sovetinin sessiyasında islahatın müzakirəsi keçirildi. Heydər Əliyev bu sessiyada məktəb islahatına dair məruzə ilə çıxış etdi.

XX əsrin 90-ci illərində, daha doğrusu 1999-cu ildə ikinci dəfə Azərbaycana rəhbərliyi dövründə ölkəmizdə məktəb islahatı keçirilməyə başladı. Ulu Öndər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın təsdiq edilməsi ilə bağlı 15 iyun 1999-cu il tarixli, 168 nömrəli qərarı imzaladı. Özü bilavasitə islahatın gedişinə rəhbərliyi və nəzarəti həyata keçirirdi.

Ulu Öndər respublikamızda təhsilin, o cümlədən orta, texniki peşə, orta ixtisas və ali məktəblərin fəaliyyətinin yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlərin görülməsini zəruri hesab edirdi. Qeyd edirdi ki, ölkəmizdə məktəb, təhsil bundan sonra da onun diqqət mərkəzimdə dayanacaqdır.

1998-ci ildə keçirilən müstəqil respublikamızın ilk müəllimlər qurultayındakı çıxışında Ümummilli Lider Təhsil Şurası kimi bir qurumun yaradılmasına və onun tərkibinə öz münasibətini bildirmişdir. Bir çoxları yeni yaradılacaq Təhsil Şuranın tərkibinə hökumət üzvlərinin, Prezident Aparatının bəzi məsul vəzifəli şəxslərinin, daxili işlər nazirinin, müdafiə nazirinin və baş prokurorun daxil edilməsini təklif edirdilər. Ulu Öndər bu məsələyə tamam fərqli münasibəti vardı. Bu xüsusda qurultaydakı nitqində dedi: "Təhsil Şurası ictimai təşkilatdır, müəllimlərin, təhsil işçilərinin təşkilatıdır. Ona görə də belə bir təşkilatda yalnız müəllimlər, bilavasitə təhsil sahəsində işləyənlər, təhsillə məşğul olanlar olmalıdırlar".

Bu təklif hamının ürəyindən oldu.

O zamanlar uşaqlar məktəbə 7 yaşından gedirdilər. Uşaqların 6 yaşından I sinfə getmək məsələsi gündəmdə idi, lakin bu proses ləng həyata keçirilirdi. Heydər Əliyev qurultayda bu məsələyə də münasibət bildirdi. Dedi ki: "Doğrudan da bəzən heç altı yaşına çatmamış uşaqlar var ki, çox istedadlı, hazırlıqlıdırlar və onları məktəbə qəbul etmək lazımdır. Mən özüm 6 yaşımda məktəbə getmişəm, - o vaxt hələ nə islahat, nə də qanun var idi, - məni məktəbə qəbul ediblər və on altı yaşımda məktəbi bitirmişəm. Oğlum isə məktəbə gedəndə hələ altı yaşı da tamam deyildi. Bunlar hamısı təkcə mənim yox, çox insanların övladlarının təcrübəsindən keçibdir

və buna mane olmaq lazım deyildir".

Ulu Öndərin xeyir-duasından sonra uşaqların 6 yaşından təlimə cəlb edilməsi reallaşdı.

Ötən əsrin 90-ci illərində ikinci dəfə yenicə müstəqillik qazanmışdıq. Maddi durumumuz aşağı idi. Məktəblərin tikintisi və əsaslı təmiri maddi vəsait tələb edirdi. Heydər Əliyev iş adamlarına müraciətlə onları təhsil müəssisələrinin tikintisində və təmirində yaxından iştirak etməyə çağırdı.

Həmişə olduğu kimi, Heydər Əliyev müstəqil respublikamızın birinci qurultayında da müəllim şəxsiyyətini yüksək qiymətləndirdi. Diqqət yetirək: ": "Mən bəyan edirəm ki, bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir".

Ümummilli Lider Heydər Əliyevin ideyaları, qiymətli fikirləri daim yaşayır, təhsilimizin, məktəblərimizin günü-gündən inkişafına yaxşı istiqamət verir.

## Ədəbiyyat


1. A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali məktəblər üçün dərslik. Bakı: Mütərcim, 2022.
2. L.N. Qasımova, R.M. Mahmudova. Pedaqogika: Ali məktəblər üçün dərslik. Bakı: Çaşıoğlu, 2012.

# TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR

***Ləzifə Nağı qızı Qasımova***
***Pedaqoji elmlər doktoru, professor,***
***BDU-nun Pedaqogika kafedrasının müdiri***

Ulu öndər Heydər Əliyevin bu dahiyanə sözü - "*Təhsil millətin gələcəyidir*" – fikri millətin millət kimi yaşamasına, inkişafına və tərəqqisinə yönəlmişdir. Təhsilsiz millət irəli gedə bilməz və müstəqil xalq kimi formalaşa bilməz və başqa xalqların köləsinə çevrilər. Dahi rəhbərimiz bunu çox yaxşı bilərək belə demişdir. Təhsil millətin gələcəyi və müstəqil dövlətin təməlidir. Bəşər tarixində silinməz iz qoymuş dahi şəxsiyyətlər məhz elmin, təhsilin sayəsində dahilik rütbəsinə yüksəlmişlər.

Müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin əsəridir. Xalqımızın ümum milli lideri milli təhsilimizin inkişafı, formalaşması və onun dünya standartları səviyyəsində qurulması istiqamətində müstəsna xidmətlər göstərmişdir. İnkişaf etmiş dünya ölkələrində, o cümlədən Azərbaycanda iqtisadi, siyasi və mədəni sahədə böyük uğurların qazanılması məhz elmin və təhsilin sayəsində mümkün olmuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksəlməsində, milli və bəşəri dəyərlərin mənimsənilməsində ulu öndərimiz Heydər Əliyevin misilsiz fəaliyyəti və xidmətləri olmuşdur. Heydər Əliyev deyirdi: *"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir"*.

Ümummilli liderimizin zəngin həyatı həmişə təhsillə bağlı olmuşdur: Ümummilli lider qeyd edirdi: *"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam…Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun ,kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir"*. Bu kəlamlar böyük rəhbərimizin təhsilə nə qədər önəm verdiyinin təzahürüdür.

Azərbaycan müstəqillik illərində əslində çox da böyük olmayan bir dövrdə başqa sahələrdə olduğu kimi elm və təhsil sahəsində də çox uğurlar qazanmış və dünya elm və təhsilinə inteqrasiya olunmuşdur.

1992-ci Təhsil Qanununun qəbul olunması, ali və orta ixtisas məktəblərində qəbulun test usulu ilə aparılması, qeyri-obyektivliyə və mənfi hallara qarşı mübarizənin aparılması təhsil və maarifin təkmilləşməsində mühüm yeniliklərin bünövrəsini qoydu.Təhsil sistemi getdikcə təkmilləşir, dövlət səviyyəsində təhsil sahəsində qəbul olunmuş qərar və sərəncamlar gənclərdə yüksək bilik potensialını aşkara çıxartmağa, yeni standartların və metodların tətbiqinə stimul yaradırdı.

Ulu öndərin təhsil sahəsində də uzaqgörənliyi onun qəbul etdiyi qərar və fərmanlarda, yeni Təhsil Proqramının qəbulu və həyata kecirilməsində, tövsiyə və göstərişlərində özünü göstərirdi.Heydər Əliyev milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını mühüm bir vəzifə kimi qarşıya qoymuş və bu sahədə aparılacaq islahatların mahiyyət və məqsədini açıqlayaraq bildiridi ki, irəli sürülən inteqratuiv təhsil konsepsiyasının əsas qayəsi müstəqilliyimizin qorunub möhkəmlkəndirilməsi, humanist və demokratik hüquqi cəmiyyətin qurulması, iqtisadi potensialın, "İnsan kapitalı"nın yüksəlişi və inkişafı ilə bağlıdır.

Bu gün təhsilimiz mütərəqqi, dünya standartlarına uyğun Boloniya təhsil prosesinə qoşulmuş dünya təhsilinə inteqrasiya olunmuş və uğurla fəaliyyətini davam etdiirir. Qloballaşan dünyamız müasir əsrimizi "Elm və texnika əsri", "İntellekt əsri" strateji xətt kimi qəbul etmişdir. Bu xətt ilk növbədə hər bir vətəndaşın müasir dövrə, zamana uyğun təhsllə əhatə olunmasını tələb edir.

Avropa Birliyi məkanında baş verən Bolonya prosesi bu gün dünyada geniş yayılan ən mütərəqqi təhsil prosesidir. Azərbaycan təhsili bu prosesə qoşularaq bəşəri dəyərlərə, dünya təhsil sisteminə töhfələr verməklə yanaşı, həm də onların uğurlu cəhətlərini əxz edən universitetlərimiz qonşu dövlətlərin təhsil sisteminə təsir etməklə, qloballaşan dünyaya, xüsusən də qloballaşan təhsil sisteminə uğurlu töhfələr verməkdədir.

Təhsildə inteqrasiya proseslərinə, elm və təhsilin müsir problemlərinə, qərb təhsil sisteminin nailiyyətlərinə öz münasibətini bildirərkən, Heydər Əliyev bu işdə ehtiyatlı və diqqətli olmağı rəhbər tutaraq deyirdi ki, *"öz milli tarixi nailiyyətlərimizə əsaslanaraq digər ölkə və xalqların nailiyyətlərini öyrənmək, bizim üçün faydalı olan mütərəqqi cəhətləri mənimsəyib onlardan səmərəli istifadə etmək lazımdır".* Heydər Əliyev düşünülməmiş, kor - koranə təhsil sisteminin yaradılmasını və yaxud bir sıra xarici dəyərlərin milli dəyərlərlə əvəz olunmasını qəbul etmirdi. Azərbaycan dövlətinin təhsil sisteminin təkmilləşdirilməsindən və bu işdə digər ölkələrin ən yaxşı nailiyyətlərindən istifadə etmək məsələlərindən bəhs edərkən Heydər Əliyev xalqın əqli və mənəvi həyatının təməlini təşkil edən milli dəyərlərimizə xüsusi qayğı və hörmətlə yanaşmağı tələb edir və deyirdi: *"...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz"* . Ulu öndər təhsil sistemində hər bir islahatın, hər bir yeniləşmənin, inteqrasiyanın yalnız təkamül yolu ilə aparılmasını və bu prosesdə bütün cəmiyyətin iştirakını tövsiyə edirdi.

O daha sonra deyirdi: *" Azərbaycan təhsilində indiyə qədər əldə olunmuş müsbət təcrübə özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir"* . Heydər Əliyev bununla təhsil islahatında ilk növbədə tarixən formalaşmış mütərəqqi ənənələrin, qazanılmış və zamanın sınağından çıxmış qabaqcıl təcrübənin öyrənilməsini və yeni şəraitdə nəzərə alınmasını tövsiyə edirdi.

Ulu Öndər təhsildə yığışıb qalan problemlərdən, nöqsanlardan, neqativ hallardan yaxşı xəbərdar idi. Onların aradan qaldırılması yönündə proqram xarakterli göstərişlər, sərəncamlar verir və deyirdi: *"Azərbaycanda məktəbin, təhsil işinin təkmilləşdirilməsi, mövcud olan nöqsanların aradan qaldırılması, Azərbaycan xalqının təhsilinin daha da yüksəklərə qaldırılması üçün çox əhəmiyyətli və faydalı olacaqdır".*

Müstəqil Azərbaycan Respublikası XXI əsrin, elm və təhsil ilinin ilk illərini yaşayır ki, biz bu gün təhsilimizlə, alim və müəllimimizlə, gənc məzun mütəxəssisimizlə fəxr edə bilərik. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev dövlət idarəçiliyinin bütün

mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə gənc nəslin intellektual inkişafını düşünmüşdür.

Xalqımızn təhsil alma səviyyəsinin yüksəlişi, fundamental elmlərin yaranması və inkişafı, milli mədəniyyətimizin tərəqqisi, insan amilinin yüksəlişi ilə sıx şəkildə bağlı olmuşdur. Təhsilin milli tərəqqidəki rolundan və insan amilindən danışarkən dahi rəhbər deyirdi: *"...təhsil sisteminin nə qədər dəyərli olduğunu onda görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik olan insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı Azərbaycanın iqtisadiyyatı indi belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyətləri heç zaman unutmamalıyıq".*

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikamızda təhsil müəssissələrinin dünya standartlarına uyğun zəngin şəbəkəsi yarandı, möhkəm maddi texniki baza quruldu, respublikadan kənarda Azərbaycan üçün yüksək ixtisaslı mütəxəssis kadrları hazırlandı ki, məhz bunların sayəsində bugün respublikamızda müasir sivilizasiyaya cavab verən böyük elmi, milli təhsil sistemi yaranmışdır.

Ümummilli liderimiz Heydər Əliyev müstəqilliyini bərpa etmiş Azərbaycanın başqa sahələrində olduğu kimi, təhsil sahəsində də islahatlar keçirilməsinin vacibliyini qeyd edərək, yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsinin, proqram xarakterli tədbirlərin təşkilinin zəruriliyini və təxirəsalınmazlığını göstərmişdir.

Təhsil sahəsində aparılan işləri sistemli və planlı şəkildə həyata keçirmək məqsədi ilə ölkə Prezidenti Heydər Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamı əsasında *"Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası"* yaradıldı. Bu islahat proqramı Azərbaycan təhsili sahəsində yeni, uzunmüddətli və ən mütərəqqi mərhələnin əsasının qoyulması demək idi. Dövlət komissiyası tərəfindən hazırlanmış *"Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"* xalqın geniş müzakirəsinə verildikdən sonra prezident Heydər Əliyev tərəfindən 1999-cu il iyunun 15-də tarixi bir gündə - Milli qurtuluş günündə bu proqrm

xüsusi sərəncamla təsdiqləndi. Beləliklə, müasir təhsil tariximizə tarixi bir səhifə yazılmış oldu. Bu səhifəyə sonrakı illərdə daha yeni təhsil proqramları, təhsil standartları, təhsil Qanunu, kurikulumlar, Dövlət təhsil strategiyası yazıldı.

Bu təhsil islahatı proqramı təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, diferensiallaşdırılması və inteqrasiyası kimi prinsipləri özündə birləşdirərərək Azərbaycan milli təhsil sisteminin strategiya və taktikasını, uzunmüddətli konsepsiyasını müəyyənləşdirdi.

Ulu öndərin *"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında"* sərəncamı (Bakı şəhəri, 15 iyun 1999-cu il) təhsildə gələcək islahatlar aparmaq üçün əsaslı zəmin yaratdı. İslahat proqramında deyildiyi kimi: *"Təhsil sahəsinin islahatı təhsil müəssisələrinin fəaliyyətində, bütövlükdə təhsil sisteminin strukturu, idarə sistemi və iqtisadiyyatında köklü yeniləşmənin həyata keçirilməsini nəzərdə tutur. Müstəqilliyin çətin yolları ilə irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi təhsil sahəsində də böyük vəzifələr yerinə yetirmək zərurəti ilə üz-üzə dayanmışdır. Ölkəmizdə start götürmüş geniş islahatçılıq hərəkatı çərçivəsində təhsil sahəsində də mühüm dəyişikliklərin, yeniliklərin həyata keçirilməsi obyektiv tələbatdır"*

İslahat proqramının əsas məqsədi təhsilin hərtərəfli gələcək inkişafı üçün əsaslı zəminin, yaradılması, dövlət siyasətini həyata keçirmçək və bu sahədə möhkəm təməllərin qoyulmasıdır. Bu münasubətlə islahat proqramında deyilir: *"Təhsil sahəsində islahat proqramının əsas məqsədi məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir"*.

İslahat proqramında təhsilin əsas inkişaf istiqamətləri göstərilərkən təhsilimizin inkişaf tarixinə dair çox dəyərli məlumatlar da verilir. Bu məlumatlardan aydın olur ki, Azərbaycan dünya təhsil sisteminə qoşulsa da, Avropaya inteqrasiya edilsə də

hələ qədim və orta əsrlərdə özünün mükəmməl təhsil sistemi olmuş, zəngin mədəniyyəti, milli-mənəvi dəyərləri olmuşdur. Bu barədə islahat proqramında belə deyilir: *"Eramızın üçüncü əsrindən başlayaraq Azərbaycanda ilkin savad verən ayrıca məktəblər mövcud olmuşdur. VII əsrdə isə elmi təhsili daha yüksək məqama qaldıran İslam dininin təsiri ilə oxumaq istəyənləri əhatə edən təhsil sistemi yaranmışdır. Artıq X-XIII əsrlərdə Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Həmədan, Ərdəbil kimi şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrilmişdi.*

*XII-XV əsrlərdə Azərbaycan yüksək ali təhsil müəssisələri ilə dünyada məşhurlaşmışdı. Bu dövrdə Azərbaycanın Gəncə, Şamaxı, Beyləqan, Naxçıvan, Bərdə, Təbriz, Marağa kimi şəhərlərində ali məktəblər, rəsədxanalar, kitabxanalar fəaliyyət göstərmişdir. Həmin ali məktəblər memarlıq, musiqi, astronomiya, təbabət, dəqiq elmlər və say üzrə biri digərini təkrar etməyən, təmayülə malik olmuşlar.*

*XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə qatıldı, qısa müddət ərzində bütün milli məktəblər ləğv edildi, əvəzində təlim rus dilində olan tədris müəssisələri yaradılaraq, milli təhsil sistemimizin əsaslarına güclü zərbə vuruldu. Bununla yanaşı, Azərbaycanda XX əsrin əvvəllərində pedaqoji fikrin səciyyəvi cəhətlərindən biri klassik pedaqoji ideya və ənənələrin Avropa üslublu dünyəvi təhsil təcrübəsi ilə birləşməsi və təlimdə yeni üsulların tətbiqinin diqqəti daha çox cəlb etməsi idi. Rus imperiyasının süqutu nəticəsində 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti yarandı.*

*Respublikada təhsil sistemi Azərbaycan Xalq Cümhuriyyəti dövründə öz təşəkkülünü tapmış və xüsusilə 20-ci illərdə Azərbaycan sovetləşəndən sonra bu sahə əhəmiyyətli dərəcədə sürətlə inkişaf etdirilmişdir".*

Təhsil islahatı Proqramı üç mərhələdn ibarət olmuşdur: I mərhələ hazırlıq mərhələsidir və bu 1999-cu illəri əhatə edir. II mərhələ qısamüddətli perspektivi əhatə edir. Bu 2000-2003-cü illəri əhatə edir. III mərhələ 2004-cü ildən sonrakı mərhələdir ki, burada da Proqramda nəzərdə tutulan bütün tədbirlərin müxtəlif yönüm və səviyyəli təhsil müəssisələrinin inteqrasiyası, onların keçirilməsi yolları əhatə olunmuşdur. İslahat Proqramında I mərhələdə 50, II

mərhələdə 57, III mərhələdə 21 tədbirin, bütövlükdə 128 tədbirin həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkəmizin möhtərəm prezidenti, cənab İlham Əliyev milli təhsil sisteminin inkişafı məsələsinə Azərbaycanın gələcək inkişafının əsas strateji xətti kimi baxır. Prezident belə hesab edir ki, *Azərbaycanın inkişafının yeganə yolu təhsildən, müasir biliklərdən, intellektual əməyin inkişafından, informasiya və kompyüter texnologiyalarının geniş tətbiqindən keçir.*

Prezident cənab İlham Əliyevin *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı* təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələ açmışdır. Bu mühüm dövlət sənədini təhsil sistemimizin metodoloji əsası, pedaqoji elmimizin təməl prinsipi hesab edə bilərik. Bu sənəd ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun təhsil haqqında dediyi müdrik kəlamlarından və xüsusilə "maddi kapitalın insan kapitalına çevirmək" ideyasından qaynaqlanır ki, bu da səriştəli müəllim kadrları hazırlığının mühüm şərtidir. Məqsəd həmçinin müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş şəxs yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir. Elə bir insan ki, keçmiş irsi yaşada bilir, bu günün reallığını görə bilir və gələcəyi təsvir edə bilir. Yəni yetişdirdiyimiz insan bu gün dünənkindən, sabah isə bu günkündən daha bilikli, daha ağıllı və daha hazırlıqlı olmalıdır.

Təsadüfi deyildir ki, ölkə prezidenti və vitse Prezident, Heydər Əliyev fondunun Prezidenti Mehriban Əliyeva məhz bunu nəzərə alaraq, təhsilə ildən-ilə büdcə xərclərini artırır. Məktəbəqədər təhsildən başlamış təhsilin bütün mərhələlərini əhatə edən və nəhayət, ali təhsilin inkişafının təmin edilməsini əsaslandıran bir sıra Dövlət proqramları hazırlanıb qəbul edilmişdir.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına, məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaqdır. Azərbaycanın indiki və gələcək nəsilləri üçün ədəbi örnək olacaqdır. Öz şərəfi və möhtəşəm fəaliyyəti ilə Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətini

yaratdı. Onun idarəçilik mexanizmini yaratdı, formalaşdırdı. Milli - mənəvi dəyərlərimizi dirçəltdi və təhsilimizi inkişaf etdirdi.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏHSİL DİPLOMATİYASI

***Fərrux Rüstəmov***
***ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi***
***farrukhrustamov@gmail.com***

Ulu Öndər Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən mühüm göstəricisi Respublikada azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin bütün buxovlarından azad olması, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır. Ulu Öndərin keçən əsrin 60-cı illərinin axırlarında siyasi hakimiyyətə gəlişi, Azərbaycanın tərəqqiyə dönüşü, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünüqayıdışa dönüşün başlanğıcı oldu. Milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə səbəb oldu.

Ulu Öndər o illəri xatırlayaraq deyirdi ki, XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri elmin, təhsilin sürətlə inkişaf etməsidir. 1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir. Həmin illərdə, daha doğrusu Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsində Azərbaycanın şəhər, kənd və qəsəbələrində 770-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəblərin sayı 12-dən 17-ə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdı. Qətiyyətlə demək olar ki, Azərbaycanın inkişafının mühüm dövrü kimi səciyyələndirilən XX əsrin 70-80-ci illəri xalqımızın qəlbində, düşüncəsində illərlə yığılıb qalmış milli ideyanın - azadlıq,

müstəqillik, suveren Azərbaycan dövləti ideyalarının canlanmasına, gələcəkdə qüdrətli milli azadlıq hərəkatının ideya - mənəvi əsası və hərəkətverici qüvvəsi dərəcəsinə yüksəlməsinə zəmin yaratdı. Bu illərdə Ulu Öndərin uzaqgörənliklə istiqamətləndirdiyi ən dəyərli təhsil ənənələri sırasında azərbaycanlı gənclərin Respublikamız üçün gərəkli ixtisaslara yiyələnmələrindən ötrü keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilməsi təcrübəsi idi. Bu yolla Azərbaycanın elmi və kadr potensialının yüksəldilməsi ilə yanaşı, ən qabiliyyətli gənclərimizin vasitəsi ilə xalqımızın mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin təbliği kimi çox vacib bir məsələ də yerinə yetirildi.

O dövrdə reallaşdırılan məqsədyönlü siyasətin nəticəsidir ki, indi Rusiyada və digər keçmiş İttifaq dövlətlərində güclü Azərbaycan diasporu fəaliyyət göstərir. Diasporumuzun ən fəal üzvləri Ulu Öndərin 70-80-ci illərdə Azərbaycandan kənarda ali təhsil almaq üçün göndərdiyi tələbələrdir.

Azərbaycandan kənarda təhsil almaq üçün gənclərin göndərilməsi ideyasının tarixi qədimdir. Hələ orta əsrlərdə azərbaycanlı gənclər Şərqin tanınmış məktəb və mədrəsələrində təhsil almış Şərqdə elmin və mədəniyyətin inkişafına dəyərli töhfələr vermişlər. Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra bu tendensiya dəyişdi. Azərbaycanlı gənclər təhsil almaq üçün Rusiyanın və Avropanın tanınmış təhsil ocaqlarına üz tutdular. Azərbaycan Demokratik Respublikasında bu ideyanın gerçəkləşməsi üçün real addımlar atıldı, 100 nəfərə yaxın gənc Rusiyanın, Türkiyənin və Avropanın tanınmış elm və təhsil mərkəzlərinə yola salındılar. Çox təəssüf ki, onların taleyi uğurlu olmadı. Azərbaycan 1920-ci il aprelin 28-də bolşeviklər tərəfindən yenidən işğal olundu. Demokratik hökumətin xaricə göndərdiyi tələbələr təqaüddən məhrum edildilər. Onların bəziləri vətənə qayıtdı, bəziləri isə xaricdə təhsillərini yarımçıq qoyaraq başqa sahədə işləməyə başladılar. Vətənə qayıdanların da taleyi uğurlu olmadı, onlar Stalin repressiyasının qurbanlarına çevrildilər.

1970-80-ci illərdə Ulu Öndərin şəxsi təşəbbüsü və qayğısı sayəsində bu ideya praktik həllini tapdı. Keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-

dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15000-dək azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yarandı. Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gəncləri diqqət mərkəzində saxlayır, onların inkişafına hər cür qayğı göstərir, onları “Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti” adlandırırdı. Ümummilli Lider hər il avqust ayının axırlarında vətəndən kənarda təhsil alacaq tələbə gənclərlə respublikanın partiya və sovet fəallarının görüşünü keçirir, orada dərin məzmunlu çıxışı ilə öz tövsiyələrini verirdi. O, 29 avqust 1981-ci ildə tələbə gənclərin respublikanın partiya və sovet fəalları ilə görüşündəki nitqində demişdi: “Azərbaycan KP MK-nın gördüyü tədbirlər özünü tamamilə doğruldur. Ali məktəblərə layiqli gənclərin gəlməsini təmin edir. Respublikadan gənclərin bir çox qruplarının Moskva, Leninqrad və digər şəhərlərin ali məktəblərində oxumağa göndərilməsi praktikası yüksəkixtisaslı kadrlar hazırlanmasında mühüm istiqamətdir. İndi bizim respublikada xalq təsərrüfatının daha kəskin ehtiyac hiss etdiyi ixtisaslar üzrə Sovet İttifaqının ən yaxşı tədris müəssisələrində hazırlanmış böyük kadr dəstəmiz vardır. Bu il başqa şəhərlərin ali məktəblərinə 853 nəfər, o cümlədən, 1-ci kursa 720 nəfər göndərilir. Bundan əlavə 42 nəfər Kiyev Mülki Aviasiya İnstitutuna qəbul olunmuşdur. Bu il Azərbaycandan cəmi 3600 oğlan və qız Sovet İttifaqının müxtəlif ali məktəblərində 244 ixtisas üzrə təhsil alacaqlar”.

Azərbaycanlı tələbələrin respublikadan kənarda ali təhsil alacaqları tədris ocaqlarının coğrafiyası və kadr hazırlığı istiqaməti müxtəlif idi. Demək olar ki, keçmiş İttifaqın ən nüfuzlu universitet və institutları seçilmişdi. Milli məktəblərimizin məzunlarının ümumi şərtlər daxilində həmin ali təhsil ocaqlarına qəbulu çox çətin idi. Həmin ali təhsil müəssisələrinin içərisində M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Moskva Energetika İnstitutu, Moskva Kimya Maşınqayırma İnstitutu, Moskva Dəzgahqayırma İnstitutu, P.Lumumba adına Xalqlar Dostluğu Universiteti, Leninqrad Soyuducu Cihazlar Sənayesi İnstitutu, Aviasiya Cihazqayırma İnstitutu, Kiyev Politexnik İnstitutu, Belarusiya Kənd Təsərrüfatı Mexanikləşdirmə İnstititutu, Surikov adına Moskva Rəssamlıq

İncəsənət İnstitutu, Muxina adına Leninqrad Ali Rəssamlıq Sənaye Məktəbi, Xarkov Rəssamlıq Sənaye İnstitutu, Dövlət Teatr Sənəti İnstitutu, Moskva Kənd Təsərrüfatı Mühəndisləri İnstitutu, Ryazan Radiotexika İnstitutu, Leninqrad Toxuculuq və Yüngül Sənaye İnstitutu, Ukrayna Kənd Təsərrüfatı Akademiyası və s. mühüm yer tuturdu.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər respublikamızdan kənara hər il 47 nəfər ali təhsil almağa göndərilirdi. Halbuki plan 60 nəfər idi. Qeyd etmək yerinə düşər ki, göndərilən 47 nəfərin az bir hisssini azərbaycanlılar təşkil edirdi. SSRİ-nin tanınmış məktəblərində azərbaycanlılar üçün ayrılmış yerlərə respublikamızda yaşayan erməni və digər millətin nümayəndələri göndərilirdi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bu tendensiya qısa bir müddətdə dəyişdi. Əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə cəmi 47 nəfər göndərilmişdisə, 1975-ci ildə onların sayı 700 nəfərə çatdı. 1975-ci ildən başlayaraq azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması intensiv xarakter aldı. 1978-ci ildən başlayaraq hər il kənara 800-900 nəfər tələbənin göndərilməsinə nail olundu. Əvvəlki illərlə müqayisədə həm tələbələrin, həm ali məktəblərin və həm də ixtisasların sayı sürətlə artdı. Faktlara diqqət yetirək: 1977-ci ildə 1970-ci illə müqayisədə göndərilən tələbələrin sayı 14 dəfədən çox artaraq 818 nəfərə, ixtisasların sayı 5 dəfə artaraq 244-ə çatmış, ali məktəblərin sayı 140-a, ali məktəblərin yerləşdiyi şəhərlərin coğrafiyası genişlənərək 40-a yüksəlmişdi. Bu proses sonrakı illərdə də (1978-1982) intensiv olaraq artmış, 1978-ci illə müqayisədə 1982-ci ildə tələbələrin sayı 11% artmış, ali məktəblərin sayı 151-dən 170-ə yüksəlmiş, ixtisasların sayı 244-dən 250-yə qalxmış, ən zəruri istiqamətlərin sayı 80-ə çatmışdır. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci islədək 40% təşkil edirdi. 1976-cı ildə bu rəqəm 85%-ə, 1977-ci ildə 92%-ə, 1980-ci illərin əvvəllərində isə 98%-ə yüksəlmişdi. Bu yüksək tarixi-mədəni nailiyyət Ulu Öndərin Azərbaycanın gələcəyinə istiqamətlənmiş qlobal tədbirlərin tərkib hissəsi idi.

Keçən əsrin 70-ci illərində özünün ən yüksək mərhələsinə çatmış bu tarixi-mədəni və təhsil ənənələrinin inkişafının

Azərbaycanın gələcək inkişafına hədəflənməsindən bəhs edən Ulu Öndər Azərbaycan gənclərinin I Forumunda demişdi: “Burada 70-80-ci illərdə hər il 800-900 nəfər gəncin Azərbaycandan kənarda olan təhsil ocaqlarına göndərilməsi yada salındı. Doğurdan da, hər il burada, bu salonda biz həmin gəncləri Moskvaya, Leninqrada, Kiyevə, başqa-başqa şəhərlərə yola salırdıq, onlara xeyir-dua verirdik, onları yüksək təhsil almaq üçün, yaxud bizim respublikamızda olmayan ixtisasları mənimsəmək üçün həmin təhsil mərkəzlərinə göndərirdik. Bunlar öz bəhrəsini verir. Burada deyildi ki, indi həmin təhsil ocaqlarında təhsil almış, mütəxəssis kimi fəaliyyət göstərən şəxslərin cəmiyyəti yaranıb. Mən bu cəmiyyəti salamlayıram, ona çox böyük ehtiramımı bildirirəm və çalışacağam ki, bu cəmiyyətin üzvləri ilə görüşüm. Çünki vaxtilə belə kadrların hazırlanması üçün mən xeyli səylər göstərmişəm”.

21 may 1998-ci ildə Ulu Öndər respublikamızdan kənarda təhsil almış mütəxəssislər Cəmiyyətinin üzvləri ilə görüş zamanı demişdir: “1970-1980-ci illərdə Azərbaycandan kənarda təhsil almağa göndərdiyim insanlar mənim doğma övladlarımdır. Bəlkə də Siz bilmirsiniz ki, mən bu işi təşkil edənə qədər nə əziyyət çəkmişəm”.

31 avqust 1998-ci ildə məhz həmin tələbələrlə indi Ulu Öndərin adını daşıyan Sarayda möhtəşəm görüş oldu. Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısında Ulu Öndər o illəri məmnunluqla xatırlayaraq demişdi: “Mən çox həyəcanlıyam və eyni zamanda böyük sevinc hissi keçirirəm. Çünki bugünkü - 1998-ci ildəki toplantımız 1969-cu ildə Azərbaycanda ilk dəfə əsası qoyulmuş görüşlərin nəticəsidir. Mən həmin görüşlərin təşəbbüskarı, təşkilatçısı olmuşam. Bu görüşlər, o vaxt görülmüş həmin işlər barədə və bunların sizin hər birinizin taleyində oynadığı rol haqqında burada kifayət qədər deyildi. Mən ona görə sevinirəm ki, 29 il bundan əvvəl əsasını qoyduğum xeyirxah işin gözəl bəhrələrini görürəm.... Vaxtilə bu salona 16-17 yaşında daxil olmuş insanlar - siz ötən illərdə böyük həyat yolu keçmişsiniz, formalaşmısınız, püxtələşmisiniz, Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərirsiniz. Bunların hamısının əsası həmin illərdə qoyulubdur. Ona görə də mən

sizin hər birinizin həyatında etdiyim xidmətin nəticəsini görərək bu gün sevinirəm, şadlanıram və iftixar hissi keçirirəm... Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım... mən bu işi başladım, genişləndirdim. Özüm də təsəvvür etmədən gördüm ki, Azərbaycan üçün yeni bir ali məktəb yaratmışıq. Bu nədən ibarətdir? 1969-cu ildə biz respublikadan kənara oxumağa heç 50 nəfər də göndərmədik. 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bunu ilbəil artırdıq. Nəhayət, biz 1975-ci ildə, gərək ki, 600 nəfər, 1977-1978-ci illərdə isə hər il 800-900 nəfər gənci respublikadan kənar ali məktəblərə göndərdik.

Ali təhsil sahəsində işləyənlər bilirlər hər il ali məktəbin illik qəbulu 700-800 nəfər olur. Beləliklə, əgər biz ildə 800-900 nəfər azərbaycanlı balasını o vaxtlar Sovetlər İttifaqının müxtəlif şəhərlərindəki ali məktəblərə göndərirdiksə, demək, biz Azərbaycan Dövlət Universitetinə olan qəbul qədər əlavə tələbə hazırlayırdıq. Sonralar bunu Moskvada hiss etmişdilər. Onlar görmüşdülər ki, beləliklə, biz Azərbaycanın ərazisində olmayan, ancaq respublikamız üçün kadr hazırlayan yeni bir ali məktəb yaratmışıq.... 1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, mən tələbələrlə görüş keçirməyim... O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqlar. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəkdir".

Ulu Öndər sonralar həmin tarixi həqiqəti belə etiraf edirdi: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 1970-ci ildən başlamışıq. Mən də bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyi barədə düşünmüşəm, həmin illərdən başlayaraq gələcəyimiz haqqında düşünürdüm. Zaman keçdi, artıq biz XX əsrin son illərini yaşayırıq. İndi isə sizinlə görüşərək və bu problemlərlə daim şəxsən məşğul olaraq Azərbaycanın gələcəyi haqqında düşünürəm".

Ulu Öndər Azərbaycandan kənarda təhsil almış Mütəxəssislər Cəmiyyətinin üzvləri ilə görüşündə xatırlayırdı ki, elə bir il olmayıb

ki, respublikadan kənara ali təhsil üçün göndərdiyim gənclərlə görüşməyim. İlk vaxtlar onlarla görüş Mərkəzi Komitənin binasında, sonra isə Respublika sarayında keçirilirdi. Bakıdan Moskvaya gedəndə buradakı mənzilimi təhvil verdim. Çoxlu kitablarım var idi, onları aparmaq mümkün deyildi. Göstəriş verdim ki, mənim üçün ən əsas olan kitabları, sənədləri seçsinlər. Mən hər il respublikadan kənarda oxumağa göndərdiyim tələbələrin cildlənmiş siyahılarını özümlə Moskvaya apardım.

Heydər Əliyev SSRİ rəhbərliyinin yürütdüyü məkrli siyasətinə etiraz olaraq tutduğu vəzifələrdən istefa verəndə də Kremldən özü ilə götürdüyü sənədlərdən biri də məhz həmin siyahı olmuşdur.

Azərbaycanın çağdaş tarixində Heydər Əliyev həqiqətlərinin təntənəsi milli təhsil tariximizin qızıl hərflərlə yazılmış şanlı səhifələrini təşkil edir. 70-80-ci illərdə respublikadan kənarda azərbaycanlı gənclərin təhsil almağa göndərilməsi böyük elmi-mədəni, iqtisadi-siyasi əhəmiyyət daşıyırdı. Sanki mövcud ali məktəblərdən əlavə, Azərbaycan üçün yüksəkixtisaslı kadr hazırlığını həyata keçirən daha bir ali məktəbimiz respublikadan kənarda fəaliyyyət göstərirdi. Hər il həmin ali məktəbə oxumağa orta hesabla 800-1000 nəfər gənc göndərilirdi. Bu rəmzi, simvolik ali məktəbin yaradıcısı və rəhbəri Heydər Əliyev idi. Bu gün istər ölkəmizdə, istərsə də xarici ölkələrdə fəaliyyət göstərən 15 mindən çox yüksəkixtisaslı kadrların hamısı Heydər Əliyev məktəbinin məzunlarıdır.

70-80-ci illərdə yaranan bu ənənə çox təəssüf ki, Ulu Öndər SSRİ rəhbərliyindən uzaqlaşdırılandan sonra unuduldu.

Azərbaycan müstəqillik qazandıqdan sonra azərbaycanlıların xaricdə təhsil alması prosesi sürətləndi. Ulu Öndərin xalqın təkidli tələbi ilə təkrar siyasi hakimiyyətə gəlişi ilə bu proses sürətləndi. Azərbaycanlı gənclərin xarici ölkələrin universitetlərində təhsil alması müxtəlif istiqamətlərdə həyata keçirilməyə başlandı: 1)öz təşəbbüsləri və imkanları hesabına xaricdə təhsil; 2)müxtəlif təhsil mübadilə proqramlarını həyata keçirən təşkilat və digər donor qurumların təqaüdləri hesabına xaricdə təhsil; 3)təhsil sahəsində əməkdaşlıq çərçivəsində ikitərəfli razılaşmalar əsasında Azərbaycan

vətəndaşları üçün ayrılan təqaüdlər hesabına hökumət tərəfindən həyata keçirilən xaricdə təhsil; 4)Dövlət Proqramı xətti ilə xaricdə təhsil.

Heydər Əliyevin milli dövlətçilik strategiyasını uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu universitetlərində bakalavriatura, magistratura və doktoratura səviyyələrində təhsil almaları ilə bağlı təsdiq etdiyi Dövlət Proqramları maddi kapitalın insan kapitalına çevrilməsinə, davamlı insan inkişafına, Azərbaycan dövlətinin və dövlətçiliyinin möhkəmlənməsinə və tərəqqisinə istiqamətlənmişdir. Ümummilli Liderin xaricdə təhsil ənənəsi indi daha çox ölkələri, ixtisasları və istiqamətləri əhatə etməklə öz bəhrəsini verməkdədir.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL KONSEPSİYASI

***Nübar Muxtar qızı Muxtarova***
***BDU, Pedaqogika kafedrasının professoru***
***professormukhtarova@gmail.com***

**May ayının 10-da ümummilli liderimiz, bütün Türk dünyasının böyük oğlu, müasir, müstəqil Azərbaycanın memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 ili tamam olur.**

Çiçəklənən müasir Azərbaycan elminin, təhsil və tərbiyə sisteminin, bütünlükdə mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əlirza oğlu Əliyev ölkəyə rəhbərliyinin, istər sovet dönəmində (1969-1982), istərsə də müstəqillik (1993-2003) dövründə təhsil-tərbiyə sahəsini həmişə diqqətdə saxlamış, milli elmimizin, təhsilimizin, milli tərbiyəmizin güclü himayədarı olmuşdur. Ulu öndər Heydər Əliyevin bu mühüm sahəyə son dərəcə həssas, insani münasibəti təbii idi.

Heydər Əliyev milli elmin, təhsil və tərbiyənin mahiyyətinə və inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi

yanaşır, xalqımızın intellektual səviyyəsinin daha da yüksəldilməsini ən vacib, təxirəsalınmaz vəzifələrdən biri hesab edirdi. Təhsil inkişafı təmin edən ən güclü vasitədir. Bütün dövrlərdə hər bir cəmiyyətin bir sıra əsaslı problemləri və onların həlli məhz təhsilin tərəqqisindən keçir. Ulu öndər mənəvi ideallarin təntənəsini məhz təhsildə, xalqın maariflənməsində görür, «Təhsili xalqın gələcəyi» hesab edir, «Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir, o milli məqsədlər, mənafelər əsasında qurulmalıdır» - deyirdi. Heydər Əliyevə görə, «Təhsil inkişafı təmin edən ən zəruri vəzifədir». Ümummilli liderin təhsilə münasibəti belə idi: «Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam…Hesab edirəm ki, cəmiyyət harada olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir». Ulu öndər bu məqsədi əsas götürərək hələ ölkəyə birinci rəhbərliyi dövründə Xalq təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, ölkənin mədəni-intellektual resurslarının gücləndirilməsinə yönəltmişdir.

Təhsil ilk baxımda çox asan fəaliyyət sahəsi kimi görünür, ancaq təhsil sferasına daxil olarkən onun nə qədər mürəkkəb bir sahə olduğu aydınlaşır. Təhsil təkcə məktəb, müəllim, şagird münasibətlərinin cəmi deyildir. Təhsildə tarixi təcrübə, milli ənənə, bəşəri dəyərlər cəmləşmişdir. Ulu öndərin fikrincə, «Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə də kənd təsərrüfatı, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual sahəsini əks etdirən sahədir». Hələ sovetlər dönəmində Heydər Əliyev özünün təhsil sahəsində milli konsepsiyasını müxtəlif istiqamətlərdə həyata keçirirdi.

İlk növbədə, təhsilimizin ştat heyəti yerli kadrlar hesabına milliləşdirildi ki, ölkəmizin hər yerində, xüsusən kənd yerlərində yeni tipli, müasir məktəblər tikildi, şəhər və kənddə işləyən müəllimlərə xüsusi qayğı göstərildi, onların mənzillə təmin olunması işi yaxşılaşdırıldı, gənclərə ölkəmizdə və digər ölkələrdə ali təhsil almaq üçün şərait yaradıldı, təhsilin maddi-texniki bazası gücləndirildi. Ölkəmizin gələcək inkişafına ünvanlanmış bütün bu strateji işlərə Heydər Əliyev şəxsən özü rəhbərik edirdi. Daim xalqının gələcəyini

düşünən böyük Azərbaycanlı hələ o zamanlar vaxtı qabaqlayaraq XXI əsrin Azərbaycanını yaradırdı.

Azərbaycan xalqının böyük tarixi ərzində məktəb və maarifin ən yüksək inkişafı təbii ki, yetmiş-səksəninci illərdə oldu. Ulu öndər Heydər Əliyev yetmiş-səksəninci illərdə formalaşdırdığı bu zəngin intellektual potensialından səmərəli istifadəni müstəqillik illərində (1993-2003) daha da inkişaf etdirdi. Əvvəla, ölkə yaranmış siyasi böhrandan xilas oldu, Azərbaycanın elmi, təhsili ağır tənəzzüldən qurtuldu, ölkəmizdən xaricə «beyin axını» dayandırıldı, ölkədə siyasi, mədəni sahələrdə güclü inkişaf başlandı. Heydər Əliyev dövlət quruculuğu prosesinin ən zəruri tərkib hissələrindən biri kimi, hələ yetmişinci-səksəninci illərdə respublikada formalaşdırdığı zəngin elmi-intellektual potensiala istinad edərək özünün təkmil təhsil konsepsiyasını irəli sürdü. Ulu öndər milli tərəqqi baxımından strateji əhəmiyyət kəsb edən bu sahənin problemlərini daim diqqət mərkəzində saxladı. Ulu öndər Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi əsaslandırdı. Elm və təhsil sahəsində mütərəqqi islahatları ardıcıllıqla həyat keçirdi. 1996-cı ildə «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» qərar qəbul edildi, yeni peşə məktəbləri və peşə liseyləri yaradıldı. 1998-ci ildə «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında» sərəncamı imzaladı. 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqram"ında təhsil sahələrində islahatların məhz tədricən, mərhələlərlə həyata keçirilməsi, Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesini təmin etdi. «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında» sərəncamında müstəqil Azərbaycan Təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyat keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil sisteminə inteqrasiyasının həyat keçirilməsi kimi mühüm vəzifələr önə çəkildi. «Azərbaycan Respublikasında Təhsil sahəsində islahat Proqramı»nın (1999) əsas mahiyyətini isə təhsil sahəsində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi

ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə üst-üstə düşən prinsiplərinin tətbiqi məsələləri təşkil edirdi. «Dövlət Komissiyası»nın iclasındakı yekun nitqində Heydər Əliyev deyirdi: «Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan».

Ulu öndər respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə -iqtisadiyyatı inkişaf etdirən bir amil kimi baxır, iqtisadiyyatımız təhsilimizin başqa formada inikasıdır qənaətinə gəlirdi. Bu problemlə bağlı onun fikri belə idi: «Bizim büdcədə ən çox payı olan təhsil sistemidir. Bu da təsadüfi deyildir. Başqa sahədə ola bilər kəsirlər də olsun, amma təhsildə yox. Çünki təhsildə olan kəsir, çatışmazlıq bizim gələcəyimizə xətalar yaradacaqdır». Bu müdrik kəlamdan belə qənaətə gəlmək olar ki, bütün inkişaf etmiş dövlətlər iqtisadi qüdrətinə, təhsilinə görə sıraya düzülürlər. İqtisadiyyatın açarı texnikadır. Texnikanın açarı texnologiyadır. Texnologiyanın açarı elmdədir. Elmin açarı isə təhsildir. Nəticə aydındır: iqtisadiyyatın da açarı təhsildir. Odur ki, dövlətin güclü olması üçün xəzinəsi özündə olan təhsil sisteminin potensialından səmərəli istifadə etmək lazımdır. Ulu öndər cəmiyyətin gələcək tərəqqisi ilə təhsilin məzmunu arasında bir bağlılıq görür və deyirdi: «Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Təhsilin məzmunu elə müəyyənləşdirilməlidir ki, gənclərimiz həm vətənpərvər, həm də müasir tələblərə cavab verən bilən bilikli insan kimi formalaşsınlar».

Heydər Əliyev həm təhsil sisteminin qurulmasında, həm də təhsilin məzmununda milli və bəşəri dəyərlərin vəhdət təşkil etdiyini göstərərək deyirdi: «Həm öz əlimizdə olan potensialdan, həm də bütün ölkələrlə hazırkı azad əlaqələrdən istifadə edərək, inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür». Bu fəlsəfi kəlamdan çıxan nəticə belədir: təhsil bilməni, icad etməni, birgəyaşama mədəniyyətini, liberal-demokratik cəmiyyətlərin baza prinsiplərini, dövləti düşüncəni, müstəqilliyin yüksək amal, azadlığın

ali nemət olduğunu gənclərə öyrətməlidir. Ulu öndər demokratiya, azadlıq, ədalət, humanizm, insan haqlarına hörmət, elmi-texniki yaradıcılığa meyillilik, informasiyanı və zamanı dəyərləndirə bilmək qabiliyyətini xalqımıza, xüsusən gənclərə öyrətməyi, təhsilin başlıca vəzifəsi hesab edirdi. Heydər Əliyevə görə, «Təhsilin vacib məsələlərindən biri də milli dəyərlərimizi bəşəriyyətə, bəşəri dəyərlərin isə xalqımıza çatdırılmasıdır». Ümummilli lider Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2003-cü il tarixli fərmanı isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, onun beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Bu fərmanla təhsil müəssisələrinin, xüsusən ali təhsilin şəbəkəsi genişləndirilmiş, daha bir neçə universitetə muxtariyyət statusu verilmiş, ölkəmizdə müəllim hazırlığı keyfiyyətcə yaxşılaşdırılmışdır. Təhsilin ümumi keyfiyyətinə bilavasitə təsir edən mühüm amillərdən biri də orta ümumtəhsil məktəblərində maddi-texniki bazanın gücləndirilməsidir. Ulu öndərimizin 4 oktyabr 2002-ci il tarixli «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» sərəncamı da məhz milli təhsil sisteminin inkişafında mühüm amil olan ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsinə xidmət etmişdir.

Ulu öndər Heydər Əliyevin pedaqoji irsində ən önəmli yerlərdən birini müəllimə və ziyalılara xeyirxah münasibətləri tutur. O, müntəzəm olaraq müəllimlərin maddi vəziyyəti ilə maraqlanır, bu işdə onlara böyük köməklik göstərirdi. Heydər Əliyev Azərbaycanın həm orta məktəb, həm də ali məktəb müəllimlərinin fəxri adlar almasına və ölkədə tanınmasına müstəsna əhəmiyyət verirdi. Müəllimlərə ....əxri adların verilməsindən ötrü Moskvaya edilən çoxsaylı müraciətlər Heydər Əliyevin müəllim əməyinin qiymətləndirilməsinə böyük diqqətinin təzahürü idi. Ulu öndər elə bir yığıncaq olmurdu ki, orada müəllimlərin ünvanına xoş sözlər deməmiş olsun. Heydər Əliyev Azərbaycan müəllimlərinin qurultaylarında iştirak edir, proqram xarakterli nitq söyləyirdi.

Ulu öndərin müəllim haqqında dediklərini ümumiləşdirsək,

onun Azərbaycan müəllliminə və məktəbinə münasibətini tamamilə açmış olarıq: «Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm». Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə Təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir». «İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim – hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır». «Müəllimlik çox şərəfli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Müəllim sənəti şərəfli və gözəl sənətdir. Qədimdən xalqımızın içərisində ən mötəbər və ləyaqətli adamları müəllim deyə çağırmışlar». «Həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli. özümlü olublar və mənəviyyatını hər şeydən yüksək tutublar».

Ulu öndər Heydər Əliyev özünün şəxsi keyfiyyətləri, işinə, insanlara sadiqliyi, dövlət idarəçiliyini tərəqqiyə yönəltməsi ilə biz müəllimlərə əbədi örnəkdir. Müdrik bir Şərq mütəfəkkiri çox sərrast demişdir: «Bütün aləmi bir şəxsiyyətdə toplamaq cənabi Haqqa zor gəlməz…».

## TƏHSİL TEXNOLOGİYALARINA MÜASİR BAXIŞ: təkamülü, bu günü və perspektivləri

***İsa Namaz oğlu İsmayılov***
***ADPU-nun professoru, p.ü.e.d.***
***isanamazoglu@ rambler.ru***

Artıq ənənvi sistemin hazırladığı kadrların elmi baqajlarının müasir cəmiyyətin tələblərinə cavab verə bilməməsi, tamam yeni bir formada hərtərəfli inkişaf etmiş gənc kadrların hazırlanmasına ciddi ehtiyac duyulur. Buna görədə təhsildə müasir texnologiyaların sisteminin formalaşdırılmasına və tətbiqinə böyük ehtiyac hiss olunmaqdadır. Burada əsas məsələ təlimin fəallaşdırılması prinsipini həyata keçirmək, öyrənənlərin aktiv fəaliyyətlərini, müstəqilli

düşünmək və istənilən situasiyada müvafiq qərar vermək, bacarıqlı, yaradıcı daha intelektual gənclərin formalaşdırılmasını təmin etməkdən ibarət olmalıdır.

Təhsil texnologiyasının müasir inkişaf mərhələsi nəzəriyyə ilə praktikanın sıxı əlaqəsinə istinad etməklə intensiv yenilik axtarışı ilə xarakterizə olunur. Bu proses bir sıra ziddiyyətlərə malikdir:ənənəvi təlimin forma və metodları, tərbiyyə sistemi, yeni yaranan bir sıra obyektiv inovasiya proseslərini özündə ehtiva edən təhsil sisteminin müasir inkişaf ənənələri, cəmiyyətin sosial- iqtisadi inkişaf şərtləri ilə uyğun gəlməməsi ilə şərtlənir. İndi artıq cəmiyyətin sosial sifarişləri dəyişmiş *yaradıcı və bacarıqlı, şüurlu, müəyyən məqsədə çatmaq üçün müstəqil öz fəaliyyətlərini idarə edə bilən kamil şəxsiyyətin formalaşması zərurəti meydana çıxmasıdır.*

Hal-hazırda qlobalaşma şəraitində təlim nəzəriyəsinin istinad etdiyi müasir paradiqmaların xarakteri, tədris tədqiqt işlərinin və tədris modellərinin həyata keçirilməsinə hesablanmış biliklərin fundamental xarakteri ilə əlaqədardır. Ona görədə tədris prosesində müasir təlim texnologiyalarından dərsin bütün mərhələlrində istifadə etməklə, tədris materialının öyrədilməsinə yeni yanaşmalar tələb edilir. "Təhsil texnologiyası" anlayışı " Pedaqoji texnologiya"dan daha geniş tutuma malik olmaqla, onun fərqli çəhəti: *sosial, sosial-siyasi, idarəetmə, kultroloji, psoxoloji-pedaqoji, tibbi-pedaqoji, iqtisadi və digər qarışıq texnologiyalarıda* özündə ehtiva etməsidir.

Beləliklə aparılan tədqiqat işlərindən görünür ki, pedaqoji texnologiya anlayışı bir sıra təkamül mərhələlərindən keçmişdir.

***1-ci mərhələ*** 1940 – 50 ci illəri əhatə etməklə "təhsil texnologiyası" kimi tanınmaqla, tədris prosesində ***aukustik vasitələrin*** tətbiqi ilə səciyyələnirdi.

***2-ci mərhələ*** 1950-ci ilin ortalarından 60-cı illərə qədər olan dövrü əhatə edir. "Təhsil texnologiyası" kimi ***proqramlaşdırılmış təlimin*** tətbiqi başa düşülürdü.

***3-cü mərhələ*** 1960-ci illərdən başlayaraq 80-ci illərə qədər olan vaxtı əhatə edirdi. Bu illərdə "Pedaqoji texnologiya" anlayışı tədris prosesinin əvvəlcədən layihələşdirilməsini və nəzərdə tutulan

məqsədə dəqiq catmaq üçün istifadə edilən ***təlimin texniki vasitələrini*** əhatə edirdi.

***4-cü mərhələ*** 1980-ci illərdən başlayaraq təlim prosesində ***kompüter*** və ***informasiya texnologiyalarının*** yaradılması və tətbiqi ilə səciyyələnir.

Müasir pedaqoji texnologiyaların mənbəyi və tərkib elementləri kimi aşağıdakıları göstərmək olar: 1) sosial dəyişmələr və yeni pedaqoji təfəkkür;

2) elm – pedaqoji, psixoloji, ictimai, texniki elmlərin dəyişən paradiqmaları;

3) qabaqcıl pedaqoji təcrübə;

4) texniki tərəqini nailiyyətləri;

5) keçmişin, ölkəmizin və xarici ölkələrin təcrübəsi;

6) xalq pedaqogikası(etnopedaqogika)

Pedaqoji texnologiya anlayışına verilən çox saylı təriflərə (*təxminən bir-birindən çox az fərqlənən*) istinad edərək onun *əlamətlərini* aşağıdakı kimi müəyyənləşdirmək olar:

***Birincisi*** - texnologiya müəllim və şagirdin fəaliyyətini müəyyənləşdirir;

***İkinscisi*** - bu fəaliyyət mütləq pedaqoji qanun və qaydalara əsaslanmalıdır;

***Üçüncüsü*** - öyrənmə və tədris fəaliyyəti əvvəlcədən diqqətlə layihələndirilməlidir;

***Dördüncüsü*** - bu zəmanətli yüksək nəticə verməlidir.

Pedaqoji texnologiyanın ***spesifik xüsusiyyəti***, tədris prosesinin elə konstruksiya edilərək layihələndirilməsidir ki, qarşıya qoyulmuş məqsəd zəmanətli yerinə yetirilsin.

Professor Q.E. Muravyeva təlim texnologiyasının əsas əlamətlərini aşagıdakı kimi vermişdir: *məqsədyönlülük, bütövlülük, elmi əsaslandırılmış, nəticəyə istiqamətlənmiş, planlaşdırılmış, yüksək səmərəlilik, sistemlik, müəllim və tələbənin(şagirdin) komfortluluğu, qanunauyğunluq, layihələndirmə, etibarlılıq, nəticəyə zəmanət.*

***Pedaqoji texnologiyanın meyarları.*** İstənilən pedaqoji texnologiya əsas metodoloji tələbləri təmin etməlidir – texnolojilik meyarlarına daxildir: *konseptutllıq; sistemlilik; idarəolunanlıq; səmərəlilik; təkrarcanlandırma.*

**Pedaqoji texnologiyanın elmi əsasları -** istənilən ümumipedaqoji təhsil texnologiyası müəyyən fəlsəfi, pedaqoji, psixoloji fundamental ideyalar əsasında yüksək inteqrativliyi təmin edən inteqrasiyaya, problemli, tədqiqat və layihə əsaslı dərslərin keçirilməsinə, əsaslanmaqla şagirdlərin texniki, yaradıcı, məntiqi təfəkkürünün inkişafını özündə ehtiva edən pedaqoji texnologiyanın metodoloju tənzimlənməsini təmin edir.

**Müasir pedaqoji texnologiyanın təsnifatı**nı bizim üçün daha məqbul hesab edilən aşağıdakı formada verməyi daha məqsədəmüvafiq hesab etdik.

1. ***Şəxsiyyət yönümlü – təlim texnologiyaları***

a) Layihələr metodu, b) İnkişaf etdirici təlim texnologiyası

2. ***Fənn yonümlü – təlim texnologiyaları***

a) Problemli təlim texnologiyası, b) Oyun texnologiyası, b) Modul təlim texnologiyası

3. ***İnformasiya texnologiyaları***

a) Təlim prosesində İKT-dən istifadə b) Distant təlim texnologiyası

4. ***Tələbə (şagird) nailiyyətlərinin hesaba alınması texnologiyarı***

a) “Portfoliya” texnologiyası, b)Reytinq texnologiyası

5. ***İnteraktiv təlim texnologiyaları***

a) Təlimin diferensiallaşdırılması texnologiyası

b) Öyrənənin təfəkkürünün inkişaf etdirən texnologiya

c) Diskusiyanın aparılma texnologiyası

d) Debat texnologiyası

e) Treninqlərin keçirilməsi texnologiyası

Bu gün müasir pedaqoji texnologiyalar geniş tətbiq edilsələrdə artıq sabah onların daha səmərəli inteqrativ formaları olan STEM,

STEAM, STERM kimi dərs modelləri bazasında, perspektivli və distant təlim texnologiyaları əsasında daha geniş fəaliyyət göstəriləcəyi danılmaz həqiqətdir.

## ÖYRƏNƏNİN MÜSTƏQİL FƏALİYYƏTİNİN TƏŞKİLİ İNKİŞAFETDİRİCİ TƏLİMİN HƏYATA KEÇİRİLMƏ YOLU KİMİ

***Rəhimə Mahmud qızı Mahmudova***
***BDU, Pedaqogika kafedrasının dosenti***

Hələ kecən əsrin əvvəllərində P.P.Blonski öz tədqiqatları ilə təlim materialının mənimsənilməsi prosesində hafizə və təfəkkürün imkanlarını müqayisəli şəkildə araşdıranda şagirdlərin əqli inkişafında təfəkkürün daha geniş imkanlara malik olduğunu müəyyən etmişdir. L.S.Vıqotski təlimin inkişafetdirici imkanlara malik olduğunu və bu imkanları təfəkkür məkanında axtarmaq lazım olduğunu eksperimental materiallarla sübut etdi. O inkişafın iki səviyyəsini - aktual inkişaf sahəsi və yaxın inkişaf sahəsini ayırd etdi. Şagirdin əqli inkişafında yaxın inkişaf səviyyəsinə üstünlük verən L.S.Vıqotski, əqli inkişafın təmin edilməsi üçün təlimin inkişafdan irəli olması fikrini irəli sürdü.

50-ci illərdə C.Gilford və V.Blumun apardığı tədqiqatlar fikri fəaliyyətin əqli inkişafda rolunu və təlim materialının mənimsənilməsi ücün daha geniş imkanlara malik olduğunu təsdiq etdi.

C.Gilford apardığı eksperimental materialları təhlil edərək, fikri əməliyyatların xarakterinə görə intellektin aşağıdakı strukturunu ayırd etdi: idrak, hafizə, divergent məhsuldar təfəkkür, konvergent məhsuldar təfəkkür, qiymətləndirmə (qiymətləndirici təfəkkür). İntellektin struktur modelində C.Gilford idrak və hafizəni fikri əməliyyatlar ücün olduqca zəruri olduğunu vurğulasa da, diqqəti təfəkkür prosesinə cəlb edir və təfəkkürü üc səviyyədə səciyyələndirdi: konvergent təfəkkür, divergent təfəkkür və

qiymətləndirici təfəkkür. Ə.Əlizadənin qeyd etdiyi kimi, konvergent təfəkkürdən fərqli olaraq divergent təfəkkür yaradıcı fəaliyyətin ayrılmaz tərkib hissəsi kimi özünü göstərir. Orijinal ideyaların yaradılması onun başlıca funksiyasıdır. Qiymətləndirici təfəkkürün əsas funksiyası isə qiymətləndirmə ilə şərtlənir. Qiymətləndirmə prosesində isə yeni bir məziyyət –ağlın keyfiyyətləri özünü göstərməyə başlayır. Tənqidilik və müstəqillik qiymətləndirmə prosesinin atributuna cevriləndə tədricən konvergent və divergent təfəkkürün özünün xarakteri dəyişilir.

B.Blumun təlim məqsədləri taksonomiyasında sadədən mürəkkəbə doğru düşünmə (fikirləşmə) bacarıqlarının altı səviyyəsini müəyyən etdi: bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə. Koqnitiv məqsədlər taksonomiyası kimi adlanan bu taksonomiya analiz və sintez kimi iki fikri proses üzərində qurularaq, düşünmə və ya fikirləşmə səriştələrinin müxtəlif səviyyəsini özündə ehtiva edir.

C.Gilford və B.Blumun tədqiqatları P.P.Blonski və L.S.Vıqotskinin əsrin əvvəllərində apardığı tədqiqatları aktuallaşdırdı və 60-cı illərdə artıq inkişafetdirici təlim ideyası pedaqoji-psixoloji tədqiqatların əsasını təşkil etməyə başladı, təlim prosesində şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması yolları araşdırılmağa başlandı. Bu inkişafedici təlim prinsipinin “vətəndaşlıq hüququ” qazanması demək idi.

İnkişafetdirici təlim prinsipinin bərqərar olması fəal təlim metodlarının yaranmasına təkan verdi. Fəal təlim metodlarının tarıxi qədimdir. Təhsilin tarixində Sokratın evristik müsahibədən, Qalileyin söhbət və dialoqdan, J,J,Russonun problemli dialoqdan və s. istifadə etdiyi məlumdur. Keçən əsrin 70-80-ci illərində təlim metodları istiqamətində tədqiqat aparan pedaqoqlar fəal təlim metodlarına üstünlük verməyə başladılar. Bu metodların tətbiqi fikri əməliyyatlara söykənir.

Fəal təlim metodlarının tətbiqi istər orta məktəb, istərsə də ali məktəb həyatında yeni mərhələ idi. Bu metodların tətbiqi “çətinlik” üzərində qurulur. Müəllim öyrənənin “yaxın inkişaf zonasına” uyğun problemi ortaya qoyur, onun həllini tələb edir. Bu zaman öyrənənin müstəqil təlim fəaliyyətinə başlayaraq, qarşısına qoyulmuş problemi həll etmək üçün mövcud biliklərini yada salır, araşdırma aparır,

fərziyyə irəli sürür, müqayisə, təhlil, tərkib edir, nəticə çıxarır. İşin belə təşkili nəticəsində onda tədqiqatçılıq bacarıqları inkişaf edir.

1990-cı ildə Blumun tələbələri və əməkdaşları ilə birlikdə təlim məqsədləri taksonomiyasını yeni variantda təqdim edildi: Xatırlama, Anlama, Tətbiq etmə, Analiz, Qiymətləndirmə, Yaratma.

Təlim məqsədləri taksonomiyasının ilk və son variantının səviyyələrini müqayisə etdikdə, son variantda "yaratma" səviyyəsinin ayırd edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu taksonomiya biliyin mənimsənilməsi prosesini yaradıcılıq səviyyəsinə qaldırılması demək idi. Yaradıcılıq psixoloji ədəbiyyatda təxəyyülün başlıca funksiyası kimi qiymətləndirilir. Məsələnin belə qoyuluşu dərsdə təxəyyülün aktivləşdirilməsi problemini gündəmə gətirir. Öyrəmədə müstəqil fəaliyyətinin səmərəli təşkili təxəyyülün aktivləşdirilməsinin ən optimal yollarından biri kimi qiymətləndirilir. Öyrənilən materialda cisim və hadisələrin səbəb-nəticə əlaqələrini axtarır, qanunauyğunluqlarını tapmağa çalışır, fərziyyə irəli sürür, təhlil və tərkib edir, nəticə çıxarır. Bu prosesdə qarşısına çıxan suallara cavab tapır. Öyrənənin təlim prosesinin fəal iştirakçısına cevrilməsi onda müstəqil fəaliyyət keyfiyyətlərinin formalaşmasına gətirib çıxarır ki, bu da onun özünün ömrü boyu öz inkişafına nəzarət etməsinə imkan verir.

Təlim məqsədləri taksonomiyasının II variantı interaktiv təlimin yaranmasını şərtləndirdi. İnteraktiv təlimdə biliyin mənimsənilməsi zamanı yaradıcı təfəkkür və təxəyyül prosesləri aktuallaşır. Təlimin yeni metodların tədqiqi geniş vüsət aldı. İnteraktiv təlim metodlarının tətbiqi dərsin yeni mərhələlərinin meydana gəlməsinə rəvac verdi. 1.Motivasiya, problemin qoyulması; 2.Tədqiqatın aparılması; 3. İnformasiya mübadiləsi; 4. İnformasiyanın müzakirəsi və təşkili; 5. Nəticə, ümumiləşdirmə; 6.Yaradıcı tətbiq etmə; 7.Qiymətləndirmə və ya refleksiya.

Dərsin bu mərhələlər əsasında təşkili Blumun taksonomiyasında təqdim olunan bacarıq səviyyələrinə müvafiqdir. Orada öyrənənin bütün dərs boyu fəaliyyətdə olması, öz fikri əməliyyatlarının səviyyəsinə və fəallıq dərəcəsinə müvafiq olaraq bilik, bacarıq və vərdişlər sisteminə yiyələnmə mexanizmi aydın görünür.

Məsələnin belə qoyuluşu öyrənənin müstəqil fəaliyyətinin təşkilini təlim prosesinin əsas tərkib hissələrindən birinə cevrildiyini göstərir. Bu istiqamətdə müstəqil fəaliyyətin mahiyyətinin acıqlanması, tələbənin müstəqil olaraq elmi informasiyanın axtarışı vəzifəsinin həllində müstəqil fəaliyyətin imkanlarının və təşkil edilmə texnologiyalarının müəyyənləşdirilməsi zəruri pedaqoji tələbə çevrilir.

## ALİ TƏHSİLİN DƏYİŞƏN PARADİQMALARI

***Sevinc Sərdar qızı Əliyeva***
***BDU, Pedaqogika kafedrasının dosenti***
***sevinc_aliyeva_27@bk.ru***

XXI əsrdə aktual təhsilin ən azı iki əsas istiqamətini göstərə bilərik. Təhsil təcrübəsinin hər bir şagirdin yaxud tələbənin seçdiyi həyata uyğun olmasını və müasir həyatda tələb olunan bacarıqların aşılanmasını təmin etmək üçün bu istiqamətlər bir-biri ilə sıx əlaqəli olmalıdır.

İlk növbədə o, tələbələrin insanpərvərliyini gücləndirməklə, onları öz həyatlarının sahibi kimi, cəmiyyətin həm lokal, həm qlobal miqyasda üzvü kimi, işçi qüvvəsinin səmərəli və dəyişən mühitin fəal iştirakçıları kimi şəriştələrini inkişaf etdirməklə həqiqətən də yüksəlişə nail ola bilərlər. Əsas məqsəd müdrikliyi təqib etmək üçün onlara imkanlar yaratmaqdan ibarətdir.

İkincisi, ictimai və qlobal düşüncəsini yüksəltməklə, məsuliyyətli vətəndaşlığa imkan yaratmaqla tələbələr həqiqətən sosiallaşdırılmalıdır. Bu baxımdan onlar cəmiyyətin mahiyyətinin dərk edilməsini və onun inkişafa olan ehtiyacını dərinləşdirməklə sosial-tənqidi təfəkkürə yiyələnməlidirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında belə bir əsas ideyanı vurğulayır ki, respublikamızda təhsilin başlıca strateji məqsədləri *insan kapitalının* formalaşmasına xidmət edir. Buna örnək olaraq Azərbaycan dövlət və hökümət strukturlarının “Təhsil haqqında”, “Təhsilin Strateji İnkişafı” qanunlarını, həmçinin Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş

qanunlar, hüquqi-normativ baza sənədləri, təhsilin strategiyası və təhsil siyasəti sahəsində dövlət və hökumət səviyyəsində qəbul olunmuş fərmanlar, sərəncamlar, direktivlər və beynəlxalq konvensiyaları bura aid etmək olar

Qloballaşma yeni təhsil sistemlərinə, pedaqoji paradiqmalara, öyrənmə bacarıqlarına təsir göstərməklə yeni təhsil modellərinin və tədris-təlim pedaqogikasının biliyə və xidmətə (servisə) əsaslanan post-sənaye cəmiyyətinin məqsədlərinə və prioritetlərinə üstünlük verir. Həqiqətən də, XXI əsrin əsas reallığı olan qloballaşma ali təhsilə artıq dərindən təsir göstərib.

Qloballaşmanı getdikcə inteqrasiya olunan dünya iqtisadiyyatı, sosiomədəni kompleks səraitində formalaşan reallıqlar dünyası, yeni məlumat və kommunikasiyalar texnologiyası (MKT), beynəlxalq bilik və servis şəbəkələr dəstinininin yaranması kimi qəbul edirik.

Beynəlmiləlləşmə regional və beynəlxalq səviyyədə çox mühüm olmuşdur. Avropada tətbiq edilən Bolonya prosesi və Lissabon strategiyası bu səviyyədə olan beynəlxalq iştirakın bariz nümunələridir. Bununla belə, 40-dan çox ölkədə tətbiq edilmiş Bolonya prosesi "Avropa Ali Təhsil Məkanı"nın yaradılmasında könüllü prosesə çevrilmişdir.

XXI əsrin interdisiplinar təhsil sistemində həyat və karyera bacarıqları xüsusi əhəmiyyətə malikdir. Həyat və karyera bacarıqları ayrı-ayrı insanların müxtəlif komandalarda işləmək, müxtəlif ideya və dəyərlərə açıq olma, məqsədləri müəyyən etmə və onlara nail olma, layihələrin səmərəli idarə edilməsi, nəticələrə görə məsuliyyət, etik təcrübənin nümayişi və həm özünə, həm daha böyük qrup insanlara görə məsuliyyət daşıma bacarıqlarına əsaslanır. Bura aşağıdakı həyat və karyera bacarıqları çərçivəsində alt-bacarıqlar daxildir: liderlik və məsuliyyət; məhsuldarlıq və hesabatlılıq; sosial və mədəniyyətlərarası bacarıqlar.

XXI əsrin məlumat, media və texnoloji bacarıqları olduqca əhəmiyyətlidir və özündə - media savadlılığını, informasiya savadlılığını ehtiva edir. Günümüzdə tələbələri təhsilə səmərəli cəlb etmək üçün onlarda təxəyyül və yaradıcılıq alovunu yandırmaq tələb olunur. Bütün biliklər humanist bilikləridir, biliklər insanın ümidlərinin, qorxularının və həvəslərinin məhsuludur. Tələbələrin

fikrində bilikləri canlandırmaq üçün müəllim bilikləri tələbələrə məhz bu kontekstdə təqdim etməlidirlər. Bunu etməyin ən yaxşı yolu tələbələrdə yaradıcı təxəyyülü inkişaf etdirməkdən ibarətdir.

Tələbəyə bilik meneceri və bilik istehsalçılçısı kimi yanaşmaq lazımdır. Təhsil prosesində biliyin tələbə tərəfindən passiv qəbul edilməsi fikrindən "tələbə intellektinin işıqlandırılması" fikrinə doğru irəliləyişi artıq müşahidə edə bilirik. Bu günki tələbə biliklərini yalnız tətbiq etməklə məhdudlaşmayıb, həmçinin, sabahın biliklərini istehsal və şərh edən məlumatlı şəxs olmalıdır. Pedaqoji vəzifə daha az faktik biliklərin ötürülməsinə, daha çox tələbələrin sadə və yeni mürəkkəb problemlərin həll edilməsi üçün əqli bacarıqlara və onların təcrübədə tətbiq edilməsinə yönəlməlidir.

Əsas təhsil bacarıqları paradiqması da aktual məsələlərdən biridir. Oxu, yazı və riyaziyyat bacarıqları əvvəlki kimi ən mühüm bacarıqlar olaraq qalır. Lakin, əlavə olaraq, daha beş fundamental bacarıqların qeyd etdiyimiz üç bacarıqla müxtəlif kombinasiyalarını diqqət mərkəzində saxlamaq vacibdir. Təhsil prosesisnin mühüm komponentlərini təşkil edəcək həmin bacarıqlar aşağıdakılardır – yaradıcılıq; konseptuallaşdırma (nəzəri təhlil); əməkdaşlıq; ünsiyyət və kompüterləşmə. Tənqidi və yaradıcı düşünməyi, məntiqi əsaslandırma aparmağı, nisbi qaydada şərh və bilik əldə etməyi, yaratmağı öyrənmək XXI əsrdə gündən günə daha da çox üstünlük əldə edəcəkdir.

Ümumdünya "Təhsil Test Xidmətləri" (ETS) təşkilatı "Rəqəmsal Dəyişiklik" adlı nəşrində aşağıdakı bacarıqları qeyd etmişdi: "İKT Savadlılığı üçün konsepsiya" XXI əsrin öyrənmə bacarıqlarını: a) məlumatın toplanması və yaxud axtarışı; b) məlumatın təşkili və idarəedilməsi; c) məlumatın keyfiyyətinin, uyğunluğunun və faydasının dəyərləndirilməsi; d) mövcud resursların istifadəsi vasitəsilə düzgün məlumatın yaradılması qabiliyyəti kimi müəyyən edir.

"XXI əsr bacarıqları üçün əməkdaşlıq" təşkilatı XXI əsrin öyrənmə bacarıqlarının inkişafına dəstək üçün altı əsas elementi müəyyən edir:

1) əsas fənləri vurğulamaq; 2) öyrənmə bacarıqlarını vurğulamaq; 3) öyrənmə bacarıqlarını inkişaf etdirmək məqsədilə

XXI əsrin innovativ texnoloji vasitələrindən istifadə etmək; 4) XXI əsrin kontekstində tədris etmək və öyrənmək; 5) XXI əsrin məzmununu tədris etmək və öyrənmək; 6) bacarıqlarının ölçülməsi məqsədilə XXI əsrin qiymətləndirmə meyarlarından istifadə etmək.

Biliyin yenidən inteqrasiyası məsələsi günümüzdə bizi düşündürən məsələlr sırasındadır. XVIII, XIX və XX əsrlərdə ölçülərdə dəqiqliyi və təcrübədə nəzarəti təqib etməklə "dekontekstualizasiya"ya üstünlük verilmişdir. Mürəkkəb (dinamik, çoxsəviyyəli) hadisələri öyrənmək üçün müxtəlif təhlillərə müraciət edilməsi zərurəti yaranıbdır. Keyfiyyət metodlarının XX əsrin sonlarında bu dərəcədə inkişafı və yayılmasının səbəbi, nəhayət ki, kontekstlər və çoxsaylı səbəb əlaqələrinin öhdəsindən yetərincə gələ bilməməyimizin nəticəsində baş vermişdir.

Təbii ki, təhsil sistemində subyektiv fikirlərin canlandırılması olduqca vacibdir. Qəribə olsa da, ənənəvi olaraq "obyektiv bilikləri" "subyektiv məlumatlardan" daha üstün tuturuq. Affektlərlə və sosial-psixoloji vəziyyətlə əlaqədar ziddiyətlərə nəzarət etməyi və yaxud onun qabağını necə almağı indilərdə öyrənirik. Müasir sosial, psixoloji, beyin və bioloji elmlərin insan fəaliyyətinin bu təsirli, emosional, situativ və sosial sferasına böyük əhəmiyyət verməsinə baxmayaraq, eynilə koqnitiv funksiyaları, yaxud sosial mövhumatı,insani hisslərdən, affektlərdən asılı olmadan nəzərdən keçirməyə daha çox meyilliyik. Təhsildə hərtərəfli və dürüst qiymətləndirmə gələcəkdə subyektiv hallara qarşı, yəni subyektiv təsirə, xarakteristikaya, ekzistensional hala, emosiyaya, oxşarlığa, situasiyaya və s., o cümlədən tələbələrin cəlb edildiyi tədris və təhsil əlaqələrinə qarşı daha həssas olmalıdır.

Təlimin son nəticəsi kimi, qiymətləndirmənin yenidən balanslaşdırılması məsələsi əhəmiyyətlidir. Hesabatlılıq (məsuliyyət) çərçivəsində öyrənmənin nəticələrinin qiymətləndirilməsi hələ bir müddət davam edəcək. Lakin gələcəkdə öyrənmənin və öyrənməyə kömək edən tədris proseslərinin təsiri və inkişaf etdirilməsi məqsədilə qiymətləndirilmə böyük ehtimalla narahatçılıq yaradacaq. Siyasi təzyiq və bəzi sadələşdirilmiş mülahizələr hesabatlılıq məqsədilə, hətta bu cür təcrübə empirik dəllilərlə təsdiq edilmədiyi, bir çox aparıcı psixometriklər tərəfindən dəstəklənmədiyi halda belə,

təhsilin qiymətləndirilməsi üzrə verilən uyğunsuz məlumatların dəstəklənməsi işi davam etdirilir. Bəzi pedaqoqlar bu təcrübələrin təyin edilmiş məqsədlər üçün qeyri-məhsuldar olduğunu hesab edirlər Bizə yüz ildən çoxdur ki, təhsil sahəsində etdiklərimizin qeyri-müəyyən və qeyri-dəqiq olduğu məlumdur. Bu model, əlbəttə, hamısına uyğun deyil. Təhsilə müdaxiləmizin əksər hissəsi təhlil edilməmiş, yaxud az öyrənilmiş sınaq və səhvlərdən ibarətdir. Biz inanırıq ki, təhsildə qiymətləndirmə hesabatlılığın əhəmiyyətini nəzərə almaqla, tədrisə, öyrənmə proseslərinə və nəticələrə təsir göstərəcək, onları inkişaf etdirəcək. Bu iki məqsədin eyni vaxtda və eyni qiymətləndirmə alətləri və sistemləri vasitəsilə yerinə yetirilə bilib-bilməməsi müasir zamanın cavablandırılmalı olan ən mühüm məsələlərindən biridir.

Öyrənmənin sosial proses kimi və onun yeni funksiyaları yeni təhsil kontekstində maraqlı prosesdir.

Bəzi müəlliflər və təşkilatlar (National Science Foundation, Educational Testing Services, NCREL, Metiri Group və s.) XXI əsrdə öyrənmə bacarıqlarının orta və ali təhsil sahələrində zəruri dəyişikliyin həyata keçirilməsi üçün vacib olduğunu iddia edirlər.

İnsan intellekti sosial fenomen olmaqla yanaşı, sosial qarşılıqlı əlaqə və konsensus kontekstində həm təcrübədən keçirilir, həm də həmin təcrübə ilə şərtləndiyi kimi, eynilə tədris və öyrənmə prosesi sosial fenomen kimi tanınmağa başlayır. Hətta "təklikdə" baş verən öyrənmə prosesi belə ondan əvvəl gələn sosial fəaliyyətlərdən faydalanır. Elektron oyunlar, distant tədris və təhsil nisbətən sosial təcrid halında həyata keçirilir, lakin onlar digərlərin kollektiv şəkildə fəaliyyətindən asılı olan tədris və təhsil nümunələridir. Gələcəyin pedaqogikası tədris və öyrənmənin fərdi/sosial paradoksunu və bu paradoksun qiymətləndirmə üçün olan nəticələrini uyğunlaşdırmalı olacaq.

# ТЕНДЕНЦИИ РАЗВИТИЯ ОБРАЗОВАНИЯ В МИРЕ

***Шахла Вагиф кызы Гусейнова***
***БГУ, преподаватель кафедры педагогики.***
***wehla33@gmail.com***

Образование играет важную роль в развитии каждого государства. В современном мире существует множество тенденций в развитии образования, которые направлены на обеспечение доступности и качества образования. Целью данной работы является рассмотрение основных тенденций развития образования в мире и их влияния на общество.

Тенденции развития образования в мире

Переход к гибким формам образования

Первая тенденция – это переход к гибким формам образования. Современные технологии предоставляют новые возможности для обучения. Онлайн-курсы, дистанционное обучение, мультимедийные учебники и другие формы обучения помогают расширить доступность образования для всех желающих. Гибкие формы образования также помогают сократить затраты на образование и повысить качество образования.

Важно отметить, что переход к гибким формам образования имеет не только позитивные, но и отрицательные стороны. Одной из проблем является необходимость самостоятельной работы студентов, что не всегда возможно из-за отсутствия необходимой мотивации. Кроме того, онлайн-обучение может не обеспечить необходимого уровня взаимодействия между студентами и преподавателями, что может привести к снижению качества образования.

Увеличение акцента на практическое обучение

Вторая тенденция – это увеличение акцента на практическое обучение. Сегодняшнее общество нуждается в специалистах, которые могут решать практические задачи и иметь опыт работы в своей отрасли. Образовательные учреждения должны стимулировать практическое обучение,

чтобы выпускники могли успешно применять свои знания в работе. Одной из возможностей практического обучения являются стажировки в компаниях и организация. Однако, увеличение акцента на практическое обучение может также привести к некоторым проблемам. Одной из проблем является ограниченное количество мест для стажировок и практических занятий. Кроме того, не все учебные заведения имеют необходимые ресурсы для организации практических занятий, таких как лаборатории, мастерские и т.д.

Развитие технологий в образовании

Третья тенденция – это развитие технологий в образовании. Современные технологии позволяют создавать новые методы обучения, которые могут улучшить качество образования и повысить эффективность обучения. Например, виртуальные классы и лаборатории, умные доски, интерактивные учебники и другие технологии могут значительно улучшить процесс обучения и сделать его более интересным и доступным.

Однако, не все учебные заведения имеют доступ к современным технологиям, и не все преподаватели имеют необходимые навыки для их использования. Кроме того, развитие технологий также может привести к некоторым проблемам, например, к сокращению количества преподавателей и к уменьшению межличностного взаимодействия между преподавателями и студентами.

Четвертая тенденция – это переход к индивидуализированному обучению. Современные образовательные системы стараются учитывать индивидуальные особенности каждого ученика и предоставлять персонализированные методы обучения.

Таким образом, в данной работе были рассмотрены четыре основных тенденции развития образования в мире: переход к гибким формам образования, увеличение акцента на практическое обучение, развитие технологий в образовании и переход к индивидуализированному обучению. Каждая из этих тенденций имеет свои преимущества и недостатки, и для их

реализации необходимо использовать комплексный подход, учитывая различные факторы, такие как доступность, качество образования, стоимость и т.д. Понимание этих тенденций и адаптация к ним позволят образовательным учреждениям и преподавателям наилучшим образом подготовить студентов к будущим вызовам и потребностям в мире, где скорость изменений только увеличивается.

Однако, необходимо также учитывать, что эти тенденции не являются исчерпывающими и всегда актуальными для всех стран и регионов мира. Каждый регион имеет свои особенности и вызовы, которые необходимо учитывать при формировании системы образования. Например, некоторые страны сталкиваются с проблемой недостатка кадров в определенных областях, тогда как другие имеют избыток квалифицированных кадров. Кроме того, доступность образования и его качество могут варьироваться в зависимости от уровня развития страны и уровня доходов населения.

В целом, тенденции развития образования в мире свидетельствуют о том, что образовательные системы должны быть гибкими, ориентированными на практику и технологичными, чтобы максимально соответствовать потребностям современного общества и рынка труда. Однако, важно также помнить о традиционных ценностях образования, таких как развитие критического мышления, социализация и формирование личности, которые также должны сохранять свое значение в эпоху изменений и инноваций.

Еще одной важной тенденцией развития образования является увеличение роли междисциплинарных наук и проектного обучения. Современный мир становится все более сложным и взаимосвязанным, и учебные программы должны отражать это. Многие образовательные учреждения включают в свои программы проектные работы и междисциплинарные курсы, чтобы обеспечить более глубокое и практическое понимание предметов и проблем.

Одним из главных вызовов для образования в мире является разрыв между теорией и практикой. Многие

выпускники университетов часто сталкиваются с трудностями при поиске работы и адаптации к требованиям рынка труда. Поэтому современные образовательные системы должны обеспечить не только теоретические знания, но и практические навыки и опыт работы в реальных проектах. Кроме того, необходимо сотрудничество между образовательными учреждениями и предприятиями, чтобы гарантировать актуальность учебных программ и подготовки выпускников к реальным вызовам и требованиям рынка труда.

Таким образом, тенденции развития образования в мире указывают на необходимость гибкости, практичности и междисциплинарности в учебных программах и методах обучения. Разрыв между теорией и практикой должен быть сокращен, а практические навыки и опыт работы должны стать важной частью образования. Кроме того, необходимо учитывать местные особенности и вызовы, чтобы образовательная система соответствовала реальным потребностям общества и рынка труда.

Еще одной тенденцией развития образования является развитие онлайн-образования и дистанционного обучения. С развитием информационных технологий, возможности для дистанционного обучения и онлайн-курсов значительно увеличились. Это дает возможность получить образование людям, которые не могут посещать учебные заведения из-за географических или временных ограничений. Кроме того, онлайн-образование позволяет получать образование в любом месте и в любое время, что делает обучение более гибким и удобным.

Однако, вместе с преимуществами онлайн-образования, существуют и некоторые ограничения и проблемы. Например, некоторые учебные программы и курсы не могут быть реализованы в онлайн-формате, особенно те, которые требуют лабораторных работ или физического присутствия. Кроме того, онлайн-образование требует от студентов самостоятельности и дисциплины, и не все студенты могут обеспечить себе необходимые условия для обучения.

Еще одной важной тенденцией развития образования является рост роли новых технологий, таких как искусственный интеллект, блокчейн и виртуальная реальность. Эти технологии могут значительно улучшить образовательный процесс, обеспечивая более эффективное и персонализированное обучение, улучшенный доступ к знаниям и улучшенную связь между студентами и преподавателями.

В заключение, тенденции развития образования в мире указывают на необходимость постоянного развития и совершенствования учебных программ и методов обучения. Развитие онлайн-образования и новых технологий дает возможности для улучшения образования и доступности к знаниям, но требует решения некоторых ограничений и проблем. Образовательные учреждения должны постоянно адаптироваться к меняющимся требованиям и вызовам, чтобы гарантировать качество образования и подготовку студентов к реальным вызовам и задачам современного мира. Кроме того, важно помнить, что образование не должно быть ограничено только получением знаний, но также должно способствовать развитию личности и формированию навыков, необходимых для успешной жизни в обществе.

Одним из таких навыков является критическое мышление, которое позволяет студентам анализировать и оценивать информацию, принимать обоснованные решения и развивать свои лидерские качества. Для развития этого навыка необходимы соответствующие методы обучения, которые учитывают индивидуальные потребности и интересы студентов, а также стимулируют их активное участие в образовательном процессе.

Кроме того, важным элементом образования является развитие межкультурной компетенции. В современном мире, где границы между странами и культурами становятся все более размытыми, студенты должны уметь работать с людьми из разных культур и адаптироваться к различным социальным и культурным контекстам. Для развития этой компетенции необходимо включать в учебные программы межкультурные

аспекты и организовывать международные обмены и практики.

Таким образом, тенденции развития образования в мире указывают на необходимость совершенствования методов и подходов к обучению, а также на необходимость развития навыков, необходимых для успешной жизни в обществе. Развитие онлайн-образования и новых технологий предоставляет возможности для улучшения доступности к образованию и эффективности обучения, но требует решения ряда ограничений и проблем. Образовательные учреждения должны постоянно адаптироваться к меняющейся среде и уделять особое внимание развитию критического мышления и межкультурной компетенции студентов.

## ŞƏXSİYYƏT YÖNÜMLÜ TƏHSİLİN VALEOLOJİ VƏ DİDAKTOGEN AMİLLƏRLƏ ŞƏTRLƏNMƏSİ

***Heydər Allahyar oğlu Cəfərov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Ümumi pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim, idman ustası***
***heysevsara@mail.ru***

1. Təhsilə bəşəriyyətin bütün inkişaf mərhələlərində cəmiyyətə və insana xas olan, onu "beşikdən qəbrədək" (Məhəmməd peyğənbər ə.s.) müşayiət edən obyektiv ictimai hadisə və üstqurumun vacib komponentlərindən biri kimi yanaşılmışdır. Cəmiyyətin və dövlətin inkişafı, onun maddi-texniki bazasının möhkəmlənməsi ilə təhsilin inkişafı düz mütənasibdir. Bunların arasında sıx qarşılıqlı dialektik əlaqə və asılılıq mövcuddur. Üstqurum hadisəsi kimi təhsil özünün müəyyən inkişaf mərhələsində dövlətin bazisinin möhkəmlənməsinə və tərəqqisinə zəmin yaradır.

2. Müasir dövrdə Azərbaycan pedaqogika elminə, pedaqoji dövriyyəyə "kurikulum", "kollokvium", "diaqnostik, formativ, summativ qiymətləndirmə", "şagird, tələbə yönümlü təhsil", "sağlam təhsil", "fəal təlim", "interaktiv təlim", "açar sözlər", "şəxsiyyət

yönümlü təhsil” və s. kimi neologizmlər, yeni terminlər və anlayışlar daxil omuşdur. Ümumiyyətlə, bütövlükdə pedaqoji leksikanın yeni terminlərlə zənginləşməsi təbii və qanunauyğun bir prosesdir. Lakin bununla yanaşı, fikrimizcə, pedaqoji nəzəriyyədə və təcrübədə bəzi anlayışların təfsirində, izahında, interpretasiyasında və işlədilməsində müəyyən elmi məntiqsizliyə və yanlışlığa yol verilir.

3. Tezliyinə görə müasir pedaqoji mühitdə, ədəbiyyatda, mətbuatda və təhsilə həsr olunan televiziya verilişlərində ən çox işlədilən terminlərdən biri də “şəxsiyyət yönümlü təhsildir”. Bu çox məntiqli, böyük ictimasi əhəmiyyət kəcb edən dəyərli bir müddəa və paradiqmadır. Valeoloji baxımdan (Valeologiya sağlam həyat tərzi haqqında nisbətən yeni elm sahəsidir - 1984) təhsilin şəxsiyyətə yönəldilməsi dedikdə, onun hər şeydən əvvəl ən ali aksioloji dəyər kimi şəxsiyyətin (şagirdin, tələbənin) sağlamlığını mühafizə etməsi, qoruması, təmin etməsi başa düşülür. Belə ki, bəşəriyyətin varlığının bütün inkişaf dövlərində sağlamlıq maddi və mənəvi sərvət kimi dəyərləndirilmişdir.

4. Dəyərlər iyerarxiyasında sağlamlıq təhsili xeyli qabaqlayır. Sağlamlıq olmadıqda, təhsil də öz əhəmiyyətini itirir. Bu, təkzibedilməz bir həqiqət və aksiomadır. Xalqımızın sağlamlıq haqqında atalar sözləri buna bariz nümunədir.. Ulularımız sağlamlığı ən zəngin sərvət, xoşbəxtliyin ən böyük, ən ali rəhni hesab etmiş, “Sağlamlıq xoşbəxtlikdir”, “Pul itirmisənsə - heç nə itirməmisən, vaxt itirmisənsə - çox şey itirmisən, sağlamlığını itirmisənsə - hər şeyi itirmisən”, “Sağlamlıq insanın öz əlindədir, “Sağlıq ən böyük varlıqdır”, “Sağlamlıq sultanlıqdır, demə yoxsulam mən” - demiş, müəyyən hallarda sağlamlığa nail olmanın çəmini və yolunu da göstərmişlər: “Abır istəsən çox demə, sağlıq istəsən çox yemə”. Insanlar rastlaşanda və görüşəndə də bir-birinə can sağlığı arzulamışlar: vivi vale (latınlılar və latın dillilər), zdravstvuyte-здравствуйте (ruslar və digər slavyanlar), salam əleyküm, əleyküm salam (ərəblər, azərbaycanlılar, islam dininə etiqad edənlərin əksəriyyəti). Beləliklə, onlar bir-birilərinə can sağlığı, sağlam və sağ-salamat olmağı diləmişlər.

Qədim latınlılar əbəs yerə demirdilər ki, “Sağlam bədəndə sağlam ruh olar” (“Mens sana in korpore sano”). Əslində, ilk

növbədə, sözün əsl mənasında mütləq təmiz, pak, saf, möhkəm, hərtərəfli inkişaf etmiş «sağlam bədən», daha sonra isə «sağlam ruh» (yəni, mənəviyyat, mədəniyyət, təhsil, tərbiyə) formalaşdırılmalıdır. Başqa sözlə, müəyyən mənada «sağlam bədən» bazis, «sağlam ruh» isə üstqurum rolunu oynamalıdır. Zənnimizcə, bunların ahəngdar və paralel inkişaf etdirilməsi daha yaxşı nəticə verə bilər.

5. "Şəxsiyyət yönümlü təhsil" paradiqmasının pedaqoji-psixoloji ədəbiyytda və internet saytlarında Azərbaycan və rus dilində otuza yaxın təfsirinin, izahının, interpretasiyasının əsasını şagirdin özünü şəxsiyyət kimi dərk etməsinə köməklik göstərilməsi, onun imkanlarının üzə çıxarılması, aşkarlanması, özünü reallaşdırması, özünü təsdiqləməsi; tərbiyə prosesinin uşağın şəxsiyyətinə dərin hörmət əsasında təşkili, onun fərdi xüsusiyyətlərinin nəzərə alınması, ona tərbiyə prosesinin şüurlu, tamhüquqlu iştirakçısı kimi münasibət göstərilməsi; dialoji təlim üsulları, fasilitasiya yanaşması, oyun və treninq texnologiyaları; özünüinkişaf, adaptasiya, özünümüdafiə, özünütərbiyə; tərbiyə olunana şəxsiyyət kimi yanaşma; şagirdin imkanlarının genişləndirilməsi və s. təşkil edir.

Göründüyü kimi, bu nümunələrin, təfsirlərin hec birində təhsilalanların sağlamlığı nəzərə alınmamışdır. Beləliklə, bu ona dəlalət edir ki, pedaqoji nəzəriyyədə və təcrübədə təhsilin şəxsiyyət yönümlü olması əslində sözçülük, deklarativ səciyyə daşıyır. Bu deyilənləri aşağıdakı nümunələr də təsdiq edir:

1) təhsilin məzmunun təhsilalanların əqli inkişaf səviyyəsi və "yaxın inkişaf zonası" (L.S.Vıqotski) nəzərə alınmadan təkmilləşdirilməsi (didaktogen amil);

2) tələbələrin sağlamlığında mühüm əhəmiyyət kəsb edən fiziki tərbiyə dərslərinin ali məktəblərin tədris proqramından çıxarılması;

3) ümumtəhsil məktəblərində bədən tərbiyəsi dərslərinə ayrılan saatların azlığı;

4) dərs cədvəllərin tərtibində yol verilən didaktik nöqsanlar, energetik gərginliyin (işgüzarlığın, fəallığın) artıb-azalma dövrlərinin nəzərə alınmaması (didaktogen amil);

5) ev tapşırıqlarının normasının pozulması (didaktogen amil);

6) repetitorluğun kütləvi hal alması (didaktogen amil);
7) peşə seçimində yol verilən nöqsanlar;
8) təhsilalanların gün və istirahət rejiminin olmaması və s.

## Ədəbiyyat

1.“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, “Bakı Çap Evi”, 2012. 64 s
2. Asif Cahangirov. Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları. Bakı, “Şərq-Qərb”, 2020,
384 s.
3. Колбанов В.В. Валеология: основные понятия, термины и определения. – Спб.: Издательство ДЕАН, 2001. – 256 с.

# TƏDRİS PROSESİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ VƏ İKT-NİN ƏHƏMİYYƏTİ

***Firudin Zirəddin oğlu Məmmədov***
***Azəbaycan Dövlət Pedaqoji Universitetinin b\m, p.ü.f.d***
***firidunmemmedov 333@gmail.com***

İnsanların baxışları və düşüncə tərzləri dəyişdikcə, elmi nailiyyətlər artdıqca, yeni informasiya və kommunikasiya texnologiya məhsulları ortaya çıxır və bununla da dünya iqtisadiyyatının tələbləri dəyişikliyə məruz qalır.Müasir dövrdə İKT-nin inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialinin vacib göstəricilərindən biridir.Bu prosesin zəruriliyi indiki qloballaşan dövrdə daha cox hiss olunur.Texnologiyalarin sürətlə inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün böyük imkanlar yaradır.

Bu gün informasiya cəmiyyətinin və dünya ölkələri ilə rəqabətə girə biləcək yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması bir çox ölkələrin dövlət siyasətinin əsas istiqamətinə çevrilmişdir. Bu ölkələrdə informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi inkişafın aparıcı amili kimi çıxış edir. Bu sahə dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək ictimai

münasibətlərin formalaşmasını təmin edir. İnformasiya cəmiyyətində təhsil sisteminin necə qurulması, təhsilin inkişafı üçün hansı texnologiyalardan və necə istifadə edilməsi hazırda əsaas məsələlərdən biridir.

Dünya iqtisadiyyatı daha çox bilik yönümlü olduğundan ölkələrin təhsil sistemlərindən də məhz bu tələblərə cavab verən sistemlərin qurulmasını tələb edir. Bu amil inkişaf etmiş ölkələrdə təhsilin informasiyalaşdırılması üçün sistemli şəkildə mərhələli islahatların keçirilməsinəsəbəb olmuşdur. Bu islahatlar iki mərhələdə, 2003-cü ildə Cenevrədə,2005-ci ildə isə Tunisdə keçirilmiş İnformasiya cəmiyyətinin qurulması problemlərinə həsr olunmuşdünya sammitində təhsilin daha çox informasiyalaşdırılması və modernləşdirilməsi məsələlərinə önəmli yer verilmişdir[13, s.1-3].

Respublikamizda da bu sahədə ciddi addımlar atılmışdır. 2003-cü ildə prezidentin sərəncamı ilə İKT-nin geniş tətbiq edilməsi və inkişafı haqqında "Azərbaycan Respublikasının inkişafı naminəinformasiya və kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" sənədində hazırki dövrdə Azərbaycan üçün məhz təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik sahə hesab edilmişdir[13, s.1-3].

AR Prezidentinin 2005-ci il 21 avqust tarixli 355 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı programı (2005-2007-ci illər)"–nınhəyata keçirilməsi ilə böyük işlər görülmüşdür.

Prezidentin 2008-ci il 10 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci il illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"ölkəmizdə müasir İKT-ni geniş şəkildə tətbiq etməklə vahid ümummilli təhsil mühitinin yaradılması və əhalinin bütün təbəqələrinin keyfiyyətli təhsil almaq imkanının təmin edilməsi məqsədinə xidmət edir.Bu proqram çərçivəsində boyük bir layihə olaraq "Xalq Kompüter" layihəsi həyata keçirilmişdir. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" sənədində də təhsil sisteminin təkmilləşdirilməsində İKT-nin tətbiq edilməsi və İKT

sahəsində ümumi maarifləndirmə üzrə xüsusi tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur. Bunlardan biri kimi İKT üzrə ən böyük kompaniyalarından biri sayılan MİCROSOFT şirkətinin dəstəyi ilə Respublika Təhsil Nazirliyinin pedaqoji kadrlar üçün təşkil etdiyi İNTELAZƏRBAYCAN kurslarını göstərmək olar.Bütün bunlar göstərir ki, Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində ciddi addımlar atılmış və bir çox əməli işlər görülmüşdür. Bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanıb təsdiq edilmiş, distant təhsil üzrə eksperimentlər aparılmağa başlanılmışdır.Təhsil portalıformalaşdırılmış,bir çox təhsil müəssisələrinin saytları yaradılmışdır.Təhsilin idarə olunmasının məlumat sistemlərinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi və ümumtəhsil məktəbləri üçün informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslı pedaqoji, həmçinin köməkçi heyət (laborant) kadrlarının hazırlanması üzrə işlər isə aparılmaqda davam edir[13, s.3-5].

İKT-nin təhsil sahəsinə tətbiqi bir sıra vacib olan şərtlərin təminatına, o cümlədən: - təhsilə geniş şəkildə yanaşmaya; - mütəmadi təhsilə və praktiki aşkarlıq prinsipinin reallaşdırılmasına;

- təhsil prosesinə yardımçı vasitələrin, ayrı-ayrı müəssisələrin və fərdi vətəndaşların müasir elektron təhsil informasiya resurslarına girişinin təmin edilməsi hesabına təhsilin effektivliyinin artırılmasına;

- ali təhsil müəssisələrinin tabeliyində olan təcrübə-layihələndirmə işlərinin və elmi tədqiqatların inkişafı prosesinin müasirləşdirilməsinə;

- təhsil sahələrinin idarə olunması effektivliyinin artırılmasına;

- təhsil və elm sahələrinin xalqlararası kooperasiyasını inkişaf etdirməklə Azərbaycan təhsilinin xaric edilməsinə və s. imkan yaradır.

Yalnız klassik təhsil formasına istinad edən ənənəvi təhsil informasiya cəmiyyətində ixtisaslı kadrların hazırlıq keyfiyyətlərinin artırılmasına olan tələblərə, ümumiyyətlə, kadr siyasətinə cavab verə bilməzdi. İnkişaf etmiş ölkələrdə İKT-nin geniş tətbiq olunmasına əsaslanan təhsil forması böyük məna kəsb edir.

İKT-n təhsil prosesində tətbiq oluması zərurəti aşağıdakı tələblərdən yaranmışdır:

- təhsil müəssisələrinin müasir hesablama texnikası vasitələrilə zəif təmin olunması; - informatika sahəsində məktəblərin zəif ixtisasltı kadrlarla təmin olunması;

- çox cüzi sayda məktəblərin (şəhər və kənd) tam şəkildə İnternet şəbəkəsinə qoşulması.

Hal-hazırda Azərbaycan qlobal telekommunikasiya şəbəkələrinə qoşulmaları sayına eləcə də bunun üçün ayrılmış kanalların sürət xarakteristikasına görə heç də inkişaf etmiş qərb ölkələrinin təhsil müəssisələrindən geri qalmır. Müasirkompüterlərin və kompüter siniflərinin bütün orta ümumtəhsil və ali təhsil müəssisələrinə verilməsi, informatika sahəsində müəllimlərin hazırlanması, dövlətin təhsil portal sistemlərinin, elektron kitabxanaların, resurslar mərkəzinin yaradılması və habelə təhsil müəssisələrinin internet şəbəkəsinə geniş miqyasda qoşulması mümkün olmuşdur. Aydındır ki, təhsil müəssisələrinin informasiya təhsil resusrlarından istifadə etmələrinin təmin edilməsi məsələsinin həlli zamanı mövcud telekommunikasiya strukturlarının elm və təhsil sahələrində maksimal effektiv istifadə olunması tələb olunur. Təhsil prosesində informasiya və telekommunikasiya texnologiyalarının tədbiqinin dövlət strategiyası şagird və tələbələrin təhsil müəssisələrində (məktəblərdə və universitetlərdə) və evlərdə informasiya texnologiyalarınageniş şəkildə azad girişinin təmin edilməsinə və təhsillə bağlı digər məqsədlərə nailolunmasına yönəlmişdir. Təhsil sisteminin islahatları ilə bağlı ən aktual məsələlərdən biri də İKT tətbiq etməklə təhsilin idarə olunmasının təkmilləşdirilməsidir. Bu sırada təhsildə İKT-nin tətbiqi sahəsində yerli özünüidarə və dövlət orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi, təhsil sahəsində effektiv idarəetmə üçün zəruri olan və bu sahənin vəziyyətini xarakterizə edən elektron məlumat bazası sisteminin hazırlanıb tamamlanması xüsusi diqqət tələb edir. Həmçinin, ölkənin təhsil sisteminin yüksək İKT bilik və bacarıqlarına malik pedaqoji və inzibati kadrlarla təminatının müasir standartlar səviyyəsinə çatdırılması qarşıda duran prioritet məsələlərdəndir.

İKT-nin əsas prinsipləri,təhsildə tətbiqinin əsas məqsəd və vəzifələri Müasircəmiyyətimiz informasiyalaşdırma adlanan tarixi bir prosesə qoşulmuşdur.Bu prosesi isə kompüterləşmə həyata keçirir.İnformasiyalaşdırma cəmiyyətin elmi- texniki və sosial-iqtisadi inkişafının başlıca mənbəyi kimi gənc nəslin təlim-tərbiyəsində başlıca rol oynayır.İnformasiyalaşdırma və kompüterləşdirmə nəticəsində İKT-dən istifadə zəruri bir hala çevrilmişdir. İKT dedikdə əslində informasiyanın əldə olunması, saxlanılması, təkrar istifadəsi və eyni zamanda qorunması ilə bağlı geniş texnologiyaları əhatə edən bir sahədir. İKT sahəsində aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki,informasiyalaşdırma sistemi qarşılıqlı əlaqədə olan aşağıdakı komponentlərdən ibarətdir: İnformasiyalaşdırma- bütün sosial əhəmiyyətli xüsusi ilə informasiyaların elektron vasitələrindən seçilərək əlverişli formada saxlanması,işlənərək ötürülməsi və təqdim edilməsidir.

Təhsilin informasiyalaşdırılması kifayət qədər çətin bir proses olub,müəyyən vaxt tələb etməklə,mərhələlərlə həyata keçirilir:

1. İKT vasitələrinin kütləvi mənimsənilməsi − kompüter siniflərininyaradılması,telekommunikasiya vasitələri,operativ nəşrlər, interaktiv təsvirlər sistemi,verilənlər bazasından və proqram vasitələrindən istifadə etmək üçün müəllim və şagirdlərin əsas hüquqlarının həyata keçirilməsi;

2. Tədris fənlərində İKTvasitələrinin geniş tətbiqi üçün təhsilin məzmununa yenidən baxmaqla, kompakt disklər(optik) əsasında təsvir və audio materialların

təminatı; 3.Fasiləsiz təhsil radikal şəkildə yenidən qurulmalı,distant(məsafədən təhsil) təlimə başlanılmalı,təlimin metodik əsasları dəyişdirilməlidir.

Son illərdə «Kompyuter texnologiyası» və "İnformasiya texnologiyası" terminlərindən geniş istifadə olunur.İKT-nin əsasında“informasiya” və ”texnologiya” anlayışları dayanır. Texnologiyaişlənəcək obyektə keyfiyyət dəyişikliyinin aparılması üçün istehsal proseslərindəki vasitə və üsullarla əlaqədar biliklər toplusudur.Qədim yunanlar hesab edirdilər ki texnologiya (techne-ustalıq,bacarıq + logos isə öyrənmə) hər hansı əşyanın ustalıqla düzəldilməsi deməkdir.Bu nöqteyi–nəzərdən kompüter texnologiyası

baxılan sahədə kompüter texnikasının aparat və proqram vasitələrindən istifadə texnologiyası deməkdir. İnformasiya (informatio)-latın sözü olub,izah etmək,ifadə etmək,xəbərdar olmaq deməkdir.Bundan başqa informasiya qeyri-müəyyənliyin alınması zamanı onu azaldan və yaxud tam aradan qaldıran məlumatlardan ibarətdir. İnformasiya təbiətdə siqnallar şəklində ötürülür və iki tipə ayrılır: analoq və rəqəmli.İnsanlar öz hissiyyat üzvlərinə görə analoq, kompüterlər isə rəqəmli informasiyaların köməyilə fəaliyyət göstərir. Beləliklə, analoq informasiya deyildiyi kimi təsvir edilir və insanın duyğu üzvləri ilə qəbul edilir,rəqəmli informasiya isə kompüterin emal etdiyi informasiyadır və kodlarla ifadə olunur. İnformasiya ifadə olunma formasından asılı olmayaraq insanlar, canlılar, cansızlar, faktlar, hadisələr, proseslər və s. haqqında olan məlumat və biliklərdir. Biliklər isə müəyyən faktlar və onlar arasındakı asılılıqlar şəklində ifadə olunur. İnformasiyanı yaratmaq, ötürmək, saxlamaq, emal etmək mümkündür.

İnformasiyanın istifadəyə yararlı olması üçün aşağıdakı şərtlər ödənilməlidir:

- tamlığı- tam şəkildə təsvir olunmalıdır;
- düzgünlüyü -həqiqəti əks etdirməlidir;
- qiymətliliyi- maksimum az məsrəflə əldə edilməlidir;
- əhəmiyyətliliyi- istifadəçi üçün vacib olmalıdır;
- aktuallığı -cari vaxtda tələb edilən olmalıdır;
- anlamlılığı-istifadəçinin başa düşdüyü tərzdə hazırlanmalıdır.

İnformasiya prosesi-informasiyanın toplanması,işlənməsi və ötürülməsidir. İnformasiyanın toplanması-subyektin onu maraqlandıran obyektə aid məlumatlar əldə etməsidir. O, texniki vasitələr,qurğu və aparatlarla həyata keçirilir. İnformasiya mübadiləsi-prosesin gedişində informasiya mənbəyinin informasiyanı ötürməsi,ikinci tərəfin isə qəbul etməsidir.O,siqnallar vasitəsilə həyata keçirilir. İnformasiyanın saxlanması-verilmiş ilkin məlumatların lazım olan vaxta qədər saxlanması deməkdir. İnformasiyanın işlənməsi-sistemli bir proses olub,onların canlandırılması hər hansı məsələnin həlli alqoritminə əsaslanır. İnformasiya texnikası-informasiy texnologiyasının maddi əsasını təşkil etməklə, informasiyanın toplanması,saxlanması və işlənərək

ötürülməsini təmin edir. İnformasiya texnologiyası - informasiya ehtiyatlarından istifadə olunması proseslərinin ağırlığını azaltmaq, onların etibarlığını və operativliyini çoxaltmaq məqsədilə informasiyanın toplanması, ötürülməsi, saxlanması, emalı və istifadəçilərə çatdırılmasını təmin edən və texnoloji zəncirdə birləşdirən metodlar, istehsal prosesləri və texniki-proqram vasitələri toplusudur.Bir sözlə informasiya texnologiyası dedikdə,hər hansı bir obyektə aid proqramla işləyən qurğu və hesablama texnikasında istifadə olnan texnologiya başa düşülür. İnformasiya texnologiyasında məqsəd insan tərəfindən analiz edilmək və onun əsasında qərar qəbul etmək üçün informasiya istehsalıdır. İnformasiya texnologiyası elmi-texniki tərəqqinin inkişafı, informasiya emalı üçün yeni texniki vasitələrin yaradılması ilə təyin olunan bir neçə təkamül mərhələsi keçmişdir.Müasir cəmiyyətdə informasiya emalı texnologiyasının əsas texniki vasitəsi texnoloji proseslərin işlənib hazırlanması və istifadə olunması konsepsiyasına, həmçinin nəticə informasiyanın keyfiyyətinə ciddi təsir etmiş kompüterlər hesab olunur. Kompüterlərin informasiya mühitində tətbiqi və telekommunikasiya vasitələrindən istifadə olunması informasiya texnologiyasının inkişafını yeni mərhələyə çatdırdı. Bununla da yeni informasiya texnologiyaları mərhələsi başlandı. İnformasiyanın lazımi formaya salınması müasir informasiya texnologiyalarının tətbiqi ilə həyata keçirilir. Digər tərəfdən cəmiyyətin informasiya resusrlarından istifadə etməsi prosesinin vacib tərkib hissəsi informasiya texnologiyası hesab olunur.

İnformasiya texnologiyası aşağıdakı əsas əlamətləri ilə səciyyələnir:prosesin işlənməsi obyektin verilənləri ilə həyata keçir;

prosesin məqsədi məlumatların alınmasını təmin etməkdir;

prosesin həyata keçirilməsində əsas vasitələr proqram,qurğu və proqramlı qurğularhesab edilən hesablama kompleksləridir;

verilənlərin işlənmə prosesləri verilmiş əşya və obyekt sahəsinə uyğun əməliyyatlara bölünür;

prosesin optimallıq meyarı informasiyaların isdifadəçiyə vaxtında təqdim edilməsi,onun etibarlığı, doğruluğu və tamlığı hesab edilir.

İnformasiya texnologiyasında ilkin material kimi informasiya

çıxış edir. Son məhsul kimi də həmçinin informasiya çıxış edir.Lakin bu zaman obyektin, prosesin və ya hadisənin vəziyyəti haqqında kefiyyətcə yeni informasiya alınır. Bununla bərabər informasiya texnologiyalarının əsas komponentləri bunlardır: verilənlərin toplanması (ilkin informasiya), verilənlərin emalı, yekun informasiyaların əldə olunması və onun istifadəçiyə göndərilməsi.

İnformasiya texnologiyalarının aşağıdakı bir necə nəslini ayırd edirlər:

• Ən qədim nəsli- qaya üzərində və ağac qabığında yazılar ;

• Çap qurğusunun ixtirası ilə "kağızlı" nəsil (XV əsrin ortaları);

• EHM-in meydana gəlməsi ilə yaranmış "elektron" nəsil (XX əsrin ortaları);

• Fərdi EHM-lərin və telekommunikasiya vasitələrinin tətbiqləri ilə bağlı olan"yeni informasiya texnologiyası" nəsli (1980-ci ilin ortalarından başlayaraq).

İT-nin əsasını üç texniki naliyyət təşkil edir:

yeni informasiya toplayıcı vasitələrin-maşınoxuyucu daşıyıcıların meydana gəlməsi;

zaman və məkan məhdudiyyəti olmadan Yer kürəsinin istənilən nöqtəsindən,informasiyaları qəbul edərək daşıyan,geniş əhali kütləsini əhatə edən rabitə vasitələrinin (tv,süni peyk əlaqələri,telefon şəbəkələri və s.)inkişafı;

verilmiş alqoritm əsasında kompüterlərin köməyi ilə informasiyaların avtomatik işlənməsi.

Yeni informasiya texnologiyası (kompüterli informasiya texnologiyası)- fərdi kompüterlərin və telekommunikasiya vasitələrinin istifadəsinə əsaslanan texnologiyadır.

Yeni informasiya texnologiyalarının üç əsas prinsipi mövcuddur ki, bunlar da aşağıdakılardır: - kompüterlə interaktiv (dialoq) rejimində işləmək;

- proqram məhsullarının inteqrasiyası (birləşdirilməsi, qarşılıqlı əlaqələndirilməsi);

- həm verilənlərin, həm də məsələnin qoyuluşunun dəyişdirilməsi prosesinin çevikliyi[16,s.3-4].

İnformasiya istehsalının texniki vasitələrinə onun aparat, proqram və riyazi təminatı daxildir. Bu vasitələrin köməyilə ilkin

informasiya emal edilərək yeni keyfıyyətli informasiyaya çevrilir. Bu vasitələrin içərisində proqram vasitələrinin xüsusi yeri var. Proqram vasitələri istifadəçi tərəfindən qoyulan məqsədə nail olmaq üçün müəyyən tip kompüterlərdə qurulmuş bir və ya qarşılıqlı əlaqəli bir neçə proqram məhsulundan ibarətdir. İnformasiya texnologiyası onun üçün əsas mühit olan informasiya sistemləri ilə sıx bağlıdır. İnformasiya texnologiyası verilənlər üzərində əməllərin, əməliyyatların, mərhələlərin aparılması üçün dəqiq reqlamentlənmiş qaydalardan ibarət olan prosesdir. İnformasiya texnologiyasınm əsas məqsədi ilkin informasiyanın məqsədyönlü emalı nəticəsində istifadəçi üçün lazımi informasiyanı almaqdır. İnformasiya sistemi kompüterlərdən, kompüter şəbəkələrindən, proqram məhsullarından, verilənlər bazalarından, insanlardan, müxtəlif növ rabitə vasitələrindən və s. ibarət olan muhitdir. İnformasiya sistemi, informasiya emalı sistemidir və burada əsas məqsəd informasiyanın saxlanması, sorğulara görə axtarışı və seçilən informasiyanı lazımi formaya salıb, istifadəçiyə çatdırılmasıdır. Beləliklə, informasiya texnologiyası informasiya sisteminə nisbətdə, informasiya cəmiyyətində informasiyanın çevrilmə prosesləri haqqında müasir təsəvvürü ifadə edən daha geniş anlayışdır. İnformasiya sisteminin uğurla qurulmasının və fəaliyyətinin təminatı isə informasiya və idarəetmə texnologiyalarından birgə və bacarıqla istifadə olunmasıdır.

Günümüzdə mövcud olan informasiya texnologiyalarını iki əsas növə ayırmaq olar: 1) verilənlərin emalı texnologiyası;

2) idarəetmənin informasiya təminatı texnologiyası.

Verilənlərin emalı texnologiyası lazımi ilkin verilənlərə malik olan, emal üçün alqoritmlər və digər standart prosedurlar olan strukturlaşdırılmış məsələlərin həlli üçün nəzərdə tutulur. Bu səviyyədə informasiya texnologiyalarının və sistemlərinin tətbiqi əmək məhsuldarlığını artırır, onu hesablama əməliyyatlarından azad edir. İdarəetmənin informasiya təminatı texnologiyasının əsas məqsədi hər hansı bir müəssisənin qərar qəbuletmə ilə bağlı olan bütün iştirakçılarını lazımi informasiya ilə təmin etməkdir. Müasir kompüterlərdə informasiyanın işlənməsi aşağıdakı kimi yerinə yetirilir. Əvvəlcə tədqiq olunan obyekt və ya proses ətraflı olaraq

araşdırılır.Sonra əsas təsiredici amillər seçilərək toplanılır. Əldə olunan bu məlumatlar kompütera daxil edilir və daxil edilmiş məlumatlar sistemləşdirilir və emala göndərilir. Emal prosesindən sonra alınmış nəticələr çıxış qurğularına və ya informasiya daşıyıcılarına göndərilir. Göründüyü kimi ümumilikdə informasiyanın müasir kompüterlərdə işlənməsi vahid proses olmaqla bərabər, ayrı-ayrı yerinə yetirilən və özünəməxsus xüsusiyyətləri ilə seçilən proseslərdən ibarətdir. İnformasiya adətən tədqiq edilən proses və ya obyektə uyğun ilkin sənədlərdən və təcrübələrdən əldə edilərək toplanır. Toplanmış informasiyanın saxlanılması və ötürülməsi məqsədilə isə kodlaşdırmadan istifadə edilir[16, s.5]. Ümumiyyətlə, əsas informasiya proseslərinə məlumatların yığılması, onların qeyd edilməsi və kodlaşdırılması, çoxaldılması, ötürülməsi, saxlanması, axtarılması, təhlili və istifadə edilməsi aiddir. Bu informasiya prosesləri içərisində məlumatların yığımasının texniki səviyyəsi xeyli aşağı, əməliyyatların həcmi isə yüksək olur. İnformasiyaların yığımasından sonra onun müxtəlif sənədlərdə, məlumat daşıyıcılarında qeyd edilməsi və əks etdirilməsi əməliyyatları baş verir. İlkin informasiyanın qeydiyyatı ilə nəticə informasıyanın qeydiyyatını bırbirindən fərqləndirmək lazımdır. İlkin informasiyanın toplanması və qeydiyyatı adətən eyni zamanda baş verdiyi üçün onlar əlaqəli surətdə nəzərdən keçirilir. Çox zaman informasiyanın növbəti qeyd edilməsi ilə onun kodlaşdırılması prosesi birgə yerinə yetirilir. Məlumatların kodlaşdırılması onların daha yığcam və tez əks etdirilməsini, fərdi kompüterlərin köməyi ilə təhlilinin həyata keçirilməsini, ötürülməsini və saxlanılmasını asanlaşdırır. Bu zaman sözlər və informasiya şərti rəqəm və ya hərf işarələri olankodlarla ifadəolunur. Müasir kompüterlərdə informasiyanın kodlaşdırılması məqsədilə ikilik say sistemindən istifadə edilir. İnformasiyamn saxlanması və axtarışı prosesi onun uzun müddət ərzində öz əhəmiyyətini itirməməsi, təkrar işlənməsi məqsədləri üçün istifadə olunmasından irəli gəlir. İstər ilkin, istərsə də törəmə informasiya müxtəlif müddətli saxlanmaya və axtarışa məruz qalır. Elmi-texniki tərəqqi ilə əlaqədar olaraq informasiyanın saxlanmasının və axtarışının forma və üsulları, texniki vasitələri ildən-ilə təkmilləşdirilir. İnformasiya daşıyıcısı kimi insan beynini,

kağızı, kitabları, jurnal və qəzetləri, audio və video kasetləri, maqnit diskləri və lentlərini, compakt diskləri, DVD diskləri, fləş diskləri və s. göstərmək olar. Müasir kompüter bu qurğulardan daha çox yaddaşa və sürətlə işləmə qabiliyyətinə malik olanları istifadə edir. İnformasiyanın saxlanması məqsədilə fayllardan istifadə olunur. Fayl diskin və ya informasiya daşıyıcısının adlandırılmış hissəsidir. Hər bir fayl özündə eyni ad altında birləşdirilmiş müəyyən informasiyanı saxlayır. Eyni informasiya daşıyıcısında eyni adlı iki fayl ola bilməz. Belə olduğu halda birinci məzmun silinərək ikinci yeni məzmun saxlanılır. Faylın adı iki hissədən : xüsusi ad və tipdən ibarət olur. Faylın tipi üçün maksimum 3 simvol ayrılır. Faylın xüsusi adı vəya tipi verilməyə də bilər. Adətən fayla verilən ad elə seçilir ki, o istifadəçiyə ilk baxışda fayl və ya onun məzmunu haqqında müəyyən məlumat versin[16, s.5-7]. İnformasiyanın emalı prosesi aşağıdakı kimi aparılır: Giriş informasiya ilkin sənəd və mənbələrdən toplanır və toplanmış informasiya texniki qurğularla emal edilir. Bu qurğular icəricində böyük həcmli 17 informasiyaları emal edən kompüterlər xüsusi yer tutur. Çıxış informasiya dedikdə isə insan yaxud qurğu tərəfindən emal nəticəsində alınan informasiya nəzərdə tutulur. İnformasiyanın ötürülməsinin zəruriliyi ayrı-ayrı informasiya proseslərinin, onlar arasında sıx əlaqənin və asılılığın olması ilə bağlıdır. İnformasiyanın ötürülməsi onun ötürülmə üsullarından, istiqamətindən, informasiyanın hansı tip daşıyıcıda olmasından və məzmunundan asılıdır. İnformasiyanın ötürülməsi informasiyanın məruz qaldığı çevrilmələrin biri kimi nəzərdən keçirilir.Hazırda bu mərhələ əsasən avtomatlaşdırma elementlərinin və müasir telekommunikasiya vasitələrinin geniş istifadə edilməsi ilə səciyyələnir.Bu halda informasiyanın avtomatlaşdırılaraq işlənməsi imkanlari xeyli artır. Burada ən perspektivli istiqamət rabitənin avtomatlaşdırılmış sisteminin yaradılmasıdır. Təlimin yeni informasiya texnologiyası(TYİT) təhsilin idarə olunmasını,təlim sistemində verilənlərin tamamilə yeni məzmunda işlənməsi,az vaxt sərf edtməklə informasiya məhsullarının əks olunması və uygun mühit üçün qanuna uyğun inkişafını təmin edən yeni,kompleks öyrədici sistemdir.Bu təhlili informasiya hesablama texniki vasitələrini və pedeqoji elmlərin qazandıqları müasir naiyiyyət kimi

qiymətləndirmək olar.

TYİT aşağıdakı istiqamətlərdə inkişaf edir:

informasiya texnologiyalarının hərtərəfliliyi(mətnlərin redaktəsi,qrafik paketlər,verilənlər bazasının idarəetmə sistemləri,elektron cədvəllər prossesoru və s.);

telekommunikasiyanın kompüter vasitələri;

öyrədici və yoxlayıcı kompüter proqramları,elektron dərsliklər; multimedialı proqram məhsulları.

Burada kompüter təlimivə "elektron təlim" kimi anlayışların öyrənilməsinə ehtiyac yaranır.Kompüter təlimi:təlimin texniki vasitəsi kimi yalnız kompüter çıxış edən təlim sisteminə deyilir.Yəni bu sistemdə yalnız kompüterdən istifadə edilir.Təlimin müasir texniki vasitələri daha çox inkişaf etdiyindən mütəxəssislər ümumi termin olan elektron təlim anlayışından istifadəni təklif edirlər. Elektron təlim iki əsas növdən ibarətdir:

Reseptiv təlim- audiovizual vasitələrin(epiproyektor və magnitafon, kinoqurğu, tv və s.) köməyi ilə verilən bilikləri hiss üzvləri vasitəsilə qəbul edərək öyrənilməsi. Interaktiv təlim- insanla kompüterin qarşılıqlı fəaliyyətində dialoq rejiminə,hibrid sistem olan insan –maşın antroposentrik (süni) intellektə və öyrədici ekspert sisteminə əsaslanır.

Bu zaman şagirdlərin müstəqil(fərdi və kollektiv formada) islərinin həcminin (tədqiqat xarakterli praktik və laboratoriya işlərinin hsabına) artırılması, sinifdən xaric məşğələləri yenilətməklə, tədris prosesinin təşkilinə yenidən baxılması tələb edilir.Müəllimlər bir növ tyutora(koordinatora) çevrilir. 1980-ci illərdə pedaqoji proqram vasitələrini genişləndirilməsinə səbəb olan displey siniflərin yaradılması ilə interaktiv təlim sisteminin tətbiqi təmin edildi.1990-cı illərdən isə təhsil müassisələrində multimedia qurğularından istifadə edilməyə başlandı. Multimedia- müasir kompüter texnologiyasıdır.Kompüter sistemində mətn,səs,videotəsvir və animasiyanı yəni,virtual reallığın modelləşdirilmə dilini (VRML) təmin edir. VR- proqram vasitələri və müxtəlif texniki qurğular toplusunun interaktiv texnologiyası əsasında kompüter mühitində istifadəçinin aktiv iştirakı şəraitində reallığın illuziyasının yaradılmasıdır. Təlimin texniki vasitələri tədris-tərbiyə prosesində

məlumatların təqdim edilərək işlənməsi,saxlanması,ötürülməsi və prosesin optimallaşdırılması məqsədinə xidmət edən didaktik təminatlı texniki qurğular toplusudur.Bir sıra ədəbiyyatlarda təlimin texniki vasitələrini bərk(hardware) və yumşaq(software) olmaqla iki yerə bölürlər.Köməkçi texniki vasitələr tədris prosesində köməkçi məqsəd daşıyan kiçik avtomatlaşmaya qurğu və cihazları özündə birləşdirir.Bunlara misal olaraq çap qurğusu,printer,ekran,müəyyən kartlar,plakatlar yerləşən qurğular,radiomikrofon,naqilli mikrofon,gücləndirici,yarım-şəffəf ekran və elektron lövhəni göstərmək olar.

Bu gün tədris prosesində TYİT- in tətbiqi aşağı həyata keçirilməsinə imkan verir. Şagirdlərin maraq və tələblərini, hazırlıq səviyyələrini, bacarağını, mənimsəniləcək materialın fərdi-tipoloji xüsusiyyətlərininəzərə almaqla, tədris-tərbiyə prosesini fərdiləşdirir;

Şagirdlərin təfəkkür fəaliyyətlərini daha çox müstəqil axtarıcılıq istiqamətindədəyişdirir;

Şagirdləri özlərini təkmilləşdirərək, müstəqil bilik əldə etmələri üçün stimul verir; Təlimdə fənlərarası əlaqəni gücləndirməklə, hadisə və proseslərin kompleks öyrənilməsini təmin edir;

Tədris prosesinin mobilliyini, möhkəmliyini yüksəltməklə, dinamik yeniləşməsini təmin edir; Təhsil sisteminin informasiyalaşdırılmasının əsas məqsədi müasir informasiya cəmiyyətinə laiq olan şəxslər yetişdirmək, ölkədə vahid təhsil və informasiya mühitini yaratmaqdır. Bunun üçün yeni informasiya texnologiyalarından istifadə etməklə aşağıdakılar təmin edilməlidir:

Təhsilin keyfiyyətinin artırılması;

Müasir informasiya mədəniyyətinin formalaşdırılması;

Bütün yaş dövrlərində olan insanların təhsil alma hüquqlarının bərabərləşdirilməsi;

Milli təhsil sisteminin dünya informasiya, mədəniyyət və təhsil sisteminə inteqrasiyasının təmin edilməsi. Yuxarıda qeyd etdiyimiz məqsədlərə nail olmaq üçün aşağıdakı mühüm vəzifələr kompleks şəkildə həll olunmalıdır:

Vahid təhsil-informasiya sistemi yaradılmalı və bu sistem bütün pillələrdə təhsil və informasiya sistemlərini, həmçinin təhsilin idarəetmə, elmi-tədqiqat, metodiki- tədris və texnoloji mərkəzlərini

birləşdirməlidir;

İnformasiya texnologiyalarının tədris prosesinə inteqrasiyasının təmin edilməsi məqsədilə elektron dərsliklərin hazırlanması və onların tədris prosesində tətbiqi, ənənəvi dərs vəsaitləri ilə uyğunlaşması,köməkçi vasitələrin hazırlanması. Təhsilin keyfiyyətinin artırılmasını təmin edilmək üçün tədris məqsədli informasiya texnologiyaları vasitələrinin standartlaşdırılması və sertifikasiyası;

Təhsil sistminin idarə edilməsi üzrə İKT-yə əsaslanan təsirli və şəffaf monitorinq sisteminin və resurs mərkəzinin yaradılması;

Təhsil müəssisələrində ən yeni informasiya texnologiyalarından istifadə etmək bacarığını aşılamaq,tədris prosesinin bütün iştirakçıları üçün İKT bacarıqlarına yiyələnmək imkanının təmin edilməsi uzrə pedaqoji və İKT kadrlarının hazırlanması sisteminin yaradılması;

Təhsil müəssisələrinin İKT avadanlığı və İnternetlə təmin olunması;

İKT üzrə vahid terminologiyanın hazırlanması və onun standart kimi tətbiqolunması;

Təhsilin informasiyalaşdırılması prosesində yeni informasiya texnologiyalarınaəsaslanan müasir təlim üsullarının hazırlanması;

Təhsil sahəsində dövlət səviyyəsində vahid informasiya infrastrukturunun yaradılması;

İnformasiya təhlükəsizliyinin təmin olunması məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi və yalnız lisenziyali proqramlardan istifadəyə keçid.

## Ədəbiyyat


1. Book_I_Full.”Elm Və Təhsildə Informasiya və Kommunikasiya Texnologiyalarının Tətbiqi “ məqalələr.Bakı,2007, 50 səh
2. İsa İsmayılov, Cavid Abdullayev.Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları Tədrisdə onlardan istifadə metodikası,Bakı,2006, 200 səh
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Problemləri Institutu. “Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri” hesabat.Bakı,2012 82 səh

4. Fazilova İlahə. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu.Bakı,2015 10 səh
5. Təranə İsmayılova. İKT – nin təhsildə tətbiqi məqalə. 70 səh
6. Hümeyir Əhmədov. Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları məqalə.Bakı,2013 40 səh.
7. Aynur İbrahimova.İKT-nin təhsildəki üstünlükləri müsahibə.Bakı,2015.
8. Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007. 200 səh
9. Soltanova G. İnformasiya cəmiyyəti və müasir təhsilin yenidən qurulmasında şagidlərə alternativ yanaşma. «Təhsil problemləri» qəzeti, 24-31 oktyabr 2010-cu il. New computer Technology in Education 2012

## AYRI-AYRI FƏNNLƏRİN TƏDRİSİNDƏ SƏMƏRƏLİLİYİN VƏ KEFIYYƏTİN YÜKSƏLDİLMƏSİNDƏ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Firudin Zirəddin oğlu Məmmədov***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin b\m, p.ü.f.d***
***firidunmemmedov 333@gmail.com***

Mütəxəssislər və müəllimlərin özləri, təlimin texnikası ideyasına birmənalı münasibət bəsləmirlər. Müəllim əməyi hələ də mexanikləşdirilməmiş əl əməyi olaraq qalır. Bir çox pedaqoqlar belə hesab edirlər ki, bu belə də olmalıdır, çünki yalnız canlı insan oxuda, öyrədə bilər. Lakin təlim texnologiyasının inkişafı göstərir ki, hər bir fənni öyrətmək üçün texnoloji prosesi yaratmaq mümkündür. Texnologiya üzrə mütəxəssislər "Texnoloji proqramlar" təlim layihələri işləyib hazırlayırlar. [1]

Müəllimlər həmin paketlər və layihələrlə işləyən zaman məsləhətçi – təşkilatçı funksiyasını yerinə yetirirlər. Çoxlarına elə gəlir ki, bu hamının müqəddəs saydığı müəllimlik peşəsinə hörmətsizlikdir. Amma yadda saxlamaq lazımdır ki, bir çox müəllimlər metodistlərin onlar üçün hazırladığı metodiki işləmələrdə,

dərs planlarından məmnuniyyətlə istifadə edirlər. Köhnə əmək əməliyyatlarından azad olan müəllim sözün həqiqi mənasında pedaqoji işlə, şagirdlərin inkişafı ilə məşğul olur. Təlimdə şəxsiyyətin, yaradıcılığın və mexanikləşdirmənin nisbəti məsələsi həqiqətən adi məsələ deyil, həll olunmalıdır. Beləliklə, pedaqoji texnologiya dedikdə, qabaqcadan verilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış, optimal, didaktik proseslər başa düşülür.

Bundan başqa, praktik planda pedaqoji texnologiya müəllimin hər hansı bir texnoloji cəhətdən işlənib hazırlanmış metodlar və priyomlar sistemini, nəhayət tərbiyə işinin metodikasını və metodlarını da ifadə edə bilər.

Texnologiyanın köməyi ilə həll olunan başlıca problem təlim prosesinin idarə olunmasıdır.

Ənənəvi "qeyri-təlim texnologiyası" metodlarının nöqsanları vardır. Qeyri müəyyənlik öyrənmə əməliyyatlarının az idarə olunması mənimsənilmənin yoxlanılmasının obyektiv və epizodik xarakter daşıması buna misal ola bilər. [2]

Ənənəvi yanaşmada müəllim teoremi öyrətmək, şeri təhlil etmək, kvadrat tənlikləri həll etmək və s. məqsədləri qoyur. Bu məqsədlər şagirdlərin fəaliyyətini təsvir etmir. Texnologiyaya görə təlimin məqsədi şagirdin vəziyyətini, onun biliklərini, fikirlərini, hisslərini, davranışını dəyişməkdir. Texnologiyanın vəzifəsi təlimedici sistemin bütün elementlərini öyrənmək və təlim prosesini layihələşdirməkdir.

Təhsil məktəblərində geniş yayılmış, lakin şəxsiyyətin hərtərəfli inkişaf etməsində imkanları məhdud olan ənənəvi təlim texnologiyaları XX əsrin sonunda bir çox yaradıcı, yenilikçi pedaqoqlar tərəfindən təhsildə effektiv olmayan, hətta zərərli nəticələr verən texnologiyalar kimi qiymətləndirilməyə başlandı. Bu cür qiymətləndirmə inkişaf etmiş ölkələrdə cəmiyyətin məlumatlılıq səciyyəsinin kifayət qədər yüksək olması ilə qiymətləndirilirdi. Tədris prosesində təhsil alanın hərtərəfli şəxsiyyət kimi formalaşması üçün yeni pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailliyyətlər əldə etməyə imkan verir. Burada məqsədə və təlimin məzmununa uyğun texnologiyalar

seçilməsi və onların ardıcıl, qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirmək məqsədəmüvafiqdir. [1]

Hazırda müasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönümlü- inkişafetdirici pedaqoji texnologiyalar aşağıdakılardır: [3]

Əməkdaşlıqla təlim texnologiyası;

Layihələr metodu ilə təlim texnologiyası;

Modulla təlim texnologiyası.

Son illər tədris prosesində istifadə olunmağa başlayan daha artıq maraq göstərilən təlim texnologiyasının mahiyyəti və məzmunu ilə bir qədər ətraflı tanış olaq:

Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası – bu təlim texnologiyasında əsas ideya nəyisə birlikdə yerinə yetirmək yox, birlikdə öyrənməkdir. Kollektiv təlim texnologiyası XX sərin 80- cı illərindən ABŞ və İsrail pedaqoqları Ravin və onun şagirdləri tərəfindən işlənmişdir. [9, səh 10]

Bu kollektiv qarşılıqlı təlim texnologiyasının aşağıdakı üstünlükləri vardır:

Müntəzəm şəkildə təkrar olunan çalışmalar nəticəsində şagirdlərdə məntiqi təfəkkür və anlama vərdişləri təkmilləşir

Şifahi nitq prosesində və görülmüş işlərin müzakirəsi zamanı şagirdlərin fikri fəaliyyət vərdişləri inkişaf edir, əvvəllər qazandığı təcrübə və bilikləri aktuallaşır

Qruplarda işləyən hər bir uşaq özünü sərbəst hiss edir, təlim tapşırıqlarını özünəməxsus tempdə yerinə yetirir

Uşaq həm öz işinin, həm də kollektivin işinin nəticəsi üçün məsuliyyət daşıyır

Uşaqda öz şəxsi keyfiyyətlərini, imkan və qabiliyyətlərini qiymətləndirmək bacarığı formalaşır

Bu informasiyanın bir neçə müxtəlif tərəfdaşla müzakirəsi assosiativ əlaqənin miqdarını çoxaldır.

Bununla da mənimsəmə daha da möhkəmlənir. [7]

Bu metodda qrupun əsas üzvləri mövzu üzərində yoldaşları ilə əlaqəli şəkildə işləyirlər. Birlikdə qarşıya qoyulmuş məqsədə nail olmağa çalışırlar. Tapşırıqlar, onların yerinə yetirilməsi üçün ayrılan vaxt müxtəlif olur. Komandalar bir-birilə yarışmırlar, onlar müxtəlif

müddətdə müxtəlif tapşırıqlara cavab hazırlayırlar. Hər bir qrupun müvəffəqiyyəti onun üzvlərinin fərdi məsuliyyəti və çalışqanlığı ilə bağlıdır. Buna görə də qrupun bütün üzvləri çalışırlar ki, verilən tapşırığı, materialları yaxşı mənimsəyə bilsinlər. Kollektivlə iş zamanı müəllimin əsas vəzifəsi uşaqları bilməməkdə, bacarmamaqda günahlandırmaq və bunları sinifdə elan etmək deyil, onları bilmədiklərini və bacarmadıqlarını öyrənməyə, istiqamətləndirməyə yol göstərməkdir. Onların fəaliyyəti müddətində müəllim uşaqların gördükləri işləri izləməli, lazım gəldikdə ehtiyacı olan qrupa kömək etməlidir. Müəllim öz köməkliyini xeyirxahlıqla, sakit tərzdə etməli və bunu qrupda müzakirə aparan uşaqlara təlqin etməlidir. Əgər qrup verilən tapşırığın öhdəsindən gələ bilmirsə bunun 2 səbəbi var: I. tapşırıq həddən artıq çətin və mürəkkəbdir; II.tapşırığı əldə etmək üçün uşaqlarda möhkəm praktik vərdişlər yaranmayıb. Bütün bu hallarda müəllimin pedaqoji ustalığınıın artırılması istiqamətində iş aparılmalıdır.

Layihələr metodu ilə təlim texnologiyası – Layihələr metodu XX əsrin 20-ci illərindən ABŞ-da Con Djui və onun şagirdi Kill Patrin tərəfindən işlənmişdir. Bu metodla fəal təlim əsas şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarına uyğun qurulmuşdur. Metodun əsas mahiyyəti uşaqların əldə etdikləri biliklərin həyatda onlara lazım olmağını göstərməkdir. Tədris prosesində şagirdə tanış olmayan, onun üçün əhəmiyyət daşıyan, real həyatdan götürülmüş ən vacib problemin həllinə, onun malik olduğu və əldə edəcəyi biliklərdən istifadə etmək öyrədilir. Müəllim yeni informasiyaların alınma mənbəyini göstərə bilir və bu informasiyadan necə axtarmağın mümkün olduğunu deyə bilir, uşağı istiqamətləndirə bilir. Layihələr metodundan uşaqlar fərdi, cütlər və qrup şəklində müəyyən vaxt ərzində müstəqil fəaliyyət göstərməyə, həmişə hansısa bir problemi həll etməyə yönəlir. Problemin həllində müxtəlif təlim metodları və vasitələri tətbiq edilməklə yanaşı, həm də müxtəlif elm, texnika sahəsində sınaqdan çıxmış biliklərdən interaktiv şəkildə istifadə etməsi nəzərdə tutulur. Müasir pedaqoji texnologiyaların bünövrəsi kimi layihələr metodu-müxtəlif təlim vasitələri və informasiya texnologiyalarından istifadə etməklə reallaşır. Burada həm müasir (kompüter telekommunikasiyaları,

elektron baza göstəriciləri, video və multimedia vasitələri, faks, video rabitə), həm də ənənəvi (elm və məlumat kitabları, video yazıları və b.) tədris vasitələrindən istifadə edilə bilər. Həmçinin layihələr metodu bir kompleks problem üzrə yerinə yetirilir. [9, səh 12]

Modulla təlim texnologiyası – Təlimdə şəxsiyyətyönümlü konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşməsi və praktikada tətbiqi onların müxtəlif şəraitdə, müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, bu sahədə pedaqoji təcrübənin öyrənilməsini tələb edir. Məktəblərdə tətbiqinə geniş maraq göstərilən yeni pedaqoji texnologiyalardan biri də modulla təlim texnologiyasıdır. Təlimin modul texnologiyası dedikdə, uşaqların müstəqil olaraq dərsdə və dərsdənkənar vaxtlarda modullu iş prosesində konkret təlim məqsədlərinə nail olması başa düşülür. [9, səh 12]

Görkəmli tədqiqatçı alimlərdən A.Mehrabov, Ə.Ağayev, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov və b. texnoloji yanaşmanın strukturunu şaquli və üfuqi olmaqla iki yerə bölürlər. 9, səh 13]

Belə texnoloji yanaşmanın şaquli strukturunda bir-birilə əlaqəli – meta, makro, mezo və mikrotexnologiyaları ayırmaq lazımdır.

Matetexnologiya – sosial pedaqoji səviyyədə təhsil sahəsində sosial siyasəti həyata keçirməyə imkan verən ümumpedaqoji (ümumdidaktik, ümumtərbiyə) texnologiyadır. [9, səh 12]

Makrotexnologiya və ya təhsil sahələri üzrə texnologiya hər hansı təhsil sahəsini təlim-tərbiyə prosesinin müəyyən istiqamətini, ümumpedaqoji və ümummetodiki səviyyədə fənnin tədrisi ilə bağlı fəaliyyət sahələrini əhatə edir.

Mezotexnologiya və ya lokal modul texnologiya təlimtərbiyə prosesinin ayrı-ayrı hissələri (modulları), xüsusi, didaktik, metodik və ya tərbiyənin müəyyən bir problem sahəsi ilə bağlı məsələləri həll etmək üçün tətbiq olunan texnologiyadır.

Mikrotexnologiya – pedaqoji prosesin subyektləri arasındakı operativ məsələlərin, qarşılıqlı əlaqələrin, yazı vərdişlərinin həlli ilə bağlı texnologiyadır. Belə texnologiyalara misal olaraq yazı vərdiş-lərinin formalaşdırılması, subyektin (şəxsiyyətin, tədris prosesinin iştirakçılarının) şəxsi keyfiyyətlərinin korreksiyası üçün treninqlərin təşkili ilə bağlı texnologiyaları göstərmək olar. [9, səh 12]

Tədris prosesində təlimin keyfiyyətinin artırılması məqsədilə tətbiq olunan interaktiv metodlarından istifadə zamanı İKT və digər vasitələr əhəmiyyətli rol oynayır. İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi müxtəlif dərs formalarının həyata keçirilməsinə və onların istifadə olunması üçün pedaqoji şərtlərin formalaşdırılmasına imkan vermişdir. Belə ki, tətbiq edən müəllimin bu sahə üzrə müəyyən bacarıq və vərdişlərinnin olması, internet resurslarına və multimedia vasitələrinə uyğun olan təhsil şəraitinin yaradılması, tədris olunan fənnin(və ya mövzunun) məzmununun müfəssəl şəkildə çatdırılmasın ail olunması zəruri tələblərdir. İKT cəmiyyətin inkişafına güclü təsir göstəörə əsas amillərdən birinə çevrilmişdir.İKT-nin tətbiqinin səviyyəsi hər bir ölkənin itelektual və elmi potensialının,sosial vəziyyətinin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. Gələcəkdə iqtisadiyyatın inkişafı isə əslində təhsilin iformatlaşması ilə bağlıdır. Ona görə də ölkə Prezidenti cənab İlham Əliyev 21 avqust 2004-cü ilə tarixli sərancamı ilə təsdiq edilmiş”Azərbaycan Resspublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminat proqramı(2005-2007-ci) illər”təhsilin qarşısına yeni və əhəmiyyətli vəzifələr qoydu.[12]

Sərancamın həyata keçirilməsi ilə informatlaşdırma geniş vüsət almış və bununla bağlı çoxlu dövlət proqramları qəbul edilmiş və uğurla həyata keçirilmişdir.

Təlimdə texniki vasitələr və İKT-dən istifadə şagirdləri tədris olunan mövzunun ətraflı mənimsəməsi ,lazımi bacarıq və vərdioşlərə yiyələnməsinə stimul verməklə yanaşı müəllimin sərf etdiyi əməyi də qismən yüngülləşdirən yüksək tədris situasiyası yaratmağa qadir olan müasir vasitələrdir. Bu vasitələrdən istifadə şagirdlərdə informasiya bazasının çoxalmasına və mövzunu asanlıqla dərk etmələrinə şərait yaradır. Təlimin texniki vasitələrini əyani vəsaitlərl eyniləşdirmək olmaz.Əyani vəsaitlər informativ xarakterə malikdir.Texnik vasitələrlə şagirdlərə verilən informasiyalar daha dinamik və dah əyanidir. Tədris filimləri biologiya dərslərində effektli Pedaqoji təlim vasitələrindən biridir.O,şagirdlərin diqqətini inkişafetdirir,əyaniliy möhkəmləndirir,digər tərəfdən mikro,makro və multi çəkilişlər hesabına hadisələrin izahına imkan yaradırlar.Bu şagirdlərin hadisəni

diqqətlə izləməsinə imkan yaradır.Həm də şagirdlərin təlim-tərbiyəsində böyük rolu vardır. Tədris filmindən istifadə müəllimdən yüksək pedaqoji ustalıq tələb edir.Belə ki,müəllimin hazırlığı və lazım olan anda filimdən istifadə etməsi şagirdlərin müəyyən hadisənin izahının dəqiqliyinə aydınlıq gətirir:Habelə film vasitəsilə şagirdlər müəyyə praktik vərdişlərəd yiyələnirlər.

Hazırda Biologiya tədris filimləri vardır.Orada geniş əhatəli mövzu,fraqmentlər mövcuddur.

Göründüyü kimi, təlimin texnik vasitələrindən dinamikliyi, kütləviliyi, mütəhərrikliyi,külli miqdarda informasiya daşıya bilməsi digər əyani və informasiya vasitələri ilə uzlaşdırmağa imkan verir.Ona görə də həmin vasitələr orta ümumtəhsil məktəbləri,eləcədə ali məktəblərdə də təlim- tərbiyə işind əvəzedilməzdir. Milli kurikulum İKT-dən geni istifadəni nəzərd tutur.Kompüterdən, proyektordan istifadə etməklə mövzunun icmalı qabaqcadan hazırlanır.Motivasiyanın qurulmasında mövzuya aid materiallardan intrnet qaynaqlarından,fleşkartlardan ,əyani vəsaitlərdən,videomateriallardan və.s .istifadə etməklə şagirdlərin diqqətini maksimum dərəcədə dərsə cəlb etmək mümkündür.Biologiya dərslərində təbiət hadisələrini, heyvanları, bitki ötüyünü və.s. əks etdirən video materialları şagirdlərdə dərslərə daha böyük maraq və həvəs oyadır.Bundan başqa şagirdlər tədqiqat aparakən,ümumi nəticələr çıxararkən daha dəqiq,daha səlis işləyir,dərslər bu gün ki tələblərə uyğun daha fəal ,daha canlı keçir.[18]

İKT-nin metodiki işdə uğurla tətbiq olunması üçün müəllim İKT-nin müxtəlif formalarını yaxşı bilməli kompyuterdə yaxşı işləməli əsas təhsil saytlarının imkanlarından düzgün istifadə etməlidir. Bununla yanaşı təlim prosesində millilik və bəşəri dəyərlər öz əksini tapmalıdır. Tədris zamanı müəllim çalışmalıdır ki,şagirdlərdə dədqiqatçılıq,yaradıcılıq və qazanılmış biliklərin həyatda müstəqil şəkildə tətbiqetmə bacarıqları inkişaf etdirilsin.Bütün bu prinsiplərin gözlənilməsi təlim islahatının əsas kompetensiyalarından olan əqli təfəkkürin inkişafını təmin edir.[18]

Biologiya dərslərində informasiya texnologiyalarından istifadə müəllimə bir sıra imkanlar yaradır.Bunlardan təlim-tərbiyə prosesinin

gedişində şagirdlərin şüurlu fəaliyyətinin təşkil edilməsi,təlim prosesində fərdi yanaşma üsulunun tətbiqinə daha böyük imkanlar yaradılması və qısa vaxt ərzində mikro və makro aləmdə baş verən hadisə və prosesi ardıcıllıqla izləmək imkanlarının yaradılmasını misal göstərmək olar.[19]

Biologiya dərslərində İKT vasitələrindən istifadə edərkən dərsin mərhələləri əvvəlcədən aydınlaşdırılmalıdır.Bununla yanaşı bioloji biliklərin şagirdlərin həyat və fəaliyyətində mühüm rol oynadığını da nəzərdə saxlamaq lazımdır.Məhz bioloji təhsi sayəsində hələ yeniyetməlik yaşlarından şagirdlərdə özünə,ətrafdakılara,ümumiyyətlə,bütün canlılara qarşı diqqətli və ehtiyatlı yanaşma, təbiətə məhəbbət hissi formalaşır.Şagird müəyyən dərəcədə öz sağlamlığının qeydinə qalmağın nə dərəcədə mühüm olduğunu anlayır,öz orqanizminin quruluşun və funksiyalarını bilir,ekologiyanın nə demək olduğunu anladığına görə onda bitki və heyvanlar aləminə qarşı rəğbət hissi yaranır.

Bütün bunlar şagirdlərin dünyaya baxışını dəyişir,onları kamil bir şəxsiyyətə çevrilir.Bioloji elmlər planetimizdə unikal hadisə olan həyatın qanunlarını açmaqla məktəblinin ekoloji mədəniyyətini formalaşdırır. “Millətimizin sabahı”dedimiyiz uşaqlar həyatımızın gələcəyi, ömrümüzün davamıdır.Onların təlim-tərbiyəsində, sağlamlığına düzgün münasibət bəşəriyyətin aydın sabahının,parlaq gələcəyinin təminatıdır.XXI əsrdə yaşayacaq nəsillərin təlim-tərbiyəsinin,sağlamlığının, xoşbəxt həyatının təməli bugünümüzdən başlayır.[20]

Şagirdlər hər tərəfli biliklərlə təmin edilməsi onlarda bacarıq və vərdişlər formalaşdırılmalı,yüksək mədəniyyətə və dünyagörüşünə malik şəxsiyyət kimi yetişdirilməlidir.Belə tədris prosesi şagirdlərdə özünəinam hissi oyadır ki, bu da onlara sinfin və dərsin təşkilində iştirak etməyə ,öz fikirlərini sərbəst şəkildə ifadə etməyə şərait yaradır.Müasir təlim metodları və İKT –dən istifadə sinif mühitində dəyişiklik etməyə və cəmiyyətin dəyərli vətəndaşları olmağa çalışan, aktiv,hər şeylə maraqlanan şagirdlərin təhsil aldığı siniflərin yaradılmasında müəllimlərə yol göstərir.Təlim prosesinin daha yaradıcı olmasına,şagirdlərin müzakirə,mühakimə qabiliyyətlərinin formalaşmasına stimul yaradan bu üsul və vasitələtr eyni zamanda

şagirdlərin təlim prosesinə daha maraqla və həvəslə yanaşmasını təmin edir.

Müasir təlimin əsas vəzifəsi demokratik ruhlu, müstəqil düşüncəli, yüksək bilik və bacarıqlara yiyələnmiş gənc nəslin tərbiyə olunmasıdır. Bunun üçün tədris prosesində yeni təlim texnologiyalarından istifadə zəruridir. Bu gün təlimdə yeni texnologiyalardan istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsi hər bir müəllimin arzusudur və hər birimiz buna çalışırıq. [18]

Fəal təlimə əsaslanan müasir dərsin mahiyyətini düşünmə, öyrənmə və danışma təşkil edir. Metodik ədəbiyyatlarda müasir dərsin strukturu 7 mərhələdən (motivasiya, problemin qoyuluşu, tədqiqatın aparılması, informasiya mübadiləsi, informasiyanın müzakirəsi, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə, qiymətləndirmə) ibarət göstərilsə də, əslində bu 3 mərhələni özündə ehtiva edir: öyrənmə, tətbiqetmə, dəyərləndirmə.[20] Göründüyü kimi, 45 dəqiqəlik dərsin bütün mərhələlərində şagird fəaliyyətdədir. Bu zaman o, həm yazılı, həm də şifahi fəaliyyət göstərir.

Hər bir fənn üzrə proqramda (kurikulumda) fənnin xarakterinə uyğun fəaliyyət xətləri verilmişdir. Azərbaycan dili fənn proqramında (kurikulumunda) aşağıdakı fəaliyyət xətləri nəzərdə tutulmuşdur.[17]

Problemin həlli;

Mühakiməyürütmə və əsaslandırma;

Ünsiyyət;

Tədqiqetmə;

Tətbiqetmə.

Qeyd edilən fəaliyyətlər məzmun standartlarında öz əksini tapır.

Məzmun standartlarının gerçəkləşdirilməsi zamanı şagird araşdırır, mühakimə yürüdür, münasibət bildirir, fikirlərini əsaslandırır, öyrəndiklərini tətbiq edir və bütün bu fəaliyyətlər həm yazılı, həm də şifahi formada yerinə yetirilir.

Müəllim təlim prosesində müzakirə, rollu oyun, ziq-zaq, karusel, klaster, plan tərtibi, dinlənilmiş mətnlərin şifahi təhlili, dinləmə materialları üzrə müsahibə və

s. üsullardan istifadə etməklə şagirdləri axtarışa, problemi həll

etməyə sövq edə bilər.

Mən də bir ibtidai sinif müəllimi kimi təhsilimizdəki yenilikləri, yeni təlim texnologiyalarını, kurikulumun tələblərinə cavab verən meyarları öz fəaliyyətimdə tətbiq etməyə səy göstərirəm. İnteraktiv təlim metodlarının, fənn kurikulumlarının tətbiqi ilə bağlı keçirilmiş bir çox kursların dinləyicisi olmuşam.

Öyrəndiyim bu yeniliklərdən daim dərslərimdə istifadə edirəm. İş təcrübəmə əsasən deyə bilərəm ki, istifadə etdiyim yeni metodlar şagirdlərdə idrak fəaliyyətinin, müstəqil mütaliə qabiliyyətinin, hər hansı hadisəyə  tənqidi yanaşa bilmək kimi müsbət cəhətlərin inkişafına stimul verir. Fəal təlim metodları ilə aparılan dərslərin şagirdlərin sevincinə, marağına səbəb olduğunun şahidiyəm.

Mən müəllim-şagird münasibətlərinin düzgün qurulmasına da xüsusi diqqət verirəm. Çünki bu münasibətlərin şagirdlərin təhsilə marağının artırılmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyəti vardır. Pedaqoji fəaliiyyətin belə əməkdaşlıq əsasında qurulması hər bir şagirdin intellektual imkanlarını, meyil və maraqlarını daha düzgün aşkara çıxarmağa imkan verir. Həmçinin mən hər bir şagirdin nə ilə maraqlandığını öyrənir, onun qabiliyyətinin, istedadının düzgün istiqamətləndirilməsinə, eyni zamanda inkişaf etdirilməsinə kömək etməyə çalışıram. Bu cür münasibət uşaqda özünə inam hissi yaradır. Şagird öz bacarığını, nəyə qadir olduğunu ürəklə nümayiş etdirməyə çalışır.[19]

Təlimdə keyfiyyət əldə etmək üçün şagirdlərin psixoloji xüsusiyyətlərini dərindən bilmək xüsusilə vacibdir. Doğrudan da, düzgün qurulmuş müəllim-şagird münasibətləri şagirdlərin təlim marağının artırılmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirlərin fəallığına, kollektiv şəkildə işləmələrinə istiqamət verir, şərait yaradır. Şagirdlərə bu cür yanaşma onların qrup işi zamanı da səmərəli əməkdaşlıq etməsinə müsbət təsir göstərir.

Müasir tədris zamanı texniki vasitələrdən istifadə təlimin məzmununu daha da zənginləşdirir. Belə ki, kompüterdə Microsoft Power Point, Microsoft Word, Activİnspire, Bandicam proqramlarından istifadə etməklə rəngarəng dərs nümunələri hazırlamaq mümkündür. Bu cür qurulmuş dərslər şagirdlər tərəfindən maraqla qarşılanır və asan mənimsənilir.[20]

Fəal təlimdə dərs motivasiya ilə başlanır. Hər bir dərsdə qoyulan motivasiya şagirddə maraq oyatmaqla bərabər, onu düşündürür, idrak qabiliyyətini yüksəldir, daha fəal olmağa sövq edir.

Məsələn, mən "K" səsi və hərfi" mövzusunu keçərkən lövhədə kartof, traktor, park şəkillərini nümayiş etdirirəm. Hər şəklin altında yazılan adındakı "K" hərfi qırmızı rənglə işarə olunur. Belədə şagirdlər "qırmızı rənglə verilmiş hərflər necə səslənir" sualına asanlıqla cavab verirlər.[19]

Tədqiqatın aparılması zamanı müxtəlif iş formalarından istifadə edirəm. Qrupla iş zamanı onları adlandırmaq üçün həndəsi fiqurlar, rəngli kağızlar, müxtəlif şəkillər, çiçəklər və s. vasitələr seçmək olar. Qrupların yaranmasında istifadə olunan vasitələrin mövzuya uyğun seçilməsi daha yaxşı olar.

Hər qrupa verdiyim tapşırıqların maraqlı, rəngarəng olmasına çalışıram. Bu çox vacibdir. Qrup işinin əhəmiyyəti odur ki, lövhə qarşısında öz fikrini deməyə utanan və ya cəsarət etməyən şagird, yoldaşları ilə birləşib aydın qərar çıxarır və cəsarətli olur.

Tədqiqatın aparılması zamanı vaxt təyin edirəm və zaman ölçüsü kimi müxtəlif vasitələrdən - müxtəlif saat növlərindən, usaq musiqilərindən istifadə edirəm. Vaxtın qoyulması şagirdlərdə məsuliyyət yaratmaqla bərabər, onları vaxtdan səmərəli istifadəyə istiqamətləndirir.

Məlumat mubadiləsi zamanı qrup lideri məlumat verir. Hər qrupun verdiyi məlumat bütün qrup üzvlərinin geniş məlumatlandırılmasına səbəb olur. Onların yaddaşına yeni məlumat daxil olur. Hətta bu zaman şagirdlər yoldaşlarının səhv fikirlərini düzəltməklə yeni fikrə gəlirlər. "Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq... İndiyə qədər yaranmış təməlin, üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək...". [19]

Heydər Əliyev, Ümummilli lider Riyaziyyat fənninin tədrisində yeni təlim texnologiyaların tətbiqinin məqsədi fəal təlimin, habelə, kurikulumun prinsiplərini həyata keçirməkdən ibarətdir. Başqa sözlə desək, müəllim və şagirdlərin fəaliyyətinə aid edilən müasir təlim metodları riyaziyyat fənni üzrə təhsil standartların reallaşdırılması, təlim nəticələrinin həyata keçirilməsi, təlimə verilən

əsas tələblərin yerinə yetirilməsi və s. bu kimi vacib psixoloji, metodiki faktorları özündə ehtiva edən Milli urikulmun tələblərinə cavab verməyə əsaslanır.

Riyaziyyatın tədrisində müasir təlim texnologiyalarının tətbiqi dedikdə bu fənn üzrə optimal didaktik proseslər, məqsədə nail olmaq, təhsil vəzifələrini həll etmək yollarının məcmusu başa düşülür. Məqsəd şagirdin fikirlərinə, bilik, bacarıq, davranış və hisslərinə fasilitatorluq etməklə təlim nəticələrini əldə etməkdir.

Yuxarı siniflərə qalxdıqca nəzəri riyaziyyat praktik həyatdan uzaqlaşır, göz önünə gətirilməsi, "toxunulması" şagird üçün qismən çətin olur. Odur ki, gündəlik dərslərdə yeni təlim texnologiyalarının istifadəsi zərurətə çevrilir.[20]

Müasir təlim texnologiyaları xüsusi halda riyaziyyat fənnin tədrisinə necə tətbiq edilməlidir?

Təbii ki, ağıla ilk gələn cavab İKT-nin dərsdə tətbiqidir. Təlimdə texniki vasitələr və İKT-dən istifadə şagirdlərin tədris olunan mövzunun ətraflı mənimsəməsi, lazımi bacarıq və vərdişlərə yiyələnməsinə stimul verməklə yanaşı müəllimin sərf etdiyi əməyi də qismən yüngülləşdirən yüksək tədris situasiyası yaratmağa qadir olan müasir vasitələrdir. Bu vasitələrdən istifadə şagirdlərdə informasiya bazasının çoxalmasına və mövzunu asanlıqla dərk etmələrinə şərait yaradır.

İnteqrasiya müasir təlim texnologiyalardan biri olub müəyyən tədris prosesində dünyanın bölünməz və vahid olduğunu formalaşdırmağa xidmət edir. İnteqrasiya psixoloji olaraq idraki fəaliyyətin mərhələli formalaşması və əqli fəaliyyətin assosiati-reflektor nəzəriyyəsinə əsaslanır.

Fəal dərsin hər bir mərhələsi, qiymətləndirmə, habelə, dərsin planlaşdırılması ayrı- ayrılıqda müasir təlim texnologiyalarının xüsusiyyətlərini özündə ehtiva edir.

Düşünürəm ki, müasir təlim texnologiyaları prinsiplərinin mahiyyətindən irəli gələn əsas yanaşmaları şagirdlərin maraq və tələbatlarına, onların yaş psixologiyasına, sosial yaşam tərzinə, bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəltməklə, tədris prosesində idrak fəallığını, fasilitator dəstəyi ilə öyrənməni, zəruri olan informasiyaları müstəqil əldə etməklə ondan düzgün istifadə etməyi,

əməkdaşlığı, şagirdyönümlülüyü reallaşdırmaqla pedaqoji texnologiyaların səmərəli tətbiqinə nail olmaq olar.

Ənənəvi yanaşmadan, passiv təlimdən, avtoritarlıqdan uzaq, demokratik münasibətlər əsasında formalaşan yeni təlim texnologiyaları "Müəllim-bələdçi- şagird isə tədqiqatçı" prinsipini əsas tutur. Öyrənən və öyrədən bərabərhüquqludur!

Riyaziyyat fənnində müasir təlim texnologiyanın tətbiqi üçün müəllim aşağıda sadalanan müəyyən əməliyyatları həyata keçirməlidir:[20]

Ən yeni praktik bilikləri toplamaq;

Pedaqoji prosesi təşkil etmək;

Təlim strategiyalarını həyata keçirmək;

Təlimin təşkilinə verilən əsas tələbləri ödəmək;

Bilikləri şagirdlərə öyrənmə tərzlərinə (vizual, audial, kinestetik) görə ötürmək. Müasir təlim texnologiyalarından tədris prosesində istifadəsinin texnoloji cəhətdən düzgün müəyyənləşdirilməsi müəllimdən peşəkarlıq və səriştəlilik tələb edir.

Belə ki, təlim nəticələrini əldə etmək üçün məzmun xətti üzrə standartları reallaşdırarkən forma, üsul seçimi dərsin məqsədinə, tədqiqatın aparlmasına, məzmuna, metod və dərsin tipinə uyğun olmalıdır. Bundan başqa, mövzunun motivasiyası fənnin məqsəd və vəzifələrini, dərsin xarakterik xüsusiyyətlərini nəzərə almaqla refleksiya ilə uzlaşmalıdır.

## Ədəbiyyat


1. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006. 100 səh
2. Qaralov Z. Tərbiyə (prinsiplər, məzmun, metodika), I, II, III cild. Bakı, 2003.500 səh
3. Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahatistiqamətləri. Bakı, 2005. 16 səh
4. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar.Bakı, 2006. 285 səh
5. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Dərs vəsaiti. Bakı, 2008. 150 səh
6. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Dərs

vəsaiti. Bakı,2011. 170 səh
7. Təhsil sahəsində Azərbaycan Respublikasının İslahat proqramı (1998 – 2004). Ikitab, Bakı, 2005, I cild. 200 səh
8. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
9. Akif Nəzərov. MÜASİR TƏLİM TEXNOLOGİYALARI (Mühazirə xülasələri)DƏRS VƏSAİTİ 80 səh
10. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritet,islahatlar. Bakı, 1998.

## MÜASIR MƏKTƏBDƏ KEYFIYYƏTIN IDARƏ OLUNMASINDA MONITORINQIN ROLU

***Nigar Cavad qızı Abdinova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***teachern@mail.ru***

Müasir dövrümüzdə ən çox müzakirə edilən məsələlərdən biri təhsildir. Dövrümüzdə təhsilin keyfiyyətinin artırılması yolunda müxtəlif addımlar atılır. Təhsil müəssisələrinin təhsildə keyfiyyətə daha çox müvəffəq olması üçün bu prosesdə əsaslı şəkildə iştirak edən kollektivə sahib olmalıdır. Hər bir təhsil müəssisəsi üçün keyfiyyətə nail olmaq bir amal olmalıdır. Keyfiyyəti isə daim təkminləşdirilən metodlarla idarə etmək lazımdır. Çünki hər bir müəssisə keyfiyyətli fəaliyyət üçün səy göstərməlidir ki, uzunmüddətli rəqabətə tab gətirə və gələcək inkişafını təmin edə bilsin.

Keyfiyyət özlüyündən yaranan bir anlayış, məfhum deyildir, onu müəyyən etmək üçün və möhkəmləndirmək üçün əvvəlcədən müəyyən edilmiş meyar və göstəricilərdən istifadə etmək lazımdır.

Məktəb sistemində monitorinqlərin aparılması bu və ya digər şəkildə bütün dövrlərdə mövcud olmuşdur. Belə ki, şagirdlərin biliklərinin yoxlanılması, müəllimlərin dərslərində metodistlərin müşahidəsi və tövsiyələri və s. Lakin təcrübə onu göstərir ki, ənənəvi şəkildə aparılmış monitorinqlər bu gün kifayət qədər özünü doğrultmur, çünki onlar daha çox epizodik xarakter daşıyır və

nəticələrə təsir edən amillərin aşkar edilməsində o qədər də müsbət nəticələr vermir. Müasir dövrdə aparılan monitorinqlər hesabına isə tədrisin uyğunluq dərəcəsini, məktəbdə tədris prosesinin təşkilinin faktiki vəziyyətini müəyyən etməklə mənfi hadisələrin inkişafının qarşısını almaq üçün tövsiyələr verməyə imkan verir. Monitorinq nəticəsində əldə edilmiş məlumatlar təhsil müəssisəsinin gələcək inkişafının proqnozlaşdırmasında, yəni yaxın və uzaq hədəflərinin müəyyən edilməsində faydalı və əsas rol oynayır. Sözsüz, deyə bilərik ki, monitorinqlərin nəticələri təlimin məzmununu düzəltməyə, müəyyən idarəetmə hərəkətlərinin qanuniliyini əsaslandırmağa imkan verir. Yəni təhsilin keyfiyyətinin monitorinqi məktəb idarəçiliyinin səmərəliliyini yüksəldən əsas amillərdən hesab olunur.

Bilirik ki, məktəbin əsas missiyası təhsil alanlarda müəyyən bilik və bacarıqlar formalaşdırmaqla onları həyata hazırlamaqdır, bu istiqamətdə də rəhbərlərin də əsas missiyası müəllimlərin bu işdə səmərəli fəaliyyət göstərməsinə imkan yaratmaqdır. Rəhbərlərin strateji planlaşdırması vacib hesab olunur və məktəbin fəaliyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir. Ümumiyyətlə, təhsilin planlaşdırılması şagirdlərin təlim nəticələrinin yüksəldilməsinə, həmçinin hər hansı dəyişiklikləri sərrast idarə etmək üçün məktəbin potensialının gücləndirilməsinə öz töhvəsini verməyə yönəlmişdir. Məhz çevik dəyişikliklərin aparılması potensialına sahib olmaq üçün məktəb rəhbəri öz idarəetmə fəaliyyətində mütəmadi monitorinqlər apararaq təhsil dəyişikliklərinə tez adaptasiya ola biləcək idarəetmə strukturularını yaratmalı, idarəetmə strategiyalarını məktəbin vizyon və missiyasına uyğun planlaşdırmalıdır.

Məktəb rəhbərliyi üçün keyfiyyət prioritet məsələ olmalıdır, buna görə də o keyfiyyətin idarə edilməsi və keyfiyyətə nəzarət məsələləri ilə məşğul olmalıdır. Keyfiyyətli təhsilə sahib məktəblərdə şagirdlərin davamlı olaraq ehtiyac və istəkləri müəyyən edilməlidir, o cümlədən məktəbin daxili səyi nəticəsində qarşıya qoyulan məqsədlər davamlı olaraq yerinə yetirilməlidir.

Məktəbdə keyfiyyətin idarə edilməsi sisteminin 4 əsas ölçüsü vardır:

***Komandanın idarə edilməsi***-Hər bir rəhbər rəhbərlik etdiyi kollektivin hər bir üzvünün, o cümlədən də bütün kollektivin

fəaliyyətini vaxtında qiymətləndirməlidir. Kollektiv işləri, əsasən, məqsəd və şərtlərə görə qiymətləndirilir. Nəticələr kollektiv iclaslarda, pedaqoji şuranın iclaslarında müzakirə oluna bilər. Müsbət nəticə əldə etmiş müəllimlərin təcrübələri müzakirə edilərək nümunə göstərilər bilər.

***Fərdi idarəetmə***-Hər bir müəllimin şəxsi məqsəd və vəzifələri, o cümlədən ehtiyacları müəyyən edilir. Fərdi nəzarət çevik korreksiyaya imkan verir ki, bu da özlüyündə keyfiyyətli nəticə əldə etməyə gətirib çıxarır.

***Nəzarətin idarə edilməsi***-Məktəb rəhbərliyinin əsas vəzifəsi qarşıya qoyulan məqsədlərin uğurlu olmasını təmin etməkdir. Nəzarətin düzgün aparılması üçün alınan bütün məlumatların sonda sintez edilməsi ilə nəticələnməlidir.

***Xarici nəzarət***-Keyfiyyətin təmin edilməsini, ona nəzarəti yalnız daxili qiymətləndirməyə etibar etmək doğru olmaz. Müvafiq xarici qurumlardan geri dönüşlər almaq keyfiyyətin idarə edilməsinə mübsət nəticələr göstərə bilər, sözsüz ki, rəhbərin idarəetmə və qərarqəbul etmə səriştəsinin də burada rolu vardır. Qərarların qəbul edilməsi məhz informasiya- analitik fəaliyyətlə bağlıdır. İnformasiya-analitik fəaliyyətin özülünü informasiya-analitik səriştə təşkil edir. Menecerlər informasiya mühitində işləməyə nə qədər hazır olarlarsa, onların peşəkar inkişafları da bir o qədər uğurlu olacaqdır. Bu da rəhbərlik etdiyi müəssisədə mövcud təhsilin keyfiyyətinə müsbət təsir göstərəcək. Həmçinin qeyd etməliyik ki, informasiya-analitik bacarıqlar fərdin idrak fəaliyyətinin əsasını təşkil edən bacarıqlardandır.

Təhsil sferasında "təhsilin keyfiyyəti" və "keyfiyyətin idarə olunması" anlayışları bizə monitorinq və qiymətləndirmənin mahiyyəti və məzmunu üzərində düşünməyə daha çox sövq edir. Bəzi müəlliflər tərəfindən təhsilin keyfiyyəti yalnız nailiyyət səviyyələri hesab olunur. Lakin müəllimlərin və şagirdlərin fəaliyyətlərinin xüsusiyyətləri, onların dövlət standartlarının tələblərinə cavab verən məqsədlərə uyğunluğu nəzərə alınmaqla tədris prosesinin keyfiyyətini dəyərləndirmək lazımdır. Tədris prosesinin keyfiyyətinin monitorinqi tədris prosesinin əsas elementlərinin həyata keçirilməsinə nəzarət etmək üçün məlumatların

qeydə alınması prosesidir.

Kurikulum standartları bu gün ölkəmizin əsas təhsil kurslarına aid əsas normaları və keyfiyyət tələblərini özündə əks etdirir. Ümumtəhsil pilləsinin bütün səviyyələrində təhsil alan şagirdlərə bilik və bacarıqlar, proseslər və metodlar, emosional münasibət və dəyərlər baxımından da əsas tələbləri özündə ehtiva edir. Hazırda ölkəmizdə ümumi təhsilin monitorinqi milli kurikulumun standartlarına uyğun şəkildə həyata keçirilir. Ölkəmizdə təhsilin keyfiyyətinin monitorinqi təkcə təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə deyil, həm də təhsilin keyfiyyətinə təsir edən amillərin təhlilinə yönəlib. Təhsilin keyfiyyəti ilə bağlı göstəricilərin nümayişi və seçilməsi dövlətin müvafiq təhsil siyasətinin təhlili nəticəsində formalaşır.

Təhsil müəssisələrində keyfiyyətin idarə edilməsi, həm də məktəb rəhbər-liyinin keyfiyyət faktoruna necə baxmasıdır. Rəhbərin baxış mövqeyi həm də kollektivi formalaşdırır. Məsələn, şagirdlərin ehtiyaclarını diqqət mərkəzində saxlayan məktəb rəhbərliyinin kollektivi də yalnız öz fənnin inkişafı üçün çalışan deyil, şagirdlərin hər tərəfli yetişməsini qarşısına məqsəd qoyan müəllimlərdən təşkil olunacaq. Həmçinin bu cür mövqeydə çıxış edən məktəb rəhbərləri bilməlidir ki, məktəb hər bir şagirdə çatmaq iqtidarında olmalıdır. Məktəb rəhbərləri öz aktiv və fəal fəaliyyəti ilə idarə etdiyi məktəbdə təhsilin keyfiyyətinə təsir göstərməyi bacarmalıdır. O bu istiqamətdə daim məktəbdəki təhsillə maraqlı olan şəxslərlə, müəllimlərlə intensiv ünsiyyət şəraitində olmalıdır.

O cümlədən problemlər və münaqişələr zamanı düzgün mövqe sərgiləmək də məktəb rəhbərlərinin xüsusi diqqət etməli olduğu sahələrdəndir ki, bu da özlüyündə təhsilin keyfiyyətinə təsir göstərir. Həlledici mövqeydə çıxış etməyi bacaran rəhbərlər ilk gündən özünün və kollektivinin əməl etməli olduğu, lakin avtoritar üslubu özündə əks etdirməyən qaydalar qoymağa səy göstərməlidirlər. Yaranan problemlərin və münaqişələrin həlli zamanı nə rəhbər, nə də müəllimlər onları şəxsi qəbul etməməlidir. Onların həlli zamanı birgə müzakirə edilmədi və həll yolu tapılmalıdır. Bütün vəziyyətlərdə konfiliktlərin də həlli ünsiyyət yolu ilə həll edilmədir.

Tədris prosesinin keyfiyyət səviyyəsinə sistemli nəzarət və idarə etmək adekvat metodlar və xüsusi monitorinq sistemi olmadan mümkün deyil. Monitorinq təhsildə keyfiyyətin idarə edilməsi səviyyəsini müəyyənləşdirmək üçün istifadə olunan bir prosesdir.

## STUDENTS WITH SPECIAL EDUCATIONAL NEEDS

***Türkan Miryasin qızı Əliyeva***
***ADU-nun Pedaqogika kafedrasının müəllimi***
***aliyeva.t3@mail.ru***

The objective of this thesis is to describe a student with special educational needs, monitor educational behavioral responses and interview the instructor about the instructional practices used in a group of students. In this analysis, a special educational needs (SEN) teacher of a private school in Baku has been interviewed. She has 6 years teaching experience, and it has been more than 2 years that she is also teaching in an inclusive classroom after getting some organizational training in that private school. Regarding the intended SEN student, it was a 6 year old female student with autism. The mentioned syndrome makes it hard to comprehend what different people are feeling or thinking. becoming very nervous in everyday interaction, finding it hard to connect with others or favoring being alone are all the difficulties the one with the mentioned syndrome suffers.

My interview with the instructor revealed that the SEN student requires special attention and the only way to attract her attention was positive reinforcement. She was more likely to get upset and be introverted when she was not appreciated for what she had done. When being asked about the challenges with the SEN students during class session, she mentioned that communication impairments manifest as improper conversational responses, misreading body language interactions, or complexity forming social connections. Additionally, she mentioned her lack of knowledge in child psychology which could be used when the SEN student was emotionally down and did not have any willingness to be involved in

the classroom process. Moreover, when I asked about the SEN student's cognitive development, she indicated that she had a pretty good sense of detail, recalling color combinations, numeric data, and other small details that the non - autistic missed. However, she had some difficulties regarding directions and movement of objects. She was not able to remember where the object had been after it was moved from that location. The instructor also stated that one of the main aspects of teaching autistic children was to keep up with the consistency. The harmony of the classroom should be maintained since SEN students are not good at adapting to the new schedule and new activities. That is why teaching subjects in a particular time and asking them to do the particular activities would make them be better involved in the classroom activities. Regarding the classroom setting and curriculum activities, it should be noted that in the classroom instructional preference has been given to the movement rather than pencil and students are taught with the help of special tools. Regarding literacy, they do have special cards which are supposed to be moved to create a sentence or a word. They are supposed to come to the board to move the cards to find out which words that their teacher wants them to find out. Regarding the numeracy, they do have a game based math activity in which each student is supposed to do math with pizza slices. According to Kliewer, relationship reciprocity suggests that both parties stand to gain fairly and equally from the partnership. By involving them to work in a group, the teacher stood out against the idea that disabled learners serve as recipients, while their peers without disabilities serve as contributors. Regarding the classroom's setting where students were not supposed to sit at the same place every time and had portable desks, the idea of citizens of the same community were in place [3]. As Rapp and Arndt (2012) mentioned they were still at Point B alongside their peers. They will have actually achieved what their counterparts even if they might require a backtrack or rest prior to actually proceeding. In my observation A SEN student was allowed to change her place and not assigned to sit at the same place and such a situation could lead to identity of belonging as Rapp and Arndt (2012) states in a shared social place every individual regardless of their difference can

“take risks without fear of failure or persecution (p.130)” Such a community is also an advantage for the teacher to improve his or her instructional theories and practices as it is stated once the idea of citizen of the community is in place, the teacher will be able to learn how to distinguish instruction process and activities with the goal to foster the literacy development of all learners [2]. Another point that caught my attention was the teacher's effort to use one single method which was sufficient for all class members. She used to move some figures while doing math instead of pen and pencils. By the help of these methods, all students including the one with autism were involved in doing math activities. Such a methodology also made other students more willing and attentive since it was not boring and had difficulties like doing math on paper with pen and pencils as Rapp and Arndt stated that when an instructor employs a technique to assist and guide one student's comprehension and several other students stand to gain from the strategic approach called a ripple effect which was the result of a single action continuing to spread. By referring to this approach, they also implied that it is not the vitality of differentiation to write several lesson plans for several learners. It is better to establish one single strategy which would serve for all. Moreover, Bogdan and Taylor also imply that differentiation in the classroom process could benefit all the class community. They indicate that no student stands to benefit from rigorous, lockstep curriculum design with no distinctiveness, a hostile classroom management that encourages competition and deleterious comparison, limited student influence in classroom planning process, and prohibitive forms of teaching methods [2].

All in all, I do appreciate the teacher's all attempt to help the SEN student to keep up with the pace of the classroom process and perseverance to assist the SEN student be more involved in the class community.

## References

1. Gardner, H. (1991). " Multiple Intelligences" as a Catalyst. The English Journal, 84(8), 16-18.

2. Rapp, W. H., & Arndt, K. L. (2012). Teaching everyone: An introduction to inclusive education. Brookes Publishing Company. PO Box 10624, Baltimore, MD 21285.
3. Kliewer, C. (1998). Schooling children with Down syndrome: Toward an understanding of possibility. Teachers College Press, 1234 Amsterdam Avenue, Teachers College, Columbia University, New York, NY 10027.

## İKT-NİN TƏHSİLDƏ TƏTBİQİ VƏ İNTEQRASİYASINA TƏSİR EDƏN AMİLLƏR

***Minayə İntiqam qızı Sadıxova***
***BSU-nun Riyaziyyat və İnformatika kafedrasının müəllimi,***
***Azərbaycan Təhsil İnstitutunun doktorantı***
***sadixova.minaya@mail.ru***

Təhsil sahəsində qanunvericilikdə İKT ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, sənədlər imzalanaraq təsdiq edilmişdir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən təsdiq edilmiş Azərbaycanda İKT-nin inkişafı üzrə milli strategiyanın icrası çərçivəsində maarifləndirici layihələr yazılmış, onların həyata keçirilməsi üçün dövlət tərəfindən vəsait ayrılmışdır. Bu dövrdə ilk dəfə olaraq İKT sektorunun hüquqi bazası da yaradılmışdır. 1998-ci il aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun imzalanmış və bu qanun İKT sektoru üçün ilk normativ hüquqi sənəd olmuş, kompüterləşmə prosesini stimullaşdırmışdır[4]. Bu qanundan sonra ümumitəhsil müəssisələrinə pulsuz kompüterlər paylandı. Bu proses Azərbaycanın bütün bölgələrinə şamil edildi.

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf sahəsində strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son illər ölkəmizdə güclü inkişaf müşahidə olunur. Prezident İlham

Əliyevin iqtisadiyyatın təbii ehtiyatlardan yüksək texnologiyalara keçidi ilə bağlı kursu öz bəhrəsini verməkdədir[5].

Dünyanın qabaqcıl ölkələrinin təcrübələrinə əsaslanaraq qeyd edə bilərik ki, elm və təhsili əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təchizatçısıdır. Bu siyasətin başlıca qüvvəsi olan informasiya-kommunikasiya texnologiyaları (İKT) son illər sürətlə inkişaf edərək bütün istiqamətlərdə insan fəaliyyətinin və sosial-iqtisadi əlaqələrinin özəyini təşkil edir. İKT-nin ən son nailiyyətləri idarəetmə, təhsil, səhiyyə, biznes və bank işi kimi sektorlarda tətbiq edilir və cəmiyyətin hər bir üzvünə mövcud imkanlardan yararlanmağa imkan verir. Bu nöqteyi-nəzərdən müasir texnologiyalar sahəsində dövlət siyasəti cəmiyyətin ictimai-siyasi təfəkkürünü qabaqcadan görməli və bu istiqamətdə gələcək onilliklər üçün strateji iş xəttini müəyyən etməlidir. Azərbaycan Respublikasında İKT-nin inkişafı üzrə dövlət siyasəti beynəlxalq təcrübəyə əsaslanır.

İnformasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətlərin texnoloji inkişafı izləməyi və yeni texnologiyaların mövcud sistemlərə inteqrasiyasını zəruri etmişdir. Bu sürətli inkişafdan əhəmiyyətli dərəcədə təsirinə məruz qalan sistemlərdən biri də təhsildir. Bundan əlavə, son illərdə qəbul edilən öyrənmə paradiqmaları təhsilin məzmununu dəyişmiş və bu vəziyyət ümumi təhsil müəssisələrinə də təsir etmişdir. Tədris mühiti üçün informasiya texnologiyalarının təmin etdiyi məlumatların çevikliyi və əlçatanlığı və təhsilimizin qabaqcıl ölkələrin təcrübəsinə inteqrasiyası zəruridir. Ümumitəhsil müəssisələrində informasiya texnologiyalarından düzgün istifadə, tədris prosesinin effektiv və səmərəli təşkilinə müsbət təsir edir. İnformasiya texnologiyalarının geniş tətbiqi öyrənənlərə müxtəlif gözləntiləri qarşılamaqla yanaşı, həyata fərqli baxış bucağından baxmağa kömək edir.

İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) inteqrasiyası ilə bağlı araşdırmalar olsa da, hətta yalnız inteqrasiya prosesini təsvir edən tədqiqatların mövcudluğuna baxmayaraq hər bir araşdırmada tədqiqatçıların bu istiqamətdə irəlilədiyi görünür. Tədqiqatçılar tədqiqatlarının sərhədlərini müəyyən etmək üçün inteqrasiyanın yeni tərifini təqdim edirlər. İKT-nin tədris və təlim

proseslərinə inteqrasiyasının dəqiq tərifinin olmamasının səbəbləri aşağıda üç məqamda ümumiləşdirilir:

*1. İKT inteqrasiyası- (İKT alətləri, müəllimlər, şagirdlər, məktəb rəhbərliyi və təhsil proqramları kimi) bir çox dinamikləri özündə birləşdirən mürəkkəb və çoxölçülü proses olması;*

*2. Tədqiqatçılar tərəfindən qəbul edilmiş (öyrənmə nəzəriyyələrinə əsaslanan) müxtəlif İKT inteqrasiyasının müxtəlif modellərinin müəyyən edilməsi;*

*3. Texnologiya və təhsilin qarşılıqlı təsiri nəticəsində İKT*-nin *inteqrasiyası prosesində daimi dəyişikliklər*[4].

Yuxarıda qeyd edildiyi kimi, texnologiya-təhsil əlaqəsinin öz xarakterinə görə davamlı yenilənməsi və inteqrasiya prosesinin çoxölçülü olması səbəbindən prosesin haradan qaynaqlandığını müəyyən etməyin faydalı olacağını iddia etmək olar.

## Ədəbiyyat


1. H. Ajan, R. "Hartshorn. Exploring Faculty Decisions on Implementing Web 2.0 Technologies: Theory and Empirical Tests. Internet and Higher Education", 2008, 11(2), 71-80.
2. M. Wee, Z.A.Bakar, “Barriers to the Use of ICT Tools in Teaching and Learning Information Systems in Malaysian Universities”, International Arab Journal of Information Technology, No. 3, July 2006, p. 203-209.
3. R. Chen, “Exploring patterns of technology use by primary teachers to support student-centered learning. Computers and Education”, 2010, 55 (1), 32–42.
4. Y. Baek, J. Jung, B. Kim. “What drives teachers to use technology in the classroom? Studying the Factors Affecting the Simplification of Technology on the Korean Example”. Comput. Education, 2008, 50(1), 224-234.

# DƏRSƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

***Cəmilə Vaqif qızı Kərimova***
***ADPU-nun nəzdnində Azərbaycan Dövlət***
***Pedaqoji Kollecinin müəllimi***
***camila.piriyeva@gmail.com***

Ümumi təhsilin məqsədi dövlətin təhsil-tərbiyə sahəsindəki məqsədindən irəli gəlir və onun bir parçası hesab olunur. Dərs təhsilin əsas təşkili formasıdır. Təhsil ailə, cəmiyyət, dövlət qarşısında məsuliyyətini dərk edən, başqalarının hüquqlarına və azadlıqlarına hörmət edən, müstəqil, sərbəst, mədəni, əxlaqlı vətəndaşın yetişdirilməsi məqsədini güdür. Dərs müəllimin bütün düşüncələri və hisslərini əks etdirir. Dahi pedaqoqlar dərsi günəşəbənzədir**.** Dərsə verilən tələblər çoxdur. Onları iki qrupa bölmək olar: ümumi və xüsusi tələblər. Dərsə verilən ümumi tələblər təlim prinsiplərində ifadə olunmuşdur. Dərsdə didaktik prinsiplər (həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir. Planetin Günəşin ətrafında dövr etdiyi formada, bütün tədris modelləri də dərsin ətrafında hərəkət edir. Dərs emosionallıq, təbəssüm, səmimiyyət vacib məna kəsb edir. Dərs müəllimin ümumi və pedaqoji mədəniyyətinin güzgüsü, onun əqli zənginliyinin ölçüsü, görüş darisəsinin, bilik səviyyəsinin göstəricisidir.

Xüsusi tələblər isə bilavasitə dərslə bağlı tələblərdir. Onları aşağıdakı əsas qruplara bölmək olar**:**

1. Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi əldə edilməlidir. Hər bir fəaliyyət nəticə ilə ölçülür. Dərsdə təhsil, tərbiyə və inkişaf vəzifələri vəhdətdə həyata keçirilməli, real nəticələr əldə edilməlidir. Proqram materialı dərsdə mənimsənilibsə, şagirdlər müəyyən ideya-mənəvi keyfiyyətlərə və zehni qabiliyyətə yiyələnibsə, belə dərsi yaxşı dərs hesab etmək olar.

2. Dərsdə təlim materialının optimal məzmunu müəyyən edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrdən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış edərək öyrənilən materialın həcmini, çətinlik dərəcəsini, başlıca məsələlərini, fənlərarası əlaqə

imkanlarını müəyyənləşdirməli, dərs zamanı məzmunun mənimsənilməsinə nail olmalıdır.

3. Dərsdə səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Dərsin məqsəd və məzmununa, şagirdlərin dərketmə imkanlarına uyğun olaraq müvafiq metod və vasitələr kompleksi müəyyənləşdirilir. Dərs o zaman səmərəli olur ki, müəllim biliyi hazır şəkildə şərh etməsin, şagirdləri fəal axtarışlara cəlb etsin, onların müstəqil fikrini oyatsın. Bu məqsədlə dərsdə problem vəziyyət yaratmaq, evristik müsahibə və diskussiyalar aparmaq, kitab üzərində yaradıcı iş təşkil etmək, təfəkkürə qida verən məntiqi metodlara (müqayisə, təhlil-tərkib, ümumiləşdirmə və s.) istinad etmək yaxşı nəticə verir. İki paralel sinifdə eyni mövzuda, eyni metodik variantda keçilən dərs müxtəlif nəticə verir: bir sinifdə müəllimin dərsi alınır, digərində yox.

4. Dərs təşkilati cəhətdən mütəşəkkil və çevik olmalıdır. Dərs təşkilati mütəşəkkilliyi ilə seçilməlidir: vaxtında başlanmalı, yüksək intizama əsaslanmalı, optimal tempdə olmalı, intensiv qurulmalıdır (yəni az vaxtda yüksək nəticə əldə edilməlidir).

Dərs həm də çevik qurulmalı, şablon və sxematizmdən uzaq olmalıdır. Dərs zamanı vəziyyətdən asılı olaraq, müəllim dərsin məzmununda, quruluşunda, vaxt bölgüsündə çevik dəyişikliklər aparmalıdır.

Yaxşı dərs məntiqi və psixoloji cəhətdən tam olmalıdır, yəni dərsdə müəyyən bir məntiqi hissə öyrədilməli (məntiqi tamlıq), şagirdlər nəyi isə tam öyrəndiklərini hiss etməli, onlarda yarımçılıq hissi qalmamalıdır (psixoloji tamlıq).

Dərsdə əks əlaqə yaradılmalıdır; müəllim şagirdlərin hissi aləmi, təlimə münasibəti, marağı, mənimsəmə səviyyəsi haqqında vaxtında informasiya əldə etməlidir.

5. Dərsdə əlverişli psixoloji iqlim, müsbət emosional vəziyyət yaradılmalıdır. Dərsin səmərəsi onun emosional mühiti ilə sıx bağlıdır: mənfi emosiyalar (qorxu, inamsızlıq, kədər və s.) şəraitində keçən dərs cansıxıcı, yorucu və səmərəsiz olur. Dərsdə müəllim və şagirdlər arasında qarşılıqlı hörmət, inam, pedaqoji əməkdaşlıq, xoş əhval-ruhiyyə, müsbət zehni hisslər (şadlıq, təlim sevinci, inam, təəccüb və s.) hakim olmalıdır.

Göstərilən tələblərə cavab verən dərs yaxşı dərs hesab olunur; belə dərsdə yüksək səmərə, müsbət təlim-tərbiyə nəticələri əldə edilir.

## ALTERNATİV QİYMƏTLƏNDİRMƏ ÜSULLARININ AKADEMİK NAİLİYYƏTƏ, DAVAMLILIĞA, DAVRANIŞ VƏ MÜNASİBƏTƏ TƏSİRİ

***Arzu Nemət qızı Baxşəliyeva***
***ADU-nun Pedaqogika kafedrasının müəllimi,***
***Azərbaycan Respublikasının Təhsil İnstitutu, doktorant***
***arzubaxseliyeva555@mail.ru***

Alternativ qiymətləndirmə üsullarından istifadə şagirdlərin dərsə marağını artırmaqla yanaşı, tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Qiymətləndirmə şagirdləri daha diqqətli olmağa, verilən tapşırıqları həvəslə yerinə yetirməyə sövq etdiyindən onlarda dəqiqlik, özünə qarşı tələbkarlıq, kollektivçilik kimi keyfiyyətləri formalaşdırır. Qiymətləndirmə üsulları kurrikulumun məzmununda xüsusi yer tutur. Belə ki, dünya təcrübəsində dəyərləndirmə məsələlərinə şagird nailiyyətinin obyektiv qiymətləndirilməsi vasitəsi kimi baxılır. Hər bir fənn kurrikulumunun son bölməsini əhatə edən qiymətləndirmə məsələləri təhsilimizdə yeni yanaşma tərzini əks etdirir. Yeni kurikulum konstruktivist öyrənmə nəzəriyyəsinə əsaslanan şagird mərkəzli proqramdır. Bu anlayışa əsaslanan kurrikulumun məqsədi, məzmunu və təhsil sahəsində edilən yenilikləri ölçmə və qiymətləndirmə üsullarında bir sıra dəyişiklikləri zəruri edir. Konstruktivist nəzəriyyəyə əsaslanan proqramın qiymətləndirmə bölməsində şagirdlərdə baş verən dəyişiklikləri, nailiyyətləri ölçməklə yanaşı, onların necə öyrəndiklərini də nəzərə alınması labüddür. Bu kontekstdə şagirdlərin akademik nailiyyətlərinin qiymətləndirilməsində məhsulyönümlü ənənəvi qiymətləndirmə üsulları ilə yanaşı prosesyönümlü qiymətləndirmə üsullarından da istifadə etmək zərurəti yaranır. Bu anlayışlara əsaslanan ölçmə və qiymətləndirmə mexanizmi bu gün yalnız ənənəvi məhsulyönümlü

qiymətləndirmə üsullarının tətbiqi ilə məhdudlaşa bilməz. Bu zaman "öyrənmə üçün qiymətləndirmə" (formativ qiymətləndirmə) anlayışına əsaslanan məhsulyönümlü qiymətləndirmə (summativ qiymətləndirmə) metodları ilə əlaqələndirilərək prosesyönümlü qiymətləndirmə üsulları ilə əvəzlənir. Prosesyönümlü qiymətləndirmə üsulları ədəbiyyatda alternativ ölçmə-qiymətləndirmə metodları kimi də qeyd olunur. Şagirdlərin təlim prosesində affektiv, psixomotor, sosial və idrak bacarıqlarını nəzərə alan alternativ qiymətləndirmə üsulları, eyni zamanda öyrənənlərin fərdi ehtiyaclarını müəyyən etmək üçün funksionaldır.

Alternativ qiymətləndirmə üsulları ənənəvi ölçmə və qiymətləndirmə metodlarından daha çox real həyatla əlaqəlidir və şagirdlərin, problem həll etmə, yaradıcılıq, tənqidi düşünmə bacarıqlarını ön plana çəkir. Əsas alternativ qiymətləndirmə metodlarına: *şagird gündəliyi(məktəbli kitabçası), özünüqiymətləndirmə, həmyaşıdların qiymətləndirilməsi, qrup qiymətləndirməsi, təqdimat tapşırıqları, portfoliolar (şagird məhsul faylı), rubrik şkala, münasibət şkalası, müşahidə formaları, müsahibə posterləri* aiddir [2]. Konstruktivist təlim nəzəriyyəsinə əsaslanan təhsil proqramlarının qiymətləndirmə mexanizmində şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan və onların nailiyyətlərinin qiymətləndirilməsinə əsaslanan proses yönümlü alternativ və qiymətləndirmə metodlarından istifadə etmək tövsiyə olunur. Lakin ölkəmizdə tətbiq edilən yeni kurikulumla bağlı aparılan bir çox tədqiqatlarda qiymətləndirmə ilə bağlı problemlərin olduğunu (müəllimləri ən çox narahat edən mövzunun qiymətləndirmə olduğunu) görürük. Alternativ qiymətləndirmə üsulları ilə həm təhsildə, həm də təlimin qiymətləndirmə mərhələsində şagirdlərin prosesdə iştirakını təmin etmək mümkündür. Şagirdlərin qiymətləndirilməsi kimi xüsusilə ifadə olunan özünüqiymətləndirmə, şagird gündəlikləri, həmyaşıdların qiymətləndirilməsi və qrup qiymətləndirmə üsulları şagirdlərin qiymətləndirmə prosesində iştirakını təmin edən alternativ qiymətləndirmə üsullarıdır:

*Özünüqiymətləndirmə* ilə şagirdin öyrənmə məsuliyyətini üzərinə götürməsi və öyrənmənin effektiv olması üçün təlim prosesinin hər bir mərhələsində şagirdlərin fəal iştirakı təmin edilir.

Özünüqiymətləndirmənin uğurla həyata keçirilməsi üçün müəllim bu qiymətləndirmə metodu haqqında kifayət qədər biliyə malik olmalı, onun vasitələrini, növlərini, eyni zamanda təşkilinə qoyulan tələbləri bilməlidir. O, təlim prosesinin tərkib hissəsi kimi qəbul edilməli, sistemli və ardıcıl şəkildə həyata keçirilməlidir. Müəllimlərin özünüqiymətləndirmə üzrə hərtərəfli biliyə malik olması üçün metodiki tövsiyələr hazırlanmalı, xüsusən də dərslik komplektinin mühüm tərkib hissəsi olan metodiki materiallarada geniş yer ayrılmalıdır. Eyni zamanda, şagirdlərə özünüqiymətləndirmə öyrədilməli və bu, təlim prosesinin mühüm hissəsinə çevrilməlidir.

*Şagird gündəliyi (məktəbli kitabçası)* vasitəsilə şagirdlər proseslə bağlı hiss və düşüncələrini ifadə etmək, prosesi yenidən nəzərdən keçirmək, müəllimləri ilə yazılı şəkildə ünsiyyət qurmaq imkanı əldə edirlər. Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı “müəllimin formativ qiymətləndirmə dəftərində” və “məktəbli kitabçasında” müvafiq yazılı qeydlər aparılır. Formativ qiymətləndirmə zamanı rəqəmlərdən istifadə olunması yolverilməzdir. Bu, “məktəbli kitabçasında” qiymət yazılmır mənasına gəlmir. Həm özünüqiymətləndirmə, həm də şagird gündəlikləri ilə şagirdlər özünütənqidi perspektivləri inkişaf etdirə, refleksli düşünmə bacarıqlarını artıra bilərlər. Şagirdlər qiymətləndirmə prosesində nəyi nə qədər bacardıqlarını və ya hansı bilik və bacarıqlara qadir olduqlarını dərk edə, özünəinamları inkişaf etdirə bilirlər.

*Həmyaşıdların qarşılıqlı və qrup qiymətləndirmələrində* şagirdlərin fikirləri nəzərə alınır. Həmyaşıdların və qrupların qiymətləndirilməsi zamanı şagirdlərə həmyaşıdları ilə qarşılıqlı əlaqədə olmağa imkan verilir və şəxsiyyətin koqnitiv, eləcə də sosial aspektlərinin inkişafına töhfə verilir. Braun və Vang qeyd edir ki, şagirdləri başa düşmək üçün onların inamlarını, münasibətlərini, təcrübələrini və qiymətləndirməyə reaksiyalarını bilmək vacibdir [3]. Vikers, Braun və Veldkamp isə hesab edirlər ki, şagirdlər bəzən müəllim qiymətləndirmələrinin obyektiv və ədalətli olmadığını düşünürlər [3]. Qrup qiymətləndirmələrində öyrənənlər də prosesə daxil edildiyi üçün müəllimlər öyrənənlərin fikirlərini daha dərindən öyrənmək imkanı əldə edirlər. Nəhayət alternativ qiymətləndirmə üsulları ömür boyu öyrənmə haqqında məlumatlılığı təşviq edir və

şagird qiymətləndirmələrinin akademik nailiyyətlərə, münasibətə və özünü effektivliyə təsir etdiyini görürük. Alternativ qiymətləndirmə üsullarından istifadə şagirdlərin dərsə marağını artırmaqla yanaşı, tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Qiymətləndirmə şagirdləri daha diqqətli olmağa, verilən tapşırıqları vicdanla yerinə yetirməyə sövq etdiyindən onlarda dəqiqlik, özünə tələbkarlıq, kollektivçilik kimi keyfiyyətlər formalaşdırır. Alternativ qiymətləndirmə üsulları şagirdlərin fənnə münasibətini, nailiyyətini artırmaqda effektiv rol oynaya bilər.

## Ədəbiyyat


1. A.Carroll, S.Houghton, R.Wood, K.Unsvorth and başqaları. Self-efficacy and academic achievement in Australian high school students: the mediating effects of academic aspirations and delinquency. Journal of Adolescence, 2009, 32(4), 797-817.
2. A.Oliveira. “Poster presentation and learning log: Alternatives in Assessment at undergraduate and graduate levels”. Signótica, 2008, 20(2), 235-252.
3. G.Brown & Z.Wang, “Illustrating assessment: How Hong Kong university students conceive of assessment‘s purposes. Studies in Higher Education”, 2014, 39(2), http://www.academia.edu/842641
4. J.Chamoso, M.Caceres. “Analysis of the reflections of studentteachers of mathematics when working with learning portfolios in Spanish University classrooms. Teaching and Teacher Education”, 2008, 25(1), 198-206.

# TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV NƏZƏRİ İRSİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Almaz Hacıbaba qızı Əhmədova***
***ADPU-nun Məktəbəqədər kafedrasının müəllimi***
***gulshan.salimova.81@mail.ru***

Azərbaycan Təhsilinin inkişafı Ulu Öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin təhsil sahəsinə daim diqqət və qayğısı, onun inkişafı və tərəqqisi üçün göstərdiyi xidmətlər unudulmazdır.

Ulu öndər Heydər Əliyevin - *"Təhsil millətin gələcəyidir"* – fikri millətin millət kimi yaşamasına, inkişafına və tərəqqisinə istiqamətlənmişdir. O yaxşı bilirdi ki, təhsilsiz millət irəli gedə bilməz və müstəqil xalq kimi heç formalaşa bilməz və başqa xalqların köləsinə çevrilər. Dahi rəhbərimiz bu həqiqət çox yaxşı bilərək deyirdi ki, təhsil millətin gələcəyi və müstəqil dövlətin təməlidir. Bəşər tarixində silinməz iz qoymuş dahi şəxsiyyətlər məhz elmin, təhsilin sayəsində dahilik rütbəsinə yüksəlmişlər.

Müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin əsəridir. Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksəlməsində, milli və bəşəri dəyərlərin mənimsənilməsində ulu öndərimiz Heydər Əliyevin misilsiz fəaliyyəti və xidmətləri olmuşdur. Heydər Əliyev deyirdi: *"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir".*

Ulu öndərimiz Heydər Əliyev yaşadığımız bütün dövrlərə lazımi dəyər və qiymət vermiş, keçmiş tariximizi öyrənməyi və dərindən öyrənməyi tədqiqatçılarımıza tövsiyə etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Umumrespublika Forumundakı nitqində demişdir: *"Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə də*

*yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır... Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasmda tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz"(1,5).*

Ulu öndərimizin müdrik fikirlərindən irəli gələrək, yetişməkdə olan gənc nəslin milli-mənəvi ruhda tərbiyəsi, təlim və tərbiyə işlərinin milli zəmin üzərində qurulması, tariximizin, mədəniyyətimizin, pedaqoji fikrimizin, zəngin mənəvi irsimizin öyrənilməsi bu gün daha böyük akttuallıq kəsb edir. Klassiklərin müdrik fikirlərinin öyrənilməsi bu gün, müasir dövrdə təhsilimizin inkişafında, modernləşməsində böyük əhəmiyyətə malikdir. Çünki klassiklərin fikirləri yalnız öz dövrləri üçün deyil, həmçinin gələcəyə istiqamətlənmiş fikirlərdir. Onlar təhsilin gələcəyini görərək müdrik ideyalar irəli sürmüşlər. Bu fikirləri gənc nəslimiz öyrəndikcə öz keçmişindən qürur duyur. Ulu Öndər Heydər Əliyev deyirdi: "*Nəslimiz öz milli-mənəvi dəyərlərini öyrəndikcə öz keçmişindən qürur duyur və onlarda öz soyuna, kökünə, millətinə bağlılıq daha da möhkəmlənir" (2, 136).*

Təhsilıimizin bu gününü öyrənmək və klassik pedaqoji fikrimizin keçmişini öyrənmək, təhsilin hazırkı vəziyyətini müqayisə edib öyrənməyə kömək edir. Keçmiş irsimizə nəzər saldıqda bu günün nailiyyətlərinin keçmişdən qidalandığını, ondan qüvvət aldığını da görürük. Bu gün müdrikcəsinə deyilmiş bir fikrin keçmiş mütəfəkkirlərimiz tərəfindən bu və ya digər formada deyildiyini də bəzən görmək olur. Keçmişlə müasirliyi düzgün uzlaşdırmadan, onu düzgün dəyərləndirmədən, müqayisə etmədən bu günkü məktəbimizin və pedaqoji fikrimizin səviyyəsini müəyyənləşdirmək çətindir.

Ulu öndərimiz Heydər Əliyev həm qədim tariximizi, həm də yaxın keçmişimizi də öyrənməyi məsləhət görürdü. O XX əsr tədqiq

etdiyimiz dövrün xüsusiyyətlərini ümumiləşmiş şəkildə belə səciyyələndirirdi: "1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir" (2,55).

**Ədəbiyyat**


1. Əliyev Heydər. Müstəqil Azərbaycan Respublikasının gənclərinin Birinci forumunda Azərbaycan Respublikasının Prezidentinin çıxışı // Azərbaycan məktəbi, 1996, № 2, s. 5.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 324 s.
3. Hüseyznadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU. 2021, 538 s.


# KİÇİK MƏKTƏBLİ YAŞLI AUTİZMLİ UŞAQLARIN TƏLİM PROSESİNDƏ FƏRDİ TƏLİM PROQRAMININ HAZIRLANMASININ ƏHƏMİYYYƏTİ


***Xəzər Universiteti***
***Kəmalə İbrahim qızı Əliyeva***
***k.aliyevaugur @gmail.com***


Fərdi Təlim Proqramı təlim prosesində öyrənmənin effektivliyini təmin edir. Sinifdə təhsil alan şagirdlərin çoxluğunu, öyrənmə bacarıqlarının fərqliliyini nəzərə alaraq autizmli uşaqlar üçün pedqoq tərəfindən Fərdi Təlim Proqramı hazırlanmalıdır. Fərdi Təlim Proqramında əhatə olunanlar aşağıdakı kimidir :

- Uzunmüddətli hədəflər
- Qısamüddətli hədəflər
- Bunların yerinə yetiriləcəyi müddətin təyin olunması
- Uzun müddətli və qısa müddətli hədəfləri öyrətmək üçün istifadə olunacaq metodlar və materiallar

Xüsusilə qeyd olunmalıdır ki, Fərdi Təlim Proqramı dəyərləndirmənin nəticələrinə əsasən tutulur. Dəyərləndirmə prosesi

nə qədər diqqətlə edilərsə tərtib olunacaq Fərdi Təlim Proqramı daha uğurlu olacaq. Dəyərləndirmənin köməkliyi ilə uşağın hazırki bilik , bacarıq səviyyəsi müəyyən ediləcək və ona öyrədilməsi hədəflənəcək bacarıqlar müəyyən olunacaq. Pedaqoq tərəfindən bir neçə aydan bir aparılan dəyərləndirmə nəticəsində isə uşaq üçün hazırlanmış Fərdi Təlim Proqramının irəlləyib- irəlləmədiyi ortaya çıxacaq.

Fərdi Təlim Proqramı şagird üçün əhəmiyyətlidir ona görə ki, onunla planlı şəkildə işlənilir, onun fərdi xüsusiyyətləri nəzərə alınır, alternativ metodların olması öyrəniləcək materialın daha tez mənimsənməsinə yardımçı olur. Pedoqoq üçün əhəmiyyəti ondan ibartdir ki, o, zamanı düzgün istifadə edəcək , əvvəlcədən təlim prosesinin sxeminə sahib olmuş olacaq. Bu isə prosesi daha məhsuldar edə bilər.

Qarşıya sual çıxır . Bəs hədəfləri tərtib edərkən nəyə əsasən və necə etməliyik ? İlk növbədə qoyulan hədəflər inkişaf səviyyəsinə uyğun olsun. Hədəflər ölçülə bilən olmalıdır. Məsələn, şagird bir təlim tədris ili müddətində hərfləri öyrənəcək kimi hədəf qoymaq doğru olmaz. Bunun əvəzinə şagird təlim tədris ili müddətində hərfləri adlandırar və yazar şəklində olmalıdır. Nəzərə alaq ki, sayar , yazar , göstərər , söyləyər kimi anlayışlar ölçülə bilən anlayışlardır. Bilər, anlayar, öyrənər, inanar kimi anlayışlar isə ümumidir və ölçülə bilən deyil. Məsələn, öyrənər olduqca geniş anlayışdır. Hərf öyrənər demək onu adlandırmaq , yazmaq , o hərfi sözdə tanımaq, üzündən oxumağı ehtiva edir. Bu səbəbdəndə daha konkret anlayışlardan istifadə olunmalıdır.

Hədəf müəyyən etmədə şagirdin və ya az yaşlının yetərsizlik dərəcəsi nəzərə alınmalıdır. Ağır yetərsizliyi olan şagirdlə , yüngül yetərsizliyi olan şagird üçün müəyyən edilən uzun müddətli və qısa müddətli hədəflər bir birindən fərqlidir.

Fərdi Təlim Proqramının tərtiib olunması istər xüsusi məktəbdə , istərsədə inkluziv məktəbdə təhsil alan uşaqlar üçün önəmlidir. Fədi Təlim Proqramı adındanda görüldüyü kimi fərdiliyi əhatə edir.

Fərdi Təlim Proqramı tərtib olunarkən valideynin iştirakı vacibdir. Çünki hədəflər qoyularkən valideynin istəklətri nəzərə alınır. Onların gündəlik həyat şəraitini asanlaşdıran bacarıqların öyrədilməsinə üstünlük verilir. Bu həm də ona görə vacibdir ki, Fərdi

Təlim Proqramının tərtib edilməsində iştirak edən valideyn ev tapşırıqlarının edilməsi prrosesinə də qoşulacaq, şagirdlə təkrarlar edəcək . Bu isə öyrənməni sürətləndirəcək. Deməli həm proqramın hazırlanmasını prosesində , həm də ev tapşırıqlarının edilməsində valideynin iştirakı əsasdır.

Fərdi Təlim Proqramı tutularkən orda hansı dəyərləndirmə metodlarından istifadə edəcəyimiz qeyd olunur. Müşahidə, kontrol listi, informal dəyərləndirmə texnikaları, beynəlxalq dəyərləndirmə vasitələri bura daxildir.

Fərdi Təlim Proqramı şagird üçün tədrisin fərdiləşməsinə yəni onun fərdi xüsusiyyətləri nəzərə alınaraq yanaşmaya gətirib çıxarır.

Bu prosesdə tədrisin fərdiləşdirilməsinin önəmi nədir?

Sinifdə bütün şagirdlərinin öyrənməsini hədəfləyən müəllim şagirdlərinin ehtiyaclarına uyğun tənzimləmələri və tətbiqatları qura bilən pedaqoqdur. Burada əsas məqsəd şagirdin təlim prosesinə aktiv qatılmasını təmin etməkdir. Bəzən xüsusi qayğıya ehtiyacı ola şagirdlər sinifdə izləyici rolu oynayır , dərs sırasında, tənəffüslərdə aktiv ola bilmir. Belə olduqda şagirddə özünə inamsızlıq yaranır, sosiallaşa və öyrənə bilməkdə çətinlik çəkir.

Tədrisin fərdiləşdirilməsi Fərdi Təlim Proqramının bir hissəsidir. Tədris fərdiləşdirilən zaman öyrənməyə təsir edən amilləri şagirdin fərdi xüsusiyyətləri nəzərə alınaraq tənzinmlənməsidir. Nümunə olaraq bunları qeyd etmək olar . Fiziki mühitin - səs , işıq və s nəzərə alınması , autizmli uşaqların sensor həssaslığını diqqətə alaraq tədris prosesinin qurulması. Xüsusi qayğıya ehtiyacı olan şagirdin müəllimə daha yaxın əyləşməsi , onun yanında az hərəkətli , koqnitiv bacarıqları yüksək şagirdin əyləşməsi.

Deməli yuxarda qeyd edilənlərdən aydın oldu ki, Fərdi Təlim Proqramının tərtibi həm akademik bacarıqların öyrədilməsini təmin edəcək , həm də şagirdin sinifə adaptasiyasını daha tezləşdirəcək.

# DƏRS TƏLİMİN ƏSAS TƏŞKİLİ FORMASI KİMİ

***Humay Dilman qızı Səfərova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi***
***humay.safarova@mail.ru***

Bütün uşaqların ehtiyaclarına cavab verən düzgün öyrənmə mühitinin yaradılması təhsildə çox komponentli strategiyalardan asılıdır. təhsil strategiyalarının düzgün tətbiqi uşaqlara cəmiyyətin müxtəlifliyini, sosial ədalətini, bərabərliyini dərk etməyi və qiymətləndirməyi, bir-biri ilə daha yaxşı rəftar etməyi öyrədir. Təlimin əsas təşkili forması olan dərs prosesi bu işi tam üzərinə götürməli şagirdlərin bilik, bacarıq və maraqlarını təmin edən tədris prosesi qurmalıdır.

Dərsin keyfiyyəti onun hansı formada təşkilinə çox bağlıdır.Dərsin məqsəd və məzmunu onun təşkili formalası ilə reallaşdırılır. Məzmun formanı müəyyənləşdirir və onunla reallaşır. Buna görə də təlimin keyfiyyətli formalarının seçilməsi böyük mənaya sahibdir.Təlimin təşkili forması bütöv təlim prosesinin mühüm hissələrindən biridir. Təlimin təşkili forması müəllim vəşagirdlərin müəyyən qaydada və rejimdə reallaşan birgə fəaliyyətinin ifadəsidir.

Müasir təhsil paradiqminin dəyişməsi, təlimdə inklüzivliyin ön plana çəkilməsi, tədris proqramlarında diferensiallaşmanın nəzərə alınması istedadlı şagirdlərlə fəaliyyətin tənzimlənməsi məsələsinə yeni baxış gətirmişdir. Müəllimin peşəkarlığı da istedadlı uşaqlarla səmərəli fəaliyyətə təsir göstərən amillərdəndir. Təlim-də inklüzivliyi tətbiq edən müəllim “müdaxilə strategiyalarından” yararlanmalıdır. Həmin strategiyaların tətbiqi çərçivəsində xüsusi proqram hazırlanmalı, sinifdə və ya sinifdənxaric mühitdə həyata keçirilməlidir. Tapşırıqların mürəkkəbləşdirilməsi fənnin daha dərindən öyrənilməsi, müxtəlif layihələrin yerinə yetirilməsi və intellektual vəzifələrin genişləndirilməsi ilə mümkündür.

Bilik, bacarıq və vərdişlər əsasən dərsdə verilir, şəxsiyyətin ahəngdar tərbiyəsinin də əsası (zehni, ideya-mənəvi, estetik, əmək,

fiziki və b.) dərslərdə qoyulur. Buna görə də dərs təlimin və tərbiyənin əsas təşkili forması sayılır. Pedaqoji ədəbiyyatda belə bir haqlı müqayisə aparılır ki, günəş bir damla suda əks olunduğu kimi, təlimin bütün cəhətləri də dərsdə əks olunur. Buna görə də müəllim dərsin nəzəriyyəsi və təcrübəsinə yaxşı yiyələnməli, onu müasir tələblər əsasında qurmağa çalışmalıdır.

Dərs sinif şəraitində sabit tərkibdə müəyyən rejimlə cərəyan edən, müəllim və şagirdlərin bilavasitə qarşılıqlı fəaliyyətinə əsaslanan təlimin məqsədyönlü kollektiv təşkili formasıdır.

Dərs təlimin digər formaları üçün bünövrə təşkil edir: dərsdə material nə qədər yaxşı mənimsənilərsə, digər formaların (ev tapşırıqları, seminar məşğələləri, əlavə məşğələlər və s.) da səmərəsi yüksək olar.

Dərsi lazımi səviyyədə qurmaq üçün onun tiplərini bilmək və düzgün təşkil etmək lazımdır. Dərsin tipləri dərsdə yerinə yetirilən əsas didaktik məqsədə görə müəyyən olunur. Hazırda dərsin dörd tipi fərqləndirilir:

- **Yeni bilik verən dərs**
- **Tətbiqetmə (və ya çalışma) dərsi**
- **Möhkəmlətmə dərsi**
- **Yoxlama dərsi**

Pedaqoji ədəbiyyatda bəzən mürəkkəb (kombinəedilmiş və ya birləşmiş) dərs tipi də irəli sürülür. Bu dərs tipində bir neçə məqsəd olsa da, əsas məqsəd yeni bilik verməkdir. Buna görə də onu birinci tipə aid etmək daha düzgün olardı.

Hər bir dərs tipinin özünəməxsus quruluşu vardır. Məsələn, yeni bilik verən dərs tipinin təxmini quruluşu belədir:

1. Ev tapşırığının yoxlanması, qiymətləndirmə
2. Yeni mövzu ilə bağlı müstəqil iş
3. Mövzunun həyati əhəmiyyətinin izahı (motivləşdirmə)
4. Yeni mövzunun mənimsədilməsi
5. Yeni materialın möhkəmləndirilməsi
6. Dərsə yekun vurulması və ev tapşırığının izahı

Dərsin quruluşu, mərhələlərin miqdarı və ardıcıllığı təxminidir. Fənn, mövzu və sinifdən, dərsin məqsədindən, şagirdlərin səviyyəsindən asılı olaraq dərslər müxtəlif variantlarda qurula bilər.

Canlı və yaradıcı proses olan dərsi heç bir universal, standart quruluşla məhdudlaşdırmaq olmaz.

Hər bir dərs müəllimin pedaqoji-metodik simasını ifadə edir; müəllimə, əsasən, keçdiyi dərslərə görə qiymət verilir. Odur ki, müəllim hər bir dərsə böyük məsuliyyətlə yanaşmalı, onu yüksək səviyyədə qurmağı bacarmalıdır. Bunun üçün dərsə verilən müasir tələbləri yaxşı bilmək və onları düzgün tətbiq etmək lazımdır.

## EKOLOJİ TƏHSİLDƏ İNKLUZİV YANAŞMALAR

***Səbinə Oktay qızı Sadıqova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi***
***sabinasadigova20@gmail.com***

Ekoloji təhsildə inklüzivliyin təmin olunması dedikdə, irqindən, dinindən, dilindən, milli mənsubiyyətindən, cinsindən, əqli və fiziki imkanlarından, sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq bütün şagirdlər üçün eyni təlim şəraitinin yaradılması nəzərdə tutulur. İnklüziv təhsil istedadı, əlilliyi, öyrənmə çətinliyi olan və s. uşaqların tipik uşaqlarla birgə təhsilalma formasıdır. Çünki, bütün şagirdlərin birgə öyrənməsi sayəsində əlilliyi olan uşaqlar cəmiyyətdə həyat üçün hazırlaşmaq şansı əldə edirlər. Bu baxımdan da inklüziv təhsil daha geniş ictimai tanınmanı, sülhü və əməkdaşlığı təşviq etməyin ən yaxşı metodudur. Bu əsasda müasir kurikulum tərtib edilərkən müvafiq ekoloji təhsildə də yaş, maraq, psixologiya və konkret cəmiyyətin ehtiyacları nəzərə alınmalıdır. Kurikulumda bərabərlik və anlayışlar elə tənzimlənməlidir ki, burada bütün uşaqların gizli istedadlarını üzə çıxarmaq və gələcək həyatlarında uğur qazanmaları üçün fikirlərini, düşüncələrini inkişaf etdirmək mümkün olsun.

Sadalananları nəzərə alaraq kurikulum şagirdlərin ehtiyaclarını qarşılamaq üçün daim dinamik olmalı və özündə aşağıdakıları ehtiva etməlidir:

- Kurikulum davamlı, dinamik bir proses kimi nəzərdən keçirilməli, planlaşdırılmış dəyişikliyə həmişəhazır olmalıdır.

- Kurikulum elə dizayn olunmalıdır ki, müxtəlif vəziyyətlərə tətbiq oluna bilsin.
- Kurikulum hazırlığı prosesində müəllim əsas iştirakçı olmalıdır. Bu amil müxtəlif öyrənmə imkanlarına malik olan şagirdlər üçün vahid kurikulumun hazırlanmasında vacib şərt hesab olunur.
- Kurikulumun müxtəlif ehtiyaclara malik şagirdlərə tədris edilə bilməsi üçün universal məzmunamalik olmalıdır.
- Kurikulum şagirdlərin fərdi təlim ehtiyaclarının ödənilməsinə yönəlmiş müşahidə oluna bilən, əlçatan, aydın və anlaşılıqlı olmalıdır.

Ekoloji təhsildə görmə, eşitmə, nitq qüsuru (əlilliyi) olan şagirdlər tipik uşaqlarla vahid kurikulumlar əsasında tədrisə cəlb olunsa da, onların intellektual geriliyi (əlilliyi) olan şagirdlərin qabiliyyətini və bacarığını nəzərə alan xüsusi kurikulumun olması məktəbdə səmərəli öyrənməni təmin etmək üçün vacib şərtdir.

İnklüziv kurikulum bütün təhsilalanların fərqli tələbatlarını, əvvəlki təcrübələrini, maraqlarını və şəxsi keyfiyyətlərini nəzərə alır. Bu kurikulum imkanlarından asılı olmayaraq bütün şagirdlərə bərabər təhsil imkanları yaradır. Kurikulum ancaq təhsil planlaşdırmasından ibarət deyil. O, özündə planlaşdırmanın bir neçə mərhələsini – öyrənilməsi nəzərdə tutulan məzmunu, həmin məzmunu reallaşdırma texnologiyaları və qiymətləndirməni özündə ehtiva edir ki, bunların da hər biri kurikulumun inklüziv olmasına təsir edir. Planlaşdırılmış kurikulum isə şagirdlərin qavramalı olduğu məzmundur. Təcrübə göstərir ki, bu məzmunun mənimsənilməsi sosial vəziyyət, mədəniyyət normaları və sairədən də asılı ola bilər.

Tez-tez pedaqoji mətbuatda kurikulumda inklüziv yanaşmanın necə olması ilə bağlı mübahisə doğuran məsələlər müzakirə olunur. Vahid fikir ondan ibarətdir ki, mənşəyindən və bacarıq səviyyəsindən asılı olmayaraq bütün şagirdlərə eyni təhsil imkanları yaradılmalıdır. Ona görə kurikulumlar hazırlanarkən bütün maraqlı tərəflərin fikirlərinin, ehtiyac və tələbatlarının nəzərə alınması vacibdir. Təkcə Təhsil Nazirliyi və Təhsil İnstitutu deyil, şagird, valideyn, müəllim və alimlər də öz mövqelərini ortaya qoymalı, bu işin daha səmərəli yerinə yetirilməsi üçün bütün səy və bacarıqlarını əsirgəməməlidir.

Məktəblərə səfərlər zamanı mentorlar məktəb heyəti (direktor, ibtidai sinif müəllimi, korreksiyaedici pedaqoq, məktəb psixoloqu və digər fənn müəlimləri) və əlilliyi olan şagirdlərin valideynləri ilə görüşlər keçirmiş, inklüziv təhsilin vəziyyəti ilə maraqlanaraq müvafiq məlumatlar əldə etmişlər. Bununla yanaşı, dərslərdə iştirak edən mentorlar əlilliyi olan şagirdlərin sinifdə davranışı, adaptasiyası, sinif yoldaşları ilə ünsiyyəti, həmçinin onların akademik nailiyyətlərini və təlim zamanı üzləşdikləri çətinlikləri müşahidə etmişlər. Alınmış məlumatlar əsasında mentorlar situasiyadan asılı olaraq dərhal müəyyən məsələləri həll etməyə çalışmışlar:

- məktəb kollektivi tərəfindən əlilliyi olan şagirdlərə və ümumilikdə, əlilliyə sosial yanaşma təşviq edilmiş;
- inklüziv təhsilin keyfiyyətli şəkildə həyata keçirilməsi üçün məktəb heyətinin rol və vəzifələri birdaha izah edilmiş;
- inklüzivliyə zidd olan məqamlar aşkarlandıqda onların aradan qaldırılması üçün müvafiq tövsiyələr verilmişdir.

## MƏKTƏBƏQƏDƏR TƏHSİL İNKİŞAFETDİRİCİ TƏLİM PARADİQMASINDA

***Şərafət Aram qızı Baxışova***
***ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrası nın dosenti, pedaqogika üzrə elmlər doktoru***
***sharafat_baxishova1960@mail.ru***

Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişaf səviyyəsi öyrənmə marağına, biliyə yiyələnmək, biliyi dərk etmək qabiliyyəti və s. sahələrdə özünü göstərir ki, bu da uşağı əhatə edən inkişafetdirici mühitdən çox asılıdır.

Təlimin inkişafetdirici məqsədi psixoloji aspekti reallaşdırır və uşaqların fəaliyyət prosesində qazandıqları təcrübə mənimsəmə

yolu ilə həyata keçirilir ki, bu da tərbiyəçinin istiqamətverici rolu ilə, uşaqların birgə fəaliyyəti zamanı özünü büruzə verir.

Beləliklə, inkişafetdirici təlimin texnologiyasının modeli elə təqdim edilməlidir ki, tərbiyəçi təlim prosesinin təşkilində bütün səylərini özünüinkişafa və şəxsiyyətin inkişafına yönəltsin.

Məktəbəqədər təhsilin məzmunu sistemli xarakter daşımalıdır. Bu, uşağın dərk etdiyi obyekt və hadisələr arasındakı qarşılıqlı əlaqəni təmin edir. Bununla uşağın idrakının məlumat dairəsi genişlənir və nəticə kimi artıq böyük məktəbəqədəryaşlı uşaq qazanılmış bilik sistemində yeni əlaqələr qurmaq bacarığını mənimsəyir. Bu bacarıq dərketmə vasitəsi kimi çıxış edir.

Özünüreallaşdırma, özünütəqdimetmə müasir insanın ən mühüm keyfiyyətlərindən biridir. Təlim-tərbiyə prosesində bu işin dəstəklənməsi, onun tərbiyəçi və uşaq fəaliyyətinin mərkəzinə gətirilməsi xüsusi olaraq əhəmiyyətlidir. Bunun bir mühüm yolu təfəkkür müstəqilliyini təmin edən tapşırıqların verilməsidir. Məşğələlər vasitəsilə uşaqların inkişafını təmin etmək, izləmək mümkün olur. Uşaqlar idrakın müxtəlif mərhələlərində anlama, tətbiqetmə, təhliletmə və s. kimi bacarıqlar nümayiş etdirirlər.

Hazırda məşğələnin məzmununda uşaqlar üçün seçim situasiyası, yaradıcı axtarış, problemin həlli, məşğələdə ünsiyyət və əməkdaşlıq bacarığı, özünütənzimləmənin, özünüdərkin yaranmasının öz əksini tapması, uşaqların idrak fəallığını inkişaf etdirməyə imkan verən metodların seçilməsi mühüm şərtdir. İdrak fəallığının yüksəldilməsi metodlarına müqayisə, sual metodu, təkrar metodu, məntiqi tapşırıqların həll edilməsi, tədqiqatçılıq və s. daxildir. Bu metodlardan istifadə etməklə uşaqların məşğələlərdə fəallıq göstərmələrinə, diqqətlə və həvəslə işləmələrinə imkan yaranır.

Təlim prosesində müəyyən fəaliyyətlərin əlaqələndirilməsi nəzərdə tutulmuş biliklərin daha möhkəm mənimsənilməsi baxımından əhəmiyyət daşıyır. Lakin bu proses o zaman səmərəli olar ki, uşağın inkişaf göstəriciləri və tərbiyəçinin hazırlıq səviyyəsi inkişafetdirici təlimi reallaşdırmağa imkan versin. Tərbiyəçinin hazırlıq göstəriciləri müəyyən edilərkən onun pedaqoji qabiliyyəti, pedaqoji mədəniyyəti, peşəkarlığı, səriştəliliyi - uşaqlara məhəbbəti,

qayğısı, təlimə maraq yaratması, təşkilatçılıq bacarığı, yaradıcılığı, mədəni davranış normalarına malik olması nəzərdə tutulmalıdır.

Təlim prosesinin keyfiyyətini yüksəltmək üçün tərbiyəçinin yeni mövzunu məharətlə şərh etməsi ilə yanaşı, işin düzgün planlaşdırılması, əlverişli iş forması seçməsi, məşğələdə marağın yaradılması və motivasiya, məşğələnin ayrı-ayrı mərhələlərində fəaliyyət növlərinin dəyişdirilməsi, idraki və şəxsiyyətyönümlü vəzifələrin həlli, uşaqların məşğələdə fəal iştirakı, uşaqların zehni və əməli cəhətdən fəallıq göstərmələri də mühüm şərtdir.

Məktəbəqədər yaşlı uşağın inkişafını və onun məktəbə hazırlıq səviyyəsinin göstəriciləri aşağıdakı kimi müəyyənləşdirilməlidir:

1.Fiziki hazırlığı (uşağın düşüncə dairəsinin inkişafının fizioloji səviyyəsi).

2.Psixoloji hazırlığı (uşağın şəxsiyyətinin emosional, iradi inkişaf səviyyəsi).

3.Sosial hazırlığı (uşağın düşüncə dairəsinin inkişafının sosial səviyyəsi).

Uşağın və tərbiyəçinin isə hazırlıq səviyyəsini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

1.Uşağı və tərbiyəçini fəaliyyətyönümlü təlim metodu çərçivəsində müşahidə etmək.

2.Fəaliyyət, şüur və şəxsiyyət vahidliyi prinsipinə əsaslanmaq.

3.Şəxsiyyətlərarası münasibətlər fonunda həm uşağın, həm də tərbiyəçinin inkişafına yeniləşmiş sistemli təhlilin nəticəsi kimi baxmaq.

Yuxarıda qeyd etdiklərimiz inkişafetdirici təlim prosesində uşağın və tərbiyəçinin ayrı-ayrılıqda inkişafını deyil, bunların təlim prosesinin vahid subyekti kimi inkişaf etməsini göstərir.

Bütün bunlar bütövlükdə təhsilin humanist prinsipi əsasında qurulmasına təminat verir. Təhsildə humanizmin dərəcəsi şəxsiyyətin, cəmiyyətin mədənilik səviyyəsini müəyyənləşdirir. Bu baxımdan təhsilin məzmunu, onun fasiləsizliyi humanizm prinsipləri üzərində qurulmalıdır.

# TƏHSİLDƏ BİRGƏ YARADICILIQ MODELİNİN TƏTBİQİ ƏHƏMİYYƏTİ

***Gülnar Mirzəağa qızı Abdullayeva***
***ADU-nun Pedaqogika kafedrasının baş müəllimi,***
***BDU-nun Pedaqogika kafedrasının dissertantı,***
***kerimzadeh85@mail.ru***

*"İnsan özü heç nə yarada bilməz. Bütün arzularımız başqa ruhların əməkdaşlığı və birgə yaradıcılığı ilə gerçəkləşir"*
Hina Haşmi

İnsanı əhatə edən mühit ona daim təsir edir. Bu təsir yaradıcılıq fəaliyyətində aydın şəkildə özünü göstərir. Yaradıcılıq azad sahədir, onu heç bir halda çərçivəyə salmaq olmaz. Sosial mühitin yaradıcı təfəkkürə böyük təsiri vardır. Mədəniyyət və sosial mühitin təsiri nəticəsində yaradıcılıq insanın təxəyyülü və daxili potensialı ilə formalaşır. İlk olaraq düşünməklə başlayan bu yolda, sonrakı fəaliyyət prosesində orijinal əsər, fikir yaranır və yeni düşüncə tərzi formalaşır. Yaradıcı təfəkkür insana qarşılaşdığı problemə cəld reaksiya verməyə və çətin situasiyalardan qeyri-standart həllər tapmağa kömək edir. Kreativ maraq doğuran mühit yaratmaq yaradıcılığın əsasını təşkil edir. Bu o deməkdir ki, ənənəvi və ya qəbul edilmiş təfəkkür nümunələrindən, düşüncə tərzindən uzaqlaşaraq əməkdaşlıq zəminində yeni bir ideya, yeni bir məhsul yaratmaq bacarığı inkişaf etdirilir. Kiçikyaşlı şagirdlər ətraf mühitin təsirinə tez düşürlər. Müəllim şagirdlər üçün birgə əməkdaşlıq zəminində yaradıcı mühit yaratmaqla öyrənənlərdə yaradıcı düşüncə tərzini inkişaf etdirə bilər. Birgə yaradıcılıq "tələbə-işçi qrupu" və "tələbə müəllim" əməkdaşlığının bir aspektidir. Bu əməkdaşlıq müəllimlərin bilik və pedaqoji təcrübəsinə, şagirdlərin müxtəlif perspektivlərinə əsaslanır. Bovil, birgə yaradıcılığa müəllim və şagirdlərin öz inamlarını artırmaq üçün lazım olan "öyrənmə və tədrisdə birgə yaradıcılıq" spektri kimi baxmağı tövsiyə edir [6].

Yuxarıda qeyd etdiyimiz kimi, yaradıcı təfəkkür hər bir insanda kiçik yaşlarından formalaşsa da, ətraf mühitin təsiri ilə dəyişir. Düzgün

tədris sistemi və yaradıcı mühit yaratmaqla hər bir şagirddə yaradıcılıq bacarığı inkişaf etdirilə bilər. Yaradıcılığın inkişafını təmin etmək üçün şagirdlərə azad mühit yaratmaq lazımdır. Şagirdləri qrup işinə, birgə fəaliyyətə cəlb etməklə onlarda yaradıcı təfəkkürü inkişaf etdirmək olar. 21-ci əsrin təhsilində öyrədən və öyrənənlər üçün yaradıcı əməkdaşlıq modeli daha çox əhəmiyyət kəsb edir. Barua və Paulusun fikrincə, təhsil kontekstində baş verən inkişaflar müəllimlərdən yaradıcı təfəkkürün inkişafını tələb edir [2]. Hətta bu modelə müraciət təkcə şagirdlər üçün deyil, eyni zamanda müəllimlər üçün zəruridir. Çünki müasir təlimin tələblərinə və cəmiyyətin ehtiyaclarına cavab verən yeni təlim mühitinin, pedaqoji metodların işlənib hazırlanması və həyata keçirilməsi üçün müəllimlərin birgə yaradıcı fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.
Sayerə görə, son dövr tədqiqatlarda, kollektiv və ya birgə yaradıcılıq adlandırılan bu model, birgə fəaliyyət prosesi vasitəsilə inovativ və kreativ məhsulun yaradıldığı qrup hadisəsi kimi təsvir olunur[1]. Son dövrdə bu istiqamətdə aparılan tədqiqatlarda birgə yaradıcılıq modelinin iki əsas xüsusiyyəti - “yenilik və aktuallıq” əsas götürülür.

Roşelle və Penuelə görə birgə yaradıcılıq modeli şagirdlərə öz məqsəd və ehtiyaclarını peşəkar biliklərinə əsaslanaraq formalaşdırmağa imkan verən qrup fəaliyyətidir[1]. Mişel Grossen isə öz əsərində qeyd edir ki, birgə yaradıcılıq modelinin xüsusiyyətlərini araşdırarkən mövcud tədqiqatlarda şəxsiyyətlərarası münasibətlərin, duyğuların, idrakın, sosial mühitin, qrup dinamikasının, tapşırıq nümunələrinin və institusional parametrlərin nəzərə alınmasının vacibliyi vurğulanır [3]. Buna görə də, birgə yaradıcılıq modelinin xüsusiyyətlərini dərk etmək üçün fərdi, sosial cəhətləri birlikdə nəzərdən keçirmək lazımdır. Çünki fərdin yaradıcılıq prosesinə ardıcıl töhfəsi və bu proses nəticəsində yaranan kollektiv yaradıcı ideyalar (məhsul) sosial yaradıcılıqdan ayrılmazdır. Çünki bugün təhsildə sosial, iqtisadi və mədəni çağırışlar yaradıcılığın müsbət nəticələrini maksimuma çatdırmaq və müxtəlifliyə təkan vermək üçün qarşılıqlı (asılı) əməkdaşlıq tələb edir. Yaradıcılığın fərqli bir perspektivi olaraq müəyyən olunan birgə yaradıcılıq, iki və ya daha çox fərd arasında yeni ideyanın yaranması kimi qəbul edilir. Birgə yaradıcı qrupların qarşılıqlı əlaqəsi və məhsuldarlığına əsaslanan əməkdaşlığı təşviq edən

model sosial istehsal prosesini əhatə edir. Bu kontekstdə problemlərə innovativ həllər hazırlamaq üçün fərdlər öz ideyalarını və beyinlərinin məhsulunu bölüşürlər. Birgə yaradıcılıq modeli (BYM) şagirdlərin yaradıcılıq bacarıqlarını inkişaf etdirmək üçün effektiv və sistemli prosedurları əks etdirən öyrənmə modelidir. Bundan əlavə, tədqiqatlar göstərir ki, BYM modeli şagirdlərin elmi yaradıcılığının inkişafına müsbət təsir göstərir, onlara problemləri müəyyən etmək, kreativ ideyalar yaratmaq və ideyaları qiymətləndirərək yaradıcılığın nəticələrini araşdırmaq imkanı verir.

**Ədəbiyyat**


1. L.Mamykina, L.Candy, E.Edmonds. "Collaborative creativity. Communications of the ACM", 2002, 96-99.
2. J.Baruah, P.Paulus "Enhancing creativity in groups: The search for synergy" In M. Neale, B. Mannix & J. Goncalo (Eds.), Research on Managing Groups and Teams, Oxford, UK: Elsevier Science Press.,2009 pp. 29–56.
3. M.Grossen, Methods for studying collaborative creativity: An original and adventurous blend. Thinking Skills and Creativity, 2008, 3(3), 246–249.
4. https://doi.org/10.1016/j.tsc.2008.09.005


## ŞAGİRDLƏRİN TƏLİMƏ MOTİVASİYASINI ARTIRAN YENİ TEXNOLOGİYALAR


***Məhluqə Əfsər qızı Əzizova***
***Bakı Dövlət Universiteti, Pedaqogika kafedrasının doktorantı***
***Bsu.pedagogy@gmail.com***


Bir çox ölkələr şagirdlərin öyrənməli olduqları ilə bağlı yeni tələblərə cavab verən tədris proqramlarına daha çox məzmun əlavə etdilər, nəticədə müəllimlər dərinliyə varmadan daha çox mövzular üzərində işləməli oldular. Təhsil sistemlərinin ortaya çıxan tələblərə

cavab verdiyini nümayiş etdirmək üçün yeni material əlavə etmək asan yoldur, amma materialları tədris sistemindən çıxarmaq çətindir.

Valideynlər adətən uşaqlarının da özlərinin öyrəndiklərini öyrənəcəklərini gözləyir və məzmun azalmasını standartların düşməsi kimi dəyərləndirirlər. Kurikulum daha az təfərrüatlı və daha az tələbkar olduqda müəllimlərin işi daha da şətinləşəcək, beləliklə də şagirdlərin dərindən öyrənməsinə daha çox sərmayə qoyacaq. Kurikulumlar fənlərə sadiq qalmalı, bununla yanaşı fənlərarası öyrənməyə və şagirdlərin problemlərə müxtəlif tərəflərdən yanaşmaq qabiliyyətinin formalaşmasına yönəlməlidir.

Bəs xüsusilə bu gün üzləşmədikləri, sabah isə gözlənilməz olacaq çağırışlara cavab verməyə hazır olan motivasiyalı şagirdləri necə yetişdirə bilərik?Yüksək performanslı təhsil sistemləri iddialı məqsədlər qoyur, şagirdlərin nəyi bacarmalı olduqlarını aydın şəkildə göstərir və müəllimlərinə imkan verir ki, şagirdlərə nəyi öyrətməyin lazım olduğunu anlasın. Onlar inzibati nəzarətdən və məsuliyyətdən əməyin peşəkar təşkilinə keçid ediblər. Müəllimlərini innovativ olmağa, özlərinin və həmkarlarının performansını yaxşılaşdırmağa, daha yaxşı praktikaya aparan inkişafa can atmağa təşviq edirlər. Ən yaxşı təhsil sistemlərində əsas diqqət növbəti müəllimə və ya məktəbə baxmağa, əməkdaşlıq mədəniyyəti və güclü innovativ şəbəkələr yaratmağa yönəldilir.

Pedaqoqlar üçün dilemma ondan ibarətdir ki, öyrədilməsi və yoxlanılması ən asan olan adi idrak bacarıqlarını rəqəmsallaşdırmaq, avtomatlaşdırmaq və autsorinq etmək də asandır. Massaçusest Texnologiya İnstitutunun iqtisadiyyat üzrə professoru David Ator bu məsələ ilə bağlı əhəmiyyətli məlumatlar hazırlayıb. Şübhə yoxdur ki, istənilən fənn üzrə ən müasir bilik və bacarıqlar həmişə mühüm olaraq qalacaq. İnnovativ və yaradıcı insanlar adətən bilik və ya təcrübə sahəsində xüsusi səriştələrə malik olurlar. "Öyrənməyi öyrənmək" bacarıqları nə qədər vacib olsa da, biz həmişə nəyisə öyrənərək öyrənirik. Bununla belə, təhsildə uğur artıq məzmun biliklərinin təkrar istehsalı deyil, həm bildiklərimizdən nəticə çıxarmaq, bu bilikləri yeni situasiyalarda yaradıcı şəkildə tətbiq etmək, həm də fənlərin hüdudlarından kənarda düşünməkdir.

İnsanların rəqəmsal texnologiyanın məktəblərdə oynaya

biləcəyi və oynamalı olduğu rola fərqli baxışları olsa da, rəqəmsal vasitələrin məktəbdən kənarda dünyanı necə kökündən dəyişdirdiyini görməyə bilmərik. Odur ki, əgər müəllimləri XXI əsrin metodlarını dəstəkləyən tədris mühiti ilə təmin etmək və ən əsası şagirdlərə uğur qazanmaq üçün XXI əsr bacarıqları vermək istəyiriksə, texnologiya burada mühüm rol oynamalıdır

Bu gün layihə əsaslı öyrənmə, məktəblərdə STEAM, "Rəqəmsal bacarıqlar" layihələrinin tətbiqi, "Kiçik Akademiya"ların fəaliyyəti şagirdlərdə yaradıcı düşüncə, tədqiqatçılıq bacarıqlarının formalaşmasına, aldığı biliklərin tətbiqinə təkan verir. Onlarda müstəqil öyrənmə motivasiyası yaradır.

129 nömrəli məktəbdə tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, bu layihələrin tətbiq olunduğu siniflərdə şagirdlərin təlim nəticələri yüksəlmiş, onlarda araşdırma bacarıqlarının formalaşması ilə fənn müsabiqəsində və Beynəlxalq Riyaziyyat olimpiadasında ( SASMO) ötən 5 il müddətinə nisbətən iştirakçı sayı artmışdır. Belə ki, 129 nömrəli tam orta məktəbdə 2022-2023-cü tədris ilində VI siniflərdə təhsil alan 124 nəfər şagirddən 17 nəfər (14%) , VII siniflərdə təhsil alan 133 nəfər şagirddən 29 nəfər (22%) Respublika fənn müsabiqəsinin yarımfinal mərhələsində iştirak etmişdir. Bu da ötən illərə nisbətən 6,6% artım deməkdir

Bu layihələrin tətbiq olunduğu 129 nömrəli məktəbdə 2 il ərzində aparılan tədqiqatların nəticəsi göstərir ki, bu cür öyrənmə istedadlı şagirdləri vaxtında aşkar etmək, onları düzgün istiqamətləndirmək üçün öyrənmədə motivasiya yaradır. Şagirdlərdə müstəqil araşdırma, tədqiqatçılıq, məntiqi düşünmə bacarıqları, düzgün nəticə çıxarmaq, düzgün qərarvermə bacarıqları formalaşdırır. Şagirdlərin təlim nəticələrində yüksəliş baş verir.

Rəqəmsal əsrdə bu gün öz mülkiyyətimiz hesab etdiyimiz biliklərimiz və təhsilimizin məzmunu sabah hər kəs üçün əlçatan bir əmtəə olacaq. Biz texnologiyalardan elə istifadə etməliyik ki, müəllimlərin rolu sadəcə bilikləri ötürməkdən ibarət olmasın, onlar biliyin birgə yaradıcıları, təlimçilər, mentorlar və qiymətləndiricilər olmağa doğru yüksəlsinlər.

Bu gün rəqəmsallaşmanın real həyatımıza təsiri şagirdlərdən qeyri-standart analitik bacarıqlar tələb edir. Texnologiyalardan

səmərəli istifadə gələcəkdə süni intellektin gücündən istifadə etməyə imkan verəcək. Bu da şagirdlərdə fərqli və yaradıcı düşünmə, yaratma, innovativ, yeni optimal nəticə çıxarmaq kimi müsbət dəyərlər yaratmaq imkanı verəcək.

# SÜNİ İNTELLEKT ƏSRİNDƏ TƏDRİS METODLARININ TƏTBİQİ FƏLSƏFƏSİNƏ BAXIŞ

***Ainura Rəşadət qızı Iskandarova***
***ainuraa_9595@mail.ru***
***Bakı Dövlət Universitetinin doktorantı***

Texnologiyanın davamlı inkişafı insan həyatının bütün sahələrinə, o cümlədən təhsilin prioritetlərinə öz təsirini göstərir. Bu nöqteyi-nəzərdən YUNESKO özünün müxtəlif hesabatlarında son əlli il üçün təhsilin məqsədlərini müəyyən etmişdir.

Təhsil, Sənaye İnqilabı, təkamül nəzəriyyəsi və digər bu kimi hadisələrin ardıcıllığı dünyanı tamamilə dəyişmişdir. Bu dəyişiklik artan kommunikasiya imkanları ilə sürətlənir. Dünyanın sürətlə dəyişdiyi bir vaxtda insanlar bu dəyişikliklərə ayaq uydurmalıdırlar. Sürətlə dəyişən müasir dünyada insanı formalaşdıran amillərdən biri olan təhsilin dəyişməz qalması ağlasığmazdır.

Məktəbdə qəbul edilən fəlsəfi yanaşma və onun məktəb mədəniyyətinə əks olunması məktəblərin və şagirdlərin uğurları üçün mühüm əhəmiyyət kəsb edir. Hər bir məktəbin öz mədəni strukturu var və bu mədəni strukturun formalaşmasında fəlsəfi yanaşma mühüm əhəmiyyət xüsusi önəm daşıyır. Məktəbin bütün maraqlı tərəflərə diqqət yetirdiyi tədris metodlarının tətbiqi fəlsəfəsinin qəbul edilməsi və onun inkişafının işçilər tərəfindən həyata keçirilməsi məktəb strukturunun bütövlüyü və müsbət təşkilati mədəniyyətin formalaşması üçün vacib hesab edilir.

Təhsil sahəsində idarəçilərin və müəllimlərin təhsilə münasibətdə bütün iştirakçıları nəzərə alaraq təhsil fəaliyyətinin bütün tərəflərini görməsi, təhsil fəaliyyətini düşüncə sistemi çərçivəsində həyata keçirməsi vacibdir. Tədris-tərbiyə fəaliyyətində

tətbiq üsullarını, səbəb və təsirlərini, davranış aspektlərini müəyyən etmək üçün təlim metodları fəlsəfəsinin zənginliyi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, hər bir müəllim təhsil və təlim strategiyasını müxtəlif üsullarla müəyyən edə bilər. Bu fərq onunla bağlıdır ki, qəbul edilmiş tədris metodlarının tətbiqi fəlsəfəsi müxtəlif elementləri ehtiva edir.

**Fəlsəfə ilə təhsilin əlaqəsi**

Təhsil fəlsəfəsi tədris-öyrənmə əməliyyatı ilə bağlı hərtərəfli və ardıcıl inanclar toplusuna istinad edir. Təhsil fəlsəfəsinin məqsədi "təhsilçilərə gördükləri işlər haqqında dəqiq düşünmək və nə etdiklərini daha geniş fərdi və sosial inkişaf kontekstində görmək zərurətini dərk etməyə" kömək etməkdir. Beləliklə, bu, sadəcə "insanları nə etdikləri barədə düşünməyə məcbur etməkdir". Bununla müəllimlər tədris-təlim prosesində tələbələr, kurikulum, idarəetmə və məqsədlər kimi müxtəlif elementlər arasında qarşılıqlı əlaqəni görə bilərlər. Bu, təhsil məsələlərində "daha aydın düşünməyimizə kömək etmək üçün dəyərli çərçivə təmin edə bilər" [3].

Birinci formada təhsil fəlsəfəsi ənənəvi olaraq filosoflar, məsələn, Aristotel, Avqustin və Con Lokk tərəfindən öz fəlsəfi sistemlərinin bir hissəsi kimi, etik nəzəriyyələri kontekstində işlənib hazırlanmışdır. Bununla belə, XX əsrdə pedaqoji məktəblərdə təhsilin fəlsəfəsi təhsilin əsasları deyilən kontekstdə inkişaf etmişdir. O, həmçinin nə peşəkar filosof, nə də təhsil məktəblərinin üzvü olmayan Pol Qudman və Robert M. Hutchins kimi yazıçılar tərəfindən hazırlanmışdır.

Bir sıra xarici ekspertlərin fikrincə, fəlsəfə və təhsil bir-biri ilə sıx bağlıdır və bir-birindən asılıdır. Fəlsəfə yolu göstərir, təhsil isə onu izləyir. "Fəlsəfə olmasaydı təhsil kor-koranə bir səy olardı, təhsil olmasa fəlsəfə şikəst olardı" [4, s. 23].

Təhsil fəlsəfəsi müxtəlif funksiyaları yerinə yetirir:

1) təhsilin aspektlərinin müəyyən edilməsi

2) təhsil sahəsində köhnə və yeni ənənələrin uyğunlaşdırılması

3) təhsil planlayıcılarına, idarəçilərinə və müəllimlərinə təhsilin inkişafına nail olmaq üçün mütərəqqi bir baxışla təmin edilməsi.

4) gənc nəslin dövrümüzün çağırışlarına hazırlanması [4, s. 26-27].

Belə tam hüquqlu fəlsəfi və normativ təhsil nəzəriyyəsi, təsvir olunan növlərin təhlilinə əlavə olaraq, adətən aşağıdakı növ müddəaları ehtiva edir:

1) Nəyin yaxşı və nəyin doğru olduğuna dair əsas normativ əsaslar;

2) Bəşəriyyət və dünya haqqında əsas faktiki müddəalar;

3) Təhsilin inkişaf etdirməli olduğu meyllər haqqında bu iki növ müqəddimələrə əsaslanan nəticələr;

4) Psixologiyanın öyrənilməsi və öyrənmə üsulları haqqında əlavə faktiki məlumat;

5) Təhsildə istifadə edilməli olan üsullar haqqında əlavə nəticələr [3].

Təhsil fəlsəfəsi uyğun tədris metodlarını mənimsəmək və sinifdə öyrənməni daha effektiv və cəlbedici etmək üçün faydalıdır. Biz müxtəlif tədris üsulları, yəni naturalizmdə "etməklə öyrənmək", idealizmdə "mühazirə metodu", praqmatizmdə "eksperimental metod" haqqında biliklər əldə edirik. Təhsil fəlsəfəsinin köməyi ilə fənnin xarakterinə və məktəb mühitinə uyğun olaraq uyğun tədris metodları seçmək olar.

Tədris metodologiyası mahiyyətcə müəllimin şagirdlərə materialı mənimsəməsi üçün materialı izah etmək və ya öyrətmək üçün seçdiyi üsuldur. Müəllim tərəfindən istifadə edilə bilən çoxlu müxtəlif metodologiyalar var və seçilən metodlar çox vaxt təhsilin fəlsəfəsindən və müəllimin üstünlüklərindən asılıdır.

Müəllimin bir dərsdə və ya bir neçə dərsdə bir neçə üsuldan istifadə etməsi də qeyri-adi deyil. Tədris metodologiyası mühazirələrdən, qrup və ya kiçik qrup müzakirələrindən istifadəni və tələbələri öz həmyaşıdları üçün müəllim kimi cəlb etməyi əhatə edə bilər [6].

Beləliklə, təhsil fəlsəfəsi praktiki fəlsəfənin təhsilin təbiəti, eləcə də təhsil nəzəriyyəsi və praktikasından yarana biləcək fəlsəfi suallarla əlaqəli bir qoludur. Təhsilin əsas fəlsəfələrini üç əsas növə bölmək olar: müəllim mərkəzli fəlsəfələr, tələbə mərkəzli fəlsəfələr və cəmiyyət mərkəzli fəlsəfələr.

Təhsil fəlsəfəsi təhsilin məqsədləri, formaları, metodları və mənasının nəzərdən keçirilməsinə aiddir. Termin bu mövzuların fundamental fəlsəfi təhlilini və praktiki pedaqoji yanaşmaların təhlilini təsvir etmək üçün istifadə edilə bilər. Onun mövzusu öyrətməyə və öyrənməyə dəyər biliyin xarakteri və təhsildə bərabərliyin vəziyyəti kimi əsas fəlsəfi suallardan tutmuş praktiki təhsil siyasəti və praktikası ilə bağlı məsələlərə, məsələn, standartlaşdırılmış testlər və ya onların sosial, iqtisadi və hüquqi nəticələrinə qədər dəyişir. məktəbin maliyyələşdirilməsi.

Pedaqoqun şəxsi tədris fəlsəfəsi mühüm əhəmiyyət kəsb edir, çünki o, müəllimlərə tələbələrin ehtiyaclarını ən uyğun metodlardan istifadə etməklə həll etmək üçün onların ehtiyaclarını təhlil etməyə kömək edir. Belə bir model nəzərdə tutulan məqsədlərə nail ola biləcək ən yaxşı təşəbbüsləri və metodları təsvir edir. Bu məqalə bizim seçdiyimiz tədris üsullarını əsaslandırmaqla fəlsəfəmizi tamamlayır. Müzakirə həmçinin konsepsiyaları mənim çərçivəmi dəstəkləyən ən yaxşı nəzəriyyəçini müəyyənləşdirir.

## Ədəbiyyat


1. Fries Cindi H. Teaching style preferences and educational philosophy of teacher education faculty at a state university [elektron resurs] https://core.ac.uk/download/pdf/215178626.pdf (son müraciət: 10.08.2022)
2. Hassan A., Zainal Abiddin N., Kuan Yew S. The Philosophy of Learning and Listening in Traditional Classroom and Online Learning Approaches // Higher Education Studies № 4 (2), 2014, p. 19-28
3. Philosophy of Education: Historical overview, current trends [elektron resurs] https://education.stateuniversity.com/pages/2321/Philosophy-Education.html (son müraciət: 11.08.2022)
4. Ranjan Dash Sh.N. Philosophical foundation of education. Vani Vihar, 2015, 153 p.

# TƏLƏBƏLƏRİN ELMİ YARADICILIĞI

***Səbinə Elçin qızı Cəfərova***
***Bakı Dövlət Universiteti***
***Sabka567@gmail.com***

Tələbə gənclərdə elmi yaradıcılığın inkişaf etdirilməsi bu gün nəinki tələbə şəxsiyyətinin peşə inkişafı cəhətdən, həm də onun özünün ahəngdar inkişafı nöqteyi-nəzərindən çox aktualdır. Müasir ali məktəbdə tələbələrin təlim fəaliyyəti təkcə zəruri bilik və bacarıqlara yiyələnməklə məhdudlaşmır. Bu prosesdə tələbədə yaradıcı təfəkkür formalaşır. Təbii ki, tələbənin intellektual simasını yalnız biliyin çoxşaxəli mahiyyətə malik olması deyil, həm də informasiyanı əldə etməyə və yaratmağa qabil olan təfəkkürün necə tərbiyə edilməsi müəyyən edir. Bu, birinci növbədə, müasir mütəxəssisə göstərilən tələbatın diqqətlə öyrənilməsi, ikincisi də psixoloji-pedaqoji prinsiplər və pedaqoji prosesin idarə edilməsi və təşkili sahəsində konkret üsullar sisteminin hazırlanması yolu ilə mümkündür.

Bu gün ali təhsilli mütəxəssis qarşısında qoyulan zəruri tələblərdən biri qarşıya qoyulan problemlərin həllinə müstəqil, yaradıcı şəkildə yanaşmaqdan, yeni problemləri şüurlu başa düşməkdən, problemin həyata keçirilməsini təşkil etməkdən, seçilmiş fəaliyyət sahəsində ortaya çıxan problemə asan qoşulmaq bacarığından, yeni ideyaları dərhal mənimsəməkdən ibarətdir. Müasir ali məktəbdə yaradıcı təfəkkürün tərbiyəsi, tələbələrin intellektual və mənəvi inkişafına elmi biliklərin bilavasitə təsiri ilə məhdudlaşmır, həm də tələbəliyin yaradıcı potensialının formalaşmasına tədris prosesinin elmi təşkili də təsir edir. Bu gün ali məktəbdə tələbələrin yaradıcı təfəkkürünü, onların yaradıcı fəallığını inkişaf etdirmək üçün hansı istiqamətdə iş aparılmalıdır?

Məlumdur ki, ali məktəbdə elm onun inkişafı baxımından öyrənilir. Bu keyfiyyət tələbələrin müstəqil təhsil işinin elmi işlə yaxınlaşmasına zəmin yaradır, tələbə öyrənməklə yanaşı öz biliyi sahəsində fəal tədqiqat işinə qoşulur, onun müstəqil tədris-idraki

fəaliyyəti zamanı, yüksək fəallıq göstərməsi və bu fəaliyyətin tədqiqat işi ilə yaxınlaşması onda yaradıcı təfəkkürü inkişaf etdirir.

Tələbələrdə elmi yaradıcılığı inkişaf etdirmək üçün ali məktəbdə tədris prosesinin xüsusiyyətlərini daha dəqiq əks etdirən prinsiplər də az rol oynamırlar; tədris prosesinin ideyalılığı və elmi istiqaməti, elmi və tədris fəaliyyətinin bir-birinə sirayət edən birliyi, tədris prosesi və elmi işin – mütəxəssisin ahəngdar inkişafının vasitəsi olması, tələbələrin tədqiqat işinə cəlb edilməsi, yaradıcı fəallığına və müstəqilliyinə inam; onların nəzəri və praktik hazırlığına arxalanma, tələbələrin elmi işlə sistematik və ardıcıl iştirakı və s. az rol oynamır. Təhsildə problemliliyin təmin edilməsi zamanı elmi dünyagörüşün möhkəm əsaslarına istiqamət götürülür, müasir elm tələbələrdə müstəqil yaradıcı təfəkkür vərdişlərinin inkişafına, fərdi işə diqqətin artmasına kömək edir. Tələbədə yaradıcı təfəkkürün inkişafında oxunan problem mühazirələrin, yaradılan problem situasiyaların və idrakı məsələlərə həsr olunmuş seminar məşğələlərin də rolu böyükdür. Qloballaşma şəraitində Avropa təhsilinə inteqrasiya, ali məktəbin Boloniya təhsili sisteminə keçid ali məktəb qarşısında öz yaradıcı axtarışları ilə seçilən, cəmiyyətin mənəvi həyatında fəal iştirak etməyi bacaran, humanist məqsədli mütəxəssislər yetişdirmək vəzifəsini qoymuşdur. Təəssüf ki, müasir ali məktəbdə hələ də təhsilin elə forma və metodlarına üstünlük verilir ki, onların köməyilə yalnız informativ bilik və bəsit bacarıqlara nail olmaq mümkün olur. Oxuyan təhsildən öyrənən təhsilə keçmək işi çətinləşir. Tələbə öyrənə-öyrənə deyil, oxuya-oxuya kursdan-kursa keçir. Tələbə yalnız ənənəvi materialları yaxşı mənimsəməklə kifayətlənir, vaxtın çox hissəsi, deyək ki, klassik fizikadan və yaxud biologiya və kimyadan yaxşı məlum olan biliklərin öyrənilməsinə gedir, tələbə işləmir, çoxu yaradıcılıq məsələlərini mənimsəməkdə və həll etməkdə qeyri-fəallıq göstərir, obrazlı desək, müasir “alabəzək”, “hazır biliklər” mənzərəsi alınır, elmdə kəskin problemlərin həlli arxa plana keçirilir. Bu gün ali təhsil sahəsində bəzi islahatlar aparılır. Kredit sisteminə keçid, təbii ki, tələbələrin yaradıcı fəallığı üçün əlverişli imkan yaradır. Bir sıra qabaqcıl ali məktəblərdə tələbə gənclərin yaradıcı, elmi təhsilində bir sıra yeni prinsiplərdən, qabaqcıl metodlardan istifadə olunmağa

başlanmışdır. Bu prinsip və üsullar təhsilin ilkin mərhələsində müasir elmi bilik elementlərini tədris olunan fənnin konteksinə daxil edilir, nəticədə isə elm tarixindən təkrar, məlum məlumatlar əvəzinə, əsas istiqamət elmin keçib getdiyi məntiqi yenilik yolları sahəsinə keçirilir. Bu işə aşağı kurslardan başlayaraq, tələbələrdə yaradıcı təfəkkürün təşəkkülü üçün əlverişli şərait yaratmaq vacibdir. Son dövrlərdə ali məktəblərdə fəal təhsil forma və metodlarından – konkret problem situasiya metodundan, tematik diskusiyalar, işgüzar oyunlar, rollu oyunlar və münaqişə və s. metodlarından yaradıcı şəkildə istifadə olunur. Tələbələr dərk edirlər ki, didaktik, tərbiyəvi və yaradıcı məqsədlərə müəllimlə birgə müstəqil fəaliyyətləri ilə birgə çatmaq mümkündür. Belə ünsiyyət tələbəyə öz fikrini, mülahizələrini sərbəst şəkildə çatdırmağa imkan yaradır. Belə ünsiyyət tələbələrin intellektual imkanlarını üzə çıxarır, güclü mənəvi amil kimi çıxış edir, müəllim-tələbə, tələbə-tələbə qrupu arasında olan "çin səddini" dağıdır və özünə inamsızlığı aradan qaldırar. Tələbə müzakirə, diskussiya və kollektiv məsələ həllinin iştirakçısı olur, yaradıcı fəallıq göstərmək imkanı əldə edir. Məşhur psixoloq Rubinşteynin sözləri ilə desək, "Problemin doğurduğu şəraitdə ziddiyyətli məlumatların olması zəruri halda həmin məlumatların ləğv edilməsinə yönəlmiş təfəkkür prosesini yaradır".

Tələbələr fəal, interaktiv, beynin hücumu və s. təlim metodu və formalarından yaradıcı istifadə etməklə qarşıya çıxan məsələləri müstəqil həll edir, öyrənilən proses və halların məğzinə daxil olmağa can atırlar, çətinlikləri dəf etməyin yeni formalarını axtarır, şəxsi səylərlə biliklər əldə etməyə çalışırlar. Tələbələrdə yaradıcı təfəkkürün inkişafında təhsilin ənənəvi və müasir formalarının optimal vəhdəti də az əhəmiyyət kəsb etmir. Bu gün ali məktəb təhsilinin təşkili üzrə mühazirə, diskussiya, seminar və təcrübə məşğələləri, konfranslar, təlim və istehsalat praktikası, kurs və buraxılış işləri, müstəqil məşğələlər kimi formalarından geniş istifadə olunur. Ali məktəbdə yeni, düşündürücü metodların işlənməsi, tədris-elmi işlərə və laboratoriya məşğələlərinə elmi tədqiqat elementlərinin daxil edilməsi, yeni təlim texnologiyaları və elektron vasitələrindən istifadə edilməsi, elmin ən yeni sahələri üzrə xüsusi seminarların keçirilməsi təbii ki, tələbələrdə yaradıcı təfəkkürü inkişaf etdirir.

Tələbənin elmə daxil olmasından mühazirənin imkanları daha genişdir. Tələbənin əsas elmi-nəzəri müddəalarla ilk tanışlığı mühazirədən başlayır. Mühazirə tələbəni elmin metodologiyası ilə yaxınlaşdırır. Düzgün, emosional tərzdə, problemli oxunan mühazirə tələbənin təfəkkürünü oyadır, onu fəaliyyətə qoşur, onları mənimsədiyi fənn üzrə düşünməyə, mühazirə zamanı ortaya çıxan həyati suallara cavab axtarmağa sövq edir. Göstərilən bu üstünlüklərinə görə haqlı olaraq mühazirəni yaradıcılıq təfəkkürü məktəbi hesab edirlər. Tələbələrdə yaradıcı təfəkkürün inkişafında praktiki və seminar məşğələləri də xüsusi əhəmiyyət kəsb edir. Tələbələr bu tip məşğələlərin gedişində həmin fənn üçün daha səciyyəvi olan praktiki bacarığa yiyələnir, onun elmi axtarışını mənimsəyir, elmi-tədqiqat vərdişlərinə sahib olur.

Tələbələrin elmi yaradıcılığını inkişaf etdirmək üçün təlimin təşkili prosesinin başqa formaları da az əhəmiyyət kəsb etmir. Əlaqəyə girmək bacarığının fərdi yaradıcı təkmilləşmənin rəhni kimi özünü göstərən kiçik qruplarda baş qaldıran formalar daha çox üstünlük təşkil edirlər.

Tələbələrdə elmi yaradıcılığın inkişafını reallaşdırmaqda əsas diqqəti cəlb edən işlərdən biri də onları elmi-tədqiqat axtarışlarına istiqamətləndirməkdir. Ali məktəb tələbəsi elmdə cəsarətli axtarışlara, ideyalar və istiqamətlər yarışına, səmərəli diskussiya və müzakirələrə qoşulmağı bacarmalı, sxolastik mühakimələrdən uzaq olmalıdır. Tələbələrdə elmə inamı nəinki sadəcə olaraq möhkəmləndirmək, həmçinin onların elmi axtarışlarda fəal iştirakını təmin etmək vacibdir.

Təəssüf ki əksər tələbələr elmi fəaliyyətdən və elmi seminarlardan boyun qaçırır. Onlar sadəcə olaraq ali məktəbi qurtardıqdan sonra işləmək istəyirlər və onlarda belə bir əqidə yaranır ki, “yaradıcılıq axtarışları, tədqiqat işi yalnız laboratoriya və elmi-tədqiqat institutları əməkdaşlarının bəxtinə yazılıb”.

Elmi-tədqiqat fəaliyyətinin əhəmiyyətini ayrı-ayrı tələbələrindərk etməməsinin səbəbini heç də onlarla aparılan tərbiyə işinin zəifliyində deyil, ali məktəbdə tələbələrə təqdim edilən elmi biliklərin dağınıq pərakəndə tədrisində axtarmaq lazımdır. Tələbələrin əksəriyyəti açıqca bildirirlər ki, onlar sadəcə olaraq alim

olmağa hazırlaşmırlar, sadəcə yüksək ixtisaslı mütəxəssis olmaq fikrindədirlər. Belə hallar xüsusən tələbələrin elmi-tədqiqat işinə cəlb edilməyən ali məktəblərə daha çox xasdır. Tələbələrdə yaradıcı təfəkkürü inkişaf etdirmək üçün onları elmi informasiyalarla təmin etmək, elmi informasiyaları diqqətlə seçmək də çox vacibdir. Tələbələrin elmi-tədqiqat işinə cəlb edilməsi gələcək mütəxəssislərin peşə hazırlığını yaxşılaşdırar, onlarda öz ixtisasına məhəbbət tərbiyə edər, özlərinə tələbkarlıqla yanaşar, problemlərin həllində mətin əqidə, inadkarlıq göstərər, işdə səliqəli və məsuliyyətli olar, yaradıcılığı artar, tədqiqatın nəticəsinə elmə obyektiv qiymət verməsi üçün geniş imkanlar açar. Bu, həm də tələbələrin dünyagörüşünün formalaşmasında, onların ideya-siyasi, mənəvi və estetik tərbiyəsində böyük rol oynayır. Tələbə elmi-tədqiqat işlərində iştirakın əhəmiyyətini dərk edəndən sonra onun elmə inamı hiss ediləcək dərəcədə artır, yaradıcı potensialının reallaşması, fəallaşması zərurətə çevrilir. Tələbələrin elmi yaradıcılığında təmənnasız iştirakı onlarda biliklərin mənimsəməsinə marağı artırar, elmə mənəvi tələbat və bacarıqların üzə çıxarılmasına imkan yaradır. Bu da elmi nəzəriyyənin şəxsən mənimsənilməsi tələbələrdə idrak fəallığının yüksəlməsinə gətirib çıxarır. Tələbə elmlə yaşamağa cəhd göstərməlidir. Belə olmasa, elmin özü tələbə üçün heç bir qiymətə malik olmaz, onun dünyaya elmi baxışı boşa çıxa bilər.

Elmlə yaşamaq, elmə sədaqət və məhəbbət tələbədə elmin daşlı-kəsəkli cığırlarında inamla addımlamağa, dünyaya düzgün elmi baxışa yiyələnməyə sosial-pedaqoji cəhətdən hazır olacaq, əldə etdiyi nəticələr isə elmi fəaliyyətə marağı artıracaq.

Son illərdə ali məktəbdə əqli əməyin auditoriya təşkili ilə yanaşı, tələbənin müstəqil fərdi işi də onlarda elmi yaradıcılığın inkişafına bilavasitə təsir göstərir. Ona görə də tələbələrin müstəqil fərdi işinə psixoloji-didaktik tələb artırılmalı, mühazirələrin oxunuş metodikası təkmilləşdirilməli, tələbələrdə əlavə ədəbiyyatın müstəqil öyrənilməsi tələbata çevrilməsi, təlim motivlərinin hərəkətə gətirilməsində zəruri sayılan seminar, praktiki və laboratoriya məşğələləri problemli təşkil edilməlidir. Yaxşı olar ki, tələbələrin müstəqil işinə və özünütəhsilinə diqqət artırılsın, onlar səmərəli metodika ilə, yeni təlim texnologiyaları ilə silahlandırılsınlar, həm

auditoriyada, həm də auditoriyadan kənarda təşkil edilən təhsil fəaliyyətinin müxtəlif növlərində işə cəlb edilməklə, onlarda müstəqil elmi fəaliyyət mədəniyyəti formalaşdırılsın. Tələbələr şüurlu olaraq müstəqil işin daha geniş yaradıcı formalarına qoşulmalı, onlar tədqiqat fəaliyyətinə müstəqil elmi yaradıcılıq bacarıqlarına yiyələnməlidirlər. Bu prosesdə tələbənin vaxt büdcəsini düzgün bölüşdürə bilməsi və işini düzgün planlaşdırması da böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**


1. Ağayev Ə. Azərbaycan ictimai-pedqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: 2005, 155s.
2. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı: 2013, 303 s.
3. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005, 155s.
4. Qasımova L.N, Mahmudova R.M. Pedaqogika. (Dərslik) Bakı: BDU, 2021, 548 s.


## MÜASİR MƏKTƏBDƏ ŞAGİRDİN QİYMƏTLƏNDİRİLMƏSİ PRİNSİPLƏRİ (İNGİLİS DİLİ DƏRSLƏRİNİN NÜMUNƏSİNDƏ)


***Ülkər İlqar qızı Quliyeva***
***Bakı Dövlət Universitetinin doktorantı***
***gurbanova_u@mail.ru***


Qiymətləndirmə təlim prosesinin ayrılmaz hissəsidir. Fərqli məqsədlər üçün də olsa, prosesin hər mərhələsində ölçmə və qiymətləndirmə lazımdır. Əksər təhsil müəssisələrində qiymətləndirmə sahəsində yaranan problem mövcud məlumatların çatışmazlığı deyil, səmərəsiz istifadəsidir.

Baxmayaraq ki, təhsildə sağlam şəkildə qiymətləndirə bilmək vacibdir. İnsanın ağlı, istedadı, münasibəti, marağı, uğuru kimi psixoloji xüsusiyyətlərinə düzgün qiymət vermək mümkün deyil.

Təlimin məqsədi ən az səhvlə ölçmək və mümkün qədər dəqiq qiymətləndirmək olmalıdır.

**Qiymətləndirmənin etibarlılığı**

Qiymətləndirmə bir universitetin tələbələrinin bilik, anlayış və bacarıqlarını qiymətləndirdiyi prosesdir. Qiymətləndirmə tələbələrin nəzərdə tutulan təlim nəticələrinə nailiyyətlərini ölçmək üçün xüsusi olaraq tərtib ediləcək və bütün nəzərdə tutulan təlim nəticələri kollektiv şəkildə qiymətləndiriləcəkdir.

Yeni modullar və proqramlar üçün təsdiqləmə prosesləri və mövcud modul və proqramlara düzəlişlər qiymətləndirmənin modul və proqramın hazırlanmasının ayrılmaz hissəsi olmasını təmin edir və qiymətləndirmənin davamlı etibarlılığı illik və dövri baxış vasitəsilə yoxlanılacaqdır. Bu mülahizə xarici fənn mütəxəssisləri, modul/modul düzəlişləri/sillabusa düzəlişlər və illik baxış üçün kənar rəyçilər və proqramın təsdiqi və dövri baxış üçün kənar imtahançı olmayan kənar fənn mütəxəssisləri tərəfindən tam dəstəklənir [5].

**İngilis dili qiymətləndirmə vasitələrinin prinsiplərini öyrənmək**

Xarici dil müəllimlərinin tələbələrin öyrənməsini qiymətləndirmək üçün istifadə etdikləri alətlər nadir hallarda tədqiq edilir və onlar öyrənmə və tədrisin necə başa düşüldüyü barədə mühüm məlumat mənbəyidir. Bu tədqiqatın məqsədi ingilis dili müəllimləri tərəfindən yaradılmış qiymətləndirmə vasitələrini təhlil etməkdir.

Dilin qiymətləndirilməsi həmişə müəllimlərin diqqətini və marağını cəlb edir, çünki onlar şagirdlərin öyrəndiklərini səmərəli şəkildə qiymətləndirmək və ya öyrənmələrini təkmilləşdirmək üçün lazım olan rəyləri təmin etmək məqsədilə daim alətlər, metodlar və prosedurlar inkişaf etdirirlər. Öyrənmənin qiymətləndirilməsi, əslində, qiymətləndirmənin öyrənməni həqiqətən əks etdirməsini təmin edə bilən və həmçinin müəllimlərə yüksək keyfiyyətli alətlər hazırlamağa kömək edə bilən müəyyən təlimat və prinsiplərə yönəlmiş yaxşı strukturlaşdırılmış və mühüm fəaliyyət olmalıdır [1, s. 462].

Şagirdlərin qiymətləndirilməsinin əsas prinsiplərindən biri müşahidədir. Nəzarət uşağın tərəqqisini müşahidə etmək və ya onun

işini müşahidə etmək formasında ola bilər. Sinifdə müəllimlər həmişə şagirdlərin etdiklərini müşahidə edərək onları qiymətləndirirlər. Yəni müəllimlər şagirdləri ilə söhbət edərək, onlara sual verməklə onları qiymətləndirirlər. Burada müəllimin qərarının etibarlılığı müşahidə bacarığından, müəllimin təcrübəsindən, sual vermək bacarığından asılıdır.

Bütün qiymətləndirmə metodları və prinsiplərinin müşahidə forması olduğuna dair sübutlar var. Testlər və imtahanlar, jurnallar və yoxlama siyahıları daha sistemli müşahidə üçün vasitə kimi istifadə olunur. Lakin müəllim yalnız alınan məlumatlar əsasında qiymətləndirirsə, qiymətləndirmədə yanlış mülahizələrə gələ bilər. Müəllimin davamlı müşahidədən çıxardığı nəticələr şagirdin faktiki fəaliyyətini əks etdirməlidir [2, s. 539].

Qiymətləndirmə proqramın hazırlanması prosesini tamamlayır və yeni inkişaflara yol açır. Qiymətləndirmə prosesi zamanı hansı məlumatların toplanacağı, verilənlərin necə şərh ediləcəyi və proqramda necə əks olunacağı qiymətləndirilən proqramın xüsusiyyətlərindən asılıdır. Buna görə də kurrikulumun qiymətləndirilməsi prosesini yaxşı başa düşmək üçün kurrikulumun hazırlanmasının əsas konsepsiyalarını yaxşı bilmək lazımdır [2, s. 541].

Tədrisi təkmilləşdirmək üçün qiymətləndirmə metodlarının effektivliyini artırmaqla yanaşı, tədrisdə kadrlardan istifadə ilə bağlı araşdırmalar və ya qiymətləndirmə prinsiplərini hazırlamaq lazımdır. Qiymətləndirmənin yuxarıda qeyd olunan qiymətləndirmə prinsiplərinə uyğun davam etməsini təmin etmək üçün qiymətləndirmə tapşırıqları üzrə şagird performansı hər il şöbələr/məktəblər tərəfindən monitorinq edilməlidir.

Tədqiqatda xarici dilin tədrisində ölçmə və qiymətləndirmədə istifadə olunan prinsiplər sadalanır və bu prinsiplərdən hansının xarici dil tətbiqlərində tətbiq olunduğu müəyyən edilir. Xarici dil tədrisində, tələbə ehtiyaclarını və dil bacarıqlarını ölçmək və qiymətləndirmək üçün bir vasitə inkişaf etdirildikdə, hədəflənmiş uğurun ölçülməsi üçün əsas addım atılır. Bununla belə, təkcə ehtiyacların və dil bacarıqlarının müəyyən edilməsi kifayət deyil. Bundan əlavə, ölçü alətinin görünüşündən tutmuş məzmununun hər

bir detalına qədər bütün elementləri müəyyən meyarlara cavab verməlidir.

**Ədəbiyyat**


1. Díaz Larenas C., Jara Díaz A., Orellana Y.R., Sanhueza Villalón M.J. Exploring the principles of English assessment instruments // Ensaio: aval. pol. públ. Educ. № 111 (29), 2021, p. 461-483
2. Kayabashi Y. Current issues in the evaluation of teaching and possible corrections in the system // Kastamonu Education Journal № 2 (15), 2007, p. 537-548
3. Principles of Assessment elektron resurs] https://www.dur.ac.uk/learningandteaching.handbook/6/principles/ (son müraciət: 11.08.2022)
4. Shepard Lorrie A., Diaz-Bilello Elena K., Penuel William R., Marion Scott F. Classroom Assessment Principles to Support Teaching and Learning [elektron resurs] https://www.colorado.edu/cadre/sites/default/files/attached-files/classroom_assessment_principles_to_support_teaching_and_learning_-_final_0.pdf (son müraciət: 09.08.2022)


## ŞAGİRDLƏRDƏ YARADICILIQ QABİLİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ MÜASİR TƏLİM KONSEPSİYALARININ TƏLƏBİ KİMİ


***Vəfa Azad qızı Mirzəzadə***
***Bakı Dövlət Universiteti fəlsəfə doktoru proqramı üzrə doktorant***
***rzayevav@list.ru***


Müasir dövrdə dünyada yeniliklər olduqca sürətlə baş verir. Cəmiyyət həyatında baş verən bu dinamik proseslər təhsil sistemi qarşısına yeni tələblər qoyur. Başqa sözlə desək, son illərdə baş verən dəyişikliklərin sürət və məzmun dinamikasına baxdıqda, təxminən on il sonra məktəblilərə hansı biliklərin lazım olacağını əvvəlcədən proqnozlaşdırmaq çətinləşir. Bu, yeni nəslin həyata hazırlanması vəzifəsinin reallaşması baxımından müəyyən problemlər yaradır.

İndiyə qədər təhsil sistemində şagirdlərə bilik verilməsi yolu ilə bu vəzifə yerinə yetirilirdi. Əgər gələcəkdə hansı biliklərin insana lazım olacağını dəqiq proqnozlaşdıra bilmiriksə, deməli şagirdlərin həyata hazırlanması vəzifəsinin reallaşma imkanları məhdudlaşır. Müasir təhsil konsepsiyaları bu məsələnin həllinə istiqamətlənib. Ənənəvi təlim fənnyönümlü xarakter daşıyırdı, müasir təhsil konsepsiyaları şəxsiyyətyönümlü məzmunu ilə fərqlənir. Artıq şagirdin bilik əldə etməsinə deyil, şəxsiyyət keyfiyyətlərinin inkişafına üstünlük verilir. Məsələni prizmanın bu bucağından qiymətləndirəndə təhsilin məzmununda şagirdin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi əsas vəzifələrdən birinə çevrilir. Təhsil müəssisəsi şagirdin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə bir tərəfdən yaradıcı şəxsiyyət formalaşdırır, digər tərəfdən onları yaradıcı idrak fəaliyyətinə hazırlayır. Yaradıcı idrak fəaliyyətinə hazır olan şəxs qarşısına çıxan problemi aradan qaldırmaq üçün zəruri bilikləri özünütəhsil yolu ilə əldə edərək, məsələnin həlli yollarını axtarıb tapa bilir. Zaman dəyişdikcə təlim-tərbiyə prosesinin məzmununda, hətta bir sıra hallarda təhsilin strukturunda, onu idarəetmə mexanizmlərində yeni prioritetlər müəyyən edilir, yeni tələblər meydana gəlir. Meydana çıxan yeniliklər son mərhələdə müəllim tərəfindən həyata keçirilir. Bu o deməkdir ki, yenilikləri həyata keçirməsi üçün müəllimin fəaliyyəti də yenilənməlidir. Təsadüfi deyil ki, müasir dövrdə müəllim fasilitator (bələdçi) kimi mənalandırılır. Bu müəllimin fəaliyyətinin yeni məzmun kəsb etməsi deməkdir. Əgər əvvəlki dövrlərdə şagirdə bilik vermək müəllimin fəaliyyətinin özəyini təşkil edirdisə, bu gün müəllimdən bilik əldə etməsi üçün şagirdin müstəqil təlim fəaliyyətini təşkil etmək və ya, daha dəqiq desək, yeni biliyin şagirdin özü tərəfindən əldə edilməsi üçün "bələdçilik" etməsi tələb olunur. Bu ilk baxışdan mürəkkəb görünə bilər. Lakin şagirdlərin potensialını öyrəndikdə məlum olur ki, onlar özləri müstəqil fəaliyyət göstərdikdə daha böyük uğurlar əldə edə bilirlər. Bu fakt qabaqcıl müəllimlərin pedaqoji təcrübəsində artıq öz təsdiqini tapır.

Şagirdlərin müstəqil təlim fəaliyyətinin təşkil edilməsinin ilkin şərti müəllimin özünün yaradıcı şəxsiyyət olmasıdır. Bu istiqamətdə həyata keçirilən tədqiqatlarda müəllim amili xüsusi önəm

kəsb edir. Belə ki, şagirdlər üçün fəal dərs mühiti yaratmaq üçün müəllim təlimə yaradıcı yanaşmalıdır. Təlimə yaradıcı münasibətin ilk təzahürü müəllim-şagird münasibətlərində öz əksini tapır. Həm müəllimi, həm də şagirdi təlim prosesinin subyekti kimi dəyərləndirən müasir təlim konsepsiyalarında müəllim-şagird əməkdaşlığına üstünlük verilir. Müəllim-şagird əməkdaşlığı müəllimin təlim prosesini yeni məzmunda təşkil etməsinə şərait yaradır. Əməkdaşlıq, ilk növbədə, demokratikliyə, bərabərliyə və partnyorluğa əsaslanır. Bu prosesdə şagirdlər müəllim tərəfindən şəxsiyyət kimi dəyərləndirilir, onu qabiliyyətli hesab edir.

Əməkdaşlıq dərsdə iki istiqamətdə həyata keçirilir.

1.Dərs prosesində müəllim yeni biliyin şagirdlərə ötürülməsi üçün onlarla əməkdaşlıq edir, qarşıya qoyulmuş problemi həll etməyin yollarını onlarla birlikdə "axtarır", bu zaman "bələdçilik" edərək, onlara yol göstərə-göstərə yeninin dərk edilməsinə gəlib çıxır.

2.Şagirdlər arası əməkdaşlığı təşkil edir. Əməkdaşlığın bu formasında şagirdlərə müəyyən tapşırıqlar verilir və onların qarşıya qoyulmuş məsələni həll etməsinə şərait yaradılır. Şagirdlər bir-biri ilə əməkdaşlıq edərək, yeni biliyi "kəşf" edirlər. Sonda müəllim onların fəaliyyətini dəyərləndirir.

Şagirdlərlə əməkdaşlıq edərkən təlimin keyfiyyəti və nəticələri müəllim və şagirdlərin bir-birini qavramaları, qəbul etmələri əsasında aralarında yaranmış olan ünsiyyətdən, münasibətdən asılıdır. Müəyyən edilmişdir ki, şagirdin müəllimə olan münasibəti onun fənnə münasibətini şərtləndirir. Təsadüfi deyil ki, humanist xarakter daşıyan müəllim-şagird münasibətləri təlimin səmərəliliyini artıran amillərdən biridir. Buna görə də müasir dövrdə həm müəllim, həm də şagird təlim prosesinin subyekti kimi mənalandırılır. Müəllimin öz fəaliyyətini humanizm prinsipləri əsasında qurması onun yaradıcılıq imkanlarını genişləndirməklə bərabər, həm müəllim-şagird (şagirdlər) arasında, həm də şagirdlər arasında əməkdaşlığın yaranmasını şərtləndirir. Bu zaman şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün yeni üfiqlər açılır.

Uşaqların təfəkkürləri çevik, zehinləri açıq, maraqları böyük, təxəyyülləri "qanadlı və rəngarəng", fikirləri sadə, potensialları

böyükdür. Onlar düşündüklərini dilə gətiməkdə tərəddüd etmir, səhv etməkdən qorxmur, yeniliklərə açıqdırlar. Əslində, yaş artdıqca bir zamanlar hamımızda olan bu xüsusiyyətlər psixoloji baxımdan zaman-zaman qəlibləşir və biz onları itiririk. Sinifdə əməkdaşlıq mühiti hökm sürəndə həmin xüsusiyyətlərin inkişafı üçün şərait yaranır. Müəllim-şagird əməkdaşlığı qəliblərdən qurtulmağa imkan verir. Belə ki, əməkdaşlıq zamanı təlim prosesində şagirdlərə fəaliyyət üsulunun seçilməsi və müxtəlif ideyaların irəli sürülməsi üçün daha çox müstəqillik verilir. Humanizm, əməkdaşlıq və müstəqil təlim fəaliyyətinin təşkili şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf imkanlarını genişləndirir.

Məktəblərdə kurikulum proqramının tətbiqi təlim prosesini humanizm, əməkdaşlıq və şagirdlərin müstəqil təlim fəaliyyəti əsasında təşkil etməyi tələb edir. İnteraktiv dərslər bu imkanları ilə əlamətdardır. Bu dərslər müəllim-şagird və şagirdlərarası əməkdaşlığa əsaslanır, şagirdlərin müstəqil təlim fəaliyyətini genişləndirir, dərsi maraqlı və cəlbedici edir, şagirddə öyrəniləcək problemə motivasiyanın yaranmasına kömək edir, qarşıya qoyulan problemlərin yaradıcı həlli üçün geniş imkanlar açır, şagirdlərə özlərini daha yaxşı, sərbəst ifadə edə bilmələri üçün şərait yaradır. Bu, ilk növbədə, şagirdə "öyrənməyi öyrətməyi" tələb edir. Təlim metodlarının şagirdin şəxsiyyətinə, tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən və təxəyyüldən istifadə edilməsi təlim vəzifələrinin həyata keçirilməsi ilə yanaşı, şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafını təmin edir.

## KİMYA TƏDRİSİNDƏ MÜASİR YANAŞMALAR

***Zərinə Hikmət qızı Nağızadə***
***Füzuli rayonu 38 saylı tam orta məktəb***
***Bakı Dövlət Universiteti***
***zarinanagizade@gmail.com***

Sürətlə dəyişən dünyaya uyğunlaşmaq, yeniliklərə ayaq uydurmaq və iş dünyasında tələb olunan olmaq dövrümüzün aktual məsələlərindən biridir. Başqa sözlə, XXI əsr bacarıqlarına sahib

olmaq həyatın bütün sahələrində arzuolunandır. Bu prosesdə təhsil sahəsinin üzərinə düşən öhdəlik orjinal həllər tapmağa meyilli olan, sosial inkişafa dəstək olan fərdlər yetişdirməkdir. Bunun üçün pedaqoji prosesdə daim müxtəlif innovativ yanaşmalar, təlim texnologiyaları və vasitələri tətbiq olunur.

Təhsil sistemində, xüsusən də kimyanın tədrisində bir neçə innovativ yanaşma mövcuddur. Onların tətbiqi şagirdlərdə müasir dövrün bacarıqlarının - yaradıcılıq və tədqiqatçılıq qabiliyyətlərinin inkişafına xidmət edir. Bu yanaşmalardan bəziləri aşağıdakılardır:

1. *Sorğuya əsaslanan öyrənmə*: Kimyanın tədrisinə bu yanaşma faktları, hadisələri və düsturları yadda saxlamaqdan daha çox kəşf etməyi vurğulayır. Şagirdlərə suallar vermək, araşdırmalar və təcrübələr aparmaq, öz müşahidələri və məlumatlarına əsaslanaraq nəticə çıxarmaq tövsiyə olunur.
2. *Çevirilmiş sinif otağı*: Şagirdlər dərsdən kənar vaxtlarda müxtəlif ədəbiyatlara baxır və ya materialları oxuyur, sonra isə dərs vaxtını materialla bağlı fəaliyyət və müzakirələrlə məşğul olaraq keçirirlər. Bu yanaşma daha interaktiv və differensial öyrənməyə imkan verir, çünki şagirdlər sərbəst öz sürətləri ilə işləyir və müəllimdən daha çox fərdi diqqət ala bilərlər.
3. *Birgə öyrənmə*: Bu yanaşma şagirdlərin kiçik qruplarda problemləri həll etmək, təcrübələr aparmaq və konsepsiyaları müzakirə etmək üçün birlikdə işləməsini nəzərdə tutur. Birgə öyrənmə şagirdlərə komanda işi və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir, həmçinin onlar mövzunu dərindən dərk edir. Bu cür mühiti inkişaf etdirməklə, yəni problemləri həll etmək və yeni ideyalar irəli sürmək üçün şagirdləri kiçik qruplarda birlikdə işləməyə həvəsləndirməklə onların yaradıcılıq bacarıqlarını inkişafına zəmin yaratmaq mümkündür.
4. *Oyunlaşdırma:* Tədris prosesində oyun əsaslı yanaşmalardan istifadə edərək öyrənmək şagirdlər üçün daha cəlbedici və əyləncəli ola bilər. Məsələn, onlar təcrübələr aparmaq üçün virtual laboratoriyalardan istifadə edə və ya kimyəvi

anlayışlar haqqında biliklərini tətbiq etmələrini tələb edən kimya mövzulu oyunlarda iştirak edə bilərlər.

5. *Rəqəmsal alətlər və resurslar*: İnteraktiv simulyasiyalar, videolar və animasiyalar kimi onlayn resurslar şagirdlərə kimyadakı mürəkkəb anlayışları vizuallaşdırmağa və anlamağa dəstəkçi olur. Bundan əlavə, virtual reallıq və artırılmış reallıq kimi rəqəmsal alətlər interaktiv öyrənməni təmin edir.
6. *Təcrübə əsaslı fəaliyyətlərdən istifadə*: Təcrübələr və nümayişlər kimi praktiki fəaliyyətlər şagirdlərin kimya ilə daha yaradıcı şəkildə məşğul olmasına kömək edə bilər. Şagirdlər öz müşahidələri haqqında tənqidi düşünməyə və nəticələrini əsaslandırmağa çalışırlar.
7. *İncəsənət və dizaynın sintezi*: İncəsənət və dizaynı kimya dərslərinə daxil etmək şagirdlərə kimyəvi anlayışlar haqqında yaradıcı düşünməyə kömək edir. Şagirdlər kimyəvi reaksiyaların vizual təsvirlərini yarada və ya öz təcrübələrini tərtib edə bilərlər. Həmçinin, laboratoriyanın və sinif otağının, avadanlıqların dizaynı bu işdə yardımçı vasitələr hesab olunur. Nümunə olaraq, kimyəvi elementlərin baş hərfləri formasında olan oturacaqlar və s. göstərmək olar.
8. *Müstəqil tədqiqat üçün imkanların təmin edilməsi*: Şagirdləri onları maraqlandıran mövzuları təkbaşına araşdırmağa həvəsləndirmək və onlara öz tədqiqatlarını aparmaq üçün əlverişli məkan, şərait, resurslar təqdim etməklə mümkündür. Bu, onların həm yaradıcılıq, həm də problemi müstəqil həlletmə bacarıqlarını inkişaf etdirməyə kömək edəcək.

## Ədəbiyyat


1. Arshad M. “Innovative Teaching Strategies and Chemistry Achievements at Secondary Level” , American Journal, 2018
2. Baxışova A.
   Pedaqoji prosesə müasir yanaşma günün tələbidir, “Azərbaycan müəllimi” jurnalı, 15 oktyabr, 2010
3. Haas W. “How to Teach Chemistry in a More Inclusive Way”, Active Learning , August 26, 2021

4. Vijayalakshmi M. “Modern Teaching Techniques in Education”, Avinashilingam University, February 2019.
5. Yodgorov B.O, “New Approach Teaching Chemistry”, Grafiati 5 may 2022

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ YENİ YANAŞMA

***Səyyarə Rafiq qızı Qurbanlı***
***BDU-nun II kurs magistrantı***
***seyyare.qurbanli@gmail.com***

Qiymətləndirmə dedikdə, sadəcə təhsilalanın təlim nəticələrinə aid məsələ başa düşülməməlidir. Dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət, həm də müəllimin fəaliyyətinə, pedaqoji ustalığına, bir sözlə peşəkarlığına verilən qiymət kimi qəbul olunur. Şagird nailiyyətlərinin qiymətləndirilməsi pedaqoji anlayış kimi təhsil leksikonuna yaxın illərdə daxil olmuşdur. Bundan əvvəl "Şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi" anlayışı işlədilmişdir və şagirdin gündəlik qiymətləndirilməsi kimi başa düşülmüşdür. Şagirdin dərs ilinin yarısı boyunca almış olduğu 3,4 qiymət onun yarımillik qiymətini təyin edirdi. Halbuki, şagird yarımil ərzində minimum 12-14 dəfə həmin dərsi keçir. Bəzən qiymətləndirildiyi günlər onun psixoloji və ya fiziki olaraq yaxşı olmadığı günə düşə bilirdi. Beləliklə şagirdin yarım illiyi ədalətsiz qiymətləndirilmiş ola bilirdi. Bundan əlavə şagirdin digər mövzuları mənimsəyib-mənimsəməməsi də müəyyən olunmamış qalırdı.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi çox geniş və əhatəli prossesdir. Bu prossesi yalnızca şagird nailiyyətlərinin qiymətləndirilməsi kimi yox, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən vasitə kimi qəbul etmək lazımdır. Ardıcıl xarakter daşıyan şagird nailiyyətlərinin qiymətləndirilməsi prossesi özündə şagirdlərin fəaliyyətlərinin daim nəzarətdə saxlanmasını, onların irəliləyişlərini, yaxud geriləmələrinin izlənməsini və bu məqsədlə monitorinqlərin aparılmasını özündə ehtiva edir. Məhz həmin monitorinqlərin nəticələri təlim prossesinin optimal qurulması,

müəllimlərin işinin təkmilləşdirilməsi, habelə kurrikulumlarda və dərsliklərdə zəruri dəyişikliklərin olması haqqında müvafiq qərarlar qəbul etməyə imkan verir.

Yeni yanaşmada əsas dəyişiklik olan hissələr summativ qiymətləndirmə ilə bağlıdır. Belə ki, ibtidai təhsildən tutmuş 11-ci sinifə qədər həyata keçirilən summativ qiymətləndirmədə dəyişiklik edilib. Summativ qiymətləndirmə ümumiyyətlə 3 formada:

- Kiçik summativ qiymətləndirmə
- Böyük summativ qiymətləndirmə
- Yekun summativ qiymətləndirmə

kimi həyata keçirilir. Kiçik summativ qiymətləndirmələri fənn müəllimləri həyata keçirir. Hal-hazırda qaydalara görə qiymətləndirmə vasitələrini müəllim özü seçir. Bugünədək il ərzində neçə kiçik summativ qiymətləndirmə keçirəcəyinə də müəllim özü qərar verirdi. Lakin artıq qaydalarda dəyişikliklərdən sonra keçiriləcək summativ qiymətləndirmələrin sayı da konkretləşib. Belə ki, orta təhsil səviyyəsində kiçik summativ qiymətləndirmələrin sayı hər yarım ildə 3-dən az olmamalıdır. Bu şərt ona görə qoyulub ki, 1 və 2 qiymətləndirmə əldə edilən bilik və bacarıqları müəyyən etməkdə kifayət deyil. Azı 3 kiçik summativ qiymətləndirmə olmalıdır ki, şagirdlərin nəyə qadir olduqları ilə bağlı reallığı tam əks etdirsin.

Qüvvədə olan qaydalara əsasən, böyük summativ qiymətləndirməmi məktəb rəhbərliyi aparır. Təcrübələr göstərdi ki, böyük summativ qiymətləndirmələr bütün siniflərdə həyata keçirildiyindən məktəb rəhbərliyinin buna fiziki gücü çatmırdı. Odur ki, bu iş də müəllimlərin üzərinə atılırdı. Ona görə də gözləntilər nəticə vermirdi. Yeni yanaşmada böyük summativ qiymətləndirmələrin sayı azalıb. Belə ki, ümumi təhsil pilləsində hər səviyyənin sonunda bütün fənlərdən böyük summativ qiymətləndirmə nəzərdə tutulub. Yəni, ibtidai təhsil səviyyəsinin sonunda – IV sinifdə, ümumi orta təhsil səviyyəsinin sonunda – IX sinifdə və tam orta təhsil səviyyəsinin sonunda – XI sinifdə bütün fənlər üzrə böyük summativ qiymətləndirmə keçiriləcək. Bu da hər təhsil səviyyəsinin sonunda əldə edilən bilik və bacarıqların ölçülməsi məqsədi daşıyır. Digər siniflərdə - V, VI, VII, VIII və X

siniflərdə yalnız buraxılış imtahanları olan fənlərdən böyük summativ qiymətləndirmələr keçiriləcək. Bu da şagirdlərin buraxılış imtahanlarına daha yaxşı hazırlaşmalarını təmin etməkdən ötrüdür. Bundan başqa, mütəxəssislər hesab edirlər ki, böyük summativ qiymətləndirmənin sayının azalması məktəb rəhbərliyinə imkan verəcək ki, şagirdlərin nəyə qadir olduqlarını müəyyənləşdirib, bunu gələcək planlaşdırmalarında nəzərə ala bilsinlər. Beləliklə, yeni qiymətləndirmə qaydalarına görə, kiçik summativ qiymətləndirmə dərs vaxtı, bir dərs saatında, böyük summativ qiymətləndirmə isə dərsdənkənar saatda və daha böyük - 90 dəqiqəyə qədər vaxt ərzində həyata keçirilməlidir.

**Ədəbiyyat**


1. Təhsil haqqında Azərbaycan Respubkinasının qanunu.
2. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası.
3. Qiymətləndirmədə yeni yanaşma, Azərbaycan müəllimi, 28.sentyabr.2018. https://muallim.edu.az/news.php?id=2399
4. Kurikulum bələdçisi (izahlar və tətbiqlər). Elm və təhsil. Bakı-2019. 273s.
5. Məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları, Azərbaycan müəllimi, 23.oktyabr.2009. https://www.muallim.edu.az/www.old/arxiv/2009/41/41-13.htm
6. Təhsildə qiymətləndirmə siyasəti. 525-ci qəzet. 19.mart.2011. http://www.anl.az/down/meqale/525/2011/mart/164327.htm


## AZƏRBAYCANDA TƏHSİL VƏ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN PRİNSİPLƏRİ


***Ülkər Malik qızı Mirzəyeva***
***Bakı Qızlar Universitetinin magistrı***
***ulkermirzeyeva002@gmail.com***


Bütün inkişaf etmiş ölkələr təhsili strateji sahə hesab edir və ölkələrin gələcək inkişafının təhsil sistemindən, təhsilin səviyyəsindən asılı olduğunu etiraf edir.Azərbaycan Respublikası

müstəqillik qazandıqdan sonra təhsil sistemində əsaslı islahatların aparılması zərurəti ortaya çıxdı.Azərbaycanda ictimai-siyasi quruluşun dəyişməsi,dünyada gedən qlobal dəyişikliklər,cəmiyyətin demokratikləşməsi,həmçinin dünya təhsil sisteminə inteqrasiya və Boloniya prosesinə qoşulması milli və ümumbəşəri dəyərləri özündə əks etdirən mükəmməl təhsil sisteminin yaradılmasına səbəb oldu.

Məlumdur ki, ölkəmizdə təhsil dövlətin himayəsindədir. Ölkəmizdə yaradılan bütün təhsil müəsissələrinin fəaliyyət göstərməsinə dövlət icazə verir.

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən təhsilin inkişafına qayğı göstərmiş,ölkənin sosial-iqtisadi inkişafında təhsilin həlledici rola malik olduğunu qeyd etmişdir.Onu da qeyd edək ki, təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulması ideyası məhz Heydər Əliyevin başlıca məqsədlərindən biri idi.Əsası ümumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan təhsil strategiyası hazırda Prezident İham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.Müstəqil Respublikamızda təhsil quruculuğu konkret prinsiplərə istinad edir.Təsadüfi deyildir ki,ölkəmizdə həyata keçirilən təhsil islahatına dair direktiv və proqram sənədlərində də təhsil quruculuğu həmin prinsipləri təsdiq edən dövlət standartları əsasında qurulur.Təhsil dövlətin ideyalarının həyata keçiricisidir.Təhsil sahəsində dövlət siyasətinin prinsiplərinə gəldikdə isə onu qeyd edək ki,sivil demokratik ölkələrdə təhsil sistemi demokratik prinsiplər əsasında qurulur.Bura təhsilin humanist xarakterindən tutmuş onun demokratikləşdirilməsi və dövlət-ictimai xarakter daşıması,elmi-dünyəvi xarakteri,milli zəminə və bəşəri dəyərlərə əsaslanması,fasiləsizlik,çeviklik,diferensiallaşdırılması və fərdiləşdirilməsi,həmçinin təhsil müəsissələrinin siyasi və dini qurumlardan asılı olmaması kimi prinsiplər daxildir.

Hər bir müəllim təlim prosesində bu prinsipləri rəhbər tutmalı, onlara kompleks yanaşmalıdır.Tədqiqatçı alimlər yazır ki:”Təlim-tərbiyə işi elə qurulmalıdır ki,hər bir şagird özünü təlim-tərbiyənin mərkəzində hiss edə bilsin.Şagird interaktiv fəaliyyəti ilə həmişə diqqəti cəlb etsin, ön planda görünsün.Bunun üçün, ilk olaraq müəllim şagird münasibətləri dəyişilməlidir.Sinifdə müəllimlə

şagirdlər arasında qarşılıqlı ünsiyyət əlaqələri formalaşmalıdır.Müəllim şagirdlərin kollektiv şəkildə işləmələrinə istiqamət verməlidir, özü isə vasitəçi rolunda çıxış etməlidir.Yəni, müəllim şagirdə şəxsiyyət kimi yanaşmalı, ona dəyər verməlidir.Müəllimlər şagirdlərlə maraqlanmalı,nöqsanları, onların yaranma səbəblərini dərindən öyrənməlidir.Şagirdlərin fəallaşdırılmasına nail olmalıdır.Bu zaman müəllim humanistlik etmiş olar.Çünki humanistlik hər şeyə göz yummaq deyil,yaranmış problemi,nöqsanı pozitiv yollarla həll etməkdir.

Demokratiklik təhsil alanların azad düşüncə ruhunda tərbiyə edilməsini,qərarların tək başına yox kollegial şəkildə qəbul edilməsini,tələbə(şagird)münasibətlərinin demokratik üslubda qurulmasını nəzərdə tutur.

Təhsilin səmərəli təşkili onun ən mühüm prinsiplərindən biridir.Təhsil sisteminin səmərəliliyi üçün,adambaşına normativlər əsasında xərclər hesablanmalı,təhsilin inkişafı üçün büdcədən vəsait ayrılmalı,tədris avadanlıqları yeniləşdirilməlidir.

Milli təhsil sistemimiz sürətlə dünya təhsil sisteminə qoşulur.Bu baxımdan həyata keçirilən islahatlar təqdirəlayiqdir.

Bu prinsiplərin hər birinə ciddi şəkildə yanaşan,öz fəaliyyətində bu prinsiplərə istinad edən hər bir müəllim,təhsil işçiləri təhsildə yüksək göstəricilərə nail olur.Nəticədə təhsilin keyfiyyəti daha da yüksəlir.

## ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL

***Ülya Qorxmaz qızı Ağazadə***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin sosial iş ixtisası üzrə 3-cü kurs tələbəsi***
***ulyaakhazade@gmail.com***

Azərbaycanda hər zaman təhsilə böyük diqqət yetirilir. Təhsilin inkişafı insan kapitalının inkişafına gətirib çıxarır. İnnovativ təhsil həm də güclü və mütərəqqi ölkə deməkdir. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev vurğulamışdır: “Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir”. Elə onun göstəricisidir ki,

uzun illərdir təhsil sahəsində aparılan islahatlar bəhrəsini verir, təhsilin keyfiyyəti gündən-günə artır. Respublikamızda aparılan təhsil islahatlarının strateji məqsədlərindən biri də gənclərimizi savadlı və səriştəli şəxs kimi formalaşdırmaqdan ibarətdir. Bu məsələ isə müəllimin akademik bacarığından , tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır. Müasir dövrdə bu şərəfli işi yerinə yetirmək məqsədilə nümunəvi xarakteristik keyfiyyətlərə malik elm və təhsil xadimlərinin, pedaqoqların təcrübəsindən, metodlarından faydalanmaq xüsusilə vacibdir.

Hər bir xalqın, ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Ölkəmizdə təhsilin müasir dünya standartları səviyyəsinə qaldırılması məqsədi ilə aparılan islahatlar uğurla davam etdirilir, təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam əqidəli vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilib. Bu, ilk növbədə dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyasının əsas yolu bilavasitə təhsilin inkişafından asılıdır. Sevindirici haldır ki, Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində, xüsusilə də Azərbaycanın parlaq gələcəyinə hesablanan elm və təhsil sahəsində mütərəqqi islahatların aparılmasına böyük önəm verilir. Dahi rəhbər Heydər Əliyevin vurğuladığı kimi, təhsil millətin gələcəyidir. İnkişaf etmiş dövlətin qurulması üçün əsas hərəkətverici amilin yüksək təhsil səviyyəsi olmasını hesab edən Prezident İlham Əliyev tərəfindən də Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq Ulu Öndərin təhsil siyasəti hazırda uğurla davam etdirilir. Təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi ölkədə təhsillə bağlı nəticələrə də müsbət təsir göstərib. Təhsil sistemində aparılan islahatlar artıq öz nəticələrini verməkdədir. Azərbaycan təhsili güclü maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir.

Təhsil kurikulumları xarakterinə görə iki yerə ayrılır. Onlardan

birincisi fənyönümlü, ikincisi isə şəxsiyyətyönümlü kurikulum adlanır. Şəxsiyyətyönümlü kurikulumlar, bilavasitə, həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlərinin, əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir. Fərd olaraq dünyaya gələn hər bir insan 3 əsas amilin təsiri ilə şəxsiyyətə çevrilir. Pedaqoq və psixoloqlar həmin amilləri bu cür təsnif edirlər: mühit, tərbiyə və irsiyyət. Bu amillər içərisində tərbiyə mühüm əhəmiyyət kəsb edir, digər amillər isə məhz düzgün və məqsədli tərbiyə zamanı şəxsiyyətin formalaşmasına öz müsbət təsirini göstərə bilir.

2006-cı ildə Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası hazırlanıb təsdiq edildi. Fənn kurikulumları şəxsiyyətyönümlü olub şagirdlərdə daha çox kompetensiyaların formalaşmasına istiqamətlənmişdir. Azərbaycan müstəqillik əldə edəndən sonra cəmiyyətin sosial, siyasi , iqtisadi, mənəvi həyatında mühüm irəliləyişlər baş verdi. Ölkəmizin həyatının bütün sahələrində nəzərə çarpacaq səviyyədə yüksəliş baş verdi. Xalqın siyasi iradəsi, milli birliyi zəminində təhsilalanın şəxsiyyəti, intellekti , onun həqiqi bir vətəndaş kimi tərbiyəsi yeni keyfiyyət qazandı. Müasir dövrdə təhsilimizin səviyyəsini yüksəltməklə biz gənclərin bilik, bacarıq və vərdişlərini , dünyagörüşünü inkişaf etdirməyə nail ola bilərik. Lakin nəzərə alınmalıdır ki, fərdlərin biliyini, dünyagörüşünü inkişaf etdirmək nə qədər vacibdirsə, onun bir şəxsiyyət kimi mənəvi aləmini zənginləşdirmək, onda hələ kiçik yaşlarından müsbət əxlaqi keyfiyyətlərin formalaşmasına nail olmaq daha zəruridir.

Azərbaycan Respublikası Təhsil qanununda göstərildiyi kimi, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq zəruri tələblərdən biridir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2013-cü 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın birinci istiqamətində şəxsiyyətyönümlü təhsilin məzmununun inkişaf etdirilməsi nəzərdə tutulur. Dövlət Strategiyası müasir dövrdə vətənə layiqli vətəndaş, dövlətin, dövlətçiliyin gələcək inkişafı naminə şəxsiyyət yetişdirməyi qarşıya məqsəd qoyan, bu problemin həllinə yönəldilmiş konseptual bir sənəddir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş

Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasına əsasən müasir şəraitdə cəmiyyətin sosial-iqtisadi və elmi-texniki inkişafının əsas xüsusiyyəti istehsal fəaliyyətinin məzmununun və onun subyektləri arasında qarşılıqlı əlaqələrin sürətlə dəyişməsindən ibarət olması, bu isə öz növbəsində, insanın müəyyən qədər bilik və bacarıqlar alması istiqamətinə yönəlmiş təhsil növündən bir şəxsiyyət kimi, yaradıcı fəaliyyətin və davranışın subyekti kimi inkişaf etməsinə imkan verən təhsil növünə keçilməsini tələb edir. Yalnız şəxsiyyətə yönəlmiş təhsil insanın dinamik dəyişən ictimai və iqtisadi həyatın tələblərinə cavab verən bir şəxsiyyət kimi inkişaf etməsinə imkan yarada bilər.

Hər bir xalqın tarixi təkamül prosesinin əsasını dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli-mənəvi irs, əxlaqi-mənəvi dəyərlər müəyyən edir. Azərbaycan xalqı tarixən formalaşmış milli-mənəvi dəyərləri və əxlaqi keyfiyyətləri ilə dünya mədəniyyətinə misilsiz töhfələr vermişdir. XXI əsrdə, qloballaşma dövründə milli-mənəvi , əxlaqi dəyərlərimiz üçün təhlükə yaranıb. Xalqın mənəvi irsini, dəyərlərini qorumaq, genetik yaddaşını, tarixi kimliyini gələcək nəsillərə ötürmək hər bir vətəndaşın mənəvi borcudur. Ulu Öndər Heydər Əliyev deyirdi: “ Gənclərimiz milli ruhda, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır. Azərbaycan xalqının milli mentaliteti onun ən böyük sərvətidir. Elə bu səbəbdən də biz öz dəyərlərimizi qoruyub saxlamalıyıq.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, “Azərbaycan müəllimi “ qəz, 2013, 25 oktyabr
2. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası, 2007, 25 İyun
3. Heydər Əliyev, Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002

## *III B Ö L M Ə*

## *TƏRBİYƏ NƏZƏRİYYƏSİ*

# HEYDƏR ƏLİYEVİN MİLLİ TƏRBİYƏ KONSEPSİYASI

***Nübar Muxtar qızı Muxtarova***
***BDU-nun professoru***
***professormukhtarova@gmail.com***

*«Biz bütün sahələrdə, bugünkü Azərbaycan reallığında Heydər Əliyevin izini görürük. Güclü və möhkəm təməl, milli dəyərlər üzərində müasir dövlətin qurulması Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biridir. Onun təşəbbüsü ilə dövlətimizin ideoloji əsasları formalaşmışdır. Azərbaycançılıq məfkurəsini əhəmiyyətə təqdim edən məhz Heydər Əliyev olmuşdur. Bu gün azərbaycançılıq fəlsəfəsi bizim əsas ideoloji dayaqlarımızdan biridir»*

***İlham Əliyev***

***Ulu öndərin elmi HEYDƏR ƏLİYEVİN -pedaqoji irsində cəmiyyətin əsas funksiyalarında biri olan tərbiyə məsələləri də xüsusi yer tutur. Mükəmməl və sağlam tərbiyə dövlətin davamlı inkişafında həlledici rol oynayır***. Heydər Əliyevin fikrincə, “Tərbiyə işini düzgün həyata keçirməyin ilkin şərti cəmiyyətdə hamının əməl edəcəyi əxlaq normaları əsasında qurmaqdır. Mənəvi normalar xalqın ənənələrinə, dövlətin həyata keçirdiyi ideologiyaya, dünyada bərqərar olmuş əxlaq qaydalarına uyğun gəlməlidir». Heydər Əliyev elə hesab edirdi ki, «Yeni cəmiyyət quruculuğunun nəzəriyyə və təcrübəsini öyrənmək əsasında hər bir vətəndaşın fəal həyat mövqeyi seçmək bacarığının formalaşdırılması durmalıdır».

Heydər Əliyev bütün dolğun və məzmunlu çıxışlarında müstəqillik dövründə xalqda, xüsusən gənc nəsildə milli şüurun, milli-mənlik şüurunun, milli-vətənpərvərlik şurunun formalaşmasında tərbiyənin güclü vasitə olduğunu dönə-dönə xatırladırdı. Milli şüurun formalaşmasında ulu öndərə görə, soykökünə qayıdış, milli əxlaq, Vətənə məhəbbət, milli vətənpərvərlik və qürur hissləri kimi mühüm hisslər əsas rol oynayır. ***Ulu öndər Heydər Əliyev***

Milli şüuru milli-mənəvi bütövlüyümüz hesab edən Ümummilli liderimiz Heydər Əliyev milli tərbiyə məsələlərinə xüsusi əhəmiyyət verirdi. Onun milli tərbiyə haqqındakı fikirləri ensiklopedik zəkanın məhsulu kimi qiymətlidir. Milli tərbiyə-vətənpərvərlik tərbiyəsi barədə fikirləri, düşüncələri məhz Azərbaycan xalqının milli xarakteri, milli dünyagörüşünü parlaq şəkildə təcəssüm etdirir.

Müasir, milli tərbiyənin qarşısında duran mühüm vəzifələrdən biri bugünkü gəncliyi milli ruhda, milli vətənpərvərlik ruhunda, vətəndaşlıq ruhunda yetişdirməkdən, soykökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri formalaşdırmaqdan ibarətdir. Ulu öndər deyirdi: «Gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış gənclər olmalıdır, gənclərimiz həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidirlər. Çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər». Böyük öndərimiz öz çıxışlarında Azərbaycan gənclərinin mükəmməl təhsil alması və milli ruhda tərbiyə olunması zəruriliyini xüsusi diqqətə çatdırırdı. «Gənclərimiz təhsil almalıdırlar. Çünki ali təhsil olmasa gənclərimizin istənilən gələcəyi də olmayacaqdır». Heydər Əliyev mənəvi tərbiyə məsələsini də Azərbaycan gəncliyi qarşısında dayanan mühüm prioritetlərdən hesab edirdi: «Gənclərin qarşısında duran əsas məsələlərdən biri mənəvi tərbiyə məsələsidir. Ümumbəşəri və milli-mənəvi dəyərlər hər bir gənc tərəfindən mənimsənilməlidir, gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir».

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin gələcəyi baxımından gəncliyimizə dərindən inanırdı: «Mən əminəm ki, Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir, ona görə də biz yaşlı nəslin nümayəndələri arxayınıq ki, Siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm». Gənclərin qarşısında dayanan vəzifələr, birinci növbədə, cəmiyyətdə öz layiqli yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir»

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin gələcəyi baxımından gəncliyimizə dərindən inanırdı: «Mən əminəm ki, Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir, ona görə də biz yaşlı nəslin nümayəndələri arxayınıq ki, Siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm». Gənclərin qarşısında dayanan vəzifələr, birinci növbədə, cəmiyyətdə öz layiqli yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir».

Ulu öndər Heydər Əliyev milli elmin, təhsil və tərbiyənin mahiyyətinə və inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşır, xalqımızın intellektual səviyyəsinin daha da yüksəldilməsini ən vacib, təxirəsalınmaz vəzifələrdən biri hesab edirdi. Təhsil inkişafı təmin edən ən güclü vasitədir. Bütün dövrlərdə hər bir cəmiyyətin bir sıra əsaslı problemləri və onların həlli məhz təhsilin tərəqqisindən keçir. Ulu öndər mənəvi ideallarıın təntənəsini məhz təhsildə, xalqın maariflənməsində görür, «Təhsili xalqın gələcəyi» hesab edir, «Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir, o milli məqsədlər, mənafelər əsasında qurulmalıdır» - deyirdi. Heydər Əliyevə görə, «Təhsil inkişafı təmin edən ən zəruri vəzifədir». Ümummilli liderin təhsilə münasibəti belə idi: «Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam…Hesab edirəm ki, cəmiyyət harada olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir». Ulu öndər bu məqsədi əsas

götürərək hələ ölkəyə birinci rəhbərliyi dövründə Xalq təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, ölkənin mədəni-intellektual resurslarının gücləndirilməsinə yönəltmişdir.

Çiçəklənən müasir Azərbaycan elminin, təhsil və tərbiyə sisteminin, bütünlükdə mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əlirza oğlu Əliyev ölkəyə rəhbərliyinin, istər sovet dönəmində (1969-1982), istərsə də müstəqillik (1993-2003) dövründə təhsil-tərbiyə sahəsini həmişə diqqətdə saxlamış, milli elmimizin, təhsilimizin, milli tərbiyəmizin güclü himayədarı olmuşdur. Ulu öndər Heydər Əliyevin bu mühüm sahəyə son dərəcə həssas, insani münasibəti təbii idi.

Təhsil ilk baxımda çox asan fəaliyyət sahəsi kimi görünür, ancaq təhsil sferasına daxil olarkən onun nə qədər mürəkkəb bir sahə olduğu aydınlaşır. Təhsil təkcə məktəb, müəllim, şagird münasibətlərinin cəmi deyildir. Təhsildə tarixi təcrübə, milli ənənə, bəşəri dəyərlər cəmləşmişdir. Ulu öndərin fikrincə, «Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə də kənd təsərrüfatı, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual sahəsini əks etdirən sahədir». Hələ sovetlər dönəmində Ulu öndər Heydər Əliyev özünün təhsil sahəsində milli konsepsiyasını müxtəlif istiqamətlərdə həyata keçirirdi.

İlk növbədə, təhsilimizin ştat heyəti yerli kadrlar hesabına milliləşdirildi ki, ölkəmizin hər yerində, xüsusən kənd yerlərində yeni tipli, müasir məktəblər tikildi, şəhər və kənddə işləyən müəllimlərə xüsusi qayğı göstərildi, onların mənzillə təmin olunması işi yaxşılaşdırıldı, gənclərə ölkəmizdə və digər ölkələrdə ali təhsil almaq üçün şərait yaradıldı, təhsilin maddi-texniki bazası gücləndirildi. Ölkəmizin gələcək inkişafına ünvanlanmış bütün bu strateji işlərə Heydər Əliyev şəxsən özü rəhbərik edirdi. Daim xalqının gələcəyini düşünən böyük Azərbaycanlı hələ o zamanlar vaxtı qabaqlayaraq XXI əsrin Azərbaycanını yaradırdı.

Azərbaycan xalqının böyük tarixi ərzində məktəb və maarifin ən yüksək inkişafı təbii ki, yetmiş-səksəninci illərdə oldu. Ulu öndər Heydər Əliyev yetmiş-səksəninci illərdə formalaşdırdığı bu zəngin

intellektual potensialından səmərəli istifadəni müstəqillik illərində (1993-2003) daha da inkişaf etdirdi. Əvvəla, ölkə yaranmış siyasi böhrandan xilas oldu, Azərbaycanın elmi, təhsili ağır tənəzzüldən qurtuldu, ölkəmizdən xaricə «beyin axını» dayandırıldı, ölkədə siyasi, mədəni sahələrdə güclü inkişaf başlandı. Heydər Əliyev dövlət quruculuğu prosesinin ən zəruri tərkib hissələrindən biri kimi, hələ yetmişinci-səksəninci illərdə respublikada formalaşdırdığı zəngin elmi-intellektual potensiala istinad edərək özünün təkmil təhsil konsepsiyasını irəli sürdü. Ulu öndər milli tərəqqi baxımından strateji əhəmiyyət kəsb edən bu sahənin problemlərini daim diqqət mərkəzində saxladı. Ulu öndər Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi əsaslandırdı. Elm və təhsil sahəsində mütərəqqi islahatları ardıcıllıqla həyat keçirdi. 1996-cı ildə «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» qərar qəbul edildi, yeni peşə məktəbləri və peşə liseyləri yaradıldı. 1998-ci ildə «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında» sərəncamı imzaladı. 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqram"ında təhsil sahələrində islahatların məhz tədricən, mərhələlərlə həyata keçirilməsi, Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesini təmin etdi. «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında» sərəncamında müstəqil Azərbaycan Təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyat keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil sisteminə inteqrasiyasının həyat keçirilməsi kimi mühüm vəzifələr önə çəkildi. «Azərbaycan Respublikasında Təhsil sahəsində islahat Proqramı»nın (1999) əsas mahiyyətini isə təhsil sahəsində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə üst-üstə düşən prinsiplərinin tətbiqi məsələləri təşkil edirdi. «Dövlət Komissiyası»nın iclasındakı yekun nitqində Heydər Əliyev deyirdi: «Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz.

Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan».

Ulu öndər respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə - iqtisadiyyatı inkişaf etdirən bir amil kimi baxır, iqtisadiyyatımız təhsilimizin başqa formada inikasıdır qənaətinə gəlirdi. Bu problemlə bağlı onun fikri belə idi: «Bizim büdcədə ən çox payı olan təhsil sistemidir. Bu da təsadüfi deyildir. Başqa sahədə ola bilər kəsirlər də olsun, amma təhsildə yox. Çünki təhsildə olan kəsir, çatışmazlıq bizim gələcəyimizə xətalar yaradacaqdır». Bu müdrik kəlamdan belə qənaətə gəlmək olar ki, bütün inkişaf etmiş dövlətlər iqtisadi qüdrətinə, təhsilinə görə sıraya düzülürlər. İqtisadiyyatın açarı texnikadır. Texnikanın açarı texnologiyadır. Texnologiyanın açarı elmdədir. Elmin açarı isə təhsildir. Nəticə aydındır: iqtisadiyyatın da açarı təhsildir. Odur ki, dövlətin güclü olması üçün xəzinəsi özündə olan təhsil sisteminin potensialından səmərəli istifadə etmək lazımdır. Ulu öndər cəmiyyətin gələcək tərəqqisi ilə təhsilin məzmunu arasında bir bağlılıq görür və deyirdi: «Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Təhsilin məzmunu elə müəyyənləşdirilməlidir ki, gənclərimiz həm vətənpərvər, həm də müasir tələblərə cavab verən bilən bilikli insan kimi formalaşsınlar». Ulu öndərin müəllim haqqında dediklərini ümumiləşdirsək, onun Azərbaycan müəlliminə və məktəbinə münasibətini tamamilə açmış olarıq: «Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm». Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə Təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir». «İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim – hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır». «Müəllimlik çox şərəfli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Müəllim sənəti şərəfli və gözəl sənətdir. Qədimdən xalqımızın içərisində ən mötəbər və ləyaqətli adamları

müəllim deyə çağırmışlar». «Həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli. özümlü olublar və mənəviyyatını hər şeydən yüksək tutublar».

Ulu öndər  Heydər Əliyev həm təhsil sisteminin qurulmasında, həm də təhsilin məzmununda milli və bəşəri dəyərlərin vəhdət təşkil etdiyini göstərərək deyirdi: «Həm öz əlimizdə olan potensialdan, həm də bütün ölkələrlə hazırkı azad əlaqələrdən istifadə edərək, inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür». Bu fəlsəfi kəlamdan çıxan nəticə belədir: təhsil bilməni, icad etməni, birgəyaşama mədəniyyətini, liberal-demokratik cəmiyyətlərin baza prinsiplərini, dövləti düşüncəni, müstəqilliyin yüksək amal, azadlığın ali nemət olduğunu gənclərə öyrətməlidir. Ulu öndər demokratiya, azadlıq, ədalət, humanizm, insan haqlarına hörmət, elmi-texniki yaradıcılığa meyillilik, informasiyanı və zamanı dəyərləndirə bilmək qabiliyyətini xalqımıza, xüsusən gənclərə öyrətməyi, təhsilin başlıca vəzifəsi hesab edirdi. Heydər Əliyevə görə, «Təhsilin vacib məsələlərindən biri də milli dəyərlərimizi bəşəriyyətə, bəşəri dəyərlərin isə xalqımıza çatdırılmasıdır». Ümummilli lider Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2003-cü il tarixli fərmanı isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, onun beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Bu fərmanla təhsil müəssisələrinin, xüsusən ali təhsilin şəbəkəsi genişləndirilmiş, daha bir neçə universitetə muxtariyyət statusu verilmiş, ölkəmizdə müəllim hazırlığı keyfiyyətcə yaxşılaşdırılmışdır. Təhsilin ümumi keyfiyyətinə bilavasitə təsir edən mühüm amillərdən biri də orta ümumtəhsil məktəblərində maddi-texniki bazanın gücləndirilməsidir. Ulu öndərimizin 4 oktyabr 2002-ci il tarixli «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» sərəncamı da məhz milli təhsil sisteminin inkişafında mühüm amil olan ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsinə xidmət etmişdir.

Ulu öndər Heydər Əliyevin pedaqoji irsində ən önəmli

yerlərdən birini müəllimə və ziyalılara xeyirxah münasibətləri tutur. O, müntəzəm olaraq müəllimlərin maddi vəziyyəti ilə maraqlanır, bu işdə onlara böyük köməklik göstərirdi. Heydər Əliyev Azərbaycanın həm orta məktəb, həm də ali məktəb müəllimlərinin fəxri adlar almasına və ölkədə tanınmasına müstəsna əhəmiyyət verirdi. Müəllimlərə ....əxri adların verilməsindən ötrü Moskvaya edilən çoxsaylı müraciətlər Heydər Əliyevin müəllim əməyinin qiymətləndirilməsinə böyük diqqətinin təzahürü idi. Ulu öndər elə bir yığıncaq olmurdu ki, orada müəllimlərin ünvanına xoş sözlər deməmiş olsun. Heydər Əliyev Azərbaycan müəllimlərinin qurultaylarında iştirak edir, proqram xarakterli nitq söyləyirdi.

Ulu öndər Heydər Əliyev özünün şəxsi keyfiyyətləri, işinə, insanlara sadiqliyi, dövlət idarəçiliyini tərəqqiyə yönəltməsi ilə biz müəllimlərə əbədi örnəkdir. Müdrik bir Şərq mütəfəkkiri çox sərrast demişdir: «Bütün aləmi bir şəxsiyyətdə toplamaq cənabi Haqqa zor gəlməz ».

Ulu öndərin elmi-pedaqoji irsində cəmiyyətin əsas funksiyalarından biri olan tərbiyə məsələləri də xüsusi yer tutur. Mükəmməl və sağlam tərbiyə dövlətin davamlı inkişafında həlledici rol oynayır. Heydər Əliyevin fikrincə, "Tərbiyə işini düzgün həyata keçirməyin ilkin şərti cəmiyyətdə hamının əməl edəcəyi əxlaq normaları əsasında qurmaqdır. Mənəvi normalar xalqın ənənələrinə, dövlətin həyata keçirdiyi ideologiyaya, dünyada bərqərar olmuş əxlaq qaydalarına uyğun gəlməlidir». Heydər Əliyev elə hesab edirdi ki, «Yeni cəmiyyət quruculuğunun nəzəriyyə və təcrübəsini öyrənmək əsasında hər bir vətəndaşın fəal həyat mövqeyi seçmək bacarığının formalaşdırılması durmalıdır».

Heydər Əliyev bütün dolğun və məzmunlu çıxışlarında müstəqillik dövründə xalqda, xüsusən gənc nəsildə milli şüurun, milli-mənlik şüurunun, milli-vətənpərvərlik şurunun formalaşmasında tərbiyənin güclü vasitə olduğunu dönə-dönə xatırladırdı. Milli şüurun formalaşmasında ulu öndərə görə, soykökünə qayıdış, milli əxlaq, Vətənə məhəbbət, milli vətənpərvərlik və qürur hissləri kimi mühüm hisslər əsas rol oynayır. Milli şüuru milli-mənəvi bütövlüyümüz hesab edən Ümummilli liderimiz Heydər Əliyev milli tərbiyə məsələlərinə xüsusi əhəmiyyət

verirdi. Onun milli tərbiyə haqqındakı fikirləri ensiklopedik zəkanın məhsulu kimi qiymətlidir. Milli tərbiyə-vətənpərvərlik tərbiyəsi barədə fikirləri, düşüncələri məhz Azərbaycan xalqının milli xarakteri, milli dünyagörüşünü parlaq şəkildə təcəssüm etdirir.

Müasir, milli tərbiyənin qarşısında duran mühüm vəzifələrdən biri bugünkü gəncliyi milli ruhda, milli vətənpərvərlik ruhunda, vətəndaşlıq ruhunda yetişdirməkdən, soykökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri formalaşdırmaqdan ibarətdir. Ulu öndər deyirdi: «Gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış gənclər olmalıdır, gənclərimiz həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidirlər. Çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər». Böyük öndərimiz öz çıxışlarında Azərbaycan gənclərinin mükəmməl təhsil alması və milli ruhda tərbiyə olunması zəruriliyini xüsusi diqqətə çatdırırdı. «Gənclərimiz təhsil almalıdırlar. Çünki ali təhsil olmasa gənclərimizin istənilən gələcəyi də olmayacaqdır». Heydər Əliyev mənəvi tərbiyə məsələsini də Azərbaycan gəncliyi qarşısında dayanan mühüm prioritetlərdən hesab edirdi: «Gənclərin qarşısında duran əsas məsələlərdən biri mənəvi tərbiyə məsələsidir. Ümumbəşəri və milli-mənəvi dəyərlər hər bir gənc tərəfindən mənimsənilməlidir, gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir».

**Ulu öndər Heydər Əliyevin əbədiyyətə gedən sağlam, dərin, milli və ümumbəşəri elmi və pedaqoji irsi geniş bir spektri – xalqımızın milli təhsili, tərbiyəsi, intellektual və mənəvi inkişafı ilə bağlı məsələləri əhatə edir. Ulu öndərin bu müqəddəs milli inkişaf konsepsiyasını nəsillərdən-nəsillərə ötürmək hamımızın mənəvi borcumuzdur.**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİNDƏ MƏNƏVİ DƏYƏRLƏR

***İntiqam Hilal oğlu Cəbrayılov***
***ARTİ-nin Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri, pedaqogika elmləri doktoru, professor***
***intiqamcebrayilov@gmail.com***

Azərbaycan xalqının dövlətçilik tarixində Ümummilli Lider Heydər Əliyevin xüsusi, müstəsna xidmətləri vardır. Bu böyük tarixi şəxsiyyət müstəqil Azərbaycan dövlətinin memarı, qurucusu, görkəmli siyasi və dövlət xadimi, Ümummilli Lider kimi əsl mənada zəngin tarix yaratmışdır. O, görkəmli siyasi və dövlət xadimi kimi fəaliyyəti, ayrı-ayrı görüşlərdə, tədbirlərdə, toplantılarda öz çıxışları, nitqləri, məruzələri, hadisə və proseslərə hərtərəfli, dərin münasibəti ilə həm də tarix yazmışdır. Xalqımızın, dövlətimizin tarixi ənənələrinin qorunması, möhkəmlənməsi və inkişafına xidmət edən bu irs olduqca qiymətli və əhəmiyyətlidir.

Ulu Öndər Heydər Əliyev irsində mənəvi dəyərlər sistemli şəkildə əksini tapmışdır. Bu dəyərlər sistemi hər bir azərbaycanlının, ailənin, Vətənin, millətin və dövlətin inkişafı üçün təməl prinsiplərdir.Ümummilli Liderimizin bu baxımdan ideyaları bütövlükdə azərbaycançılıq konsepsiyası kimi qəbul edilir.

Ulu Öndər Heydər Əliyev ilk növbədə milli- mənəvi dəyərlərə xüsusi diqqət yetirməyi haqlı olaraq vacib sayırdı. Çünki milli mənəvi dəyərlər tarixin bütün dövrlərində sınaqdan çıxmış, xalqın milli mentalitetini əks etdirən keyfiyyətlərdir. Məhz bu keyfiyyətlərin qorunması xalqı daim yaşatmış, dilinin, mədəniyyətinin inkişafında mühüm rol oynamışdır [1].

Tarixdən məlumdur ki, hər bir xalqın həyatında, eyni zamanda siyasi-mədəni mövqeyində dil amili mühüm əhəmiyyət kəsb edir.Dil insanlar arasında təkcə ünsiyyət vasitəsi deyil, həm də bir fərd, şəxsiyyət, millət olaraq özünəməxsus xüsusiyyətləri, milli - mənəvi keyfiyyətləri, varlığını sübut edən vasitədir. Dil xalqın mənəvi abidəsidir.Məhz bu abidənin timsalında biz milli varlığımızı daha sistemli, dərindən dərk edir, tarixi adət-ənənələrimizi varislik yolu ilə

gələcək nəsillərə doğru, düzgün çatdıra bilirik. Ona görə də Ümummilli Lider Heydər Əliyev milli- mənəvi dəyərlərdən bəhs edərkən Azərbaycan dilinin saflığının qorunmasını, onun inkişaf etdirilməsini, bu dilə hörmət və məhəbbət aşılanmasını ən başlıca vəzifələrdən biri sayırdı.Ulu Öndər hələ Sovet İttifaqının mövcud olduğu dövrdə Azərbaycan dilinin dövlət dili elan edilməsinə və 1978-ci il Azərbaycan Kostitusiyasında belə bir müddəanın verilməsinə nail olmuşdu. Halbuki o zaman SSRİ-nin mövcudluğu şəraitində belə bir addım atmaq olduqca çətin idi. Ulu Öndərimiz hər zaman Azərbaycan dilinə, mədəniyyətinə xüsusi diqqət və qayğı göstərmişdir. Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə dilin qorunması və inkişaf etdirilməsi istiqamətində ardıcıl olaraq ciddi tədbirlər həyata keçirmişdir. Belə ki, 2001-ci il iyulun 18-də “ Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”, həmin il avqustun 9-də isə “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanlar imzalamışdır. Hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. 2003-cü il yanvarın 2-də isə Heydər Əliyevin fərmanı ilə “ Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu qanunda da ana dilimizə-Azərbaycan dilinə olan qayğı bir daha əsaslandırılmışdır.

Bunlar milli mənəvi dəyər kimi Azərbaycan dilinin saflığının qorunması baxımından çox əhəmiyyətlidir.

Ümummilli Liderimiz Azərbaycanın dövlətçilik tarixini, adət-ənənələrimizi milli tərbiyə vasitəsi kimi yüksək qiymətləndirirdi. O, hər bir gəncin, hər bir Azərbaycan vətəndaşının tarixi köklərə bağlılıq ruhunda tərbiyə olunmasını vacib sayırdı. Qeyd edirdi ki, gənclər tariximizi, adət-ənənlərimizi, dəyərlərimizi yaxşı bilməli, yaxşı öyrənməlidirlər. Məhz bu dəyərlər insanı vətənpərvər ruhda tərbiyə edir, böyüdür, cəmiyyətin layiqli üzvləri kimi formalaşdırır. Ona görə də təlim-tərbiyə prosesinin ən mühüm məqsəd və vəzifələrindən biri məhz bu məsələlər olmalıdır. Müəllim və tərbiyəçilər öz vəzifə borclarını yerinə yetirərkən bu istiqamətə xüsusi diqqətlə yanaşmalıdırlar.

Əslində Ulu Öndərin ilk növbədə özünün həyatı, mübarizə yolu, böyük amallara xidmət etməsi zəngin tərbiyə mənbəyi və

mənəvi dəyər nümunəsidir. Azərbaycan xalqı bu milli dəyəri ilə fəxr etməyə, iftixar hissi keçirməyə haqlıdır. Bu milli-mənəvi dəyəri qorumaq, örnək olaraq ondan bəhrələnmək, bu mənəvi keyfiyyətləri mənimsəmək hər bir azərbaycanlının, vətən övladının borcudur. Biz bu amallara, milli mənəvi dəyərlərə sadiq olmaqla vətənimizin, dövlətimizin, millətimizin inkişafına xidmət edir, beynəlxalq aləmdə də gücümüzü, qüvvəmizi artırır, ləyaqətli nəsillərin yetişməsi üçün zəruri şərait yaradırıq. Ona görə də Ümummilli Lider Heydər Əliyev irsi bütövlükdə zəngin milli dəyər olaraq mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev irsində mənəvi dəyərlər sistemi bu gün təhsilalanların həyata hazırlığında, onların milli və bəşəri ruhda tərbiyəsində, yetkin şəxsiyyət kimi formalaşmasında mühüm vasitədir. Xalqımızın ərazi bütövlüyü uğrunda mübarizəsi də göstərdi ki, Azərbaycan övladlarının qəhrəmanlığında milli- mənəvi dəyərlərə sadiqlik böyük təsir gücünə malikdir. Ulu Öndərin bu baxımdan fikirləri çox əhəmiyyətlidir: “ Şəhidlər vermişik, Azərbaycanın qəhrəman övladları Vətənimizin, torpağımızın müdafiəsi yolunda özlərini qurban veriblər. Onlar əbədiyyətə qovuşublar. Onlar milli-mənəvi dəyərlərimizə sadiq qalaraq, həyatlarını qurban verərək özlərinə behiştdə daimi yer tapıblar” [1, s.9]. Heydər Əliyev irsində ümumiyyətlə, təhsilin, tərbiyənin insan həyatında yeri, rolu, tərbiyəetmə imkanları, yolları, vasitələri geniş şəkildə əksini tapmışdır.Təqdirəlayiq haldır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev də Ulu Öndərin inkişaf strategiyasını yüksək dəyərləndirir və onu uğurla davam etdirir. Bu baxımdan onun fikirləri də olduqca əhəmiyyətlidir:” Biz öz milli və dini dəyərlərimizə sadiqik. Biz gənc nəsli vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə etmək istəyirik və bunu edirik. Eyni zamanda, biz müasirliyə doğru uğurla addımlayırıq”[ 2, s.75]. Bu ideyalar milli-mənəvi dəyərlərin təbliği, Heydər Əliyev irsində əksini tapmış dəyərlər sisteminin dərindən öyrənilməsi üçün mühüm əhəmiyyət daşıyır.

Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycan tarixi, ədəbiyyatı, coğrafiyası, mədəniyyəti, incəsənətinə, adət-ənənələrinə, təhsil və tərbiyə sisteminə konseptual baxışları bu irsin nə qədər zəngin,

dəyərli olduğunu bir daha təsdiqləyir. Heydər Əliyev irsi xalqımızın mənəvi sərvətidir. Biz bu irsdən, Ulu Öndərin mənəvi dəyərlər sitemindən daim bəhrələnməli, cəmiyyətimiz üçün layiqli övladlar yetişdirməyə çalışmalıyıq.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ektremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransdakı nitqindən.Gülüstan sarayı, 10 oktyabr 2002-ci il. Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı fikirləri /tərtibçi: Cahandar Əlifzadə.Bakı: TUNA PRİNTG, 2017, 119 s.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin Bakı sammitindəki nitqindən /tərtibçi: Cahandar Əlifzadə.26 aprel 2010-cu il.Bakı: Şərq-Qərb, 2018, 96 s.
3. Heydər Əliyev.Elektorn sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri,bəyanatları. 2001, 614 s. https://heydaraliyev.preslib.az/


## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ALİ TƏHSİL SİYASƏTİ VƏ ONUN MÜASİR DÖVRDƏ İNKİŞAF TENDENSİYALARI


***Hikmət Əbdül oğlu Əlizadə***
***Bakı Dövlət Universiteti***
***hikmet56@gmail.com***


Müstəqillik illərində ulu öndər Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində ali təhsil sistemi özünün inkişafının yeni mərhələsinə yüksəlmiş, xalqın ümummədəni və intellektual səviyyəsinin yüksəlməsinə geniş imkanlar açan məzmun kəsb etmişdi. Onun təhsil siyasətinin fəlsəfəsi xalqa sevgidən yaranaraq, müstəqilliyin, inkişafın, dünyanın qabaqcıl ölkələrindən birinə çevrilmənin, hərbi və iqtisadi qüdrətə malik olmanın yolunun

təhsildən keçdiyini göstərir.

Ulu öndər ali təhsilin inkişafına hələ Sovetlər birliyi dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xüsusi önəm vermişdi. 1960-cı illərin sonlarında respublikamızda cəmi on iki ali təhsil müəssisəsi fəaliyyət göstərdiyi halda, 1982-ci ildə onların sayı iyirmi birə, ali məktəblərdə təhsil alan tələbələrin sayı yüz min nəfərə çatmışdı. Yeni tədris korpuslarının tikilməsi ən müasir cihazlarla təmin edilmiş kabinet və laboratoriyalar, ixtisalaşdırılmış auditoriyalar tələbələrin ixtiyarına verilmişdi.

Heydər Əliyev istedadlı azərbaycanlı gənclərin SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almasına xüsusi önəm verirdi. 15 mindən artıq gənc 1970-80-ci illər ərzində SSRİ-nin böyük şəhərlərində fəaliyyət göstərən 170-dən çox ali məktəbdə təhsil almışdı. Onlar respublikamız üçün ehtiyac duyulan 250-dən çox ixtisas üzrə yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanaraq, istehsalın müxtəlif önəmli sahələrində işləmişlər.

Ulu öndərin təhsil siyasətinin tərkib hissələrində biri də xarici ölkə vətəndaşlarının Azərbaycanda təhsil almasını təşkil etmək olmuşdur. Hələ SSRİ dönəmində ulu öndər Heydər Əliyev xarici ölkə vətəndaşlarının ölkəmizdə təhsil alması istiqamətində mühüm işlər həyata keçirmişdi. Azərbaycanın ali məktəblərində çoxlu sayda xarici ölkə vətəndaşları təhsil alırdı.

Ulu öndərin ali təhsil siyasəti öz təcəssümünü müstəqillik illərində daha yüksək səviyyədə tapdı. O 1998-ci ildə təhsil sahəsində islahatların həyata keçirilməsinə start verilməsi üçün xüsusi sərəncam imzaladı. Sərəncama əsasən, İslahat Proqramının hazırlanması üçün Dövlət Komissiyası yaradıldı. Hazırlanan İslahat Proqramı milli xüsusiyyətlər gözlənilməklə Avropa təhsil məkanına inteqrasiya imkanlarını artıran yeni təhsil sisteminin qurulması üçün geniş meydan açdı.

İslahatları sürətləndirmək məqsədilə 2000-ci ildə ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında təhsil sisteminin daha da təkmilləşdirilməsi haqqında" fərman həyata keçirilən islahatlarda təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyası istiqamətlərini daha da aktuallaşdırdı. Həmin

fərmanın icrası müstəvisində 2000-ci ildə ali təhsil müəssisələrinə universitet statusu verildi.

2005-ci ildə Bolonya prosesinə qoşulmaqla Avropa təhsil məkanına inteqrasiya istiqamətində yeni addım atıldı. YUNESKO və digər beynəlxalq təhsil qurumlarının sənədlərinə əsasən ali təhsil ixtisaslarının (proqramlarının) yeni siyahısı hazırlanaraq, təsdiq edildi. Bu müstəvidə 2009-cu ildə qəbul edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb etdi. Proqramın məqsədi ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası proseslərinin sürətləndirilməsi, ali təhsilin məzmununun Bolonya prinsiplərinə uyğun qurulması, ölkə iqtisadiyyatının inkişaf meyllərinə müvafiq olaraq yüksək hazırlıqlı kadrlara tələbatın ödənilməsi, əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan səmərəli ali təhsil sisteminin formalaşdırılması idı. İslahat proqramı çərçivəsində ali təhsil sistemində müxtəlif struktur dəyişiklikləri aparıldı, mütəxəssis hazırlığının strukturunda yeni ixtisasların hazırlanmasına start verildi.

2009-cu ildə ölkəmizin təhsil həyatında baş verən əlamətdar hadisələrdən biri də "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi oldu. Təhsil Qanununda Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası müstəvisində mühüm yeniliklər öz əksini tapır.

Prezident İlham Əliyevin 2011-ci il iyulun 11-də "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması haqqında imzaladığı sərəncama əsasən təhsil sistemində müvafiq tələblərə uyğun olaraq, qısa, orta və uzunmüddətli inkişafı təmin edə biləcək vahid dövlət siyasətinin prioritet istiqamətləri aşağıdakı kimi müəyyən edildi: - ali təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması; ali təhsil müəssisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi; əlavə təhsil imkanlarının genişləndirilməsi; ali təhsil müəssisələrinin tədqiqat institutuna çevrilməsi və s.

Ulu öndər Heydər Əliyev gənc istedadlı kadrların xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almasına müstəqillik illərində də xüsusi önəm verdi. Təsadüfi deyil ki, 2003-cü ildə

dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə çoxlu sayda azərbaycanlı gənc təhsil alırdı. Bu siyasət sonrakı dövrlərdə də davam etdirildi. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təsdiq edildi. Həmin proqram çərçivəsində azərbaycanlı gənclər dünyanın yüksək reytinqli universitetlərində təhsil almaq imkanı əldə etdi. Təhsil alanların böyük əksəriyyəti məzun olaraq, geri qayıtmış və hazırda 60 faizi özəl, 40 faizi dövlət sektorunda olmaqla müxtəlif təşkilarlarda fəaliyyət göstərir, ölkəmizin gələcək inkişafına öz töhfələrini verirlər.

Xaricdə təhsil alan bəzi tələbələr öz fəaliyyətlərini xarici ölkələrdə davam etdirirlər. Bu gənclər həmin ölkələrdə Azərbaycanı layiqincə təmsil edir, Azərbaycanın haqq sözünün, Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında, bir sözlə qərib ölkələrdə Vətənin, Xalqın inkişafı istiqamətində var qüvvə ilə çalışırlar. Bu Heydər Əliyevin təhsil siyasətinin təntənəsidir.

Gənclərin xarici ölkələrdə təhsil siyasətinin davamı kimi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” təsdiq edilmişdi. Bu Proqram ali təhsil sisteminin yeni inkişaf mərhələsinin əsasını qoydu. Proqram çərçivəsində istedadlı azərbaycanlı gənclərin xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil alması siyasətinin davam etdirilməsi ilə yanaşı, dünyanın qabaqcıl ölkələrinin təhsil təcrübəsinin ölkəmizə gətirilməsi baxımından ikili diplom proqramlarının həyata keçirilməsi önəmli əhəmiyyət kəsb edir. Beynəlxalq ikili diplom proqramları üzrə tədris dünyanın qabaqcıl universitetlərinin proqramlarına əsasən təşkil edilir.

Xarici ölkə vətəndaşlarının ölkəmizdə təhsil alması bu gün də prioritetdir. Ali məktəblərdə ingilis bölmələrinin yaradılması bu imkanları artırır. İndi xarici ölkə vətəndaşları həm azərbaycan, həm ingilis, həm də rus dillərində təhsil ala bilirlər. Belə imkanların yaradılması xarici ölkə vətəndaşlarının ölkəmizdə təhsil almasına marağı artırıb. Hazırda Azərbaycanda təhsil almaq istəyən xarici vətəndaşların sayı hər il getdikcə artır. Onlar Azərbaycanda təhsil aldıqları dövrdə xalqımızın mədəniyyəti, etnopsixologiyası, həyat

tərzi ilə tanış olur, öz vətənlərinə geri qayıdaraq ölkəmiz haqqında həqiqətlərin öz xalqlarına çatdırılmasında mühüm rol oynayırlar.

Ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri hər bir azərbaycanlı üçün unudulmazdır. Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində bu gün Azərbaycan dünya meridianlarında inamla irəliləyir, ölkəmizin nüfuzu durmadan artır, iqtisadiyyatı, hərbi qüdrəti gündən günə güclənir, xalqın rifahı yaxşılaşır. Bu yüksəlişdə Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təhsil siyasəti önəmli rol oynayır.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

***Mehparə Alış qızı Quliyeva***
***Bakı Dövlət Universitetinin dosenti***
***mehparequliyeva7@gmail.com***

Demokratiya və aşkarlıq şəraitində adamlarımızın əxlaqi cəhətdən daha kamil yetişməsi mühüm əhəmiyyət kəsb edir.

Yenidənqurmanı müvəffəqiyyətlə həyata keçirmək üçün xalqımız hər bir adamın biliyinə, zəkasına, təcrübəsinə, ən yaxşı insani keyfiyyətlərinə bel bağlayır, baş verən iqtisadi çətinliyi və siyasi gərginliyi aradan qaldırmaqda hər bir adamın məhsuldar əməyi, qələbəyə inamı, mübarizədə mətanətli olması, yüksək vətənpərvərlik hissi mühüm rol oynayır.

Vətənpərvərlik adamlarımızın nəcib keyfiyyətlərindəndir. Vətənə məhəbbət və ona hədsiz sədaqət mənəviyyatın ayrılmaz tərkib hissəsidir.

Vətən anlayışı, hər şeydən əvvəl, bu və ya digər adamın, xalqın doğulduğu və yaşadığı ərazi, həmin şəxsin, ya xalqın dili, mədəniyyəti, mənşəyi və adətlərində olan xüsusiyyətlər, həmin ərazidəki ictimai və dövlət quruluşu, təbii sərvətlər və əhali daxil edilməlidir.

Vətənə məhəbbət ana məhəbbət qədər dərin, əziz və doğma olduğuna görə çox vaxt dilimizdə "ana vətən", "ana torpaq", "ana

diyar", "ana yurd" ifadələri də işlədilir.

Vətənə həqiqi məhəbbət bəsləyən qüvvə ancaq zəhmətkeş xalq olmuşdur. Bunu öz xalqımızın timsalında da görmək olar.

Azərbaycan xalqı vətənpərvər xalqdır. Çünki xalqımız öz vətəninin mənafeyinə laqeyd olmamışdır. Vətənə məhəbbət, vətənpərvərlik hissi doğma yerlərə və adamlara bağlılıqdan,onları xarici istilaçılardan və daxili düşmənlərdən qorumaqdan başlayaraq, bütün qüvvə və qabiliyyətini vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməyə qədər inkişaf edib yüksəlir.

Azərbaycan xalqı vətənpərvər xalqdır. Onun çox qədim zamanlardan özünəməxsus məskəni olmuş və həmin məskənə olan məhəbbət hissi azərbaycanlıların özlərinin inkişafı ilə sıx əlaqədə inkişaf edib uzun əsrlər ərzində möhkəmlənmiş və mənəvi həyatımızın ən başlıca tərkib hissələrindən birinə çevrilmişdir.

Bütün cəmiyyətlərdə olduğu kimi, bizim cəmiyyətimizdə də şəxsiyyətin sosiallaşmasını səciyyələndirən cəhətlərdən biri də xalqın, toplumun çətin məqamlarda düşmənə qarşı tez bir vaxtda birləşə bilməsi, yadelli işğalçılara qarşı mübarizə ruhunda səfərbər olmağı bacarmasıdır.

Vətənpərvərlik xalqın qan yaddaşı, şəxsiyyəti səciyyələndirən ən yüksək əxlaqi-etik keyfiyyətdir. Bu keyfiyyət xalqımızın həyatında həmişə başlıca meyar və xarakter kimi formalaşıb. Ötən ilin son aylarına təsadüf edən, Azərbaycanın böyük zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə baş verən proseslər bu deyilənləri bir daha təsdiqlədi. Xalqımızın tarixin bu sınağından alnıaçıq və üzüağ, zəfərlə çıxmasını şərtləndirən başlıca amillərdən biri də məhz vətənə sonsuz sevgi hissinin sarsılmazlığı idi. Vətənə, torpağa bu bağlılığın təcəssümü idi ki, İkinci Qarabağ müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz əzmi və şücaəti ilə işğal olunmuş torpaqlarımızı düşməndən təmizləyərək Azərbaycanın ərazi bütövlüyünü təmin etməyi bacardı.

Vətən müharibəsi günlərində xalqımız üçün səciyyəvi olan ən mühüm cəhətlərdən biri də milli birlik və həmrəyliyin sarsılmazlığı faktoru idi. Təsadüfi deyildi ki, İkinci Qarabağ savaşında minlərlə gənc erməni işğalçılarına qarşı mübarizə aparmaq üçün könüllü

müraciət edərək cəbhəyə yollanmaq istəklərini ortaya qoydular. Arxa cəbhədə olanlar həmrəylik göstərərək öz əməlləri ilə ön cəbhədə vuruşanlara əllərindən gələn köməyi əsirgəmədilər, hər cür maddi və mənəvi dəstək verməyə hazır olduqlarını göstərdilər, ölkədə fəaliyyət göstərən müxtəlif siyasi partiyalar siyasi baxışlarını bir kənara qoyaraq milli birlik nümayiş etdirdilər. Bütün bunlar bir daha onu göstərdi ki, siyasi, dini, sosial mövqeyindən asılı olmayaraq vətənin ümumi maraqları, Azərbaycan xalqının birliyi hər bir vətəndaş üçün bütün arzu və istəklərdən öndə dayanır. Bu günlər Azərbaycan xalqı öz əzmi ilə bütün dünyaya, sözün həqiqi mənasında, birlik və həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirdi. Biz birlikdə güclüyük! Qələbəmizin qazanılmasında birliyimizin rolu misilsizdir.

Müasir dünyamızda sosial şəbəkələr fərdlərin yeni sosiallaşma mühiti kimi ən spesifik məkan sayılır. Təsadüfi deyildi ki, İkinci Qarabağ müharibəsi dövründə müharibə həm də sosial şəbəkələr vasitəsilə informasiya cəbhəsində gedirdi. Bu günlərdə Azərbaycan gəncliyi haqq səsimizi dünyaya çatdırmaq üçün yorulmadan, ardıcıl surətdə bir çox kampaniyalar aparır, müxtəlif həştəqlərdən istifadə edərək erməni terrorunu, vandalizmini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı. Onlar xarici mediada Azərbaycan haqqında tarixi faktların saxtalaşdırılması, düşmən tərəfindən mülki əhaliyə qarşı cinayət əməllərinin törədilməsi, şəhər və kəndlərin adının dəyişdirilməsinə dair informasiyaların geniş yayılması, eləcə də dezinformasiyaların qarşısının alınması istiqamətində mütəşəkkil şəkildə mübarizə apararaq əsl həqiqətlərin ortaya qoyulmasında böyük fəallıq göstərirdilər.

Azərbaycan xalqı humanist, sülhsevər xalqdır. Biz hər zaman torpaqlarımızın sülh yolu ilə azad edilməsinin tərəfdarı olmuşuq. Lakin xain düşmənin təxribatları və iftiraları buna imkan vermədi. Müzəffər Azərbaycan Ordusu çıxdığı bu şərəfli yolda, bu müqəddəs savaşda böyük zəfərlə bizləri sevindirdi.

Neçə illərdən bəri Azərbaycan Prezidenti, Ali Baş Komandan çıxış və müsahibələrində açıq-aydın mesajlar verirdi ki, sülh danışıqları heç bir nəticə verməsə, biz öz torpaqlarımızı nəyin bahasına olur-olsun işğaldan azad edəcəyik. Təəssüf ki, həmsədr ölkələr öz fəaliyyətləri dövründə "hüquq" və "ədalət" ifadələrini

sadəcə sözdə dilə gətirməklə kifayətləndilər. Ötən 28 il ərzində dəfələrlə müşahidə olundu ki, beynəlxalq hüququn və ədalətin bərqərar olunması həmsədr ölkələr üçün elə də önəmli deyil. Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində bildirdiyi kimi, "...bəzi hallarda BMT Təhlükəsizik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakin bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin nəyə görə bu qədər uzun çəkməsinin səbəblərindən biridir". Nəhayət, düşmən təxribatlarının qarşısını almaq məqsədi ilə başlanan hərbi əməliyyatlar və 44 günlük Vətən müharibəsinin nəticəsində Azərbaycan Ordusunun gücü və əzmi imkan verdi ki, torpaqlarımız işğaldan azad olunsun və status-kvo kökündən dəyişsin. Biz bu möhtəşəm qələbəyə igid şəhidlərimizin, qəhrəman qazilərimizin canı və qanı bahasına nail olduq. Bu gün vətən uğrunda vuruşan, canından keçən, şücaət göstərən oğullarımız dövlətimiz və Ali Baş Komandanımız tərəfindən lazımi səviyyədə dəyərləndirilir: onlara fəxri adlar verilir, orden-medallarla təltif olunur, müavinətlər təyin edilir, xatirələri əbədiləşdirilir. Bu günlərdə dövlət başçısının sərəncamı ilə "Yaşat" Fondu yaradılıb. Fond Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək verilməsi missiyasını hıəyata keçirəcək. Bununla yanaşı, hər bir vətəndaşımız, hər bir soydaşımız hərbçilərimizə, şəhid ailələrinə, qazilərimizə bacardıqları qədər arxa-dayaq olmağa çalışırlar. Şanlı tarix yazan bu qəhrəmanlarımız böyüyən yeni nəslin vətənpərvərlik ruhunda sosiallaşma prosesində böyük rol oynayacaqlar.

İşğaldan azad olunmuş ərazilərimizdə günəş yenidən doğacaq, əzəli və əbədi yurd yerlərimiz yenidən canlanacaq, Azərbaycan bayrağının sancıldığı hər qarış yer cənnətə dönəcək.

Bu gün qarşılaşdığımız mənzərə həqiqətən də qürurvericidir. İllərdir, xəyallarını qurduğumuz an gerçəkləşib, otuz illik həsrət artıq sona çatıb, Azərbaycan xalqı öz doğma torpaqlarına qovuşub.

# AİLƏ TƏRBİYƏSİ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN MƏNƏVİ TƏRBİYƏSİNDƏ HƏLLEDİCİ AMİLLƏRDƏN BİRİ KİMİ

*Mehparə Alış qızı Quliyeva*
*Bakı Dövlət Universitetinin dosenti*
*mehparequliyeva7@gmail.com*

Ömrünün çox böyük hissəsini gənc nəslin mənəvi tərbiyəsinə həsr etmiş böyük sovet pedaqoqu A.S.Makarenko məktəblilərin mənəvi simasının formalaşmasında sovet ailəsinin roluna ayrıca kitab həsr etmiş və ictimaiyyətin tərbiyə işində ailəyə köməyinə böyük əhəmiyyət verərək məktəbin bu sahədəki vəzifəsini xüsusi qeyd etmişdir. A.S.Makarenko yazırdı: "Biz məktəblərimizdə sosialist cəmiyyətinin fəal və məfkurəli üzvlərini yetişdirməliyik, belə ki, bizim tərbiyə etdiyimiz adamlar həmişə, öz həyatlarının hər anında şəxsi hərəkətləri üçün tərəddüd etmədən düzgün meyar tapa bilməli və eyni zamanda başqalarından da düzgün davranmağı tələb etməyə qabil olmalıdırlar".

Anton Semyonoviç Makarenko valideynlərə müraciət edərək deyirdi ki, ailə işlərini ictimai işlərdən ayırmaq olmaz. «Sizin cəmiyyətdə, yaxud işdəki fəallığınız ailədə də öz əksini tapmalı, hiss olunmalıdır. Ailəniz sizin siyasi və vətəndaş simanızı görməli, bunları sizin valideyn simanızdan ayırmamalıdır. Ölkədə baş verən hər bir hadisə, hər bir yenilik sizin hissiniz və fikriniz vasitəsilə uşaqlara çatmalıdır».

Uşaqlarla tərbiyə işində həmişə məktəbin rolunu çox yüksək qiymətləndirən A.S.Makarenko bu sahədə qətiyyən ailənin rolunu azaltmırdı. O, belə hesab edirdi ki valideynlər bütün sovet cəmiyyəti və bütün sovet qanunları qarşısında öz ailesinin məsuliyyətini daşımalıdırlar. O, valideynlərə müraciət edərək yazırdı: «Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailənizdə və sizin rəhbərliyiniz altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını özünüz deyil, bir çox adamlar və bütün ölkə

çəkəcəkdir».

Anton Semyonoviç Makarenko sözünə davam edərək fikrini belə tamamlayır. Özünüza qarşı valideyn kimi tələbkar olun, öz ailənizə bir valideyn kimi hörmət edin, hər bir addımınızı valideyn kimi nəzarət altına alın – tərbiyənin birinci və ən əsas üsulu budur».

Xalqımızın qabaqcıl ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri olan görkəmli dövlət xadimi Nəriman Nərimanov bir çox sahədə olduğu kimi gənc nəslin tərbiyəsində də ailə və məktəbin birgə işi haqqında bir sıra dəyərli fikirlər söyləmişdir. O, «Teatr barəsində bir neça söz» adlı məqaləsində yazırdı: "Heç ata-analar istərlərmi uşaqları bədbəxt olsunlar? Heç kəs istəməz ki, oğlu qazamatda illər ilə çürüsün. Amma çifayda bunların hamısını görürük və közlərimizdən qanlı yaşlar tökülür. Bəs lazım gəlirmi bu dərdin dərmanını tapaq? Nə vaxtadək qoca ata və analarımızı məhkəmələrə düşəcəklər? Günah kimdədir? Bəyəm günah qazamatda yürüyən uşaqlarımızdadır? Xeyr, özümüzdədir. Vaxtında lazım olan tərbiyəni verməyib, öz əlimizlə uşaqlarımızı oda yandırırıq.

N.Nərimanov tələb edirdi ki, uşaqlara düzgün tərbiyə vermək üçün, ilk növbədə, valideynlər özləri tərbiyəli olmalıdırlar. «Halbuki, özümüzdə lazım olan tərbiyə yoxdur» deyən Nərimanov, ailə tərbiyəsinə etinasız qalan valideynləri tənqid edir və göstərirdi ki, «Gərəkdir biz özümüz uşaqlarımıza tərbiyə verək, ta onlarda gələcəkdə öz uşaqlarını cürbəcür bəlalardan saxlasınlar». Uşaqların tərbiyəsində valideynin sözü ilə işi arasında birliyin olmamasına fikir verən Nərimanov bu nəticəyə gəlmişdir ki, əksər hallarda uşağın xasiyyətinin, tərbiyəsinin xarab olmasına özümüz səbəb oluruq. Bütün həyatını, közəl və nəcib bir işə gənc nəslin tərbiyəsi işinə həsr etmiş böyük sovet pedaqoqu Vasili Aleksandroviç Suxomlinski özünün geniş və zəngin həyat təcrübəsinə istinad edərək belə qənaətə gəlmişdir ki, gənc nəslin mənəvi simasının formalaşmasında ailənin məktəblə birgə səyi mühüm əhəmiyyət kəsb edir.

Vasili Aleksandroviç Suxomlinski çox haqlı olaraq uşaqları valideynlərin, əxlaqi həyatının güzgüsü adlandırmışdır. O yazırdı: «Mən hər bir ailədəki yaxşı və pis Haqqında düşünmüşəm. Yaxşı valideynlərin xüsusi bir səy etmədən uşaqlarına keçən ən qiymətli

əxlaqi cəhəti ana və atanın səmimi mehribanlığı, adamlara xeyirxahlıq etmək bacarığıdır. O ailələrdə ki, ata və ananın canı başqaları üçün yanır, orada uşaq xeyirxah, həssas, səmimi böyüyürlər. Ən böyük bəla, bəzi valideynlərin eqoizmidir. Fərdiyyatçiliyidir... Əgor ata-ana öz ürəyinin bütün gücünü uşaqlarına verirsə, əgər onlardan başqa heç kimi görmək istəmirsə bu həddindən artıq şişirdilmiş məhəbbət ən nəhayət bədbəxtliyə çevrilir».

V.A.Suxomlinski gənc nəslin xoşbəxtliyini ancaq məktəblə ailənin birgə səyində görürdü. O yazırdı: "Günəş bir damla suda əks olunduğu kimi, ana və atanın əxlaqi və saflığı da uşaqda əks olunur. Məktəbin və valideynlərin vəzifəsi – hər bir uşağa xoşbəxtlik verməkdir. Müəllimlər yalnız valideynlərlə birlikdə ümumi səylərdə uşaqlara böyük insani xoşbəxtlik verə bilərlər".

Deməli, tərbiyə ictimai hadisə olduğu üçün, onun aşılanmasında tək-tək şəxslərin deyil, məktəb, ailə və ictimaiyyətin birgə təsiri daha effektli olur.

Bəs şagirdlərin mənəvi tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə işinin təsirliliyini gücləndirən əsas səbəblər hansılardır? Mövcud ictimai-iqtisadi şəraitin buna nə kimi təsiri vardır.

Şagirdlərin əxlaq tərbiyəsi sahəsində məktəb, ailə və ictimaiyyətin birgə işini, hər şeydən əvvəl, cəmiyyətimizin iqtisadi-ictimai şəraitini nəzərə almaqla öyrənmək lazımdır. Çünki, müəllimlərin, valideynlərin və ictimaiyyətin pedaqoji səylərinin birləşdirilməsinin həyata keçirildiyi obyektiv əsası yalnız belə yanaşma zamanı aşkar etmək mümkündür.

Şagirdlərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyətindən bəhs edərkən qadınların bu işdə xüsusi rolu olduğunu göstərməmək olmaz. Bu gün hökumətimiz yetişməkdə olan gənc nəslin mənəvi tərbiyəsi ilə qadınların yaxından məşğul olması üçün hər cür imkan və şərait yaratmışlar. Çünki gənc nəslin mənəvi tərbiyəsində ailənin digər üzvlərinə nisbətən ananın rolu daha böyükdür. Ana uşaq dünyaya gəlməmişdən onun qayğısını çəkir, ilk günlərdən isə onun tərbiyəsi qayğısına qalır. Uşaqların tərbiyəsində ananın yüksək rolunu nəzərə alan partiya va hökumətimiz uşaqların

tərbiyəsi ilə daha yaxından məşğul olmaq üçün analara bir sıra güzəştlər vermişdir.

Təcrübə göstərir ki, şagirdlərin mənəvi tərbiyəsi işi uşaq kollektivinin və müxtəlif ictimai təşkilatların vasitəsi ilə aparıldıqda onların təsir gücü daha da artır. Bu, müəllimlərə, valideynlərə va ictimaiyyətçilərə imkan verir ki, müxtəlif yaşlı şagirdlərin pedaqoji və psixoloji xüsusiyyətlərini daha çox nəzərə alsınlar. Məktəb, ailə va ictimaiyyətin birgə fəaliyyətinin uşaq kollektivlərində şagirdlərin əxlaqi təcrübəsinin toplanmasına kömək edən şərtləri nəzərdən keçirərkən biz əmin olduq ki, bu kollektivlərin həyatı onların inkişafı, fəaliyyəti kollektivlərin özünün təşəbbüsü olmadan mümkün deyildir.

Ailə, məktəb və ictimaiyyətin şagirdlərin mənəvi tərbiyəsində birgə işinin təsirliliyini artıran əsas amillərdən biri də məktəb ilə müəssisə kollektivinin dostluq əlaqələridir.

Ailə, məktəb və ictimaiyyətçilərin birgə fəaliyyəti uşaqların mənəvi tərbiyəsi üçün elə şərait yaratmağa imkan verir ki, bu zaman onların hərəkətinə etinasız yanaşmaq olmur. Başlıca cəhət ondadır ki, böyüklərin köməyi ilə uşaqların faydalı və nəcib hərəkətləri pedaqoji cəhətdən məqsədəuyğun rəyə səbəb olur. Onların yaxşı işləri mükafatlandırılır, təriflənir, həvəsləndirilir, başqa uşaqlara nümunə kimi göstərilir. Bütün bunlar uşaqlarda müsbət hərəkətlər üçün yeni amillər yaradır, özlərində müsbət əxlaqi keyfiyyətlərin tərbiyə edilməsinə həvəs oyadır.

Şagirdlərin mənəvi tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə işinin təsirliliyi bir sıra ictimai-iqtisadi və psixoloji-pedaqoji amillərdən, onların qarşılıqlı əlaqəsindən və birinin digəri üçün şərt olmasından asılıdır.

Şagirdlərin əxlaq tərbiyəsi sahəsində məktəb, ailə və ictimaiyyətin birgə işini, hər şeydən əvvəl, mövcud cəmiyyətin iqtisadi-ictimai şəraitini nəzərə almaqla öyrənmək lazımdır. Çünki, müəllimlərin, valideynlərin və ictimaiyyətin pedaqoji səylərinin birləşdirilməsinin həyata keçirildiyi obyektiv əsası yalnız belə yanaşma zamanı aşkar etmək mümkündür.

Ölkəmizdə gənc nəslin mənəvi simasının formalaşmasına təsir göstərən bəzi ictimai-iqtisadi şəraiti qısa da olsa şərh etməyi lazım bilirik.

Cəmiyyətimizin inkişafının müasir mərhələsində əsas iqtisadi göstəricilərin artması xalqın həyat səviyyəsinin, onun rifah halının daha da yüksəlməsini göstərir.

Məktəb və ictimaiyyətin birgə fəaliyyətinin nəzərdən keçirilmiş faktları bizi belə bir nəticəyə göstərir ki, şagirdlərin mənəvi tərbiyəsində kollektiv kimi amilin təsirliliyi bir sıra şərtlərdən asılıdır. Onlardan ən mühümləri aşağıdakılardır: uşaq kollektivlərinin təşkilatca dəqiq təşkili və burada bütün tərbiyə işinin əsasən vahid tələb əsasında aparılması, şagird kollektivlərində tərbiyə işinin müxtəlif formalarından istifadə edilməsi, uşaq kollektivləri arasındakı yarışların müxtəlif növlərindən istifadə edilməsi, uşaq kollektivləri ilə yaşlı kollektivlər arasında dostluğun möhkəmləndirilməsi.

Yuxarıda qeyd etdiyimiz təsirlik bir də onun sayəsində daha çox artır ki, məktəb və ictimaiyyət tərbiyə sahəsində aparıcı pedaqoji biliyə, yüksək əxlaqi keyfiyyətlərə malik adamları uşaqlarla fəal ünsiyyətə tez-tez cəlb etsinlər. Çünki onlar məktəblilərə öz bilik və bacarıqlarını, vərdiş və adətlərini, öz həyat təcrübəsini verirlər.

Beləliklə, ailədə, məktəbdə və ictimai təşkilatlarda apardığımız tədqiqat işi və bizim şəxsi pedaqoji təcrübəmiz, habelə kütləvi təcrübənin öyrənilməsi dediklərimizdən aşağıdakı nəticələri çıxarmağa imkan verir:

1. Ailə, məktəb və ictimaiyyətin şagirdlərin mənəvi tərbiyəsində birgə işi böyüklərlə kiçiklər arasında daim işgüzar ünsiyyətdə olan uşaqlar və böyüklərin vahid kollektivini yaradır; bu kollektiv öz növbəsində şagirdlərin mənəvi tərbiyəsində, yaşlı nəslin əxlaqi təcrübəsinin müasir məktəblilərə verilməsində təsirli amil olur.

2. Ailə və məktəbin tərbiyə sahəsindəki birgə işinin təsirliyi o vaxt artır ki, onlar tərbiyə işlərini ailə ilə məktəbin, xüsusən uşaq kollektivinin vahid tələbi əsasında aparılır.

3. Təcrübənin təhlili göstərir ki, şagirdlərin fərdi və mənəvi təcrübəsinin qazanılması və möhkəmləndirilməsi üçün onların davranışında özünü göstərən müsbət cəhətlərin öyrənilməsi, müdafiə olunmasından istifadə edilməsi böyük əhəmiyyətə malikdir.

4. Ailə və məktəb uşaqların mənəvi tərbiyəsində birgə fəaliyyəti elə şərait yaratmağa imkan verir ki, bu zaman uşaqların hər

hansı bir hərəkətinə etinasız yanaşmaq olmaz. Başlıca cəhət ondadır ki, böyüklərin köməyi ilə uşaqların faydalı və nəcib hərəkətləri pedaqoji cəhətdən məqsədəuyğun və əsaslandırılmış olur.

Respublikanın bir sıra rayon və şəhərlərində ictimaiyyətin mənəvi tərbiyəsi sahəsindəki iş təcrübəsinin öyrənilməsi prosesində biz əmin olduq ki, şagirdlərin mənəvi simasının formalaşmasında məktəb, ailə və ictimaiyyətin səylərinin birləşdirilməsi o vaxt qüvvətli təsirə çevrilir ki, ictimaiyyətin ilk təşkilatlarının bu sahədəki təşəbbüsü vaxtında müdafiə edilmiş olsun.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ ŞÜUR - ELMİ KONSEPSIYASI!

***Nəzakət Bəylər qızı İmamverdiyeva***
***Pedaqogika kafedrasının dosenti***
***Naza-52@mail.ru***

Azərbaycan xalqının ən mühüm milli-mənəvi dəyərlərindən biri öz doğma yurduna bağlılığıdır. Azərbaycan təkcə bu ərazidə yaşayan, yaradan və fəaliyyət göstərən azərbaycanlıların deyil, dünyanın hər yerində yaşayan azərbaycanlıların əzəli vətənidir. Bütün Türk dünyasının böyük oğlu, Ümummilli liderimiz Heydər Əliyev Öz parlaq nitqlərində, məzmunlu çıxışlarında XX əsrdə xalqımızın əldə etdiyi tarixi qələbəni - müstəqilliyimizin qorunub saxlanılmasında xalqın milli şüurunun güclü şəkildə oyanmasını və vətənpərvərlik şüuruna çatdırılmasını dönə-dönə təkrar etmişdir. Bütün varlığı, ruhu, duyğuları ilə xalqına, vətəninə bağlı olan, ömrünün 50 ilini milli dövlətçilik ideologiyasının inkişafına və bərqərar olmasına həsr edən, Azərbaycanı qarış-qarış qurub inkişaf etdirən Heydər Əliyev təkcə milli-mənəvi dəyərlərimizin, dövlətçiliyimizin təşəkkülünə töhfələr vermədi, milli-mənlik və milli kimlik şüurumuzun inkişafına təkan verdi. Genişmiqyaslı layihələri, çoxşaxəli fəaliyyəti ilə hər bir azərbaycanlının ruhuna, duyğusuna vətənpərvərlik toxumları səpən Ümummilli liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik şüuru, dil, mədəniyyət, vicdan azadlığı, iqtisadiyyat, elm konsepsiyaları bu günki inkişafımızın təməlini təşkil edir.

Heydər Əliyevin milli şüur - vətənpərvərlik şüuru elmi konsepsiyası bu gün yeni mahiyyət almış, daha da genişlənərək bütünlükdə xalgımizın vetənpərvərlik tərbiyəsindəəvəzsiz örnəyə çevrilmiş, xalqımıza Vətən sevgisi, Vətən birliyi, Vətən bütövlüyü aşılamışdır. Ulu öndərin fikrincə, Vətən yalnız insanların toplumu olan, sadəcə, coğrafi ərazi deyil, Vətən hər bir azərbaycanlının harada yaşamasından asılı olmayaraq şan-şöhrəti, namusu, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, bəxti, taleyi, gücü, qüdrəti, ədəbi səcdəgahıdır. Səməd Vurğunun "Azərbaycan" şeirini söyləyərkən Ulu öndərin necə kövrəldiyinin hamımız canlı şahidiyik. Bugünkü, müasir, müstəqil, çiçəklənən Azərbaycan bütün varlığını, ömrünü, ağlını, zəkasını, öz xalqına, millətinə həsr etmiş Ulu öndərimiz Heydər Əliyevin bizlərə müasir nəsillərə ən müqəddəs, ən ülvi əmanəti, yadigarıdır. Heydər Əliyevin milli vətənpərvərlik konsepsiyasında ən önəmli məsələ bütün xalqımızda, xüsusən gənc nəsildə milli şüurun formalaşdırılması məsələsidir. Ümummilli liderin fikrincə, milli şüur, öncə vətənpərvərlik şüurudur. Heydər Əliyev çıxışlarının birində göstərirdi: "O vaxt Azərbaycan gəncləri elmi şüurla, vətənpərvərlik şüuru ilə yaşayan insanlar Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi, 20 yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda, bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Ancaq eyni zamanda, Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var". Bütün xalqımızın milli şüurunun oyanması ilə müşayiət olunan bu hərəkat özünün siyasi məzmununa görə dünyada gedən qlobal proseslərin ümumi kontekstinə qovuşdu. Azərbaycan xalqının milli varlığının təməlini milli şüurda və milli birlikdə görən Ulu öndərin fikrincə "Azərbaycan xalqının qəlbində milli azadlıq ruhu, müstəqillik ruhu daim yaşamışdır. Azərbaycanın qabaqcıl adamları, mütəfəkkir şəxsiyyətləri, ziyalıları, milli şüura malik insanları Azərbaycanın öz müstəqilliyini əldə edəcəyi, milli azadlığa nail olacağı ümidilə yaşamışlar". Milli şüur hər bir insanın mənsub olduğu millətə və vətənə bağlılıq hisslərini əks etdirən, öz hərəkət və davranışına, düşüncə tərzinə, baxışlarına olan münasibətlərin məcmusudur. Milli

şüur mənəvi dəyərləri, milli adət-ənənələri özündə ehtiva edir. Milli şüurun formalaşmasında soy-kökə qayıdış, milli əxlaq, vətənə məhəbbət, milli vətənpərvərlik və qürur hissləri kimi mühüm göstəricilərlə yanaşı, özünüdərketmə, öz layiqli yerini müəyyənləşdirmə kimi hisslər də əsas rol oynayır. Ulu öndər milli şüurla Vətən, torpaq arasında üzvi bir bağlılıq olduğunu görür, milli şüuru milli-mənəvi bütövlüyümüz hesab edirdi.

Heydər Əliyevin milli vətənparvərlik konsepsiyasında ən önəmli yerlərdən birini də müasir nəsli milli ruhda, milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutur. Müasir nəslin milli ruhda tərbiyəsi: - soy-kökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri yeniləşdirməkdən, dirçəltməkdən və təlim-tərbiyə prosesində ondan maksimum istifadə etməkdən ibarətdir. Ulu öndər Gənclərin birinci forumundakı nitqində (1996-cı il) öz narahatlığını belə bildirirdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən, gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik!". Ulu öndər Heydər Əliyevin fikrincə, dövlətçiliyimizin möhkəmlənməsi gənclərin bir şəxsiyyət kimi formalaşmasından – onların milli ruhda tərbiyəsindən çox asılıdır. Milli ruh, hər şeydən öncə vətənpərvərlik ruhudur. Ulu öndər demişdir: "Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır". Vətənpərvərlik hissi tariximizə, doğma torpaqlarımıza bağlılıqdan, onları düşmənlərdən qorumaqdan başlayır. Indiki halda milli vətənpərvərlik hissi hər bir azərbaycanlının bir vətəndaş kimi yerini, mövqeyini, ləyaqət və dəyanətini müəyyən edir, onu bu yolda misilsiz qəhrəmanlıqlar və fədakarlıqlar göstərməyə ruhlandırır. Heydər Əliyev gənclərin milli

vətənpərvərlik, hərbi vətənpərvərlik problemlərini daim diqqətdə saxlayırdı. Hərbi vətənpərvərliyi milli vətənpərvərliyin zirvəsi hesab edən Ulu öndər gəncləri hərbi xidmətə hazırlamağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların fiziki və mənəvi, hərbi-texniki hazırlığını yüksəltməyə xüsusi əhəmiyyət verirdi. Heydər Əliyev, gənclər qarşısında çıxışlarının birində qeyd edirdi: "Azarbaycanın suverenlivi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi, vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır". Milli vətənpərvərlik hissinin formalaşdırılması, təbii ki, milli şüurun əsasında duran milli mənlik şüurunun inkişaf etdirilməsi ilə mümkündür. Ulu öndər Heydər Əliyev deyirdi ki, milli mənlik şüuru Vətən əxlaqıdır, milli əxlaqdır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ MƏNLİK ŞÜURU-ELMİ KONSEPSİYASI!

***Qəmər Hüseynəli qızı Tağıyeva***
***BDU, Pedaqogika kafedrasının dosenti***
***tagiyevagamar@gmail.com***

Milli mənlik şüuru, milli özünüdərkin, milli özünütəsdiqin, milli özünəməxsusluğun bütün əlamətlərini özündə birləşdir, milli rəmzlərə, adətlərə, ənənələrə yeni həyat verir, dini etiqadlar, müqəddəs bayramlar, xalqın özünə qaytarılır, bu qayıdışda yeni bir ruh, yeni təfəkkür, yeni mənəviyyat, milli vətənpərvərlik hissi öz əksini tapır. Özünə, öz kökünə qayıdan, dirçəliş prosesi xalqımızın, xüsusən gənclərin gözləri qarşısında və onların fəal iştirakı zəminində baş verir. Özünü, öz ölkəsinin əsl vətəndaşı hesab edən hər bir ləyaqətli, dəyanətli, iradəli, əqidəli vətənpərvər gənc özünün

əməli fəaliyyəti, elmə münasibəti ilə millətin adı və varlığı ilə fəxr edir, onlarda milli xarakter və milli mənəviyyat formalaşır. Çünki milli mənlikdə milli ideal, milli ləyaqət, milli şərəf, milli birlik hissi, azadlıq, müstəqillik arzuları, milli qürur hissi reallaşır. Ulu öndər gənclərlə görüşlərində bu fikirləri dönə-dönə xatırladırdı: "Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir". Göründüyü kimi, milli mənlik şüuru hər bir millətin varlığının, milli özünüidarə və özünütəsdiqləməsi, milli ləyaqətin və ümumbəşəri keyfiyyətlərinin təzahür formasıdır. Milli mənlik şüurunda millətin adı, varlığı, dili, dini, xarakteri, adət və ənənələri, psixologiyası, mənəviyyatı, mədəniyyəti və s. yaşayır. Məhz milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti hu qavnaqlardan nəsət edir, hər bir yeni nəsli azadlığa, müstəqilliyə, vətəni qorumağa çağırır. Hər bir insanda milli mənlik şüuru belə bir zəmin üzərində təşəkkül tapır və belə bir həqiqəti təsdin odir ki, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı xalqın böyüklüyü və kiçikliyindən deyil, xalqın müdrikliyindən, zəngin təfəkkür tərzindən, torpağa, elə bağlılığından asılıdır. Tarix təsdiq edir ki, heç bir inkişaf, heç bir təkamül, heç bir hadisə zaman və məkan təsirindən kənarda baş vermir. Milli-mənəvi mühitin təşəkkülü, sosial mühit bütün xalqımızın, o cümlədən, gənclərin cəmiyyətdəki sosial vəziyyətinə, öncə, onların hiss və duyğularına, ictimai, həyatın hadisə və faktlarını duymaq, qavramaq və dərk etmək qabiliyyətinə əsaslı təsir göstərir. Gənclər mənsub olduğu millətə aid bütün artibutlara: milli bayrağa, gerbə, himnə, dini etiqada və s. fəal münasibət bəsləyir, qiymət verir, özlərinin əməli fəaliyyəti üçün nəticə çıxarmaq imkanı əldə edirlər. Axı, torpaq, vətən insanın yaşayış və əbədiyyət məskəni, ulularımızın müqəddəs mədfənidir. Ulu öndər Heydər Əliyev bu hissləri öz məcrasına yönəldərək, milli-mənəvi simanın daha məzmunlu istiqamət almasına, milli prosesləri milli mənafeyə uyğun şəkildə daha dəqiq tənzim etməyə, milli hiss və emosiyalardan yaranmış ümman-millət və xalq adlanan ümmana yönəltməyə nail olmuşdur. Gənclərin vətənpərvərlik səyləri

xalqımızın qüdrətli, yenilməz hərəkatı ilə birləşir və tariximizin əzəmətli, unudulmaz və misilsiz qəhrəmanlıq səhifələrinin yaranmasına və yazılmasına səbəb olur. Bu isə, öz növbəsində, insanlarda milli borc, torpağa bağlılıq, milli şüur və iftixar, vətəndaşlıq hissinin yaranmasına gətirib çıxarır. Milli mənlik şüuru, milli özünüdərk vətənlə, torpaqla, mədəniyyətlə, incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni və mənəvi mühitin qavranılması, dərk edilməsi və təsdiqidir. Milli mənlik şüuru formalaşmış və tərbiyə olunmuş hər bir insan, vətəndaş, öz xalqının mənəvi sərvətlərinin tarixi inkişaf xüsusiyyətlərini, sosial etnik cəhətlərini bütün dolğunluğu ilə dərk edir, ona düzgün qiymət verir. Milli soy-kökə qayıdış, milli tarixi yaddaşın bərpası, milli soy-kökünü bilmək, onu seçmək kimi mənəvi keyfiyyətlər də Ulu öndər Heydər Əliyevin milli vətənpərvərlik elmi konsepsiyasında önəmli yer tutur. Xalqımızın özünəməxsus zəngin tarixi keçmişini düzgün, dərindən bilmək, həmişə öz tarixi keçmişimizə hörmət və məhəbbətlə yanaşmaq, gənclərdə milli vətənpərvərlik hissini daha da artırır, möhkəmləndirir. Milli qeyrət, milli ləyaqət rəmzinə daim hörmətlə yanaşan Heydər Əliyev deyirdi: "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: ÖZ KÖKÜNƏ SADİQ OLMALIDIR !

***Qəmər Hüseynəli qızı Tağıyeva***
***Pedaqogika kafedrasının dosenti***
***tagiyevagamar@gmail.com***

Mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır. Çünki tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik". Milli soy-kökünə bağlılıq ən yüksək mənəvi dəyərdir. Ona görə ki, soy-kök milli kökdür, mənəvi kökdür. Xalqın milli mənliyi

həm də onun soy-kökünə necə bağlılığı ilə ölçülür. Respublikamızda gənclər gününə həsr clunmuş idman bayramında söylədiyi nitqində Ulu öndərimiz demişdir: "Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdiriblər. Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə daim sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır. Bizim öz kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik". Ulu öndərin hər il dövlət səviyyəsində keçirilən Novruz bayramında xalqın içərisində olması, xalqı təbrik etməsi. Onun milli adət-ənənələrimiz, qədim adətlərimizin qorunub saxlanılmasına münasibəti, Onun öz milli soy-kökünə - Azərbaycançılıq kökünə qəlbən bağlı olduğunu bir daha sübut edir. Ümummilli liderimiz Heydər Əliyevin şəxsi nümunəsi bütün xalqımızda milli-vətənpərvərlik hissinin oyanmasında canlı örnəkdir. Milli vətənpərvərlik hissi, ruhu, milli mənəviyyatımızın açarı, zəngin milli sərvətimiz, ruhumuz, eşqimiz, canımız, bir-birimizlə əhdü-peymanımız (B.Vahabzadə), böyük milli dəyərimiz, xalqımızın varlığını yaşadan canlı abidəmiz, "Varlıq möhürümüz" (Nizami Cəfərov) olan doğma dilimizə vətəndaş qayğısı ilə üzvi surətdə bağlıdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bizim zəngin, böyük söz ehtiyatına malik olan gözəl dilimiz var və Mən Azərbaycan dilini sevirəm. Bu, Azərbaycanın dövlət dilidir, ölkədə Mən yalnız Azərbaycan dilində çıxış edir və danışıram, dil xalqın böyük milli sərvətidir. Bu sərvəti mənimsəmək, bu dildə səlis danışmaq, bu dili ana dili kimi sevmək lazımdır. Hələ çox adamlar var ki, öz ana dilində mədəni, ədəbi dilin ifadələrindən istifadə edərək yaxşı danışmaq imkanına malik deyillər". Yaxşı deyiblər ki, əgər bir milləti məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini məhv et. Göründüyü kimi, vətənə sevgi Ana dilinə hörmətlə başlayır. Ana dilinə hörmət millətə hörmət, ana dilinə sevgi isə millətə sevgi deməkdir. Ulu öndərimiz çox zəngin və gözəl bir dildə, Azərbaycan dilində səlis, ifadəli, emosional, təsirli, mədəni danışması ilə fəxr edir, qürur və şərəf duyurdu, bununla da, O, doğma dilimizi daha da şərəfləndirirdi. Dilimizə - milli sərvətlərimizə, mədəniyyətimizə, tariximizə nə qədər yüksək qiymət versək, qeyri-millətlərin yanında xalqımızın dəyəri, qiyməti o qədər artar. Milli vətənpərvərlik hissini milli mədəniyyətə, milli təhsilə qayğı göstərmədən, milli mənafeyi

qorumadan və vicdan azadlığını təmin etmədən, sadəcə, təsəvvür etmək qeyri-mümkündür. Çünki xalqı, milləti dünyada tanıdan, dünya sivilizasiyasında özünəməxsus yer tutmasında da milli mədəniyyətin, milli təhsilin rolu böyükdür. Ulu öndərin fikrincə, yunanlara bütün dünyada hörmət gətirən onların antik mədəniyyətidir. Təsadüfi deyildir ki, Ümummilli liderimiz Heydər Əliyev xalqımızın inkişafı tarixində elm, təhsil və mədəniyyətin hamisi kimi möhtəşəm yerini tutmuşdur. Ulu öndər təhsilə yüksək qiymət verərək onu "Xalqın gələcəyi" adlandırırdı. "Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən sahədir". Ulu öndərin milli vətənpərvərlik elmi konsepsiyası - milli şüurumuzun, milli mənlik şüurumuzun təşəkkülü, milli soy-kökümüzə, milli özünə qayıdış, milli özünüdərk etmənin, milli-mənəvi sərvətlərimizə münasibətin, çox mühüm, humanist problemlərin: doğma dilimizə, dinimizə, tarixi keçmişimizə münasibətin öyrənilməsində Azərbaycan xalqının milli ruhunu, milli vətənpərvərlik hissini, milli qürurunu, milli mənliyini, milli heysiyyatını, vətəndaşlıq şüurunu, milli mənəvi dəyərlərimizə hörmət və məhəbbətin ifadəsi olan perspektiv fəaliyyət proqramıdır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV GƏNCLƏRİN MİLLİ- MƏNƏVİ TƏRBİYƏSİ HAQQINDA

***Gülarə Hüseynağa qızı Kərimova***
***BDU-nun Pedaqogika kafedrasının dosenti,***
***pedaqogika üzrə fəlsəfə doktoru***

Hər bir ölkənin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, onun müstəqil dövlət kimi möhkəmlənməsində düşünülmüş təhsil siyasəti olduqca mühüm əhəmiyyət kəsb edir. Təhsil, yetişən gənc nəslimzin ilk növbədə milli – mənəvəi ruhda tərbiyəsi, millətin dəyəri, ölkənin inkişafı deməkdir. Bu cəhətdən Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramında (1999) (1), müstəqil Respublikamızın Müəllimlərinin XIII Qurultayında (2008)(2) və sonrakı rəsmi dövlət

sənədlərində yetişən gənc nəslin milli- mənəvi ruhda tərbiyəsi sahəsində bütün tədris müəssisələrinin üzərinə mühüm vəzifələr qoyulmuuş və bu məsələlərə xüsusi diqqət yetirmişdir. Azərbaycan Müəllimlərinin XIII Qurultayının qətnaməsində deyilir: "Şagirdlərə bilik və bacarıqların aşılanmasını təmin etmək məktəbin bir vəzifəsidirsə, onları mənəvi cəhətdən yetkin bir vətəndaş kimi formalaşdırmaq ikiqat vəzifəsidir"(2, 64). Azərbaycan Respublikasının Təhsil Qanununda (2009)(3) təhsilin əsas məqsədi mənəvi tərbiyənin cəmiyyətə layiq kamil və yetkin vətəndaş tərbiyə etmək məqsədi ilə tam bir vəhdət təşkil edir. Belə ki, Təhsil Qanununun 4-cü maddəsində təhsilin əsas məqsədi aşağıdakı şəkildə şərh edilmişdir:

Təhsil Haqqında Azərbaycan Rüspublikasının Qanununda bu məsələ xüsusilə vurğulanmış və təhsilin əsas məqsədi belə göstərilmişdir: *"Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideylarına sadiq olan, müstəqil yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; milli –mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan ,təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qaabiliyyətli mütəxəssis kadrlar hazırlamaq;sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərinmənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq (3, 11-12).*

Bu baxımdan yüksək milli- mənəvi dəyərlərə malik, intellektual potensiala sahib yeniyetmə və gənclərin yetişdirilməsi böyük önəm daşıyır. Yeniyetmə və gənclərin fiziki baxımdan sağlam, əxlaqca saf, mənəviyyatca zəngin milli – mənəvi ruhda tərbiyəsi, onların dövlətçilik məfkurəsi ətrafında sıx birləşməsi kimi vacib və aktual vəzifələr bu gün dövlətimizin prioritet siyasəti və əsas istiqamətini təşkil edir. Deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal olunmuş torpaqlarımızn azad edilməsində gənclərimizin yüksək milli- mənəvi ruhda tərbiyəsi, onların vətən uğrunda fədakarlığı, yüksək mənəvi

keyfiyyətləri və mənəviyyatın tərkib hissəsi olan vətənpərvərlik hissləri 44 günlük II Qarabağ döyüşündə Vətən müharibəsində düşmən üzərində qələbəmizin rəhni olmuşdur.

Dahi rəhbər, Ulu öndər Heydər Əliyev 2 fevral 1996-cı il tarixində Gənclərin Birinci Ümumrespublika Forumundakı nitqində mənəviyaytın ən mühüm tərkib hissəsinin vətənpərvərlik olduğunu xüsusilə vurğilamışdır: *"Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Vətənə sadiq olmaq, vətəni sevmək torpağa bağlı olmaq: budur vətənpərvərlik" (4)* .

Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət təhsil siyasətinin uğurla reallaşdırılması nəticəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Ulu öndər Heydər Əliyev gənclərə daim sonsuz diqqət və qayğı ilə yanaşmış, bu sahə ilə bağlı mühüm əhəmiyyət kəsb edən fərman və sərəncamlar imzalamış və gənc nəslin milli-mənəvi ruhda tərbiyəsinə böyük həssaslıqla yanaşmışdır. Xalqımızın Ümummilli lideri Heydər Əliyev zəngin mənəvi irsimizin yaşadılmasına və inkişafına yol açmış, milli birliyimizin, bütövlüyümüzün möhkəmlənməsində əvəzsiz rol oynamışdır. Onun respublikamıza rəhbərlik etdiyi illərdə mənəviyyatımız yenidən çiçəklənmə dövrünü yaşamış, mənəvi problemlərə dair silsilə tədqbirlər keçirilmişdir. Ulu öndər deyirdi: "*Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri milli-mənəvi tərbiyə məsələsidir...mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bit gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz..."* (4). Bəli bu gün, qloballaşan dünyamızda

milli-mənəvi ruhda tərbiyə daha böyük əhəmiyyət kəsb edir və daha böyük aktuallıq kəsb edir.

1996-cı ildə keçirilən Azərbaycan Respublikası Gənclərinin Birinci Forumu sonralar mütəmadi xarakter alaraq yeniyetmə və gənclər siyasətinin müəyyənləşdirilməsində əhəmiyyətli platforma rolunu oynadı. Hər il fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi, bu sahədə dövlət proqramlarının qəbulu məhz Ümummilli Liderin yeniyetmə və gənclərə sonsuz qayğısının göstəricisi olmuşdur.

Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Milli- Mənəvi dəyərlər əsasında milli –mənəvi tərbiyə, insan şəxsiyyəti formalaşır. İnsanı cəmiyyətdə formalaşdıran, inkişafına kömək edən mənəvi şüur, mənəvi mədəniyyət, mənəvi davranış qaydalarıdır. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini təhsil işçilərinin qarşısında əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir çox sərəncam və çıxışlarında “maddi kapitalın insan kapitalına çevrilməsi” ideyası irəli sürülür. Bu ilk növbədə insana verilən dəyər, qiymət olmaqla, şəxsiyyət yetişdirmyə istiqmətlənmişdir. Bu fikir yetişən gənc nəslin milli-mənəvi ruhda tərbiyəsinə yönəlmişdir. Bu yetişən gənc nəsli mənəvi cəhətdən zəngin, əxlaqca saf, fiziki cəhətdən sağlam insanlar yetişdirmək dövürümüzn aktual problemidir.

Ölkə Prezidentinin sərəncamı ilə təsdiq olunmuş *“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda da milli-mənəvi dəyərlərə yiyələnməklə gənc nəslin milli- mənəvi ruhda tərbiyəsi əsas vəzifələrdən biri kimi qeyd olunur: “Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və*

*dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onun biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir" (5).*

Bu gün müasir yeniyetmə geniş elmi-mədəni dünyagörüşünə sahib olmalı, bəşəri və milli mənəvi dəyərləri mənimsəməli, hər yerdə yüksək mədəni davranış qayadalarıan əməl etməli, daim mənəvi- əxlaqi keyfiyyətləri nümayiş etdirməldiir. O Vətənini, xalqını, insanlarını dərin məhəbbətlə sevməli, xalqın mənəvi dəyərlərinə dilinə, dininə, bayrağına, himninə, gerbinə, adət və ənənələrinə hörmətlə yanaşamlıdır.

Yeniyetmə və gənclərin milli- mənəvi ruhda tərbiyəsi mənəvi keyfiyyətlərin formalaşmasının nəticəsi olaraq mütəmadi olaraq fasiləsiz təkmilləşmə, inkişaf prosesində olmalıdır. Çünki milli-mənəvi tərbiyənin göstəricisi, meyarı əməldir, fəaliyyətdir, praktik işdir. Bu prosesdə çox mühüm mərhələ təhsil prosesi və onun milli ruhda formalaşmaqda olan yeniyetmə və gəncləridir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"/ Xalq, 16 iyun 1999- ci il
2. Azərbaycan müəllimlərinin XIII qurultayı. Bakı: Çaşıoğlu, 2009.
3. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
4. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq. "Azərbaycan" qəz. Bakı, 1996, 6 fevral.
5. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.

# H.ƏLİYEV KƏLAMLARI UŞAQ VƏ GƏNCLƏRİN ƏXLAQİ ŞÜURUNUN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN ƏSAS AMİLLƏRDƏN BİRİ KİMİ

***Afət Aban qızı Bayramova***
***Pedaqogika kafedrasının baş müəllimi***
***afetbayramova3@gmail.com***

Ulu öndərimiz H.Əliyev uşaqlarda milli-mənəvi şüurun tərbiyə komponentləri məsələsini bütün nitq, çıxış və məruzələrində ön plana çəkir. Bu baxımdan Azərbaycan Respublikası gənclərinin birinci forumundakı (2 fevral, 1996) "Müstəqil Azərbaycanın gələcəyi gənclərdir" adlı nitqi çox əhəmiyyətlidir. H.Əliyev həmin nitqində müstəqil Azərbaycan dövlətində fəaliyyət göstərən gənclərin milli-mənəvi tərbiyəsinin zəngin proqramını verərək deyir ki, nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da, mənəviyyat olmayan yerdə insan şüurunu heç cür tərbiyə etmək olmaz.

Xalqımızın tarixinin bütün mərhələlərində yüksək mənəviyyat olmuş, mənəvi keyfiyyətlər gənclərə aşılanmışdır. Ulu öndərimiz H.Əliyev insanı ucaldan, onu zənginləşdirən mənəviyyat komponentlərinə milli Azərbaycan vətənpərvərliyini, milli ləyaqəti, hərbi vətənpərvərliyi, milli iftixarı, milli dəyanəti və vicdanı, düşmənə nifrəti xalqımızın adət və ənənələrini, ana dilini dərindən bilməyi, milli və ümumbəşəri mənəvi dəyərlərin vəhdətinin təmin edilməsini, böyüyə hörməti milli-mənəvi tərbiyənin əsası hesab edirdi. Ulu öndərimiz haqlı olaraq deyir ki, öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilməz. Ana dilini bilməyən adam Nizamini, Füzulini Nəsimini, Vaqifi, Cavidi, Sabiri, Vurğunu oxuya bilməz. Belə adam qədim yunan əsatirlərindəki Anteyə bənzəyir. Onun ayaqları torpaqdan üzülən kimi məhv olur. Bu gün də belədir. Öz milli mədəniyyətindən, milli adət- ənənələrindən ayrı düşən hər şəxs, hər bir gənc heç nəyə yaramayıb tənha qalacaqdır. Buna görə də hər bir məktəbli, gənc ana dilini mükəmməl bilməli, dünya dillərini öyrənməlidir. Birinci növbədə düşmənin dilini bilmək vacibdir ki, onun nə işlə məşğul olmasından xəbər tuta biləsən. Bu

gün hər bir azərbaycanlı gənc ingilis, rus, ərəb, fars dillərini yaxşı bilməlidir. O, eyni zamanda islam dininin əsas prinsiplərini, mənəvi dəyərlərini bilməlidir. İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir. Milli mənlik şüurunun Azərbaycan vətənpərvərliyi və milli-mənəvi şüur anlayışını ilk dəfə Ulu öndərimiz H.Əliyev özünün çıxış və nitqlərində işlətmiş, onun mahiyyət və məzmununu açıqlamışdır. Milli vətənpərvərlik, keçmiş tariximizin qiymətləndirilməsi torpaqlarımızın qorunmasıdır. Azərbaycan çoxmillətli, demokratik bir dövlətdir. Milliyyətindən asılı olmayaraq, hər bir vətəndaş üçün Azərbaycan ana vətəndir. "Vətəndaş" sözü o deməkdir ki, hər bir vətəndaş öz vətəninə sadiq olmalı, onu göz bəbəyi kimi qorumalı və vətəni uğrunda, torpağı uğrunda, ana-atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır. Milli vətənpərvərlik, milli mənlik Azarbaycanda yaşayan bütün millətlərin vətənpərvərliyidir. Çünki Azərbaycan onların hamısının vətənidir. Azərbaycan xalqı deyəndə, Azərbaycanda yaşayan bütün millətlərin birliyi başa düşülür. Bu xalqın vətənpərvərliyinin dərin kökləri vardır. Azərbaycan vətənpərvərliyi Azərbaycanın müstəqilliyinin qorunmasına xidmət edir. Şagirdlərə öyrədilməlidir ki, Ulu öndərimiz H.Əliyev çox gərgin şəkildə müdrik xarici siyasət aparmışdır. Bu siyasət sayəsində Azərbaycan Avropaya pəncərə açmış, Böyük Çin səddini keçmiş, Amerikaya gedib çıxmışdır. Bu siyasət xalqımızda yüksək mənəvi inam və milli-mənəvi əhval-ruhiyyə yaratmışdır. Bu mübarizə ruhunu məktəblilərə çatdırmaq və onlara bildirmək lazımdır ki, Dağlıq Qarabağ düyününü ancaq H.Əliyev cənabları aça biləcəkdir. H.Əliyevin fəaliyyəti, onun yeritdiyi qlobal siyasət təqdirəlayiqdir. Bu günki şəhidlərin ruhu namina, milli istiqlal naminə böyük səy və gərgin zəhmətlə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparır. Bu bir həqiqətdir ki, "hər bir millətin öz siması, arzusu, istəyi, qayəsi, öz ləyaqəti və yalnız özünə xas olan xüsusiyyəti vardır" (İ.Çavçavadze). Hiyləgər ermənilər tarix boyu millətlərin bu xüsusiyyətlərini təhqir etməyə, Qafqazda yaşayan xalqların torpaqlarına sahib durmağa, onlara böhtan atmağa çalışmışlar.

İndi də belədir. İ.Çavçavadzenin sözləri ilə desək, ermənilərin üzündən niqabı götürməyin, onları dünya ictimaiyyəti qarşısında ifşa

etməyin vaxtı çatmışdır. Aşağıda deyəcəyimiz bir misal bunu bir daha təsdiq edir. Belə bir ifşanı hörmətli Ulu öndərimiz H.Əliyev həyata keçirə biləcəkdir. O, ermənilərin vəhşi iç üzünü açıb bütün dünya ictimaiyyətinə göstərə bilmişdir. H.Əliyev ən böyük və qüdrətli vətənpərvərdir. Ona görə də Lissabon sammiti zamanı H.Əliyevin nəyə qadir olduğunu məktəblilərə çatdırmaq lazımdır. Lissabon sammitində Azərbaycanın ərazi bütövlüyü ilə əlaqədar məsələlər müzakirə ediləndə ermənilər veto hüququndan istifadə etdilər. Çox gərgin bir vəziyyət yaradılmışdı. Bu səhnəni peyğəmbərimiz Məhəmmədlə əmisi Əbu Talib arasında gedən dialoqa bənzətmək olar. Əbu Sufyan öz dəstəsi ilə Əbu Talibin yanına gələrək ona demişdi: "Qardaşın oğlunu başa sal ki, bizim bütləri təhqir etməsin, ya da ona himayədarlıq etmə". Əbu Talib qardaşı oğlunu yanına çağırıb üstüörtülü eyhamla bildirmişdi ki, daha ona himayədarlıq edə bilmir. Bunu hiss edən Məhəmməd demişdir: "Ey atam qədər sevdiyim əmim, bir əlimə Günəşi, bir əlimə Qəməri qoysalar belə, man əqidəmdən dönən deyiləm. Mən Allahın rəsuluyam". Bu, islam tarixinin ən gərgin, ən çətin bir səhnəsi idi.

Ulu öndər H.Əliyevin milli-mənlik şüurunun formalaşmasında müstəqillik siyasətinda hərbi vətənpərvərlik, milli ordunun yaradılması, onun işinin təkmilləşdirilməsi mühüm yer tutur. Bu gün ən başlıca vəzifə hər bir gənci, hər bir Azərbaycan övladını orduya xidmətə hazırlamaqdan ibarət olmalıdır. Gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsində ümumtəhsil məktəblərinin rolu böyükdür. Ulu öndərimiz dəfələrlə qeyd etmişdir ki, indi təhsil işçilərinin mühüm vəzifəsi gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gəncin müqəddəs borcu olmalıdır. Millətini, torpağını sevən hər bir namuslu adam torpağımızın işğalçıların əlində qalmasına razı olmamalıdır. Hərbi xidmət gəncləri daha da mətinləşdirir, onları dözümlü, cəsarətli edir. Vətənə məhəbbət gəncləri mətinləşdirir, onların mənəvi aləmini zənginləşdirir. Azərbaycan xalqının keçirdiyi qanlı-qadalı illərin qəhrəmanlıqlarını bu gün yad etmək vacibdir. Onların arasında döyüş meydanlarında şəhidlik zirvəsinə ucalanlarla yanaşı, yanğınlarda, atəşlərdə yanmış, dəmir borulara doldurulub qaynaq edilmiş bədbəxt uşaqlar, qadınlar və qocalar var. Onların

arasında namuslarına qəsd edilmiş gənc qızlar, vətənlərini itirmiş minlərlə insanlar var. Eləcə də övladları süngüyə keçirilmiş, isməti təhqir edilmiş analar var. Bütün bunlar düşmənə nifrət tərbiyə etməyi günümüzün ən zəruri məsələsinə çevirir. Təsadüfi deyildir ki, Ulu önder H.Əliyevin milli müstəqillik siyasətində düşmənə aman verməmək, düşmənə güzəştə getməmək, gənclərdə düşmənə nifrət hissi tərbiyə etmək məsələsi bu gün daha çox aktualdır.

İstər əsrin əvvəllərində, istərsə də sonunda ermənilərin törətdikləri fəlakətlərə dair əsərlər, gördüyümüz faciələr bizi ayıq olmağa, öz kökümüzə qayıtmağa çağırır. Ulu öndərimizin dediyi kimi, müəllimlər şagirdlərdə belə bir inam yaratmalıdırlar ki, hər bir gəncdə milli-mənəvi şüurun yaranması, onların gələcək həyat tərzinin düzgün istiqamətləndirilməsində böyük əhəmiyyət kəsb edir. Ulu öndər H.Əliyev Azərbaycan xalqının mənəvi-siyasi, milli birliyini bərpa etmiş, respublikanın ərazi bütövlüyünü qoruyan milli ordunu, onun atributlarını yarada bilmişdir.  Xalq, millət dərindən dərk edir ki, "olum, ya ölüm döyüşündə onu yalnız vətən torpağının hər bir qarşın ürəkdən sevənlər müdafiə edə bilər, onun başına qələbə çələngini vətən üçün canından keçməyə hazır olanlar qoya bilərlər. Hər səhifəsi vətən üçün, övladlarımız üçün şərəfli hadisələrlə və bəzən də əyintilərlə dolu böyük bir qahramanlıq salnaməsi olan Qarabağ döyüşlərinin həyəcanları məktəbliləri, müəllimləri daim düşündürməli, onları vətənin müdafiəsinə hazır olmağa, vətəni qorumağa layiq vətəndaşlar yetişdirməyə səsləməlidir. Bunun üçün isə millət, millətin mənəvi həyatı, musiqisi, ədəbiyyatı, bütün həyat tərzi bu müqəddəs mübarizənin ilahi nəğmələrini, sonsuz bir vətən eşqini coşğun həyəcanları ilə daima tərənnüm etməlidir. Məktəblilərə deyilməlidir ki, Azərbaycan istiqlalını əbədiyyətə qədər mühafizə və müdafiə etmək onların müqəddəs borcudur. Məktəblilərə hər bir müqabil mənəvi sərvətləri ilə öyünmək, fəxr etmək kimi keyfiyyətlərin tərbiyəsi mühüm amil kimi qarşıda durur. Buna görə də hörmətli Ulu öndərimiz özünün milli müstəqillik siyasətində milli iftixar hissinə, onun gənclərdə tərbiyə edilməsinə xüsusi əhəmiyyət verirdi.Hər bir məktəblidə, xüsusilə yuxarı sinif şagirdlərində milli iftixar hissinin tərbiyə edilməsi onların cəmiyyətdə münasibətlər sistemində tutduğu mövqelərini müəyyən edir. Ulu öndər H.Əliyev

şüurun formalaşması məsələsinə xalqımızın mədəniyyətini, tarixi şəxsiyyətlərini, sərkərdə və generallarını, yazıçı və şairlərini, idmançıları, elm adamları ilə öyünməyi, ana dilinə, vətən torpağına məhəbbəti uşaqlarda milli-mənəvi şüurun formalaşması ilə əlaqələndirir. Ulu öndərimiz H.Əliyev dəfələrlə təkrar etmişdir ki, məktəbli gənclərdə milli psixologiyanın, mənəviyyatın, milli qürur və iftixar hissinin, milli özünəməxsusluğun formalaşması və tərbiyə edilməsi birdə ona görə zəruridir ki, belə adamlar milli-etnik məhdudluğa qarşı mübarizə apara bilir və xoşagəlməz hisslərdən uzaq olurlar. Ulu öndərimiz göstərirdi ki, milli mənlik şüuru formalaşmış və tərbiyə olunmuş gənclərdə əqidə bütövlüyü, sözlə işin vəhdəti özünü parlaq şəkildə təzahür etdirə bilir. Vaxtı ilə Məhəmməd Peyğəmbər deyirdi ki, millətin içində xəyanət olmasa, düşmən qarşımızda tab gətirə bilməz. Milli mənlik şüuru və əqidəsi olmayan hər bir kəs ötəri hisslərlə yaşayıb, hansı əqidəyə xidmət etdiyini özü də bilmir. Məhz buna görə də biz deyə bilərik ki, hər bir gəncdə axlaqi şüurun formalaşması, hər bir cəmiyyətin mövcudluğu və inkişafı, hər bir gəncin həyat fəaliyyəti və başqa adamlarla qarşılıqlı münasibətləri üçün zəruri şərtdir.

## Ədəbiyyat


1. Qarayev S. Müstəqil Azərbaycan elminin və təhsilinin memarı. Respublika. 2013. 19 aprel, - № 80, -s.8.
2. Şəkərəliyev A. Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir . Xalq qəzeti. 2015. 14 iyun, - № 127.-s.11.
3. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/dig-r-x-b-rl-r/item
4. Azərbaycan müəllimi. 2010, 10 dekabr, -s4.

# M.C.PAŞAYEVİN "AÇIQ KİTAB", "BİR GƏNCİN MANİFESTİ" ƏSƏRLƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Safura Bayram qızı Allahverdiyeva***
***Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim***
***Bakı Dövlət Universiteti***
***allahverdiyevasafura@gmail.com***

Çoxşaxəli fəaliyyəti ilə Azərbaycan ədəbiyyatına, elminə, incəsənətinə dəyərli töhfələr bəxş edən Mir Cəlal Paşayev XX əsrin ən böyük dühalarından biridir. Onun bədii əsərləri ilə yanaşı bir alim, pedaqoq kimi fəaliyyəti də diqqətəlayiqdir. Onun nəşr etdirdiyi "Ədəbiyyatşünaslığın əsasları", "XX əsr Azərbaycan ədəbiyyatı" dərslikləri, "Klassiklər və müasirlər", "Füzuli sənətkarlığı" və digər elmi əsərləri də gənc nəslin tərbiyəsində dünyanı, həyatı dərk etməsində müstəsna rol oynamışdı. Mənə 1965-ci ildə dərs deyən müəllimimin yaradıcılığına və elmi-pedaqoji fəaliyyətinə bu gün nəzər yetirdikcə onun şəxsiyyəti ilə yaradıcılığının bir-birini çox layiqli şəkildə tamamladığını görürəm. Mir Cəlal müəllim böyük şəxsiyyət və pedaqoq idi. Onun əsərlərində incə lirizmlə yanaşı həm də dərin fəlsəfi mühakimələr, milli-mənəvi dəyərlərə qayğı öz əksini tapır. Yaradıcılığa şeirlərlə başlasa da, o, nəsr əsərləri hekayələri və romanları ilə məşhurlaşmışdır. Ədibin əsərlərini sevdirən, dəyərli edən oxucunun gözü qarşısında real həyat hadisələrinin əks olunmasıdır. "Dirilən adam", "Dağlar dilə gəldi", "Bir gəncin manifesti", "Yaşıdlar" və hekayələri real həyat hadisələrini əks etdirdiyi üçün inandırıcıdır və böyük tərbiyəvi əhəmiyyətə malikdir. Mir Cəlal Paşayevin əsərlərində önəm verdiyi əsas məsələlər ana dili. Milli kolorit, müasirliklə yanaşı ənənələrə bağlılıq da mühüm əhəmiyyət kəsb edir. "Ləyaqət", "Söyüd kölgəsi", "Şəfəqdən qalxanlar", "Gül bəsləyən qız", "Ərik ağacı", "Badam ağacları" və digər hekayələri bu günkü gənclik üçün əsl həyat və tərbiyə məktəbidir. Ədibin ideya və məzmun etibarı ilə ən dəyərli əsərlərindən biri "Bir gəncin manifesti"dir. Doğma dilimizin gözəlliyini əks etdirən bu əsl sənət nümunəsində təsvir edilən təbiət təsvirləri, dolğun insan xarakterləri böyük ictimai məna kəsb edərək

oxucunu düşündürür. Sanki baş verən hadisələr gözləri qarşısında baş verir. Gənc nəslin tərbiyəsində ailə mühüm rol oynayır. Belə ki, uşağın ilk müəllimi, tərbiyəçisi valideyn, ilk məktəbi isə ailədir. Mir Cəlal müəllim "Bir gəncin manifesti" əsərində bir ailənin simasında bütöv bir dövrün mənzərəsini canlandırmışdır. Sona xala, Mərdan, Bahar obrazları bir ailənin üç müxtəlif dünyasıdır. Müəllif Baharın simasında o dövrün ictimai xüsusiyyətlərinin, mənfi xislətli insanlarının qurbanına çevrilən bir yeniyetmə gəncin faciəli həyatını canlandırmışdır. Təmizliyin, paklığın mücəssəməsi olan, ürəyi həyat eşqi ilə döyünən Bahar ana qucağından birdən-birə həyatın girdabına atılır və istəmədiyi bir dünyaya düşür. Qayğısız günlər sona çatır, həyat ona əzablı, məşəqqətli görünür. Bu çətinlik ailənin hər üç üzvünə əzab versə də, Bahar bu çətinliyə qalib gələ bilmir, mübarizədə acizdir. Əsərdə təsvir edilən Sona obrazı Azərbaycan qadınının ideal obrazıdır. Belə ki, Sona bir ana kimi, sadə bir qadın kimi, o qədər həyati canlandırılıb ki, oxucu ona inanır, onu yüksək dəyərləndirir. Özünün qayğıkeşliyi, təmkini, bacarığı, səliqə-səhmanı ilə sevilən Sona məğrurluğu ilə də diqqəti cəlb edir. Öz əlləri ilə zəhmətlə, sevgi ilə toxuduğu "Yusif və Züleyxa" xalçasını ehtiyac üzündən satmağa məcbur olan Sona xalçanı onun ölkəsinə, sərvətinə göz dikən ingilisin aldığını görəndə, düşünmədən qətiyyətlə deyir: "itə ataram, yada satmaram". Milli qürur, Vətən sevgisi, torpağa, elə bağlılıq bu iki sözdə necə də gözəl səslənir. 44 günlük müharibə, işğalda olan torpaqların azad edilməsi, qəhrəman oğullarımızın şəhid olması, onları böyüdən analar Sona xanımın davamçılarıdır. Azərbaycan anası həmişə öz ləyaqətini, ismətini qorumuş ləyaqətli övladlar böyüdüb ərsəyə çatdırmış, lazım gəldikdə vətənin müdafiəsi üçün yola salmış, düşmən önündə mətin dayanıblar.

"Açıq kitab" romanında da qoyulan məsələlər bu gün üçün də olduqca aktualdır, belə ki, ədib ailə-məişət münasibətlərini, təhsil sistemini və cəmiyyətdə baş verən hadisələri olduqca inandırıcı bir şəkildə təsvir edir. Yazıçı əsərin əvvəlində payızın gəlişini, pəncərələrin örtülməsini, isti paltarların boxçadan çıxarılmasını və s. təsviri ilə xalqımızın məişəti, adət-ənənələri ilə öz oxucusunu tanış edir. İnsanlarda təbiətə, təbiət hadisələrinə, sadəliyə, təbililiyə bir sevgi hissi aşılayır. Ədib bir müəllim kimi təhsil sahəsində baş verən

hadisələri olduqca inandırıcı verə bilmişdir. Belə ki, romanda təsvir edilən Vahid obrazı ağıllı, sadə kənddə böyüyən saf bir oğlandır. Valideynlərindən uzaq düşən Vahid elə bir yaş dövründədir ki, o, haradasa səf edə bilər. Böyüklərin borcu ona səhvlərini düzəltməkdə kömək etməkdir. Müəllif Muxtar obrazının dili ilə deyir: "Cavan adamdır, səhvi var, borcumuzdur, tərbiyə edək kömək eyləyək düzəltsin! Bizi niyə seçiblər bəs?" Bu fikri yazanda gözümün önündə mənə 1965-ci ildə dərs deyən müəllimim Mir Cəlal Paşayev canlandı. Mir Cəlal müəllim tələbələrə qarşı olduqca diqqətli, qayğıkeş, mehriban, səmimi və doğma idi. Müəllifə görə, müəllimlərin, təhsil sahəsində çalışan insanların vəzifəsi təkcə elm öyrətmək deyil, həm də gənc nəslə doğru yol göstərmək, həyatda düzgün mövqe tutmağı, insanlığı düzgün davranışı öyrətməkdir. Rübabə ilə Vahid gənc tələbələrdir. Oxumağa, öyrənməyə böyük həvəsləri var. Vahid Rübabəyə deyir: "Bilirsən, Rübabə, hər dəqiqə bir kitab lazım olur, oxuduqca daha başqasına ehtiyac duyursan. Bilik aclığı heç bir aclığa bənzəməz. Bu iştahanı ödəmək olmur. Bəzən bütün oxuduğun kitablar çoxdan tamaşa edib ötdüyün bağça kimi gəlir, daha başqa yerlər görmək istəyirsən". Yazıçı kitab oxumağın, elm öyrənməyin əhəmiyyətini, çox qiymətli bir sərvət olduğunu göstərməklə gənclərdə kitaba sevgi aşılayır. Bu fikirlər bu günkü gənclər üçün də çox əhəmiyyətlidir. Belə ki, kitab oxumaq, elm öyrənmək sonsuz bir dəryadır, çox qiymətli bir sərvətdir. İnsan ömrü yetdikcə, oxuya bildiyi müddətcə, kitablar oxumağa, yeni biliklər əldə etməyə çalışmalıdır. Ailəyə, ailə tərbiyəsinə xüsusi əhəmiyyət verən ədib əsərdə Ağca xanımın oğluna olan münasibəti də maraqlıdır. Ağca oğluna qarşı o qədər də diqqətli deyil, özünün dünyəvi ləzzətlərinə daha çox vaxt ayırır. Rübabə oğlu ilə bağlı Ağca xanıma deyir: "Xanım, uşaq mal deyil istədiyin yerdə bağlayasan. Onun üçün sən də məsulsan. O, tək sənin yox, gələcəyin, xalqın da övladıdır". Göründüyü kimi yazıçı övlad tərbiyəsində valideynlərin, xüsusilə də anaları diqqətli olmağa çağırır. Çünki valideyn övladı təkcə özü üçün deyil, həm də vətən üçün tərbiyə edir.

Bu gün torpaqlarımızın azad olunmasında şəhid olan, qazi olan, hal-hazırda döyüşən qəhrəman oğulları böyüdən qəhrəman, ləyaqətli analara əhsən. Ədib əsərdə cəmiyyətdə, xüsusilə təhsildə

baş verən xoşagəlməz hadisələri olduqca inandırıcı bir şəkildə təsvir edir. Rübabə, Muxtar, Vahid əqidə, əməl dostlarıdır, qocaman mühəndis Vəzirbəylinin onların tərəfində durması,onları dəstəkləməsi müsbət bir haldır, inandırıcıdır. Bu ondan irəli gəlir ki, Mir Cəlal müəllim özü də həmişə gəncliyə, köməksiz insanlara dayaq olardı, bu onun həyat amalı idi. Əsərdə Gəldiyev, Verdiyev kimi şəxslər öz mənafelərini güdən, şər-böhtanla məşğul olan, evlər yıxan insanlardır. Yazıçı "əzməsən əziləcəksən, ayaqlamasan ayaqlanacaqsan" deyən Gəldiyevin necə naqis bir insan olduğunu göstərir. Mir Cəlal müəllim belə insanların cəmiyyət üçün çox qorxulu olduğunu göstərərək gəncliyi ayıq olmağa çağırırdı.

Pedaqoji fəaliyyətində olduğu kimi Mir Cəlal müəllim yaradıcılığında da insanın bir şəxsiyyət kimi formalaşmasına xüsusi diqqət yetirirdi. Öz peşəsini, tələbələrini çox sevən, onlara diqqət, qayğı göstərən, həqiqətin, doğrunun yanında duran, mənəvi dayaq olan unudulmaz müəllimin bütün yazılarında olduqca inandırıcı və əzəmətlidir. Zaman keçdikcə onun əsərləri daha çox tədqiq ediləcəkdir. Neçə-neçə nəsillər bu əsərlərdən bəhrələnəcək, insanlığı, həyatı öyrənəcəklər. Mir Cəlal müəllimin hekayələrinin, romanlarının bu gün orta məktəb dərsliklərində yer alması, müasir gəncliyin tərbiyəsində dünyagörüşünün formalaşmasına müsbət təsir göstərər. Bu da tərbiyə sahəsində pedaqoji səmərəliliyi daha da artırar.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİNDƏ AZƏRBAYCANÇILIQ KONSEPSİYASININ PEDAQOJİ İSTİQAMƏTLƏRİ

***Elza Əlipaşa qızı Mollayeva***
***Bakı Dövlət Universiteti, Pedaqogika üzrə elmlər doktoru, dosent.***
***elzamollayeva@rambler.ru***

Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır.
Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.
Ümummilli Lider Heydər Əliyev

Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində azərbaycançılıq məfkurəsinin təşəkkülü müxtəlif dövrlərdə yaşamış böyük mütəfəkkirlərin, ictimai xadimlərin və dövlət adamlarının fəaliyyətində özünü biruzə vermişdir. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir.

Lakin azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideyasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir. Təsadüfi deyildir ki, Heydər Əliyev bizim milli ideologiyamızın konsepsiyasını tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində qurmuşdur. O, məhz bu komponentləri milli ideologiyanın əsası olaraq xarakterizə edirdi: " ...bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalıdır" [1,285].

Muasir dövrdə gənc nəslin azərbaycançılıq ideologiyası əsasında tərbiyə edilməsi, onlarda tarixi soy-kökünə, keçmişinə məhəbbət və ehtiram hissinin aşılanmasında Ümummili Lider Heydər Əliyevin irsi əvəzedilməz mənbə rolunu oynayır.

Ümummilli Lider harada yaşamasından asılı olmayaraq, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasını və gələcək nəsillərə ötürülməsini dünya azərbaycanlılarının tarixi vətəni olan Azərbaycan qarşısında müqəddəs vəzifəsi kimi görürdü. Onun dünya azərbaycanlılarına 2001-ci il, 29 dekabrdakı müraciəti azərbaycançılıq ideyasının ideya-siyasi əhəmiyyətini ifadə edir: " Azərbaycanlılar dünyanın bütün ölkələrində Azərbaycan mədəniyyətinin, dilinin, dininin, adət-ənənələrinin, mentalitetinin layiqli daşıyıcıları kimi çıxış etməlidirlər. Buna görə də harada yaşamasından asılı olmayaraq, sağlam milli adət-ənənələrin, mədəni-mənəvi dəyərlərin qorunub saxlanması, gənc nəslə ötürülməsi dünya azərbaycanlılarının tarixi vətən qarşısında müqəddəs borcudur" [2,s.142].

Azərbaycançılıq bir məfkurə, milli konsepsiyadır. Bu məfkurə

ancaq Azərbaycan Respublikasının coğrafi hüdudlarında yaşayan azərbaycanlıların deyil, eyni zamanda, bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını əks etdirir. Bu konsepsiyanın tarixi əhəmiyyətini, milli məzmununu müasir gəncliyə aşılamaq, onları milli-mənəvi dəyərlər müstəvisində tərbiyə etmək müasir təhsil sistemimiz qarşısında duran ən önəmli məsələlərdən biridir. Buna görə də Ümummilli Liderin həyat və fəaliyyəti, onun siyasi kursu və irsinin gənclərə öyrədilməsi pedaqoji baxımdan vacib və əhəmiyyətlidir.

Azərbaycançılıq məfkurəsi "azərbaycanlı" termini ilə birbaşa bağlıdır və bu termini ilk dəfə Məhəmməd Şahtaxtinski və ondan sonra isə M.Ə.Rəsulzadə işlətmişdir. Hələ 1897-ci ildə M.Şahtaxtinski qeyd edirdi ki, Qafqaz müsəlmanlarını "azərbaycanlı" adlandırmaq lazımdır. 1915-ci ildə isə "Açıq söz" qəzetində bu barədə geniş məqalə ilə çıxış edən M.Ə.Rəsulzadə azərbaycançılıq ideyasının artıq coğrafi mənadan başqa inkişaf edərək siyasi və milli-mənəvi sahələri də əhatə etdiyini yazmışdır. Artıq XX əsrin astanasından türkçülüklə yanaşı "azərbaycançılıq" da get-gedə püxtələşməyə başlayır" [ 3.s. 56].

Azərbaycançılıq məfkurəsini daim müdafiə edən Ümummilli Lider qeyd edirdi ki, əsas məqsəd hər vəchlə Azərbaycan dövlətçiliyini qorumaqdan ibarətdir. O, çıxışlarının birində deyirdi: "Bizim gördüyümüz işlər, apardığımız iqtisadi islahatlar, dövlət quruculuğu prosesi, təhsil və başqa sahələrdə həyata keçirdiyimiz islahatların hamısı Azərbaycan dövlətini daha da yüksəlməyə yönəltmişdir" [1, s. 143].

Azərbaycanlı olmağı ilə hər zaman fəxr edən Heydər Əliyev dövlətçilik fəaliyyətində dərin ictimai-siyasi məna daşıyan və polietnik tərkibli ölkəmiz üçün xüsusilə önəmli olan azərbaycançılıq məfkurəsi başlıca leytmotiv və aparıcı istiqamət olmuşdur. Ümummilli Lider milli ideologiyanın təməl prinsiplərini müəyyən etməklə bərabər, həm də bu prinsiplərin siyasi-fəlsəfi mahiyyətini də tam dərinliyi ilə açıqlamışdır. Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümü münasibətilə keçirilən mərasimdə Heydər Əliyev demişdir: "Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası, Yeni Azərbaycan Partiyasının məramnaməsində öz

əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm də daxili siyasətdə, həm ictimai-siyasi sahədə, həm sosial-iqtisadi sahədə gördüyümüz işlər həmin milli ideologiyanın üzərində qurulur. Bu milli ideologiya nədən ibarətdir? Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır" [2, s.3].

Müstəqilliyimizin ilk illərində dövlətimiz qarşısında dayanan həlli vacib və taleyüklü məsələləri önə çəkərkən Ulu Öndər milli birliyi, həmrəyliyi xüsusilə qeyd etmişdir. Onun xarici siyasətlə bağlı fəaliyyətində əsas istiqamətlərdən biri kimi dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birliyi mühüm prioritet kimi qarşıya qoyulmuşdu. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycanın ən çətin siyasi vəziyyətində xalqı bir amal, bir məqsəd ətrafında birləşdirə biləcək və xalqın birlik və həmrəyliyinin təminatı missiyasını həyata keçirən konsepsiya hazırlanmışdır. 2001-ci il noyabr ayının 9-10-da Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi ilə soydaşlarımızın həmrəyliyi bir daha təmin edilmiş, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əsas amil olan diasporun təşkilatlanması üçün hüquqi bazanın əsası qoyulmuş, görüləcək işlərin bir mərkəzdən idarə olunması üçün Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdı. Ümummilli Liderin 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında bəyan etdiyi tezislər əslində azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli

mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq” [2. s.177-178].

Azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideyasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir.

Heydər Əliyevin azərbaycançılıq ideologiyasında buraya daxil edilmiş komponentlər arasında inteqrativ və birləşdirici rolu dil oynayır. Bu mənada prof. S.Xəlilov yazır: “ Azərbaycançılığın əsasında Azərbaycan dili dayanır. Poeziya da, şifahi xalq ədəbiyyatı da, mahnılarımız da, epik düşüncə və siyasi təfəkkür də-dillə sıx surətdə bağlıdır” [3.s.36].

Ancaq azərbaycançılıq konsepsiyasında dilin rolu nə qədər böyük olsa da, o, milli birliyi yeganə ifadə edən amil deyil. Belə ki, “ burada təfəkkür tərzi, ictimai şüurun səviyyəsi, adət-ənənə, dini etiqad, həyat tərzi, mədəni-mənəvi abidələrin, xüsusən yazılı ədəbiyyatın, fəlsəfi fikrin siyasi və iqtisadi təfəkkür mədəniyyətlərinin də nəzərə alınması lazımdır”[3.s. 37].

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun “mən bütün dünya azərbaycanlılarının, hər bir azərbaycan milli mənsubiyyəti olan insanın Prezidentiyəm!” müraciəti azərbaycançılıq ideyasının qlobal mahiyyətindən, birləşdirici funksiyasından xəbər verir. Bu gün dünyanın müxtəlif yerlərində, qitəsində, ölkəsində yaşayan hər bir azərbaycanlı üçün Azərbaycan Respublikası qürur yeri, onun Prezidenti cənab İlham Əliyev qarantdır. Ölkə Prezidentinin xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərə xüsusi önəm verməsi və diqqət ayırması, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində xaricdəki soydaşlarımızı daha fəal olmağa çağırması, azərbaycançılıq məfkurəsinin soydaşlarımızın milli birliyinin əsas istiqaməti kimi dəyərləndirilməsi Ulu Öndərin milli konsepsiyasının uğurlu davamının göstəricisidir. Azərbaycançılıq ideyasının təbliğində Azərbaycanın birinci xanımı,

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə verdiyi böyük töhfələrdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi bütün dövrlər və bütün millətlər, xalqlar üçün tarixdə öz yerini, rolunu, milli xüsusiyyətlərini qoruyub saxlamaq üçün əhəmiyyətli konsepsiyadır. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu konsepsiyanı öz siyasi fəaliyyətində "Türkçülük-Azərbaycançılıq" tandeminin bütün sahələrdə paralel tətbiqi ilə reallaşdırır.

**Ədəbiyyat**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 20 cilddə.VIII cild.Bakı: Azərnəşr.1998.-43
2. Əliyev H.Ə.  Dünya Azərbaycanlılarının I Qurultayında nitqi // Dirçəliş XXI əsr jurnalı, 2003, №70, s.175-186-48
3. Xəlilov S.S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: Azərbaycan Universiteti. 2002.


## CÜBRAN XƏLİL CÜBRAN YARADICILIĞINDA SEVGİ MƏSƏLƏSİ


***Ülviyyə Rizvan qızı Agabəyova***
***Bakı Dövlət Universiteti***
***Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının dosenti***
***ulviya.agabeyli@mail.ru***


"İsa mənim sinəmin bir tərəfində, Məhəmməd isə digər tərəfində oturur."

***Cübran Xəlil Cübran***

Livan əsilli amerikalı rəssam Cübran Xəlil Cübran on doqquzuncu əsrin sonu, iyirminci əsrin əvvəllərində fəaliyyət göstərmiş, dövrünün məşhur yazıçısı, filosofu, şairi olmuşdur.

Xristian mühitində böyüsə də, islam təsirindən yan keçə bilməmişdir. Cübran Xəlilin dünyagörüşünün formalaşmasında evlərində tez-tez qonaq olan müxtəlif din mənsublarının böyük rolu olmuşdur. İslam, xristianlıq, iudaizm dinləri ilə və əsasən də, sufiliklə maraqlanmış, müxtəlif janrlı əsərlər yaratmağa müvəffəq olmuşdur. Uşaq yaşlarında ailəsi ilə ABŞ-a köç etmiş, çətin həyat tərzi keçirmişdir. Maddi sıxıntı və mənəvi sarsıntı nəticəsində məşəqqətli həyatı mütəfəkkirin dünyagörüşünə ciddi təsir etmişdir. Yaradıcılığının ilk illərində sevinc, kədər, təbəssüm, göz yaşları kimi məsələlərə toxunmuş və beləliklə də sentimentalizmə meyl etmişdir. Əsərlərində, eyni zamanda, sevgi, məhəbbət, təbiət, etik-estetik və teoloji məsələlər geniş yer almışdır.

Cübran Xəlil yalnız yazıçı, şair kimi formalaşmamış, iç dünyasını tablolarda da ifadə etmişdir. O, Fransada İncəsənət İnstitutunda təhsil almış, rəssam kimi məşhurlaşmış, bir çox Avropa ölkələrində olmuş, fransız, ingilis dillərini mükəmməl bilmiş, müasir ərəb ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

Suriya-Amerika Ədəbiyyat Məktəbinin ən böyük nümayəndələrindən biri olan Cübran Xəlil Cübran "Qum və köpük" aforizmlər kitabında yazırdı ki, özündə yazıçılıq peşəsinə meyl hiss edən insan (bu, elə böyük sirrdir ki...) böyük zövqə malik olmalı, səsin musiqisini duymağı bacarmalı, sənətin sadəliyini qiymətləndirməli, oxucunun məhəbbətini qazanmağa müvəffəq olmalıdır [6, s.191].

"Suriya-Amerika məktəbi"nin nümayəndələri baxmayaraq ki, qərb mədəni irsinə müraciət etmişlər, onların heç biri ərəb mənəvi ruhunu "özgələşdirməmiş", əksinə, həm xristian, həm də İslam dininə müraciət etmiş, Qərb və Şərq dəyərlərinin sintezinə çalışaraq yeni üslubla onu daha da rəngarəng etmişlər. Bunun nəticəsi olaraq, ərəb ədəbi – fəlsəfi təfəkkürü çagdaş dövrə uyğun şəkildə inkişaf etmişdir.

İctimai-siyasi, iqtisadi və sosial problemlərin yaşandığı Yeni dövrdə Livanı tərk edən ziyalı kütləsi Amerika Birləşmiş Ştatlarına üz tutaraq ölkənin mədəni həyatına öz müsbət təsirini göstərməyə müvəffəq olmuşdur. Burada yaranan "Suriya – Amerika məktəbi" ərəb ədəbiyyatının, mənəvi mədəniyyətinin inkişafında məxsusi rol

oynamışdır. Bir müddət Livana qayıdan gənc Cübran Xəlil orada məşhur ərəb maarifçiləri Frensis Marraş, Ədib İshak, Əhməd Faris əş-Şidyakdan bəhrələnmiş, onların və eləcə də fransız maarifçilərinin ideyalarından təsirlənmişdir. Haqqında bəhs etdiyimiz Cübran Xəlil Cübran yenidən ABŞ-a qayıtmış, həmin məktəbin görkəmli simalarından olmuş, ətrafında ərəb ziyalılarını toplamış və sonra "Qələmlər birliyi" cəmiyyətini yaratmışdır.

Cübran Xəlil Cübranın, Əmin ər-Reyhaninin, Mixail Nüaymənin ətrafında sıx birləşdikləri "Qələmlər birliyi" cəmiyyətinin bütün üzvləri ərəb mədəniyyətini Qərb dünyasında tanıtmaq, onu tərənnüm etmək arzusunda olmuşlar.

Ümumiyyətlə, iyirminci əsrin əvvəllərində Amerika birləşmiş Ştatlarına köç etmiş mühacir ərəb ziyalıları və mütəfəkkir - ədibləri ərəb təfəkkür tərzini, ərəb poeziyasını, ərəb mədəni irsini Avropaya tanıtmaq üçün böyük rol oynamışlar.

"Qələmlər birliyi" cəmiyyəti üzvlərinin, başda Cübran Xəlil Cübran olmaqla, əsas məqsədləri ərəb mədəniyyətini təbliğ etməkdən, ərəb dilini qoruyub
saxlamaqdan ibarət olmuşdur. Cübran Xəlilin, Mixail Nüaymənin, Əmin ər-Reyhaninin əsas amalı ədalətli cəmiyyət qurmaq, bəşəriyyəti sevmək, təbiətə məhəbbət göstərməkdən ibarət idi.

Cübran Xəlil Cübran həm şeir, həm povest, həm də çoxsaylı hekayələrin müəllifi kimi şöhrət qazanmış, əsərlərinin əksəriyyəti iyirmi müxtəlif dillərə, o cümlədən yapon və sanskrit dillərinə tərcümə edilmişdir. "Çəmənlər gəlinləri", "Qəribələr və ecazkarlar", "Qırılmış qanadlar", "Göz yaşı və təbəssüm", "Musiqi", "Divanə", "Sələf", "Tufanlar", "Peyğəmbər", "İsa insan oğludur", "Peyğəmbər bağı", "Üsyankar ruhlar" və digər əsərləri fəlsəfi, etik-estetik xarakter daşıyır.

Əsərlərində müxtəlif problemlərə toxunmuş, ictimai-siyasi məsələlər də geniş yer almışdır. Yazıçı "Çəmənlər gəlinləri", "Üsyankar ruhlar" əsərlərində Livan xalqının acınacaqlı və məşəqqətli həyatından, , ədalətsizlikdən, cəmiyyətdə mövcud qüsurlardan, qadına olan mənfi münasibətdən bəhs etsə də, ilahi gözəllik problemi də əsas mövzulardan olmuşdur.

"Qırılmış qanadlar" povestində isə şəxsi həyatından danışmış,

“Göz yaşları və təbəssüm” mənsur şeirlərindən ibarət olan kitabında sevinc və kədər, sevgi və hicran, göz yaşı və təbəssüm kimi bir-birinə zidd keyfiyyətlərdən bəhs etmişdir [2, s.14, 21].

Şair yaradıcılığında təbiət – insan, təbiət – sevgi probleminə geniş yer vermiş, insanın təbiətə, təbiət hadisələrinə olan sevgisini böyük həssaslıqla tərənnüm etmişdir. Cübran Xəlilə deyirdi ki, insan təbiətin hər fəslindən zövq almağı bacarmalıdır. Bəzən də yazıçı bədbinliyə qapılır və nicat yolunu təbiətin qoynunda görürdü.

İyirminci yüzilliyin görkəmli rus şərqşünas-alimi İqnatiy Yulianoviç Kraçkovskiy Cübran Xəlil Cübranın əsərlərindən tərcümələr edərək onun yaradıcılığının bütün xüsusiyyətlərini göstərməyə çalışmış və belə qənaətə gəlmişdir ki, mütəfəkkirin əsərləri digərlərinə bənzəmir. Çünki Cübran Xəlilin dünyagörüşü müxtəlif və fərqli tərzdə formalaşıb. O, həm İncildən təsirlənir, eyni zamanda müasirliyə meyl edir. Şərq və Qərb ənənələrini paralel formada tərənnüm edir. Cübran Xəlilin əsərləri sadə və məntiqi dili ilə seçilir [6, s.196-197].

Belə ki, “Suriya-Amerika məktəbi”nin nümayəndəsi kimi Cübran Xəlil həm ərəb, həm də qərb mədəni dəyərlərini inkişaf etdirmiş və onların vəhdətinə çalışmışdır. O, Şərq mənəviyyatını, mədəniyyətini Amerikada cəsarətlə və yüksək səviyyədə təqdim etməyə müyəssər olmuşdur.

İqnatiy Yulianoviç Kraçkovskiy Cübran Xəlilin dünyagörüşünün formalaşmasında iki dinin - xristian və islam dininin təsirinin duyulduğunu göstərmiş və İncildə “Nəğmələr nəğməsi”-nin II fəslinin 11-13-cü şeirlərindən misal gətirmiş və müqayisə üçün şairin bəzi şeirlərini tərcümə etmişdir:

*İncil. Nəğmələr nəğməsi. II fəsil, 11-13-cü şeirlər.*

“Artıq qış bitdi, yağış kəsdi. Torpağın üzərində çiçəklər göründü, nəğmələrin vaxtı çatdı, ölkəmizdə göyərçinlərin səsi eşidilməyə başladı. Əncir ağacı qönçələrini, üzüm tənəkləri gül açaraq öz xeyir-dualarını verirlər. Qalx, sevgilim mənim, gözəlim, görün”.

*Cübran Xəlil Cübran. Sevgi nəğməsi. (Tərcümə - İ.Y.Kraçkovskiy).*

“Bahar. Qalx, sevgilim mənim, təpələrin arasında gəzək, qar əridi, həyat yuxudan oyanaraq dərələrdə, qayalarda dalğalanır. Mənimlə gedək, uzaq çöldə baharın izlərinə tamaşa edək. Baharın şəfəqi öz libasını açıb, üzüm tənəkləri oyanıb, budaqları iki sevgili kimi bir-birini qucaqlayıb”.

*Cübran Xəlil Cübran. Sevgi həyatı. (Tərcümə - V.Volosatov).*

“Gəl, sevgilim, birlikdə təpələrin arasında gəzək. Qar əridi. Həyat istirahətini tərk etdi, yamaclarda və vadinin dərinliklərində oynamağa başladı. Uzaq bir çöldə baharı izləyək, təpəyə dırmaşaq, dəniz kimi dalğalanan yaşıllığı seyr edək. Bax, qışın qaranlığında gizlənmiş baharın şəfəqi libasını açaraq onu indi toy günü gəlinə bənzəyən alma və badam ağaclarının üzərinə sərdi. Üzüm tənəkləri oyandı və sevgililərin köşkünü sardı” [6, s.195].

“Göz yaşı və təbəssüm” əsərində insanın cəmiyyətdəki yeri, insan və təbiət, insan varlığının mahiyyəti, gözəllik və sevgi kimi problemlər yer almışdır.

Həmin əsərdə Cübran Xəlil dağlardan, çaylardan, küləkdən, bitkilərdən bəhs edərək, onları insan təbiəti ilə birləşdirirdi. Dalğalardan bəhs edərək deyir:

Mən və sahil bir cüt sevgililərik:
Bizi ehtiras qovuşdurur, hava ayırır.
Mən mavi şəfəqlər arxasından gəlirəm,
Öz gümüş köpüklərimi onun qızıl qumlarına qarışdırım,
Onun qəlbinin hərarətini öz rütubətimlə soyudum...
Sular qabarır, mən öz sevgilimi qucaqlayıram;
Sonra sular çəkilir və mən onun ayaqlarına atılıram... [3, s.102].

“Bütün insanları, bəşəriyyəti və təbiəti sevmək” ideyası Cübran Xəlil Cübran yaradıcılığında mərkəzi yeri tutur. Təbiət, Cəmiyyət və Bəşəriyyət, mütəfəkkirə
görə, vəhdət təşkil edir.

Cübran Xəlilin 1923-cü ildə ingilis dilində yazılmış və dörd ilə yekunlaşmış “Peyğəmbər” əsəri Qərb dünyasında sevilərək qəbul edilmiş və geniş auditoriya kütləsi qazana bilmişdir. Əmin ər-Reyhani deyirdi ki, “Peyğəmbər” əsəri Cübran Xəlilə böyük şöhrət qazandırmışdır. Mütəfəkkir həmin əsərində Nitsşenin baxışlarından

təsirlənmişdir. Zərdüşt Nitsşenin özü olduğu kimi, əsərdə əsas obraz olan Mustafa da Cübranın özüdür [2, s.29-31].

"Peyğəmbər" kitabını Cübran Xəlilin yaradıcılığının yekunu kimi qiymətləndirmək olar. Çünki əsər mütəfəkkirin yaradıcılığının bütün keyfiyyətlərini və mahiyyətini özündə birləşdirmişdir.

Həmin kitabında yazıçı sevgi, eşq, gözəllik, sevinc və kədər, ailə, evlilik, övlad, dostluq, zəhmətsevərlik, azadlıq, qanun, günah və cəza, din və digər problemlərə toxunmuşdur.

Sonrakı yaradıcılıq illərində mütəfəkkir sevgi probleminə dair fikirlərini "Peygəmbər" kitabında müfəssəl şəkildə ifadə etməyə çalışmışdır. Sevgini ilahi hiss hesab etmişdir.

İnsanın bəşəriyyətə olan məhəbbəti, təbiətə olan sevgisi, qarşı tərəfə olan eşqi Cübranın ideya xəttini təşkil edir.

"Peyğəmbər" əsərində Cübran Xəlil sevginin çətin və məşəqqətli yollarını izah etməyə çalışır. Sevgi elə bir duyğu idi ki cübran üçün, o incə hiss adamı həm agladır, həm də sevindirir. Cübran Xəlilin ilk dəfə "sevgi" hissini aşıladığı ilk insan anası olmuşdur.

Gənc yaşlarında o, Selma adlı qıza aşiq olur. Cübran Xəlil Cübranın məhəbbəti yarım qaldığı üçün o, sevgidən nisgilliklə danışır. Bəzən ondan ehtiyat edir, bəzən də qorxur.

Adı çəkilən "Peyğəmbər" əsərində qeyd edir ki, "əgər sizin ürəyinizə sevgi atəşi düşərsə, qanadlarının arasına alıb saxlamaq istərsə, onunla ehtiyatla davranın, bəzən ona qarşı durun. Çünki bir gün çəkilib gedəndə canınız yanar. Sevgi insanı ya ucaldar, ya da əziyyət verib çarmıxa çəkər. Hisslərinizi məşəqqət içərisində qoyarsa, ayaq üstündə belə durmağı bacara bilməzsiniz" [4, səh. 16].

Mütəfəkkir bəzən öz daxili hisslərini, nakam sevgisindən qalan duyğularını bir kənara qoyub, sevən insana nəsihət verir: əgər sevgiyə qapılmısınızsa, onda bəzi prinsipləri qəbul etməlisiniz:

- Ehtirasınızı sevginin içində əridin;
- Gecələr nəğmələr söyləyən axar su kimi axıb gedin;
- Qanınız sevgi və istəklə dolub – daşsın;
- Gözlərinizi sabaha sevgi ilə açmış olun;
- Səhərdən axşama qədər sevginin böyük həyəcanını düşünün;

- Ürəyinizə, həbs etdiyiniz sevginizə yaxşı arzular diləyin [4, səh. 18].

Cübran Xəlilə görə insana olan eşq İlahi eşqin bir zərrəsidir. Eşq insanı ən uca zirvəyə qaldıran bir hissdir. Eşq həyatın bütün mərhələrində sərhədi olmayan qüvvə və enerji mənbəyidir. Bu mənada bəşəri eşq bütövləşərək İlahi eşqə çevrilir. Bəşəri eşq cismani arzularla deyil, mənəvi dəyərlərlə qidalanır və insan ruhunun dərinliklərinə nüfuz edir. Bu eşq ana-ataya, bacı-qardaşa, övlada, vətənə, millətə olan mənəvi hissdir [8, səh. 11].

Mürəfəkkir sevgini azadlıq və tolerantlıq qapısını açan bir vasitə kimi qəbul edirdi. Əsl sevgi azadlıqdır. Sevginin milləti, dini yoxdur.

Cübran Xəlil bir çox hekayələrində müxtəlif din mənsubları arasında fərq qoymur və göstərir ki, "ey qardaşım, sən məsciddə səcdə edərkən, məbəddə əyilərkən, kilsədə dua edərkən də səni sevirəm. Sən buludlar arxasında gizlənmiş həyat yolumdakı yoldaşımsan." Eşq insanı öz ağuşuna alıb xəlbirdən keçirər, müqəddəs atəşə atar, o vaxta qədər ki, qəlbinizin sirlərini öyrənəsiniz. Eşq özündən başqa heç nə verməz və özündən başqa heç nə almaz. Cübrana görə əsl eşq ruhun təntənəsidir. Eşq eşqə yetər. Mütəfəkkir qeyd edirdi ki, aşıq olan zaman "Allal mənim qəlbimdədir" əvəzinə, "Mən Allahın qəlbinin içindəyəm" - demək lazımdır [5, səh. 19].

Burdan görünür ki, mütəfəkkir üçün sevgi elə bir ali hissdir ki, dinindən asılı olmayaraq hər kəsə öz təsirini göstərə bilər. Bu zaman sevgi böyüyür və bəşəriləşir.

Cübran Xəlil sevgiyə mistik düşüncə ilə yanaşmışdır. Onun üçün sevgi təmiz, əlçatmaz, çətin yollardan keçən hissdir.

Mütəfəkkirə görə sevgi insanın ruhunu bəzəyər, bədxahlığı ondan çıxarıb atar, onu ucaldar. Cübran Xəlil göstərir ki, Allah insana ruhu sevgi ilə vermişdir. Sevgi olmasaydı, heç bir şey mövcud olmazdı [9, səh. 130,132].

Belə ki, sevgi, Cübran Xəlilə görə, həm təbiətdə, həm insanlarda, həm də Allahda böyük sevgi vardır. Hər şey – təbiət və insan sevgidə birləşir.

## Ədəbiyyat

1. Cübran Xəlil Cübran. Sükutun poeziyası. Bakı, “Şərq-Qərb”, 2009, 244 s.
2. İmanquliyeva A. Cübran Xəlil Cübran. B., “Elm nəşriyyatı”, 2002, 120 s.
3. İmanquliyeva A.N. Yeni ərəb ədəbiyyatı korifeyləri. (XX əsrin əvvəllərində Şərq və Qərb ədəbiyyatlarının qaşılıqlı əlaqəsi probleminə dair). B., “Elm”, 2003, 400 s.
4. Ermiş. Halil Cibran. (The prophet). Havass, 1982, 80 s.
5. Halil Cibran. Sevgi dünyası. Ahlak ve özgürlük ilişkisi. Aralık, 2011, 49 səhifə.
6. Игнатий Юлианович Крачковский (1883-1951). Библиографический указатель. СПб:БАН, 2007, 232 с.
7. Фролова Е. А. Арабская философия: Прошлое и настоящее. М., “Языки славянских культур”, 2010, 464 с.

# CİNAYƏTKAR YENİYETMƏLƏRİN CİNAYİ DAVRANIŞINA TƏSİR EDƏN AMİLLƏR

***Yamən Vəliyeva***
***BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dosenti***
***Əzizə Ramiz qızı Şəkərəliyeva***
***Hüquq psixologiyası ixtisasının II kurs magistrantı***
***aziza.mamedova@yahoo.com***

Kriminal davranışa meyilli yeniyetmələrin əksəriyyətində mənəvi dəyərlər, ictimai qiymətli, yüksək ideallar demək olar ki, mövcud deyil. Onlarda intellektual sfera, iradə və ümumi inkişaf çox aşağı səviyyədədir. Aparılmış tədqiqatlara əsasən belə yeniyetmələrdə hüquqi şüurda nöqsanlardan başqa, psixoloji və sosial-psixoloji xarakterli çatışmazlıqlar da müşahidə olunur. Bu mənada tamahkarlıq, mərhəmətsizlik, qərarsızlıq, eqoizm, şöhrətpərəstlik, qəddarlıq, intellektual zəiflik, qısqanclıq kimi hisslər

xüsusi rol oynayır. Sosial-psixoloji tədqiqatların nəticəsi göstərir ki, xuliqanlıqda ittiham olunan yeniyetmələrin 43,2%-i bu cinayəti qisas və intiqam, 6,5%-i isə qısqanclıq hissi, 28,5%-i isə zərərçəkənə qarşı şəxsi qərəzliyin təsiri altında törətmişlər. Cinayətin törədilməsində psixoloji cəhətdən qüsurların olması da böyük rol oynayır. Belə ki, onlar keçmiş təsirlərlə determinasiya olunmaqla psixoloji proseslərin, keyfiyyət və vəziyyətin mürəkkəb sistemində müəyyən dəyişikliklər yaradır. Bunlardan bir qismi müvəqqəti psixoloji proseslər və vəziyyətlər sayılır. Hansı ki, onlar müsbət təsirə daha çox məruz qalsalar da, sonda normallaşırlar. Digərləri isə davranışın əsas meyarları hesab olunaraq tədricən mənəvi simanın əsas xüsusiyyətlərinə çevrilə bilirlər. Onların aradan qaldırılması isə uzunmüddətli təsir tələb edir.

Məlum olduğu kimi, yeniyetmələr arasında cinayi davranışın formalaşmasına təsir edən amillər, ilk növbədə, onların həyat və tərbiyə şəraiti ilə əlaqəlidir. Yeniyetmələrin cinayi davranışı bütövlükdə cəmiyyətə əhəmiyyətli dərəcədə zərər vurur və əsas sosial təməllərini məhv edir. Mənəviyyatın aşınması, iqtisadi çətinlik, insanlar arasında gərginliyin artması, əsas sosial institutların, xüsusilə ailənin rolunun zəifləməsi ilə əlaqədardır. Ölkədə baş verən qlobal dəyişikliklər, dünyadakı iqtisadi böhran insanlarda münaqişəyə meyillik, aqressivlik, qəzəb kimi hisslərin artmasına səbəb olub. Təbiidir ki, bu amillər ümümən cinayətkarlığın, eləcə də yeniyetmə cinayətkarlığın artmasına səbəbi olmaya bilməz. Yeniyetmə cinayətkarlığını tədqiq edən alimlər bu cinayətkarlığın əsasında psixoloji, sosial və bioloji xarakterli səbəblərin olduğunu qeyd edirlər.

Yeniyetmələrin cinayi davranışının formalaşmasına təsir edən amillərin təhlili uzun onilliklər ərzində ardıcıl olaraq elmi biliklərin müxtəlif sahələrində: hüquq, psixologiya, psixiatriya, sosial elmlər, tibb, pedaqogika və s. üzrə yerli və xarici tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Tədqiqatlar göstərir ki, yeniyetmə valideyn konfliktləri, məktəbdəki problemlər, ictimai faydalı mühitin və asudə vaxtının olmaması kriminal avtoritetin təsirinin artmasına səbəb olur. Yeniyetmələr arasında cinayətkarlığın artmasına səbəb olan amillər arasında ailə qayğısından məhrumluq, pedaqoji baxımsızlıq,

cəzasızlıq və yeniyetmələr arasında hüquq-mühafizə orqanlarının fəaliyyətinə laqeydlik və s. də qeyd etmək olar.

Bəzi tədqiqatlara əsasən demək olar ki, yeniyetmələrdə cinayi davranışın formalaşmasına təsir edən əsas amil ailədəki mənfi təsirin mövcudluğudur. Çünki, ailə ən mühüm sosial institut olduğu üçün, yeniyetmənin şəxsiyyətinin formalaşması məhz ilk olaraq ailədə baş verir. Lakin həmişə ailələr uşağın inkişafı üçün əlverişli bir fon deyil. Ailə tərbiyəsinin əlverişsiz amilləri sırasında ilk növbədə valideynlərin əxlaqsız həyat tərzini, kriminogen və problemli ailələrin mövcudluğunu, ailədə emosional-konflikt münasibətlərini qeyd edirlər. Yeniyetmələrin kriminal davranışlarına təsir vasitəsindən biri də valideynlərin öz mənəvi və əxlaqi dəyərlərə münasibətlərini təkmilləşdirməsidir.

Ailədə yeniyetmələrin kriminal davranışlarının yaranması səbəblərinə aşağıdakıları daxil etmək olar:

- Ailədə mənəvi və əxlaqi dəyərlərin təbliğinin aşağı səviyyədə olması;
- Yeniyetmələrin keçid dövründə (əsasən 12-14 yaşlarında) ailə təsirinin zəif olması;
- Valideynlər tərəfindən yeniyetmələrin intellektual inkişafının təmin edilməməsi və yeniyetmələrdən ibarət olan ailələrdə boşanmaların və natamam ailələrin sayının artması;
- Valideynlərin əxlaqa zidd həyat tərzi, spirtli içkilərə və narkotik vasitələrə aludə olması;
- Ailədə yeniyetmələrə qarşı zorakı davarnışın olması;

Yeniyetmələrdə cinayi davranışın formalaşmasına təsir edən amillərdən biri də sosial dəyərlərə uyğun gəlməyən davranış stereotiplərinin yeniyetmələrin mühitinə nüfuz etməsidir. Bu, siqaret, spirtli içkilərin, narkotik və psixotrop maddələrin təbliği, cinsi azğınlığın, zorakılığın və aqressiv davranışların nümayiş etdirilməsidir ki, burada da medianın təsiri böyük rol oynayır. Xüsusən də filmlər, seriallar, sosial şəbəkələr, bəzi internet resusrları ən böyük təsirə malikdir. Aparılan tədqiqatlara əsasən yeniyetmələri neqativ davraışlara sövq edən bir çox səbəblər vardır ki, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- spirtli içkilərin, narkotik və psixotrop maddələrə marağın olması;
- həmyaşıdlarının dilə tutmaları;
- narkotik maddələrin zərərli nəticələrini başa düşməmək;
- kimisə təqlid etmə;
- zövq, həzz almaq istəyi;
- asudə vaxtdan səmərəli istifadə edə bilməmək;
- yalan romantika, "sirli" bir şeyə qoşulmaq istəyi;
- sağlam maraqların və həyat məqsədinin olmaması;
- gündəlik problemlərdən, monoton həyat tərzindən uzaqlaşmaq istəyi;
- valideynlərin uşaqlarla az məşğul olması və nəticədə uşaqlara az diqqət yetirilməsi

Onu da qeyd edək ki, yeniyetmə cinayətkarlığının mühüm amillərindən biri də uşaqlara qarşı laqeydliyin, baxımsızlığın olmasıdır. "Baxımsızlıq" uşaqların özlərinin ailədən, uşaq kollektivindən uzaqlaşmasında və eyni zamanda valideynlərin, tərbiyəçilərin uşaqlara biganəliyində ifadə olunur. Bu fenomen yeniyetmə şəxsiyyətinin düzgün formalaşmasına təhlükə yaradır və sosial cəhətdən mənfi bacarıqların inkişafına səbəb olur. Ancaq baxımsızlığı aşağı təminatın olması ilə əlaqələndirmək düzgün deyil, çünki baxımsız qalan yeniyetmələr arasında antisosial ailələrdən olan maddi cəhətdən yüksək təminatlı, firavan ailələrdən olan yeniyetmələrdə az deyil. "Həddindən artıq rahat" tip adı verilən bu yeniyetmələri ailədə ehtiyac duyduqları hər şeyin mövcudluğu, eyni zamanda yaxın qohumları və dostları qarşısında heç bir öhdəliklərin olmaması ilə xarakterizə etmək olar. Bu tip yeniyetmələr öz məqsədi və perspektivi olmadan yaşayır, daima əyləncəyə, tüfeyli həyat tərzinə can atır, asanlıqla başqalarının təsiri altına düşürlər.

Növbəti mühüm amil tüfeyli həyat tərzinə meyillilikdir. Yeniyetmələr arasında tüfeyli həyat tərzinə meyil həmişə aktual problemlərdən olub. Böyüklərdən icazəsiz evi daimi tərk etmələr, arzulanmayan gedişlər yeniyetmələrin həyatı və sağlamlığı üçün birbaşa təhlükə yaradır, cinayətlərin törədilməsinə şərait yaradır.

Onu da qeyd etmək lazımdır ki, cinayət hadisəsini, onun formalaşmasına təsir edən bioloji və sosial amilləri nəzərə almaqla

daha dolğun izah etmək olar. Bioloji nəzəriyyələrin daxilində öyrənilən məsələlərdən biri insanın konstitusiya xüsusiyyətləri olmuşdur ki, bu da tədqiqatçıların diqqət mərkəzində olan əsas məsələlərdən biri idi. Bu məsələləri araşdıran ilk tədqiqatçı kriminologiyada bioloji cərəyanın banisi sayılan italyan psixiatrı və kriminoloqu Ç. Lombrozo (1836-1909) olmuşdur. O, insanın cinayi davranışını onun anatomik quruluşu ilə əlaqələndirən biososioloji nəzəriyyəni irəli sürmüşdür. Ç.Lombrozo "Cinayətkar şəxs", "Cinayət, onun səbəbləri və müalicəsi" əsərlərində cinayətin doğum, xəstəlik və ya ölüm qədər təbii bir hadisə olduğunu iddia edirdi. Onun əsas tədqiqat obyektləri cinayətkarların kəllə sümüyü, beyni, burnu, qulaqları, saç rəngi, dəri həssaslığı, döymələri, əl yazısı, psixi xüsusiyyətləri olmuşdur. Tədqiqatçı antropometrik metoddan istifadə edərək, aşağı çənənin çıxıntısı, yastı burun, seyrək saqqal və birləşmiş qulaq məmələri də daxil olmaqla, "anadangəlmə cinayət tipi"nin təxminən 37 xarakteristikasını müəyyən etmişdir. Buna əsaslanaraq, o hesab edirdi ki, cinayətin qarşısının alınmasının əsas istiqamətləri "anadangəlmə" cinayətkarların ömürlük təcrid edilməsi, müalicəsi və ya birbaşa fiziki məhv edilməsidir.

Yeniyetmələrin cinayi davranışında motivlərin də rolu böyükdür. Çünki yeniyetmələrin cinayi davranış motivlərində öz tələbatlarını ödəmək üçün, yəni onları reallaşdırmaq üçün axtarış fəallığında, həmin axtarışın predmetinin tapılmasında, yəni tələbat predmetinin dəqiqləşməsində və onun ələ keçirilməsi üçün hərəki fəallığa keçmək mühüm rol oynayır. Deməli, cinayi motivinin inkişafı fəaliyyət dairəsinin genişləndirilməsi, lazım gəldikdə onun istiqamətinin dəyişdirilməsi vasitəsilə baş verir.

## Ədəbiyyat


1. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri. Bakı: Azərnəşr, 1996, 200 s.
2. Əliyev B.H. Məhkəmə-psixoloji ekspertizasının əsasları. Bakı, 1999, 53 s.
3. Əliyev B.H. Məhkəmə-psixoloji ekspertizası, Bakı, BDU, 1994, 83s.

4. Həsənov E.H. Yetkinlik yaşına çatmayanların törətdikləri cinayətin qarşısını almaq məsələləri, Bakı, Maarif, 1991, 172 s.
5. Qafarov T., Hüseynov V., Səməndərov F. Həddi-buluğa çatmayanların cinayətləri və məsuliyyətləri, Bakı, Elm, 1979, 264s.

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И РОЛЬ В ОБРАЗОВАНИИ

***Шахла Вагиф кызы Гусейнова***
***Преподаватель кафедры педагогики, БГУ***

Процессы глобализации ,протекающие в мире затронули и сферу образования Азербайджана .Интеграция проявляется в разных областях образования – от содержания образования, высокого уровня социально-экономического прогресса до научно-технического потенциала страны. В 1969 году, когда к власти пришел Гейдар Алиев, считается поворотным в истории Азербайджана и началом новой эпохи. Сегодня этот период по праву считается периодом возрождения образования, науки и культуры в Азербайджане.

С первых дней прихода к власти Гейдар Алиев уделял большое внимание развитию образования в Азербайджане, учитывая решающую роль образования в социально-экономическом развитии страны, использовал все потенциальные возможности для достижения его прогресса.

Благодаря титанической деятельности Гейдара Алиева Азербайджан вступил на путь всестороннего развития. Наряду с быстрым развитием промышленности и сельского хозяйства Азербайджана были достигнуты большие успехи в развитии науки, образования и культуры. Под его руководством проводились реформы на разных уровнях образования.

В результате дальновидной политики Гейдара Алиева в годы его правления, было построено и сдано в эксплуатацию 849 общеобразовательных школ на более чем 350 тысяч учащиеся,

значительно улучшилась обеспеченность школ техническим и научно-методическим пособиям. В результате кропотливого труда и заботы Гейдара Алиева была еще больше укреплена учебно-материальная база и укомплектованность общеобразовательными школами педагогическими кадрами, бесплатно предоставление учебников учащимся средних школ. В стране было открыто 5 новых высших учебных заведений.

Указом общенационального лидера Гейдара Алиева в марте 1998 года была создана Государственная комиссия для разработки концепции и стратегии построения национального образования в независимом Азербайджане. Таким образом, в независимом Азербайджане была разработана концепция и стратегия строительства образования, охватывающая 3 этапа, и ее реализация началась в 1999 году.

Одной из главных целей Гейдара Алиева была идея построения содержания образования на основе принципов государственности независимого Азербайджана. Вопрос разработки новых учебников для общеобразовательных школ всегда был в центре внимания Гейдара Алиева.

Он регулярно интересовался разработкой новых учебников и всегда подчёркивал чрезвычайную важность учебников по азербайджанскому языку, азербайджанской литературе и азербайджанской истории в системе образования. Были полностью обновлены учебники и учебные пособия, используемые в средних школах. Было реализовано подписанное Гейдаром Алиевым решение «О переходе учащихся средних школ на бесплатное пользование учебниками».

В наше время особую важность приобретают интеграция систем образования в европейских странах и формирование общеевропейского пространства высшего образования. Осуществление Болонскго процесса - одно из важнейших мер, принятых в этом отношении. Азербайджан присоединился к Болонскому процессу в 2005 году, определив тем самым контуры реформ в высшем образовании. При применении данной системы был изучен опыт многих зарубежных стран по

созданию нормативно-правовой базы для этого, утверждено «Типовое положение об организации обучения в кредитных учреждениях в высшей школе», и на начальном этапе было принято решение ввести экспериментальную кредитную систему в нескольких университетах В последние годы благодаря вниманию и заботе Президента Ильхама Алиева были достигнуты серьёзные успехи, был утверждён и реализован ряд программ развития для обеспечения ясного будущего национальной системы образования, а также приняты существенные меры для обеспечения устойчивое образование. Эти меры включают обновление содержания образования, разработку новых программ, учебников и учебных пособий, предоставление десятков публикаций и учебных заведений, совершенствование управления образованием, укрепление материально-технической и образовательной базы учебных заведений, использование современных информационных и коммуникационных технологий (ИКТ). ) в обучении, расширение международных связей в образовании, повышение качества образования за счёт реализации целевых программ в системе образования и т.д.

Благодаря различным источникам финансирования в нашей стране, особенно в результате реализации новой нефтяной стратегии, средства, выделяемые на образование, с каждым годом растут. Сегодня среди статей государственного бюджета по объёму средств, выделяемых на образование она занимает второе место.

В глобализирующемся мире показатели образования имеют особое значение для оценки человеческого развития. Согласно исследованию, проведенному экспертами ООН по человеческому развитию, индекс грамотности населения в Азербайджане составляет 99 процентов.

В соответствии с задачами, поставленными Президентом Ильхамом Алиевым перед системой образования, которая рассматривает образование как один из главных приоритетов государственной политики, Министерство образования реализует принятые программы в различных сферах. Эти

программы включают обновление содержания образования, разработку новых программ, учебников и учебных пособий, совершенствование управления образованием, укрепление материально-технической и образовательной базы образовательных учреждений, использование информационных технологий в учебном процессе, кадровое обеспечение, обновление дошкольного образования, совершенствование профессионального образования, образование, организация обучении детей, нуждающихся в особой опеке, развитие творческого потенциала одаренных детей и молодёжи и другие направления.

Государственные программы социально-экономического развития регионов Азербайджанской Республики, утверждённые указами Президента, направлены, среди прочего, на развитие сектора образования, включая строительство, капитальный ремонт и дальнейшее укрепление материально-технической базы новых школ.

Информация и ресурсы для развития сетевой инфраструктуры и предоставления высокоскоростного Интернета на всех уровнях системы образования, предоставления методических, технических и других услуг для обеспечения интеграции ИКТ, предусмотренных в «Государственной программе информатизации системы образования». », охватывающая центры 2008-2012 гг., создание сетей, привитие ИКТ навыков преподавательскому и техническому персоналу, создание системы оценки и мотивации инновационных и творческих учителей, создание современных электронных научно-методических пособий и электронной базы учебных материалов по всем предметам, разработка информационных систем управления образованием, проделана большая работа по созданию единого образовательного портала. Благодаря вниманию и заботе главы государства об образовании за последние годы были утверждены и успешно реализуются 16 государственных программ, ориентированных на развитие в различных сферах образования.

Актуальной проблемой остаётся определение содержания

общего среднего образования в соответствии с потребностями времени. В рамках Проекта развития сектора образования был подготовлен и одобрен правительством документ «Общая концепция образования (Национальная учебная программа)». Меры, предусмотренные в плане реализации подкомпонента «Реформа учебной программы», были реализованы последовательно. Завершено применение нового метода обучения в I-IV классах, разработаны предметные программы для начального образования. Для I-IV классов, где применены предметные программы изданы комплекты учебников нового поколения, в которых применяются, учебники, пособия для учителей, рабочие тетради для учащихся.

Согласно Второму проекту развития сектора образования, рабочая группа Министерства образования работает над продолжением реформы учебной программы и обеспечением разработки дошкольной учебной программы в соответствии с планом реализации подкомпонента поддержки реализации учебной программы. В рамках второго проекта для учителей и воспитателей начальных классов были проведены тренинги по реализации «Программы подготовки пятилетних к школе в группах краткосрочного обучения» и «Программы повышения осведомлённости родителей».

Новое содержание потребовало внедрения нововведений в систему оценивания учащихся, перехода от повседневного оценивания к модели оценивания в школе. Централизованное проведение выпускных экзаменов способствует повышению качества образования, повышению ответственности учащихся и учителей, школьной администрации, а также родителей в отношении образования, а также устранению негативных аспектов, накопившихся за долгие годы в этой сфере.

Благодаря новым реформам в сфере общего среднего образования результаты выпускников на вступительных экзаменах в вузы за последние годы значительно повысились.

В результате реализации Государственной программы развития творческого потенциала детей (юношества) с особыми талантами (2006-2010 гг.) Была усилена материально-

техническая база лицеев и гимназий, создана база данных по одаренным детям, расширена сеть образовательных учреждений нового типа, ряд общеобразовательных школ и школ-интернатов преобразован в лицеи.

Восстановление присуждения золотых и серебряных медалей выпускникам общеобразовательных школ с учётом успеваемости учащихся, занявших высокие места на международных олимпиадах, на вступительных экзаменах студентов служит стимулированию студенческой работы.

Одним из успехов в сфере образования является реализация Программы развития в связи с организацией обучения детей с особыми потребностями (с ограниченными возможностями здоровья) на заботу. В соответствии с программой существенно улучшена материально-техническая и образовательная база учреждений для детей с особыми потребностями на заботу, обновлено содержание образования в этой сфере, впервые в нашей стране реализованы пилотные проекты по инклюзивному образованию.

Дошкольное образование, закладывающее основу для преобразования материального капитала в человеческий, играет важную роль в физическом и психологическом развитии детей с раннего возраста, раскрытии талантов и способностей и подготовке к школьной жизни.

За последние годы предпринят ряд серьёзных шагов по развитию дошкольного образования. Достигнуты успехи в укреплении материально-технической базы учреждений, совершенствовании управления, вовлечении 5-летних детей в обязательное дошкольное образование, улучшении кадрового состава, разработке новой учебной программы в рамках «Программы обновления дошкольного образования (2007-2010 гг.)».

По мере укрепления экономического потенциала нашей страны материально-техническая база внешкольных образовательных учреждений становится ещё более богатой. Дополнительное образование на создании удобных условий для развитии интересов, склонностей и способностей, интеллектуального уровня, физически здорового роста

учащихся, обеспечивает их отдых и организацию их досуга.

Общенациональный лидер Гейдар Алиев очень любил детей и особое внимание уделял вопросам ,связанные с их развитием, формированием и воспитанием. В центрах детского творчества, технического творчества и внешкольного образования, юных туристов и краеведов, экологического воспитания и практика, эстетического воспитания, в домах художественного творчества, детско-юношеских спортивных и шахматных школах ведётся целенаправленная работа для воспитания учеников в духе патриотизма, развития их физического воспитания, творческих способностей,

Фонд Гейдара Алиева оказывает большую поддержку в строительстве и реконструкции школ. С начала ее работы до конца 2010 года около 300 школ и детских садов были построены, сданы в эксплуатацию или капитально отремонтированы в рамках программы «Новая школа для обновленного Азербайджана» и других программ, инициированных Фондом Гейдара Алиева. Эти учебные заведения, отвечающие самым высоким требованиям, оснащены современным оборудованием, системой отопления, богатыми библиотеками, наглядными пособиями и компьютерами.

Хочется также подчеркнуть,что стратегия образования, разработанная общенациональным лидером Гейдаром Алиевым, в настоящее время успешно продолжается и развивается Президентом Ильхамом Алиевым в рамках стратегии устойчивого социально-экономического развития страны.

## HEYDƏR ƏLİYEV İRSİNDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

***Cəmilə Sabir qızı Hüseynova***
***Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müəlliməsi***
***familaxundov123@gmail.com***

Keçdiyi böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi tariximizə qızıl hərflərlə həkk olunmuş və tükənməz ibrət məktəbi

olan, müstəsna xidmətləri ilə əbədilik qazanan, xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan, dahi insan, ümummilli lider Heydər Əliyev öz qətiyyəti ilə xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışdır. Müasir dünya tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi qəlbimizdə daim yaşayacaqdır.

Azərbaycan xalqının qazanmış olduğu mühüm tarixi nailiyyətlərin, intibah və milli şüurun oyanışı öz müdrik lideri Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi xarakter almış, ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərmişdir. Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan müdrik insan hələ gəncliyindən yüksək vəzifələr tutmaqla çiyinlərində böyük bir ölkənin yükünü daşımış, özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük vermiş, dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirmiş, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirmişdir.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişmiş, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlanmışdır. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edilmiş, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edilmiş, yeni yaşayış massivləri salınmış, yollar tikilmiş, ucqar rayonlara qaz xətləri çəkilmişdir. Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərə gözəllik verən neçə-neçə yaraşıqlı binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər

ucaldılmış, bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyulmuş, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başlamış, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atılmış, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərilmiş, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkilmişlər.

Totalitar sovet rejiminin hökm sürdüyü həmin dövrdə respublikanın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım kimi dəyərləndirilir. Sovet milli siyasətinin tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin vəzifənin öhdəsindən məhz Heydər Əliyev gələ bilmiş, Azərbaycan SSR Konstitusiyasının 1978-ci ildə qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ulu Öndərin xidmətləri sayəsində müsbət nəticələnmişdir.

Heydər Əliyevin SSRİ kimi nəhəng dövlətin rəhbərliyində siyasi elitanın zirvəsinə yüksələrək Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutması qürurverici hadisə olmuşdur. Dahi şəxsiyyətin fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrilmişdir. Lakin Mixail Qorbaçov siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə qarşı həsəd və qısqanclıq hisslərinin baş qaldırması, Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsi Ulu Öndərin vəzifədən uzaqlaşdırılması ilə nəticələndi.

Bundan istifadə edən ermənilər ölkəmizə qarşı uydurma ərazi iddiaları irəli sürərək əzəli torpağımız olan Qarabağ ətrafında hərbi təcavüzə başladı.

1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu

öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Azərbaycana qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq Vətənin ağır günlərinə biganə qala bilməyən, xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Heydər Əliyev Azərbaycana qayıdaraq, Bakıdan Naxçıvana getdi və Muxtar Respublikanın Ali Məclisinin sədri seçilməklə, 1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından «sovet sosialist» sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı və ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə getdiyi bir vaxtda idarəçilik yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü, Azərbaycan sosial-iqtisadi, hərbi-siyasi böhran vəziyyətində idi.

Heydər Əliyev Allahın Azərbaycan xalqının taleyinə bəxş etdiyi, zamanında millətinin xilaskarı olmaq üçün göndərilən dahi bir insan idi. Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, yalnız Heydər Əliyev xilas edə bilər.

Azərbaycan xalqının yaddaşında xilaskar dövlət xadimi və xalqın məhəbbətini qazanan öndər kimi əbədilik qazanan Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtdı və sözün əsil mənasında, «ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» deyib, öz siyasi bacarığını,

çoxillik idarəçilik səriştəsini əsirgəmədən, xalqının firavanlığını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri, müstəqil Azərbaycan Respublikasını məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü.

Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə imzaladığı fərmanlar qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı, Ümummilli Lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmləndirdi, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu.

Hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirən Heydər Əliyev müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi. Hüquq sisteminin mahiyyətini müəyyən edən, ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə tam yeni və mütərəqqi qanunlar, o cümlədən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edildi. Bu qanunvericilik aktları beynəlxalq səviyyəli mütəxəssislər tərəfindən ekspertizadan keçirilməklə yüksək dəyərləndirildi.

Azərbaycanda ictimai təşkilatların, siyasi partiyaların, azad fəaliyyəti, senzuranın aradan qaldırılması, yüzlərlə mətbuat orqanının sərbəst nəşr olunması, özəl radio və televiziya kanallarının yayımlanması siyasi plüralizmin, azad fikrin, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına böyük təkan verdi.

Respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşulmaqla, insan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edildi, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı. Ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, bu sahədə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirilməyə başlandı və İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı.

Hüquqi dövlət quruculuğu prosesi çərçivəsində hüquq mühafizə və xüsusi xidmət orqanlarında əsaslı islahatlar aparıldı, qeyd olunan sahələrin hərtərəfli inkişafı üzrə tarixi əhəmiyyətli qərarlar qəbul olundu və bu orqanların fəaliyyətində köklü mütərəqqi dəyişikliklərə başlanıldı, həmçinin Azərbaycan tarixində ilk dəfə olaraq yerli özünüidarə orqanları formalaşdı.

Ümummilli lider dünyada tanınan və qəbul edilən görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də böyük bir elm adamı idi. Onun müdrik siyasətinin uzaqgörənliyi və dərinliyi məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala arxalanmasında idi. Azərbaycan elminə və elm adamlarına göstərdiyi qayğı və dəstək elə bundan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişafını elmdə, intellektdə görürdü.

Dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması üçün xüsusilə strateji əhəmiyyətə malik olan təhsildə köklü islahatlar aparmaq Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdi. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi zaman kəsiyinin həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dününə və bugününə diqqət yetirmək zəruridir. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu

strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi deməyə əsas verir ki, ölkədə həmin məsələ ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir.

1960-cı illərin sonlarından başlayaraq elmimizin və təhsilimizin təşəkkülü və inkişafı milli və dövlətçilik tariximizin ən görkəmli siması, müasir müstəqil Azərbaycanın banisi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin təhsil sahəsinə diqqət və qayğısı əvəzsiz olub. Azərbaycan aliminə və elminə elə ilk gündən yüksək qayğı göstərən Heydər Əliyev bu sahədəki fəaliyyətini də ardıcıl və sistemli şəkildə həyata keçirirdi. Onun diqqət və qayğısı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərinin sayı artır, Azərbaycan Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmlənir, elmi-tədqiqat institutları üçün yeni korpuslar tikilir, xüsusi təyinatlı layihə-konstruktor büroları yaradılırdı, Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərilir, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlir, elmin tətbiq sahələri genişlənir, elm adamlarına yaradıcılıq şəraiti yaradılır, görkəmli alimlərin fəaliyyətləri təqdir olunur, onlar mükafatlandırılırdı, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə aparılan tədqiqatların genişləndirilməsinə xüsusi fikir verilirdi.

Ümummilli lider bütün ictimai-siyasi fəaliyyəti boyunca tarixə, ədəbiyyata, mədəniyyətə, ümumilikdə humanitar elmlərə yüksək qiymət və əhəmiyyət vermiş, onların xalqın mənəvi həyatında oynadığı rolu layiqincə dəyərləndirmişdir. Öz xalqını və dilini dərindən sevən Heydər Əliyev rəhbərliyə gəldiyi ilk günlərdən başlayaraq, respublika iqtisadiyyatı və mədəniyyətinin yüksəlişi, xalqın güzəranının yaxşılaşması uğrunda apardığı mübarizədə Azərbaycan dilinin fəaliyyət dairəsinin genişlənməsi və inkişafına da daima diqqət yetirmişdi. Ulu öndərin hakimiyyəti illərində Azərbaycan dilinə, Azərbaycan tarixinə, mədəniyyətinə dair elmi-tədqiqatların aparılması və monoqrafiyaların nəşri xeyli artırıldı. Yeni-yeni əsərlər yazılaraq nəşr edilirdi. Azərbaycan tarixi və dilçilik sahəsində yazılmış bir sıra əsərlərə dövlət mükafatları verilirdi.

Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi XX əsrin 70-80-ci illərində təhsil sistemində ciddi islahatlar həyata keçirilib. 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa

çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılıb. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı. Eləcə də Heydər Əliyevin keçmiş SSRİ-nin ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışıb və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaradıb.

Zaman-zaman həm çarizm, həm də sovet dövründə Azərbaycana yerləşdirilmiş gəlmə xalqların nümayəndələrindən olan elmi işçilərin sayı azalmağa doğru gedirdi. Əlbəttə, bu proses onların əleyhinə siyasət yeridilməsi deyildi. Belə vəziyyətin yaranmasının bir sıra səbəbləri vardı: azərbaycanlılar arasında elmə və təhsilə maraq artırdı, elmi-tədqiqat institutlarında yüksək maaş verilirdi, eyni zamanda Azərbaycanda yerli əhali sürətlə çoxalırdı. Belə bir şəraitdə ölkə ictimai həyatının sürətlə beynəlmiləlləşdirilməsi bir daha göstərdi ki, SSRİ-də tüğyan edən antisemitizm Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda qətiyyən mövcud deyildi. Ruslar, yəhudilər və digər xalqların nümayəndələri Azərbaycanı özlərinin doğma vətəni hesab edirdilər.

Heydər Əliyev alimləri və elmi idarələrin rəhbərlərini elmin ən müasir sahələri üzrə elmi-tədqiqat işlərinin aparılmasına yönəldirdi. Bilavasitə onun himayəsi altında Azərbaycanda elmin ən perspektivli sahələri üzrə elmi-tədqiqat işləri aparılırdı. Təkcə 1979-cu ildə təbiət və ictimai elmlər sahəsində respublikada aparılan elmi-tədqiqatların 55-nin nəticəsi sovet elminin ən mühüm nailiyyətləri sırasında qeyd edilmişdi. Bu, Azərbaycanda fundamental elmlərin geniş uğurlarından xəbər verirdi. 1971-1980-ci illərdə Azərbaycan Elmlər Akademiyası

alimlərinin tədqiqatlarının istehsalata tətbiqi nəticəsində müxtəlif ixtiralar üçün 1000-dən çox müəlliflik şəhadətnaməsi almışdılar ki, bu da əvvəlki 25 ildəkindən 5 dəfə çox idi.

O dövrdə Neft kimya prosesləri, Aşqarlar kimyası, Kimya texnologiyasının nəzəri problemləri, Fizika-riyaziyyat institutları böyük tədqiqat mərkəzlərinə çevrilmişdi. Azərbaycanlı alimlər Volqaboyu, Qərbi Sibir, Türkmənistan, Qazaxıstan, Belarus, Ukrayna və başqa respublikaların neft yataqlarının işlənməsində fəal iştirak edir, ADR, Rumıniya, Əfqanıstan, Əlcəzair, Kuba, İraq və Suriyada neft yataqlarının istismarı sahəsində fəal kömək göstərirdilər. Onların ixtiraları ABŞ, AFR, Yaponiya, İngiltərə və İtaliyada - bütövlükdə 15 ölkədə patentlər almışdı. Respublikamızda təbiətşünaslıq elmi də sürətlə inkişaf edirdi. 1978-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının nəzdində öz laboratoriyaları, konstruktor bürosu və təcrübi istehsalatı olan “Xəzər” Elmi Mərkəzində Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu (TEKTİ) yaradılmışdır. Qısa müddət keçdikdən sonra institut alimlərinin tədqiqatları bütün ölkə miqyasında mötəbər qaynaq kimi qəbul edilməyə başladı. Respublikada radiotexnika, elektronika və elektron sənayesinin inkişaf perspektivlərini nəzərə alan alimlər texniki fizika, tətbiqi riyaziyyat, kibernetika, radioelektronika sahələrində və elmin digər müasir istiqamətlərində fəaliyyətlərini genişləndirdilər.

Bütün bunlarla bərabər, xalq təsərrüfatının artıq təşəkkül tapmış, iqtisadiyyat üçün ənənəvi olan sahələrinin yenidən qurulması prosesi də gedir, ekologiya sahəsində elmi-tədqiqat işlərinin aparılmasına xüsusi diqqət yetirilir, müxtəlif elm sahələrində çalışan alimlərin səyləri birləşdirilirdi. Təkcə 1981-ci ildə Azərbaycanın elmi-tədqiqat və layihə institutları ölkə üzrə 25 kompleks proqramın işlənib hazırlanmasında iştirak etmişdilər.

1980-ci in sonu 1990-cı illərin əvvəlləri Azərbaycan üçün ən çətin, ağır dövrə çevrildi. Həmin illərdə mövcud hadisələrin müharibə alovunun fonunda Azərbaycan elminə də ciddi zərbələr vurulmuş, bütün sahələrdə olduğu kimi, elm sahəsində də durğunluq hökm sürürdü.

1993-cü il Azərbaycan tarixində, müstəqil dövlətçilik tariximizdə, respublikamızın ictimai-siyasi fikir tarixində dönüş ili

kimi yadda qalmışdır. Bu Azərbaycan elminin xilası demək idi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı ziyalıya, alimə və elmə hörməti də geri qaytardı. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elmə göstərilən diqqət və qayğı elə ilk günlərdən özünü göstərmişdi. Heydər Əliyev hələ Azərbaycan prezidenti seçilməzdən əvvəl ziyalılarla ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında keçirmişdir ki, bunu da yalnız ölkə rəhbərimizin alimlərə bəslədiyi böyük ehtiram, Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətlə izah etmək olardı. Bu, həm də ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizliklərdən irəli gələn narahatlıqlarla bağlı idi. 1993-cü ilin iyunundan başlayaraq bütün sahələrdə olduğu kimi, elm sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı alındı. Milli elmimizin inkişafı üçün əlverişli siyasi, iqtisadi, hüquqi mühit yaradıldı. Heydər Əliyevin milli müstəqillik, milli dövlət quruculuğu strategiyasında belə bir ideya əsaslandırıldı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının şəffaf və hamar yolu mütləq və mütləq milli elmdən, milli təhsildən keçməlidir.

Ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası labüddür.

Ümummilli liderin bu sahəyə son dərəcə həssas münasibəti heç də səbəbsiz deyildi. Heydər Əliyev elmin-təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşır, xalqın intellektual səviyyəsinin artırılmasını ən vacib vəzifələrdən biri kimi nəzərdən keçirirdi.

Heydər Əliyevin mahir siyasəti nəticəsində ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq Azərbaycan xalqının bir neçə nəsli təhsil almış, böyümüş, yüksək səviyyələrə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşdular. Bunlar hamısı xalqımızın milli nailiyyətidir və indi bizim Azərbaycan Respublikasının intellektual potensialını təşkil edir. Heydər Əliyev xalqın tərəqqisinin və

mədəniyyətinin elmin inkişafından keçdiyini bilərək bu işə xüsusi diqqət verirdi.

1997-ci il yanvarın 31-də Heydər Əliyevin Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlər qrupu ilə görüşündən sonra, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Ulu Öndərin tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılması, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrinə dair qərarlar qəbul etmiş və tədbirlər həyata keçirmişdi. Eyni zamanda, "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası hazırlanmışdı.

İslahatın aparıldığı dövrdə önəmli mahiyyət daşıyan işlərdən biri Azərbaycan təhsili tarixində ilk dəfə olaraq ümumi təhsilin Dövlət Standartlarının və Bazis Tədris Planının hazırlanması və 1999-cu ilin aprel ayında respublika hökuməti tərəfindən təsdiq edilməsi olmuşdur.

Demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycan dövləti üçün insan hüquqları və azadlıqları problemlərinə dair elmi tədqiqat işlərinin aparılması məqsədilə Heydər Əliyevin sərəncamı ilə 1999-cu ilin sentyabrında AMEA İctimai Elmlər Bölməsi nəzdində İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu yaradılmışdır.

Ulu Öndər tərəfindən imzalanmış 15 may 2001-ci il tarixli fərmanla Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqlənmişdi.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Ulu Öndərin imzaladığı sərəncamlar milli təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi səciyyələndirilən ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" 17 fevral 2003-cü il tarixli sərəncamı ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik olmuşdur.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində çox önəmli işlər görülmüşdür. Dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, lazımi şərait yaradılmışdır. Hər il tələbələrin riyaziyyat, fizika, kimya, informatika fənləri üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələri keçirilir. 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 2000-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Fransa, Rumıniya, Polşa, Rusiya, Pakistan, Türkiyə, İspaniya, Almaniya, Yunanıstan və başqa ölkələrdə yerlərdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir.

Ümummilli Lider tərəfindən aparılan islahatlar nəticəsində bəzi təhsil ocaqlarının statusu artırılmış və profilləri dəyişdirilərək universitetlərə çevrilmiş, bir sıra yeni ali məktəblər yaradılmışdır. Bakı Dövlət Universitetinə, Azərbaycan Dövlət Neft Akademiyasına, Azərbaycan Tibb Universitetinə, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına, Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Dövlət İqtisad Universitetinə özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərmək hüququ verilmişdir. Ali təhsil müəssisələrinə tələbə qəbulu çoxsaylı ixtisası əhatə edən müxtəlif istiqamətlər üzrə aparılmışdır. Bu istiqamətlər üzrə mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan tələbləri müəyyən edən standartlara uyğun inteqrativ fənlərin proqram və dərsliklərinin hazırlanması işi başa çatdırılmışdır.

Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına uyğun aparılan islahatlarının müsbət nəticələr verməsi bu günün reallıqları ilə sübut edilir. Təhsillə elmin vəhdətini təmin etmək məqsədilə üstün sahələr üzrə elmi araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, təhsil sisteminin kompüterləşdirilməsi və informasiyalaşdırılması Proqramının təsdiqi və prosesə tətbiqi, təhsildə

elmi istiqamət faktorlarının gücləndirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində işlərin müntəzəm olaraq davam etdirilməsi kimi islahatlardan təhsil siyasətinin strateji istiqamətləri aydın görünür. Təhsil islahatlarının aparılmasını zəruri hesab edən ümummilli lider Heydər Əliyev deyirdi: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Ümummilli liderin təhsil siyasəti bu gün islahatların zəruriliyinə diqqət yetirən Prezident İlham Əliyev tərəfindən Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyev siyasi irsidir. Ümummilli Lider Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət - Heydər Əliyev dövlətçilik məktəbini yaratdı. Müstəqilliyimizin 1993-2003-cü illəri ərzində düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi, Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. O inkişaf ki, sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Ulu öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə isə bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə hünər rəmzinə çevrilir. Sağlığında əfsanələşən nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidiyik. Müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimləri tərəfindən dünya miqyasında böyüklüyü etiraf edilən, o cümlədən ABŞ-ın sabiq Prezidenti Corc Buşun “şəksiz lider”, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “türk dünyasının tanınan və sevilən lideri”, Rusiya Prezidenti Vladimir Putinin “siyasi nəhəng”, Fransanın sabiq Prezidenti Jak Şirakın “qeyri-adi şəxsiyyət” adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi hər zaman göz

önündə canlanır, qəlbimizdə qürur və iftixar hissləri baş qaldırır. 2003-cü ildə tarixi müraciətində Ulu Öndər xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Zaman Heydər Əliyevin bu inamını təsdiq edir və Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalq öz Prezidentinə daim dəstək verir və onun arxasınca inamla gedir.

## ГЛОБАЛИЗАЦИЯ КАК ВАЖНЕЙШИЙ ФАКТОР ВЛИЯНИЯ НА КУЛЬТУРУ И ЧЕЛОВЕЧЕСКИЕ ЦЕННОСТИ

***Фидан Фарид кызы Фараджева***
***Бакинский Государственный Университет***
***доцент кафедра Истории философии и культурологии***

Анализируя влияние глобализации на конкретные сферы обществен-ного и личностного бытия, прежде всего, необходимо рассмотреть ее воздействие на культуру и человеческие ценности. Сегодня, культура должна быть осмыслена в качестве решающего аспекта глобализации, а не простой реакции на экономическую глобализацию. При этом не следует считать, что глобализация культуры — это установление культурной однородности во всемирном масштабе. Этот процесс включает в себя культурные столкновения и противоречия. Конфликты и столкновения различных культур и цивилизаций — главный фактор современного многополярного мира[1].

Получил широкое распространение тезис о том, что в глобальных процессах современности сталкиваются две системы ценностей: система ценностей, проявляющая в традиционной культуре и система ценностей, основанная на

либеральных и демократических ориентациях. Опыт современного мира убедительно показывает, что некоторые традиционные структуры очень органично вплетаются в ткань нынешней цивилизации. Без опыта невозможно и новаторство. Именно традиции позволяют человеку сохранить свою идентичность и приспособить свой образ жизни к стремительным изменениям современного мира. [См.2] Тезис об этом противостоянии ценностей отображает только верхушку айсберга. На самом деле ситуация с ценностными ориентациями в современном мире много сложнее. Более глубокое рассмотрение проблемы показывает, что само понятие «традиционные ценности» является собирательным, условным, абстрактным. Строго говоря, ценности человека всегда актуальны, они должны ориентировать человека в современных ему реалиях, должны помогать ему жить осмысленно и ответственно, а вовсе не продуцировать раздвоение его сознания и поведения, когда внутренний мир человека организован на одних ценностях, (декорирован одними ценностями), а его реальное функционирование в современном обществе — на других, часто противоположных первым. Такое существование человека трагично и конфликтогенно. Возникающая при этом ценностная прострация личности не способствует активной жизненной позиции, продуцируя апатию и социальную фрустрацию.[См.3]

Противоречие между традиционными и современными ценностями находится в системе именно современных ценностей, не позволяя им укорениться с достаточным основанием ни в личностной, ни в общественной сферах. В этом заключается одна из основных причин реального отсутствия сколько-нибудь целостной системы ценностей современного человека, как на Западе, так и на Востоке. Практически это можно видеть повсюду: террористы, аппелируя к системе религиозных ценностей, оправдывающей их действия, сознательно или бессознательно совершают подмену религиозных ценностей актуально-политическими целями,

и действуют, уже из содержания последних, избравшего их демократического большинства.

Все это, убедительно демонстрирует ценностную анархию в современном мире, которая для удобства и оправдания именуется плюрализмом, но означает только одно: современный мир утратил ценностные основания своей жизнедеятельности.[4] Отсюда фрагментарность и непоследова-тельность; условность союзов и региональных объединений; волюнтаризм, отсутствие стабильности и критериев в политике; абсолютная манипулируемость гигантскими массами людей; чрезвычайная и неоправданная власть СМИ и т.д.

Глобализация сделала эти процессы повсеместными и всеобщими. Опыт последних десятилетий позволяет сделать очень важный и значительный вывод: как таковые войны в их прежнем понимании сейчас не нужны, если к военным действиям и прибегают, то совсем с другими целями, чем прежде; те результаты, к которым раньше приводили войны, сейчас вполне достигаются разрушением систем ценностей противника, и последний превращается при этом даже в союзника.

Не только традиционные ценности оказались бессильны перед вызовами современности, что в принципе понятно: они складывались в совершенно иной мировоззренческой, культурной, социально-политической и экономической атмосфере, но ценности, порожденные более близкой нам эпохой, ценности, концентрирующиеся вокруг либеральных и демократических концептов и идей — и эти ценности бессильны и пусты, как то демонстрирует новейшая история. Либеральные ценности, будучи доведены до предельного их практического воплощения, превратились в средство разрушения общества, их же и породившего.

Сегодня сложилась ситуация, которую можно охарактеризовать как критическую. Господствуя в процессах глобализации, экономически развитые страны, в основном западные, средствами силового и экономического давления навязали практически всему миру свои ценностные установки,

которые к моменту победоносной их экспансии демонстрируют распад и разложение в «метрополии». Страны «третьего мира», утратив свои национальные ценности и устои, внешним образом принявшие вместе с рыночной идеологией либеральные ценности, часто доведенные до абсурда и выхолощенные, посредством открытости информационных потоков, благодаря той же глобализации, обнаруживают, что они оказались втянутыми в жесткую систему отношений, оставляющую им немного возможностей для маневра, систему, в которой эти страны остались без ценностных, нравственных и духовных ориентиров и даже без сколько-нибудь ясной государственной идеологии.

Можно с уверенностью утверждать, что современное общество имеет тенденцию к размыванию моральных ценностей, дегуманизации человека. Духовная сущность морали проявляется в определенной направленности человека, социальных групп общества на конкретные нравственные ценности, нормы. А отсюда следуют и соответствующие поступки и поведение людей. Особенность нравственных норм состоит в том, что они не закреплены государственными институтами и не являются государственными нормами, как юридические. Они выполняются, так как это внутреннее представление человека о себе, и оценка этого поведения другими – одобрение или осуждение.[5]

Из всех немногих позитивных выходов из данной ситуации, рекомендовано следующее: трезво оценив наличные и перспективные возможности страны, следует определить свое место в глобализационных процессах, найдя свой приемлемый специфический путь. Причем речь идет не только об экономике и политике, но и об идеологии, о системе ценностей, посредством трансляции высококультурного общества, вокруг которой могли бы объединиться широкие социальные слои, что гарантировало бы гражданский мир и согласие в стране в динамичном и крайне нестабильном современном мире.[6] Глубокий анализ культурных, ценностных, духовных аспектов

глобализации способен, на взгляд автора, дать реальные практические рекомендации в этой сфере.

Нормой становится гетерогенность региональных форм жизнедеятельности человека. На такой основе возможно не только сохранение, но и возрождение и освоение культуры и духовности народа, развитие местных культурных традиций, локальных цивилизаций. Глобализация требует от локальных культур не безоговорочного подчинения, а селективного выборочного восприятия и освоения нового опыта иных цивилизаций, возможного только в процессе конструктивного диалога с ними. Особенно это необходимо для независимых государств постсоветского пространства, укрепления их национальной безопасности и сохранения национальной идентичности.[7] Поэтому, нам, так крайне необходимо развитие глобалистики как формы междисциплинарных исследований, позволяющих правильно оценить ситуацию и найти способы их решения.

## Литература


1. Федотова Н.Н. Возможна ли мировая культура? // Философские науки. № 4. 2000. С. 58-68.
2. Межуев В.М. Проблема современности в контексте модернизации и глобализации // Полития. № 3. 2000. С. 102-115.
3. Практика глобализации: игры и правила новой эпохи. — М., 2000. С. 133-134.
4. Василенко И.А. Диалог цивилизаций. — М.: Эдиториал УРСС. 1999. С. 18
5. Бирюкова М.А. Глобализация: интеграция и дифференциация культур // Философские науки. № 4. 2000. С.33-42.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİ VƏ GƏNCLƏRİN MƏNƏVİ TƏRBİYƏSİ

***Ramiz Cəlal oğlu Əliyev***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Təhsil menecmenti kafedrasının dosenti***
***pedaqogika üzrə fəlsəfə doktoru***
***ramizliyev700@gmail.com***

Ümummilli lider Heydər Əliyevin zəngin yaradıcılıq irsi, şəxsi nümunəsi, dövlətçilik fəaliyyəti və siyasi görüşləri gənc nəslin təhsil-tərbiyəsi işinin səmərəli təşkili üçün ən dəyərli mənbədir. Şübhəsiz ki, Azərbaycan Respublikası gənclərin vətəndaşlıq dərsləri, şəxsiyyət tamlığı nümunəsi olan bu irsin hərtərəfli öyrənilməsi nəticəsində müstəqil və yaradıcı düşüncə tərzinə sahib olan Azərbaycan vətəndaşlarının milli müstəqillik uğrunda cəsarətli mübarizəsinin şahidi olmaq və onun nailiyyətlərini görmək olar.

Respublikamızın milli tərbiyə konsepsiyası Heydər Əliyev ideyalarından mənəvi güc almış və yaranmışdır. Ümummili liderin baxışları, nitqləri və məruzələrində irəli sürülən tərbiyəvi cəhətdən qiymətli fikirlər tərbiyə işinin həm məzmununu, həm də praktik fəaliyyətdə həyata keçirilmə yollarını əsaslandırır; gənclərin milli-mənəvi tərbiyə işinin elmi-nəzəri məsələlərini aşkara çıxarır.

Ümummilli lider Respublikamızın gənclərinin müstəqil dövlət sahibi, öz taleyinin sahibi olmaq hissini, yaşayaraq sahiblik, sahibkarlıq bacarıqlarına yiyələnməsini irəli sürür. Sahibi olduğu torpağın yeraltı, yerüstü sərvətlərinin, Vətən deyilən müqəddəs varlığın insanlıqda uca tutulan şərəfin, namus və qeyrətin daşıyıcısı olan və bu sahibkarlığı mənəviyyatına hopduran insanın şəxsiyyətli, azadlıqsevər, cəsarətli mərd olacağına şübhə yoxdur. Respublikamızın bugünü və sabahı belə insanların yetişdirilməsini tələb edir. Bu baxımdan "hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmaqdır. Ümumilikdə, milli tərbiyə işinin məzmunu ilk növbədə gənclərin dövlətçilik, müstəqillik, azadlıqsevərlik, onların qorunması uğrunda mübarizlik ruhunda

tərbiyəsindən ibarət olmalıdır. Öhdəsinə düşən borcun dərk edilməsi və bunun üçün məsuliyyət hissi daşımaq artıq bir şəxsiyyət olaraqonun yetkinlik əlamətidir. Bu proses isə birdən-birə mexaniki olaraq yaranmır. Erkən yaşlardan başlayaraq tərbiyə işi pedaqoji metodik və psixoloji əsaslarla elə düzgün qurulmalıdır ki, hər bir böyüyən uşaqda yetkinləşmə getsin. Əgər tərbiyəvi işin məqsədi aydın müəyyənləşdirilərsə, ona nail olmaq yolları düzgün tapılarsa, heç şübhəsiz, nəzərdə tutulan nəticəni almaq olar. Amma tərbiyəçinin özünün də borc və məsuliyyət hissini nümunə olacaq səviyyədə daşıması tələb olunur. Azərbaycanın dövlət müstəqilliyinin, Azərbaycan xalqının azadlığının daimi qorunmasına cəhd hissinin formalaşdırılması, Heydər Əliyev təhlilinə görə bir neçə komponenti özündə əks etdirir. Birinci komponent Azərbaycan qanunlarının aliliyini təmin etmək, insanların hüquqlarını, azadlıqlarını qorumaq istəyidir. Hər bir gənc bu istəyi yerinə yetirmək üçün hazırlaşdırılmalı və onun daşıyıcısı olmağı bacarmalıdır. Məhz bu amilin düzgün həlli üçün hüquq tərbiyəsi daha da genişləndirilməli, onlara Azərbaycan Respublikasının qanunları mahiyyətcə dəqiq öyrədilməlidir. İkinci komponent Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, qoruyub saxlamaqdır. Üçüncü komponent Azərbaycanın müstəqilliyini təmin edən ordusunun varlığıdır. Dördüncü komponent Azərbaycanda yüksək təhsil sistemi, ümumtəhsil sisteminin mövcudluğudur. Beşinci komponent gənclərin yüksək mənəviyyat ruhunda tərbiyələndirilməsidir. Bu cəhətdən:

a) Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir;

b) Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir; gənclərimiz tariximizi, dilimizi, milli ənənələrimizi, milli dəyərlərimizi yaxşı bilməlidir.

Ümummilli liderimiz daim qətiyyətlə bildirirdi ki, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz... Bugün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox vacibdir.

Heydər Əliyev irsində vətən sevgisi, xalq, millət sevgisi, dil

sevgisi, din sevgisi, milli ənənələrə bağlılıq xüsusi yer tutur. Dahi şəxsiyyət bunları insan üçün mənəvi əsas kimi təqdim edir və mənəvi keyfiyyətlərə sahib olmayanların müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəyi qənaətindədir. Məhz buradan da milli tərbiyə işinin məzmununda vətənə, millətə, dilə, dinə, ənənəyə və s. məhəbbət hissinin formalaşdırılmasının əhəmiyyətli yer tutması və bunun formal deyil, real olaraq həyata keçirilməsinin vacibliyi səciyyələnir.

Heydər Əliyev irsində sədaqətlilik- insanın insana, insanın vətəninə, xalqına, dövlətinə sədaqət hissi xüsusi yer tutur. Yeniyetmə və gənclərin sədaqət hissinə yiyələnməsinin əxlaqi borcun yerinə yetirilməsində mühüm rol oynadığını qeyd edən Ulu Öndər vətənə sədaqətli xidmətin onun müstəqilliyini qoruyub saxlamaq kimi mühüm bir vəzifə olduğunu bildirir. Gənclərimizi ən sədaqətli insanlar olaraq görmək istəyir.

Ümummili liderimizin irsində tərbiyəvi iş vasitə, tərbiyəlilik səviyyəsi nəticə kimi çıxış edir. Gənclərin vəzifələrindən danışarkən tərbiyəvi işin nəticələri nəzərdə tutulur, eyni zamanda nəzərdə tutulan tərbiyəvi işlərin məzmunu müəyyənləşdirilir.

Ulu Öndər Azərbaycan gəncləri gününə həsr edilmiş bədii-idman bayramındakı nitqində demişdir: “ Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır... Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun vətənə,xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa real zəmin yaradacaqdır... İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, öz əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır”.

Heydər Əliyevin şəxsi nümunəsi xalqına, elinə, dostlarına, vətəninə, dövlətinə əsl sədaqətlilik örnəyidir. Ulu Öndərin irsi öyrədir ki, böyüyən nəslin mənəvi tərbiyəsində sədaqət hissinə yiyələnmə aparıcılıq təşkil etməlidir, irsindəki təqdimata görə sədaqətlilik Azərbaycanın milli ordusunda, silahllı qüvvələrində xidmət etmək əzmini formalaşdırır, milli iftixar duyumunu, milli mənlik şüurunu

yüksəldir; onu şəxsiyyət kimi bütövləşdirir, bitkinləşdirir. Sədaqət hissini uca tutan insan öz ailəsinə, yaşadığı torpağa, elə, mənsub olduğu millətə, dövlətə, ölkəyə, ana dilinə, bağlı olduğu dinə, milli ənənələrinə elə bağlanır ki, onu heç vəchlə, heç bir təsirlə amal və əqidəsindən döndərmək olmur.

Ulu Öndərin tərbiyəyə aid fikirləri sırasında ömürdən keçən hər bir andan təhsillənmək, inkişaf etmək, təkmilləşmək, peşəyə yiyələnmək üçün olduqca səmərəli istifadə etmək ideyası da mütərəqqi xarakterlidir. O, gənclərə tövsiyə edərək deyir: “Gənclik dövründən səmərəli istifadə edin, yaxşı təhsil alın, özünüzü həyata yaxşı hazırlayın. Gənclik illəri sonra ələ düşməyən illərdir, yaş artdıqca insan bu illəri həmişə böyük həvəslə xatırlayır... Gələcəkdə özünüzü qınamamaq üçün, gəncliyinizdə nəyisə etmıdiyinizə görə heyfsilənməməyiniz üçün mən sizə məsləhət edirəm: Gənclik günlərindən, aylarından səmərəli istifadə edin, boş yerə vaxt sərf etməyin, yaxşı oxuyun, yaxşı təhsil alın. Özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın”... Bu deyilənlərə necə nail olmaq olar? Zəkayla, ağılla. Elə bu amillərə əsaslanan Ulu Öndər zəkaya, ağıl tərbiyəsinə xüsusi diqqət yetirir və qarşıya qoyulan vasitələri ağılla, zəka ilə həyata keçirməyin faydalı olacağı qənaətini bildirir.

Ümummilli lider Heydər Əliyevin irsində böyüyən nəslin fiziki, mənəvi, ruhi
və əqli tərbiyəsi məsələləri də geniş yer tutur. Sirr deyil ki, Azərbaycan Respublikasının milli tərbiyə konsepsiyasında bu amillər öz əksini tapmışdır. Həmçinin qeyd etmək lazımdır ki, ruhi tərbiyə məsələsi sovet dövrü pedaqogikasında diqqətdən kənarda qalan məsələlərdən biri hesab olunurdu. Narahatlıq doğuran odur ki, dövrümüzün pedaqoqları hələ də ruhi tərbiyənin vacibliyinə diqqət yetirməmişlər. Lakin Heydər Əliyev ilk dəfə olaraq elmi uzaqgörənliklə milli tərbiyənin məzmununa gənc nəslin ruhi tərbiyəsini daxil etmişdir. O, eyni zamanda milli vətənpərvərlik anlayışını da ilk dəfə işlətmiş və onun məzmununu müəyyənləşdirmişdir. Qeyd etməliyik ki, sağlamlıq, gümrahlıq, fiziki kamillik insanın həyatında, fəaliyyətində əhəmiyyətli rola malikdir. Milli tərbiyənin əsas istiqamətlərindən olan bu sahəyə Ulu Öndərin

xüsusi diqqət yetirməsi mübarizələrdə dəyanətli, döyüşlərdə cəsur, cəmiyyətin fiziki sağlamlığının daşıyıcısı ola bilən insanlar yetişdirilməsi amalından irəli gəlir. Bədən tərbiyəsi və idman fiziki tərbiyə və fiziki mədəniyyətin aşılanmasında əsas vasitədir. Möhtəşəm idman öz qalib nümayəndələri ilə ölkəsini şöhrətləndirir. Ümummili liderin fiziki tərbiyədə mühüm vasitə olan bədən tərbiyəsi və idmana xüsusi diqqət və qayğı ilə yanaşmasının yalnız iqtisadi, sosial, mədəni-mənəvi deyil, həm də böyük ictimai-siyasi əhəmiyyəti vardır. Heydər Əliyev hər kəsə çatdırır ki, səmərəli işləmək, xalqa, ölkəyə xidmət etmək üçün Azərbaycanda hər bir gənc sağlam olsun.

Ümummilli lider təsadüfi deyil ki, insanın mənəvi sağlamlığı məsələsinə də ayrıca diqqət yetirir. İnsana fiziki sağlamlıq nə qədər vacubdirsə, mənəvi sağlamlıq da bir o qədər vacibdir. Çünki insanda sağlam mənəviyyat olmasa, əxlaqi-ictimai münasibətləri cəmiyyətə faydalılıq səviyyəsində qurmaq olmaz. Sağlam mənəviyyat düzlük, həqiqətpərəstlik, vətənsevərlik, milli təəsübkeşlik, halallıq və s. mənəvi keyfiyyətlər zəmnində formalaşır.

Gənclərimizin milli ruhda, milli-mənəvi dəyərlər əsasında tərbiyələnməsini vacib hesab edən Ulu Öndər bildirir ki, gənclərimiz bizim tariximizi yaxşı bilməlidirlər, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Ulu Öndərin hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması ideyası yaranacaq tərbiyə konsepsiyasının əsas ideyalarından biri olmalıdır. Yaşadığı ölkədən, vətəndaşı olduğu dövlətdən asılı olmayaraq harada azərbaycanlı varsa, onda azərbaycançılıq hissi özünü göstərməlidir. Bu hiss Azərbaycan sevgisindən, Ana Vətən məhəbbətindən təzahür edir.

Ümummilli lider Heydər Əliyev tərbiyə prosesində dini dəyərlərdən bəhrələnərək ruhi inkişafa qovuşmağı, əməldə, davranışda islam dininin tələblərinə uyğun olaraq hərəkət etmək vərdişlərinə yiyələnməyi yüksək qiymətləndirmişdir. O, bildirirdi ki, islam dininin Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir, gənclərimizin bu günü də, gələcəkdə də tərbiyəsi və ümumi inkişafı üçün çox faydalıdır.

Ümummilli lider Heydər Əliyevin yaradıcılıq irsinə bir daha müraciət edərək bir məqalə hazırlamaq məqsədilə onun tərbiyəyə, o cümlədən mənəvi tərbiyəyə aid fikirlərindəki bəzi məqamları təhlilə

cəlb etdik. O məqamlar ki, müasir Azərbaycan gənclərinin inkişafında və formalaşmağında yeni mərhələ təşkil edir. Bu irs elmi-nəzəri ideyalarla tamamlanmışdır və praktik tərbiyə irsində, cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyət və vətəndaş hazırlığında uğurlu nəticələrə nail olmağın ən mühüm mənbəyidir.

**Ədəbiyyat**


1. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili, Bakı,1997.
2. Əliyev M. Heydər Əliyev elm təhsil və mədəniyyətin himayədarı, Bakı, "Xalq qəzeti", 2010, 16 may, s.4.
3. Qaralov Z. Heydər Əliyevin elmi irsi, Bakı, Şərq-Qərb, 2013, 304s.
4. Mirzəzadə R. Azərbaycanın dünyaya saydıran insan, Bakı, 1998.
5. Mərdanov M. Heydər Əliyevin həyat dərsləri, Bakı, 2012.
6. Baxşəliyev F. Heydər Əliyev və Azərbaycan təhsilində aparılan islahatlar, Bakı, 2011.


## ВОПЛОЩЕНИЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ И ОБЩЕЧЕЛОВЕЧЕСКИХ ИДЕЙ В КОНЦЕПЦИИ "АЗЕРБАЙДЖАНИЗМА" ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА


***Нилуфер Фируз кызы Асланзаде***
***Редактор новостных программ на русском языке***
***ЗАО «Азербайджанского телевидения и радиовещания»***
***Докторант кафедры педагогики БГУ***
***e-mail: aslanzade_nilufer@mail.ru***


*"İndi hər bir azərbaycanlı qürur hissi keçirdə bilər ki, mən azərbaycanlıyam, mənim millətim, mənim millətimin dövləti, ölkəm vardır. İsveçrədə, Almaniyada, Fransada yaşasam da, fərqi yoxdur, mənim xalqımın müstəqil dövləti var və dünya xalqları içərisində yerim vardır. Azərbaycan xalqının əsrin sonunda əldə etdiyi ən böyük nailiyyət budur".*

*Ümumilli lider Heydər Əliyev*

Общечеловеческие ценности также как и обычаи и традиции, носят социально-общественный характер,но в отличие от первых, проявляются в виде глобального значения. Общечеловеческие ценности существовали и существуют в обществе людей с глубокой древности. Они обладают таким нравственным влиянием, которое помогает возникать в определенных условиях и развить их благодаря своему социальному характеру. Иными словами, общечеловеческие ценности - нравственно-психологический инструмент, более интенсивно воздействующий на общественное сознание человека, которые могут формироваться в каждом из человеческих обществ с культурными традициям. В то же время сближение европейской и азербайджанкой культур обеспечивает то, что национально-нравственные ценности, присущие азербайджанскому обществу, становятся неотъемлемой частью культуры человечества и обогащают его.

«Национальный менталитет — это переход от национальных нравственных ценностей к национальному самосознанию. Таким образом, на уровне национальной самобытности возникают национальные нравственные ценности нации, возникает потребность в национальном пробуждении и национальном самосознании этой нации. Другими словами, нация состоит из этнической идентичности, языка, культуры и прочего. Он пытается защитить себя, чувствуя, что ассимилироваться естественно. В это время национальные нравственные ценности в форме национального менталитета - этническое происхождение, язык, культура, религиозная идеология, общественная жизнь, бытовые отношения и др. возрождает в своем сознании свое прошлое, пробуждает его и поднимает на уровень борьбы с национальными нравственными ценностями и национальным богатством, которые принадлежат только ему. Это неизбежно ведет к национальному самосознанию и национальному пробуждению». [1;47]

Национальная идеология является одним из идеологических течений, проявляющихся в современном мире и играющих

большую роль, в то же время воплощает национальное самосознание и национальный дух в окружении культурных норм и национально-нравственных ценностей, способствует укреплению национально-культурной однородности. Формирование идеологии «азербайджанизма», заложенной общенациональным лидером Гейдаром Алиевым в нашей стране, сыграло важную роль в развитии нашей государственности и народа, привело к возрождению национального самосознания и национального духа. Гейдар Алиев вносит конкретность и ясность в то, что принято в отношении общечеловеческих национальных ценностей, куда входят демократия, правовые нормы, свобода человека, плюрализм и многие другие понятия. Упоминание имени нашей Родины с уважением и честью радует каждого гражданина Азербайджана, и каждый из нас понимает, что феноменальные заслуги великого лидера Гейдара Алиева в признании Азербайджана на мирового уровня, безусловно бесценны. Обогащение наших национальных и нравственных ценностей в целом поспособствовало созданию нравственного богатства в нашем обществе, созреванию национального самосознания и защите интересов нашей независимой государственности.

«Великий лидер всегда подчеркивал, что идеология азербайджанства является средством достижения реальной независимости, сохранения и укрепления единого, неделимого Азербайджана. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Согласно философским воззрениям Гейдара Алиева, «азербайджанство» означает сохранение национальной принадлежности, национально-нравственных ценностей и в то же время получение выгоды от их синтеза и интеграции с общечеловеческими ценностями. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. Идеология

азербайджанства, способная защитить и сохранить национально-нравственные ценности нашего народа, органично сочетающая в себе интересы государства и граждан, является успешной основой гражданского единства и единого общества в стране. [2;6]

Наш общенациональный лидер Гейдар Алиев сыграл важную роль в формировании идеологии «азербайджанизма», в пробуждении чувства национального самосознания наших соотечественников, проживающих за рубежом, и в 90-х годах прошлого столетия общенациональный лидер во время своих зарубежных визитов старался собрать их вокруг этой единой идеи. Именно в эти годы се наши соотечественники стали объединяться вокруг идеологии «азербайджанизма», выдвинутой общенациональным лидером Гейдаром Алиевым. Идеология «азербайджанизма» сочетала в себе национально-духовные ценности нашего народа, исламское мировоззрение, светские и гуманитарные принципы, синтез восточной и западной культур, идеи тюркизма и европеизма, факторы наследственности и прогресс в исторической эволюции. Провозглашение Азербайджанской Республики национальным достоянием всех азербайджанцев и Родиной всех наших соотечественников являются важнейшими аспектами идеи «азербайджанизма».

## Литература


1. F. Ələkbərov. Millət, milli ideya, milli ideologiyanın mahiyyəti barədə. “AMEA. Elmi əsərlər. Fəlsəfə, Sosiologiya və Hüquq institutu”. – 2011.-№ (16). – S.44-51.- [Режим доступа]: /https://www.academia.edu/42842239/Mill%C9%99t_milli_ideya_milli_ideologiya_anlay
2. R. Cəbrayılov. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Azərbaycan.- 2011.-17 may.- S. 6. - [Режим доступа]: http://www.anl.az/down/meqale/azerbaycan/2011/may/175824.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA VALEOLOJİ BİLİKLƏRİN FORMALAŞDIRILMASI YOLLARI

***Səbinə Namiq qızı Cəfərova***
***Bakı Slavyan Universiteti***
**Pedaqogika və psixologiya kafedrasının müəllimi**
***sabina_16_86@mail.ru***

Cəmiyyətin müasir inkişafında uşaqların sağlamlığı, sağlam həyat tərzi bacarıq və vərdişlərinin formalaşdırılması problemi bu gün aktuallıq daşıyır. Uşaqların mənəvi həyatı, dünyagörüşü, əqli inkişafı, öz gücünə inamı gümrahlığından, sağlam həyat tərzindən asılıdır. Yalnız sağlam uşaq lazımi intellektual inkişafa nail ola bilər. Sağlam cəmiyyətin gələcəyi ilə bağlı Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev çıxışlarının birində söyləmişdir: "Sağlam həyat tərzi də insanlarda uşaqlıq çağından başlayır. Əgər biz gənc nəslin hamısını sağlam həyat tərzinə yönəltsək, onları fiziki və əqli cəhətdən sağlam böyüdə biləcək, onda cəmiyyətimizdə də sağlam həyat tərzi hökm sürəcək və müstəqil Azərbaycanın gələcəyini təmin edən insanlar daha da sağlam, daha da güclü olacaqdır" [s. 60]. Həqiqətəndə sağlam gələcək sağlam insanlardan başlayır.

Müasir dövrdə gənc müəllimlərin qarşısında duran prioritet vəzifələrdən biri də təlim və təhsil prosesində uşaqların sağlamlığının qorunmasıdır. Vurğulamaq lazımdır ki, müasir dövrdə təhsil müəssisələrinin üzərinə düşən öhdəliklərdən biri də uşaqlara sağlam həyat tərzinin, sağlamlıq vərdişlərinin aşılanmasıdır. Uşaqlara sağlamlığın qeydinə qalma məsələləri yalnız fiziki tərbiyə, həyat bilgisi məşğələlərində deyil, eyni zamanda digər məşğələlərdə də geniş və ətraflı bəhs edilməlidir. Lakin qeyd etmək lazımdir ki, uşaqların sağlamlığının qorunması və aktiv həyat tərzinin inkişafından bəhs edən xüsusi bir elm vardır ki, bu elmin də adı valeologiyadır. Valeologiya sağlamlığın qorunması haqqında elmdir. "Valeologiya" sözü iki latın sözünün birləşməsindən yaranmışdır: "valeo" - sağlam olmaq və "loqos" - öyrənmək deməkdir. Bu termin elmə sovet alimi, tibb elmləri doktoru İsrael Brexman tərəfindən

daxil edilmişdir. Lakin bu sahəyə maraq günü gündən daha da çoxalır. Gələcək kadrlar erkən uşaqlıq dövründən uşaqların sağlamlıqlarının qeydinə qalmalı, sağlam gələcəyin təminatçısına çevrilməlidirlər. Məhz bu səbəbdən də gələcək tərbiyəçilər valeologiya elmi haqqında geniş məlumata malik olmalı və onun inkişaf sahələrini dərindən oyrənməlidirlər.

Valeoloji mədəniyyətin formalaşdırılmasının zəruriliyi 7-8% sağlamlıq xidmətinin müvəffəqiyyətindən, 60% -dən çoxu isə düzgün həyat tərzindən asılıdır. O da aydındır ki, valeoloji mədəniyyətin formalaşması ilk növbədə tərbiyə prosesi, pedaqoji prosesdə tərbiyəçilərlə uşaq, valideyn və övlad arasında qarşılıqlı əlaqənin düzgün pedaqoji üsullarından asılıdır.

Müasir dövrdə zamanın tələbatına uyğun olaraq sağlam həyat tərzinin formalaşdırılması probleminə  diqqət xeyli artmışdır. Vurğulamaq lazımdır ki, həm cəmiyyətin, həm də valideynlərin sağlamlığa ehtiyacı vardır. Buna görə də məktəbəqədər təhsil müəssisələrinin tədris proqramlarında insan orqanizminin öyrənilməsinə, onun həyatının təhlükəsizliyinin təmin edilməsinə həsr olunmuş bölmələr getdikcə çoxalmalıdır. Məktəbəqədər təhsil proqramı - kurikulumuna nəzər yetirdikdə görmək olar ki, məktəbəqədər yaşlı uşaqların inkişafı 4 əsas inkişaf sahəsi üzrə müəyyənləşmişdir. Bunlardan ən birincisi uşaqların fiziki inkişafı, sağlamlıq və təhlükəsizliyinin təmin edilməsidir. Bu yaş dövründə sağlamlığın hərtərəfli inkişafı, bədən quruluşunun düzgün formalaşması, orqanizmin möhkəmliyi çox vacib və mühüm məsələlərdəndir.  Uşaqlara sağlam həyat həyat prinsiplərini inkişaf etdirməyə kömək etmək, onlara fiziki imkanlarını qiymətləndirməyi, inkişaf perspektivlərini görmək, sağlamlıqları üçün məsuliyyəti dərk etməyi öyrətmək valideynlərlə yanaşı tərbiyəçilərin də üzərinə düşür.

Məktəbəqədəryaşlı uşaqların sağlam böyüməsi cəmiyyətimizin bu günü və gələcəyinin çox vacib məqsədi kimi əsaslandırılmış və sağlam həyat tərzinin formalaşdırılmasına kömək olan mühüm amillər, təsirlər və onun yolları əsas vəzifələrdən biri kimi sistemləşdirilmişdir. Məhz bu səbəbdən də müasir dövrdə valideynləri narahat edən əsas məsələ övladlarının sağlamlığı məsələləridir, lakin ailələr bu işin öhdəsindən yetərincə gələ

bilmirlər. Çünki, ailələr uşaqların sağlamlıqları ilə, onlarda gümrah həyat tərzinin formalaşdırılması ilə bağlı çətinliklərlə üzləşir, bu istiqamətdə hansı addımların atacağı ilə bağlı təsəvvürlərə yetərincə malik olmurlar. Bunu valideynlərin valioloji biliklərin məhdudluğu ilə əlaqələndirmək də olar.

Uşaqların fiziki sağlamlıq vəziyyəti ilə bağlı məlumatlar göstərir ki, gənc nəslin sağlamlığı müasir cəmiyyətin ehtiyaclarını ödəməkdən uzaqdır. Sağlam həyat tərzi vərdişə çevrilməlidir, bu da əsas, həyati vərdişlər və bacarıqların ödənməsi tələbatından irəli gəlir. Görkəmli filosof Artur Şopenhauer deyirdi ki, “Sağlamlıq hər şey deyil, amma sağlamlıq olmadan hər şey bir heçdir” (1). Buna görə də, məktəbəqədər yaş dövründə məktəbəqədər müəssisələr və ailələr müxtəlif iş formalarından istifadə edərək sağlam həyat tərzinin təməlini qoymağa çalışmalıdır.

Əgər uşaqlara kiçik yaşlarından sağlamlıqlarını qiymətləndirməyi, onları qorumağı və möhkəmləndirməyi öyrətsək, bundan əlavə valideynlər öz şəxsi nümunələri ilə sağlam həyat tərzi nümayiş etdirsələr, o zaman gələcək nəslin təkcə fiziki deyil, həm də intellektual cəhətdən daha sağlam inkişaf edəcəyinə ümid etmək olar.

Qeyd etmək lazımdır ki, hər bir insanın öz sağlamlığı üzərində çalışması vacib məsələlərdəndir. Xüsusən məktəbəqədər təhsil müəssisələrində bu məsələyə ciddi yanaşılmalıdır. Bəs uşaqların sağlamlığının inkişafı, onların sağlam rifahı necə qorunmalıdır? İlk növbədə uşaq bağçasında çalışan tərbiyəçi müəllimlər və gələcək tərbiyəçilər uşaq bağçasında valeologiyanın məqsəd və vəzifələrini bilməlidirlər:

İlk növbədə tərbiyəçilər uşaqları "sağlam həyat tərzi", "təhlükəsiz həyatın əsasları" anlayışları ilə tanış etməlidirlər. Oğlanlar və qızlar arasında düzgün mədəni münasibətləri, emosional ünsiyyəti inkişaf etdirməli, bədən tərbiyəsi və idmanla məşğul olmalıdırlar. Bundan əlavə şəxsi gigiyena bacarıqlarını formalaşdırmalı və insan sağlamlığına hörmət tərbiyə etməlidirlər. Bu şərtlər altında məktəbəqədər yaşlı uşaqlarda valeoloji tərbiyəsi daha da inkişaf edəcək.

Valeoloji tərbiyənin vəzifələri, eləcə də məqsədləri müxtəlif yaş qrupları üçün eynidir, lakin nəzəri cəhətdən bu məsələ yaş

xüsusiyyətlərinə görə fərqlənir. Tərbiyəçilər məktəbəqədər yaşlı uşaqlara sağlamlığın insan üçün nə qədər dəyərli olduğunu və sağlam həyat tərzinə can atmağın nə qədər vacib olduğunu başa düşməyi öyrətməlidirlər.

Məktəbəqədər yaşlı uşaqlarda valeoloji biliklərin eyni zamanda, sağlam həyat tərzi haqqında bacarıq və vərdişlərin formalaşdırılması problemi bu gün həmişəkindən daha aktualdır. Aktuallıq müasir uşaqların sağlamlığının qeydinə qalınmaması, yəni onların psixi və fiziki sağlamlığının zəif olması ilə izah olunur. Amma əsas səbəb cəmiyyətin mədəni böhranı və nəticədə valideynlərin öz sağlamlığının və övladlarının sağlamlığının dəyəri barədə bilik səviyyəsinin aşağı olmasıdır.

Bu gün məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilərin üzərinə məsuliyyət tələb edən vəzifələr düşür. Belə ki, tərbiyəçilərin əsas vəzifəsi uşağa sağlamlıq haqqında bilikləri aşılamaq, onlara bunu öyrətmək, sağlamlığın qorunması, qeydinə qalınması və möhkəmləndirilməsi, dözümlülüyün artırılması ilə əlaqədar müxtəlif işlərin həyata keçiriiməsinə şərait yaratmaqdan ibarətdir. Məşğələlər zamanı tərbiyəçilər uşaqlarla işin müxtəlif formalarından istifadə edərək: səhər məşqləri, bədən tərbiyəsi, söhbətlər, öyrədici oyunlar oynayaraq, sağlamlığın insan həyatında nə qədər əhəmiyyətli olduğunu və sağlamlığın nə qədər dəyərli olduğunu izah etməyə çalışmalıdırlar.

Valeoloji biliklərin mənimsənilməsi uşaqların yaş xüsusiyyətlərinə görə bir neçə istiqamətə ayrılır. Məsələn kiçik yaş qrupunda uşaq ümumi insan orqanizmi ilə tanış olursa, orta yaş qrupunda artıq insan orqanizminin müxtəlif orqanları haqqında məlumatlı olmalıdır. Məktəbəqədər yaş qrupunda isə uşaq bədən orqanlarının harda yerləşdiyinə dair biliklərə sahib olur. Bundan əlavə kiçik yaş qrupunda uşaqlara həkimə getməyin vacibliyi öyrədilirsə, orta yaş qrupunda müxtəlif sahələrdə çalışan bəzi tibb işçilərinin rolu izah edilir, məktəbəqədər yaş qrupu isə eşitmə, görmə orqanlarının xəstəlikləri ilə bağlı elementar profilaktik tədbirləri öyrətmək tələb olunur.

Məktəbəqədər yaşlı uşaqların valeoloji biliklərin formalaşdırılması aşağıdakı pedaqoji şərtlər əsasında təmin edilir:

- məktəbəqədər yaşlı uşaqların valeoloji biliklərin formalaşdırılması ilə bağlı problemlərin həllində müəllimin səriştəsi;
- valideynlərin valeoloji mədəniyyəti;
- valeoloji biliklərin formalaşdırılması və valeoloji vəzifələrinin vahid pedaqoji prosesə inteqrasiyası;
- məktəbəqədər təhsil müəssisəsində valeoloji bilikləri formalaşdıran mühitidə uşaqlara pedaqoji dəstəyin yaradılması;
- uşaqların yaş xüsusiyyətlərini nəzərə almaq və valeoloji biliklərin mənimsənilməsi zamanı hər bir uşağa fərdi yanaşmanın həyata keçirilməsi.

Yalnız dünya ilə harmoniyada yaşayan insan, həqiqətən sağlam olacaq. Uşaqlıqda formalaşan valeoloji bacarıq və biliklər yetkinlik dövründə də öz sağlamlığını qorumağa və müsbət motivasiya yaratmaq üçün möhkəm təməl olacaqdır. Göründüyü kimi sağlam həyat tərzi heç də ayrıca bir fərdə və ya şəxsə məxsus insani və mənəvi sərvət deyildir. O, həmçinin bütövlükdə cəmiyyətin sərvəti, ali məqsədlərindən biri kimi özünü təzahür etdirir. Ona görə də sağlam həyat tərzinin tərbiyəsi fərdi səviyyədən yüksələrək cəmiyyət və dövlət səviyyələrində olan bütün sosial təbəqələrdə zəruri həyatı tələbat kimi meydana çıxmış və bərqərar olmuşdur.

## HEYDƏR ƏLİYEV AİLƏ TƏRBİYƏSİ VƏ AİLƏ DƏYƏRLƏRİ HAQQINDA

***Ayşən Fəxrəddin qızı İsmayılova***
***Mingəçevir Dövlət Universitetinin***
***Pedaqogika  və psixologiya kafedrasının müəllimi***
***ismayilzade_omer@mail.ru***

Şəxsiyyətinin  formalaşmasında, onun bir layiqli vətəndaş kimi yetişməsində,  həyatda fəal mövqe tutmasında ailə tərbiyəsinin və ailədaxili münasibətlərin böyük rolu  və əhəmiyyəti vardır. Ailədə aparılan düzgün tərbiyə və düzgün ailədaxili münasibətlər, valideynlərin şəxsi nüfuzu və nümunəsi şəxsiyyətin formalşmasına qüvvətli təsir göstərir. Bu münasibətlərin düzgün qurulması üçün ailə

üzvləri, ilk növbədə, ailə başçıları bir-birinə hörmət və ehtiramla yanaşmalı, hərəkət və davranışlarına, söhbətlərinə diqqət etməli və fəaliyyətlərində uşaqlara nümunə olmalıdırlar.

Azərbaycan xalqının çox gözəl və zəngin milli ailə dəyərləri, ailə adət və ənənələri, mənalı həyat və məişət tərzi vardır. Həmin ailə ənənələri və ailə dəyərləri həyat yoldşaına sədaqət, vəfa, qarşılıqlı hörmət və məhəbbət, dürüstlük, uşaqlara qayğı və diqqət, valideynə, böyüyə ehtiram, tolerantlıq kimi zəngin və çoxşaxəli xüsusiyyətlərə malikdir.

Ailədaxili münasibətlərin sağlam pedaqoji, psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını, şəxsiyyətin hərtərəfli inkişafını və formalaşmasını şərtləndirən mühüm amillərdəndir.

Təcrübələrdən məluum olur ki, ailədə qarşılıqlı hörmət, sevgi, məhəbbət, inam, etibar və etimad hökm sürərsə, ailə üzvləri sağlam həyat sürərsə, bir birini müdafiə edərsə, ailədə birlik və etimad olarsa - belə ailələr dağılmaz və heç bir problem onu sarsıda bilməz. Zatən, "Ailə" ərəb sözü olub mənası "etimad etmək", "söykənmə", "əmin olmaq", "etibar etmək" deməkdir.

Cəmiyyəti yaşadan və onun varlığını sübut edən ailə meyarlarına ulu öndərin öz münasibəti, öz yanaşması olmuşdur. Heydər Əliyev öz ailəsinə daim diqqət və qayğı, ailə dəyərlərinə, milli-mənəvi dəyərlərimizə, ailənin müqəddəsliyinə böyük önəm vermişdir. Dahi rəhbər Heydər Əliyev ailə tərbiyəsi haqqında deyirdi: ***"Ailə tərbiyəsi öz xarakterinə görə nadir bir haldır. Bu tərbiyə ata-ananın övlada məhəbbəti və uşaqların da ata-anaya bu cür hissləri kimi bir mənəvi əsas üzərində qurulur...Əgər ailə aləminə əxlaqsızlıq mikrobu daxil olmuşsa, əgər uşaq ailə vəsaitlərinin əyri yollarla əldə edildiyini görürsə, onun qəlbində iki cür əxlaq yarana bilər".***

Dahi rəhbər şəxsiyyətin tərbiyə olunmasında ailə dəyərlərinə xüsusi əhəmiyyət verir və ***"ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir"*** – deyərək ailə dəyərlərinin qorunmasını, ona hörmıət edilməsini tövsiyə edirdi.

Ulu Öndər hər bir Azərbaycan ailəsinin taleyinə xüsusi diqqət

göstərirdi. O, Azərbaycanda ailə adətlərimizin ləyaqətlə davam etdirilməsi üçün hər cür şərait və imkanlar yaradır və bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Azərbaycana rəhbərlik etdiyi hər bir dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusu, qayda-qanunu, əlaqələri və prinsipləri gözləməyə borcludur. Hər bir ailə üzvü öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməli, ailənin rifahı üçün bütün bacarıqlarını tətbiq etməli, hamıya hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalıdır. Alənin inkişafı və tərəqqisi, cəmiyyətin inkişafı və tərəqqisidir.

Heydər Əliyevin ailəsindəki xoş mənəvi mühit, həyat yoldaşının fəliyyətinə hər zaman dəstək olması, arxasında olması heç şübhəsiz onun daxili və xarici siyasətindəki böyük uğurlar qazanmasına da imkan və şərait yaradırdı. Doğru demişlər ki, uğurlu, qalib şəxsiyyətlərin arxasında həmişə iradəli, müdrik qadınlar dayanır. Ulu öndər Heydər Əliyev öz xatirələrində bu barədə qeyd edirdi: "...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib...".

Görkəmli ictimai-siyasi xadim Heydər Əliyev ailədaxili münasibətləri cəmiyyətdaxili münasibətlərin güzgüsü hesab edirdi. Bu baxımdan o, ailədə və cəmiyyətdə xüsusi yeri olan qadın və uşaqların hüquqlarının müdafiə olunmasını zəruri hesab edirək bildiridi ki, ***"Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bugünümüzün, gələcəyimizin dayağıdır".***

Ümummilli lider Heydər Əliyev Azərbaycan uşaqlarını ən

əzizi, doğması hesab edərək deyirdi: ***“Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”.***

Ümummilli lider Heydər Əliyevin ənənələrinə sadiq qalan, dahi şəxsiyyətin siyasi kursunu layiqincə həyata keçirən, ideyalarını yaşadan möhtərəm Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondu, şəxsən fondun prezidenti Azərbaycanın birinci xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir və bu sahəni daim xüsusi diqqət mərkəzində saxlayırlar.

Möhtərəm prezidentimiz cənab İlham Əliyev Ümummilli liderimizin ideyalarını davam etdirərək Azərbaycan ailə ənənlərinin qorunub saxlanmasına xüsusi diqqət ayırmış və 2006-cı il 29 mart tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər)” qəbul edilməsi ailəyə, ailə dəyərlərinə və ailə tərbiyəsinə böyük diqqət və qayğının bariz nümunəsidir. Bunun məntiqi davamı olaraq Heydər Əliyev Fondunun uşaqların müdafiəsi ilə əlaqədar həyata keçirdiyi silsilə, rəngarəng tədbirlər sırasında “Hər uşağın ailəyə ehtiyacı var” layihəsi ailənin və ailə tərbiyəsinin inkişafına, ailədə şəxsiyyətin formalaşmasına böyük töhfədir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və fəaliyyəti nəsillərə nümunə olmaqla yanaşı, ideal ailə başçısı kimi göstərdiyi örnək də misilsizdir. O xalqımıza İlham Əliyev kimi dəyərli vətəndaş, böyük siyasətçi, müdrik şəxsiyyət yetişdirmiş və layiqli ölkə prezidenti bəxş etmişdir ki, o bu gün Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI

***Ülviyyə Aydın qızı İmanova***
***Heydər Əliyev adına Hərbi İnstitutun xarici dillər kafedrasının baş müəllimi, fəlsəfə doktoru***
***reraro@mail.ru***

Xalqımız dünyanın ən qədim xalqlarından biri olduğu kimi onun dili də qədim və zəngindir. Bu dilin dərin tarixi kökləri vardır ki, tarixin çətinliklərinə dözərək, sinə gərərək özünü qoruyub saxlamış, bu günkü günlərimizə qədər yetişən nəsillərə gətirib çıxarmışdır. Tarix boyu bu dildə qiymətli əsərlər yazılmış və hələ VII əsrdə Dədə Qorqud kimi möhtəşəm, ulu dastan məhz ana dilimizdə meydana gəlmişdir. Bu dildə Füzuli, Nəsimi, Həqiqi, Vaqif, Vidadi, Mirzə Cəlil, Sabir və başqa mütəfəkkirlər qiymətli əsərlər yazıb yaratmışlar. Bu dil dünyaya səs salan şairlər, yazıçılar, alimlər, siyasətçilər, dahilər yetişdirmişdir. Ulu öndər Heydər Əliyev deyirdi ki, *dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla çox fəxr edirəm[1, s 46].*

Azərbaycan dilinin həm ümumxalq dili, həm də dövlət dili kimi tərəqqi edib inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Dahi rəhbər Azərbaycan dilinə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada müəyyən ictimai-mədəni mövqeyi olan bir xalqın milli sərvəti, mənəvi dəyəri kimi yanaşırdı. Hələ 1970-ci illərdən başlayaraq Ulu Öndər ana dilimizin qayğısına qalıb, Azərbaycan dilinin inkişafı üçün öz səyini heç vaxt əsirgəməmişdir. Ana dilinə böyük məhəbbət, onun incəliklərini dərindən bilmək, sadə, səmimi cümlələrlə insanlarda möhkəm nikbin əhval-ruhiyyə yaratmaq Heydər Əliyevin möhtəşəm nitq və çıxışlarının əsas xüsusiyyətlərindən birisi olmuşdur.

Dilimizin inkişafı və dil mədəniyyətinə münasibət haqqında Ulu öndər Heydər Əliyev çıxışlarının birisində deyiridi ki, *inkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan*

*miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlq borcu olmaldıır[2, s.54].*

Ulu öndər dilimzin zəngiliyindən, gözəlliyindın, uzun, çətin mürəkkəb yollardan keçdiyindən danışır, bu dilin daha da inkişaf etdirilməsini, qorunmasını, mühafizə edilməsini Azərbaycan vətəndaşlarına, xüsusilə gənc nəsillərə tövsiyə edirdi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə İmadəddin Nəsiminin 600 illik yubileyi beynəlxalq miqyasda qeyd edildi. Həmin illərdən başlayaraq Nəsiminin dilinə aid xeyli sayda tədqiqat işləri aparıldı, dəyərli əsərlər yazılıldı. 2000- ci ildə Ulu dastanımız Dədə Qorqudun 1300 illiyinin qeyd edilməsi, dahi şairimiz Füulinin 500 illiyinin qeyd edilməsi, 2021 – ci ili Nizami Gəncəvi ili elan edilməsi, 2022- ci il Hüseyn Cavidin 140 illiyi haqqında ölkə Prezidentinin xüsusi sərəncamı milli-mənəvi dəyərlərimizə və ana dilimziə olan diqqət və qayğının bariz nümunələridir.

Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən yüksək qiymət olmaqla bərabər, həm də xalqın, millətin mənəvi zənginliyini nümayiş etdirir, insanlarda milli qürur və iftixar hissləri yaradır. Lakin, bunu da unutmayaq ki, vaxtilə Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu vaxtlarda xalqımızın dilini, milli-mənəvi dəyərlərini, mədəniyyətini, milli kimliyini unutdurmağa yönəlmiş siyasət hökm sürürdü. Dövlət tədbirlərində, radio, televiziya və mətbuatda çıxışlar, rəsmi məktublaşmalar, rəsmi sənədlər o dövrdə dövlət dili elan edilmiş rus dilində yazılır və danışılırdı. Bütün bunlara baxmayaraq xalqını, vətəni Azərbaycanı ürəkdən sevən ulu öndər Heydər Əliyev bir çox insanların cəsarət edə bilmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxışlar etməklə hər kəsə nümunə oldu. Bu şərəfli yolun başlanğıcı hələ 1969 –ci ilin noyabr ayında Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində o dövr üçün səciyyəvi olmayan, kommunist rejimi üçün fövqəladə hal sayılan respublika rəhbərinin yığıncaqda Azərbaycan dilində, ana dilində çıxışı idi [3].

Həmin tarixi günü Heydər Əliyev 25 ildən sonra, BDU-nun 75

illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: *"Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər".*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı Dövlət Univeresitetinin 100 illik yubileyindəı öz nitqində vildirdi ki, *"Heydər Əliyev 1969-cu ildə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir neçə ay sonra BDU-nun 50 illiyi keçirilirdi. Bir məqamı xüsusilə vurğulamaq istəyirəm ki, gənc nəsil bu hadisədən xəbərdar olsun, Sovetlər İttifaqının tərkibindəydik, o zaman rus dili hakim dil idi, ana dilində nitq söyləmək 15 respublikanın heç bir katibinin ağlından belə keçə bilməzdi, lakin ulu öndər cəsarətli addım atdı, yubiley tədbirində Azərbaycan dilində çıxış elədi. Həmin nitq hər bir vətəndaşa mesaj oldu, ulu öndərimiz tərəfindən ana dilinə olan hörmət, məhəbbət alqışlarla qarşılandı"[4] .*

Qeyd edək ki, Heydər Əliyev hələ 1978-ci ildə qəbul olunan Azərbaycan SSR-in Konstitutsiyasında rus dili ilə yanaşı, Azərbaycan dilinə rəsmi dil statusu verilməsinə çox çətinliklərlə də olsa nail oldu. O dövrdə Azərbaycan dilinin rəsmi dövlət dili statusuna malik olması çox cəsarətli bir addım olaraq böyük bir hadisə idi. Belə hal Sovet ittifaqında nadir hadisə hesab olunurdu. Bu fakt ulu öndərin dilimizə verdiyi yüksək dəyər və qiymətinin nəticəsi idi.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi idi. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ulu öndər "Millətin milliliyini saxlayan onun dilidir" şüarı altında ana dili məsələsəinə yeni səviyyədə - müstəqil dövlət quruculuğunun tələb etdiyi səviyyədə yanaşmağın təcrübəsini verdi.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan dilinin inkişafında, onun dövlət dili olaraq yüksək səviyyəyə qaldırılmasında ulu öndər Heydər Əliyevin misilsiz tarixi xidmətləri olmuşdur.

Dahi rəhbər Azərbaycan dilinin inkişafı ilə əlaqədar 1995- ci ildə qəbul edilən yeni Konstitusiyada Azərbaycan dili dövlət dili kimi, dövlətimizin rəmzlərindən biri kimi qəbul edildi. Həmin ilin 12 noyabrında Konstitusiyamızın 21- ci maddəsində Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Orada deyilirdi: *"Dövlət dili Azərbaycan dilidir... dövlət dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının borcudur. Dövlət dili kimi Azərbaycan dili ölkənin siaysi, ictimai, iqtisadi, elmi və mədəni hıyatının bütün sahələrində işlədilir" [5, s.31].*

Heydər Əliyev ana dilimzin inkişafına xüsusi diqqət və qayğı göstərərək 2001-ci ilin 9 avqustunda çox mühüm və tarixli bir Fərman da imzladı: *"Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"* Fərmanı bütün dövlət və qeyri-hökümət təşkilatlarında, bütün qurumlarda Azərbaycan dilinin dövlət dili kimi bərqərar olmasına geniş yol açan tarixi əhəmiyyətli möhtəşəm siyasi bir hadisə idi [6,s.1]. Bu sərəncama əsasən hər il avqustun 1-i ölkəmizdə "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd edilməsi dil tariximizdə çox əlamətdar və önəmli hadisə oldu. Bu möhtəşəm Fərman Azərbaycan dilinin inkişafında və tərəqqi etməsində, habelə bu dilin genişlənməsində və tətbiq edilməsində böyük rol oynadı. Beləliklə, Azərbaycanın müstəqilliyi illərinə daha yeni, əlamətdar və tarixi bir gün əlavə edildi.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Ulu Öndərin dövlət dili siyasətini bu gün uğurla davam etdirir. Prezidentin ana dilinin dövlət dili kimi işləkliyi üçün göstərdiyi siyasi, milli iradə, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin geniş şəkildə tətbiqinə və beynəlxalq səviyyədə nüfuzunun yüksəlməsinə xidmət edir. Dövlətimizin başçısı İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü il yanvarın 12-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan

dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ölkədə dil siyasətinin uğurlu davamının bariz nümunəsi idi.

Prezident İlham Əliyevin 2013-cü ilin 9 aprelində təsdiq etdiyi *"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"[7],* "Azərbaycan dilinin elektron mühitdə daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli Sərəncamı ana dili Azərbaycan dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində təməl tətdqiqatların aparılmasına əlverişli şərait və imkanlar yaratdı. Bu həmçinin, ölkə prezidentinin dövlətimizin əsas atributlarından olan ana dilimizin qorunması ilə bağlı verdiyi bu sərəncamlar, heç şübhəsiz, dilimizə böyük hörmət və rəğbətin, diqqət və qayğının parlaq təzahürü idi. Bu gün Azərbaycan dilinin dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli liderimiz Heydər Əliyevin yaratdığı ana dili siyasəti və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin uğurlu nəticəsidir. Bütün bunlar ana dilimizin qorunması və zənginləşdirilməsi işinin siyasi-hüquqi təminatıdır.

## Ədəbiyyat


1. Əliyev H.Ə.. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 340 s. .
2. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirləri / H.Əliyev. – Bakı: 1997. – 611 s.
3. Əliyev H.Ə. Bakı Dövlət Universitetinin 50 illik yubileyində nitq/ Xalq 1969
4. Əliyev İ.H. Bakı Dövlət Universitetinin 100 illik yubileyində nitq. 26 noyabr, 2020/ Xalq, 27 noyabr, 2020.
5. Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında / Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri H.Ə.Əliyev yoldaşın məruzəsi // Kommunist. – 1978, – 21 aprel.

6. Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı // Respublika. – 2001, – 19 iyun.
7. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair DÖVLƏT PROQRAMI. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ 11 aprel, 2013.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-EMOSİONAL İNKİŞAFINDA BAĞÇANIN ROLU

***Nigar Ramiz qızı İsmayılova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim***
***niay.83@mail.ru***

Bu gün kiçik yaşlı uşağı olduğu mühit daha çox tərbiyə edir, nəinki onun ailəsi, deyə fikirlər mövcuddur. Çünki uşağımızın hər zaman mühitini düzgün qurmalıyıq və hər zaman onunla düzgün rəftar etməliyik. Belə ki, uşağa bu gün aqressivlik göstəririksə, onun sözünü dinləmiriksə, fikirlərini geri çeviririksə, gələcəkdə ondan xoş xasiyyət, mülayim davranış, mərhəmət gözləyə bilmərik. Çünki valideynlərin uşağa sırf bu cür rəftarı onun şüuraltında formalaşır. Uşağın şüuraltında necə formalaşırsa, o cür də həyata keçirilir. Belə bir deyim var: İnsan 7 yaşında nədirsə, 70 yaşında da odur. Z.Freyd də deyir ki, insanın binası artıq 6 yaşında tamamlanır. Biz sonradan ona sadəcə divar kağızları və pərdələrlə bəzək vururuq. Yəni uşağın xarakteri 6 yaşında tam formalaşır. Heç bir uşağın xasiyyətini 6 yaşından sonra dəyişmək mümkün deyil. Sadəcə pozulmuş davranışlarını korreksiya etmək mümkündür. Hansı ki, bu pozulmuş davranışlar onun həyatına mənfi təsir edir. Əgər uşağımızı düzgün tərbiyə etmək istəyiriksə, ona vaxt, zaman ayırmalıyıq.

Bağçaya gedən uşaqların bağçaya getməyən, ya da məktəb öncəsi təhsil almayan uşaqlardan daha bacarıqlı olduğu elmi araşdırmalarla təsdiqini tapıb. Buna görə də məktəbdən əvvəl verilən

təhsilin əhəmiyyəti böyükdür. Bu təhsil uşağa fiziki, elmi, psixoloji və sosial olaraq müsbət təsir edir. Bununla yanaşı, uşağın dil inkişafı da sürətlənir. Həmçinin uşaq valideynindən uzaqda, fərqli bir şəraitdə olacağı üçün öz qərarlarını ala bilmə, qrup içində var ola bilmə, başqalarına "xeyr" deyə bilmə kimi bacarıqlarını inkişaf etdirə bilir. Bağçanın uşağın özünü daha da inkişaf etdirməsi üçün bir çox faydası var. Uşağın göndərildiyi bağçanın fiziki şərtləri ilə yanaşı, orada uşaqlarla məşğul olan tərbiyəçi-müəllimlərin də işinə hakim olması lazımdır. Yaxşı bir bağça müəlliminin bəzi xüsusiyyətlərə sahib olması vacibdir. Əvvəlcə bağça müəllimi uşaqlarla birbaşa təmasda olduğu üçün sakit və səbrli olmalıdır. Həmçinin uşaq inkişafını, uşaq psixologiyasını bilməli və bunlar istiqamətində uşağı izləyə bilməlidir. Bağça müəllimi, eyni zamanda, çox yaxşı bir müşahidəçi olmalıdır. Beləcə, müşahidə apararaq uşağın valideynlərinə və bağçadakı digər mütəxəssislərə bu barədə məlumat verə bilməlidir.

Bağça uşaqların inkişafında əhəmiyyətli rol oynayır. İlk növbədə onların sosiallaşmasını təmin edir. Uşağın öz ailəsi xaricində güvənli bir dairə içində sosiallaşması olduqca vacibdir. Uşaqlar özgüvən qazanaraq utancaqlıq hisslərini bir kənara rahatlıqla qoya bilirlər. Digər tərəfdən xüsusilə tək uşaq olanlar üçün paylaşmağı öyrənmək önəmlidir. Yaşıdları ilə eyni şəraitdə paylaşmağı və işbirliyini öyrənmələri asanlaşır. Beləcə, uşaqlar fərqli düşüncələri dinləməyi, fərqliliklərə hörmət göstərməyi və kollektiv çalışma kimi vacib məsələləri erkən yaşda qavraya bilirlər.

Bağçada kəsmə, boyama, yapışdırma kimi məşğuliyyətlərə olduqca sıx yer verildiyi üçün uşaqların inkişafına da əhəmiyyətli kömək edir. Həmçinin fikir mübadiləsi, müşahidə qabiliyyəti kimi çalışmalarla riyazi bacarıqlar inkişaf etməyə başlayır. Şəkilli kitablara diqqət etmək və rəsm çəkmək kimi bacarıqlar sayəsində də yazma və oxumağa olan maraq və bacarıqları artır. Diqqət əksikliyi və ya öyrənmə çətinliyi kimi bir çox problemlər erkən yaşda müəyyən edilərək, məktəbə başlamadan bəzi işlər əvvəldən görülməlidir.

Uşağın şəxsiyyətə çevrilməsində ailə, mühit, tərbiyə, bununla yanaşı məktəb, sosial müəssisələr, müxtəlif dərnəklər, radio və

televiziya verilişləri həlledici rol oynayır. Uşaqların necə inkişaf edəcəyi onları əhatə edən mühitlə bağlıdır. Uşaqların sosiallaşması üçün atılan ilk addımlardan biri də onların bağça mühitinə öyrəşmələri ilə başlayır. Tədqiqatlar da müəyyən etmişdir ki, uşağın intellektual səviyyəsi məhz kiçik yaşlarında ona verilən tərbiyə ilə bağlıdır. Bağçaya gedən uşaqla getməyən uşağın fərqi varmı? Bağçaya gedən uşaq daha fəal olur. Fiziki, əqli cəhətdən yaxşı inkişaf edir, özünə inamlı olur, nitqi inkişaf edir, kollektivə öyrəşir, bir çox sevmədiyi yeməklərin adlarını öyrənir, evdə heç yemədikləri yeməkləri bağçada qrup halında əyləncəli şəkildə yeyirlər. Uşaq bağça mühitində paylaşmağı öyrənir, əvvəl uşaqlar elə bilir ki, hər şey onlara alınmalıdır, amma bağça mühiti onlara paylaşmağı, bölüşməyi öyrədir. Dostlaşırlar - dostları ilə daha çox ünsiyyətdə olurlar. Onlarla daha çox zaman keçirmək istəyirlər. Hətta bağçaya öyrəşən uşaq həftə sonu anasına sual verər ki, ”bağça nə vaxt açılacaq?”. Bağçaya getməyən uşaq isə özünə qapanıq olur, ünsiyyətə az girirlər, yeni mühitə gec adaptasiya olurlar. Kiçik yaşlı uşaqlar qonaq gedəndə, evə qonaq gələndə analarından ayrılmaq istəyirlər.

Uşağın bağçada bir çox imkanları, qabiliyyətləri, ünsiyyət bacarığı fəaliyyət formasında meydana çıxır. Qabiliyyətin üzə çıxması üçün uşaq mütləq bir fəaliyyətdə olmalıdır. Evdə uşaq ən çoxu valideynlə oynaya bilər, lakin oyunun özünün də müəyyən mərhələləri var. Uşaq kiçik yaş dövründə əşyaları tanımağa başlayır, müxtəlif oyuncaqlarla oynayır, ətrafında gördüklərini təhlil edir. Hələ kiçik yaşlarında uşaq oyuncaqların tərkib hisslərini ayıraraq analiz edir, onlarla oynayır. Bunlar da uşağın inkişafına zəmin yaradır, lakin bir müddət sonra uşaq oyun əsasında onu əhatə edənlərin sosial rollarını mənimsəyir. Oyunda bunu daha da təkmilləşdirir. Bu təkmilləşdirmə yalnız bağça mühitində daha keyfiyyətli həyata keçə bilər. Bunlarla yanaşı, onlar dostluğu və kömək etməyi öyrənirlər.

Bağçada oyuncaqların seçimi də müəyyən tədqiqata əsaslanır. Bu prosesdə bağça plan qurur, uşağın inkişafını müəyyənləşdirir, uşağın qabiliyyətlərini üzə çıxarır. Burda yalnız ünsiyyət məsələsi yox, təsviri qabiliyyət, aktiv oyunlar, fiziki qabiliyyət də nəzarət altına alınır. Bağçaya gedən uşaqda artıq məktəb dövründə müəyyən inkişaf da özünü göstərir. Yəni o, məktəbə hazır vəziyyətdə gəlir,

sosial fobiyası olmur, ağlamır, qışqırmır, anasını istəmir, yeni mühitə daha tez öyrəşir, tanımadığı uşağa tez alışır. Buna görə də bağçanın rolu uşağın həyatında əvəzolunmazdır.

## SOSİAL QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN HİMAYƏDARI

***Sahilə Abdüləzim qızı Orucova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***sahile.orucova@yahoo.com***

Ölkəmizdə uğurla icra olunan sosial yönümlü siyasətin tərkib hissələrindən biri də uşaq hüquqlarının qorunmasıdır. Xalqın və dövlətin gələcəyi olan uşaqların qorunması, təhsili, sağlamlığı və yaşayış şəraitinin yaxşılaşdırılmasına bütün dövrlərdə xüsusi önəm verilmişdir və bu gün də verilir. Məlum olduğu  kimi sosial qayğıya ən çox ehtiyacı olan təbəqə uşaqlar, xüsusilə uşaq evləri və internat məktəblərində məskunlaşan maddi və mənəvi dəstəyə ehtiyacı olan uşaqlardır. Doğrudur onlar həmişə  dövlətin və cəmiyyətin qayğı və dəstəyi ilə əhatə olunur. Amma bu hər zaman yetərli olmur, görülən tədbirlər  uşaqların ehtiyaclarını tam olaraq qarşılamır.

Statistik məlumatlara görə , hazırda ölkəmizdə kimsəsiz uşaqların məskunlaşdığı 65 müəssisə (internat məktəbləri, uşaq  və körpələr evi ) fəalliyyət göstərir. Bu müəssisələrdə valideyn himayəsindən tamamilə və ya qismən məhrum olmuş 21 min uşaq tərbiyə alır.

2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondu valideyn qayğısından məhrum qalan uşaqların təlim-tərbiyəsi istiqamətində, eləcə də ölkəmizdə təhsil və sosial istiqamətlərdə çoxsaylı tədbirləri uğurla reallaşdırır. Fond  “ Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramı çərçivəsində 30- dan çox uşaq evi və internat məktəblərinin yenidən qurulması və əsaslı təmirini həyata keçirib.

Ulu öndərin adını daşıyan Fondun fəaliyyətində gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, yetişən nəslə vətəndaşlıq hisslərinin aşılanması

diqqət mərkəzindədir. Belə ki, Fondun fəaliyyət göstərdiyi 19 il müddətində onun qayğısı ilə yeniyetmə və gənclərin təhsili, sağlamlığının qorunması, asudə vaxtlarının səmərəli təşkili, eyni ideya ətrafında birləşməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Qədim tarixi abidələrimizin, yurd və yaşayış yerlərinin bərpa olunması, gənclərin ölkəmizin görməli yerləri ilə tanışlığının təşkili də onlarda yurda, vətənə məhəbbət hissi formalaşdırır. Fond gənclərin vətənpərvərlik tərbiyəsinin təşkili ilə bağlı müxtəlif layihələr reallaşdırır.

" Uşaq evləri və internat məktəblərinin inkişafı" layihəsi də məhz bütövlükdə sağlam düşüncəli vətənpərvərlərin yetişdirilməsinə istiqamətlənmişdir.

Uşaq evləri və internat məktəblərində adətən aztəminatlı, zəruri sosial-məişət şəraiti olmayan ailələrdən olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş ,sağlamlığında müəyyən problemləri olan uşaqlar məskunlaşır. Lakin bu uşaqlar da azərbaycan vətəndaşlarıdır.Onlar da ölkə konstitusiyasında nəzərdə tutulan insan haqlarından faydalanmalıdır.

İnsanların istəyib istəməməsindən asılı olmayaraq dünyanın hər yerində valideyn sevgi və qayğısından məhrum olmuş uşaqlar və onların məskunlaşdığı müəssisələr vardır. Dünyanın hər bir yerində övlad istəyənlər və ya övladını tərk edənlər vardır.

Araşdırmalar görərik ki, son on ildə ölkəmizdə ümumi tipli internat məktəblərinin sayı iki dəfə azalıb. Bu tipli məktəblərin sayı 1991-ci ildə 50, 2000-ci ildə 38 olub. Hazırda isə 21 belə məktəb var. Müvafiq olaraq şagirdlərin də sayı azalıb. Belə ki, müstəqilliyin əvvəllərində 20000 dən artıq uşaq ümumi tipli internat məktəblərində təhsil alırdısa, hazırda bu rəqəm 6000-ə çatmır. Tədqiqatların nəticələrinə görə internat məktəblərinin maddi-texniki bazası əvvəlki illərə nisbətən yaxşılığa doğru dəyişsə də, bunu oradakı təhsilin keyfiyyəti haqqında demək olmaz. Bunu DİM-nin qəbul nəticələri də təsdiq edər.Bu tipli təhsil müəssisələrində oxuyan uşaqların dünyagörüşü və zehni tərbiyəsinin inkişafı aşağı səviyyədə olur. Çünki bu müəssisələrin texniki imkanları müasir tələbləri ödəmir, dərslərdə yeni texniki imkanlardan yetərincə fadalanılmır. Keçmiş MDB ölkələri ilə müqayisədə ölkəmizdə internat məktəblərinin

durumu yaxşı olsa da arzu olunan səviyyədə deyildir.

Mütəxəssislərin fikrincə, internat məktəblərində şərait nə qədər yaxşı olsa da, uşaqların orada yaşaması və təhsil- tərbiyə alması arzuolunmazdır. Ölkəmizin də qatıldlığı beynəlxalq uşaq hüquqları konvensiyasına, respublikamızın konstitusiyasına və " Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanununa görə hər bir uşaq dünyaya göz açdığı ailəsində böyüməli, digər uşaqlar kimi bərabərhüquqlu təhsil almalıdır.

20 noyabr 1989-cu ildə BMT-nin Baş Assableyası tərəfindən qəbul edilmiş "Uşaq hüquqları Konvensiyası " 54 maddədən ibarətdir. Onların hər biri ayrı-ayrı hüquqlar haqda məlumat verir. Bütün hüquqlar 4 kateqoriyaya bölünə bilər: inkişaf, müdafiə, iştirak, yaşamaq. Uşaq hüquqları Konvensiyasının 19-cu maddəsində qeyd olunur: "Dövlət uşağı fiziki, yaxud psixoloji zorakılığın, təhqirin ya sui -istifadənin, qayğısızlığın və ya etinasız münasibətin, kobud rəftarın və ya istismarın hər cür formasından qorumaq məqsədilə bütün lazımi qanunvericilik, inzibati, sosial və maarifçilik tədbirlərini görməlidir." Konvensiyanın digər tələblərindən biri də hər bir uşağın özünün fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsi hüququna malik olmasıdır (Maddə 27).

Konvensiyada hər bir insanın həyatında təhsilin xüsusi rola malik olması diqqətə çatdırılmaqla göstərilir: " ...Təhsil uşagın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının inkişaf etdirilməsi, insan hüquqlarına və əsas azadlıqlara, azad cəmiyyətdə sülh, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içində həyata, ətraf mühitə hörmət tərbiyə edilməsinə yönəldilməlidir.(Maddə28)

Konvensiyada dünyanın bütün ölkələrində son dərəcə çətin vəziyyətdə yaşayan uşaqların olduğu və belə uşaqların xüsusi diqqətə möhtac olduğu təsdiq edilərək həmin uşaqların təhsilə cəlbi xüsusilə açıq şəkildə vurğulanır.

Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra ilk qoşulduğu beynəlxalq sənədlər içərisində uşaqlara aid olanları da vardır. Ölkəmiz 1992-ci ildə BMT-nin" Uşaq Hüquqları Haqqında" konvensiyasına qoşulub. Uşaq hüquqlarının müdafiəsi, uşaqların normal formalaşmasına, sağlam böyüməsinə yönələn silsilə dövlət proqramları qəbul edilərək onların həyata keçirilməsi məqsədi ilə

tədbirlər planı hazırlanmışdır. Hər bir dövlət proqramı uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq siyasətinin formalaşdırılması, tənzimlənməsi və həyata keçirilməsi, uşaqların fiziki, zehni, əxlaqi, ideya-siyasi, iqtisadi, ekoloji və sosial inkişafı üçün lazımi həyat şəraitinin təmin olunması istiqamətində milli konsepsiyanı inkişaf etdirməyə fokslanmışdır. Bu dövlət proqramlarının uğurlu icrasında Heydər Əliyev Fondunun fəalliyyətini xüsusi vurğulamaq lazımdır.

Ölkəmizdə uşaqlar üçün qayğı mərkəzi rolunu oynayan ilk internat tipli müəssisələr və uşaq evləri neft milyonçularının sayəsində 1910-cu ildə yaradılmışdır. Bu müəssisələr əsasən I dünya müharibəsində valideynlərini itirmiş uşaqlar üçün nəzərdə tutulurdu. İnternat tipli məktəblər şəbəkəsinin inkişafı sovet dönəminə təsadüf edir. İnternat tipli məktəblərin kütləvi şəkildə genişlənməsi İkinci Dünya Müharibəsinin törətdiyi geniş miqyaslı sosial fəlakətlə bağlı olmuşdur. Yaranmış vəziyyət sosial fəlakətin təsirini azaltmaq üçün sağlamlıq imkanları məhdud, əlil , kimsəsiz və sosial cəhətdən müdafiəyə ehtiyacı olan ailələrin uşaqlarına bu tipli məktəblərin yaradılmasını zərurətə çevirmişdir. Bu müəssisələr bütövlükdə dövlətin tam nəzarəti altında olmuşdur.

Aztəminatlı ailələrə və işləyən qadınlara kömək məqsədilə Sovet İttifaqı Komminist Partiyası Mərkəzi Komitəsi və Nazirlər Soveti 1956-cı ilin sentyabrında internat məktəblərinin təşkili ilə bağlı qərar qəbul etmişdir.Verilmiş qərar əsasında ölkənin müxtəlif bölgələrində internat məktəbləri fəaliyyətə başlamışdır. Araşdırmalar göstərir ki,1990-cı illərdə ölkmizdə 63 dövlət uşaq müəssisəsində 20000-dən çox uşaq yaşayıb təhsil və tərbiyə almışdşr. Digər sovet ölkələri ilə müqayisədə bu böyük rəqəm olmasa da, ölkəmiz üçün bu tipli məktəblər xarakterik olmayıb. El arasında belə müəssisələr “detdom” adlandırılır və uşaqların bu cür müəssisələrə verilməsi cəmiyyətdə birmənalı qarşılanmırdı. İmkansız ailələr belə uşaqlarının bu cür məktəblərə verilməsini istəmirdilər. Sonrakı mərhələdə sovet dövlətinin dağılması və mənfur qonşularımızım ölkəmizə təcavüzü nəticəsində əhalinin vəziyyətinin pisləşməsi, qaçqın və məcburi köçkün , kimsəsiz uşaqların sayının artması bu cür məktəblərdə yaşayanların sayında artıma gətirib çıxarmışdır. Həmçinin bazar

iqtisadiyyatına keçidlə əlaqədar əhalinin yoxsulluq səviyyəsinin artması, məşğulluq, ödənişsiz təhsil və səhiyyə xidmətlərindən istifadə imkahları kimi bir çox sosial zəmanətlərin xeyli dərəcədə zəifləməsi əhalinin maddi durumuna pis təsir göstərdi və bu da dövlət uşaq müəssisələrində uşaqların sayının artması ilə nəticələndi.

Bundan əlavə, son vaxtlar fiziki, nevroloji və psixoloji qüsurlu uşaqların doğum nisbəti artmışdır.Valideynlər uşaqlarını nə qədər sevsələrsə də, bu cür uşaqlara lazımi qayğı göstərə bilmirlər, buna görə də uşaqlarını ixtisaslaşmış internat məktəblərinə vermək məcburiyyətində qalırlar.

Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım göstərməsi onun həlli vacib məqsədlərindən biridir. 2004-cü ildən həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı üzrə bir çox layihələr həyata keçirilib. Fond bu istiqamətdə fəaliyyətini uğurla genişləndirərək digər ölkələrdə də proqramlar həyata keçirməyi nəzərdə tutur.

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində indiyə kimi ölkə ərazisində onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir olunaraq yeni avadanlıqlarla təchiz edilib, əlavə yardımçı binalar inşa olunub, uşaqların asudə vaxtlarını səmərəli keçirmələri, müəyyən peşələrə yiyələnmələri üçün müxtəlif dərnəklər, rəsm və rəqs kursları təşkil edilib.

Fondun əməkdaşları Rusiyanın bir sıra şəhərlərindəki uşaq evlərinin və internat məktəblərinin vəziyyətini araşdırmış, bu müəssisələrə göstərə bilinəcək dəstək müəyyən edilmişdir. Moskva, Sankt-Peterburq şəhərlərində uşaq evlərinə və görmə qabiliyyətini itirmiş uşaqlar üçün internat məktəblərinə səfərlər edilib və burada bir sıra sosial layihələr həyata keçirilib.

Heydər Əliyev Fondunun yaxından iştirakı ilə Bosniya və Herseqovinada, Macarıstanda, Pakistanda, ABŞ-da, Almaniyada, İsraildə, eləcə də Avropanın digər bir neçə ölkəsində kimsəsiz uşaqlar, xüsusi qayğıya ehtiyacı olan uşaqlara sosial dəstək proqramları həyata keçirilir.

Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrdə, qeyd etdiyimiz kimi, uşaqların asudə vaxtlarının səmərəli təşkili də daim diqqət mərkəzində saxlanılır. Belə ki, Bakı, Şəki və Qəbələ şəhərlərindəki müxtəlif körpələr və uşaq evləri, internat məktəbləri və Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzindəki uşaq və yeniyetmələrin ölkəmizin müxtəlif bölgələrinə səfərləri təşkil edilir.

Fondun əməkdaşları tərəfindən uşaq evləri, internat məktəbləri mütamadi olaraq ziyarət olunur və bu sistemli ziyarətlərin, ünsiyyətin sayəsində buradakı uşaqlarla, gənclərlə mehriban və səmimi münasibət yaranıb.

Fondun fəaliyyət göstərdiyi 19 il ərzində bu sahədə çox işlər görülmüşdür - uşaq evləri və internat məktəblərin şagirdləri arasında "Mən uşaqları sevirəm" mövzusunda rəsm müsabiqəsi keçirilmiş, Bilik günü ilə əlaqədar uşaqlara məktəb ləvazimatı verilmiş, fondun "Diabetlə xəstələnmiş uşaqlara daha çox qayğı" layihəsi gerçəkləşdirilmiş, uşaq evləri və internat məktəblərinin şagirdləri üçün "Gülüstan" sarayında yeni il şənlikləri keçirilmiş, "Talassemiyasız həyat naminə" layihəsi yerinə yetirilmiş və bu layihə çərçivəsində ixtisaslaşdırılmış mərkəz, qan bankı yaradılmışdır.Hazırda uşaq evləri və internat məktəblərinin yetirmələri üçün Heydər Əliyev Fondu yanında resurs mərkəzi yaradılması istiqamətində işlər görülür. Proqram çərçivəsində telefonla "Birbaşa xətt" açılması da nəzərdə tutulur.

YUNİSEF-in Bakı nümayəndəliyinin başçısı Xanna Singerin fikrincə bu müəssisələrdə təhsil alan uşaqların problemlərinin həlli sahəsində Azərbaycanın nümunəsi başqa ölkələr üçün də faydalı olardı və bu, YUNİSEF rəhbərliyinin diqqətinə çatdırılacaqdır.

Bu proqram çərçivəsində "İnfotek" ictimai birliyi zəif görən uşaqlar üçün bir sıra məktəbləri Brayl əlifbası olan monitorlu kompüterlə təmin etməyi, habelə dərslikləri, bədii ədəbiyyat əsərlərini Azərbaycan dilində səsləndirmək üçün kompüter proqramları yaradılmasını planlaşdırır.

Fond öz fəalliyyəti ilə Azərbaycanın bütün dövlət strukturlarına, vətəndaşlarına ailə ocağının istisindən məhrum olunmuş uşaqların taleyini yüngülləşdirmək işində nümunədir və onları bu tədbirlərin icrasında fəal iştirak etməyə sövq edir.

**Ədəbiyyat**

1.Göyüşqızı S. Heydər Əliyev Fondu: Ulu öndərin ideyalarını yaşadan 15 illik zəngin fəaliyyət. www.ganja news.az. 2019/05/10.
2.Heydər Əliyev Fondu fəaliyyətə başlayana qədər Azərbaycanda məktəb problemi var idi-15yaş. https://modern/az/news/7may 2019
3.Heydər Əliyev Fondu 14 il www.a-r/az>article 15 may 2018
4.Ələddin qızı Nəzakət. Heydər Əliyev Fondu dostluğun və əməkdaşlığın inkişafına önəm verir. **Ошибка! Недопустимый объект гиперссылки.** 2019
5.Əliyeva Y. Heydər Əliyev Fondu. Milli mədəni irsimizin hamisidir. www.anl.az/down/meqale/ses/ses 9 may2009
6.Orucova N.Təhsil müəssisələrinin maddi texniki bazası gücləndirilir./İki sahil.7 sentyabr 2020.
7.Kərimov Q.Dövlətə və xalqa sədaqətli xidmət nümunəsi.//Azərbaycan,26 avqust 2021
8.”Uşaq huquqları haqqında” Konvensiya./https:migration.gov.az

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN HƏYATI VƏ FƏALİYYƏTİ NƏSİLLƏRƏ NÜMUNƏDİR

***Məleykə Ədalət qızı Abışova***
***Bakı şəhəri, M.Orucov adına 213 №-li məktəbin***
***təlim-tərbiyə işləri üzrə direktor müavini***
***meleyke.abisova@mail.ru***

Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli”elan edilmişdir ki, buy barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixindəı xüsusi Sərəncam imzalamışdır. Sərəncamda deyilir: ***“Mən 2022-ci ili “Şuşa İli” elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. 2023-cü il isə “Heydər Əliyev İli” elan edilib.***

***Bu il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".***
Heydər Əliyev cismən bizdən nə qədər uzaqlaşdıqca, o ruhən bizə daha yaxın olur, onun humanizm ideyaları, demokratik fikirləri, mənalı həyat yolu, müdrik fəlsəfəsi, sülhsevər siyasəti, fədakar və yorulmaz fəaliyyəti, insanlara qayğıkeş münsibəti, dərin biliyi və zəngin mənəviyyatı daha aktual və daha yeni olaraq yetişən bu günkü nəsil və gələcək nəsillər üçün böyük bir nümnəyə, mənəviyyat və əxlaq məktəbinə çevrilir.

Yetişən gənc nəslin tərbiyəsində nümunənin böyük rolu vardır. Məşhur Roma alimi M.F. Kvintilian deyirdi ki, öyüd və nəsihətlərin yolu uzun, nümunənin yolu isə qısadır.

Pedaqoji elmində nümunə tərbiyənin mühüm inandırma metodudur. Ulu Öndər Heydər Əliyev nümunəsində tərbiyə ümüumtəhsil məktəblərimzin ən ümdə başlıca tərbiyə istiqaməti olmalıdır. Hazırkı dövrdə şagirdlərin ideya inamının, əqidəsinin formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin irsindən istifadə olunması, onun nümunəsindı tərbiyə çox böyük əhəmiyyət kəsb edir.

Ümumtəhsil məktəblərimizdə istər təlim prosesində, istərsə də sinifdənxaric işlər prosesində dahi rəhbərimzin həyatı, fəaliyyəti, təhsil illəri, çox yönlü apardığı siyasi işləri, diplomatik görüşləri yetişən gənc nəslimizə öyrədilməli və rəhbərin şəxsiyyəti yetişən nəslimizə həmişə nümunə olmalıdır.

Ümummilli liderimiz Heydər Əliyevin istər orta məktəbdə və istərsə də Naxçıvanda pedaqoji texnikumda oxuduğu illərdə yalnız əla qiymıətlərlə oxuması məktəblilərimizə nümunə göstərilməli, onun kimi oxumağa, çalışmağa sövq etdirilməlidr. Heydər Əliyevin sonrakı təhsil illəri də uğurlu olmuşdur. O Leninqradda xüsusi DTK məktəbini əla qiymətlərlə bitirmiş və məktəbin rəhbərliyi ona müxtəlif rəğbətləndirici mükafatlar təqdim etmiş və fəxri fərmanlarla təltif etmişlər. Heydər Əliyev daha sonra Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişsdir ki, orada da təhsil illərində bütün fənlərdən yalnız əla qiymətlər almışdır.Bu bizim yetişən gənc nəsillər

üçün böyük bir nümunədir.

Heydər Əliyev zəngin və mənalı həayt yolu keçmiş sonrakı illərdə geniş və gərgin siyasi həyatı, dövlət quruculuğu işləri, onun yorulmaz, fədakar əməyi, insanlara humanist münsibəti, qayğıkeşliyi, diqqət və hörməti gənc nəslimizə dəyərli bir örnək olaraq göstərilməlidir. Belə nümunələr gənc nəslin fəal həyat mövqeyini formalaşdırı, onları həyata, fəaliyyətə mükəmməl hazırlığını təmin edər.

Gənc nəsli dahi rəhbər Heydər Əliyevin ideyaları əsasında tərbiyə etmək onun ideyalarını əqidəyə çevirmək və bu əqidəni yetişən nəslin ruhuna hopdurmaq, onları layiqli vətəndaşlar kimi yetişdirmək, ölkənin, xalqın mənafeyi uğrunda fədakar mübarizlər formalaşdırmaq məktəbimzin, müəllimimizin qarşısında duran ən mühüm vəzifələrindəndir.

Bu istiqamətdə müəllimlərin uşaq , yeniyetmə və gənclərlə apardığı tərbiyə işlərinin ən təsirli, real variantları seçilməli, yerli şəraitə uyğunlaşdırılaraq səriştəlilik və yaradıcılıqla tətbiq edilməldir.

Təlim prosesində Ulu Öndər Heydər Əliyevlə bağlı keçilən dərslər sinifdənxaric tədbirlərlə əlaqələndirilməli və daha da möhkəmləndirilməlidir. Burada nəzəri məlumatlar praktik işlərlə, əməli tədbirlərlə əlaqələndirilməli, bir-birini tamamlamalıdır.Bu sahədə müəllimlərin səriştəliliyi və peşəkarlığı önəmli rol oyanyır ki, bu barədə böyük siyasi xadim Heydər Əliyev hələ 1980-ci illərdə ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində təhsil alanların təfəkkürünün inkişaf etdirilməsini bir vəzifə olaraq təhsil işçilərinin qarşına qoyurdu. Bu sahədə müəllimin peşəkarlıq səviyyəsinə, səriştəliliyinə yüksək qiymət verərək, səriştəli müəllim obrazının səciyyəsini belə göstərirdi: "...hər bir ali məktəb müəllimi gərək öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, pedaqoji qabiliyyət və yaxşı vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək ali məktəb müəllimi elmi biliklərdən əlavə, yaxşı nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin" (1,7).

Heydər Əliyevin ədalət, mənəviyyat nümunəsi olması, başladığı işi uğurla başa çatdırması üçün nəhayətsiz əzm və iradə nümayiş etdirməsi, səbr və təmkinlə, mahir siyasəti ilə sülh, əmin-amanlıq yolçusu olması uşaqların, ümumən, hər bir ölkə vətəndaşının ifixarıdır.

Heydər Əliyevin yüksək vətənpərvərliyi və xalqına, millətinə bağlılığı, həmişə, hər yerdə azərbaycanlı olmasıyla fəxr etməsi, həqiqətsevərliyi, ədalətliliyi,yüksək iradəsi, reallığı düzgün qiymətləndirə bilməsi, sözü ilə əməlinin bütövlüyü, haqqı çılpaq və sərt deyə bilmək cəsarəti, pisliyə nifrət və onun daşıyıcılarını tənqid etmək, yaxşıları isə mükafatlandırmaq və xalqın gözündə ucaltmaq səyləri, fəzilət sahibi olması, mərhəmətli və şəfqətli olması, natiqlik məharəti və səmimi ünsiyyət qabiliyyətinə malik olması və başqa bu kimi ali mənəvi keyfiyyətləri bugünkü nəslin tərbiyə və təlmidə nümunə məktəbi olmalıdır.

Sahi rəhbər deyirdi ki, mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm, həyatımı ən xoşbəxt adam kimi başa çatdıracağam. Məhz buna nail olmağa çalışıram və çalışacağam.

Bu fikirlər ulu öndər Heydər Əliyevin ülvi, müqəddəs həyat amalı, həyat ideyaları, həyat fəaliyyətinin meyarı, ölçüsü olmuşdur.

Heydər Əliyevin dilimizə, dinimizə, milli adət və ənənələrimizə, tarixi keçmişimizə, ziyalılarımıza, elm və mədəniyyət adamlarımıza, görkəmli şəxsiyyətlərimizə göstərdiyi diqqət və qayğı, hörmət və ehtiram insanlarımızda milli özünüdərk, milli şüur və milli ləyaqət formalaşdırırdı.

Yetişən gənc nəslimiz ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini özünə bir örnək götürməlidir. Bu yorulmaz, mərd, mübariz bir insandan, xalqını, millətini dərin məhəbbətlə sevən, vətəninə, elinə-obasına sadiq bir vətəndaşdan, dərin ensiklopedik biliyə, nadir hafizəyə və fenomen yaddaşa malik bir alimdən, daim sülh, barış carçısı olan siyasi xadimdən daim öyrənməli, bu dahinin həyat və fəaliyyəti yetişən gənc nəslimzə bir nümunə olmalıdır.

Heydər Əliyev siyasi kursunu uğurla və inmala davam

etdirən möhtərəm prezidentimiz İlham Əliyev təhsilimizə, müəllimlərimzə, təhsilimizn inkişafına, gənc nəslin təlim və trəbiysinə böüyk diqqət və qayğıkeşliklə yanaşr və deyir: " İnanıram ki, müəllimlərimiz bundan sonra da vəzifələrinin öhdəsindən layiqincə gələcək, təhsiulin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ölkədə müasir təhsil sisteminin qurulması və insan kapitalının formalaşmasına töhfələr verəcək, gənc nəsli vətənpəırvərlik, milli-mədəni irsə bağlı və azərbaycançılıq məfkurəsi uğrunda yetişdirəcək, yüksək peşəkarlığa və səriştəyə malik, rəqabətədavamlı mütəxəssislər hazırlanması üçün əzmlə çalışacaqlar" (2)

**Ədəbiyyat**


1. Əliyev Heydər. Ali Məktəb İşçilərinin Respublika Müşavirəsində nitq/ Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: ali məktəb işçilərinin respublika müşavirəsində nitq; 28 may 1980-ci il/Heydər Əliyev; burax. məs. Ə.Ağayev.- Bakı: Azərnəşr, 1980, 46 s.
2. Əliyev İlham Heydər oğlu.Müəllimlərin XV qurultayının iştirakçılarına göndərdiyi təbrik məktubu. 28 noyabr, 2018 –ci il. https://az.trend.az/azerbaijan/politics/2986186.htm


## MİLLİ TƏHSİLİN VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN HİMAYƏDARI


***Nərgiz Əhməd qızı Həsənova***
***Ələddin Dadaşov adına Bərdə rayon Xanağalı kənd tam orta məktəbin direktoru. İlin müəllim, Əməkdar Müəllim.***
***nergizhesenova1975@gmail.com***


Ulu öndər Heydər Əliyevin zəngin nəzəri irsində və onun hərtərəfəli geniş diplomatik fəaliyyətində təhsil məsələləri, gənclərin milli- mənəvi tərvbiyəsi xüsusi yer tutur.

Milli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi

dövrlərdə elmə, təhsilə, milli – mənəvi dəyərlərə xüsusi diqqət yetirmiş, xalqın tərəqqisində və irəli getməsində təhsilin roluna yüksək qiymət verərək deməşidr: *"Təhsil millətin gələcəyidir" (1 s.76 ).*

Heydər Əliyevin geniş əhatəli fəalııyyətində təhsilin tərəqqisi daim üstün sahə kimi vacib yer tuturudu. Təhsilin cəmiyyətin tərəqqisində rolunu və insan şıxsiyyətinin formalaşmasında mühüm əhəmiyyətini daim yüksək dəyərləndirən dahi lider təhsil haqqında qəbul etdiyi sərəncamlar, uzaqgörənliklə təqdim etdiyi konseptual düşüncələr tarixi çıxışlar, müdrik məsləhətlər, dəyərli tövsiyələr bu gün də ölkəmizdə təhsil sahəsində aparılan islahatların əsasnı təşkil edir (2).

Böyük rəhbər Heydər Əliyev tədris ocaqlarında, o cümlədən orta ümumtəhsil məktəblərində şagirdlərin bütün müasir elmlərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilərək uşaq və gənclərə müraciətlə demişidr: *"Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər... Amma orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər"(3, s. 87).*

Bütün bunlar isə təhsilin milli məzmununu müəyyənləşdirən çox mühüm amillər kimi düşünülmüş, ciddi bir vəzifə, bir proqram olaraq qarşıya qoyulmuşdur. Təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini dahi rəhbər çox vacib şərt saymışdır. Çünki gələcəyin qurucuları olan yeni nəsillərin milli ideologiyaya yiyələnməsi məktəbdən başlayır və bu işin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir.

Heydər Əliyev xalqımızın çoxminillik tarixinin ayrı-ayrı dövrlərində adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunmasını xalqın yaşaması və qorunması üçün vacib hesab edərək onların öyrənilməsini, qorunmasını hər bir azərbaycanlının müqəddəs borcu sayırdı. Ulu öndər yaxşı bilirdi ki, gənc nəslin düzgün tərbiyə

olunması, düzgün istiqamətlənməsi və yaxşı təhsil alması ilk növbədə xalqın milli-mənəvi dəyərlərini öyrənməkdən başlayır.

Ulu öndər Heydər Əliyevin toxunduğu məsələlərdən biri də təhsilin məzmunca dövlətçilik prinsipləri əsasında qurulmasına nail olmaqdan, yeni məzmunlu milli dərsliklərin yaradılmasından, milli ideologiyanın, vətənpərvərliyin əsas reallaşma vasitələri olan dil, ədəbiyyat, tarix, mədəniyyət, xalqın adət və ənənələrin öyrənilməsini mühüm vəzifə kimi qarşımıza qoymuşdur: *"...Gənclərimiz milli-mənəvi ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi, ədəbiyyatımızı yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" (4).* Ulu öndərin bu fikirləri yetişən gənc nəslin milli-mənəvi ruhda və onun tərkib hissəsi olan vətənpərvərlik tərbiyəsində bir proqram xarakteri daşıyır ki, onu daim öyrənməli və əməl etməliyik.

Ulu öndərin bu fikirləri yetişən gənc nəslin milli-mənəvi ruhda və onun tərkib hissəsi olan vətənpərvərlik tərbiyəsində bir proqram xarakteri daşıyır ki, onu daim öyrənməli və əməl etməliyik.

## Ədəbiyyat


1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. (Tərtib edənlər: Misir Mərdanav, Ə. Quliyev). Bakı: Təhsil, 2002, 356 s.
2. Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramı. Bakı, 1999, 65 səh.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1998 V cild, 318 s.
4. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq // Azərbaycan qəzeti. – 1996, – 6 fevral.

# UŞAQLARA SEVGİ VƏ HÖRMƏT STİMULLAŞDIRICI AMİL KİMİ

***Sevinc Qərib qızı Əliyeva***
***Bakı şəhəri, K.A.Kərimov adına 8 nömrəli tam orta məktəbin tədris işləri üzrə direktor müavini***
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı***
***alievasevinc_1976@hotmail.com***

Uşağa sevgi və hörmət o hələ dünyaya gəlməmiş başlayır və o dünyaya sevgi ilə gəlir və ilk gündən ananın sevgisini hiss edir və sevgi ilə əhatə olunaraq böyüyür, inkişaf edir. Belə bir sevgi və hörmət mühiti uşağın normal, ahəngdar bir insan kimi böyüməsini təmin edir, gələcək uğurlarının təminatçısı və ctimulu olur. Sevgi və hörmətlə böyüyən uşaq da gələcəkdə insanları sevir, onlara hörmət edir və nikbin insan kimi formalaşır. Sevgi və ona göstərilən hörmət özündə bir enerji, bir motivasiya daşıyır ki, bu motivasiya insanı irəliyə, yüksəyə, yaxşıya istiqmətləndirir və uğurlu işlərə sövq edərək stimul yaradır.

İnsanı digər canlılardan fərqləndirən ən mühüm xüsusiyyət və irəli, inkişafa sövq etdirən elə sevgidir. Sevgi olmadan insan normal böyüyüb inkişaf edə bilməz. Bu sevginin içində hörmət, qayğı, məhəbbət, qorumaq, himayə etmək vardır.

Uşağa sevgi və qayğı ailədən başlayır. Hər bir ailənin dəyişməz, pozulmaz qanunları, adət və ənənələri vardır. Bunların içərisəndə uşaqlara sevgi və hörmət birnci yerdə durmalıdır. Tərbiyənin əsas təməli sevgidən başlayır. Valideynin uşağa sevgisi ən böyük tərbiyə vasitəsidir. Uşaqları sevməklə bərabər bu sevgini onlara göstərmək də, bildirmək də lazımdır. Uşaqlar onları sevdiklərini hər an duymalıdırlar.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və fəaliyyəti nəsillərə nümunə olmaqla yanaşı, ideal ailə başçısı kimi göstərdiyi örnək də misilsizdir. Onun ailə dəyərlərinə verdiyi qiymət həmişə hörmətlə xatırlanır və xatırlanacaqdır. Cəmiyyəti yaşadan və onun varlığını sübut edən ailə meyarlarına ulu öndərin öz münasibəti, öz yanaşması olmuşdur. Ulu öndərimiz H.Ə.Əliyev ailə tərbiyəsində uşaqlara xüsusi diqqətlə, onlara sevgi və məhəbbətlə yanaşmağı tələb

edirdi. O deyirdi: ***"Ailə tərbiyəsi öz xarakterinə görə nadir bir haldır. Bu tərbiyə ata-ananın övlada məhəbbəti və uşaqlarında ata-anaya bu cür hissləri kimi bir mənəvi əsas üzərində qurulur..." [1, s. 25 ].***

Uşaqlara sevgi və qayğı göstərmək böyüklər üçün heç də çətin, mürəkkəb bir iş deyildir, əksinə bu çox asanlıqla başa gəlir. Bunu edən böyüklər özü də sevinir, fərəhlənir və özünü xoşbəxt hiss edir, onlar hər cür stressdən uzaq olmuş olurlar. Uşaqlar böyüklərə sevgi yaşatdıqca böyüklər xoşbəxt olurlar, böyüklərdə məşğulluq yaranır, onlara öz istəklərini necə yerinə yetirməyi öyrədir.

Həqiqi, səmimi, təmənnasız sevgi və ailə üzvlərinin bir- birinə qayğısı ilə əhatə olunmuş ailə xoşbəxt ailədir ki, belə ailədən də xoşbəxt uşaqlar, layiqli vətəndaşlar çıxır. Ailədə uşaqların düzgün tərbiyəsi həm ailə üçün, həm də cəmiyyət üçün əhəmiyyətlidir. Görkəmli pedaqoq A.S. Makarenko deyirdi ki, ***düzgün tərbiyə bizim xoşbəxt gələcəyimizdir, pis tərbiyə bizim bədbəxtliyimiz, gələcək göz yaşlarımız, əzablarımızdır [2,s.122].***

Anası tərəfindən uşağın qucaqlanması, bağrına basılması onlar arasında dəri, bədən, göz təması yaranırsa bu uşaqda xoş emosional hiss və duyğular yaradır və uşaq özünü təhlükəsiz, rahat hiss edir. Bu sevgi hissləri ilk növbədə uşağın zəkasını, ağlını, qabiliyyətlərini, istedadını gələcəkdə insanlarla düzgün rəftarını, ünsiyyətini inkişaf etdirir və tərəqqiyə sövq etdirir. Bir körpə nə qədər çox fərqli insan tərəfindən sevilərsə, toxunularsa, o qədər sürətli inkişaf edir. Uşaqlar nə qədər kiçikdirsə, onlar bir o qədər həssas və emosionaldırlar. Bu cəhətdən onlar sevgi və məhəbbəti elə onların üzünə baxanda sezə bilirlər. Hamının, xüsusilə uşaqların sevgiyə, hörmət və qayğıya, qorunmağa ehtiyacı vardır. Bu sevgi və məhəbbət onlara enerji verir, ruh yüksəkliyi yaradır və fəaliyyətlərinə qüvvətli stimullaşdırıcı təsir göstərir.

Uşaqlar bir çox hallarda hiss və duyğularla, intuisiya ilə hərəkət edirlər. Deyə bilərik ki, uşağa sevgi, hörmət, məhəbbət hissləri, hörmət və qayğı nə qədər çox olarsa uşaq bir o qədər sağlam, tərbiyəli, gümrah və normal böyüyəcəkdir.

Uşağın təlabatları içində ən çox tələbat sevgiyə və ona

göstərilən qayğı və hörmətədir. Bundan sonra onun başqa tələbatları - yemək, içmək, geymək və s. gəlir.

*Uşaqlara sevgi və hörmət daha çox böyüklərin ünsiyyəti vasitəsilə həyata keçrilir. Ünsiyyət şəxsiyyətin inkişafında və formalaşmasında mühüm rol oynayır. Bir fəaliyyət növü kimi ünsiyyətin işgüzar əsası, həm fəallığı təmin edir, həm yaradıcı imkanları inkişaf etdirir, həm də ümumi məqsədə nail olmaq üçün əsas stimullaşdırıcı amil olur. Ən çətin şəraitdə deyilən bircə kəlmə söz belə insanda ruh yüksəkliyi yaradır, ona stimul verir və onda müsbət emosiyaların baş qaldırmasına, nəcib əxlaqi keyfiyyətlərin yaranmasına motivasiya edir. Burada əsl məsələ hər sözdən yerində istifadə etmək, bununla da stimullaşdsırıcı, motivasiayedici ünsiyyətə diqqət yetirilməli və üstünlük verilməlidir.*

*Ünsiyyət şəxsiyyətin formalaşmasına, tərbiyəsinə qüvvətli təsir göstərir. Demək olar ki, şəxsiyyətin təşəkkülü və inkişafı qarşılıqlı hörmətə əsaslanan ünsiyyət prosesində həyata keçirirlir. Müsbət, sevgi və hörmətə əsaslanan ünsiyyət sayəsində insanda inkişafa tərəqqiyə stimul yaranır və şəxsiyyət keyfiyyətcə dəyişir, onun hərtərəfli, ahəngdar inkişafı mümkün olur ki, o da müəyyən ictimai vəzifəni layiqincə yerinə yetirir, sosial rolu ifa edir, zəruri rəftar və davranış normalarına, praktik fəaliyyət vərdişlərinə yiyələnir, ətraf aləmə fəal surətdə təsir göstərir və həyatda fəal mövqe tutur.*

Unutmayaq ki, sevgi və hörmət üzərində qurulan təlim və tərbiyə ən yaxşı tərbiyə metodu hesab edilərək yetişən nəslin inkişafında, həyata hazırlanmasında ən yaxşı stimulaşdırıcı amildir. Yaşadığımız Dünyanı sevgi qurtaracaq.

**Ədəbiyyat**

1.Əliyev H.Ə. Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri/ Bakı, 17-27 aprel, 1979-cu il/ Xalq, 30 aprel, 1979.
2. A.S. Makarenko. Seçilmiş əsərləri. Bakı: Maarif, 1983.

# ÜMUMMİLLİ LİDER, DAHİ ŞƏXSİYYƏT

***Xəyalə Sərdar qızı Ramazanova***
***Cəlilabad rayon Uzuntəpə kənd R.Hüseynov adına***
***2 saylı tam orta məktəbin biologiya müəllimi***
***xeyaleramazanova88@gmail.com***

Dünya liderləri içərisində öz xüsusi imzasını dünyaya bəyan edən, Azərbaycanı dünyaya tanıdan, Türk dünyasının sevimli lideri, dahi şəxsiyyət - Ulu Öndər Heydər Əliyev olmuşdur. Dünyanın tanınmış liderləri Heydər Əliyevi – "Dünya lideri", "Dahi şəxsiyyət", "Böyük siyasi xadim", "Türk dünyasının sevilən lideri" adlandlrmışlar. "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ulu öndəır Heydər Əliyev haqqında demişdir: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq".

Müstəqil Azərbaycan Respublikasının qurucusu, memarı Heydər Əliyevin ürəyi Azərbaycanla hər zaman döyünmüşdür. Ona görə biz Heydər Əliyev irsi olaraq Azərbaycan deyəndə ulu öndərimizi göz önümüzə gətiririk! Ulu öndərimiz hər zaman Azərbaycan xalqının inkişafı, rifahı və tərəqqisi üçün çalışmışdır. Biz bu günki sabit müstəqilliyimizi, azadlığımızı, demokratik, humanist bir ölkədə yaşamağımızı və qələbələrimizin rəhninin təməlini dahi şəxsiyyət, ulu öndər Heydər Əliyev dühasında görürük.

Bu gün çiçəklənən, qüdrətlənən, qələbədən- qələbəyə gedən Azərbaycanı multukultural, tolerant ölkə kimi dünyaya tanıdan Heydər Əliyev ideyaları olmuşdur.

Heydər Əliyevin Azərbaycan xalqı üçün etdiklərini bir-bir sadalamaqla bir kitaba, dəftərə sığışdırmaq qeyri mümkündür. Çünki bütöv irs olaraq Azərbaycan dövlətinin varlığı Heydər Əliyevlə bağlıdır.

Heydər Əliyev siyasi rəhbər, humanist dövlət qurucusu, tarix yazan və tarix yaradan dahi şəxsiyyətdir. Heydər Əliyev XX əsrin dünya lideridir. O qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam"! Hər hansısa dünya lideri öz milliyyəti və xalqı ilə ağız dolusu ilə belə fəxr edirəm kəliməsini işlətməmişdir. Bunun əsasını dahilik, liderlik, yüksək mənəvi keyfiyyətlər, ən əsası isə vətənpərvərlik hissləri tutur..Dahi şəxsiyyət Azərbaycan xalqının keçmişi, bu günü, gələcəyi ilə hər zaman öz işlərini mükəmməl etməyə çalışmışdır. Onun uzaq görən siyasəti nəticəsində biz bu gün müstəqil,azad, suverən bir ölkəyik.

Öz valideyininə layiq bir övlad olmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Ulu Öndər Heydər Əliyev irsini, siyasi kursunu uğurla davam etdirən ölkəmizin Prezidenti, müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti, "Dəmir yumruğu", xalqın birliyi, ordumuzun şücaəti, fədakarlığı və vətənpərvərliyi sayəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində işğaldan azad oldu. Dahi şəxsiyyətin varisi, müdrik davamçısı dünyaya qalib bir sərkərdə, müzəffər komandan kimi tanındı.

Bu gün Heydər Əliyev ənənələrindən irəli gələn pedaqoji fəaliyyətimizə, əməyimizə, təhsilimizin inkişafına göstərilən diqqət və qayğı bizi daha da ruhlandırır. Dahi rəhbərin zəngin nəzəri irisndə təhsil, mənəviyyat, şəxsiyyətin hərtərəfli ahəngdar inkişafı məsələləri, xüsusilə müəllimə hörmət, diqqət və qayğı əsas yer tutur. Dahi rəhbər deyirdi***: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".*** Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmışdır. Ulu öndər, dahi rəhbərin həyat və fəaliyyəti mənəvi zənginliyi, əxlaq və əqidə saflığı, vətənə, xalqa sadiqliyi, fədakarcasına çalışması gənc nəsillərə nümunədir.

# YENİYETMƏLƏRİN AİLƏ TƏRBİYƏSİNDƏ SOSİAL AMİLLƏRİN ROLU

***Nərminə Seyfəl qızı Mirzəliyeva***
***BDU-nun Disertantı***
***mirzaliyevanarmina95@gmail.com***

Yeniyetmə ailədə sosial münasibətlərə daxil olur, onların vasitəsilə insan, dünya, mənəvi sərvətlər haqqında təsəvvürlərə və anlayışlara yiyələnir, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir. Ailə üzvləri arasında qarşılıqlı münasibətlərin yaranması və bu münasibətlərin obyektiv qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Ailədə ata-ana, ana-uşaqlar, ata-uşaqlar, gəlin-qayınana, bacı-qardaş, bacı-bacı, qardaş-qardaş arasındakı normal münasibətlərin hamısı böyük tərbiyəvi əhəmiyyətə malikdir. Yeniyetmə yaşa dolduqca onun münasibətlər sistemi şaxələnir və daha da mürəkkəbləşir. Yeniyetmə tədricən ailə münasibətləri normalarına yiyələnir. Onda "yaxşı nadir, pis nədir?" haqqında təsəvvürlər formalaşır. Yeniyetmənin motivasiya sahəsində köklü dəyişikliklər əmələ gəlir. Özü haqqında təsəvvürləri formalaşdıqca, uşağın davranış və rəftarı da dəyişir. Yaşlılarla və yaşıdları ilə ünsiyyət şəraitində yeniyetmənin xarakteri formalaşmağa başlayır. Bu məqsədlə də valideynlərlə yeniyetmələr arasındakı münasibətlər həlledici əhəmiyyət kəsb edir. Bir tədqiqatın nəticələrinə müraciət edək. Psixoloqlar kollektivdə öz davranış və rəftarı ilə bir-birindən kəskin surətdə fərqlənən şagirdləri iki qrupa ayırmışlar. Birinci qrupa özünün kollekivçiliyi, məsuliyyət hissi, aktivliyi, özünə tənqidi yanaşması və s., ikinci qrupa isə əks keyfiyyətlərlə fərqlənən uşaqları daxil etmişlər. Bundan sonra psixoloqlar həmin uşaqların valideynləri ilə münasibətlərinin xarakterini müqayisəli sürətdə öyrənmişlər. Məlum olmuşdur ki, birinci qrupa daxil olan uşaqların valideynləri onların hissləri ilə yaxından maraqlanır, onlarla təmkinlə rəftar edir, özlərinin asudə vaxtlarını onlarla birlikdə keçirir, onların mənəvi inkişafına təsir göstərirlər. Beləliklə, tədqiqatın nəticəsi aydın göstərir ki, valideynlərin uşaqlarla münasibətləri nəinki

məktəbəqədər və kiçik məktəbli yaşı dövrlərində, həm də yeniyetməlik və gənclik yaşı dövrlərində da onların bir şəxsiyyət kimi inkişafının başlıca əsasını təşkil edir. Qeyd etmək lazımdır ki, ailənin yeniyetməyə təsirinin öyrənilməsində müxtəlif yönümlər özünü göstərir. Bir qayda olaraq valideynlər öz övladlarının inkişafı məqsədilə təlim-tərbiyə prosesini üç əsas və bir çox prinsiplər üzərində qururlar: - Himayə etmək prinsipi; - Azadliq prinsipi; - İntizam prinsipi. Tədqiqatçıların fikrincə bu üç prinsip bir-birilə ziddiyət təşkil etmir, bir-birini tamamlayır va hər bir yeniyetmə şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Çünki, uşaq yalnız azad, təhlükəsiz bir şəraitdə əminliklə addım atır, cəsarətli olur, təşəbbüskarlıq nümayiş etdirir. Bu cür inkişaf isə məhz nizam-intizam prinsipinin tətbiqi sayəsində mümükün olur va yetkin bir şəxsiyyətin formalaşması ilə nəticələnir. Yeniyetmələr cəmiyyətin adət-ənənəsini, dəyərlərini, sosial normaları cəmiyyətdəki insanlarla əlaqə vasitəsi ilə, hər şeydən əvvəl isə ailə üzvlərindən öyrənirlər. Bu proses az-çox valideynin uşaqlara, yeniyetmələrə rəsmi göstərişi və həmçinin valideynlər tərəfindən uşağın rəftarına nəzarət etmək məqsədi ilə cəzalandırılması və mükafatlandırılması haqqında qəbul etdikləri tədbirlər vasitəsi ilə həyata keçirirlər. Uşaqlar ətrafdakıların rəftarlarını müşahidə edir və onları təqlid edirlər və öyrənirlər. Bununla yanaşı qeyd etmək lazımdır ki, ilk vaxtlar uşaqlarda valideynlərinə qarşı sonsuz bir güvən mövcud olur. Buna gora da valideynlərin yeniyetmələrə hərtərəfli təsir gücü vardır. Valideynin təsiri müəyyən dərəcədə valideynin övladları ilə ictimai əlaqələrinin intensivliyindən və dominantlıq səviyyəsindən asılıdır. Görkəmli fizioloq A.Arşavski uşağın ailə qayğısından məhrum edilməsinin onun şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərməsi qənaətinə gəlir. Alimin rəyinə görə, uşağın dünyaya fiziki və mənəvi sağlam gəlməsi valideynlərin bir-birinə qarşılıqlı məhəbbəti və övladın dünyaya gəlməsinə münasibətindan də asılıdır. A.Arşavskinin fikrincə, yetimlik valideynlər öləndə və uşağın tərbiyəsini dövlət öz üzərinə götürdüyü andan deyil, valideynlər və ailənin digər üzvləri tərəfindən doqquz aydan sonra dünyaya gələcək insanı taleyin ən qiymətli neməti kimi deyil, ağır yük əzab-əziyyət kimi qəbul edildiyi andan başlayır. Xeyirxah uşaqlar valideynlər tərəfindən dünyaya

gəlişi səbirsizliklə gözlənilən uşaqlardır. Ailənin yeniyetmənin inkişafina tasirini müəyyənləşdirərkan ilk növbəda tərbiyə quruluşuna diqqət yetirmək lazımdır. Məlumdur ki, yeniyetmənin psixi inkişafında ailənin rolu tərbiyədən başlayır. Tərbiyə prosesinin ardıcıl hayata keçirilməsindən asılı olaraq yeniyetmənin psixi inkişafının özünəməxsus xüsusiyyətləri var. Tərbiyə üsulları içərisində avtoritar tərbiyə üsulu da mühüm əhəmiyyət kəsb edir. Bu üsulla valideyn öz ailəsində xüsusi təlim-tərbiyə üsullan, qayda-qanunları yaradır və bu qayda-qanunlar ailədə hökmranlıq edir. Yeniyetmə ailədə qoyulmuş qayda-qanunları pozması hallarında isə cəzalandırılır. Bu tərbiyə üsulu onun müstəqilliyinin əlindən alınması ilə yanaşı uzlaşma olunmadıqda çox mənfi nəticələrə gətirib çıxarır. Digər tərəfdən isə bu tərbiyə üsulunda yeniyetmənin arzu olunan davranışa təşviq olunmasına və həvəsləndirilməsinə bir o qədər əhəmiyyət verilmir. Ailədə yeniyetmənin tərbiyə olunmasında liberal tarbiyə üsuluna da rast gelinir. Bu tərbiya üsulu avtoritar tərbiyə üsulunun tam əksidir. Ailədə uşağın təlimtərbiyəsi, tadrisi üçün xüsusi qayda-qanun qoyulmur. Onlar ailədə ailədə hökmranlıq edən qayda-qanunları pozarkən cəzalandırılmır və arzu olunan, tələb olunan davranış və raftarlara görə də mükafatlandırılmırlar. Bu tərbiyə üsulunda nizam-intizam, yəni cəzalandırma və rəğbətləndirmə qayda-qanunları münasib şəkildə mövcud deyildir. Əgər yeniyetmənin davranış və rəftarı böyüklər tərəfindən dəstəklənərsə özünü daha inamlı hiss edir. Yeniyetmənin valideyin va müəllimlər tərəfindən təqdir olunması onun bacarıq və qabiliyyətinin çiçəklənməsinə səbəb olur, onda ləyaqət hislərini daha da möhkəmləndirir. Faktlar göstərir ki, uşaqlar özlərini valideynlərinə oxşadırlar, onlardan öyrənirlər və onları təqlid edirlər. Məhz bu təmaslar vasitəsi ilə yeniyetmə cəmiyyətin onlardan gözlədiklərini başa düşürlər. Bu əlaqələr fonunda əsasən fərdin şəxsiyyəti və əxlaqı formalaşır. Bundan əlavə məlumdur ki, yeniyetmə məhz ictimai əlaqələr vasitəsi ilə ətraf mühiti və necə hərəkət etməyi öyrənirlər. Onların zehni inkişafı güclənir. Uşağın bir şəxsiyyət kimi formalaşmasında onun yaşadığı camiyyətin davranış normalarına yiyələnməsi xüsusi önəm daşıyır. A. Bakıxanov yazırdı: "Hər kəs hər hansı bir cəmiyyət içərisində yaşarsa o, cəmiyyətin

əxlaqını mənimsər, yaxud da cəmiyyatə zidd olmaqla öz zərərini və ona yaxınlaşmaqda xeyrini güdər, özünü onlara bənzədər. Qeyd etmək lazımdır ki, ailənin yeniyetmənin psixi inkişafına təsiri mövcud ailələrin xarakterindən asılı olaraq hayata keçirilir. Ailələrin quruluşu, tərkibi fərqlidirsə ailə üzvlərinin təsiri də o qədər fərqli olacaqdır. Yəni bir geniş ailədə ola bilsin ki, onun ulu babalarının övladlara böyük təsiri olsun. Lakin bəzi monoqram ailələrdə bu təsir çox azdır. Ümumiyyətlə, ailə birliyi vasitəsilə ailə dəyərləri, davranış və əxlaq normaları. müxtəlif sosial rollar və adətənənələr bir nəsildən başqa bir nəslə keçirilir. Ailə uşağın ictimai əlaqə mərkəzidir. Adətən, yeniyetmə ailə şəraiti daxilində valideyninin tərbiyə üsulları istiqamətində kollektiv həyat tərzinin tələblərini öyrənir. Valideynin seçdiyi uğurlu tərbiyə üsulu yeniyetmədə yüksək səviyyəli əxlaqın yetişməsinə səbəb olur. Aparılmış tədqiqatların nəticələrinə əsasən qeyd etmək olar ki, yüksək mənəvi keyfiyyətlərə malik olan valideynlərin övladlarının da əxlaqı, iradəsi yüksək səviyyədə olur. Bu isə yeniyetmələrə daha da müstəqil və yaradıcı olmağa imkan verir. Həmçinin, belə valideyn öz uşaqlarının hüquq və əqidələrinə hörmət edir, onlara müstəqil və yaradıcı olmağa şərait yaradırlar. Hətta onların ailənin bəzi qəraraları qəbul etməsində iştirak etməsinə də imkan yaradırlar. Ona görə də əlverişli tərbiyə üsulunun seçilməsi üçün səy göstərmək lazımdır. Çoxsaylı tətqiqatlar göstərir ki, güclü iradə, əxlaqi keyfiyyətlər təhsil uğursuzluqlarının, öyrənməklə əlaqədar problemlərinin, cinayət törətməyin, narkotik maddələrdən sui-istifadə hallarının qarşısını alır. Valideynin davranışı, təfəkkür tərzi yeniyetmənin rəftarının formalaşmasında çox əhəmiyyətlidir. Valideynlə övlad arasında arzu olunan əlaqələrin olması yeniyetmədə sevincli, şadlıq halları yaradır va onda narahatlığı minimum həddə endirir. Valideynlə övlad arasında məhəbbət əlaqəsinin olması bəyənilən yüksək əlaqə göstəricisidir. Etimad, təhlükəsizlik, arxayınlıq kimi yüksək göstəricilər yeniyetmələri valideynləri ilə məsləhətləşməyə, onlara müraciət etməyə hazırlayır, valideynlə yeniyetmə arasında təqdir edilən, bəyənilən əlaqə hesab olunur. Arzu olunan, müstəqil əlaqələr ailə mühitində elə əlverişli şərait yaradır ki, yeniyetmələr onun sayəsində tam azad şəkildə öz istədiklərini ifadə edərək elə bir fərdi inkişafa nail olurlar ki, məhz bu inkişaf sayəsində

həyat və onun müxtəlif amilləri ilə uyğunlaşa bilirlər, rəğbətlə, arzu və istəklə ailənin məsuliyyətini qəbul edirlər. Digər bir tərəfdən isə uşağı ilə düzgün və arzu olunan münasibətə malik olmayan valideyn yeniyetmələrin öz başına olmasına səbəb olur. Bir sıra hallarda ailə üzvlərinin narkotik maddə qabul etməsi uşaqların psixi inkişafını sarsıdır, ailənin təməlini silkələyir. Bu cür ailələrdə uşaqlar öz uşaqlığından başlayaraq ailəni qorumaq üçün mümkün olan hər şeyi edirlər. Ailənin mövcud olması üçün müxtəlif rolları öz öhdələrinə götürürlər. Bu qərar qəbul etmə seçim deyil, aşkar va gizli ehtiyaclar vasitəsi ilə ailə nizamı onlara təhkim olunur. Valideyn tərəfindən spirtli içkilərin qəbul edilməsi də yuxarıda qeyd olunan halları yaradır. Alkoqol qəbul edən ailələrdə valideynin stressi ilə ailə ziddiyyətləri, ailə pozğunluqları uşaqlar üçün problemlər yaradır. Belə vəziyyət uşaqların psixi inkişafını ləngidir, ya da davranışında asosiallığa yol verməsinə zəmin yaradır. Fərd ailədə böyüyür, inkişaf edir, onun şəxsiyyətinin əsasları, uşaqlıqda psixoloji sağlamlığı həmin ailə mühitində formalaşır. Professor B.A.Əhmədov yazır: "Şəxsiyyət - şüura malik olan, ətraf aləmi dəyişdirmək üçün şüurlu fəaliyyət göstərən adam deməkdir, aktiv fəaliyyətin subyektidir" Qeyd olunduğu kimi ailənin şəxsiyyətə və onun psixoloji xüsusiyyətlərinə təsiri çox genişdir və davamlıdır. Yeniyetmələr davranış normalarını, baxışları, etiqadları öz dəyərlərinin əksəriyyətini ailədə atadan, anadan, bacı-qardaşdan və s. öyrənir. Bu öyrənmələr bir haşa va dolayı yolla onların psixoloji sağlamlığına tesir göstərir. Ailə yeniyetmələrin psixoloji sağlamlığına ailə mühitində xarici - dünya mühitinə məktəbə, yaşıdlarına və nəhayət cəmiyyətə daxil olması ilə təsir edir və xarici mühitdə daha çox özünü biruzə baş verir. Aparılmış tatqiqatlar göstərir ki, yeniyetmənin tərbiyəsində və əxlaqi inkişafında müxtəlif amillərin inkişaf dərəcəsi müxtəlifdir. Uşaqların pisixoloji inkişafinin əsasən iki mexanizmi vardır: mənimsəmə və özünü bənzətmə mexanizmi. Mənimsəmə mexanizmində uşaq bəzi əxlaqi düşüncə, əqidə, arzu və istəkləri öz-özünə qəbul edir və ya mənimsəyir. Özünü bəzətmə prosesi zamanı isə bir çox aşkar suallar, xüsusiyyətlər, psixoloji reaksiyalar va uşağın təhrikedici xüsusiyyətləri, sosial öyrənmə və özünə verilmiş suallar nəticəsində inkişaf edir. Valideynlərin əxlaqca,

mənəviyyatca təmiz olduğu ailələrdə uşaqlar da təmiz axlaqlı, yüksək mənəviyyatlı böyüyürlər. O ailələrdə ki, valideynlər halal əməklə dolanır, ata da, ana da zəhmətkeşdir, uşaqlar da erkən yaşlarından zəhmətə alışır, sadə, səmimi və həqiqətpərəst insanlar kimi böyüyürlər. Qeyd etmək lazımdır ki, uşağı erkən yaşlarından zəhmət və ləyaqət yoluna istiqamətləndirmək həmişə pedaqogikanın əsasını təşkil etmişdir. Bəzi valideynlər öz uşaqlarını yerli-yersiz təriflməklə korlayırlar. Belə valideynlər ətrafdakıları inandırmağa çalışırlar ki, onların uşağı hamıdan ağıllıdır, hamıdan istedadlıdır, hamıdan gözəldir. Onlar belə uşağı əlini ağdan-qaraya vurmağa qoymur, onun nazı ilə oynamağı, hər şıltaqlığını ödəməyi özlərinin valideynlik borcu hesab edirlər, hətta bununla öyünürlər də. Nəticədə bu borcu almağa çalışan uşaq böyüdükcə hamını özünə borclu bilir, özünü nəinki valideyn qarşısında, hətta vətən, xalq qarşısında borclu saymır, ətraf mühitə etinasız və laqeyd yetişir. Əlbəttə, heç bir valideyn öz uşağına şüurlu surətdə pis keyfiyyətlər aşılamaz. Lakin bir çox valideynlər özləri belə hiss etmədən öz çatışmayan, qüsurlu və eyibli cəhətlərini uşaqlarına aşılayırlar. Ailədə valideyn-övlad münasibətlərinin səmərəli olması, qarşılıqlı hörmət va anlamaya, müsbət, emosional ab-havaya əsaslanan sağlam psixoloji mühit yeniyetmələrin şəxsiyyət kimi formalaşmasına əlverişli şərait yaradır. Əksinə, lap kiçik yaşlarından valideynləri ilə kifayət qədər ünsiyyat imkanına malik olmayan uşaqlar sonralar çox vaxt öz valideynlik vəzifələrini icra etməkdə çətinlik çəkirlər. Valideyn nüfuzu övlad üçün çox əhəmiyyətli olduğundan onun həyata, cəmiyyətə, mənəvi sərvətlərə, ictimai hadisələrə münasibəti, şəxsi keyfiyyələri uşağın inkişafına, şəxsiyyət kimi formalaşmasına olduqca böyük təsir göstərir. Valideyn-övlad münasibətləri və yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolu çox əhatəli və olduqca mürəkkəb bir mövzudur. Onun yerinə hansısa bir aspektdən öyrənilməsi məqbul oluna bilmaz. Həmin problemin öyrənilməsinə kompleks yanaşılması və burada mövcud olan ümumi və spesifik cəhətlər aşkar edilməlidir. Pedaqoji və psixoloji ədəbiyyatda ailə tərbiyəsi, yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolunun müxtəlif tərəflərini əhatə edə biləcək zəngin material vardır. Həmin materialların ayrılması və psixoloji aspektdən təhlil edilməsi valideyn-övlad münasibətlərinin

lazımi istiqamətdə formalaşmasına təsir etmək baxımından çox faydalı ola bilər. Onu da qeyd etmək lazımdır ki, kitablarda valideynlərin yeniyetmələrlə münasibət qurmaqda onlara kömək edə biləcək konkret şablon münasibətlər tipi tapması mümkün deyildir. Çünki har bir ailənin öz durumu, öz psixoloji atmosferi vardır və hər bir insan fərdi xüsusiyyətlərə malikdir. Uşaqlarla problem bağça yaşlarından başlayaraq, müxtəlif yaşlarda meydana gəlir. Uşağın da öz arzusu, istəyi, cəhdləri, məqsədi, bir sözlə, öz həyat mövqeyi vardır.

## ÇƏTİN TƏRBİYƏ OLUNAN YENİYETMƏLƏRLƏ APARILAN KORREKSİYA İŞLƏRİ

***Ayşən Namiq qızı Orucova***
***Bakı Dövlət Universiteti***
***aysenoruc01@gmail.com***
***P.ü.f.d: V.M.Çıraqova***

Azərbaycanda yeniyetmələrin sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Ümummilli lider Heydər Əliyev Azərbaycan uşaqlarını ən əzizi, doğması hesab edərək demişdir: "*Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın böyük gələcəyi Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır*". Ümumilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə müstəqil dövlətin qurulması və inkişafı yönümündə xalqın maraqlarına xidmət edən siyasət əsas prioritetə çevrildi. Ölkənin bütün sferalarında, o cümlədən humanitar düşüncə sistemində gedən yeni təfəkkür prosesləri, azərbaycançılıq ideologiyasının qabardılması, milli məfkurə xəttinin önə çəkilməsi, uşaqlara qayğı və diqqətin artırılması, gənc, savadlı nəslin formalaşmasının əsas qayə təşkil etməsi müstəqillik təntənəsinin nəticəsi idi. Fondun uşaqlara göstərdiyi qayğı artıq beynəlxalq aləmin diqqət mərkəzindədir.

Azərbaycan cəmiyyətinin inkişafındakı mövcud vəziyyət həm iqtisadi, siyasi və sosial-mədəni sferalarda müsbət tendensiyalar, həm

də mənfi tendensiyalarla müşayiət olunur. Mənfi tendensiyalardan biri də əhalinin müxtəlif kateqoriyalarının davranışında kənarlaşmaların artmasıdır. Deviant davranış problemi şəxsiyyətin inkişafının yeniyetmə mərhələsi kimi yaş kateqoriyasında ən kəskindir. Bu dövrə çox vaxt "keçid", "çətin", "kritik" yaş deyilir. Təəssüf ki, bu gün cəmiyyətdə bu sözlər adi hala çevrilir. Uşaqlıqdan yetkinliyə keçid illərində şəxsiyyətin inkişafının nə qədər çətin olduğunu, valideynlər və müəllimlərin uşağa münasibətdə düzgün davranış xəttini tapmasının uzun proses olduğunu vurğulamaq vacibdir. Yeniyetməlik dövrünün hüdudları məktəbin orta siniflərində olan uşaqların təhsili ilə təxminən üst-üstə düşür və 10-11 yaşdan 14-15 yaşa qədər olan yaşları əhatə edir.[2,s 65]

Onun spesifik xüsusiyyəti ondan ibarətdir ki, bir tərəfdən əqli inkişafın xarakteri səviyyəsi baxımından bu, uşaqlığın tipik dövrüdür, digər tərəfdən, o, irəliyə doğru inkişaf edən, mürəkkəbliyi ilə seçilən fərddir. O, həqiqətən yeni münasibətlər, ünsiyyət formalarına daxil olur, onların təbiətini anlamağa çalışır, öz müqəddəratını təyin edir.

Yeniyetmələrin hələ də kifayət qədər yetkin və kifayət qədər sosial cəhətdən formalaşmamış bir insandır, bu, ən vacib xüsusiyyətləri və keyfiyyətlərinin inkişafının xüsusi mərhələsində olan bir insandır. Bu mərhələ uşaqlıq və yetkinlik arasında sərhəddir. Şəxsiyyət hələ yetkin sayılacaq qədər inkişaf etməmişdir və eyni zamanda o qədər inkişaf etmişdir ki, o, şüurlu şəkildə başqaları ilə münasibət qura bilir, öz hərəkətlərində və hərəkətlərində sosial norma və qaydaların tələblərinə əməl edir.[3,s 66]

Bəzi yeniyetmələrin davranışları normaların pozulması, uyğunsuzluğu ilə diqqəti cəlb edir, alınan məsləhət və tövsiyələr ailənin, məktəbin və cəmiyyətin normativ tələblərinə uyğun gələnlərin davranışından fərqlənir. Çox vaxt deviant davranış uşaqların və yeniyetmələrin çətin həyat şəraitinə məcburi reaksiyasıdır. O, norma və xəstəlik astanasındadır və ona görə də təkcə müəllim deyil, həm də həkim tərəfindən qiymətləndirilməlidir.

Şübhəsiz ki, keçid dövründə bir çox problemlər var: yeniyetmələrdə tədricən özünə şübhə artır, narahatlıq yaranır, dostlar, müəllimlər və valideynlər üçün öz əhəmiyyətinə dair şübhələr yaranır. Onlar "incidilmiş, səhv başa düşülən" mövqeyində

"ilişməyə" hazırdırlar, çətin vəziyyətlərdən yanlış yollarla çıxış yolu axtarmağa, bəzən sağlamlıq üçün təhlükəlidirlər. Çox vaxt belə yeniyetmələr heç bir təhlükənin olmadığı bir vəziyyətdə belə özlərini qorumaq üçün aqressiv reaksiyalara malikdirlər. Amma aydın olan odur ki, yeniyetmə və ya uşağın hər hansı problemli davranışının arxasında motivlər dayanır.

Xarakter qüsurlarının yaranmasına müəllimlərin, yeniyetmələrin yaş xüsusiyyətlərini nəzərə almaması da təsir göstərir. Deməli, böyüyən fərdin təmin edilməmiş ehtiyacları, ən azı, böyüklər kimi görünməsi, ona əsassız uşaq kimi yanaşması çox vaxt inadkarlıq, şıltaqlıq, tənbəllik, kobudluq və s.-nin yaranmasına və möhkəmlənməsinə səbəb olur. Bəzən daha ciddi deformasiyalar baş verir. Böyüklər tərəfindən onun xarakterindəki çatışmazlıqların çox qiymətləndirilməsi və ya düzgün qiymətləndirilməməsi də yeniyetməyə mənfi təsir göstərir. Bütün bunlar ortaya çıxan insanın özünə inamını, özünü tənzimləmə qabiliyyətini sarsıdır ki, bu da etibarsızlıq və təklik hissi ilə nəticələnir.

Məhz bu fərdi deformasiyaları olan uşaqlar mürəkkəb davranışlı yeniyetmələr kimi təsnif edilir, eyni zamanda "təhsildə çətinlik" artması ilə xarakterizə olunan yeniyetməlik böhranından danışırlar, bu da təhsil almış insanın pedaqoji təsirə qarşı toxunulmazlığı və müqaviməti deməkdir. Bu müqavimətin səbəbi çox vaxt şəxsiyyətin müsbət inkişafda geri qalmasıdır. Buradan nöqsanların, xarakterdəki mənfi xassələrin, davranışda düzgün olmayan münasibətlərin, qeyri-sağlam ehtiyacların və s. Bu problemlərin həlli, şübhəsiz ki, həm ailə və məktəb təhsili şəraitinin yaxşılaşdırılmasına, həm də təhsili çətin olan insanın şəxsiyyətinin fərdi psixoloji və pedaqoji korreksiyasına yönəlmiş bütün kompleks profilaktik tədbirləri əhatə edir. [1,s 79]

Yenidən tərbiyə prosesi, eləcə də təhsil prosesi, ilk növbədə, yeniyetmənin fərdi psixoloji xüsusiyyətlərini nəzərə almaqla, onun meydana gəlməsinə səbəb olan konkret halları və əlverişsiz təhsil şəraitini nəzərə alaraq qurulmalıdır. Buna görə də, pedaqoji təcrübənin hər bir halı üçün hazır "resept" vermək çox çətindir, lakin yeniyetmələrə sosial və pedaqoji yardımın bəzi ümumi üsullarını formalaşdırmaq mümkündür. Məsələn, müəllim üçün çətin tərbiyə

olunan yeniyetməni qəti şəkildə qınamaq, "onunla danışmaq faydasızdır, onsuz da yaxşı heç nə olmayacaq", "onsuz da həbsxanaya düşəcək" kimi son tutqun proqnozlar vermək yolverilməzdir. Belə bir yeniyetmənin davranışında müsbət cəhətləri görmək bacarığı və bu yaxşılığa arxalanmaq uğurlu sosial-pedaqoji yardımın ən mühüm şərtidir. Əhəmiyyətli bir texnika, ilk növbədə peşəkar oriyentasiya, gələcək peşə seçimi ilə əlaqəli bir yeniyetmənin gələcək məna-həyat istəklərinin formalaşmasıdır. Təhsil almaqda çətinlik çəkən, sosial və pedaqoji cəhətdən diqqətdən kənarda qalan, məktəb fənlərindən xroniki uğursuzluqla üzləşən, tez-tez ümidsizliyə qapılan, özlərinə inanmağı dayandıran, gələcəyini görməyən, bir gün yaşamaq, bir anlıq əyləncə və həzz alan yeniyetmələrin cinayət məsuliyyətinə cəlb olunması üçün çox vaxt çox ciddi zəmin yaradır. Odur ki, müxtəlif səbəblərdən işini yaxşı bacara bilməyən yeniyetmələrin cəmiyyətə faydalı vətəndaş kimi yetişəcəklərinə inamını itirməmələri, onların öz imkanlarına, meyllərinə uyğun peşə seçiminə köməklik göstərmək lazımdır. [5,s 37]

Tədrisdə çətinliyin əsasını təşkil edən səbəblərin dərk edilməsi, psixi funksiyaların elmin əsaslarını mənimsəməyə kifayət qədər hazır olmamasının nəzərə alınması – bu kateqoriyadan olan şagirdlərin təhsilin məzmununun müəyyən edilməsində riayət edilməli olan prinsiplərdir. İnkişaf variantlarının əhəmiyyətli müxtəlifliyi və proqnostik heterojenlik bir sıra səbəblərlə bağlıdır. Onların arasında ilk növbədə aşağıdakı şərtləri qeyd etmək lazımdır: [4,s 76]

1. Tələbə inkişafının sosial fərdi vəziyyəti. Buraya onun ünsiyyət dairəsi və münasibətlərin xarakteri, məsələn, "böyük-şagird", "müəllim-şagird", "şagird-şagird" və s.

2. Çətin tərbiyə olunan yeniyetmənin inkişafına aşağıdakı amillər mənfi təsir göstərir: ətrafdakı böyüklər və digər uşaqlarla ünsiyyətin olmaması, bunun nəticəsində ünsiyyətin əsas fəaliyyət növü olduğu dövrlərdə emosional və idrak proseslərinin inkişafı stimullaşdırılmır.

3. Aparıcı fəaliyyətin, eləcə də verilmiş yaşa səciyyəvi olan digər fəaliyyət növlərinin (oyun, öyrənmə, iş təcrübəsi və s.) formalaşması. Hər yaş mərhələsində aparıcı fəaliyyət növünün "təyin

edilməsini" və dəyişdirilməsini təmin edən yaşına uyğun tam hüquqlu fəaliyyətin olmaması çətin yeniyetmənin inkişafına mənfi təsir göstərir.

Beləliklə, çətin tərbiyə olunan tələbələrin inkişafı üçün potensial imkanların reallaşdırılması, bir tərəfdən, ümumi sosial rifahdan, ətrafdakı böyüklərin diqqətindən, digər tərəfdən, pedaqoji cəhətdən məqsədəuyğun təsirin təşkilindən asılıdır.

Məktəb mühitində çətin yeniyetmələrlə korreksiya işinin təsiri adətən aşağıdakı amillərlə müəyyən edilir: yeniyetmənin və ailənin bir mütəxəssisə kömək etmək üçün təyin edilməsi, yeniyetmənin xarakter xüsusiyyətlərini nəzərə alaraq, qeyri-adaptiv davranışın yenidən qurulması və əldə edilməsi imkanları.

Çətin tərbiyə olunan yeniyetmələrin davranışlarını düzəltməkdə ümumtəhsil məktəbinin səmərəli işləməsi üçün müxtəlif mütəxəssis qruplarının probleminin həllinə kompleks yanaşma həyata keçirilir. Müxtəlif yaş mərhələlərində inkişafda "boşluqların" müəyyən edilməsi yeniyetmənin "yetişməsi" nin ümumi mənzərəsini təqdim etməyə və təhsil müəssisələrində çalışan müxtəlif mütəxəssislərin fərdi yardım kompleksini göstərməyə kömək edir. Belə yardım komplekslərinin yaradılmasında ilk növbədə Ümumilli Lider Heydər Əliyevin, yeniyetmələrin düzgün tərbiyə olunmasında uğurlu siyasətinin nəticəsində yaradılmış və inkişaf etdirilmişdir.

Belə ki, məktəbdə çətin tərbiyə olunan yeniyetməyə fərdi yardım müəllimin, sinif rəhbərinin, psixoloqun, sosial pedaqoqun, məktəb həkiminin və s. onlar tərəfindən bilavasitə şagirdin ailəsi və onun sinif kollektivi vasitəsilə həyata keçirilən, onun yaşa bağlı sosiallaşma vəzifələrinin həllinəköməklik göstərilməsi məqsədi daşıyır. Məktəb psixoloqunun işində ən mühüm prinsip yeniyetmənin fərdi xüsusiyyətlərini, onun psixi proseslərinin inkişaf səviyyəsini, özünə inamının adekvatlığını və s. nəzərə almaqdan ibarətdir. Çətin tərbiyə olunan yeniyetmələrlə fərdi düzəliş işində bir psixoloq aşağıdakı üsullardan istifadə edir: profilaktik söhbət, müsahibə, psixoloji məsləhət, fərdi psixoterapiya, qrup psixoterapiyası. Belə uşaqlarla fərdi korreksiya işinin ən effektiv üsulu psixoloji məsləhət metodudur.

Psixoloji konsultasiya uşaq və yeniyetmələrin şəxsi

problemlərinin həlli yollarını tapmaqda onlara peşəkar köməklikdir. Bu, ilk növbədə, qeyri-standart bir prosesdir, çünki onun uzunluğu, forması, dərinliyi bir yeniyetmənin çətinliklərini həll etmək ehtiyacı və kifayət qədərliyi ilə müəyyən ediləcəkdir.

Beləliklə, çətin tərbiyə olunan yeniyetmələr problemi mərkəzi pedaqoji problemlərdən biridir. Davranış və deviant problemlərin erkən aşkarlanması, onların baş vermə mahiyyətinin sistematik təhlili, eləcə də tərbiyəvi və korreksiya işləri yeniyetmələrin cəmiyyətdən kənarlaşmasının qarşısını almağa imkan verir. Ona görə də müəllimin bu kateqoriyalı şagirdlərlə işləməsi ən çox görülən işlərdən biridir. Çətin tərbiyə olunan uşaq və yeniyetmələrin psixoloji rifahı əsasən onların ailələrinə vaxtında fərdi yardım və dəstəyin necə göstərilməsindən asılı olacaq.

Beləliklə, bütün sahələrdə olduğu kimi Azərbaycanda çətin tərbiyə olunan yeniyetmələrin inkişafı və onlara dövlət səviyyəsində dəstək olması, məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Yekun olaraq deyə bilərik ki, bu gün şagirdlərin və tələbələrin qayğısına qalaraq, inkişafı, problemi, vəziyyəti ümumiyyətlə əldə olunan son nailiyyətlər də araşdırılıb tədqiq edilməli, üzə çıxarılmalı yeni nəslə çatdırılmalıdır.

## Ədəbiyyat


1. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, 2006. s 247
2. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları.Bakı, 2000.s 367
3. Комаров К.Э. «Трудные» дети: инструкция по взаимодействию. Методическое пособие. –М.: «Генезис», 2019. –224 с.
4. Невский И.А. Учителю о детях с отклонениями в поведении. М., 1993.–203 с.4. Ольшанский В.Б. Практическая психология для учителей. -М.: Издательский центр «Академия», 2011. –157 с.

# TƏHSİLƏ YENİ YANAŞMADA ŞAGİRDLƏRDƏ GENDER AMİLİNİN NƏZƏRƏ ALINMASININ ÜSTÜNLÜKLƏRİ

***İlahə Həmzə qızı İsgəndərova***
***Bakı Dövlət Universitetinin əyani doktorantı***
***ilaheisgenderova.1000@gmail.com***

Müasir Azərbaycan təhsilinin qarşısında duran mühüm məsələlərdən biri də yüksək intellektual hazırlığa, dünyagörüşünə, ümumbəşəri və milli keyfiyyətlərə malik, əsil vətəndaşın-şəxsiyyətin yetişdirilməsidir. Gələcəkdə Avropa təhsil məkanında öz yerni tapacaq, Vətənimizi dünyada layiqincə təmsil edə biləcək yeni insanın formalaşması müasir təhsil sistemimizin əsas hədəflərindən biridir. Bizim yaşadığımız cəmiyyətdə vacib sosial amillərdən biri sayılan təhsil cinsindən asılı olmayaraq, insanlara ictimai həyatın müxtəlif sahələrində, o cümlədən idarəçilikdə iştiraka imkan yaradır və onları layiqli fəaliyyət şəraiti ilə təmin edir.

Müxtəlif amillərin təhsil və tərbiyədə gender bərabərliyinə nail olunmasına mənfi təsiri gender tərbiyəsinin və təliminin ailədən və orta məktəbdən başlanmasını zərurət kimi qarşıya qoyur. Təlim zamanı yalnız şagirdlərin intellektual səviyyəsi deyil, eyni zamanda tərbiyəsi və şəxsiyyətinin inkişafı da həyata keçirilir. Bu baxımdan gender sahəsində aparılan çoxsaylı elmi-tədqiqatlar bir daha təsdiq edir ki, təhsil prosesində təhsilalanların təkcə intellektual və sosial statusları yox, eyni zamanda cinsi mənsubiyyəti də nəzərə alınmalıdır.

Tərbiyə prosesində gender amilinin nəzərə alınması müasir dövrdə bu prosesin səmərəliliyini artırmaqla yanaşı, həm də şagirdlərin sosiallaşmasına, cinslər arasında hərtərəfli münasibətlərin yaranmasına, gələcəkdə öz cinsi identikliyini daha düzgün dərk etmələrinə, genderlə bağlı stereotiplərin aradan qaldırılmasına şərait yaradır.

Gender və təhsil ilə bağlı araşdırmalarda, müəllimin rolu danılmazdır. Uşaqların cinsiyyətə dayanan qəlib düşüncələri və gender fərqliliklərin formalaşmasında müəllimlərin də rolu vardır. Məktəb mühitinin aparıcı rolu olan müəllimlər dərsliklərdəki bilikləri

ötürərkən, uşaqların gender kodlarının formalaşmasında açar rolunu oynayır.

Eyni dərslərdə iştirak edən, eyni dərs kitabını oxuyan, eyni müəllimi dinləyən qızlar və oğlanlar fərqli təhsil alırlar. Müəllimlər oğlan tələbələrlə daha çox əlaqə qurur, onlara daha yaxşı suallar verir, daha dəyərli rəylər bildirirlər. Bu prosesdə qızlar sakitcə gözləməyi, oğlanlar isə dərs mühitinin aparıcı faktoru olmağı öyrənirlər. Beləliklə, bir otoritar rejimə mənsub insan yetişir və rol model olan müəllimlər bu məsələnin problematik hal almasına bəzən bilmədən dəstək verirlər. Dərs prosesinə daha detallı yanaşdıqda, müəllimlərin oğlan şagirdlərə qarşı daha diqqətli olduğunu, xüsusilə riyaziyyat və ya digər tətbiqi elm sahələrində onları daha çox dəstəklədiklərini qızların isə daha çox humanitar elmlərdə və ya musiqidə aktivliyə təşviq olunduğunu görə bilərik.

Müəllimlərin şagird-tələbələrdən gözləntiləri və davranış formaları da gender qəliblərinə əsasən formalaşmışdır. Qızlardan daha çox tərbiyəli, sakit, hörmətli, çalışqan, yardımsevən, itaətkar, qaydalara riayət edən və akademik olaraq bacarıqlı olmaları gözlənilir. Müəllimlər oğlan şagirdlər üçün cəsur, diqqətsiz, davakar, hərəkətli və ağıllı; qızlar üçün nizamlı, sakit, sözəbaxan, emosional, güvənilən və s. kimi sifətlərdən istifadə edirlər. Oğlan tələbələrin dərsin təbii axınına müqavimət göstərən "yersiz suallar vermə" və ya "dərsi qarışdırmağa çalışma" kimi xüsusiyyətlərinə qarşı müəllimlər daha tolerant olurlar. Müəllimlərin davranışları və qızlara qarşı münasibətləri, hərəkətləri və sözləri qızları müxtəlif sahələrdə ruhdan salır və özünə inamına mənfi təsir göstərir. Qızlar oğlanlara nisbətən akademik mühitdə daha müvəffəqiyyətlidir, öyrənmə motivasiyaları daha yüksəkdir. Ancaq sinifdə mübahisəli müzakirə, öz münasibətini açıqca ifadə etmək, şərhlər vermək məsələsinə gələndə tələbə qızları müəllimlər və ya oğlan tələbələr asanlıqla ruhdan sala, onların cəsarətlərini qıra bilər. Bu cəsarət və özgüvən əksikliyi getdikcə qızların təhsilinin inkişafına və karyera peşə seçimlərinə də neqativ yöndə təsir edir. Halbuki müəllimlərin, şagirdlərin karyera planlarında və qərarlarında əhəmiyyətli təsirləri olduğu, xüsusilə də kişilərin hakim olduğu iş sahələrini seçən qız şagirdlər üzərində motivasiyaedici və cəsarətləndirici rol oynadıqları məlumdur.

Qadınların oxumasını nə qədər çox hüquqla təsdiq etsək də, bu gün bir çox kənd və qəsəbələrimizdə orta təhsilini bitirməmiş qızlar və analar var. Ali təhsil bir məcburiyyət olmasa da, ali savadlı və orta savadlı insanlar cəmiyyətimizdə çox zaman fərqlənir. Xüsusilə də əgər bu insan bir qadındırsa, cəmiyyətin stereotipləri onun həyatını idarə etməsində daha çox ağırlıq edir və ali təhsil mühitindən kənar qalmaqla daim yenilənən dövrümüzlə ayaqlaşmaqda çətinlik çəkir. Bir çox qadınlar nəinki ayaqlaşmağa cəhd etmir, hətta həyat yoldaşları tərəfindən idarə olunmağı üstün tutaraq, şəxsi istək və arzularını qurban verirlər. Bu tədqiqat hələ də problem kimi qalan bu məsələni bir az daha aktuallaşdırır və keçmişdən bu günə olan dəyişiklərimizi ortaya qoyaraq, hələ nə qədər dəyişməli olduğumuzu nümayiş etdirir. Qız uşaqlarının təhsili ilə bağlı olan bir çox problemlər hələ kifayət qədər araşdırılmadığı üçün, sovet ideologiyası dövründə formalaşmış münasibət hələ də özünü göstərir. Qızların və oğlanların texniki peşə məktəbləri üzrə cinsə görə bölgüsündə gender disbalansı müxtəlif istiqamətlər üzrə peşə hazırlığının inkişafında labüddür. Qızlar təhsil alacaqları müəsissələrin seçimi zamanı yenə də əsasən tibbi, pedaqoji və humanitar sahələrə üstünlük verirlər. İxtisasa görə gender bölgüsündə son illərdə qızların iqtisadiyyata da meyilliyi müşahidə edilməkdədir.

Gender maarifləndirilməsi cəmiyyətdə və ölkədə ümumi rifah yaradan, demokratikliyi bərqərar edən, vətəndaşların hüquqlarını və şəxs seçimlərini tənzimləyən önəmli və atılması vacib bir addım və hədəfdir.

## Ədəbiyyat


1. Çələbiyev, N.Z. Ailə və gender psixologiyası. Dərs vəsaiti. /N.Çələbiyev, Ü.Əfəndiyeva –Bakı: ADPU, -2021, -520 s.
2. Mollayeva, E.Ə. Təlim prosesində şagirdlərin gender tərbiyəsinin imkan və vasitələri/ E.Ə.Mollayeva. –Bakı: Müəllim, -2009.- 44 s.

# AİLƏ TƏRBİYƏNİN ƏSAS MÜHİTİ KİMİ

***Nənəxanım Ağanur qızı Cavadova***
***BDU-nun II kurs magistrantı***
***nanakhanimjavadova@gmail.com***

Ailə sağlam cəmiyyətin əsas təməlidir və həmçinin özü də kiçik bir cəmiyyətdir. İnsan ailədə dünyaya gəlir və onun bir şəxsiyyət kimi formalaşmasında ailənin rolu əvəzedilməzdir. Uşaqların tərbiyəsi ailənin əsas funksiyasıdır. Yeri gəlmişkən, tərbiyə anlayışı ilə tanış olaq. Tərbiyə sözü iki – dar və geniş mənalarda istifadə edilir. Dar mənada tərbiyə dedikdə - tərbiyə edənin tərbiyə olunana məqsədyönlü təsiri prosesi başa düşülür. Geniş mənada tərbiyə dedikdə - tərbiyə yaşlı nəslin illər ərzində əldə etdiyi təcrübəni gənc nəslə ötürməsi prosesi başa düşülür. Ümumiyyətlə,tərbiyə edən həmişə müıyyən məqsəddən çıxış edir. Tərbiyə edən şəxs tərbiyə olunan şəxsə hər hansı ictimai təcrübəni aşılamaq, onu müəyyən davranış formasıilə tanış etmək, onda yaxşı və pis haqqında təsəvvür formalaşdırmaq məqsədi güdür.

Ailənin iki əsas vəzifəsi var:

1. Nəslin davam etdirilməsi;

2. Yeni nəslin, yeni insanın tərbiyəsi.

Nəslin davam etdirilməsi, yəni ailənin reproduktiv funksiyası əhalinin təkrar istehsalını təmin edən funksiyadır. Nəsilartırma funksiyası və əhalinin cins-yaş strukturu ölkənin əmək ehtiyatlarının, sosial-iqtisadi potensialını müəyyən edən əsas amillərdəndir. Araşdırmalar göstərir ki, yüksək inkişaf etmiş ölkələrdə dünyaya gələn uşaqların sayına olan tələbat onların arzuolunan sayından çoxdur, ailədə uşaqların arzuedilən sayı isə onların mövcud sayından daha çoxdur. Bundan başqa, qadınların və kişilərin yaş nisbəti artdıqca onların övlad sahibi olmaq və ya nəsil artırmaq istəyi zəifləyir.

Yeni nəslin, yeni insanın tərbiyəsi funksiyası onun reproduktiv funksiyası ilə sıx əlaqəlidir. Görkəmli psixoloqlar qeyd edir ki, əgər uşaq doğulduğu andan 3 yaşına kimi lazımi qayğı və diqqət ilə əhatə olunmayıbsa, o uşağın əqli və fiziki inkişafında

ləngimələr və çətinliklər yaranır, onun sosial keyfiyyətləri zəifləyir. Əksər hallarda belə uşaqlarda sonrakı inkişaf dövründə natamamlıq kompleksinə rast gəlinir. Bu onu deməyə əsas verir ki, normal və sağlam ailə mühiti uşağın hərtərəfli və ahəngdar inkişafı üçün böyük əhəmiyyətə malikdir. Valideynin sevgi, qayğı və diqqətinin uşaqların həyatındakı yeri əvəzolunmazdır. Apatılan araşdırmalar zamanı psixoloqlar belə bir faktı müşahidə etmişlər ki, ana-ata və bacı-qardaşından uzun müddət ayrı düşən kiçik yaşlı uşaqlar əksər hallarda əqli və fiziki cəhətdən inkişafdan geri qalırlar. Bu o deməkdir ki, uşaqların ailəsi ilə vaxt keçirməsi, onlarla olan ünsiyyəti çox əhəmiyyətlidir.

Uşaqların ilk tərbiyəçiləri ana və atadır. Onların tərbiyəsi elə anadan olduqları gündən başlamalıdır. Hər bir şəxsin gələcək taleyi, həyatda tutacağı mövqe ailə tərbiyəsi ilə bilavasitə əlaqəlidir. İnsanların ən yaxşısı və ən yetkini əxlaqı gözəl olanlar və ailə üzvlərinə hörmət göstərənlərdir. Ailə münasibətləri uşaqların tərbiyəsində çox mühüm rol oynayır. Ailədə uşaqların tərbiyəsi valideynlərin ən mühüm vəzifələrindən biridir. Ona görədə onlar ilk gündən övladlarına düzgün tərbiyə verməlidirlər. Valideynlər uşaqların tərbiyəsində müxtəlif üsullardan istifadə edirlər amma ən mükəmməl tərbiyə üsulu belə uşaqlara ailədəki münasibətlər qədər təsir göstərə bilməz. Bu münasibətlər ilk olaraq, uşaqların hiss və emosiyalarına təsir göstərir. Onların yaşı irəlilədikcə artıq bu münasibətləri daha yaxşı dərk edirlər və bu onların xarakterinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Burada ən mühüm amil qarşılıqlı hörmət, ehtiram və dürüstlüyün, əxlaqi dəyərlərin qorunmasıdır. Ana və ata çalışmalırlar ki, ailədə münasibətləri düzgün tənzim etsinlər. Valideynlər Oscar Wilde-ın uşaq tərbiyəsi ilə bağlı belə bir fikri var: "Uşağı buyurmaq yox – öyrətmək, idarə etmək yox – istiqamət vermək, əmr vermək yox – məsləhət etmək, öyüd vermək yox – sübut etmək lazımdır". Ailədə ana və ata arasında baş verən mübahisələr, böhranlar elə onlar arasında da qalmalı və həll olunmalıdır. Əks halda bu mübahisələr böyük münaqişələrə çevrilir, bu isə uşaqların psixoloji vəziyyətlərinin gərginləşməsinə gətirib çıxara bilir. Valideynlər çalışmalıdır ki, baş verən mübahisəni uşaqlar görməsin. Əgər, uşaq

bunun şahidi olarsa, valideynlər uşağın yanında barışmalı və ona izah etməlidirlərki, bu kiçik məsələ idi və həll edildi.

Öz övladlarına yaxşı tərbiyə vermək, onları ictimai həyata hazırlamaq, onlarda xeyirxahlıq, dürüstlük, ləyaqət, vətənpərvərlik, humanistlik hisslərini formalaşdırmaq hər bir valideynin arzusu və borcudur. Ümumiyyətlə, hər bir valideyn öz uşağının tərbiyəsi üçün böyük məsuliyyət hiss etməlidir. Əslində ailədə valideynlər uşaqlarına öz yaşadıqları həyatı təlqin edirlər. Belə ki, valideynin hər bir hərəkəti, davranışı uşaq üçün canlı nümunə rolunu oynayır və ona əsaslı şəkildə təsir edir. Görkəmli pedaqoq A.S.Makarenko yazırdı: “Siz uşağınızı yalnız onunla danışanda və ya onu öyrədəndə, yaxud ona əmr verəndə tərbiyələndirmirsiniz. Siz onu həyatınızın hər bir anında, hətta evdə olmadığınız zamanda da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və başqaları haqqında necə danışırsınız, necə sevinir, necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar edirsiniz və s. bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır. Uşaq sizin həyatınızın ahəngindəki ən kiçik dəyişiklikləri görür, yaxud hiss edir, sizin fikrinizin bütün dönüşləri gözə görünməyən yollarla ona çatır, siz bunları görmürsünüz”.

Ana və ata ailədə etik normalara əməl edirsə, öz övladlarına yaxşı nümunə göstərirsə övladlar da onlara oxşamağa çalışacaq. Əgər, ata kobudluq edirsə, pis danışırsa bu uşağın tərbiyəsinə pis təsir göstərir. Yaxşı tərbiyə bizim gələcək xoşbəxtliyimizdir, pis tərbiyə isə bizim gələcək bədbəxtliyimizdir.

Valideynlər övladlarının yaşına uyğun olaraq onlarla vaxt keçirməlidir. Məsələn, kiçik yaşlarda onlarla oyun oynamaq məqsədəuyğundur. Oyun uşağın ağlının, zəkasının, nitqinin və əxlaqi, mənəvi keyfiyyətlərinin inkişafında çox mühüm rol oynayır. Uşaq oynamasa inkişaf da edə bilməz. Böyüklər nə qədər məşğul olsa da, uşaqlara vaxt ayırmalıdır. Uşaq danışmağa, hisslərini göstərməyə başlayanda valideynlər buna laqeyd yanaşmamalıdır.

Ailə tərbiyəsi qarşılıqlı prosesdir. Bu proses həm valideynlərə, həm də uşaqlara tərbiyəvi təsir etməlidir. Ailə qayğıya, hörmətə, etibara möhtacdır. Bunu hər bir gənc ailə dərk etməlidir. Onlar bilməlidirki, ailə heç də kişi və qadının nigaha girməsi və onların münasibətindən ibarət deyil. Ailə ana-uşaq,ata-uşaq

münasibətlərini də yaradır. Ana və ata valideyn olmaqla yanaşı, gələcək vətəndaşa nümunə olacaq nüfuzlu bir şəxsiyyət olmalıdırlar.

**Ədəbiyyat**


1. Abbasov A.N, Ailə pedaqogikası. Bakı, Mütərcim, 2019, 270 s.
2. Abbasov A.N, Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2016, 320 s.
3. Hüseynzadə R, Allahverdiyeva L. Ailə pedaqogikası. Bakı, 2016, 339 s.
4. https://xetaijurnali.wordpress.com/2014/05/08/muasir-səraitdə-ailə-tərbiyəsinin-fəlsəfi-psixoloji-aspektləri/


## MİR CƏLAL PAŞAYEVİN "PLOVDAN SONRA" HEKAYƏSİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ


***Aytac Fərhad qızı Ələkbərova***
***Bakı Dövlət Universiteti***
***@aytaclkbrova84@gmail.com***


> "Valideynlər həmişə, hər şeydən əvvəl tərbiyə işinin əhəmiyyətini və həmin iş üçün daşıdıqları böyük məsuliyyəti yadda saxlamalıdırlar" . A.Makarenko

Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayev elm, ədəbiyyat, mədəniyyət tariximizdə əbədiyaşarlıq qazanan bir şəxsiyyətdir. Onun yaratdığı məktəb müasir dövrümüzdə də uğurla davam etdirilir.

Ədibin ədəbi və elmi irsi zəngindir. Müxtəlif janrlardan istifadə edərək, həyat həqiqətlərini incə detallarla çatdıran müəllifin yaradıcılığında tərbiyə mövzusu xüsusi yer tutur. İnsan tərbiyəsi, onun başlıca məqsəd və vəzifələri, insanın əxlaqı saflığı, fiziki kimliyi müəllifi hər zaman düşündürür. "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir",- deyən Mir Cəlal , xüsusilə, ailə münasibətləri,

övlad tərbiyəsi, valideyn- övlad münasibətlərində yol verilən səhvləri göstərməyə çalışır. Bu mövzuda yazdığı əsərlərindən biri “Plovdan sonra” hekayəsidir.

Hekayə qısa olsa da , öz-özlüyündə dərin məna kəsb edir. Məzmundan bəlli olur ki, Ərknaz xanım və həyat yoldaşı , öz övladları olan Ramizi Rusiyaya təhsil almağa göndərirlər. Lakin Ramizin həddən artıq tənbəl olması, hər şeyə məsuliyyətsiz yanaşması onun təhsilni yarımçıq buraxması ilə nəticələnir. Ramizin bu qədər məsuliyyətsiz, infantil davranmasının səbəbi, onun anasının yanlış tərbiyə üsulundadır. Ərknaz xanımın davranışı , hərəkət və münasibətləri, Ramizin də tərbiyəsinə mənfi təsir göstərmişdir [2]

Ərknaz xanım gördüyü hər adama oğlunu tərif edir, məclislərdə öz oğlundan ağız dolusu danışır: “Ramiz çox qeyrətli, fərasətli uşaqdır. Çox qanacaqlı, mərifətli, qabiliyyətli uşaqdır“.[3] Lakin bu həqiqət deyildir. Etdiyi bütün səhvlərə görə oğlunu yox, başqalarınını günahlandıran ana oğluna şəxsi nümunə ola bilmir. Məktəbdə aldığı aşağı qiymətlərə görə oğlunu yox, məktəbi, müəllimləri günahlandıraraq, özü də fərqində olmadan, özünü müdafiə edir, “vicdanının səsini”susdurur. Psixoloji müdafiə mexanizmi olan “yansıtma”dan istifadə edir.[5] Hekayəni oxuduqca məlum olur ki, Ərknaz xanım hələ uşaqlıqdan öz oğluna heç bir məsuliyyət “yükləməmiş” hər işini özü etməyə çalışmışdır. Oğlu Rusiyaya oxumağa gedəndə ona hazır yeməklər göndərir, hətta, plovu isti-isti göndərmək üçün təyyarə belə təşkil etdirməyə can atır. Ramizin atası anasından fərqli olaraq fərqli düşücəli biridir. Lakin o da Ərknaz xanımın bu davranışlarına göz yumur.

Yanlış tərbiyənin nəticəsini Ramizin davranışlarında açıq-aydın görürük. Xüsusilə, ailədən ayrılıb Rusiyaya getdiyi dönəmdə “vaxtım yoxdur” -deyərək, buraxdığı dərslərin sayı, verilən suallara cavab verə bilməməsi, gecələr evə gəlməməsi, valideynlərinə danışdığı yalanlar bunu sübut edir. Ramiz ərköyün və tənbəldir. Etməli olduğu ən sadə işləri belə onun əvəzindən başqası edir. Haçandansa, institutda oxuyan, bitirə bilməyən, möhlət alıb, arxivdə kargüzar vəzifəsi daşıyan köhnə bir tələbə İbiş Məsimov Ramizin mənzilinin əziz qonağı idi. Onu otaqda kolbasa doğrayan, çay dəmləyən, butulka ağzı açan, yaxmac düzəldən, teatr kassasına zəng

vuran görərdin. İbiş Ramizin bazarlığına gedir, bələdçiliyini eləyir, paltarını yudurdur, münasib qiymətlə çertyojlarının, konspektlərinin surətini çıxartdırırdı. [3]

Hekayədə müəllifin oxuculara çatdırmaq istədiyi əsas ideya valideynlərin övlad tərbiyəsinə məsuliyyətli yanaşmasıdır. Tərbiyədə edilən ən kiçik səhvin belə necə böyük mənfiliklərlə nəticələnəcəyini diqqətə çatdırır. Bu hekayə valideyn- övlad münasibətlərində liberallığın acı nəticələrini bizə göstərir. Həm ata, həm ana öz vəzifələrini layiqincə yerinə yetirmir.

Fikrimizcə, Ramizin ərköyün böyüdülməsinin bir səbəbi də onun ailədə tək uşaq olmasıdır. Görkəmli pedaqoq A.S.Makarenkonun fikrincə, tək uşağı tərbiyə etmək çox uşağı tərbiyə etməkdən çətindir; belə uşaq ailənin diqqət mərkəzində olur, əzizlənir, tələb görmür, ərköyün böyüyür və s. Çoxuşaqlı ailədə isə səs-küy, nadinclik, "qanqaralığı" olsa da, ancaq buna baxmayaraq uşaqlar yaxşı böyüyürlər, çünki burada həm dostluq, həm də sevinc var, - ən başlıcası isə kollektiv var.[1]

Humanist pedaqoq Mir Cəlal övlad böyütməyi, onu cəmiyyətə faydalı şəxsiyyət kimi yetişdirməyi böyük və məsuliyyətli iş sayırdı. Valideyn- övlad münasibətlərində yanlışlıqlara yol verənləri əxlaq, tərbiyə psinsiplərinə laqeyd yanaşanları tənqid atəşinə tuturdu.

İllər ötsə də, Mir Cəlal Paşayevin zirvədəki yeri daim qalacaq və onun mərhəmət, sevgisi dünya durduqca yaşayacaqdır.

## Ədəbiyyat


1. Hüseynzadə R., Allahverdiyeva L. "Ailə Pedaqogikası", 2015
2. İsmayılov.Y , "Mir Cəlalın Yaradıcılığı",2010
3. Paşayev M.C. "Seçilmiş Əsərləri ",2001
4. https://portal.azertag.az/az/node/14978
5. https://soz6.com/nedir/62691/psixoloji-mudafie-mexanizmleri

# AZƏRBAYCAN MULTİKULTURALİZMİ VƏ MİLLİ MƏNƏVİ DƏYƏRLƏR

***Daxil Cahangir oğlu Vəliyev***
***daxilv@mail.ru***

Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif millətlərin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü olan siyasətdir. Multikulturalizm dedikdə çox mədənilik və bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyət başa düşülür. Multikulturalizmin bir siyasət kimi öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlı olduğunu qeyd edə bilərik. Belə ki, o, müxtəlif mədəniyyətlərin inteqrasiya olunmuş şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biri hesab olunur. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur ki, bu da insanların gələcək mədəni birliyi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə əlaqədardır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

Müasir dövrdə multikulturalizm Azərbaycanda əhəmiyyətli rol oynayır. Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Keçmiş dövrlərdən bəri burada avarlar, talışlar, ləzgilər, udinlər və s. kimi millətlər sülh və əmin amanlıq içərisində yaşamışdır. Müasir multikultural cəmiyyətlər müxtəlif mədəni strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə

müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndəlləri harmonik inkişaf edirlər.

Ölkəmizdə multikultural cəmiyyətin yaranıb inkişaf etməsində coğrafi faktorun rolu da böyük olmuşdur. Belə ki, Azərbaycanın əlverişli bir coğrafi ərazidə və müxtəlif milli mədəniyyətlərin qovşağında yerləşməsi burada bir sıra xalqların və milli azlıqların məskunlaşmasına təsir göstərmişdir. Azərbaycanın bu əlverişli coğrafi mövqeyi onun etnik mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında da öz əhəmiyyətini ortaya qoymuşdur. Ancaq ölkədə multikulturalizmin inkişafı təkcə əlverişli coğrafi amildən asılı deyildir. Çünki dünyada elə ölkələr vardır ki, onlar da Azərbaycan kimi əlverişli coğrafi məkanda yerləşirlər. Lakin həmin ölkələrin bir çoxunda multikulturalizmin vəziyyəti Azərbaycandakından çox aşağıdır. Bunun əsas səbəbi isə Azərbaycanın multikulturalizmi dövlət siyasəti kimi qəbul etməsidir. Multikulturalizm Azrəbaycanda dövlət siyasəti ilə yanaşı həm də əhalinin həyat tərzidir. Azərbaycanda multikulturalizmin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır. Hər bir ölkənin sosial iqtisadi inkişafı onun mədəni inkişafı ilə sıx bağlıdır. Bir ölkə daxilində sosial iqtisadi inkişaf mədəni inkişafdan kənar mövcud ola bilməz. Dünyada qlobal maliyyə böhranının hökm sürdüyü dövrdə belə respublikada iqtisadiyyatın demək olar ki, bütün sahələrində inkişaf təmin olunurdu. Azərbaycan son dövrlər sürətli sosial iqtisadi inkişafa nail olmuşdur və hazırda dünyanın qabaqcıl ölkələri sırasında öz yerini tutmaq üçün səylərini daha da gücləndirir. Bu gün Azərbaycan iqtisadi göstəricilərinə görə dünyanın qabaqcıl ölkələri sırasında öz layiqli yerini tutursa, bu həm də onun müxtəlif etno-mədəni qrupları özündə birləşdirməsi və qoruması siyasətindən də irəli gələn bir göstəricidir. Ölkəmizdə sosial iqtisadi inkişafın təmin edilməsində multikulturalizmin də böyük rolu vardır.

Azərbaycanda multikulturalizmin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun hakimiyyəti dövründə ölkədə dinindən və milliyətindən asılı olmayaraq bütün xalqlar rifah və firavanlıq içərisində yaşamışdır. Ümummilli Lider Heydər Əliyev

respublikamızda multikulturalizm siyasətini uğurla həyata keçirmiş və ölkəmizi dünya miqyasında multikulturalizm ölkəsi kimi tanıtmışdır. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural adətlərinin qorunması sahəsində həyata keçirilən siyasət hal-hazırda Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Cənab İlham Əliyev ölkəmizdə multikulturalizmin inkişaf etdirilməsində və multikulturalizmin ölkənin sosial iqtisadi inkişaında rolunun artırılmasında misilsiz xidmətləri olmuşdur. Belə ki, ölkədə multikulturalizmin daha da inkişaf etdirilməsi məqsədilə Cənab İlham Əliyevin 15 may 2014-cü il tarixli sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əsas vəzifələri Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirməkdən, multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etməkdən, müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirməkdən və multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaqdan, eləcə də multikulturalizmin ölkənin sosial iqtisadi inkişafına təsirini təhlil etməkdən ibarətdir.
Ölkəmizdə yaşayan müxtəlif millətlərin və etnik azlıqların bərabərhüquqlu olması, yəni onlara yerli əhali ilə müqayisədə fərq qoyulmaması ölkədə multikulturalizm siyasətinin uğurla həyata keçirilməsinin əyani sübutudur. Hazırda Azərbaycanda ölkənin əsas və çoxluq təşkil edən əhalisi-azərbaycanlılarla yanaşı, bir sıra digər millət, xalq və etnik azlıqlar da yaşayır. Azərbaycanda yaşayan millətlər əsasən ləzgilər, ruslar, talışlar, avarlar, türklər, tatarlar, gürcülər, yəhudilər və digər xalqlardan ibarətdir.

Ölkədə multikulturalizmin sosial iqtisadi inkişafa təsiri bundan ibarətdir ki, ölkədə yaşayan müxtəlif millət nümayəndələri yerli əhali kimi iqtisadiyyatın istənilən sahəsində müəssisə açaraq əhalinin tələbatını ödəyə bilərlər. Bundan başqa onlar iqtisadiyyatın müxtəlif

sahələrinə investisiya yatıraraq həm mənfəət əldə edə bilərlər və həm də ölkənin iqtisadi inkişafına təsir göstərə bilərlər. Bu gün Azərbaycanda fəaliyyət göstərən və ölkənin sosial iqtisadi inkişafında rol oynayan bir çox iri müəssisələr vardır ki, o müəssisələrin rəhbərləri ölkəmizdə məskunlaşan qeyri azərbaycanlılardır. Hər bir ölkənin makroiqtisadi göstəricilərindən biri ölkə əhalisinin rifah səviyyəsidir. Qeyd edə bilərik ki, multikulturalizm ölkəmizdə yaşayan yerli əhalinin və başqa millətlərin rifahına da müsbət təsir göstərir. Ölkəmizdə siyasi və iqtisadi stabilliyin hökm sürməsi, yerli əhali ilə birgə başqa millətlərin də sülh və əmin amanlıq içərisində yaşaması, onların hüquqlarının qorunması və eləcə də onların yerli əhali kimi bərabərhüquqlu olması ölkəmizdə rifah səviyyəsinin yüksək olduğunu göstərir. Buna misal olaraq qeyd edə bilərik ki, ölkədə yaşayan milli azlıqlar və başqa milliyyətdən olan xalqlar yerli əhali kimi müxtəlif təşkilatlarda və müəssisələrdə işləyib əmək haqqı alaraq sabitlik və rifah içərisində yaşayırlar. Həm də onlar yerli əhali kimi dövlətə vergi ödəyərək dövlət büdcəsinin formalaşmasında rol oynayırlar. Azərbaycan Respublikasında multikulturalizmin bir siyasət olaraq inkişaf etdirilməsi, dünyanın bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri ilə iqtisadi əlaqələrin möhkəmlənməsinə də təsir göstərir. Belə ki, bir sıra dünya ölkələri ilə xarici ticarət əlaqələrinin qurulmasında, xarici investorlar tərəfindən ölkəmizin müxtəlif sahələrinə külli miqdarda investisiya yatırılmasında, xarici iş adamlarının ölkəmizdə şirkət qurub həm yerli əhalini həm də müxtəlif millətləri işlə təmin etməsində multikulturalizm faktorunun əhəmiyyəti danılmazdır. Bundan əlavə qeyd edə bilərik ki, multikulturalizmin ölkəmizdə turimzin inkişafına da böyük təsiri vardır. Məlumdur ki, turzim sektoru iqtisadiyyatın ən çox perspektivli və gəlir gətirən sahələrindən biri hesab olunur. Azərbaycanda isə turizmin inkişafı üçün əlverişli şərait və mühit vardır. Belə ki, Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi və gözəl iqliminin olması burada turizmin inkişafına təkan vermişdir. Hər il ölkəmizə xarici ölkələrdən saysız hesabsız turistlərin gəlməsi, onların yüksək səviyyədə istirahət etməsi və ölkəmizdən razı qalması ölkəmizdə turizmin inkişafının əyani sübutudur. Ölkəmizin Bakı,

Gəncə, Qəbələ, Quba, Qusar kimi şəhərləri əsas turistik şəhərlər hesab olunur ki, burada gələcək dövrlərdə də turizmin inkişafını daha da sürətləndirmək olar. Turistlərin bir çoxu dəniz turizmi üçün, bəziləri dağ turizmi üçün və bəziləri də müalicə məqsədilə ölkəmizə üz tuturlar. Bütün bunlar ölkəmizdə turizmin inkişafına öz müsbət təsirini göstərir. Respublikamızda turizmin inkişafı əsas etibari ilə ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasətinin müsbət bir nəticəsidir. Təbii ki, ölkəmizdə multikulturalizm siyasətinin yüksək səviyyədə və uğurla həyata keçirilməsi təkcə turizm sektorunun inkişafına deyil, eləcə də iqtisadiyyatın digər sektorlarının inkişafına da müsbət təsir göstərir. Yuxarıda qeyd etdiyimiz faktorları nəzərə alaraq qeyd edə bilərik ki, ölkəmizdə multikulturalizm ölkənin makroiqtisadi göstəricilərinin artımında və o cümlədən sosial iqtisadi inkişafın təmin olunmasında əvəzsiz rol oynayır.

## AİLƏDƏ UŞAQLARIN SOSİALLAŞMASI

***Nəzakət Bəylər qızı İmamverdiyeva***
***BDU, Pedaqogika kafedrasının dosenti,***
***pedaqogika üzrə fəlsəfə doktoru***

Uşaqların sosial həyata hazırlığı ilk növbədəd ailədən başlayır və inkişaf edir. Ailə sosial institut kimi, ailə üzvlərinin də sosial hazırlığında, sosial inkişafında, sosiallaşmasında mühüm amildir. Bəs uşaqların sosial hazırlığı, sosial inkişafı, sosiallaşması nə deməkdir? Professor Hikmət Əlizadənin dediyi kimi uşağın sosial inkişafı və sosial tərbiyəsi dedikdə onun ətraf aləmi düzgün dərk etməsi, elmi dünyagörüşə malik olması, xalqın adət və ənənələrini bilməsi, mədəni davranış qaydalarına əməl etməsi, insanlarla düzgün ünsiyyət mədəniyyətə yiyələnməsi, cəmiyyətdə fəal mövqe tutması və vətəndaşlıq keyfiyyətlərinə sahib olması deməkdir. Uşağın sosial tərbiyəsi uşağın sosial inkişafının əsasını təşkil edir ki, bütün bunlarla sosial pedaqogika elmi məşğul olur (1, 40).

Əlavə etmək lazımdır ki, körpəlik dövründə uşaqlar ilk ünsiyyətini ailədə ana və ata ilə qurur, daha sonra bacı və qardaşla ünsiyyət və münsibətdə olur. Uşaq öz hərəkət və davranışlarını idarə etməyə başlayır, ailə üzvlərindən nümunə götürür, nitqini düzgün qurur və uyğun, məntiqi cümlələr işlədir və ilkin sosial təcrübəyə yiyələnirlər ki, bütün bunlar da uşağın gələcək hərtərəfli inkişafı üçün, onun sosiallaşması üçün mühüm əhəmiyyət kəsb edir.

"Ailə ictimai həyatın xüsusi bir sahəsini meydana gətirir və bu sahə daxilində ilk olaraq qəbul edilən yaxın əlaqələr ailə üzvləri arasında qarşılılqı asılılıqdan ibarətidr" ki, bu da ailə üzvlərinin sosialaşmasına qüvvətli təsir göstərir (2, s. 45).

Uşağın sosiallaşması ilk növbədə ailədə yüksək əxlaqi təsəvvürlərin və vətəndaşlıq hisslərinin inkişaf etdirilməsi vətənpərvərlik, humanistlik, tolerantlıq kimi keyfiyytlərə yiyələnməsi deməkdir. Sosiallaşma və sosial tərbiyə almış uşaq uşaqların böyüklərlə, öz yaşıdları ilə, müəllim və tərbiyəçilərlə ünsiyyət mədəniyyətinə sahib olması deməkdir.

Ünsiyyət - uşağın sosial keyfiyyətlərinin formalaşması üçün ilkin və başlıca rol oynayır. Əsasən, bu dövrdə valideyn ilə uşaq daha çox ünsiyyətdə olur. Məhz, erkıən yaş dövründə uşaqlar ailədə böyüklərlə qarşılıqlı ünsiyyət və münasibətlər, dialoqlar yaranır ki, bu da sosiallaşmanın ilkin əsasını qoyur.

Professor Ləzifə Qasımova öz dəyərli əsərində qeyd edir ki, ailədə ünsiyyət və münasibətlərin uşaqların sosial tərbiyəsindəki rolu xüsusi əhəmiyyət kəsb edir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə, uşaqların min bir tellərlə bağlı olduğu ailə münasibətlərinin sosial tərbiyədəki rolunu əvəz edə bilməz (3,s.121). "Ailə tərbiyəsindəki müxtəlif üsullar onun düzgün tətbiqi ilə bağlıdır ki, bu da sosial tərbiyədə mühüm əhəmiyyətə malikdir" (4, s. 142).

Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyir və bu zəmində də oğlan və qızların sosaillaşma prosesi formalaşır.

Professor Rüfət Hüseynzadə "Ailə pedaqogikası" adlə dəyərli dərsliyində göstərir ki, "ailədə yaranan əlverişli psixoloji, sosial iqlim, ölçülü, düzgün həyat tərzi uşaqlarda mühafizə olunmaq hissinin inkişafına, onların emosional, sosial inkişafına xeyli dərəcədə müsbət təsir göstərir" (5, s. 87).

Yekun olaraq deyə bilərik ki, ailədə yaradılmış. əlverişli psixoloji, pedaqoji və sosial iqlim uşaqların sosiallaşmasına, düzgün tərbiyə olunması üçün münbit şərait yaratmış olur.

## Ədəbiyyat


1. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. Dərslik. Bakı: BDU, 2013, 368 s.
2. İmamverdiyeva N.B., Mirzəliyeva N.S. Yeniyetməlik və yetkinlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri. Bakı: Müəllim, 2022, 207 s.
3. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004.
4. Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.
5. Hüseynzadə R.L. Ailə pedaqogikası. Dərslik. Bakı: ADPU, 2016. 365 s


# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV NÜMUNƏSİNDƏ GƏNC NƏSLİN TƏRBİYƏSİ


***Safura Bayram qızı Allahverdiyeva***
***Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim***
***Bakı Dövlət Universiteti***
***allahverdiyevasafura@gmail.com***


"Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm. Bundan sonra da bu yolla gedəcəyəm, başqa yolum yoxdur. Vətənə, xalqıma, millətimə, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır,

məzmunudur” deyən ulu öndər sözün həqiqi mənasında bütün ömrünü, həyatını öz xalqına, millətinə, dövlətinə həsr etmişdir. Ulu öndərin milli ideologiyanın ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirdiyi milli mənəvi dəyərlər sırasında dil, din, adət-ənənə, mədəniyyət, incəsənət xüsusi yer tutur. O, bir çox çıxışlarında milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifə kimi irəli sürərək deyirdi: “Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir”. Yəni, bu dəyərləri qoruyub saxlayan xalq müstəqillik yolu ilə getmək, öz müstəqilliyini qorumaq əzmindədir. Belə ki, özünü bir millət kimi dərk etməyən xalqın milli dövləti də ola bilməz. Ulu öndər milli-mənəvi dəyərlər uğrunda mübarizədə həmişə öndə gedərək ziyalılarımızı və gəncliyi də bu istiqamətdə fəaliyyət fəaliyyət göstərməsinə çalışmışdır.

Ölməz ulu öndər Heydər Əliyev böyük siyasətçi olmaqla bərabər, həm də böyük filosof, dövrün görkəmli alimi, mütəfəkkiri, incəsənət xadimi, böyük ədəbiyyat, tarix, sənət bilicisi idi. Ulu öndərin çıxışlarına diqqətlə qulaq asdıqda onun təkcə tariximizi deyil, həm də mədəniyyətimizi, milli köklərimizi, milli-mənəvi dəyərlərimizi, xalqımızın hikmətini, fəlsəfi fikir mədəniyyətini də mükəmməl bildiyini görürük. Gəncliyə xüsusi dəyər verən ulu öndər onların cəmiyyətin gələcək inkişafında xüsusi rol oynadığını qeyd edərək deyirdi: “Gənclərin tərbiyəsində milli, dini, adət və ənənələrimizdən bu günə gəlib çıxan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsiplərə əsaslanır. Bu gün biz də gəncləri paklıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik”.

Bir müəllim kimi ulu öndərin qarşımızda qoyduğu bu müqəddəs vəzifəni öz iş fəaliyyətimdə yerinə yetirməyə çalışmışam və çalışıram. Belə ki, təhsil sisteminin əsas vəzifələrindən biri də dərin biliyə, bacarığa, geniş dünya görüşünə, millətinə, xalqına bağlı olan, xalqının milli, mədəni, mənəvi dəyərlərinə yiyələnən, onu

qoruyan, inkişaf etdirən şəxsiyyətlər tərbiyə etməkdir. Bu missiyanın həyata keçirilməsində müəllimlərin də məsuliyyəti böyükdür.

Məhz bu məsələ ilə bağlı da ümummilli liderin dediyi fikirlər önəmli və dəyərlidir: "Əgər biz, xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər".

Göründüyü kimi ulu öndər yetişən gənc nəslin bir şəxsiyyət, bir vətəndaş kimi tərbiyəsində ziyalıların, müəllimlərin məsuliyyət daşıdığını xüsusi vurğulayır. Bəli, bu gün gənc nəsil öz soykökünə, dövlətinə, dövlətçiliyinə, torpağına, doğma yurduna məhəbbət ruhunda tərbiyə olunur və bu işdə biz müəllimlər bütün pedaqoji fəaliyyətimizi bu vəzifəni yerinə yetirməyə yönəltmişik. 44 günlük müharibədə döyüşən, qələbə qazanan, şəhid olan, hal-hazırda ordu sıralarında döyüşən, Şuşanı azad edən gənclik bu günün gəncliyidir. Bu qəhrəmanları yetişdirən qəhrəman analar və müəllimlərdir.

Bu baxımdan ulu öndərin şəxsiyyəti, ömür yolunda gənclər üçün böyük tərbiyə məktəbidir. Azərbaycanı, millətini böyük məhəbbətlə sevən ulu öndər dahi S.Vurğunun "Azərbaycan" şeirini söyləyərkən kövrəlməsi onun bu torpağa, elə-obaya nə qədər dərin hisslərlə bağlı olduğunu, necə sevdiyini bir daha sübut edir.

Azərbaycançılıq ideyasının müəllifi ulu öndər H.Ə.Əliyev deyirdi: "Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulmalıdır". Məhz bu siyasət Azərbaycanda yaşayan bütün millətlərin, xalqların bərabər hüquqlu yaşayışını təmin etməyə xidmət göstərir. Ulu öndər bu barədə öz fikrini belə ifadə edərək deyir: "Biz hamımız, hansı bölgədə olmağımızdan asılı olmayaraq, azərbaycançı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik ki, bunun kökü nədir, onun kökü nədir. Azərbaycanda yaşayan insanların hamısı – mən xristianları demirəm – həmişə özünü azərbaycanlı hesab edirlər. Onlar həqiqətən azərbaycanlıdırlar və hamımızın birlikdə ən əsas məqsədimiz azərbaycançılığı möhkəmləndirmək, qurmaq və bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir".

Ulu öndər xalqın xoşbəxt gələcəyinə, onun gəncliyinə həmişə böyük inam və ümid bəsləmişdir. Gənclərlə hər bir görüşündə onlara

vətəni sevməyi, milli-mənəvi dəyərlərimizi qorumağı, dövlətə, dövlətçiliyə sadiq olmağı tövsiyə edərək deyirdi: "Bu gün Azərbaycan Respublikası öz tarixinin şərəfli və mürəkkəb bir dövrünü yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının surətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həll edilməsi, Azərbaycanın dünya birliyində layiqli yerini tutması yolunda görüləsi işlər çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bu günkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amalla Azərbaycan gəncləri daim hazır olmalısınız".

Özünün zəngin mənəviyyatı, xalqına, millətinə, dövlətinə, dövlətçiliyinə sonsuz sevgisi olan dahi, unudulmaz, ölməz ulu öndər Heydər Əliyev şəxsiyyəti və onun mənalı keçən ömür yolu bu günkü və eləcə də gələcək gənclər üçün bir örnək, bir tərbiyə məktəbidir. İllər, qərinələr keçəcək, bu məktəb daha əzəmətli, daha dəyərli olacaq, onu sevənlərin, ondan öyrənənlərin sayı sonsuz olacaq!

## ВОСПИТАНИЕ ПАТРИОТИЗМА У МЛАДШИХ ШКОЛЬНИКОВ КАК ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

***Гамар Гусейнали кызы Тагиева***
***БГУ, Доцент кафедры Педагогики***
***gamartagiyeva@gmail.com***

Термин "патриот" впервые появился во время Французской революции 1789-1793 годов. Патриоты в то время утверждали, что являются солдатами гражданского дела, защитниками республики, а предателями родины в лагере монархистов.

В толковом словаре В. И. Даля значенье этого слова

объясняется следующим образом: патриот- любящий родину, фанатичный за страну, а отчизны. Моральное содержание этого понятия более ясно определено в философском словаре: Патриотизм (греч. Раз родина) это своего рода психологически-политический принцип, своего рода социокультурное чувство, а его содержанием является влюблённость к Родине, преданность родине и горделивость за Родину. Сквозь века пронеслось стремление оградить интересы родины.

Что такое "патриотизм" и какого человека нельзя назвать патриотом? Патриотизм- это влюблённость к Родине, преданность Родине, устремление к интересам Родины и готовность оберегать родину любой ценой самопожертвования. Патриотизм одна из устойчивых характеристик индивидуума, которая проявляется в его мировоззрении, нравственных эталонах и нормах поведения. Кроме того, она представляет собой значимую часть обще ственного сознания, которая отразивается в коллективных эмоциях, чувствах и характеристиках, связанных с людьми, образом жизни, историей. цивилизацией, страной и основной системой ценностей. Патриотизм воплощается в поступках и поведениях человека. Он всегда конкретен и направлен на действительные цели. Он проистекает из любви к маленькой Родине и перерос в национально-патриотическую самоидентификацию. Патриотизм это моральная основа самосохранения страны, и это важная внутренняя консолидация ресурсов для социального развития, активной! военной позиции и подготовки к служению Отчизне.

Быть патриотом и полнокровным гражданином это прежде всего быть созидателем своего особняка, своей земли и интеллектуально грудиться на благополучие Родины.

Приняться патриотом значит делить духовные и моральные ценности нашего народца, быть верным эталонам наших отцов и дедушек, понимать и обожать историю и цивилизацию этой страны. Приняться патриотом следовательно стать любящим племянником или дочерью, приняться хорошим отчимом или матерью, растить детей и правнуков, укреплять семьи.

Патриотизм распространяется на все сферы общественной жизни идеологию, геополитику, право, цивилизацию, экономику, воспитание экологию и т.д. Прежде всего, это выявляется в мыслях и эталонах.

Национальная концепция духовно интегрирует общество и создаёт предпосылки для его цельности.

Чувство патриотизма человека это трудное целостное воспитание. Которое сочетает в себе систему знаний о своих генных корнях, осознание окружающих социокультурных реалий, закономерностей и перспектив становления, подготовку к поэтической деятельности и самозащиту Родины как основой мотивации жизни в дискурсе собственных будущностей В структуре патриотического сознания нельзя выделить обилие взаимосвязанных подуровней: логическое постижение, эмоциональная саморегуляция и ценностная семантика.

Логический когнитивный элемент сознания охватывает сфера человеческого мышления. С подмогой мышления человек выбегает пределы данных плотского опыта и входит в значительные характеристики объектов. Основой целью формирования этого подуровня патриотического сознания является развитие мышления и обслуживание мировоззренческого слоя в структуре личности. На этом уровне впечатан фундамент общей патриотической личности, что отражено на четвертом уровне. Особенностью патриотического сознания первого подуровня является то, что фокусируется на настоящем и ищет духовные и мировоззренческие корни азербайджанских этнографических традиций и героических фактов. На основе общих определений и операций логического мировосприятия человек приобретает миропонимание и общекультурные знания о своей прошлом и настоящем и сознает свое положение в обществе в этом дискурсе.

Второй уровень патриотического сознания психоэмоциональной составляющей. Он представляет сфере личных и субъективных психофизиологических переживаний, мыслей и предчувстви. Формирование психоэмоционального Ноля патриотического со включает в себя эмоциональное

состояние индивида (стресс, предчуствие. опасность, бессмысленный положительные). Навык) и эмоции (положительные).

Третий уровень структуры патриотического сознания обеспечен с смысловыми составляющими ценностями. Там воплощаются высшие мотивировки, духовные и нравственные эталоны, культурные и исторические ценности деятельности, поведения взаимоотношений окружающего и социального пространства. Этот подуровень развивается на основе вторых двух: приобретенные познания закрепляются на ценностях через чуства как мотивирующую силу.

Азербайджанский патриотизм характеризуется гуманистической целенаправленностью белорусской патриотической мыслишки, религиозной терпимостью, несоблюдением законов, стремлением щества к стабильности и потребностями индивидуальной жизни, а также особой любовью к тамошней природе.

Решение этих проблем содействует правильному выбору учителями способов, приемов и форм националистического воспитания учащихся первоначальных классов.

Работа в гимназиях дает хорошую способность привить школьникам националистические качества и развить у них базовые опыты граж поведения. Преподавателя должны патриотического воспитания, соотноситься обеспечивать дискретность возрастным особенностям обучающихся младших классов и трудиться вместе между школой и семьей. Школьный возраст наиболее подбегает для воспитания интереса социокультурным явлениям и общим делам.

Патриотическое воспитание является неотъемлемой частью процесса воспитания народа, воображает собой систематическую целенаправленную рг-деятельность государственных органов социокультурных групп по воспитанию сограждан с высоким чувством интернационализма. верности Родине, боеготовности выполнять гражданские функции и конституционные обязательства. Оберегать интересы Родины.

Задачей патриотического воспитания является развитие высокой уровни социальной активности, военной ответственности, а также воспитание граждан с отрицательными ценностями и качествами, которые может быть отражены в процессе самосовершенствования на благо Родины, упрочения страны, обеспечения ее жизненных интересов и устойчивого становлення.

Руководствуясь принципами националистического учителей умоляют помочь укрепить чувства азербайджанского патриотизма приязни народов и религиозной толерантности.

Принципы патриотического воспитания взаимосвязанную и непротиворечивую систему, которой руководствуются преподавателя для обеспечения эффективной актуализации образовательных целей и сверхзадач, отражают содержание воспитания и воспитания в образовательной методике подчиняются обязательным условьям. Н регулируемым обществом. Деятельность по патриотическому воспитано образовательных и культурных госучреждений, общественных организаций.

Учитывать особенности разных групп населения учащиеся младших классов средней школы, подростки, школьники студенты, государственные служащие, солдаты, городские и сельские обитатели) в сфере образования.

Оказание мирному урегулированию антагонизмов и конфликтов - Обеспечить равноправие прав человека и военных прав и свобод, безотносительно от расы, национальности, диалекта и религиозных убеждений.

Народность, гражданственность сочетание интернационализма и общечеловеческого воспитания.

Каждое поколение формирует общенациональную идентичность и открытость к ценностям других этнических подгрупп.

Защищать национальную цивилизацию, язык и традиции - Обслуживание культурного взаимодействия между странами Обеспечивать патриотическое воспитание

Нормативно-правовое обслуживание совершенствование

нормативно юридической базы, определение социокультурного и правового статуса националистического воспитания, а также ролей, местечек задач и функций каждого государственного учреждения, ведомства и корпорации, создание базы националистического воспитания в системе воспитания.

Учебно-методическое обслуживание: формулировать учебные и конфигурации и методы патриотического воспитания; обобщать результаты становления образования и методы внедрения инновации; объединять прогрессивной педагогический опыт в стране и за рубежом для публикации словесности; Пересматривать гуманитарные общеобразовательные и программы.

## ВОПЛОЩЕНИЕ НАЦИОНАЛЬНОГО ПАТРИОТИЗМА ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

***Илаха Вагиф кызы Шихалиева***
***БГУ, д.ф.п., ст.преп.кафедры Педагогики***

В современном мире одним из актуальных проблем является конфликт в Карабахском регионе Азербайджанской Республики. Он начался в конце 1980-х годов претензиями Армении к историко-географической территории Азербайджана. По своей сути этот конфликт представляет собой покушение Армении на территориальную целостность нашей страны. В 1991 году, после распада Советского Союза, Армения и Азербайджан провозгласили независимость. Расширение конфликта привело к тому, что проблема приняла международный характер. В результате войны 1992-1994 года Нагорный Карабах и окружающие территории (около 17% территории Азербайджана) перешли под контроль армян. Оккупация азербайджанских земель вооруженными силами Армении, вынудила азербайджанцев покинуть родные места, а также нанесла тяжелый удар по экономике и культурному наследию нашей страны. За этот период Армения привела в плачевное состояние оккупированные территории

Азербайджана, полностью разрушила инфраструктуру в городах и селах, нанесла Азербайджану материальный ущерб на миллиарды долларов. Почти 30 лет армяне совершали акт вандализма на оккупированных азербайджанских территориях, уничтожая все материальные, культурные, исторические и религиозные памятники. За этот период ненавистными армянами было уничтожено около 70 мечетей и большое количество культурно-исторических памятников. На протяжении многих лет Армения продолжала свою оккупационную политику, устраивала провокации на наших территориях, регулярно открывала огонь по нашему мирному населению, проживающему на границе с Арменией, и не давала им спокойно жить. Это преступление и вандализм, совершенные армянами, является геноцидом, совершенным против древнего культурно-исторического наследия азербайджанского народа. И делали это они намеренно в знак устрашения.1 Летом 2014 года, в сентябре 2015 года, в апреле 2016 года и в июле 2020 года атаки армян были достойно отражены. Вторая Карабахская война имеет большое значение для Азербайджана и показывает, каким образом национальный патриотизм может проявляться в контексте военного конфликта.

«…В тяжелые дни Родины мое сердце не выдерживает. Я должен сделать это во имя Аллаха. Как минимум мое сердце найдет успокоение. Пока не стану шехидом буду идти на врагов. Если я погибну, не плачьте, гордитесь, что мне удалось достичь такой вершины…» (Национальный Герой Азербайджана Мубариз Ибрагимов).

Патриотизм – это кровная память народа, высшее морально-нравственное качество, характеризующее личность. Национальный патриотизм – это приверженность своей стране, культуре и нации. Обеспечение непоколебимого единства народа, государства и армии является ключевым фактором для достижения значимых побед в военных конфликтах. Эти качества всегда формировались как важнейший характер в жизни нашего народа. Воплощением этой преданности к Родине стало то, что во Второй Карабахской войне под руководством

главнокомандующего азербайджанской армией Ильхама Алиева удалось очистить наши земли от захватчиков и обеспечить территориальную целостность Азербайджана. Война показала незыблемость единства азербайджанцев мира. Весь народ превратился в «железный кулак» для освобождения Родины.

Реальность того, что часть территории Азербайджана были оккупирована, вызывало гнев и недовольство народа. Азербайджанцы со всего мира, а также другие народы, поддерживающие Азербайджан, самоотверженно боролись с безобразными кампаниями, проводимыми армянами. Все проявили целостность в социальном, этническом и религиозном плане. Тысячи молодых людей добровольно изъявили желание отправиться на фронт и воевать против армянских захватчиков. Даже наши соотечественники за границей обращались в консульства и записывались на добровольческую армию. Они говорили, что готовы бороться и будут бороться до последнего вздоха, чтобы положить конец тридцатилетней тоске. Раньше эти слова были для нас только мифом и утешением. Однако Вторая Карабахская война показала, что на самом деле есть Герои, которые готовы сражаться за Родину до последней капли крови, пойти на войну, не зная, что его ждет в конце, оставив позади всех своих близких, семью, детей, чтобы вернуть наши земли. Они доказали, что фраза "Мы готовы сражаться, если надо, пойдем на смерть" была не просто так. Но откуда взялась эта решимость у наших бойцов, сражавшихся до последней капли крови? Ответ очень прост, они сражались за наши земли. Как сказал наш главнокомандующий "Мы воюем на своей земле."

Граждане, которые не были на фронте проявляли солидарность и не жалели помощи фронтовикам, демонстрировали готовность оказывать всяческую материальную и моральную поддержку. Для поддержки войны и национального единства использовались национальные символы, такие как флаги, лозунги и песни. Во время войны многие азербайджанцы, особенно женщины, выражали свою поддержку армии, создавая группы поддержки и отправляя

письма и подарки на фронт. Желание всех, больших и малых работать на фронт, поддерживать боевой дух армии, оказывать ей поддержку, вносить свой личный вклад в Побелу, превратилось в соревнование. Несмотря на заявление Минобороны, неоднократно повторяющего, что все что нужно Армии, обеспечивает государство, наш народ не останавливался, оказывал всякую помощь, собирал воду, сигареты, носки, сладости, теплые вещи для солдат, доставлял помощь фронту на своих личных автомобилях.

Также было создано множество добровольческих отрядов, которые помогали армии в различных задачах, таких как снабжение, транспортировка и лечение раненых. Национальный патриотизм проявлялся также и в культурной сфере. Например, азербайджанские музыканты и певцы создавали песни, посвященные военным событиям, которые пользовались большой популярностью среди азербайджанского народа. Артисты также выступали на военных площадках, чтобы поднять боевой дух солдат и офицеров.

Действующие в стране политические партии, отказались от своих политических взглядов и продемонстрировали национальное единство. Кроме того, национальный патриотизм проявлялся и в экономической сфере. Во время войны азербайджанская экономика столкнулась с огромными трудностями, но национальный патриотизм помог сохранить производственные мощности и обеспечить армию необходимыми ресурсами. Многие предприятия перешли на военное производство, чтобы обеспечить армию необходимым оружием и снаряжением.

Видя энтузиазм народа, Центральный банк разработал специальную программу для неограниченного перечисления пожертвований в “Фонд помощи Вооруженным Силам Азербайджанской Республики.” Государственные администрации и частные организации передавали сюда помощь от имени своих предприятий.

Сотрудники Национального музея истории Азербайджана не остановились на вкладе в этот фонд. Исторический музей

всей своей командой в короткий срок приступил к коллекционной работе по созданию выставки "Карабах – мать мечты на все времена". На этой выставке были почтены два героя Товузских сражений (генерал-майор Полад Гашимов и полковник Ильгар Мирзаев).

Роль национальных лидеров в формировании национального единства и патриотизма также была важной, так как они создавали общественное мнение, поддерживающее борьбу Азербайджана за свои территории. В результате 44-дневной Отечественной войны после освобождения наших земель от армянской оккупации храброй Азербайджанской Армией под руководством Верховного Главнокомандующего президента Ильхама Алиева, мы стали свидетелями зверств, совершенных армянами на наших землях. Азербайджанское государство постоянно принимает целенаправленные меры по разоблачению на международном уровне геноцида, преступлений и вандализма, совершенных Армений. Была проделана важная работа на различных платформах, международных институтах и организациях, двусторонних отношениях с могущественными государствами, в том числе рядом международных организаций, с которыми официально сотрудничает Баку, и были достигнуты важные результаты по приобщению армянских преступлений миру. Президент Ильхам Алиев предпринял большие шаги в направлении доведения до мирового сообщества правды об исторической победе в 44- дневной Отечественной войне, а также о преступлениях против мира и человечности, совершенных Арменией за 30 лет, в том числе и о военных преступлениях. Он дал более 30 интервью крупнейшим мировым СМИ и донес до международного сообщества настоящую правду о конфликте.

Медиа, включая телевидение, радио и социальные сети, также играли важную роль в формировании национального единства и патриотизма. В эти дни молодежь Азербайджана проводила множество кампаний, чтобы донести до мировой общественности армянский терроризм и вандализм, используя различные хэштеги. Они вели очень активную работу по

раскрытию реальных истин, ведя организованную борьбу в направлении фальсификации исторических фактов об Азербайджане в зарубежных СМИ, совершения противником преступных действий против мирного населения, широкого распространения информации об изменении названия городов и сел, а также недопущение дезинформации.

«Никто не рождается героем. Герои рождаются в битвах». В 44-дневной войне о силе, мощи и профессионализме нашей армии, наверное, не приходится и говорить. Высокий профессионализм, строгая дисциплина, надлежащий уровень оснащения, достаточная материально–техническая база, морально–психическая подготовка и энтузиазм личного состава, здоровые офицерско–солдатские отношения, научный и практический опыт выполнения оперативных задач с гордостью можем вписать в адрес нашей армии. Разумеется, что такое развитие в строительстве армии является результатом многих лет работы, внимания и заботы нашего государства. Солдаты и офицеры армии, особенно те, кто пришел на фронт добровольцами, чувствовали сильную привязанность к своей родине и готовы были идти на жертвы ради своей страны. Во время войны было много случаев героизма и самопожертвования со стороны азербайджанских военных. Например, были случаи, когда солдаты и офицеры самоотверженно спасали друг друга из-под огня противника или просто делились последними запасами еды и воды. Все это свидетельствует о глубокой привязанности азербайджанского народа к своей стране и желании защищать ее интересы во все времена.

Тактика и опыт боевых действий, использованные Азербайджаном в ходе конфликта XXI века, сегодня являются объектом изучения военных учебных заведений в различных развитых странах. Высоким профессионализмом продемонстрировала азербайджанская армия, которая, используя новейшее вооружение, одержала славную победу всего за 44 дня в чрезвычайно сложных условиях местности. С самого начала наша армия сумела преодолеть линию обороны противника.

Азербайджан совершил значительные инновации в области военного искусства, применяя в своих боевых операциях высокопроизводительные беспилотные летательные аппараты (БПЛА) и демонстрируя высокий уровень профессионализма. До начала Второй Карабахской войны БПЛА не были использованы в таком объеме и с таким высоким уровнем эффективности в боевых действиях. Президент Ильхам Алиев отметил, что операция по освобождению города Шуши станет значимым событием в мировой военной истории. Это связано с тем, что наши военные, не имея тяжелого вооружения, успешно провели эту операцию, преодолевая трудности гористой местности, лесов и тропинок.

Да, азербайджанская армия освободила Шушу, о чем мы мечтали 30 лет. В этот день, когда был освобожден город Шуша, наша Армия отбила у врага 70 сел и 80 стратегических высот. Героизм нашей Армии и доблесть наших воинов в этой битве напомнили нам сюжеты реальных сказок, былин и фильмов. Благодаря самоотверженному и мужественному поведению наших героев в трудный момент для нашей страны, над Карабахом, где долгое время витали темные тучи, начало проясняться небо. Эта война стала своего рода прорывом, который помог пролить свет на многие проблемы и сложности, стоящие перед нами. Она привела к укреплению идентичности народа Азербайджана. Благодаря героизму наших бойцов и победе над армянской агрессией, мы смогли более ярко продемонстрировать мировому сообществу нашу истинную культуру, традиции и идентичность. Кроме того, наша победа в этой войне помогла привлечь большее внимание международного сообщества к вопросам региона и добиться признания международного права, что позволило заложить основу для будущего развития и процветания региона.

Проявление национального патриотизма во время Второй Карабахской войны сыграло решающую роль в достижении победы Азербайджана в этом конфликте. Оно объединило народ вокруг общей цели, поддержало боевой дух азербайджанской армии, помогло укрепить международную поддержку

Азербайджану и показало его как нацию, борющуюся за свои исторические и правовые права. В эти дни азербайджанский народ своей решимостью продемонстрировал всему миру свое единство, солидарность и патриотизм!

## MƏKTƏBƏ HAZIRLIQ QRUPLARINDA VARİSLİK PRİNSİPİNİN YERİNƏ YETİRİLMƏSİ

***Gülnarə Xaliq qızı Arıxova***
***GDU-nun pedaqogika kafedrasının doktorantı***
***asinka80@gmail.com***

Məktəbəqədər təhsil dövlətimizin təhsil siyasətinin mühüm bir sahəsidir. Gələcək nəslin təməl bilk və bacarıqları sistemli şəkildə məhz təhsilin bu pilləsində qoyulur. Bu cəhətdən məktəbəqədər və məktəb təhsilinin bütün sonrakı pillələri varislik prinsipi əsasında qurulmalıdır. Ümumtəhsil məktəblərində və məktəbəqədər təhsil müəssisələrində təşkil olunan məktəbə hazırlıq qruplarında pedaqoji prosesin uğurlu təşkili bu qruplarda təlim və tərbiyə işi aparan müəllim və tərbiyəçilərin yüksək səriştəliliyi və peşəkarlığı tələb olunmaqla bərabər, sonrakı təhsil pilləsi olan ibtidai siniflər üçün varisliyi tələb edir. Yəni bu mərhələdə aparılan təlim- tərbiyə işləri təməl biliklər hesab olunmaqla sonrakı ibtidai təhsilin əsasnı qoyur. Təməl nə qədər möhkəm olarsa gələcək təhsil pillələri də bir o qədər möhkəm olacaqdır.

"Azərbyacan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" -24 oktyabr 2013-cü il möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı təhsilimizin inkişafında, o cümlədən məktəbəqədər təhsilin inkişafı üçün geniş perspektivlər açmış, təhsilin bu ilk pilləsinin yeniləşdirilməsi və modernləşdirilməsi və məktəbə hazırlıq qruplarında əlverişli imkan və şəraitin yaradılması xüsusi olaraq göstərilmişdir. Bu mühüm dövlət sənədində deyilir: "Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət

siyasətində əhəmiyyətli yer tutur" (1).

Gələcək nəslin təməl bilk və bacarıqları təhsilin bu pilləsində qoyulduğundan təhsilin bu pilləsinə xüsusi diqqət yetirilməli, məktəbə hazırlıq qruplarında təhsilin məzmunu daim dövrə uyğun olaraq yeniləşdirilməsi, təkmilləşdirilməsi və yeni kurikulumlar hazırlanmaldıır.

Təsadüfi deyildir ki, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda məktəbəqədər təhsilin qarşısında ciddi vəzifələr qoyulmuş və orada deyilir: "Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin etməlidir... Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir"(2).

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında" 2016-cı il 11 iyul tarixli 271 nömrəli sərəncamında bu barədə xüsusi olaraq qeyd edilir ki, məktəbə hazırlıq qruplarında aparılan pedaqoji, psixoloji iş varislik prinsipi əsasında qurulmalıdır (3).

Bu cəhətdən tərbiyəçi və müəllimlər pedaqoji fəaliyyəti prosesində uşaqlarla aparılan işlərdə pedaqoji tələbləri yaxşı bilməli və buna müvafiq olaraq onları pedaqoji və psixoloji, fizioloji və sosioloji, intellketual cəhətdən məktəb təliminə hərtərəfli hazırlamalıdırlar.

Məktəbəqədər təhsil müəssisəsi ilə məktəb arasındakı əlaqə və ardıcıllıq tərbiyə prosesində varislik prinsipinə əsaslanmalıdır. Bu prinsip tələb edir ki, təhsilin keyfiyyətli və səmərəliliyi, təhsilin davamlı və məntiqi ardıcıllığı təmin edilsin, təhsil və əldə olunmuş təcürbə növbəti nəslə dövr edilsin.

Varislik o deməkdir ki, uşaqlara verilən bilik və təcrübələr əvvəlki bilik və təcrübəyə əsaslanmalı, əvvəl keçilən, öyrədilən biliklər, bu gün onun məntiqi davamı olmalı, sabah isə yeni biliklər növbətiyə dövr edilməlidir. Bu pedaqoji proses cəmiyyətin tələbatına görə, dövlət təhsil standartlarına, tədris plan və proqramlara uyğun qurulmalıdır.

Eyni zamanda varislik prinsipinə məktəbə hazırlıq qruplarında öyrənilən materialların, fakt və hadisələrin ardıcıllığı, bilik nəticələrinin bir-birini məntiqi izləməsi və tamamlaması prosesi kimi də baxmaq olar.

Varislik inkişafa xidmət etməli, hər hansı bir bilik, məlumat və ya nəticə özündən əvvəlkinin mahiyyətcə zənginləşməsinə, inkişaf etməsinə və əhatə dairəsinin genişlənməsinə istiqamətlənməlıidir. Bu mənada təsadüfi deyil ki, varislik "Təhsil haqqında" Qanununda təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri kimi təsbit olunaraq belə yazılmışdır: "Varislik – təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi" deməkdir(2, 11).

Məktəbqədər təhsil müəssisəsi ilə məktəb arasında sıx qarşılıqlı əlaqə olmalı və bu varislik prinsipinə əsaslanmalıdır.

Məktəbqədər təhsil müəssisəsi və məktəbin işindəki ardıcıllığın həyata keçirilməsi bir tərəfdən müəssisədə uşaqların məktəb təliminə hazırlanması, digər tərəfdən məktəbin öz vəzifələrini həll etməsi üçün uşaq bağçası məzunlarının nailiyyətlərindən, onların bilik və bacarığından optimal şəkildə istifadə edilməsi deməkdir. Məktəbəqədər təhsil müəssisəsinin uşaqlarda formalaşdırdığı mənəvi keyfiyyətləri ümumtəhsil məktəb yaşadır, təkmilləşdirir və inkişaf etdirir. Məktəbqədər təhsil müəssisəsində illərlə qazanılmış bilik, bacarıq və vərdişlər məktəb illəri üçün təməl biliklər hesab edilir və hərtərəfli inkişaf üçün özül yaradır.

Uşağın məktəbə hazırlanması mürəkkəb pedaqoji, psixoloji problemdir. Yaxşı məlumdur ki, məktəbəqədər təhsil müəssisəsində məktəbə keçid uşaqların bütün şəxsiyyətinə cidid təsir göstərir və onun qarşısına xeyli yeni vəzifələr qoyur. Bu cəhətdən uşaqların məktəbə - ilk növbədə ibtidai siniflərə hazırlığı varisliyin bir nümunəsi olaraq pedaqoji, psixoloji, sosial, intellketual hazrlıq və hərtərəfli inkişaf tələb edir. Ona görə də məktəbqədər təhsil müəssisəsi ilə ümumtəhsil məktəbi arasında varislik, qarşılılqı əlaqə və uyğunluq pedaqoji prosesin varislik prinsipinə əsaslanmalıdır.

Uşaq bağçası ilə məktəb arasında varislik müxtəlif cəhətlərdə özünü göstərir: Varislik metod və priyomların tətbiqində, proqram

materiallarının məzmununda, məşğələ və dərsin təşkilində, dərslik və dərs vəsaitlərinin tərtibində, müıllim və tərbiyəçilərin şərhində özünü göstərir.

Hazırlıq qruplarında keçirilən məşğələlər uşaqların zehni hazırlığına yaxşı şərait yaradır, intellektual bacarıq və qabiliyyətlərini, istedadlarını xeyli dərəcədə inkişaf etdirir. Uşağın məktəbə zehni hazırlıq və müəyyən intellektual bacarıq və qabiliyyətlərlə getməsi o deməkdir ki, uşaq onu əhatə edən təlim – tərbiyə mühitinə hazırdır və ona müvafiq aparılan pedaqoji, psixoloji prosesi qəbul etmək imkanına malikdir.

Uşaq bağçasının böyük qrupuna məktəbə hazırlığın əsas pilləsi kimi baxılır, çünki məktəb bu yaşlı uşaqlar üçün ən yaxın gələcəkdir. Ona görə də məktəbin təlim, tərbiyə işinə hazırlığı məqsədyönlü xarakter daşıyır. Tərbiyəçi aydın bilməlidir ki, uşaq məktəbə gələn gündən onun həyatı ciddi vaxt çərçivəsində keçir. Bu rejim çərçivəsində uşaq pedaqoji və psixoloji cəhətdən lazımi səviyyədə fəaliyyət göstərməyə hazır olmalıdır. Uşaq bağçasının məktəbə hazırlıq qrupunda uşaqlar tapşırığı dinləmək, başa düşmək, yazmaq, hesablamaq, tapşırıqları müəyyən vaxt içərisində icra etmək anlayışları ilə yaxından tanış olur və rejim əsasında fəaliyyət göstərməyə alışırlar. Əks təqdirdə, məktəbin I sinfində uşaqların adaptasiya mərhələsi çox çətin keçə bilər. Uşağın gələcək inkişafı məktəbdə müəllimdən, xüsusilə uşaqların bağçada qazandıqları keyfiyyətlərin necə inkişaf etdirilməsindən çox asılıdır. Yekun olaraq deyə bilərik ki, dövlətimizin ən böyük və ən qiymətli sərvəti gələcəyimiz olan uşaqlardır. Onları sağlam, cəmiyyətə faydalı vətəndaşlar kimi böyütmək həm çətin, həm şərəfli, həm də qürurverici bir işdir. "Gənc nəslin vətənpərvərlik, tariximizə, milli köklərə bağlılıq, böyüklərə yüksək ehtiram və mənəvi zənginlik, əxlaqi saflıq duyğuları ilə tərbiyə olunması, onların bir şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması dövlətin daim diqqət mərkəzində və aparıcı starteji siyasəti olaraq, varislik prinsipinə əməl edilir və bu prosesdə öncə ailənin, sonra məktəbəqədər təhsil müəssisələrinin, daha sonra ümumtəhsil məktəblərinin və digər sosial institutların öhdəsinə düşən böyük və məsuliyyətli vəzifələr ardıcıllıqla davam edir (4, s. 125).

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.
2. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
3. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında" 2016-cı il 11 iyul tarixli 271 nömrəli sərəncamı/ Xalq, 13 iyul, 2016.
4. Hüseynzadə R.L., Allahverdiyeva L.Z. Ailə pedaqogikası. Dərslik. Bakı:ADPU, 2016, 340 s.


# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR TƏDQİQATLARDA


***Ədalət Camal qızı Camalova***
***BDU, Pedaqogika kaferdasının doktorantı***
***bsu.pedagogy@gmail.com***


Azərbaycançılıq ideologiyasının tarixi ilə əlaqədar tədqiqatçılar son iki əsrlə bağlı olduğunu bildirirlər. Görkəmli tədqiqatçı alim Yaşar Qarayev özünün "Milli "mən" şüuru və etnik yaddaş azərbaycançılıq" adlı dərin məzmunlu məqaləsində qeyd edir: *"Millət - Azərbaycan, milli ideya, dövlətçiliyin sivil ideya modeli - azərbaycançılıq! - iki əsrlik nəzəri-ideoloji fikrimizin yekunu, sonuc qənaəti bu gün bu iki düsturla formula edilir"*.

Azərbaycançılıq ideologiyası ilə əlaqədar ümumi qəbul olunmuş qənaətə görə onun tarixi daha qədimlərə min, min beş yüz il əvvəllərə gedib çıxır.

Xalqımız dünyaya zərdüştü və "Avesta" kitabını bəxş etmişdir. "Avesta" kitabı Azərbaycanın bütün dünyada zəngin mənəviyyata, mədəniyyətə malik olan bir məmləkət olduğunu yazılı şəkildə tanıdan ilk sənət nümunəsi kimi son dərəcə qiymətlidir.

"Kitabi-Dədə Qorqud"un Azərbaycan xalqının ana kitabı adlanması təsadüfi deyildir. Burada xalqımızın ümummilli ruhu öz

əksini tapmışdır. Azərbaycanlıları digər millət və etnoslardan fərqləndirən ən mühüm amillərin məcmusu məhz Azərbaycanın ruhunu ehtiva edir.

Tədqiqatçı alim Sona Vəliyeva qeyd edirdi ki, Azərbaycançılığın ən vacib - birinci ünsürü dildir. İnsanların bütün dövrlər arasında qırılmaz əlaqə yaradaraq onları maarifləndirməkdə, milli özünüdərk hisslərini tərbiyə etməkdə və gələcək nəsillərə çatdırmaqda milli dil əvəzolunmaz vasitədir.

Tədqiqatçı alim Nizami Xudiyev problemlə bağlı öz fikrini belə ifadə edir: "Mənim anlamımda azərbaycançılıq şüarı belədir: "Türk millətindən. İslam ümətindən. Azərbaycan məmləkətindənəm". Qeyd olunan fikrə aydınlıq gətirmək üçün müəyyən təhlillər verən professorun fikirlərini tədqiqata gətirməyi məqsədəuyğun sayırıq". Azərbaycanın suverenliyi milli prinsipə əsaslanır, azərbaycançılıqda həm də onun ideoloji prinsipləri təsbit olunur. O, qlobal siyasət üçün nəzəri bazadır, çünki dövlətlərə və xalqlara yeni ictimai sahman və təfəkkür koordinatları diktə edir".

1996-cı ildən "Azərbaycan ideologiyası'na həsr olunmuş yazılarla problemin elmi-nəzəri məsələlərin tədqiqini oxucuların diqqətinə çatdıran prof. N.Şəmsizadə bu sahədə konkret nəticələrə gəlmişdir. Onun sözlərinə görə azərbaycançılığın formulasına aşağıdakılar aiddir:

– Azərbaycançılıq milli istiqlal ideologiyasıdır.

– Azərbaycançılıq türkçülüyün Vətən əxlaqı müstəvisində dərkidir.

– Azərbaycançılıq dünya azərbaycanlılarına onların milli kimliyini tanıdan bir ideologiyadır.

Azərbaycançılıqla bağlı tanınmış - dilçi alim, azərbaycanşünas, AMEA-nın müxbir üzvü, millət vəkili N.Cəfərov göstərir ki, azərbaycançılıq ideologiyası geniş mənada, əsrlər - minilliklər boyu təşəkkül tapıb. Bu düşüncə tərzi XIX əsrin sonu XX əsrin əvvəllərində ilkin formalaşdıqdan sonra dövrümüzədək mürəkkəb, ziddiyyətli, davamlı bir təkamül yolu keçmişdir.

Milli tarixşünaslığımızın görkəmli nümayəndəsi, akademik Y.Mahmudovun azərbaycançılığın mahiyyətinin qaynaqlandığı amilləri ətraflı şərh etmişdir: *"Şimaldan Baş Qafqaz dağları, qərbdən*

*Göyçə gölü hövzəsi də daxil olmaqla Alagöz dağ silsiləsi və və Şərqi Anadolu, şərqdən Xəzər dənizi, cənubdan isə Sultaniyyə - Zəncan Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Hazırda Anadolu türklərindən sonra dünyanın ikinci böyük türk xalqı olan Azərbaycan xalqı bu ərazidə - tarixi Azərbaycan torpaqlarında zəngin və özünəməxsus bir mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Azərbaycan xalqı, təqribən beş minillik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu, III minilliyin əvvəllərindən başlayaraq, Urmiya hövzəsində yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi siyasi tarixində mühüm rol oynayırdılar. Qədim Azərbaycan tayfa birliyi olan Qutilər, hətta özlərinin qüdrətli qonşuları olan Akkad dövlətini məğlub etmiş, öz dövlətlərinin sərhədlərini İran körfəzinə qədər genişləndirmiş, bu ərazidə 100 ilə qədər bir müddət ərzində hökmranlıq etmişdir.*

Azərbaycançılıq məfkurəsini həyatımızın müxtəlif sahələrinə XIX–XX əsrlərdə gətirən mütəfəkkirlərin olmasına baxmayaraq, milli siyasətə, yüksək dövlətçilik təlimi səviyyəsinə XX yüzilliyin yetmişinci illərindən qüdrətli siyasi xadim Heydər Əliyev tərəfindən gətirilməsi - onun ən böyük tarixi xidmətidir. Azərbaycançılığı tərənnüm edən ən müdrik fikirlər məhz Heydər Əliyev tərəfindən söylənilmişdir. Həmin fikirlər yeniyetmələrin azərbaycançılıq ruhunda bir şəxsiyyət kimi formalaşıb tərbiyə olunmasını təmin edən dəyərli təlim materialları olub, özündə - dövlətin mənəvi gücünü əks etdirir.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNDƏ GƏNCLƏRİN MİLLİ-MƏNƏVİ TƏRBİYƏSİ

***Səbinə Elçin qızı Cəfərova***
***Bakı Dövlət Universitetinin dissertantı***
***sabka567@gmail.com***

Ulu öndər Heydər Əliyevin zəngin nəzəri irsində və fəaliyyətində gənclərin milli-mənəvi tərbiyəsi çox önəmli yer tutur.

O Azərbaycana rəhbərlik etdiyi dövrlərdə elmə, təhsilə, milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirmiş, xalqın irəli getməsində təhsilin rolunu yüksək qiymətləndirmişdir.

Ümummilli lider Heydər Əliyev cəmiyyətin tərəqqisi və insan şəxsiyyətinin formalaşmasını təhsildə görürdü. Dahi liderin təhsil haqqında qəbul etdiyi sərəncamlar, tarixi çıxışlar, müdrik məsləhətlər, dəyərli tövsiyələır bu gün də ölkəmizdə təhsil sahəsində aparılan islahatların əsasnı təşkil edir [1]

Heydər Əliyev xalqımızın adət-ənənələrinin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını və onların öyrənilməsini hər bir azərbaycanlının müqəddəs borcu sayırdı. Ulu öndər yaxşı bilirdi ki, gənc nəslin düzgün tərbiyə olunması, düzgün istiqamətlənməsi və yaxşı təhsil alması  ilk növbədə xalqın milli-mənəvi dəyərlərini öyrənməkdən başlayır [2]

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində demişdir: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”. Ulu öndərimizin müdrik fikirlərindən irəli gələrək, yetişməkdə olan gənc nəslin milli-mənəvi ruhda, mənəvi mədəniyyət əsasında tərbiyəsi bu gün təhsilimiz qarşısında duran ən vacib məsələlərdəndir [3]

Ulu öndər Heydər Əliyevin toxunduğu məsələlərdən biri də təhsilin məzmunca dövlətçilik prinsipləri əsasında qurulmasına nail

olmaqdan, yeni məzmunlu milli dərsliklərin yaradılmasından, milli ideologiyanın, vətənpərvərliyin əsas reallaşma vasitələri olan dil, ədəbiyyat, tarix, mədəniyyət, xalqın adət və ənənələrin öyrənilməsini mühüm vəzifə kimi qarşımıza qoymuşdur.

Gənclərin mənəvi tərbiyəsinin düzgün təşkil olunması və bu istiqamətdə işin gücləndirilməsi, cəmiyyətdə baş verən neqativ halların aradan qaldırılması yolları ilə bağlı Heydər Əliyevin söylədiyi qiymətli fikirlər xalqın, millətin, cəmiyyətin birliyində aparıcı yer tutur. Mənəvi birlik və mənəviyyat məsələsinə tarixi prizmadan yanaşan ulu öndər tarixi şəxsiyyətlərin, elm və mədəniyyət xadimlərinin fikirlərindən, ideyalarından istifadə etmiş, onlara söykənmiş, istifadə üsullarını göstərmişdir. O, dövlət başçısı və siyasi xadim kimi mənəvi birlik problemini ümumi şəkildə qoyurdu. Milli adət-ənənələri xüsusi qiymətləndirən ümummilli liderin fikrincə, milli adət-ənənələr insanları tərbiyələndirmək, mənəvi cəhətdən zənginləşdirməklə yanaşı, milli birliyə xidmət edir [4]

Böyüyən nəslin milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə olunması işində Heydər Əliyev təliminin əsas müddəaları və prinsipləri ölkə gənclərinin müstəqil dövlətimizin sahibi kimi formalaşdırılması ideyaları ilə zəngindir. Onun bu məşhur ifadəsi qürurla səslənir ki, "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir". Gənclərimiz özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməyi bacarmalı, onun əbədi olmasına çalışmalıdır. Gənclərin milli ruhda tərbiyəsini dönə-dönə xatırladan ulu öndər bu istiqamətdə tərbiyə və təhsil qurumlarının qarşısına böyük və məsul vəzifələr düşdüyünü qeyd edirdi. Bu gün milli tərbiyə fəaliyyət proqramının hazırlanmasına aid baxışlar da məhz Heydər Əliyev tərəfindən əsaslandırılaraq irəli sürülmüşdü.

Ümummilli lider milli tərbiyənin məzmununa ilk öncə gənc nəslin milli vətənpərvərlik anlayışını və azərbaycançılıq hissinin formalaşdırılması ideyasını aid edirdi. Heydər Əliyev azərbaycançılıq hisslərinin zəruriliyindən bəhs edərkən söyləyirdi: "Azərbaycançılıq hissiyatını gənclərdə yaratmaq lazımdır. Azərbaycanı sevmək azərbaycançılıq hissiyatını özündə cəm etmək deməkdir. İndi

müstəqil Azərbaycan Respublikası məlum olan Azərbaycanın hüdudları çərçivəsindədir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlılardır, onlarda da azərbaycançılıq hissləri yaşamalıdır, onlar da özlərini azərbaycanlı kimi hiss etməlidirlər, onlar da Azərbaycanla bağlı olmalıdırlar".

## Ədəbiyyat


1. Əfəndiyev, T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz // 525-ci qəzet. – 2011, – 13 yanvar. – s. 4
2. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 2. – 1997. – 446 s
3. Əliyev Heydər: Mənəviyyat. Mənəvi dəyərlər. Mənəvi tərbiyə / tərt. ed. Ə.İsmayılov. – Bakı: "Müəllim" nəşriyyatı, – 2008. – 637 s.
4. Əliyev, H.Ə. Təhsil millətin gələcəyidir / H.Əliyev. – Bakı: Təhsil, – 2002. – 302 s.


# AİLƏDƏ UŞAQLARIN DÜZGÜN DAVRANIŞ MƏDƏNİYYƏTİ


***Nərmin Mərdan qızı Əliyeva***
***BDU -nun doktorantı***


Ulu Öndər Heydər Əliyev yetişən gənc nəslin milli-mənəvi və əxlaqi dəyərlər əsasında tərbiyə edilməsini tərbiyə və təhsil işi ilə məşğul olanların qarşısına mühüm bir vəzifə olaraq qoymuş və demişdiur:"...Biz öz milli- mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (1). Uşaqların milli-

mənəvi dəyərlər, gözəl davaranış mədəniyyəti əsasında tərbiyəsi ilk növbədə ailədən başlayır.

Ailə tərbiyəsinin əsasını ailədaxili münasibətlər təşkil edir. Bu münasibətlərin düzgün qurulması üçün ailə üzvləri, ilk növbədə, ailə başçıları bir-birinə hörmət və ehtiramla yanaşmalı, davranışlarına diqqət yetirməlidirlər.

Ailə tərbiyəsinin əsas məqsədi hərtərəfli inkişaf etmiş - mənən zəngin, əxlaqca saf, fiziki cəhətdən kamil şəxsiyyət yeişdirmək, vətənə xalqa layiqli vətəndaşlar tərbiyə etməkdir. Uşağın intellektual və yaradıcı qabiliyyətlərinin, idraki qüvvələrinin inkişafı, mədəni səviyyəsi və ilkin əmək fəaliyyətində qazandığı təcrübə, əxlaqi və estetik təcrübəsi, emosional mədəniyyəti və fiziki sağlamlığı ailədən, valideynlərdən başlayır. Bütün bunlar ailə tərbiyəsinin başlıca məqsədini təşkil edir.

Ailə tərbiyəsi haqqında Azərbaycanın görkəmli pedaqoqlarından prof. Ləzifə Qasımova (2), prof. Rüfət Hüseynzadə (3), prof. Akif Abbasov (4), prof. prof. Sərdar Quliyev, dos. Mehparə Quliyeva və başqaları dəyərlər əsərlər yazmış, dərslik və dərs vəsaitləri nəşr etdirmişlər.

Uşaq şəxsiyyətinin formalaşmasında valideynlərin onların qarşısına qoyduğu tələb və tapşırıqlar mühüm rol oynayır. Nümunəvi və məsuliyyətli valideynlər daim öz övladlarının tərbiyəsi qayğısına qalır, onların tərbiyəsinə ciddi yanaşır və övladlarında yüksək mənəvi, əxlaqi keyfiyyətlər, vətənpərvərlik, əməksevərlik, estetik mədəniyyət, düzlük və doğruculuq, böyüyə hörmət və kiçiklərə qayğıkeşlıik, yaxşılıq və xeyirxahlıq, yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq, dəqiqlik, ədalət və sadəlik kimi yüksək insani keyfiyyətlərin tərbiyə edilməsi, inkişaf etdirilməsi qayğısına qalırlar.

Ailə tərbiyəsində valideynlər öz uşaqlarına nümunə olmalıdırlar. Valideynlər uşağa bir-biri ilə və cəmiyyətlə münasibətlərin modelini nümayiş etdirirlər. Bu münasibətlərin sakit, aktiv, qiymətləndirici, etibarlı və ya etibarsız olub-olmaması valideynlərdən asılıdır.

Ailədə mütləq ata və ana lazımdır. Anadan uşaqlar mehribanlıq, incəlik, zəriflik, yaxşılıq və insanlara qarşı həssaslıq, hissləri alır, əxlaqi – mənəvi keyfiyyətlıəri əxz edirlıər. Atadan isə

mərdlik, dözümlülük, iradəlilik, mübarizlik, çəsurluq, çalışqanlıq, əməksevərlik, ciddilik, uğur qazanmaq kimi bacarıq və keyfiyyətlər alırlar. Uşaqaların ataları ilə münasibəti onların gələcək ailə həyatında həyat yoldşalarına münsibətinə təsir göstərir. Göstərilən bu xüsusiyyətlərin kompleks birləşməsi nəticəsində hərtərərəfli inkişaf etmiş ləyaqətli şəxsiyyət formalaşa bilər.

Müasir dövrdə övlad tərbiyə etmək böyük, ciddi və məsul işdir. Bu işin öhdəsindən ləyaqətlə gəlməkdən ötrü həm ata, həm də ana öz fikrini diqqət və iradəsini ona verməli, valideynlik vəzifəsini bir an da olsa, unutmamalıdır. Ailə başçılarının öz valideynlik vəzifəsini bütün məsuliyyəti ilə daim hiss etmələri və onu fəal surətdə yerinə yetirmələri ailə tərbiyəsində müvəffəqiyyətin rəhnidir.

## Ədəbiyyat


1. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq/Azərbaycan qəz. Bakı, 1996, 6 fevral.
2. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 220 s.
3. Hüseynzadə R.L., Allahverdiyeva L.Z. Ailə pedaqogikası. Dərslik. Bakı: ADPU, 2016, 340 s.
4. Abbasov A.N. Milli əxlaq və ailə etikası (Universitetlərin magistratura səviyyəsi üçün dərslik). Bakı: Mütərcim, 2013. 324 s.
5. Quliyev S.M., Quliyeva M. A. Şərq mütəfəkkirlərinin əsərlərində ailədə övlad tərbiyəsi. Bakı: ADPU, 2008, 315 s.

## *IV B Ö L M Ə*

## *PEDAQOGİKANIN TARİXİ*

# HEYDƏR ƏLİYEVİN TƏHSİL STRATEGİYASI VƏ REALLIQLAR

***İramin İsayev***
***ADPU-nun Ümumi pedaqogika kafedrasınnı müdiri, professor***
***iramin.isaev@mail.ru***

Çağdaş dünyada, sosial-iqtisadi, mədəni-maarif sistemlərinin bütün spektrlərini əhatə edən geniş miqyaslı qloballaşma və modernizasiya prosesinə uyğun, müxtəlif dövlətlər arasında yeni inteqrativ münasibətlərin reallaşdırılması intensiv surətdə davam etdirilir. Davam edən dünyamiqyaslı bu prosesin mühüm istiqamətləri kimi elm, təhsil və mədəniyyətin inkişafı naminə həyata keçirilən islahatlar Azərbaycan sosial mühitinin də vacib tələbi kimi özünü göstərir. Azərbaycan sosial mühitinin mühüm tərkib hissələrindən biri olan təhsil sistemində baş verən islahatlar, onun ümumdünya praktikasına inteqrasiyası dünya miqyasında təzahür edən qloballaşma tendensiyasına uyğun olmaqla müasir təhsilin prioritet istiqamətlərindən doğan fasiləsiz modernləşdirmə aspektlərinin zəruriliyini özündə ehtiva edir. Çünki, qloballaşma müasir cəmiyyətin inkişaf dinamikasına stimul verən çoxkomponentli, çoxparametrli və mürəkkəb olan təhsil prosesinin səmərəli qurulması, hər bir dövlətin intellektual potensialını müəyyənləşdirməklə, onun dayanıqlığını təmin edən, inkişafı şərtləndirən vacib amillərdəndir. Elə bu səbəbdəndir ki, "Təhsil millətin gələcəyidir..." - deyən Ulu öndər Heydər Əliyev özünəməxsus uzaqgörənliklə çağdaş təhsilin qarşısında duran ümdə vəzifələri; ümumi dəyərlər sistemində milli-bəşəri dəyərlərə sahib olaraq demokratik təsisatların mənimsədilməsi və inkişafında iştirak etmək bacarığına malik, müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq strategiyasının həyata keçirilməsi konsepsiyasını

müəyyənləşdirmişdir. Məhz Heydər Əliyevin təhsil strategiyasının düzgün dərkinin nəticəsidir ki, son illər Azərbaycan təhsilinin dünya təhsil məkanına birbaşa qoşulması prosesi müvəffəqiyyətlə davam etdirilir və cəmiyyətin inkişafına xidmət göstərən konseptual istiqamətlər müəyyən edilərək uğurlu nəticələr qazanılır. Bu istiqamətlərə müvafiq ölkəmizdə bütün elm və təhsil sahələri üzrə inkişaf strategiyası hazırlanaraq, gənc nəslin elmlərə sahib olması və ölkənin intellektual səviyyəsinin yüksəldilməsi məramına Heydər Əliyev konsepsiyasına rəğmən xüsusi önəm verilməsi təsadüfi deyil. Elmi-texniki nailiyyətlərin təkcə iqtisadi istehsal sahələrinə deyil, təhsildə, təlim-tədris prosesində geniş yer tutması, cəmiyyətdə yüksək intellektuallığın bərqərar olması, milli və ümumbəşəri dəyərlərin vətəndaş hazırlığında rolunun dəyərləndirilməsi, təhsil işinin məzmunun, təlim-tərbiyə prinsipləri, metod və vasitələrinin təkmilləşdirilməsi yüksək intellek və təfəkkür sahibi Ulu öndər Heydər Əliyevin uğurlu təhsil siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir. Keçən əsrin 70-ci illərindən ölkədə başlayan ictimai-siyasi dəyişikliklər milli mənlik şüurunun formalaşması, milli təhsilin inkişafı, sosial-ictimai mühitdə özünü göstərən deformasiyaların aradan qaldırılması, Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə özünü reallaşdırmağa başladı. Milli, müstəqil dövlətçilik naminə daima çırpınan ürək sahibi Heydər Əliyev milli şüur, əqidə, mənəviyyat kimi müqəddəs hislərin insanlarda formalaşmasının təhsil siyasətinin düzgün qurulmasında görürdü. Təhsili dövlətçiliyin müqəddəm şərti hesab edən Dahi şəxsiyyət bütöv həyatı və fəaliyyəti ərzində həmin amala sadiq olmuşdur. Insanlarda intellektual səviyyənin yüksəlməsini daima diqqət mərkəzində saxlamış, bu işdə xalqımıza məxsus tarixən formalaşdırılan, milli təhsil ənənələrinə istinad olunmasını da vacib şərt saymışdır.

Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıtdıqda da milli müstəqillik qazanmış ölkəmizdə yeni quruculuq işlərinə rəğmən cəmiyyətdə özünü göstərən neqativ hallara, mənəviyyatsizliyə qarşı daima mübarizə aparır, insanları milli-mənəvi dəyərlərimizə ehtiramla yanaşmağa çağıraraq, prinsipiallığı, mənəvi dəyərlərə sadiqliyi, milli şüuru, əqidəsi, ləyaqəti, şəxsi xarakter bütövlüyü, vətənpərvərliyi, həyata nikbin baxışı ilə, vəzifəli şəxslərə, bütövlükdə

xalqına nümunə göstərirdi.

Heydər Əliyevin mənəvi keyfiyyətlərinin məntiqinin həyatiliyini biz Azərbaycanda təhsil ənənələrinə ehtiramında, onu təhlil edərək müsbət cəhətləri üzə çıxarıb, bu günkü təhsil siyasətində tətbiq etmək bacarığında aydın görürük. Heydər Əliyev hələ XIX əsrdən başlayaraq XX əsrin əvvəllərində Azərbaycanda milli təhsil uğrunda mübarizənin mahiyyətini, inkişaf tendensiyalarını aydınlaşdıraraq 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin indiki təhsil sisteminin inkişafında rolunu yüksək qiymətləndirir. "Xalq Cümhuriyyətinin böyük xidməti ondan ibarətdir ki, Azərbaycanda ilk ali təhsil müəssisəsi yaradıbdır. Ancaq bu ali təhsil müəssisəsinin yaranması ondan əvvəl Azərbaycanda gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsi olmuşdur. Azərbaycanda indi mövcud olan təhsil sistemi 1920-ci ildən sonrakı dövrdə yaranıbdır." Diqqəti cəlb edən cəhətlərindən biri göründüyü kimi Heydər Əliyev haqlı olaraq keçmiş sovet təhsil sistemini kənara atılmalı, yararsız, lazımsız, nəzəriyyələr, prinsiplər sistemi kimi qəbul etməmiş, onu bugünkü təhsilimizin mühüm tərkib hissəsi hesab etmiş və yüksək qiymətləndirmişdir. "Mən açıq demək istəyirəm, bu təhsil sistemi (sovet – I.I.) çox yaxşı bir sistemdir. ...Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz onda Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərdə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq." Lakin 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkənin ictimai-sosial, iqtisadi həyatında zamanın tələbinə uyğun yenidənqurma işlərinin aparılması pərdəsi altında hakimiyyətdə təmsil olunanların səriştəsizliyi üzündən tarixən xalqımız tərəfindən formalaşdırılımış mənəvi dəyərləri kənara ataraq bütün sahələrdə olduğu kimi təhsil sistemində də üzdəniraq "yenidənqurma" işlərinə başlandı. Ulu öndər belə yanaşmaları rədd edərək, bu kimi zərərli tendensiyalarla razılaşmağın mümkünsüzlüyünü bildirdi. Bu mənada 1992-ci ildə qəbul edilmiş

Təhsil qanunu haqqında tənqidi düşüncələrini belə ifadə etdi: "...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan... Təəssüflər olsun ki, Azərbaycanda bu mühüm sahəyə 1992-ci ildə qəbul olunmuş təhsil qanunu ilə böyük zərbə vurulmuşdur. Mən təəssüf edirəm ki, təhsil sahəsində çalışan məsul şəxslər və təhsil işçiləri Azərbaycanın təhsil sisteminə vurulan bu zərbəni indiyədək təhlil etməyiblər, araşdırmayıblar və buna lazımi qiymət verməyiblər". Elə bu səbəbdən də Heydər Əliyev qətiyyətlə təhsil islahatlarını günün tələbləri səviyyəsində müvəffəqiyyətlə aparmaq üçün yeni təhsil qanununun qəbul edilməsi vacibliyini irəli sürür. Qəbul olunacaq təhsil qanununun elmi-pedaqoji əsasları ilə əlaqədar strateji düşüncələrini konseptual formada ümumiləşdirməsi əlçatmaz siyasi xadim Heydər Əliyevin yüksək pedaqoji təfəkkürə malik şəxsiyyət olduğunu sübut edir: "Təhsil sahəsində qəbul edəcəyimiz qanunda və islahat proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərməliyik. Mənim fikrimcə, bu ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemində tətbiq edilməlidir". Məhz, Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil strategiyası; milli ənənələrə, ümumbəşəri dəyərlərə istinadən dünya təhsil standartlarına cavab verən, həm məzmun, həm də formaca daha mükəmməl təhsil sisteminin yaradılması strategiyası öz əksini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il 15 iyun tarixdə imzaladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı"nda öz əksini tapmışdır.

Heydər Əliyev təfəkkürü və düşüncəsinin nəticəsi kimi gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi kimi konseptual problemlərin həlli və reallaşdırılması kontekstində elm və

təhsili diqqət mərkəzinə çəkməsi təsadüfi deyil. Bu məram Heydər Əliyevin dövlətiçiliyimizin inkişaf edib möhkəmləndirilməsi, dünya dövlətləri içində özünəməxsus yer və mövqe qazanması üçün vacib şərt hesab etməsi ilə bağlıdır. Çünki, ölkədə yeni təfəkkürlü insan, vətəndaş və mütəxəssis formalaşdırılmasının məqsədyönlü həyata keçirilməsi təhsil quruculuğunun müasir dövrün təhsil strategiyasına uyğun aparılmasından çox asılıdır. Ölkəmizin çoxəsrlik tarixini, çoxşaxəli iqtisadiyyatının inkişaf problemlərini Azərbaycan xalqının maddi və mənəvi həyatının, onun dilinin, ədəbiyyatının və ictimai fikir tarixinin mühüm aspektlərinin dərindən bilicisi olan Heydər Əliyev ölkənin sosial-siyasi, iqtisadi vəziyyətinin yüksəldilməsində əsas kriteriya kimi təhsilin aktuallığını filosoflara məxsus müdrikliklə söyləyir. Çünki, cəmiyyətin inkişafının bütün sahələrində yeniliklərin aşkarlanıb, mənimsənilməsi, ölkədə elm və təhsilin səviyyəsi ilə bağlıdır. Həm də yüksək elmi təfəkkürə malik insanlar demokratik dövlət quruculuğunun mahiyyətini daha aydın dərk etmək imkanına malik olurlar. Elə bu səbəbdən də təhsildə yüksək göstəricilərə nail olmaq üçün elm və təhsil sistemində innovasiya və texnalogiyalardan səmərəli istifadə etməyi tovsiyyə edən yüksək əqidə və idrak sahibi Heydər Əliyev yazırdı: “Islahatlar, xüsusən təhsil, elm sahəsində islahatlat çox aqıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir..., dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır.” Buna görə də təhsil bütün ictimayyətin və xüsusən də  ziyalıların, pedaqoji peşə sahiblərinin fəaliyyətinin prioriteti, dövlətçiliyimizin müdafiəsi üçün də əsas sayır; “Biz bütün qüvvəmizi toplasaq,  ziyalılardan, din xadimlərindən istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr,hərbi hissələrdə lazımi iş görərək, tərbiyə, əxlaq, mənəviyyət məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyətini, iradəsini möhkəmləndirə bilsələr bu bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu iş nəzəri şəkildə deyil, mütəşəkkil aparılmalıdır”- deyə bu işdə özü kimi inamlı, cəsarətli, ləyaqətli və dözümlü olmağı tövsiyyə edir: “Ancaq eyni zamanda belə düşünürəm ki, xalıqımız dözümlü olduğu kimi ziyalılarımız da, alimlərimiz də ən dözümlülərdəndir, ən mətanətlilərdəndir. Mən bütün bu çətinlikləri

bilərək ziyalılarımıza, müəllimlərimizə müraciət edirəm. Gənclərimizin təlim-tərbiyəsi işinə təhsil tədris işinə diqqətinizi azaltmayın... Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəklər" – tövsiyyələri ilə xalqına öz inamını ifadə edən Ulu öndər bu strateji konsepsiyanın həyata keçirilməsini təhsil müəssisələrinin qarşısında qoyulan təxirəsalınmaz vəzifə hesab edir: "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

Göründüyü kimi Heydər Əliyev fenomeninin apardığı məqsədyönlü təhsil siyasətinin mühüm tərkib hissələrindən biri də müstəqil dövlətçiliyimizi möhkəmləndirəcək, inkişaf etdirəcək, qoruyub saxlaya biləcək yeni insan tərbiyəsidir. Heydər Əliyev yazır: "Heç kəs yerində donub dura bilməz. Kim ki, donur, o, artıq cəmiyyət üçün o qədər də lazım deyildir. Hər kəs inkişafda olmalıdır. Hesab edirəm, elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar doğru yolla, milli hissiyyatlar yolu ilə getməlidirlər". Dövlətin milli ideoloji konsepsiyasını işləyib hazırlayan Ulu öndər milli təfəkkür tərzinə malik yeni insanın formalaşmasında milli tərbiyəyə daha çox üstünlük verir. Çünki Heydər Əliyev mənəviyyatı xalqın, millətin varlığı hesab edir. Bunun məzmununa vətənpərvərliyi, milli mənlik şüurunu, ləyaqəti və xalqın dilinə, dininə, adət-ənənələrinə, ədəbiyyatına, tarixinə ehtiram və s. keyfiyyətləri daxil edir.

Məhz, bu kimi keyfiyyətlərin gənc nəslə aşılanması Heydər Əliyevin milli tərbiyə konsepsiyasının əsasını təşkil edir. Və bunun üçün xalqımız tərəfindən yaradılmış, nəsildən-nəslə ötürərək, qərinələrlə qorunub saxlanılan milli-mənəvi dəyərləri əsas vasitə hesab edir. Çünki, bir xalqın milli özünüdərki üçün onun mənəvi dəyərləri böyük dəyişdirici qüvvəyə malikdir. Elə bu səbəbdən idi ki, milli-mənəvi dəyərləri özündə təcəssüm etdirərək, milli dövlətçiliyimizin möhkəm təməlini qoyub, onu yüksək zirvəyə qaldıran, özü də xalqımızın mənəvi dəyərlərinə çevrilmiş Heydər

Əliyev 13 avqust 2001-ci il tarixində milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatda deyir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli dəyərləri var. Biz öz milli-mənəvi və dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir... Biz öz mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumuşuq, saxlamışıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu milli, mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Bununla milli şüuru, zəngin mənəviyyatı ilə ümumbəşərliyi özündə ehtiva edərək dünya miqyasında millətini ləyaqətlə təmsil edib onu tanıtmış Heydər Əliyev mənəvi dəyərlərimizə ehtiramını bildirməklə vətən balalarının tərbiyəsinin bu metodologiya əsasında qurulmasını pedaqoji ictimaiyyət qarşısında təxirəsalınmaz bir vəzifə kimi qoyur. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" – deyən Böyük öndərimiz millətinə məxsusluğunu onun zəngin mənəvi dəyərlərini özündə əks etdirən müdrik bir filosof kimi xalqına tükənməz ehtiramını iftixar hissi ilə söyləyərkən, millətinin mənəvi dəyərlərinin digər millətdən fərqini, özünəməxsusluğunu diqqətə çatdırır. Həm də Böyük Öndər inkişafımızın müasir mərhələsində Avroatlantik məkana qovuşma prosesində, Avropadan dəyərlənməyi, Avropa ailəsinin üzvü kimi qarşıda duran vəzifələrdən danışarkən, ölkəmizin hər bir üzvünün, uşaqdan böyüyə qədər, milli mənsubiyyətini, şüurunu, mənliyini, ailəyə, torpağa bağlılığını vicdan, borc və ləyaqətini itirməmək şərti ilə inteqrasiyanın vacibliyini irəli sürür: "Mən ölkəni dünyəvi, amma öz mili köklərinə bağlı olan bir dövlət kimi görmək istəyirəm. Hər bir ölkənin öz xüsusiyyətləri var. Mən öz köklərimizlə fəxr edirəm".

Bütün ömrünü vətəni və millətinin tərəqqisinə həsr etmiş Heydər Əliyev özünün saf mənəviyyat dəryasının nemətlərini, xalqının rifahını, mənəvi və fiziki sağlamlığını təmin etmək üçün əsirgəməmişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyev milli-mənəvi dəyərlər ruhunda tərbiyə konsepsiyasında aparıcı keyfiyyətlərdən biri vətənpərvərlikdir. "Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır". Ana dilinə

məhəbbət hissinin aşılanmasını isə bunun mühüm komponenti hesab edən Heydər Əliyev xalqın inkişaf edib formalaşmasında, varlığını sübut edib, digər millətlər içərisində özünə mövqe qazanmasında dilin rolunu qiymətləndirməklə, ona böyük siyasi əhəmiyyət verir. Həm də dili mənəvi dəyərlərimizin yeganə daşıyıcısı hesab edir. Çünki, hər bir xalqın mənəvi dəyərlərini yaşadan, onu nəsildən nəsilə ötürən dildir. Dil müstəqil Azərbaycanın milli sərvətidir. Onu qoruyub inkişaf etdirmək hər bir adi vətəndaşın, siyasətçinin, alimin, müəllimin vətənə, millətə olan məhəbbətini-vətənpərvərliyini ifadə edir. Məhz, Dahi Öndərin özü bu müqəddəs hissin daşıyıcısı və nümunəsidir. Onun zəngin təfəkküründən süzülüb gələn aşağıdakı düşüncələri bunu sübut edir: "Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir". Hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq dilinə münasibəti də dəyişməz qalmalı, ona daima ehtiramla yanaşmalıdır: "Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daima doğma Azərbaycanla bir vurmalıdır". Müəyyən coğrafi məkan və zaman daxilində Heydər Əliyev Azərbaycan xalqının yaratdığı dili müxtəlif nöqteyi-nəzərlərə qarşı təkzibolunmaz məntiqi düşüncə tərzi ilə müqavimət göstərərək tarixən formalaşmış millətinin dilini də onun öz adı ilə adlandırılmasında əsl əməli vətənpərvərlik nümunəsi göstərmişdir. Mərhum Prezidentimiz Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" barədə tarixi fərmanı da məhz, "qəlbi daima Azərbaycanla bir vuran" şəxsiyyət olduğunu bir daha sübut edir.

Islami dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi hesab edən, Heydər Əliyev Azərbaycanda milli dünyəvi dövlət quruculuğunun banisi olmaqla, islamın əxlaqi fəlsəfi mahiyyətini dərindən dərk edərək yeni insan tərbiyəsində bu pak mənəviyyat çeşməsindən bəhrələnməyi tövsiyə etməsi təsadüfi deyil. Bu bir tərəfdən onun dini dəyərlərə olan ehtiramını ifadə edir, digər

tərəfdən böyük dəyişdirici, tərbiyəedici imkanlarla zənginliyini söyləyir və deyir ki, "Qurani-Şərif"in bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, səadətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyyələrdir. Heydər Əliyevə görə "Islam dini əsrlər böyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir... Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir".

Milli-mənəvi dəyərlər ruhunda tərbiyəyə üstünlük verərək gəncliyimizin gələcəyinə nikbin baxış nümayiş etdirən Heydər Əliyev onlarla fəxr etdiyini söyləyir: "Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var, fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınınzı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz ,böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz". Belə möhtəşəm "böyük binanı quran" və bu istəyə sadiq olan vətən balalarının tərbiyəsində mənəvi dəyərlərə istinadı vacib sayaraq: "Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər" – deyərək öz ülvi hisslərini bildirən Heydər Əliyev onlara aşılanacaq mənəvi keyfiyyətlərdən geniş bəhs edir. Çünki, ölkənin, millətin gələcəyi apardığımız tərbiyə işindən asılıdır. "Uşaqlar bizim gələcəyimizdir. Gənclərimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır". "Milli birlik", "Mənəvi həmrəylik", "Vətəndaşlıq həmrəyliyi", "Milli mənlik şüuru" kimi keyfiyyətlərin vətən balalarına aşılanmasının vacibliyi daima Heydər Əliyev istəyi və idealı olmuşdur. Daha doğrusu "Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən - bugünkü və gələcək təcavüzlərdən qorumaq, cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır".

"Ədaləti", "nəfsi", əxlaqi saflığın, mənəvi təmizliyin aparıcı göstəricisi hesab edən millət tərbiyəçisi: "Kiməsə qarşı ədalətsizlik edilirsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır" – deyir.

Ədalətli hökmdar kimi, ölkədə ədalətin bərqərar olmasını dövlətçiliyimizin möhkəm təməl üzərində qurulmasının stimulu hesab edir. Azərbaycan xalqına məxsus qəhrəmanlığı, cəsurluğu, dəyanətliliyi mənəvi dəyər kimi vətən balalarında tərbiyə etməyin vacibliyini göstərən Heydər Əliyev xalqın tarixi, ənənələrinə sadiqliyi, özünün başqa xalqlar içərisində tanınması üçün əsas amil sayır. Çünki, hər bir xalqın dövlətçiliyinin möhkəmliyi onun qəhrəman, döyüşkən, yenilməz, dəyanətli, saf iradəli, əxlaqlı vətəndaşları ilə tanınır. "Azərbaycan xalqı dünyaya nümayiş etdirdi ki, o yenilməzdir, qəhrəmandır, ona nə qədər güclü təcavüz, təziq olsa da, onun iradəsini sındırmaq mümkün deyil".

Ulu öndər Heydər Əliyevin təhsil strategiyasından irəli gələn vəzifələrin mahiyyətinə müxtəlif istiqamətlərdə təxirəsalınmadan həyata keçirilməsi, onun layiqli və ləyaqətli davamçısı Respublika Prezidenti Ilham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının  inkişaf tempinə uyğun hər bir şəxsə hərtərəfli bilik və bacarıq verən təhsil sisteminin elmi əsasları, infrastrukturu ,daha da təkmilləşdirilib, yeniləşdirilir. Bu da təhsilin yüksək səviyyədə qurulması üçün əsas verir. Elə bu səbəbdəndir ki, ölkə Prezidenti Ilham Əliyevin apardığı məqsədyönlü, davamlı dövlət siyasətinin nəticəsi olaraq təhsil sahəsində də islahatlar davam etdirilərək vahid konsepsiya əsasında konkret dövlət proqramı hazırlandı. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" təsdiq edildi. Təhsilin normativ hüququ bazası möhkəmləndirildi, infrastrukturun yeni tələblərə uyğun qurulması sahəsində əməli işlər görüldü və bu ardıcıl olaraq davam etdirilir. Sosial-iqtisadi həyatın müasirləşdirilməsində, təhsilin rolunu əsas götürməklə, insanlara yeni texnologiyaları çevik mənimsətmək, əmək bazarında layiqli yer tutmaq, ömür boyu təhsil prosesinə qoşulmaq, insanlarda yeni tələblərə uyğun bilik, bacarıq və vərdişlər formalaşdırmaq məqsədinin reallaşdırılması naminə Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edildi. Bu dövlət sənədində beş istiqaməti; şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasını,

innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən nüfuzlu təhsil verənlərin formalaşdırılmasını, təhsildə yeni idarəetmə sisteminin formalaşdırılmasını, müasir tələblərə cavab verən infrastrukturun, yeni maliyələşdirmə mexanizminin yaradılması kimi qlobal problemləri özündə birləşdirir.

Heydər Əliyevin təhsil siyasətinin həyata keçirilməsinin reallaşdırılmasına yönələn bu strategiyada, görüləcək işlərlə əlaqədar gələcək hədəflər də müəyyənləşdirilir. Bütün bunlar Heydər Əliyev siyasətinin təhsildə uğurlu davamı kimi qiymətləndirilməlidir.

## AZƏRBAYCANDA ETNOPEDAQOJİ FİKRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFINA HEYDƏR ƏLİYEV QAYĞISI

***Aytən Nizami qızı Məmmədova***
***"Naxçıvan" Univeristetinin pedaqogika***
***və psixologiya kafedrasının müdiri***
***aytan.n.m@mail.ru***

Azərbaycan xalqının çoxəsrlik tarixi mədəniyyəti, mənəviyyatı, məişəti, həyat tərzi, mifik təfəkkürü onun şifahi söz sənətində, folklor nümunələrində, yaratdığı dəyərli ədəbi nümunələrində, incənətində, musiqi və nəğmələrində öz əksini tapmışdır. Bütün bunlar göstərir ki, Azərbaycan xalqı çox qədim və zəngin mədəniyyətə malik bir xalqdır. Xalq nə qədər qədimdirsə, onun tarixi də, ədəbiyyatı da, mənəviyyat və mədəniyyəti də, məişəti və həyat tərzi də bir o qədər qədim və zəngin olacaqdır.

Xalqımızın etnopedaqoji fikiirləri çox qədim olsa da, bunun bir elm kimi, sistemli şəkildə formalaşması, öyrənilməsi, tədqiqi əsasən XX əsrin əvvəllərindən başlamışıdr. Müxtəlif məlum səbəblər üzündən milli respublikaların öz milli mədəniyyətini, mənəvi dəyərlərini, xalq müdrikliyini öyrənməsi, tədqiq etməsi arzu edilıməz olmuşdur. Bu səbəbdən də etnopedaqogika, folklorda etnik, milli xarakterli problemlərin tədqiqinə yetərincə yer verilməmişdir.

1930 – cüu illərdə milli elmə, millətə, xalqa xidmət edən,

xalqın milli irsini, milli dəyərlərini üzə çıxaran alimlərin bir çoxu sürgünlərə, represiyalara məruz qaldılar. Əmin Abid, Salman Mümtaz, Hənəfi Zeynallı, Vəli Xuluflu, Hümmət Əlizadə və bir çox başqaları məhz xalqın milli dəyərlərini öyrəndiklərinə görə elmdən və həyatdan uzaqlaşdırıldı. Azərbaycan folklorşünaslığı, etno pedaqoji fikri yenidən başlandı. Həmid Araslı, Əliheydər Tahirov, Osman Qurbanov, Həsən Qasımov, İdris İbrahimov, Məmmədhüseyn Təhmasib, N.Seyidov, Əhliman Axundov, Əliheydər Haşımov və başqaları Azərbaycan etno pedaqoji fikrinin, ümumiyyətlə folklorlorşünaslığının yeni dövrünü başladılar.

Azərbaycan folklorşünaslığında keyfiyyətcə yeni mərhələ 1970-ci illərdə başlanır. Bu mərhələnin başlanğıcı, ilk növbədə, respublika rəhbərliyinə gəlişi ilə milli-mənəvi dəyərlərə arxa və dayaq olan Ulu öndərimiz Heydər Əliyevlə bağlıdır. Qeyd edək ki, mürəkkəb siyasi şəraitdə fəaliyyət göstərən Heydər Əliyev öz möhkəm iradəsi, əzmi və təşəbbüskarlığı ilə milli mədəni irsin öyrənilməsinin optimal yollarını göstərdi. Onun şəxsi nüfuzu və istedadı sayəsində milli-mənəvi irsin öyrənilməsi böyük uğurla davam etdirildi və Bakıda "Azərbaycan Folklor İnstitu"nun yaradılması haqqında xüsusi qərar qəbul edildi. Ümummilli lider Heydər Əliyevlə başlanan milli- mənəvi dəyərlərimizn öyrənilməsi geniş araşdırmalara, yeni tədqiqat sahələrinə səbəb oldu.

Ulu öndər milli- mənəvi dəyərlərimizin, qədim və erkən orta əsrlər tariximizin, sonrakı dövr tariximizin, folklor nümumələrimizin öyrənilməsini alimlər qarşısında bir vəzifə olaraq qoydu [1].

Azərbaycanda xalq pedaqogikasının ilk tədqiqatçısı professor Əliheydər Həşımov olmuşdur. O, hələ 1970 – ci ildə Sovet dövründə kommunist partiyasının arzu etmədiyi, bəzən də qadağa qoyduğu mövzuya müraciət etməsi, o mövzunu araşdırması bir qəhrəmanlıq, fədakarlıq və milli vətənpərvərlik nümunəsi sayıla bilər. Onun 1970–ci ildə nəşr etdiridiyi "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri"[2] adlı əsəri çox dəyərli və milli ruhda yazılmış qiymətli və tarixi bir əsərdir. O bu əsəri ilə yeni bir məktəb yaratmışdır ki, bu məktəbin layiqli davamçıları yetişmişdir. Prof. Əliheydəır Həşımovun layiqli davamçısı, etnopedaqogika sahəsində elmlər doktoru dissertasiya müdafiə etmiş, dəyərli əsərlərin

müəllifi, bu sahənin dərin bilicisi olaraq etnopedaqogikanı bir tədris fənni səviyyəsinə yüksəldərək dərslik və dərs vəsaiti yazan professor İsmayıl Əliyevdir

Professor Əliheydər Həşimovun əsasını qoyduğu xalq pedaqoji fikrinin, etnopedaqogika məktəbini davamçılarından biri də bu sətirlərin müəllifi Aytən Məmmədovadır ki, prof. İsmayıl Əliyevin elmi rəhbərliyi ilə elmi – pedaqoji fəaliyyətimi davam etdirir.

Şifahi xalq ədəbiyyatı, xalq pedaqogikası, etnopedaqogika hər bir xalqın arzu və istəklərinə uyğun yaradılmaqla onun tarixi keçmişi, həyat tərzi, məişət vərdişləri, əxlaqi- mənəvi keyfiyyətləri ilə sıx bağlıdır. Öz tarixi təcrübəsi, bədii düşüncəsi, milli xüsusiyyətlərinə görə fərqli yaradıcı təbiətə malik xalqların etnoqrafik düşüncə tərzi də müxtəlif səciyyədə təzahür edir. Bu mənada etnopedaqogikanın tarixinin araşdırılması xalqın etnoqrafiyasının, milli- mənəvi dəyərlərinin, maddi və mənəvi abidələrinin öyrənilməsi də vacib məsələlərdən sayılır.

Azərbaycanın qədim şəhərləri, yurd yerləri içərisində Naxçıvanın xüsusi yeri və mövqeyi vardır. Naxçıvan nəinki Azərbaycanın, dünyanın ən qədim şəhərlərindən biridir. 5 min ildən artıq tarixə malik olan Naxçıvan dünyanın ən qədim maarif və mədəniyyət və təhsil mərkəzidir. Ulu öndər Heydər Əliyev demişdir: “*Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür” [1, s.17]* .

Şumerlərin Nuhun Tufanından bəhs edən “Bilqamıs” dastanı ilə Naxçıvanın “Nuhdaban” dastanı çox yaxındır. Məzmun, mahiyyət, orada işlənən yer və şəxs adları, adətləri Naxçıvan məkanı ilə eyniyyət təşkil edir. Dünya alimləri Bilqamısı tarixi şəxsiyyət hesab edir və Bilqamısdan o tərəfə heç bir yazılı mənbə olmadığını qeyd edirlər. Gəmiqayada qayalar üzərində rəsmlər, yazı, işarələr insanların bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini – etnopedaqoji prosesi əks etdirir. Gəmiqayalıların bəbir, canavar, ilan,

dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühiti, ərazini onun flora və faunasını öyrədir. Gəmiqaya rəsmlərində bir atlının baş və ayağında geyim olması o dövrün peşələrini (toxuculuq, çəkməçilik və s.) təxmin etməyə imkan yaradır. Böyüklər də əldə etdiyi bilik və təcrübələri, qazandıqları peşələri kiçiklərə öyrətmişlər və yaxud da kiçiklər böyükləri müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmişlər ki, bunları ilkin etnopedaqoji proses adlandıra bilərik. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə, əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Günəş, ağac, çay kimi rəsmlər qədim insanlarımızın inancından xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xətt və ya çox xətt Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını bildirir.

Gəmiqayada piktoqrafik yazılar xüsusilə diqqəti cəlb edir. *"Gəmiqayada Günəşə sitayişi ifadə sərbəst dairə və ortasında nöqtə qoyulmuş dairə, yaxud daxilinə xaç çəkilmiş dairə, həmçinin svastika və digər piktoqramlar qeydə alınmışdır ki, bunlar qədim insanlarımızın günəşə sitayişini və Günəşə inancını ifadə edir" [8, s.78].*

Beləliklə deyə bilərik ki, Gəmiqayada həkk olunmuş ən qədim yazı mədəniyyətimiz – piktoqramlar, şəkli yazılar dövrün ictimai hadisələrini, məişətini, həyat tərzini, ayin və mərasimlərini, inanclarını təbiət və kainata aid animistik və kosmoqonik təsəvvürləri simvolik işarələrlə bildirir ki, bütün bunlar da insanların mənəviyyatını, həyat tərzini, tərbiyəsini ifadə edir.Buna ilkin etnopedaqoji düşüncə, ilkin etnopedaqoji fəaliyyət deyə bilərik.

Tədqiqatçı alim Əjdər Fərzəli öz dəyərli kitabında yazır: "Gəmiqayalıların 32 hərfdən ibarət əlifbaları olmuş. Onların 9-u sait, 23 –ü isə samit olmuşdur. Hərflər həm də müstəqil şəkildə müəyyən bir sözü də ifadə edir. Bu əlaməti Orxon Yenisey əlifbasında da görmək olur" [9, s.328].

Gəmiqayadakı təsvirlərin özü sübut edir ki, burada yüksək inkişaf etmiş maarif və mədəniyyət olmuşdur. Buradakı yazılar, işarələr, rəsmlər istedadlı rəssamlar və bilicilər tərəfindən çəkilmiş nadir sənət inciləridir. Bu rəsmlər qayaların köksündə bədii, həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmişdir. Bunların hamısı sözlü işarələrdir və Tanrıçılıq - yaradılış inamını yer-göy əlaqələrini, kosmik düşüncəni, xalqımızn inanclarını əks etdirir, Nuhun gəmisinin də Gəmiqayada məskunlaşdığı mənbələrdə bildirilir.

Bunu da qeyd edək ki, müxtəlif dövrlərdə ölkəmizə edilən basqınlar üzündən ata - babalarımızın yaratdıqları belə zəngin maddi və mənəvi zənginliklər, elmi, ədəbi və etnopedaqoji məhsullar əksəriyyətlə məhv edilmiş, möhtəşəm bir mənəviyyat xəzinəsi ölkəmizdən çıxarılmış, yad ölkələrə aparılmış, bəzən satılmışdır ki, onlar da öz adlarına çıxmış və bir qismi də itirilmiş, gizlədilmişdir. Bu mənəviyyat xəzinəsinin içində zəngin folklor nümunələrimiz- o cümlədən dastanlarımız, qədim xalçalarımız, qədim məişət əşyalarımız, qəbir üstü daşlarımız, hətta tarixdən yadigar qalmış üstündə yazı nümunələri olan daşlarımız vardır. Zəngin şifahi xalq ədəbiyyatımız – “Kitabi Dədə Qorqud”, “Bilqamıs”, “Manas”, “Alp Ər Tunqa”, “Oğuz”, “Ərkənəqun” kimi dastanlarmız, Oğuznamələr, Ustadnamələr, Nəsihətnamələr xalqımızın qədim tarixinin , folklorunun, etnopedaqoji düşüncəsinin, onun ictimai-mədəni həyatının, məişətinin, zəkasının, istək və arzularının, tərbiyə və təhsil səviyyəsinin, xüsusilə onun qədim etnik psixologiyasının və qədim etnik pedaqogikasının təmsilçiləridir.

Yekun olaraq bunları deyə bilərik ki, Azərbaycan etnopedaqogikasının təşəkkülü Gəmiqaya-Qobustan qayaüstü rəsmlərin tərbiyəvi, təhsilləndirici və insanları tərəqqi etdirici, inkişaf etdirici təsirindən başlamış, inkişaf etmiş və bu günlərimizədək gəlib çıxmışdır.

## Ədəbiyyat

1. Heydər Əliyev. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq// Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi.

Bakı: Nurlan, 2005, s. 17.
2. Həşimov Ə.Ş. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif, 1970, 256 s.
3. Əliyev İ.İ. Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı, 2007, 272 s.
4. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası. Magistr hazırlığı üçün dəərs vəsaiti. Bakı: Elm və təhsil, 2009, 224 s.
5. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. Сборник материалов для описания местностей и племен. Кафказа. Вып.II.Тифлис, 1882. с. 113.
6. Həbibbəyli İsa . Nuhçıxandan Naxçıvana.Bakı: Elm və təhsil, 2015, 846 s.
7. Бехруз Бек Кенгерли. Каталог. Баку: 1947, стр. 18-19.
8. Müseyibli N.Ə.Gəmiqaya.Bakı: Çaşıoğlu,2004, 320 s.
9. Аждар Фарзали. Ноев Ковчег и Гямигая –Гобустанский алфавит. Баку, 2014, с. 428
10. Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, s. 28.

## İRƏVAN MAARİFÇİLİYİNDƏ GİMNAZİYA

***Qahirə Lələ qızı Şahbazova***
***ADPU-nun Şamaxı filalının pedaqoji fakültəsinin dekanı***

İrəvan maarifçilik mühiti öz tarixi keçmişi ilə Azərbaycan maarif və mdəniyyətinin inkişafında pedaqoji kadr hazırlığında mühüm xidmətlıəri olmuşdur. O mühitin içində 1881-ci ildə İrəvan şəhrində yaradılmış İrəvan Kişi Gimnaziyasının xüsusi rolu və əhəmiyyəti olmuşdur. Bu gimnaziyanın ilk ilk direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. İlk açılış ilində yəni - 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır. Gimnaziyann milli tərkibi erməni, rus və azərbaycanlılardan ibarət olmuşdur.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915- ci illər ərzində Gimnazi-

yada ümumilikdə 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.

**Firudin bəy Köçərli** 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan Kişi Gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə“Təlimi-lisani-türki” adlı dərslik də tərtib etmişdir.

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

**İrəvan Kişi Gi**mnaziyasının görkəmli məzunları olmuşdur:

**Əziz Əliyev (1897-1962** ) Akademik. - İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə  Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin müxtəlif sahələrində yüksək vəzifələrdə çalışmış, Tibb İnstitutunun rektoru olmuş, professor, “Əməkdar həkim”, ictimai və dövlət xadimi olmuşdur.

**Əhməd Rəcəbli** (1898-1963) Akademik. 1907- ci ildə Gimnaziyaya daxil olmuş və 1916-cı ildə oranı gümüş medalla bitirmişdir. Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki, bitkiçilik bölməsinin akademik katibi olmuşdur.

**Heydər Hüseynov** (1908-1950) - Akademik. Əmək fəaliyyətinə 1924-cü ildən başlamış, pedaqoji texnikumun kitabxanasında işləmişdir. 1931-ci ildə ADPİ -nin ictimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirmişdir. 1931-1932-ci illərdə Azərbaycan Elmi -Tədqiqat İnstitutunun aspirantı olmuşdur. 1939-cu ildə “M.F.Axundovun fəlsəfi görüşləri” mövzusunda namizədlik, 1944 -cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur. 1939- 1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin

müavini, 1945- 1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse prezidenti olmuşdur. 1943- 1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan Partiya Tarixi İnstitunun direktoru olmuşdur. O, Bəhmənyar, Nizami Gəncəvi, Bakıxanov, Mirzə Kazım Bəy, Həsən Bəy Zərdabi və başqaları haqqında 100- dən artıq dəyərli elmi - tədqiqat işləri aparmışdır.

**Mehdi Kazımov** - (1890-1954) İrəvanda azərbaycanlı ziyalıların təşəbbüsü ilə yaradılan ilk təhsil ocaqlarında rus dili dərsi dərs demiş, 1924-cü ildə İrəvan Türk Pedaqoji Texnikumunun açılmasının təşəbbüskarı və ilk direktoru olmuşdur.

**Miryusif Mirbabayev** (1889-1951) Miryusif Mirbabayev ilk təhsilini İrəvan rus-tatar məktəbində, daha sonra İrəvan Kişi gimnaziyasında almışdır. O, 1916-cı ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra M. Mirbabayev Azərbaycan İrəvandakı diplomatik nümayəndəliyində katib işləmişdir. Onun 4 cildlik "Rusca-azərbaycanca lüğət"inə görə 1948-ci ildə ona yüksək dövlət mükafatı verilmişdir. Miryusif Mirbabayev 1951-ci ildə Bakıda vəfat etmişdir.

**Maqsud Məmmədov**-ictimai xadim, 1929-cu ildə Bakı Dövlət Universitetinin rektoru, maarif naziri olmuşdur.

**Adil və Əslidar Muğanlinski-** qardaşları Gimnaziyanı bitirdikdıən sonra Almaniyanın Leypsiq Universitetində təhsil almışlar.

**Səid Rüstəmov** (1907-1983) - Görkəmli bəstəkar, dirijor, pedaqoq. Azərbaycanın xalq artisti. 1921-ci ildə o, Bakıya köçərək müəllimlər seminariyasını, 1929-cu ildə Musiqi Texnikumunu və 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakultəsini bitirmişdir.

Səid Rüstəmov musiqi sənətinə ilk dəfə tarzən kimi gəlmiş, bu sənətin sirlərini Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovdan və tarzən Mansur Mansurovdan mənimsəmişdir. S.Rüstəmov 1931-ci ildə Ü. Hacıbəylinin təşkil etdiyi ilk notlu Azərbaycan xalq çalğı alətləri orkestrinin yarandığı gündən əvvəl konsertmeyster, daha sonra isə həmin orkestrin bədii rəhbəri və baş dirijoru kimi uzun illər fəaliyyət göstərmişdir. 1930-cu illərdə bəs-

təkarlığa başlayan S.Rüstəmovun ilk əsəri "Bayatı-kürd" muğamı əsasında fantaziya məhz xalq çalğı alətləri orkestri üçün yazılmışdı. Sonralar o, həmin orkestr üçün "Cəngi" və "Qəhrəmani" pyeslərini, üç süita, tar konserti və bir sıra kantatalar bəstələmişdir.

Daha başqa görkəmli tanınmış şəxsiyyətlər: Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbababayev, Əbdülhəmid Qənizadə, Əsədula Bəy Kəngərlinski, Abbasqulu Bəy Şadlinski, Rza Bəy Səfərbəyov, Abbas Ağa Fərəcov, Qulam Fərhadov, Əjdər bəy Hacıbəylinski, Əbdülhəmid Qənizadə, Hüseyn Şahtaxtinski, Rza Ağayev, Əkbər bəy Qazıyev, Həbib bəy Səlimov və başqaları İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1918-ci il avqustun 6-da İrəvan Kişi Gimnaziyası fəaliyyətini dayndırmışdır.

## LEV MEÇNİKOVUN İCTİMAİ İNKİŞAF KONSEPSİYASI

***Nəzakət İsfəndiyar qızı Kərimova***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini***
***Kerimova.nezaket@gmail.com***

Rus sosioloqu, coğrafiyaşünası, publisist və inqilabçı anarxisti Lev İliç Meçnikov 18 may 1838-ci ildə Sankt-Peterburqda dünyaya gəlmişdir. Atası İliç İvanoviç Meçnikov qvardiya zabiti olmuşdur. L.Meçnikov 1850-1852-ci illərdə Peterburq hüquqşünaslıq məktəbində təhsil almış, lakin bir müddət sonra səhhəti ilə əlaqədar olaraq dərslərini dayandırmalı olmuşdur. Koksit xəstəliyi (çanaq-bud oynağının iltihabı) nəticəsində sağ ayağı yerə çatmadığı üçün ömrü boyu çəliklə gəzmiş və xüsusi sifariş əsasında tikilmiş ayaqqabılardan istifadə etmişdir. Evdə təhsilini davam etdirən Meçnikov bir müddət sonra Xarkov gimnaziyasının Cərrahlıq fakültəsinə daxil olmuş, cəmi bir semestrdən sonra valideynlərinin təkidi ilə təhsilini yarıda dayandırmışdır.

1856-1858-ci illərdə Peterburq Universitetinin Şərq dilləri fakültəsində təhsil almaqla yanaşı, Rəsm Akademiyasında keçirilən

məşğələlərdə müntəzəm iştirak etmişdir. Maliyyə çətinlikləri üzündən universitet təhsilini yarımçıq qoyan Meçnikov B.P.Mansurovun Yaxın Şərq üzrə diplomatik missiyasında bir il tərcüməçi işləmişdir. Alimin kiçik qardaşı İlya İliç Meçnikov fiziologiya üzrə Nobel mükafatı laureatı olmuşdur.

İngilis, fransız, alman, polyak, ispan, italyan, ərəb, türk, yapon dillərində sərbəst danışan Meçnikov elmi əsərlərini fransız dilində, publisist yazılarını italyan və rus dillərində yazmışdır. O, 400-dən çox əsərin müəllifi olmuşdur. L.Meçnikov sosial utopizm və anarxizm ideyalarını təbliğ edən ilk alimlərdəndir. Onun əsas sosioloji əsərləri bunlardır: «İctimai və əxlaqi suallar» (1879), «Sosioloji oçerklər» (1880), «Sosiologiyada mübarizə məktəbi» (1884), «Sivilizasiya və böyük tarixi çaylar» (1889) və s. Geniş dünyagörüşə, ensiklopedik biliyə malik bir şəxs olan Lev Meçnikov İtaliya, Yaponiya və Amerikaya səyahət edərək müxtəlif xalqların həyat tərzi ilə tanış olmuş, qeyri-adi iş qabiliyyəti ilə başqalarından fərqlənmişdir. Yaşayışını təmin etmək üçün göstərdiyi fəaliyyət onun illər ərzində topladığı çoxlu məlumatlar əsasında yazılmış əsərlərinin sistemli hala salınaraq çap etdirilməsinə mane olmuşdur.

Çoxsaylı əsərləri içərisində Meçnikova ən böyük şöhrəti 1880-ci ilin sonlarında İsveçrədə Nevşatel akademiyasında (1885-1886-cı illər) «Böyük tarixi çaylar» kursu üzrə dediyi mühazirələr əsasında yazdığı «Sivilizasiya və böyük tarixi çaylar» əsəri gətirmişdir. Müçnikov əsərin birinci hissəsini «Həyatın məqsədi» başlığı altında təqdim etmək niyyətində olsa da, onun ölümü bu fikrin həyata keçməsinə mane olmuşdur. Kitab 1889-cu ildə Meçnikovun köhnə dostu Eliza Reklünün redaktəsi və ona yazılmış ön sözlə birlikdə nəşr olunmuşdur. Əsər tez bir zamanda Fransa sərhədlərindən kənarda şöhrət qazanaraq bir çox alimlərin marağını özünə cəlb etmişdir.

“Sivilizasiya və böyük tarixi çaylar” əsəri Q.V.Plexanov və P.Q.Vinoqradov tərəfindən ciddi tənqid olunmuş, geopolitika nəzəriyyəsinin banisi hesab edilən F.Ratsel tərəfindən isə mənfi rəy almışdır. Lakin əsər haqqında irəli sürülmüş tənqidi mülahizələrə baxmayaraq, o, bu gün də sivilizasiyaşünas tədqiqatçıların diqqət mərkəzində qalmaqdadır. Əsərin ilk dəfə rus dilinə tərcüməsi M.D.Qrodetkin tərəfindən həyata keçirilmiş və 1897-ci ildə Sankt-

Peterbuqda çıxan «Həyat» jurnalının 23-24-cü saylarında, 1899-cu ildə kitab Xarkovda, 1924-cü ildə isə N.K.Lebedevin redaktəsi altında Moskvada «Əməyin səsi» nəşriyyatında dərc edilmişdir.

Meçnikov coğrafiyada determinizm baxışlarını müdafiə etmiş, sosiologiyada üzvi məktəb tərəfdarı, siyasətdə isə ardıcıl anarxist olmuşdur. O, əsasən, müəyyən coğrafi şəraitdə yaranmış sivilizasiyanın ətraf mühitlə qarşılıqlı əlaqələri məsələlərini araşdırmış, bəşəriyyətin tarixinə və onun sosial taleyinə planetimizin üç tərkib hissəsi olan geosfer, hidrosfer və atmosferin böyük təsir göstərdiyi qənaətinə gəlmişdir. Onun fikrincə, dənizlərin və materiklərin qeyri-bərabər paylanması, torpağın hündürlüyü, geoloji quruluşu, dağ silsilələrinin forma və istiqaməti, dəniz və atmosfer axınları, yağıntıların azlığı və çoxluğu, sonsuz sayda meteoroloji hadisələr, mürəkkəb fiziki quruluş insanların sosial həyatına müxtəlif cür təsir göstərmiş, insanlar arasında qarşılıqlı köməyin inkişafını ya asanlaşdırmış, yaxud da çətinləşdirmişdir. L.Meçnikov hündür dağ silsilələrinin dövlətlər, irqlər və mədəniyyətlər arasında təbii sərhəd çəkdiyini bildirmişdir. Bununla yanaşı, bitki və heyvanlar aləmi də sosial həyata həlledici təsir göstərmişdir. Sibir və Mancuriya kimi meşəliklə örtülü, vəhşi heyvanların bol olduğu ərazilərdə yaşayan insanlarda ovçuluq vərdişləri formalaşmış, otlaq sahələrinin çox olduğu yerlər isə maldarlıqla məşğul olmaq üçün əlverişli şərait yaratmışdır.

Lev Meçnikov hesab edir ki, böyük tarixi sivilizasiyalar mülayim iqlim qurşağında yaranmışdır. Onun fikrincə, Hind sivilizasiyası da bu ümumi qaydadan kənara çıxmamış, bu sivilizasiya mülayim iqlim qurşağına malik olan Yuxarı Pəncabda (buzlaqlar və Himalay dağlarının qarlı havası iqlimin soyumasına təsir etmişdir) yaranmışdır. Alimin fikrincə, sivilizasiya inqilabi yolla yaranmış, mərhələli şəkildə inkişaf etmiş və geridönməz proses halını almış, ətraf mühit insanlara həmrəy olmağı, bir-birinə yardım etməyi öyrətmişdir.

Meçnikovun fikrincə, ictimai elmlər sistemində mərkəzi yerdə sosiologiya dayanmalıdır. O hesab edir ki, məhz sosiologiya bəşəriyytin bütün təkamül faktını əhatə edir. Alim belə bir qənaətə gəlir ki, sosiologiya aşağıdakı iki məsələni həll edə bilsə, pozitivlik

statusu qazana bilər:

1. Sosial həyatın özünəməxsus qanunlarını aşkara çıxara bilsə;
2. Sosial tərəqqinin ən etibarlı meyarlarını təyin edə bilsə.

Meçnikov sosial tərəqqinin mənbəyi və mahiyytinin izahı məsələsini sosiologiyada ən mühüm problem hesab etmişdir. Onun fikrincə, tarix elmi sosial tərəqqiyə dair yalnız material verməli, sosiologiya isə öz növbəsində, sosial tərəqqi nəzəriyyəsini işləyib hazırlamalı, onun mühüm əlamətlərinin nədən ibarət olduğunu aydınlaşdırmalıdır.

Meçnikova görə, sosial tərəqqinin mənbəyini insanların həmrəyliyə ümumi məqsəd kimi can atmaları təşkil etməlidir. Alimə görə, fərdlər mübarizə və əməkdaşlıq sayəsində bir-birinə qarşılıqlı təsir göstərirlər. Əməkdaşlıq qalib gələrək kooperasiya formasına, oradan isə sosial həmrəyliyə keçir. O, sosial həmrəyliyin məcburi və könüllü olmaqla iki tipini seçib ayırmışdır. Alimin fikrincə, cəmiyyətin tərəqqisinin mahiyyətini məcburi kooperasiyadan könüllü ittifaqa əsaslanan sosial həmrəyliyin möhkəmləndirilməsi təşkil edir.

Meçnikov cəmiyyətin təkamülünün üç mərhələsini müəyyən edir:

1. Aşağı mərhələ. Bu mərhələdə ictimai təşkilatlar məcburi şəkildə, qorxunun təsiri altında yaradılır;
2. Keçid mərhələsi. Bu mərhələ əmək bölgüsü və cəmiyyətin ayrı-ayrı hissələrə diferensiasiyası ilə xarakterizə olunur;
3. Ən yüksək, ali mərhələ. İctimai təşkilatlar insanların fərdi təşəbbüsləri və şüurlu maraqları əsasında yaradılır.

Meçnikov dövlət idarəçilik formalarını və əməyin təşkilini sivilizasiyanın və sosial həmrəylik növlərinin inkişafı mərhələlərinə aid edir:

Cədvəl: 1.

| **Sivilizasiyanın inkişaf mərhələsi** | **Sosial həmrəyliyin növü** | **Dövləti idarəetmə forması** | **Əməyin təşkili forması** |
|---|---|---|---|
| Çay mərhələsi | Qeyri-iradi | Despotizm | Quldarlıq |
| Dəniz mərhələsi | Tabeli | Oliqarxiya | Kəndli |
| Okean mərhələsi | Azad | Liberal demokratiya | Muzdlu əmək sistemi |

Sosioloq ümumdünya sivilizasiyasının inkişafının tarixi mərhələlərini öz nəzəriyyəsinə uyğun şəkildə üç mərhələyə ayırmışdır:

1. Çay mərhələsi. Bu mərhələ xalqların bir-birindən təcrid olunduğu, beynəlxalq əlaqə və münasibətlərin yenicə yarandığı, xalqların tədricən bir-birinə yaxınlaşdığı mərhələdir. Nil, Dəclə və Fərat, Xuanxe və Yansızı, Hind və Qanq kimi iri çayların yaxınlığında meydana gələn ən qədim dövlətlər çay sivilizasiyasının məhsulu hesab edilir. L.İ.Meçnikov hesab edir ki, Misir, Mesapatomiya, Hind və Çin sivilizasiyaları böyük çayların sahillərində «həmrəylik, yaxud ölüm» alternativləri qarşısında yaradılmışdır. İnsanların birləşərək suvarma əkinçiliyi ilə məşğul olmaq, digər xalqlarla ünsiyyət yaratmaq tələbatı onların sağ qalmaq məcburiyyətindən irəli gəlmişdir.

2. Aralıq dənizi mərhələsi. Orta əsrlər dövrünü əhatə edir. Dəniz mərhələsi adlandırılan bu mərhələyə əsasən Yunan (Ellada) və Roma sivilizasiyaları aiddir. Aralıq dənizi mərhələsi Karfagenin əsasının qoyulmasından Böyük Karl imperiyasının süqutuna qədərki dövrü əhatə edir.

3. Okean mərhələsi. Yeni dövrü əhatə edir. Meçnikov bu mərhələni Atlantik okeanı mərhələsi, yaxud ümumdünya mərhələsi adlandırır. Onun fikrincə, okean sivilizasiyası mərhələsinin tarixi öz başlanğıcını böyük coğrafi kəşflər dövründən götürür və Kolumbun Amerikanı kəşf etdiyi dövrə qədər olan mərhələni əhatə edir. İnsanların yeni su hövzələrinin kəşfi həmrəyliyin xarakterini və su sferasının mənimsənilməsi sahəsində texniki üsullarını təkmilləşdirirlməsinə gətirib çıxarmışdır. Meçnikova görə, çay sivilizasiyasında insanlar qorxu hesabına və məcburi şəkildə həmrəy olmuş, dəniz mərhələsində gəlir əldə etmək məqsədi ilə bir araya gəlmiş, okean mərhələsində isə azad seçim əsasında həmrəy olmağı öyrənmişlər. Beləliklə, sivilizasiyanın təkamülü ətraf mühitlə paralel şəkildə irəliləmişdir.

Lev Meçnikov bəşər tarixini aşağıdakı üç mərhələyə ayırır:

1. Qədim dövr – çay mərhələsi. Bu mərhələ böyük çayların sahillərində yaranan dörd qədim, böyük sivilizasiyanın – Misir, Mesapatomiya, Hind, Çin – tarixini əhatə edir.

Meçnikova görə, bu dörd böyük sivilizasiyanın tarixi sinxron olmamış, yəni onlar eyni zamanda meydana gəlməmişlər. Şərq qrupu (Hind və Çin) yarandığı ilk vaxtdan inkişaf səviyyəsinə görə, iki qərb (Assur-Babil və Misir) sivilizasiyasından geri qalmışdır. Assur-Babil və Misir sivilizasiyası əlverişli coğrafi şəraitdə yerləşdiyinə görə, dəniz sivilizasiyası mərhələsinə Hind və Çin sivilizasiyalarına nisbətən daha sürətlə keçmiş və Avropa xalqlarına güclü təsir göstərmişdir.

Meçnikov qədim çay sivilizasiyasının özünü də iki dövrə ayırır:

1) Xalqların bir-birindən təcrid olunmuş halda yaşadığı dövr. Bu dövr eramızdan əvvəl XVIII əsrdə başa çatır;

2) İlk beynəlxalq əlaqələrin yarandığı, xalqların bir-birinə yaxınlaşdığı, o cümlədən ilk münaqişələrin meydana gəldiyi dövr. Bu mərhələ Misir və Assur-Babil arasında ilk müharibələrin başlanması və tarixi arenaya təxminən eramızdan əvvəl 800-cü ildə Finikiya Federasiyalarının çıxması ilə başa çatır.

**İkinci mərhələ** Orta əsrlər, Aralıq dənizi mərhələsi adlanır. Bu mərhələ 25 əsri – Karfagenin əsasının qoyulmasından Böyük Karla qədər olan dövrü əhatə edir. Dəniz mərhələsi də öz növbəsində, iki dövrə bölünür:

1) Aralıq dənizi mərhələsi – bu dövrdə bir-birinin ardınca böyük mədəniyyət mərkəzləri Finikiya, Karfagen, Yunanıstan və Roma meydana çıxır. Bu dövr nəhəng oliqarx dövlətlərin yaranmasından Böyük Konstantinə qədərki dövrü əhatə edir.

2) Dəniz mərhələsi – Bizansın (Konstantinapol) əsasının qoyulması ilə başlayır. Məhz bu dövrdən etibarən sivilizasiyanın orbiti Qara dənizə, sonralar isə Baltik dənizinə qədər genişlənir. Dəniz mərhələsi bütün orta əsrlər dövrünü əhatə edir.

**Üçüncü mərhələ** Yeni Dövr, yaxud okean mərhələsi dövrü adlandırılır. Atlantik okeanı sahillərində yerləşmiş Qərbi Avropa dövlətlərinin nəzərəçarpacaq dərəcədə üstünlüyünün artması ilə xarakterizə olunur. Bəşər sivilizasiyasının bu üçüncü mərhələsi özündən əvvəlki iki sivilizasiya ilə (çay və dəniz sivilizasiyası) müqayisədə yeni yaranmasına baxmayaraq, Meçnikov Okean mərhələsini də iki dövrə ayırır:

1) Atlantik okeanı mərhələsi Amerikanın kəşfi ilə başlayır. Bu

mərhələ üçün səciyyəvi cəhətlər bunlardır: Kaliforniya və Alyaskada «qızıl həyəcanı»nın başlanması; ingilis təsirinin Avstraliya üzərində güclənməsi; Amur sahilllərində rus koloniyalarının yaranması; avropalılar üçün Çin və Yapon limanlarının kəşfi;

2) Ümumdünya mərhələsi – hazırda yenicə formalaşmaqdadır.

Meçnikov hesab edir ki, insanların qeyri-iradi, yəni məcburi birliyi yalnız tarixi çayları (Nil, Dəclə və Fərat, Xuanxe və Yansızı) mənimsəmək qüdrətində olub. Tabeli münasibətlər əsasında birləşən insanlar aralıq dənizini fəth edib, yalnız azad insanlar okeanları mənimsəməyə nail olmuşlar.

İctimai quruluşun əsasını onun üzvlərinin həmrəylik qabiliyyəti təşkil edir. Meçnikov yazır: «Ölüm, yaxud həmrəylik, bəşəriyyətin başqa yolu yoxdur. Əgər o, ölmək, məhv olmaq istəmirsə, onda insanların həmrəyliyə doğru yürüşü qaçılmazdır və ətraf mühitin qeyri-əlverişli fiziki-coğrafi şəraiti ilə mübarizə aparmaq üçün ümumi kollektiv əməyə və həmrəyliyə nail olması şərtdir. Tərəqqinin böyük qanunu və bəşər sivilizasiyasının uğurlu inkişafının rəhni bundan ibarətdir».

## ALOVLU MÜBARİZ ƏLİBƏY HÜSEYNZADƏNİN MAARİFÇİLİK VƏ TÜRKÇÜLÜK İDEYASI

***Afət Aban qızı Bayramova***
***BDU-nun Pedaqogika kafedrasının baş müəllimi***
***afetbayramova3@gmail.com***

Azərbaycanda milli şüurun oyanmasında özünəməxsus xidmətləri olan Əlibəy Hüseynzadə (Əli Turan) 1864-cü il martın 8-də Salyan şəhərində anadan olmuşdur. İlk təhsilini evdə və mollaxanada almışdır. Atası Molla Hüseyn Tiflisdə məktəb müəllimi təyin edilir və Əlibəy ailəsi ilə ora köçür. Lakin bir neçə ildən sonra atası vəfat edir və balaca Əli babasının himayəsinə keçir. Babası Şeyx Əhməd Salyani Qafqaz müsəlmanlarının ruhani başçısı – şeyxülislamı olub açıq fikirli bir şəxs idi. O, nəvəsi Əliyə ərəb, fars dillərində dini elmlərdən zəruri bilik verməklə yanaşı, onun Tiflis klassik gimnaziyasında təhsil alması qayğısına qalmışdır.

Əlibəy 1885-ci ildə Tiflis gimnaziyasını müvəffəqiyyətlə bitirib ali təhsil almaq məqsədilə Peterburqa gedir. O, həkim olmaq istəyirdi. Lakin Peterburq universitetində tibb fakültəsi olmadığından o, təbiət-fizika fakültəsinə daxil olur. O, həm də universitetin şərqşünaslıq fakültəsində azad dinləyici kimi mühazirələrdə iştirak edir. Əlibəy Peterburq rəngkarlıq akademiyasının da məşğələlərinə gedir.

Ə.Hüseynzadənin Peterburq universitetində təhsil aldığı illər Rusiyada tələbə gənclər arasında inqilabi hərəkatın gücləndiyi dövrə təsadüf edir. Tələbə gənclər arasında Aleksandr Ulyanov da olmuşdur.

Peterburq universitetini bitirən Əlibəy həkimlik təhsili almaq üçün İstanbula gedir. O, bütün maneələri dəf edərək Türkiyə proqramı əsasında ibtidai, orta və ali məktəblər üzrə bir neçə dəfə imtahan verir. Nəhayət, onu universitetin hərbi tibb fakültəsinə qəbul edirlər.

Əlibəy Avropa mədəniyyəti və ədəbiyyatı ilə yaxından tanış idi, üstəlik Rusiyadakı ictimai-siyasi vəziyyəti də yaxşı bilirdi. Ona görə də tez bir vaxtda öz ağlı və biliyinə, dünyagörüşünün zənginliyinə görə tələbə yoldaşlarına ciddi təsir edir və tələbələr arasında böyük hörmət qazanır. Onun siyasi fəallığı daha da güclənir. Tələbə yoldaşları İbrahim Tema, İshaq Sükuti, Abdulla Cövdət və b. ilə birlikdə "İttihad və tərəqqi" partiyasını yaradır. Bu partiyanın məqsədi Türkiyədə müstəbidlik rejimini yıxmaq, ölkədə demokratik bir dövlət və müasir cəmiyyət qurmaq və eyni zamanda dünyadakı bütün türklərin birliyinə nail olmaqdan ibarət idi.

Əlibəy Universiteti bitirdikdən sonra bir müddət Heydər paşa xəstəxanasında işləyir. 1897-ci ildə Türkiyə-Yunanıstan müharibəsində iştirak etmək üçün Qırmızı xaç cəmiyyətinin nümayəndəsi kimi İtaliyaya gedir. Üç ildən sonra İstanbula qayıdaraq bitirdiyi universitetə müsabiqə yolu ilə professor köməkçisi (assistenti) vəzifəsinə seçilir.

Bu illərdə o, Türkiyədə çıxan "Ramazan bağçası", "Məlumat" məcmuələrində, Qahirədə nəşr olunan "Türk" qəzetində bədii tərcümələrini, orijinal əsərlərini, məqalələrini dərc etdirir.

İllər keçdikcə "İttihad və tərəqqi" partiyasının fəaliyyəti

Sultan xəfiyyələrinin diqqətini cəlb edir və gizli şəkildə siyasətlə məşğul olmaq xeyli çətinləşir. Elə bir vəziyyət yaranır ki, Əlibəy daha Türkiyədə qala bilmir. Dostlarından biri ona xəbərdarlıq edir ki, bir azdan Sultan xəfiyyələri ittihadçıları həbs etdirib gecə ikən Bosfora atdıracaqdır. Bu sözləri deyən şəxs Əlibəyin tanışı – Hindistana qənd aparan bir tacir idi. Əlibəy paltarını dəyişib sahilə gələrək səhərə kimi qənd çəlləklərinin birində gizlənir və sübh tezdən Hindistana yola düşürlər. Bir müddət Hindistanda qalan Əlibəy oradan İrana keçir və buradan da vətəninə - Azərbaycana qayıdır.

1904-cü ildən Bakıda Səadət mədrəsəsində müəllimlik və müdirlik edir. Az vaxtda Ə.Hüseynzadə şəhərin mədəni və ictimai həyatının aparıcı şəxsiyyətlərindən birinə çevrilir. H.Z.Tağıyev ziyalıları birləşdirən milli qəzetə ehtiyacı nəzərə alaraq imperator həzrətlərinə müraciət edib qəzet almağa icazə istəyir. İcazə alındıqdan sonra 1905-ci ilin iyun ayından etibarən Bakıda "Həyat" adlı qəzet fəaliyyətə başlayır. Qəzeti əvvəlcə Əlimərdan bəy Topçubaşov (müdir), Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayev (redaktorlar) birlikdə çıxarırdılar, lakin bir qədər keçdikdən sonra Əlimərdan bəy Duma məclisinə seçildiyindən, Əhmədbəy isə ayrılaraq "İrşad" adlı qəzet çıxarmağa başladığından Ə.Hüseynzadə "Həyat"a təklikdə rəhbərlik edirdi.

Xalqın milli şüurunu oyatmaq uğrunda "Həyat"ın apardığı böyük iş çar senzurasının və erməni xəfiyyələrinin nəzarətindən qaçmır. Ona görə də nəşr olunduğu ilk gündən qəzeti təqib edirdilər. Bu səbəbdən də 1906-cı ilin sentyabr ayının 3-də "Həyat" qəzeti "zərərli istiqamətlərinə görə" dayandırılır. Aradan az müddət keçmiş Ə.Hüseynzadə daha ciddi bir orqan – "Füyuzat adlı həftəlik jurnal nəşr etməyə başlayır.

1906-cı ilin noyabrın 1-dən nəşrə başlayan "Füyuzat" "Həyat"ın işini davam etdirir, milli düşüncəli ziyalıları, ədibləri öz ətrafında birləşdirirdi. "Füyuzat"ın tutduğu yol türkçülük, müsəlmançılıq və avropalılıqdır.

"Füyuzat"ın da nəşri çox çəkmir və o da bağlanır. Əlibəy bir neçə il Səadət məktəbində işləyir və həmin illərdə "İrşad", "Tərəqqi", "Həqiqət" kimi qəzetlərdə məqalələrlə çıxış edir. Onun "Siyasəti-fürusət" (At oynatmaq siyasəti) əsəri həmin illərin məhsulu idi.

1905-1907-ci illər rus inqilabından sonra irtica getdikcə güclənir və mütərəqqi fikirli adamların, milli düşüncəli xadimlərin təqibləri başlayır. Vəziyyəti belə görən Əlibəy 1910-cu ildə yenidən Türkiyəyə müraciət etməyə məcbur olur.

Ə.Hüseynzadə Türkiyədə İstanbul universitetinin tibb fakültəsində professor vəzifəsində çalışır, eyni zamanda elmi, ədəbi, siyasi fəaliyyətini davam etdirir. O, 1912-ci ildə evlənmiş, qızı, 1914-cü ildə isə oğlu doğulmuşdur.

Əlibəy Hüseynzadə Türkiyədə Ə.Ağayev, Z.Göyalp, Y.Akçura oğlu, M.Rəsulzadə və b. ilə birlikdə "Türk ocağı" dərnəyini təşkil edir, dövri mətbuatda şeirlərini, məqalələrini, tərcümələrini dərc etdirir, tibbə dair əsərlər yazır. Birinci dünya müharibəsi zamanı "Turan heyəti" adında bir qrupun tərkibində Avropaya – Stokholma gedir. O, Avropada türkçülüyü təbliğ etməklə yanaşı, türk xalqlarının hüquqlarını müdafiə edir. Mustafa Kamal Atatürkün hökumətində bir sıra vəzifələrdə işləyir.

1926-cı ildə Bakıda keçirilən türkoloji qurultaya dəvət olunur, orada məruzə ilə çıxış edir. Onun məruzəsi yüksək qiymətləndirilir.

1933-cü ilə qədər İstanbul universitetində işləyən Əlibəy ömrünün son illərində ədəbi yaradıcılıq və tərcüməçiliklə məşğul olmuşdur. O, 1940-cı il martın 17-də vəfat etmiş və İstanbulun məşhur Qaracaəhməd qəbristanlığında dəfn olunmuşdur.

Ə.Hüseynzadə Azərbaycanda işlədiyi, fəaliyyət göstərdiyi illərdə xalqımıza öz milli mənsubiyyəti, şanlı tarixi ilə qürur hissi yaratmağa, ədalət və bərabərlik ideyaları aşılamağa çalışırdı.

Böyük türk alimi Z.Göyalp Ə.Hüseynzadənin irəli sürdüyü türkçülük, müsəlmançılıq, müasirlik üçlük düsturunu yüksək qiymətləndirərək deyirdi ki, bu üçlük düstur türk dünyasında yeni üfüqlər açmışdır. Heç kimə sağlığında dahi deyilmədiyi halda, Ə.Hüseynzadəyə dönə-dönə dahi deyə müraciət etmişlər. Bu sözü onun haqqında Ə.Qəmküsar, Ü.Hacıbəyov, M.Ordubadi və qeyriləri işlətmişlər. Azərbaycan bayrağını mənalandıran üç mühüm amilin yaradıcısı Ə.Hüseynzadə olmuşdur. Bu üç amilin (prinsipin) üç rəngə çevrilməsi isə bütövlükdə M.Rəsulzadəyə məxsusdur. Türkçülüyün ilk mütəfəkkiri Əlibəy Hüseynzadəyə türklük, islamiyyət və müasir Avropa mədəniyyətini bir tezis, antitezis və sintez şəklində prinsip

olaraq müəyyənləşdirmək şərəfi nəsib olmuşdur.

Ə.Hüseynzadə "Hali vətən" şeirində belə yazırdı:

Ucundadır dilimin,
Həqiqətin böyüyü.
Nə qoydular deyəyim,
Nə kəsdilər dilimi.
Bilirsənmi, çühala
Nə etdilər Vatana?
Nə qoydular uyuya,
Nə qoydular oyana.

"İnsanlar, insanlar" adlı fəlsəfi şeirində Ə.Hüseynzadə bəşər tarixində ekskurs edərək insanların nələr törətmədiyini, nə kimi zülmlər etmədiyini yada salır, insanları azadlığa, bərabərliyə, qan tökməməyə çağırır. Ölən kim, öldürən kim, zülm edən kim, ağlayan kimdir? Bir az fikir etməyin: Sizdən deyilmi onlar, insanlar? Zülm edən siz, cəllad sizdən, bu halı insan vicdanı necə qəbul edir, insanlar?

"Bu da, yahu, keçər" adlı şeirində isə belə yazırdı:

Zülmət və şər bulsa da bir dəm zəfər,
Pərtəvə hökm etsə də zülmət əgər.
Sansa da ənvari-kamal və hünər,
Qəm yemə, səbr et, bu da, yahu, keçər.
Haqq və ədalətdən əsər yoxsa da,
Harisi-qanun bir ər yoxsada,
Zülm edənə qarşı sipər yoxsada,
Qəm yemə, səbr et, bu da, yahu keçər.
Millətə, milliyyətə, hürriyyətə
Aşiq olan uğrasaq da möhnətə
Yari Vətən düşsə də, şər qürbətə,
Qəm yemə, səbr et, bu da, yahu keçər.

Ə.Hüseynzadə Şərqin islam aləminin elmin inkişafındakı xidmətinə yüksək qiymət verərək deyirdi ki, aləmi-islamın: türkün, ərəbin, farsın çoxlu, istənilən qədər alimləri, həkimləri, ədibləri, şairləri, qəhrəmanları, dahiləri vardır. Lakin əmin olmalıdır ki, zülməti-cəhalət üzündən biz onların mənəviyyati-asarinə vaqif olmadığımız halda, avropalılar əllərindəki şöleyi-maarif sahəsindəki

bu asardan bizdən ziyadə istifadə edirdilər.

İndi bizə deyirlər ki, madam ki, ingilislər, firəngilər, filanlar böylə imişlər, nə üçün “Füyuzat”ınızda onlara müraciət edirdiniz? Ortaya gah Hötenin “Faust”unu, gah Şekspirin “Yuli Sezar”ını, gah nəbilim hankı avropalının hankı əsərini ortaya çıxarırsınız? Avropalaşaq, firəngləşək deyirsiniz? Lakin ey oxucu, müraciətdən müraciətə fərq var; biz avropalaşanların özlərinə deyil, ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, nəşriyyat və ixtiralarına müraciət etmək istəyirik. Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri, ağılları girsin, boğazları, mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın. Bu gün onların mədələrində həzm olunmamaq üçün bir çarə varsa, o da onların beyin məhsullarını alıb həzm etməkdən başqa bir şey deyildir.

Ə.Hüseynzadə onu da qeyd edirdi ki, türkdə, türklərdə, türk qövrümünün fitrətində bir sıra əsəri-düha, bir fövqəladə istedad vardır, meydan, müsaid, məkan və zaman müvafiq olduqca, o, istedad, elm və hünər aləmində ətrafa bədiyyələr saçar, xariqələr yaradar. O düha cahangirlik asimanında yıldırımlar kimi bərq vurar, Teymurlənglər kimi atəşpərələr hədiyyə edər, o, atəş zəkayi-elm və fənn çəmənlərində şükufələr, meyvələr təhvil edər, Uluqbəy kimi böyük şəxsiyyətlər yetişdirər, o, şevqi-məali hikmət və fəlsəfə bəhrində mövzan imaq olur, sahili-bəşəriyyətə Fərabi kimi dürdanələr atar, o, ətri-tülyat evci bəlayi mənaya doğru savad edib oradan Mollayi Rumi, Əlişir Nəvai, Füzuli, Kamal, Hamid şəkildə təcəssüm eylər, meydani-süxənnə əbri-neysan kimi dürərbar və gövhərlər olur.

Ə.Hüseynzadə deyirdi ki, azadlıq elə bir qüvvədir ki, zehinləri, fikirləri, xətaları bəşərin bütün ruh və mənəviyyatını ülviyyətə sövq edir ki, necə bir qüvvədir ki, onun yolunda neçə-neçə dahilər, əzəmətli şəxsiyyətlər məhbəslərdə, qürbətlərdə, Səmbir çöllərində hər növ iztirabl, hər növ əzab və cəfanı qəbul etmişlər. O, nə qüvvədir ki, onun zühuru, bəşəriyyətin ona nailiyyəti bu mənəvi əzablara, zəlzələlərə bais olub məmləkəti sərasər bir mübarizə meydanına çevirdi... Yaşa azadlıq! Onun fikrincə, qaranlıq elə bir şeydir ki, onun hökmfərman olduğu məkanlarda və zamanlarda insan

nə özünü, nə də əynindəki paltarına, nə də yerin daxili və xaricini verə bilmir. Bunları görmək, istifadə edə bilmək ancaq işıq sayəsində ola bilər. Mənəvi zülmətlə mənəvi ziya da bunlar kimidir. Deməli, millətə elm, maarif, təhsil lazımdır. Bunu isə məktəblə, müəllimlə əldə etmək olar.

**Ədəbiyyat**


1. Məmmədov X., Hüseynzadə Ə. "Molla Nəsrəddin". Ədəbiyyat qəzeti, 3 may, 1991
2. Hüseynzadə Ə. "Yeni müsavat"ın xüsusi buraxılışı. № 3, 3 mart, 1994
3. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 1974


## RUSİYA TÜRKLƏRİNİN MAARIFÇİLİK HƏRAKƏTINDA İSMAYIL BƏY QASPRİNSKİNİN ROLU HAQQINDA


***Həsən Bayramov***
***Bakı Qızlar Universitetinin "Pedaqogika" kafedrasının müdiri, Pedaqogika elmlər doktoru***
***Məhbubə Məmmədova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktor müavini Pedaqogika üzrə fəlsəfə doktoru***
***9bineqedi2@gmail.com***


Məşhur türk təhsil tarixçisi professor Nadir Dövlət özünün məşhur "Rusiya müsəlmanlarının milli mübarizə tarixindən" adlı monoqrafiyasında yazırdı: "Krımda türklərin sayı durmadan azalırkən onların içindən bütün Rusiya türkləri üçün bir mənəvi lider zühur etdi. Rusiya türklərinin milli baxımdan canlanmasında böyük rol oynayan Türkiyədəki Ziya Göyalp kimi tam mənası ilə türkçü və islahatçı olan bu lider İsmayıl bəy Qaspıralı (rus ədəbiyyatında İsmail Qasprinski) idi. Onun ortaya atdığı "Dildə, fikirdə, işdə birlik" şüarı bu gün də türkçülər tərəfindən mənimsənilməkdədir (12, s. 9).

İsmayıl bəy 1851-ci ildə Krım yarımadasında Baxçasarayın Avcı kəndində bir məmur ailəsində anadan olmuşdur. Təhsilini Moskvada rus məktəblərində aldıqdan sonra, ayrı-ayrı dövlətlərdə, o cümlədən, Türkiyə və Fransada da olmuşdur. 1875-1881-ci illərdə Baxçasarayda ibtidai məktəb müəllimi və şəhərin bələdiyyə rəisi işləmişdir. 1879-cu ildə qəzet çıxarmaq istədisə də icazə ala bilmədi. 1861-ci ildə "Tavrida" qəzetində rusca nəşr olunmuş məqaləsində öz proqramını elan etdi. İsmayıl bəy Qaspıralı burada:

1. Milli məktəbləri inkişaf etdirmək üçün təhsildə islahat keçirilməsini;
2. Milli təhsil mərkəzlərini maddi cəhətdən təmin etmək üçün "Xeyriyyə Cəmiyyəti" qurulmasını;
3. Bütün türklər üçün ortaq dildə başa düşülən milli mətbuat orqanının nəşr edilməsini;
4. Müsəlman həyat tərzinin müasirləşdirilməsini;
5. Müsəlman qadınının azadlığa çıxarılmasını;
6. Milli ziyalılar zümrəsinin yetişdirilməsini tələb edirdi. (6, s. 11)

İsmayıl bəy Qaspıralı 1883-cü ildən "Tərcüman" adlı qəzetini çıxarmağa başladı. Qəzetin bir hissəsi tatarca, bir hissəsi isə rusca çap olunurdu. O, 1884-cü ildə Baxçasarayda ilk milli ibtidai məktəb açdı və burada yeni üsulla tədrisə başladı. Onun bu yenilikçilik fəaliyyəti Rusiya sərhədlərini belə aşaraq Ərəbistan və Hindistana da öz təsirini göstərmişdir.

Bəs İsmayıl bəy Qaspıralı kimdir?

Qaspıralı da türk dili fikrini milli bir hərəkat olaraq irəli sürmüş və onun yayılmasına başlamışdı. Müxtəlif məqalələrində Qaspıralı:

1. Mümkün olduğu qədər türk dilindən yabançı sözləri çıxarmaq;
2. Yazana da, oxuyana da başa düşülməsi çətin olan ərəbcə, farsca sözləri işlətməkdən əl çəkmək;
3. Məhəlli sözlər yerinə Osmanlı türkcəsinə aid olan sözlərdən istifadə etmək yollarını tövsiyə edirdi (6, s. 14).

Qaspıralı fəaliyyətlərinə yeni başladığı dövrdə məsələni çox yaxşı təhlil edən missioner İlminskinin Pobedanosçevə göndərdiyi məktubda belə deyilirdi:

“Diqqətinizi Baxçasarayda “Tərcüman” qəzetini çıxaran Qasprinskinin gələcək məqsədləri ilə tanış olmağa cəlb edirəm.

Onun əsas məqsədi bunlardır:

1. Rusiya İmperiyasının müsəlman tələbəsi arasında islami əsaslardan ayrılmadan Avropa təhsil sistemini yaymaq və islami fikri Avropa təhsil sistemi ilə birləşdirmək;

2. Çox sayda, qarışıq və dəyişik dillərdə (ləhcələrdə) danışan Rusiya müsəlmanlarını birləşdirmək və möhkəmlətmək. Məsələn, alman birliyi kimi;

3. Öz nəşr orqanları ilə osmanlıcanı türk soyundan gələn bütün müsəlmanların ortaq dili etmək...

Duyduğuma görə Kazanda türkcə qəzetlərin və ayrıca dərs kitablarının sayı hər keçən illərə nisbətən artmaqdadır. Kitabların mənası avropasayağı, dili osmanlı dilidir. Bu Qaspıralı və ətrafındakıların tatarlara müasir təhsil verməyi arzuladıqlarını, ancaq bunu Rusiya vasitəsilə etmək istəmədiklərini anlatmaqdadırlar.

Görkəmli türk aliminin sözləri ilə desək bu yeniləşmə din xadimləri tərəfindən islamdan uzaqlaşmaq kimi qarşılanırdı. Onlar Qərb üsulu ilə yetişmiş türk ziyalılarını xristianlaşmış hesab edirdilər. Belə bir şəraitdə Azəri ziyalılarının qarşılarına qoyduqları vəzifələri həyata keçirmələri çox çətin idi. Buna baxmayaraq, XIX əsrdə dörd böyük islahatçı: Abbasqulu ağa Bakıxanlı, Mirzə Fətəli Axundzadə, Həsən bəy Məlikzadə (Zərdabi) və şair Hacı Seyid Əzim Şirvani hər şeydən əvvəl üç müəssisəni məmləkətdə açmağı düşünmüşdülər və bunların təməlini də atmışdılar. Bu müəssisələr məktəb, mətbuat və teatr idi (2, s. 17). Müəllifin onlar haqqında fikirləri də çox maraqlıdır.

**Abbasqulu ağa Bakıxanov (1794-1848)** Azərbaycan tarixçisi, yazıçı və böyük mütəfəkkir idi. O, milli oyanışın ancaq maarif və müasir təhsil yolu ilə həyata keçirilməsinin tərəfdarı idi. Bakıxanlı türk uşaqlarının asan oxuyub və oxuduqlarını anlamaları üçün öz əsərlərindən “Nəsihətnamə”ni türk dilinə çevirərək bir növ ibtidai məktəb kitabı halına gətirdi. Aydın görüşün, milli tərbiyə və təhsilin ana dili sayəsində inkişaf edəcəyini söyləyən Bakıxanlının fikri Zərdabinin şəxsiyyətində öz əksini tapmışdır.

**Mirzə Fətəli Axundzadə (1812-1878)** əvvəl dini təhsil aldı,

sonra rusca öyrəndi. İlk əsəri olan "Hekayəti Molla İbrahimxəlil Kimyagər" rus, fars, alman və başqa dillərə tərcümə edildi. 1857-ci ildə "Aldanmış kəvakib (ulduzlar)" adlı ilk hekayəsini yazdı. 1863-cü ildə Tiflisdən İstanbula gəldi və burada sədri-əzəm Fuad Paşaya ərəb hərflərini latın hərfləri ilə əvəz etmək haqqında bir layihə təqdimm etdi. Mirzə Fətəli Azərbaycanın mədəni həyatında böyük şöhrət qazanmış şəxslərdən biridir.

**Hacı Seyid Əzim Şirvani (1835-1888)** kiçik yaşından yetim qalan Şirvani on ilə qədər Dağıstanda babasının yanında yaşadıqdan sonra, 1856-cı ildə Misirə gedərək "Camü-ül-Əzhər"də təhsilini tamamlamışdır. 1866-cı ildə Azərbaycanın Şamaxı şəhərində (qəsəbə) yeni üsulda (üsuli-cədid) bir məktəb açdı və müəllimliyə başladı. Türk dilində dərs kitablarının çatışmadığını nəzərə alıb, mənzum və mənsur hekayələri daxil olan bir dərslik yazdı. Seyid Əzimin biri farsca, biri türkcə iki şeir kitabı vardır. Bu kitablar 1892-ci ildə Təbrizdə, 1902-ci ildə isə Bakıda çap olunmuşdur.

**Həsən bəy Məlikzadə Zərdabi (1837-1907)** dini təhsil aldıqdan sonra, 1861-ci ildə Tiflis rus gimnaziyasını (litsey) bitirdi. Hökumət hesabına Moskva Universitetinə daxil oldu və təbiət riyaziyyat fakültələrini bitirdi. O, 1875-ci ildə öz pulu ilə İstanbuldan satın aldığı mətbəə şriftləri ilə ilk Azəri qəzeti olan "Əkinçi"ni çıxarmağa başladı. 1877-ci ildə "Əkinçi"nin artıq 400 abunəçisi var idi. Türk milyonçusu Hacı Zeynalabdin Tağı(yev) Zərdabiyə bir qız gimnaziyası açmağı təklif etdi. Nəhayət, 1901-ci ildə rus hökumətinin icazəsi ilə "Aleksandriyevski" adıyla Azərbaycanda ilk türk qız orta məktəbi açılarkən Həsən bəyin həyat yoldaşı Hənifə xanım bu məktəbin ilk müdirəsi oldu. Həsən bəy Zərdabi Azərbaycanın ilk pedaqoqu, ilk teatr qurucusu, ilk qəzetçisi, ilk mətbəəçisi və ilk mürəttibi idi.

XIX əsrin sonunda rus hökuməti tərəfindən Qafqazın xristianlarla məskun yerlərində müxtəlif məktəblər açılaraq maarifin ikişafına təkan verilmişdir. Bu arada türklər üçün də ilk dəfə "rus-tatar" adı ilə Bakıda bir məktəb quruldu. Daha sonra Azərbaycanın başqa şəhər və qəsəbələrinə də yayılan bu tip məktəblər iki sinifli olub, rusca və türkcə təhsil verirdi. Şimali Azərbaycanda ilk "üsuli-cədid" məktəbi Ordubadda 1890-cı ildə Molla Məhəmmədtağı Sidqi

Səfər tərəfindən açıldı. Molla Məhəmmədtağı Sidqi 1894-cü ildə Naxçıvanda da "Tərbiyə" adlı yeni bir məktəb açmışdı. "Burada 3 müəllim və 93 şagird var idi. 1890-cı ildə Azərbaycanda 12 gimnaziya (litsey-ədəbiyyat qolu) və bir realnı (litsey-fənn qolu) mövcud idi ki, bunlarda da cəmi oxuyan 5700 şagirddən ancaq 91-i türk idi. Eyni ildə 3 min rusa, 4800 gürcüyə, 5400 ermənіyə bir məktəb düşürdüsə, 17300 azəriyə bir məktəb düşürdü. 1894-cü ildə doktor Nəriman Nəriman(ov) ilk kitabxana açmağa icazə ala bildi. 1897-ci ildə Şamaxı (Şirvan), Quba və Lənkəranda da qiraətxanalar qurulmuşdu. Bu kitabxanalara Kəlküttə, Bombey, İstanbul və başqa şəhərlərdən qadağan edilmiş mətbuat gəlirdi. Eyni illərdə Şamaxıda (müəllimi: Hacı Seyid Əzim Şirvani), Qubada (müəllimi: Molla İbrahimxəlil), Səlyanda (müəllimi: Molla Əbdülhəsən), Bakıda (müəllimi: Mirzə İsmayıl Qüdsi) "üsuli-cədid" məktəbləri açıldı" (6, s. 21).

İrəvanda Mirzə Cabbar Məmmədzadə, əvvəl İrəvanda sonralar isə Təbrizdə bu məktəblərin şəbəkələşməsinə nail olan Mirzə Həsən Rüşdiyyə, nəhayət əvvəl Ordubadda, sonralar Naxçıvanda üsuli-cədid məktəblərinin əsasını qoyan Molla Məhəmmədtağı Sidqi İrəvan-Naxçıvan-Təbriz maarifçi mühitinə yeni nəfəs verməklə, tamamilə yeni ictimai-humanitar axının təməlini qoydular. Məhz bu prosesdə İrəvan Müəllimlər Seminariyasının müəllim və məzunları Mirzə Cabbar Məmmədzadə, Rəhim Xəlilov, Məmmədvəli Qəmərli eləcə də İrəvan ərazisindəki təhsil müəssisələrində çalışan Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, Həmid və Rəşid Şaxtantinskilər yeni maarifçi mühitin təşəkkülündə ciddi qeyrət göstərdilər.

## Ədəbiyyat


1. Allahverdiyev Cəlal. İrəvan pedaqoji məktəbi. "Vedibasar" qəzeti, 2014, 16-31 yanvar
2. Bayramov H. "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmasının formalaşması", Monoqrafiya, Bakı: "Elm", 2015, 368 s
3. Bayramov İ, Nazim M. Həqiqətin onomastikası. Bakı, 2021, 463 s

4. Cəfərov Cəfər, Allahverdiyev Cəlal. İrəvanda milli maarifçilik mühiti. “Şərq-qərb”, 2017, 440 s.
5. Əhmədov H.M. Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. Bakı: Maarif, 2012, 542
6. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, 2014, 432 s.
7. Həbibbəyli İ.Ə. Naxçıvandan Naxçıvana. Bakı, Elm və təhsil. 2015, 846 s.
8. Xanlar rayon Dövlət Arxivi, (indiki-Göygöl): Xanlar Pedaqoji məktəbinin 1948-1949-cu tədris ili üçün əmr kitabı. № 1-288. Fond 131, Qeyd № 2, saxlama vahidi 1, əlaqə vərəqi 1
9. Xanlar rayon Dövlət Arxivi, (indiki-Göygöl): Xanlar Pedaqoji məktəbinin 1948-1949-cu tədris ili üçün əmr kitabı. № 1-288. Fond 131, Qeyd № 2, saxlama vahidi 1, əlaqə vərəqi 1
10. Mahmudov Y. və b. İrəvan xanlığı. Bakı, 574s-s21

## AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

***Afaq Qasım qızı Qasımova***
***Pedaqogika üzrə fəlsəfə doktoru, LDU-nun pedaqogika, psixologiya və incəsənət kafedrasının dosenti***
***e.rauf@aqroservis.gov.az***

Azərbaycan təhsilinin, maarif və mədəniyyətin inkişafı Ulu Öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə sıx bağlıdır. Azərbayacn Respublikası müstəqilliyinin ilk dövründəın başayaraq dövlətimizin təhsil sahəsinə xüsusi diqqət və qayğısı, müəllimlərin şərəfli əməyinin dəyərləndirilməsi və qiymətləndirilməsi respublikaya rəhbərliyin Heydər Əliyev mərhələsində çox yüksək səviyyədə həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev hakimiyyətinin həm birinci və həm də ikinci mərhələsində təhsilin inkişafına xüsusi diqqət yetiririlmiş, Azərbaycanda orta ixtisas, ümumtəhsil və ali məktəblərinin sayının artırılmasına, maddi texniki bazanaın

təkmilləşdirilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olunmuş, yksək ixtisaslı, səriştəli müəllim kadrlarının hazırlanması üçün xüsusi göstəriş və tövsiyələr, sərəncamlar verilmişdir

Keçən əsrin 70-ci illərindən başlayaraq 30 ildən çox bir zaman ərzində Azərbaycanda elm, təhsil, mədəniyyət və iqtisadiyyatın təkmilləşməsi və tərəqqisi bilavasitə ümummili liderin adı və onun yorulmaz, fədakar əməyi ilə bağlı olmuşdur. Azərbaycan təhsilinin dünya standartalarına uyğunluğu, xüsusilə Avropa təhsilinə inteqrasiyası, dərin bilikli, savadlı gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsl almalarına göndərilməsi, Azərbaycanda hərbi məktəblərin yaradılıması, Azərbaycan klassik ədəbiyyatı nümunələrinin latın əlifbasında nəşr edilməsi, maarif və mədəniyyyət, incəsənət xadimlərinin əməyinə yüksək dəyər, diqqət və qayğı göstərilməsi Heydər Əliyev ideyalarının əsasını təşkil etmişdir. Onun geniş əhatəli yorulmaz fəaliyyətində elm və təhsilin tərəqqisi həmişə xüsusi yer tutmuşdur.

Hələ 1969-1982-ci illərdə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin birinci mərhələsində təhsilimizə çox böyük qayğı ilə yanaşaraq Avropa standartlarına cavab verən çoxsaylı məktəb binası tikilərək istifadəyə verilmişdir. Ölkəmizdə yeni Ali təhsil müəssisələri açılaraq, maddi-texniki bazası möhkəmləndirilərək lazımi avadanlıqlarla təchiz olunmuşdur. Təhsilin cəmiyyətin tərəqqisində və inkişafında mühüm yer tutduğunu yüksək dəyərləndirən Heydər Əliyev deyirdi: ***“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir” (1, s.438).***

Təhsilin cəmiyyətin inkişafında rolunu və insan şıxsiyyətinin hərtərəfli formalaşmasında vacibliyini və əhəmiyyətini yüksək dəyərləndirən dahi liderin qəbul etdiyi sərəncamlar, uzaqgörənliklə təqdim etdiyi konseptual düşüncələr və ideyalar, tarixi məsləhət və tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının yerinə yetirilməsində ən vacib təməllərdir. Ulu öndər yaxşı bilirdi ki, gənc nəslin düzgün tərbiyə olunması, istiqamətlənməsi ilk növbədə təhsilə

və milli-mənəvi dəyərlərə bağlılıqdan asılıdır.

Məlimdur ki, 1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan Sovetlər birliyinin tərkibində olmuşdur, bu dövrdə də dahi rəhbərin dediyi kimi Azərbaycan böyük inkişaf yolu keçmişdir. Həmin illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsində Azərbaycanın şəhər kənd və qəsəbələrində 770- ə qədər məktəb binası istifadəyə verilmiş, respublika Ali məktəblərinin sayı 12- dən 17- yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni Ali təhsil müəssisəsi açılmışdır.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyi dövründə elm və təhsilin inkişafına bir pedaqoq məharəti ilə xüsusi diqqət yetirərək, elm və təhsil, maarif və mədəniyyət, mənəviyyat və əxlaq, məktəb, ailə və ictimaiyyət problemərinə kompleks şəkildə yanaşmışdır. Dövlət başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirliməsi məqsədilə ciddi tədbrilər həyata keçirmiş və mühüm tarixi fərmanlar, sərəncamlar imzalamışdır. 1992-ci Təhsil Qanununun qəbul olunması, ali və orta ixtisas məktəblərində qəbulun test usulu ilə aparılması, qeyri-obyektivliyə və mənfi hallara qarşı mübarizənin aparılması müstəqilliyin ilk dövrlərində təhsil sisteminin təkmilləşdiriliməsində atılan mühüm addımlardan idi. Təhsil sistemi getdikcə təkmilləşir, dövlət səviyyəsində təhsil sahəsində qəbul olunmuş qərar və sərəncamlar gənclərdə yüksək bilik potensialını aşkara çıxartmağa, yeni standartların və metodların tətbiqinə stimul yaradırdı.

Təhsil sahəsində aparılan işləri sistemli və planlı şəkildə həyata keçirmək məqsədi ilə ölkə Prezidenti Heydər Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamı əsasında ***“Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası”*** yaradıldı. Bu islahat proqramı Azərbaycan təhsili sahəsində yeni, uzunmüddətli və ən mütərəqqi mərhələnin əsasının qoyulması demək idi. Heydər Əliyev aparılacaq bu ciddi və uzun müddətli təhsi islahatına xüsusi diqqət və böyük həssalıqla yanaşılmasını tövsiyə edir və deyirdi: ***“Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola***

***bilməz. Ümumiyyətlə bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan." (2).***

Dövlət Komissiyası tərəfindən hazırlanmış *"Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"* xalqın geniş müzakirəsinə verildikdən sonra prezident Heydər Əliyev tərəfindən 1999-cu il iyunun 15-də tarixi bir gündə - Milli qurtuluş günündə bu proqrm xüsusi sərəncamla təsdiqləndi (3). Beləliklə, müasir təhsil tariximizin parlaq bir səhifəsinə mərhələli olaraq dinamik xarakterli təhsil islahat proqramı yazılmış oldu. Bu səhifəyə sonrakı illərdə daha yeni təhsil proqramları, təhsil standartları, təhsil Qanunu, kurikulumlar, Dövlət təhsil strategiyası yazıldı. Bu təhsil islahatı proqramı təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, diferensiallaşdırılması və inteqrasiyası kimi prinsipləri özündə birləşdirərərək Azərbaycan milli təhsil sisteminin strategiya və taktikasını, uzunmüddətli konsepsiyasını və təməlini yaratmışıdr.

Yekun oalaraq deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkəmizin möhtərəm prezidenti, cənab İlham Əliyev milli təhsil sisteminin inkişafı məsələsinə Azərbaycanın gələcək inkişafının əsas strateji xətti kimi baxır. Prezident belə hesab edir ki, *Azərbaycanın inkişafının yeganə yolu təhsildən, müasir biliklərdən, intellektual əməyin inkişafından, informasiya və kompyüter texnologiyalarının geniş tətbiqindən keçir.*

Ölkə Prezidenti cənab İlham Əliyevin *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı* təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələ açmışdır (4). Bu mühüm dövlət sənədini təhsil sistemimizin metodoloji əsası, pedaqoji elmimizin təməl prinsipi hesab edə bilərik. Bu sənəd ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun təhsil haqqında dediyi müdrik kəlamlarından və xüsusilə "maddi kapitalın insan kapitalına çevirmək" ideyasından qaynaqlanır ki, bu da müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş şəxs yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir.

## Ədəbiyyat


1. Əliyev H.Ə  Müstəqillik yollarında. Bakı, "Azərbaycan", 1997, 538 s.
2. Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin giriş və yekun sözü - 17 mart 1999-cu il/ Xalq, 19 mart, 1999 .
3. Əliyev H.Ə. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı".  Bakı, "Çaşıoğlu, 1999, 72 səh
4. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı/ Xalq, 25 oktyabr 2013-cü il.


# AZƏRBAYCAN  TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV DÜHASI


***Lalə Zahır qızı Allahverdıyeva***
***Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru***
***lale.allahverdiyeva.81@bk.ru***


Ümummilli lider  Heydər Əliyev  XX əsrdə Azərbaycan xalqının  yetirdiyi ən parlaq sima olaraq nəinki xalqımız, habelə dünya tərəfindən  qəbul edilən liderdir.  Müstəqil Azərbaycan Respublikasının memarı  ulu öndər Heydər  Əliyev öz  həyatını Azərbaycanın tərəqqisinə, beynəlxaql aləmdə  tanınmasına, dövlətçiliyimizin möhkəmlənməsinə, xalqımızın milli-mənəvi dəyərlərinin  qorunub saxlanılmasına, ölkə iqtisadiyyatının və təhsilin daim inkişaf etdirilməsinə həsr etmişdir.

Dahi şəxsiyyət Azərbaycan  təhsilinin inkişafında müstəsna xidmətlər göstərmişidr. Siyasi fəaliyyətinin I və  II mərhələsi ölkəmizdə intibah dövrü kimi qiymətləndirilir. 1970-80-ci illərdə respublikada və respublikadan kənarda milli kadr hazırlığı  sahəsində

apardığı siyasət, xüsusilə gənc hərbi kadrların yetişdirilməsi yolunda gördüyü mühüm tədbirlər tarixi xidmətlərdir.

Sovetlər Birliyinin dağılması ilə təzahür edən siyasi proseslər Birliyə daxil olan ölkələrin müstəqillik əldə etməsinə gətirib çıxardı. Məlumdur ki, bu hadisələrin cərəyan etdiyi həmin dövr Azərbaycan üçün daha çətin daha problemli, daha mürəkkəb olmuşdur. Həmin vəziyyətin, normal həyat tərzinin bərpa olunması, iqtisadi münasibətlərin tənzimlənməsi və digər həyat şərtlərinin təmin edilməsi məqsədilə xalq xilaskar kimi ulu öndər Heydər Əliyevin ölkəyə başçılıq etməsinə qərar verdi. Ölkədaxili ciddi problemlərin müşahidə edildiyi bir zamanda dahi şəxsiyyətin həyata keçirdiyi siyasi addımlar xalqda gələçəyə nikbin inam yaratdı.

Təhsil sahəsində ciddi ıslahatlar həyhata keçirilməyə başlandı. İslahatlara hazırlıq mərhələsi 1995-98-ci illərə təsadüf edir. Bu zaman artıq müəyyən olunmuş istiqamətlər üzrə hüquqi baza möhkəmləndirilməklə xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruldu. Yeni iqtisadi sistemə keçid şəraitində təhsil siyasəti formalaşdırıldı, sistemin təkmilləşdirilməsi məqsədilə islahatları həyata keçirmək üçün əlverişli şərait yaradıldı.

Təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün 1998-ci ildə ulu öndər Heydər Əliyevin xüsusi Sərəncamı ilə Dövlət Komissiyası yradıldı və Komissiya qısa müddət ərzində “Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı”nı hazırladı və Heydər Əliyev 15 iyun 1999-cu il tarixli, 168 saylı sərəncamı ilə “Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı”nı təsdiq etdi (1).

Proqramda göstərilir ki, *Təhsil sahəsində islahatın əsas məqsədi məktəbəqədər, orta, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ-hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikası Konstitusiya-sında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata kecirməkdən ibarətdir*.

Heydər Əliyev təhsili hər bir dövlətin, ölkənin, cəmiyyət

həyatının mühüm sahəsi kimi dəyərləndirir və *"Təhsil millətin gələcəyidir"* – deyirdi. Millətin gələcəyi, milli durum strategiyası olan təhsilsiz heç bir xalq, dövlət irəli gedə bilməz. Təhsil xalqın, millətin intellektual səviyyəsini özündə ehtiva edir. Sosial - iqtisadi inkişafa, tərəqqiyə nail ola bilmək təhsilin aparıcı məzmun istiqamətindən asılıdır. Ona görə də dahi şəxsiyyət ömrü boyu əhalinin yüksək səviyyədə təhsil almasına, intellektual səviyyəsinin yüksəlməsinə xüsusi əhəmiyyət verirdi.

Ölkə prezidenti kimi fəaliyyəti dövründə Heydər Əliyev təhsillə bağlı dərin biliyi, rəhbərliyi dövründə qazandığı zəngin təcrübəsi əsasında müstəqil dövlətin təhsil strategiyasını işləyib hazırladı. Hazırladığı Azərbaycan Respublikasının Konstitusiyası üzrə 11 illik ümumi icbari təhsil həyata keçirildi, dövlət vətəndaşlarının pulsuz ümumi orta təhsilinə təminat verildi. "Təhsil Qanunu"nun yeni layihəsi ümumxalq müzakirəsinə verildi və yeni Təhsil Qanunu təsdiq edildi.

Ulu öndər təhsilə bir vasitə kimi baxır, ölkənin inkişafı, vətəndaşların rifahının yüksəlişi amili kimi qiymətləndirərək deyirdi: "Təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər təhsilli etsək, həqiqi yüksək təhsil versək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, insanlarının rifah halı o qədər də yaxşı olacaqdır" (2, s.559).

Sonrakı mərhələlərdə təhsil standartları üzrə dövlət proqramları hazırlanmış, ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı hazırlanıb təsdiq edilmişdi. Müstəqil respublikanın ümumi orta təhsilinin ilk dövlət standartları və bazis tədris planına uyğun olaraq ümumtəhsil fənlərinin şagirdin meyl, maraq və arzusuna uyğun tədrisi prinsipi reallaşdırılmışdı və s.

Azərbaycan xalqının həyatının bütün sahələrinə diqqət yetirsək görərik ki, elə bir fəaliyyət sahəsi yoxdur ki, o ulu öndər Heydər Əliyevin nəzərindən yayınmış olsun. Sosial - iqtisadi, siyasi və mədəni quruculuq üzrə bütün inkişaf tempi, əldə olunmuş uğur və nailiyyətlər bilavasitə ümummilli liderin adı ilə bağlıdır.

**Ədəbiyyat**

1. Əliyev H.Ə. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı". Bakı, "Çaşıoğlu, 1999, 72 səh
2. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN AZƏRBAYCANDA BİOETİKANIN İNKİŞAFINDA ROLU

***Kəmalə Həsən qızı Pənahova***
***Bakı Dövlət Universiteti, Fəlsəfə kafedrası***
***kamalapanahova@mail.ru***

Zərifə Əliyeva həyata dərin yaradıcı yanaşması, zəngin daxili aləmi, zərif ürəyi, xarakterinin bütövlüyü ilə seçilən ana, həkim, alim idi.

Akademik Zərifə Əliyeva məqsədli, vicdanlı bir həyat yolu sürmüşdür. O, səhiyyədə təkcə həkim kimi şöhrət tapmamışdı. Eyni zamanda tibb sahəsində fundamental elmi araşdırmaların müəllifi olan alim, Azərbaycanda həkim-oftalmoloqların hazırlanmasında, elmi işçilərin gənc nəslinin yetişməsində böyük xidməti olan müəllim kimi nüfuz qazanmışdı.

Onun elmi fəaliyyətinin əsas istiqamətləri –göz orqanının professional patologiyası idi. Bu istiqamətdə həm oftalmologiya sahəsində yüksək biliklərə yiyələnmiş, həm də praktik biliklərə və təşkilati qabiliyyətlərə malik həkim tədqiqat aparıb uğur qazana bilərdi. Z.Əliyeva ilk dəfə olaraq Bakıda sənaye oftalmologiyasının problem laboratoriyasını yaradaraq, ona rəhbərlik etmişdi. O, hesab edirdi ki, tibb sənəti xeyirxah bir məqsədi-insanlara xidmət etmək məqsədini güdür. Zərifə xanım haqlı olaraq belə bir fikri müdafiə edirdi ki, həkimin həyat mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir.

O, tələbələrinə təkcə tibb elmindən mühazirələr oxumurdu, həm də bu peşənin məsuliyyətinin əxlaqi-fəlsəfi mahiyyətini onlara başa salırdı. Çalışırdı ki, gələcək həkimlər bunu dərk edərək

dünyagörüşü dəyərinə çevirə bilsinlər.

O, mənəviyyatsızlığa, mənəvi dəyərlərin itirilməsinə qarşı barışmaz idi. Yüksək mənəvi keyfiyyətləri özündə əks etdirən Zərifə xanım xalqımızın adət-ənənələrinə, ədəbiyyatına, incəsənətinə dərindən bələd idi. O, milli-mənəvi dəyərlərimizin təcəssümü olan Azərbaycan qadını idi. Bu cəhətlər isə onun övladlarının tərbiyəsində, tələbələrlə ünsiyyətində, xəstələrinə münasibətdə büruzə verirdi.

Zərifə Əliyeva həkimlərin mənəvi saflığına da həddən artıq çox diqqət ayırırdı. Onu xüsusilə tələbələrə dərs deyən həkimlərin mənəvi keyfiyyətlərinin yüksək olması düşündürürdü. Hesab edirdi ki, Tibb Universitetində gələcəyin həkimlərinə yüksək mənəvi keyfiyyətlərə malik həkim-müəllimlər dərs deyə bilərlər.

Zərifə Əliyeva respublikamızda ilk dəfə olaraq deontologiya, tibbi etika və həkim mənəviyyatı barədə məruzə ilə çıxış etmiş və bu sahənin inkişafının əsasını qoymuşdu.

Bioetika təbabət etikası kimi tibb işçisinin professional davranışının tənzimlənməsi qanunları, prinsipləri, qaydaları haqqında elmdir. Bu elm müasir tibbi texnologiyaların inkişafı dövründə elmi-texniki tərəqqinin nailiyyətlərindən insan rifahı naminə istifadə etməyə imkan verməklə bərabər, həm praktik, həm də elmi fəaliyyətlə məşğul olan həkimi insanlara, ətraf aləmə ziyan vurmaqdan çəkindirir.

XIX əsrin başlanğıcında ingilis həkimi T.Persival "Təbabət etikası" kitabını yazmaqla təbabət etikası problemlərinin, həkimlərin davranışını tənzimləyən qayda-qanunların araşdırılmasına istiqamət verdi.

1970-ci ildə "Biologiyanın və təbabətin perspektivləri" kitabında Amerika onkoloqu, Vikonti Universitetinin professoru V.Potterin "Bioetika yaşamaq elmidir" məqaləsi dərc olundu və o, burada ilk dəfə olaraq "bioetika" anlayışını formalaşdırdı. Potter bir il sonar dərc etdirdiyi "Bioetika gələcəyə körpüdür" kitabında isə artıq bioetikanı yaşamağa aparan yol, gələcəklə bu günü birləşdirən elm kimi səciyyələndirirdi (2,70).

Təbabət etikası bir elmi fənn kimi fəlsəfənin, sosiologiyanın, psixologiyanın, sosial psixologiyanın, dinşünaslığın,

hüquqşünaslığın, menecmentin, pedaqogikanın və bir çox digər tibbi və qeyri-tibbi fənlərin çalışmalarını və metodikasını özündə cəmləşdirməklə bərabər, həm də özünün xüsusi öyrənmə obyektinə malikdir. Bu tibb işçilərinin professional davranışıdır.

Təbabət etikası (bioetika) fəlsəfə və tibbin birləşməsindən yaranmış, lakin müdrik həkimə həyat və ölüm məsələlərinin həllində ilahi yüksəkliyə qalxmağa imkan verən praktik fəlsəfəyə çevrilmişdir. O ən ali və humanist dini qaydaları özündə cəmləşdirmişdir. Tibbi etika tərəfindən işlənilmiş bəzi qanun və prinsiplər insan cəmiyyəti üçün çox böyük əhəmiyyət kəsb etdiyindən müxtəlif qanunların qəbul edilməsinə təkan vermişdir (3,29).

Təbabət etikasının diqqət mərkəzində biologiya və tibbin tez bir şəkildə toplanmış yeni nailiyyətləri, onların dərindən tədqiqi, onların indi və gələcəkdə insana və bütövlükdə cəmiyyətə tətbiq edilməsi zamanı təhlükəlilik dərəcəsinin müəyyən olunmasıdır. Bioetikanın son məqsədi konkret insanı və bəşəriyyəti yeni, lakin təəssüf ki, həmişə sona qədər yoxlanılmamış tibbi-bioloji nailiyyətlərin tibbi praktikaya tətbiqinin arzuolunmaz və fəlakətli nəticələrindən qoruyan əxlaqi və daha çox qanunverici xarakterli tədbirlərin işlənib hazırlanmasıdır (4,4).

Azərbaycanda təbabət etikası və bioetika sahələrinin inkişafı Zərifə Əliyevanın adı ilə bağlıdır. Onun ilk dəfə 1979-cu ildə Mockvada oftalmoloqlar cəmiyyətinin iclasında təbabət etikası barədə çıxışı yüksək rəğbətlə qarşılanmışdır.

Sonra 1980-cı ildə Zərifə Əliyevanın “Oftalmologiya xəbərləri” jurnalında həkimin mənəvi simasına həsr olunan maraqlı məqaləsi nəşr olunur. Məqalədə yüksək fəlsəfi səviyyədə tibb işçisinin fəaliyyətinin sosial-mənəvi problemləri tədqiq olunur.

1983-cü ildə nəşr olunan “Oftalmologiyanın aktual problemləri” kitabının “Həkimin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” bölməsi gələcək həkimlərin bir humanist insan kimi formalaşmasına həsr olunmuşdu.

Z.Əliyeva deontologiya, tibbi etika və əxlaq məsələlərinə aid fikirlərini “Yüksək əqidə” adlı kitabında da açıqlayaraq, bütün dövrlərin həkimləri üçün humanizm, mənəvi saflıq mesajı verir.

Həkim və alim Z.Əliyeva hesab edirdi ki, əxlaqi tərbiyə həyat tərzinin hərtərəfli təkmilləşdirilməsi ilə sıx əlaqəlidir. Bu prosesdə ictimai borca şüurlu münasibət, fəal həyat mövqeyi formalaşır. Sözlə işin vəhdəti gündəlik davranış normalarında təşəkkül tapır. Buna görə də insan həyatında əsas məsələlərdən biri davranışda mənəvi amil, əqidəsinin onun işində və əməllərində təzahür etməsidir (1,9).

Zərifə Əliyeva təbabət etikasına bələd olan alim kimi kitabda gələcək həkimlərə tövsiyələrini bildirir: ”Peşə mənəviyyatı tərbiyəsi bu peşə üçün səciyyəvi olan mənəvi sərvətləri cəmləyir, əxlaqi ənənələrin ardıcıllığını təmin edir. Onsuz şəxsiyyət öz fəaliyyətinin əxlaqi mənasını dərk edib, mənimsəyə bilməz və həmin sənətin, o cümlədən həkimliyin, əxlaqi ənənələrinə yad olan mənəviyyatla fəal mübarizə apara bilməz (1,13).

Onun üçün prinsipial məsələlərdən biri insanın əqidəsinin peşə fəaliyyətində və əməllərində təzahür etməsi idi. Buna nail olmaq üçün şəxsiyyətin hərtərəfli və harmonik inkişafını əsas məqsəd hesab edirdi. Buna görə də vurğulayırdı ki, ictimai inkişafın dialektikası özü insanın ideya-əxlaqi keyfiyyətlərinin sonrakı təkmilləşdirilməsini tələb edir və bu məqsədə çatmaq üçün kompleks yanaşma tələb olunur. Söhbət ideya-siyasi, əmək, əxlaq tərbiyəsinin sıx birləşməsindən gedir (1, 14).

Zərifə Əliyevanın fikrincə ölkə, cəmiyyət nə qədər inkişaf etmiş olursa, onun insanları da, mənəvi cəhəti də, humanistliyi də yüksək olur, eyni zamanda həkimin mənəviyyatı da, insanpərvərliyi də diqqəti cəlb edir.

“Yüksək əqidə” kitabda qeyd edilir ki, həkimin qaş-qabaqlı olması, tələskənliyi xəstənin psixoloji vəziyyətinə böyük zərbə endirir. Ən təhlükəlisi və dəhşətlisi isə həkimin xəstəyə qarşı laqeydliyidir. İnsan xəstələnib yorğan-döşəyə düşəndə həkim ona gəlir mənbəyi kimi baxmamalıdır. Bundan biabırçı halı ağla gətirmək olmaz. Diaqnoz qoymaq çox qiymətlidir. Lakin bu əsas şərt deyil. Əsas məsələ xəstəni dinləməkdən, hərtərəfli kömək etməkdən ibarətdir.

Son dövrlərdə tibbi klinik praktikada, gen mühəndisliyində, biotexnologiyada, bədənin müxtəlif üzvlərinin transplantasiyası sahəsində qazanılmış böyük uğurlar onlara təkcə insanın sağlamlığı

nöqteyi-nəzərindən deyil, həm də mənəvi etik baxımdan yanaşmağı zəruri edir. Bu baxımdan Zərifə Əliyevanın "Yüksək əqidə" adlı kitabında yazdığı bu fikri yerinə düşür: "Müalicə və diaqnostikanın texniki təminatı nə qədər mükəmməlləşsə də, həmişə olduğu kimi insan sağlamlığı keşiyində duran canlı həkim əsas yer tutur. Təbabət gündən-günə inkişaf edir. O dəyişməyə, yeniləşməyə bilməz. Yeganə dəyişməyən həkimin qarşısında duran yüksək mənəvi, etik, peşəkarlıq tələbləridir" (1, 8).

"Yüksək əqidə" əsərində Z.Əliyeva təbabət etikasının ali prinsiplərinin qədim dövrlərdən formalaşdığını anlatmaq üçün tarixə ekskurs edərək, e.ə. IX əsrdə yaşamış hind həkimi Çarakanın təbabət etikasına dair bəzi tezislərini nəzərə çatdırır. O, peşəkar təbabət etikasının əsasını təşkil edən "Hippokrat andı"na müraciət edərək, oradakı humanizmə diqqət çəkir. Z.Əliyeva "Dədə Qorqud" eposunda sağlamlığın qorunması, əxlaqi saflıq və mənəvi təmizliyin vacibliyi barədə fikirlərə toxunur.

Fəlsəfi fikrimizə, ədəbiyyatımıza, tibb tarixinə dərindən bələd olan Z.Əliyeva Bəhmənyarın, Nizami Gəncəvinin, Xətib Təbrizinin, Mahmud Şəbüstərinin, Ömər Osmanoğlunun, Seyid Yəhya Bakuvinin, Məhəmməd Füzulinin, Vaqif kimi mütəfəkkirlərimizin, şairlərimizin əsərlərində həkimlərin çətin, şərəfli, təmənnasız, fədakar fəaliyyətlərinin, bu fəaliyyətin humanist nəticələrinin əks olunduğunu göstərir.

Zərifə Əliyeva əsərdə Azərbaycanda XI əsrdə mədrəsələrin açılması, onlarda dini təlimlə bərabər astronomiya, riyaziyyat, məntiq, fəlsəfə, tibb elminin tədrisini yüksək qiymətləndirir.

Akademik Zərifə Əliyeva "Yüksək əqidə" əsərində digər maraqlı bir faktı da oxucuların nəzərinə çatdırır: "Çox az adama məlumdur ki, hələ XIV əsrdə Azərbaycanda "Dər-əş-Şəfa" Universiteti şəfa evi kimi müvəffəqiyyətlə fəaliyyət göstərirdi" (1, 36). Şərq ölkələrindən bir çox alimlər bu tibb ocağına maraq göstərir, orada təcrübə keçirdilər.

Əsərdə həm də M.F.Axundov, Həsən bəy Zərdabi, N.Nərimanov, C.Məmmədquluzadə kimi maarifçi mütəfəkkirlərimizin tibb elmi, cəmiyyətdə həkimlərin rolu haqqında fikirlərinə müraciət edilir.

Akademik Zərifə Əliyeva qeyd edirdi ki, həkimin gündəlik zəhməti onu əhatə edən insanlarla, birinci növbədə xəstələrlə davranış qaydalarını və formasını bilməyi tələb edir. Həkimin fəaliyyətinin əsasını xəstənin həkimə inamı, onların arasında sıx əlaqənin yaranması, bir-birini yaxşı başa düşməsi təşkil edir. Həkim çox səbirli və xeyirxah olmalıdır.

O, hesab edirdi ki, həkim ilə xəstə arasındakı mənəvi ünsiyyət, xəstənin həkimə inamı xəstəliyin sağalmasına kömək edən amillərdən ən əsasıdır. Ona görə də XIII əsrdə yaşamış suriyalı həkim Əbül Fərədisin fikirlərini nümunə gətirir. Əbül Fərədis xəstəyə müraciət edəndə deyirdi ki, "Biz üçük-sən, xəstəlik və mən. Əgər sən xəstəlik ilə birləşsən siz ikiləşəcəksiniz, mən tək qalacağam, o zaman siz mənə qalib gələcəksiniz. Əgər sən mənimlə olsan, onda biz ikiləşərik, xəstəlik tək qalar-biz birlikdə xəstəliyə qalib gələrik" (1,85).

Zərıfə Əliyeva akademik M.P.Averbax adına mükafata layiq görülmüş ilk alim qadın idi. "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi elmi əsərlərin müəlliflərindən biri idi. "İridodiaqnostikanın əsasları" əsəri gözün güzehi qişasında baş verən dəyişiklərin orqanizmdəki xəstəliklərlə əlaqələndirilməsi kimi maraqlı bir sahəyə həsr olunmuşdu.

Zərifə Əliyeva təbabət etikasına dair jurnallarda xüsusi məqalələrin çap olunmasını həmişə təqdir edirdi. Zərifə xanım yazırdı ki, həqiqi həkim odur ki, o, xəstənin əzabını öz şəxsi əzabı kimi qəbul etsin; sağalmış, dirilmiş insanın gülər üzü, sağlığı həkim üçün ən böyük mükafat, şərəfdir. Ona görə də həkimin insanla hər söhbəti, onu qəbul etməsi həm xəstə, həm də cəmiyyət qarşısında böyük mənəvi məsuliyyətdir. Başlıcası isə onun öz vicdanı qarşısında məsuliyyətdir. Vicdan- bizim əsas hakimimizdir. Ağır dəqiqədə və sevinc saatında təkbətək olanda soruşur: ağ xalat geyinməyə sənin mənəvi hüququn varmı? İllər keçdikdən sonra sənin əllərin əzab çəkən insana tək biliyini deyil, narahat fikirlərini, yanan ürəyini çatdıra bilibmi? Bu, düzünü düsək, şəxsi vicdan qarşısında ciddi mühakimədən çıxmaq, böyük xoşbəxtlikdir (1,87).

Akadekim Zərifə Əliyevanın həyatı həkimlik fəaliyyətinin, elmi yaradıcılığın və mənəi saflığın birlik nümunəsi kimi vicdanın bu

ciddi mühakiməsinə sinə gərə bilmişdi. Zərifə Əliyevanın həyatı xalqa xidmətin bariz nümunəsi idi.

### Ədəbiyyat

1. Z.Ə.Əliyeva. Yüksək əqidə (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı). Bakı, 2003.
2. Ədilə Namazova, Qoşqar Əliyev. Təbabət etikası. Bakı,2004.
3. М.Я.Яровинский. Лекции по курсу «Медицинская этика» (биоэтика). М., 1999.
4. Биомедицинская этика. / Под редакцией В.И.Покровского. М., 1997.

## İ.Q.HERDERİN TARİX FƏLSƏFƏSİ

***Bilal Xudabağış oğlu Əlizadə***
***BDU-nun fəlsəfə kafedrası***
***azadaimanova@mail.ru***

XVIII əsrin sonunda zəngin fəlsəfi irsi, orijinal düşüncələri ilə seçilən, tarix fəlsəfəsinin inkişafında xüsusi xidmətləri olan İ.Q. Herderin fəlsəfi yaradıcılığı əsrlərdir elmi tədqiqatın obyekti olaraq qalır. Tarixi prosesin tədqiqinə olan marağını izah edən İ.Herder hələ gənc yaşlarından düşünürdü ki, "əgər dünyada hər şeyin fəlsəfi izahı varsa, nədən bəşəriyyət tarixinin fəlsəfi izahı olmasın?"

Bütün fəlsəfi irsi tarix fəlsəfəsinin, tarixi prosesin məqsədinin, hərəkətverici qüvvəsinin xarakterinin təhlilinə həsr edən Herderin "Bəşər tarixi fəlsəfəsinə, dair ideyalar" əsəri onun yaradıcılığında mühüm yer tutur.

İ.Herderin tarix fəlsəfəsi bəşəriyyətin ümumi tarixinin yalnız təsviri deyil. O, kosmik bir prosesin izahı, kainat, onun quruluşu, insanın bu mürəkkəb strukturda yeri, insanın yaratdığı dəyərlər sistemi, mədəniyyət fenomenini, makrokosmosla mikrokosmos arasında əbədi əlaqələr haqqında mükəmməl mühakimələridir" (1, s.352).

İ.Q. Herder "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin

əvvəlində yazır ki, mürəkkəb dünya düzənindən kiçik toz hissəciyinə qədər yeri, göyü, günəşin mövcudluğunu gerçəkləşdirən bir müdrikliyin şahidi oluruq.

Herder ilk dəfə öz dövründə bəşəriyyətin yaratdığı tarixi inkişafın, prosesin vəhdəti ideyasını irəli sürərək göstərmişdir ki, bu prosesdə bütün millətlər və xalqlar bərabər şəkildə iştirak edir və son nəticə ümumbəşəri gələcəyə doğru irəliləyirlər. Tarix fəlsəfəsi bəşəriyyətin həqiqi tarixini mədəniyyətin qanunauyğun inkişafı kimi əsaslandırmağa çalışır, onsuz bütün indiki dünya hadisələri, kabuslar və eybəcərliklər talenin anlaşılmaz döngələrinin yığını kimi görünə bilərlər. Herderə görə "bəşəriyyət mədəniyyətin müəyyən inkişaf pillələrini keçir, onun yüksəlişi tarixin qanunudur. Həm də inkişafın özü, onun xarakter və istiqaməti xarici və daxili amillər və ya qüvvələrin qarşılıqlı təsirilə müəyyən olunur, sonuncular içərisində isə din mühüm rolu oynayır (2, s. 12).

İ.Q. Herder tarixi prosesin izahında və təhlilində yeni bir addım ataraq ümumdünya tarixi konsepsiyasını işləyib hazırlamışdır. Onun tarixi proses haqqında baxışları, ideyaları, onların daha da konkretləşməsi əsasən onun "Bəşər tarixi fəlfəsinə dair ideyalar" əsərində öz əksini tapmışdır. Bu əsərdə əsas yerlərdən birini ictimai inkişafın qanunları problemi tutur. Onlar ümumiyyətlə mövcuddurlarmı? Cəmiyyətdə tərəqqiyə oxşayan nə isə vardırmı? Əgər adi müşahidəçi bəşəriyyətin taleyi ilə ancaq kənarlara baxmaqla kifayətlənirsə, bu suallara mənfi cavab verə bilər, amma bəşər tarixi ilə daha dərindən tanışlıq başqa nəticələrə gətirib çıxara bilər. Filosof cəmiyyətdə elə sarsılmaz qanunlar aşkar edir ki, buna oxşar qanunlar təbiətdə də fəaliyyət göstərir. Herderin fikrincə təbiət aşağı səviyyələrdən ali səviyyəyə doğru qanunauyğun fasiləsiz inkişaf vəziyyətində yerləşir, cəmiyyətin tarixi bilavasitə təbiətilə tarixinə birləşir və onunla qovuşur. Cəmiyyətin inkişaf qanunları, eləcə də təbiətin qanunları təbii xarakter daşıyır. Canlı insan qüvvələri bəşər tarixinin hərəkətverici qüvvəsidir, tarix şəraitdən, məkan və zamandan asılı olan insan qabiliyyətlərinin təbii məhsulu kimi təsəvvür olunur. Cəmiyyətdə nə baş vermişdirsə bu amillərlə şərtlənmişdir. Bu Herderə görə tarixin əsas qanunudur. Bu məqamda Herder cəmiyyətin inkişafına dair teoloji, dini baxışlara qarşı kəskin çıxış edir. O,

qeyd edir ki, son məqsədlər haqqında təlim təbiət tarixinə heç bir xeyir gətirməmiş, əksinə elə zərərli illüziyalar doğurmuşdur ki, bunlar da bəşər tarixinə əlavə edilə bilməz. "Nə üçün?" sualının yerinə hadisələrdə bizə məlum olmayan hansısa sirləri deyil, bu hadisələri törətmiş səbəbləri axtarmaq lazımdır. Tarixdə hər bir hadisə başqasına görə yox, öz-özünə görə baş verir.

Xalqların inkişafı vahid zəncir kimidir, inkişaf hər bir halda əvvəlki və sonra gələn mərhələlərlə bağlıdır.

Hər bir xalq özünün sələflərinin nailiyyətlərindən istifadə edir və varisləri üçün zəmin hazırlayır. Belə ki, qədim Yunanıstan Misirin yaratdığı irsə arxalanmış və özündən sonra yaranan Roma mədəniyyətinin inkişafına təkan vermişdir. Müasir bəşəriyyət əvvəlki nəsillər tərəfindən nə yaradılmışdırsa, nə işlənib hazırlanmışdırsa hamısının varisi hesab olunur.

İctimai inkişafın səbəblərini Herder daxili və xarici amillərin qarşılıqlı "əlaqəsində" izah etməyə çalışmışdır. Xarici amillərə insanların həyat şəraitinin bütün məcmusu kimi başa düşülən iqlimin təsirini aid edir. "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin I hissəsinin altıncı kitabını Herder də xarici amillərin insan cinsinə təsirinin təhlilinə həsr etmişdir. Bu Şimal qütbünün yaxınlığında yaşayan xalqların, Asiyanın dağ silsilələri yaxınlığında yaşayan xalqların, Afrika xalqlarının, isti dəniz adalarında yaşayan Amerika xalqlarının üzvi quruluşunun xarakterik cizgiləri ilə izah olunur (3, s.140, 145,158). Bəşəriyyətin bioloji növ kimi vəhdətini qeyd edərək Herder onda əhəmiyyətli dərəcədə coğrafi şərtlərlə xarici görünüşü, əxlaqları, adətləri və s. ilə müəyyən edilən rəngarəngliyi göstərmişdir.

Şimal və Cənub ölkələrinin sakinlərini müqayisə edən Herder qeyd edirdi ki, bütün bunlar təbiətin təsiri altında əmələ gəlmişdir. Əlverişli təbii amillərin əhəmiyyətini Herder Avropa ölkələrinin mədəniyyətlərinin coşqun inkişafının səbəblərini nəzərdən keçirərkən də xüsusi qeyd etmişdir. VI kitabda maraqlı məqamlardan biri də Türk xalqlarının xarici görkəmləri ilə bağlı olan hissəsidir. Herder yazır ki, "türklər əvvəllər biabırçı görkəmdə idilər, amma onlar nəcibləşdilər, hündürboylu və düzqamətli oldular, bu qədər ölkəyə qalib gəlmiş türklər onlarla qonşu olan tayfaların gözəlliklərindən

istifadə edə bildilər, bundan başqa onların gözəlliyinə "Quran"ın ehkamları da kömək edirdi, ona görə ki, "Quran" yuyunmağı, bədəni təmiz saxlamağı, sadəliyi gözləməyi tələb edirdi və bu zaman sevgi əyləncələrinə, şəhvət rahatlığına imkan verirdi" (3, s. 150-151). Bundan başqa əsərdə bizim üçün maraq doğuran məqamlardan biri də Xəzər dənizi sahillərində yaşayan tayfaların bədən quruluşu haqqında Herder tərəfindən ifadə olunan fikirlərdir. Amma bu məsələ haqqında bir məqalədə deyilənlər kifayətdir. Herder xarici amillərin əhəmiyyətini qəbul edərək, sonda ictimai və hər hansı inkişafın başlıca stimulunu haqlı, ədalətli olaraq daxili üzvi qüvvələrin olduğunu qəbul edir. Onların fəaliyyəti müqayisədə əhəmiyyətli dərəcədə xarici amillərin təsirini üstələyir. Herder təbiətdə və cəmiyyətdə genetik qüvvələr arasında tamam müəyyən olunmuş fərqləndirmələr aparmışdır. Herder ancaq cəmiyyətə xas olan və onun inkişafında müəyyənedici rol oynayan bir sıra halların fəaliyyətini göstərmişdir. Bu hər şeydən əvvəl cəmiyyətin özüdür, vahid üzvi tam kimi, fərdlərin məcmusunu təşkil edir ki, ondan kənarda fərd heç nədir. "İnsan cəmiyyət üçün doğulmuşdur" Herderin sevdiyi aforizmdir, bununla da insanların həyatında aparıcı rol oynayan qüvvələri göstərməyə cəhd edir. "Əgər mən insanda hər şeyi fərdə aid etsəm, bütün insanlar arasında və bütövlükdə insanlar arasındakı qarşılıqlı əlaqənin zəncirini inkar etsəm, onda mənə insanın müəmmalı təbiəti və onun tarixi qalardı, belə ki, bizim heç birimiz özümüzə görə, özümüzün sayəsində insan olmamışıq" (3, IX kitab, s.229). Tamın (cəmiyyət) hissəyə (fərdə) münasibətində müəyyənedici rol oynayan bu dialektik fikir sonralar Hegel tərəfindən ətraflı şəkildə işlənib hazırlanmış və onun bütün məntiq sisteminin qurulmasında çıxış nöqtəsi rolunu oynamışdır.

İ.Herder "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin VII kitabında yalnız insan cinsinin yer üzərində mövcud olan iqlimlərə uyğunlaşmasını göstərir. İqlim nədir, o insanın mənəvi aləminə və bədən quruluşuna necə təsir etdiyini izah etməyə çalışır. Herder yazır ki, genezis və ya iqlimin ilkinliyi haqqında mübahisə etməkdənsə, konkret və bütövlükdə tərbiyəvi xarakter daşıyan tədqiqatlar aparmağa üstünlük vermək lazımdır, tarixin və coğrafiyanın geniş meydanında zəngin məhsul yığmaq lazımdır. "Əgər portuqaliyalıların

Afrikadakı, ispanların, hollandların, ingilislərin, almanların Ost-Hinddə və Amerikadakı məskənlərini götürsək aydın olur ki, həm yerli xalqların, həm də gəlmələrin həyat tərzinə heç də dəyişməyən əvvəlki Avropa həyat tərzinin necə təsir etdiyini biz bilirik" (3, VII, s. 189). Belə problemləri həll edib daha qədim zamanlara malayların adalara, ərəblərin Afrikaya və Ost-Hində, türklərin onlar tərəfindən zəbt olunmuş ölkələrə, daha sonra monqollara və tatarlara, nəhayət xalqların böyük köçü zamanı bütün Avropaya doluşan tayfa kütlələrinə keçmək olar. Herder ilkin rolu kollektivin gücünə verdiyinə görə aydındır ki, onun diqqəti birinci növbədə də vasitələrə yönəlməlidir ki, adamların birliyini möhkəmləndirsin. Belə vasitələrdən birini Herder mədəniyyətdə görür. Mədəniyyət insanların fəaliyyətinin məhsulu və eyni zamanda onun stimuludur. XX əsrin görkəmli filosofu K.Yaspers "Tarixin mənası və məqsədi" əsərində mədəniyyətin yaranması ilə əlaqədar yazırdı: "Tarixəqədərki dövrün qaranlıq dərinliklərindən başlayaraq, on min illər ərzində davam etmiş dövrdə bizə oxşar insanlar... Mesopotamiyada, Misirdə, Hind və Xuanxe vadisində qədim dövrün böyük mədəniyyətlərini yaratmışlar" (3, s.74-75). K.Yaspersin mədəniyyətin, dinin və dövlətin, dilin, yazının meydana gəlməsi ilə bağlı fikirlərinə İ.Herderin tarixə baxışının bir növ davamı kimi baxmaq olar. K.Yaspersin tarixi proseslə bağlı fikirlərini başqa məqalədə şərh etdiyimiz üçün burada əlavə izahata ehtiyac görmürük (BDU-nun Elmi Xəbərləri, B., 2002, №3). Bu ilk növbədə dilə aid olunur. Herder üçün dil sadəcə təfəkkür aləti deyil, insanı insan ilə birləşdirən zəncir, adamların böyük təşkilatçısıdır. Herderin fikrincə cəmiyyətin formalaşmasında dil təfəkkür ilə qarşılıqlı əlaqədə inkişaf edərək nəhəng rol oynamışdır. Dil ilə yanaşı adamların ünsiyyətində və inkişafında mühüm vasitə kimi elm, sənətkarlıq, incəsənətin rolu böyük olmuşdur. Elm, incəsənət və sənətlərin inkişafı ilə insan nəslinin yeni ənənəsi başlayır.

Herder yazır ki, "daha çətin sual budur: elmlər və incəsənət insanların xoşbəxtliyinə necə kömək etmişdir? Onlar insanların xoşbəxtliyini, rifahını yüksəltmişdirlərmi? Bu suala sadəcə olaraq "hə" və ya "yox" cavabı vermək mümkün deyildir, ona görə ki, burada iş ondan ibarətdir ki, insanlar ixtiralar və kəşflərdən öz

xeyirlərinə necə istifadə edirdilər” (4, IX, s. 244). Fəaliyyət insanları inkişaf etdirir, buna görə təbii şərtlər arasında daha əlverişlisi eləsi hesab olunur ki, insanları çalışmağa sövq edir və bunun üçün müvafiq imkanlar yaradır. Mədəniyyətin mühüm elementi, insan cəmiyyətinin irəliyə doğru hərəkətinin mühüm amillərindən biri ictimai təsisatlar hesab olunur – bunları Herder “idarəetmə” termini ilə müəyyən edir. Buraya hər şeydən əvvəl təbii, əxlaqi səbəblərin təsiri altında meydana gələn münasibətlər sistemi hesab olunan ailə daxildir. Herder bu cür münasibətlər formasını “birinci dərəcəli təbii idarəetmə” adlandırır. İnsanların birgə əməyi rəhbərlik olmasını tələb etdiyi üçün cəmiyyətdə daha təcrübəli rəhbərlərin, ağsaqqalların meydana çıxması qanunauyğun hal hesab olunur. Qəbilə ova yollanarkən başçıya ehtiyac duyulur – beləsi bacarıqlı ovçular içərisindən seçilir və ümumi işin naminə hamı ona tabe olur. Hətta sürü halında yaşayan vəhşilərin də başçıları olur. Bu cür münasibətlər formasını Herder “ikinci dərəcəli təbii idarəetmə” adlandırır. “Üçüncü dərəcəli idarəetməni” o tamamilə başqa cür nəzərə çarpdırır, burada vəzifələr irsi əlamətlər üzrə tutulur. Əgər hakim kimi müdrik və ədalətli insan seçilibsə, bu o demək deyildir ki, onun oğlu da bu keyfiyyətlərə malik olacaq. Herder göstərir ki, təbiət insanların inkişafını ailə zəncirinin yaranmasına qədər çatdırır, buna görə də dövlətin nə olmasını bilməyən xalqlar da olmuşdur, dövlət isə ilk növbədə bərabərsizliyin, ictimai qüvvələrin fəaliyyətinin nəticəsidir. Amma Herder bu bərabərsizliyin əsl xarakterini görmür və hər şeyi ikinci dərəcəli momentlərdə - insanların mənəvi, əxlaqi və fiziki qabiliyyətlərində, həyat tərzində, yaşda, yaşayış yerində və s. fərqlərdə görür. Bütün mövcud dövlət idarəetmə formalarından Herder Respublikaya üstünlük verir. Herder yazır ki, irsi hakimiyyətin insanlar arasında tətbiq edilməsinin başqa səbəbləri də mövcud olmuşdur və tarix bu cür səbəblər haqqında susmamışdır. “Almaniyanın və mədəni Avropanın idarəetmə formasını kim vermişdir? Müharibələr. Varvar orduları bütün Avropanı zəbt etmişdilər, varvarların rəhbərləri və məşhur adamları öz aralarında torpağı və insanları bölmüşdülər. Elə buradan knyazlıqlar, feodallar, işğal olunmuş xalqların təhkimçilik asılılığı doğulurdu, işğalçılar mülkiyyətə sahib olurdular, bütün bunları güc həll edirdi. Bu cür

ağalıq yolu ilə tarix irəli gedirdi, tarixi faktları isə inkar etmək mümkün deyildir. Hansı güc Romanı fəth etdi? Yunanıstanı, Şərqi hansı qüvvə işğal etdi? Yenə də müharibələr!" (3, II, s. 246).

Cəmiyyətin inkişafına təsir göstərən amillər cərgəsində Herder dinə əhəmiyyətli yer verir, onun fikrincə din mədəniyyətin ən qədim elementidir, dinin olmaması - xalqın vəhşiliyinin göstəricisidir. Dilin meydana gəlməsini "Herder təbii səbəblərlə" izah etməyə cəhd etmişdir. İnsanın təxəyyülü fəaliyyət haqqında nəyi görürsə onu canlandırır, insan səmanı, torpağı, havanı, suyu görünməz mövcudluqlarla bağlayır, onlardan qorxur və pərəstiş edir. İnsan onlarla dostluğunu qurbanvermə, ibadətetmə, mərasim və ayinlərin köməyi ilə axtarır. Beləliklə, sirli, ilahi varlıqların xidmətçilərini yaratmaq ücün addım atılır. Bax beləcə ilk din xadimləri meydana gəlmişdir. Herder mədəniyyətin inkişafına dinin müsbət, mütərəqqi rolunu, aşkar rolunu açıq-aydın şişirdir.

Herder yazır ki, bütün vəhşi xalqların cüzi bilikləri və mədəniyyəti indiyədək din ilə bağlıdır. Mədəniyyət tarixi göstərir ki, ən mədəni xalqlarda da hər şey belə dəqiq olmuşdur. Misirlilər və bütün Şərq xalqları Şərq dünyasının ən uzaq şimal ucqarları və antik dövrün bütün mədəni xalqları, etrusklar, yunanlar, romalılar - onların hamısı dini ənənələrin dərinliklərindən elmi biliklər almışlar, onlar poeziyanı və incəsənəti, musiqini və yazını, tarixi və təbabəti, təbiətşünaslığı və metafizikanı, astronomiyanı və il hesabını, hətta etika və dövlət haqqında təlimi də bu yolla əldə etmişlər. Herderin mövqeyi burada tam şəkildə qeyd-şərtsiz qəbul ola bilməz. İlk elmi biliklər ola bilərdi ki, məbəd, sinaqoq, məscid divarları arasında yaransın, bu dini təfəkkürün məhsulu idi. Bu insan şüurunun inkişafının sonrakı mərhələsində aydın olmuşdur. Herder dini insan mədəniyyətinin mühüm ünsürü hesab etməsinə baxmayaraq dini inamın hər hansı bir formasının məhdudluğunu başa düşürdü. Tarixi prosesin Herder tərəfindən başa düşülməsinin daha bir xarakterik xüsusiyyətinə diqqət yetirmək lazımdır. Tarixi prosesin yüksələn xətlə inkişafına əmin olan filosof bir sıra maarifçilərin səthi optimizmindən uzaq idi. (Cəmiyyətin inkişafı parlaq gələcəyə uzanan birbaşa yoldur və yer üzündə bütün  hadisələr dərin düşüncə ilə zəngindir).

Herder "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərində oxucuları cəmiyyətdə həmişə tərəqqinin olmasına sadəlövhcəsinə inanmamağa çağırır və ictimai inkişafda müəyyən ziddiyyətlərin olmasını onların anlamasına cəhd edir.

Herder müasir "süni" insanı ibtidai "təbii" insanla müqayisə edərək belə fikrə gəlir ki, mədəniyyət insanı inkişaf etdirir, eyni zamanda onun imkanlarını məhdudlaşdırır. Bu məsələyə sonralar münasibət bildirən görkəmli psixiatr, "Psixoanaliz nəzəriyyəsi"nin banisi Z.Freyd yazırdı ki, "Tarixi proses qeyri-şüuridən izah edilməlidir. Psixoanaliz insanı və xoşbəxtliyi dərk elməyin istiqamətini bu cür dəyişmədə sosial fəlsəfəni yeni istiqamətə yönəldir... Mədəniyyətin tərəqqisi xoşbəxtliyin əldə edilməsi sahəsindəki nailiyyətlərin itirilməsi ilə nəticələnir" (7, s.267).

Z.Freyd mədəniyyəti insanın düşməni adlandırırdı. Çünki mədəniyyətin inkişafı insanın fəaliyyətini, "azadlığını" məhdudlaşdırır.

Bir halda ki, İ.Herder ümumdünya tarixi üzrə deyil, ümumsosioloji xarakterli tədqiqat əsəri yaratmışdır, onu ilk növbədə faktlar yox, tarixin ibrət dərsləri maraqlandırmışdır və o tarixi hadisələrin təhlilindən ibrət dərsi çıxarmağa çalışmışdır. Buna görə Herder təkcə mədəniyyətin nəzəriyyəçisi yox, həm də onun ilk tarixçilərindən biridir. Onun "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin üçüncü hissəsi bəşəriyyətin mədəni inkişafında keçdiyi yolu ümumi cizgilərlə izləmək üçün böyük cəhddir. Uzun zaman ərzində Herderin əsəri müasirlərinin düşüncəsinə hakim kəsilərək, bir neçə on illər sonra G.V.Hegel tərəfindən "Tarix fəlsəfəsi" əsərində ictimai prosesin elmi şəkildə dərk edilməsində irəliyə doğru atdığı addıma qədər buna oxşar tədqiqat nümunəsi kimi təkrarolunmaz hesab olunurdu.

G.V.Hegel Herderin bəşəriyyətin dialektik inkişafı haqqında fikirlərini qəbul etmiş, cəmiyyəti idarə edən tarixi zərurət ideyasını dərindən formula etmiş, amma onun uğurları Herder tərəfindən qazanılmış bir sıra elmi nəticələrin çox vaxt itirilməsi bahasına başa gəlmişdi. Hegelə görə cəmiyyətin tarixi elə momentdən başlayır ki, dövlət yaranır, ibtidai mədəniyyəti isə cəmiyyətin tarixindən əvvəlki dövrə aid edir. Herder isə əksinə, cəmiyyətin inkişafının erkən

pillələrini işıqlandırmağa səy göstərmişdir. Herderin fikrincə insan nəsli Asiyada meydana gəlmişdir. Burada ən qədim dilləri və yazılı abidələri tapmaq olar. Asiya – heyvandarlığın və əkinçiliyin, ən qədim incəsənətin və elmlərin beşiyi hesab olunur. Maraqlı cəhət ondan ibarətdir ki, Herder mədəniyyət tarixində avroposentrizmdən xüsusi olaraq imtina etmişdir. Herder çalışır ki, oxucusunda Asiya xalqlarına hörmət hissi tərbiyə etsin. Bu Herderin ümumi humanist baxışlarından, xalqların bərabərhüquqlu olması inamından və müstəmləkə əsarətinə mənfi münasibətindən irəli gəlirdi (III hissə - XI kitab, s. 305-310).

XVIII əsrdə hələ qədim Misir heroqlifləri və Assur-Babil mixi yazılarının sirri açılmamışdı. Buna görə də Herder əsərin III hissəsinin XII kitabında İkiçayarası və Qədim Misir xalqlarının bəşəriyyətin mədəni inkişafında oynadıqları rol haqqında ən ümumi xarakteristika verməklə kifayətlənməli olmuşdur. O bu xalqlarda heyvandarlıq və əkinçiliyin, ticarət və sənətkarlığın, o cümlədən metaləritmənin yüksək inkişaf etdiyini, mürəkkəb irriqasiya qurğularının yaradılmasının onlara məxsus olduğunu qeyd edir. Elmin ilk uğurlarını, əsasən də astronomiyanın nailiyyətlərini Herder onların təsərrüfat həyatının inkişaf etməsi ilə bağlayır. Müəllifin fikrincə (bu tarix elmindən də məlumdur) finikiyalılar birinci olaraq əlifbanı tərtib etmişlər, şüşəni ixtira etmişlər, metal kəsmişlər, onlar parçanın emalının təkmilləşdirilməsində yüksək nəticə əldə elmişlər, bütün Aralıq dənizi boyu qızğın ticarət aparmışlar. Mədəniyyətin formalaşmasını Herder hadisələrin təbii inkişafının gedişi ilə, ilk növbədə zəruri ehtiyaclarını ödəməsi ilə izah etməyə çalışır. Onun fikrincə "ehtiyac, şərait, təsadüf" bunlar insanları sivilizasiya yolu ilə hərəkət etdirmişdir.

"Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərinin III hissəsinin XIII kitabını Herder bütövlükdə qədim Yunanıstanın coğrafi vəziyyətinə və əhalisinə, dininə, mifologiyasına, incəsənətinə, elminə və tarixinə həsr etmişdir. Qədim Yunanıstan mədəniyyətini təhlil zamanı Herder incəsənətə xüsusi yer ayırır. Antik Yunanıstan incəsənətinin xarakterini ölkənin dövlət quruluşu ilə əlaqələndirir – Yunan dövlətlərinin quruluşu incəsənətin çiçəklənməsinə kömək edir, dövlət əhəmiyyətli işlərinin yerinə yetirilməsi üçün rəssamlara

ehtiyac duyurdu. Onun fikrincə ölkənin iqlimi də incəsənətin inkişafı üçün əlverişli idi. İncəsənət materiallarını və sənət əsərlərini açıq havada da nümayiş etdirmək olardı. Bu xarakterik cəhətlərə qədim yunan dinini, qədim yunanların həyat tərzini də əlavə etmək olar.

Herder antik dövrün dirçəldilməsi haqqında heç bir illüziyalara qapılmır və bununla əlaqədar təəccüblənmir, o başa düşur ki, qədim Yunanıstan və Roma, zamanın geri qayıtmasını arzulamaq avamlıq olardı, dünyanın yetkinlik dövrü çoxdan keçmişdir, hətta keçmişə qayıtmaq mümkün olsa belə, bəşəriyyətə heç bir xeyir gətirməz. Qədim yunan respublikalarındakı azadlıq və demokratiyadan vəcdə gələn Herder onları ideallaşdırmaqdan uzaq idi. O Yunanıstanda baş verən, arası kəsilməyən, vətəndaşların çiynində ağır yük olan müharibələrə də göz yummurdu. Daha sonra müəllif antik sivilizasiyanın gələcək tədqiqatçıları üçün Yunanıstan tarixinin əsas mərhələlərini müəyyənləşdirir. Başlanğıc dövr qəbilə mədəniyyətinin yaranması, sonra isə tədricən ilk tayfa monarxiyalarının aristokratik və demokratik şəhər respublikalarına çevrilməsi hesab olunur. Yunanıstan tarixində ilk böyük hadisəni Herder İran ilə müharibəni hesab edir ki, bu müharibə Afina qarşısında şərəf və çiçəklənmə səhifəsi açmışdır, elə bu vaxtdan da təhlükəli qığılcım oyanmış, nəticədə Afina dövlətçiliyini məhv edən alovu yandırmışdır. Afinanın süqutunun, Makedoniya monarxiyasının yaranması və məhvinin səbəblərini də Herder hadisələrin təbii qanunauyğun gedişi ilə izah edir. Roma imperiyasının tarixinin əsas mərhələləri, onun dağılmasının təhlili, "Bəşər tarixi fəlsəfəsinin ideyalarına dair" əsərində Herder tərəfindən təhlili xüsusi maraq doğurur və onun səbəblərini Herder əxlaqın pozulmasında deyil, Roma dövlətinin özünün daxilində kök salmış amillərdə, hər şeydən əvvəl, silklərin mübarizəsində, Roma ilə onun əyalətləri arasındakı ziddiyyətlərdə, nəhayət, quldarlıqda görürdü. Herder əsərin III hissəsinin XX kitabında feodalizm cəmiyyətinin meydana gəlməsi səbəblərini, onun hansı zərurətdən yaranmasını təhlil etməyə çalışır. Feodalizm cəmiyyətinin qiymətləndirilməsində Herder bu dövrü bəşəriyyət tarixində bir addım geriyə doğru, vəhşiliyə qayıtmaq kimi, ictimai inkişafda süni fasilə kimi nəzərdən keçirən bir sıra maarifçilərdən fərqli olaraq yüksəyə qalxmağa nail ola bilmişdi. Buna baxmayaraq

Herder orta əsrlərin romantikləri üçün xarakterik olan ideallaşdırmadan uzaq idi. Herder feodalizm dövrünün qiymətləndirilməsinə dialektik şəkildə yanaşmış, feodal münasibətlərinin meydana gəlməsi zərurətini göstərmişdir. Orta əsrlər Herder tərəfindən bəşəriyyətin mədəni təkamülündə zəruri və mühüm halqa kimi təqdim edilir. O, orta əsrlərin sənətkarlığının, ticarətinin, elminin və incəsənətinin ətraflı tarixinin yaradılmamasından təəssüfləndiyini bildirir və tarixçiləri bu vəzifəni həll etməyə çağırır. Onun özü bu dövrün mədəniyyətinin ümumi inkişafının xarakterik xüsusiyyətlərini, hər şeydən əvvəl onun dini xarakterini qeyd edir. Herderin fikrincə orta əsrlərdə dünya mədəniyyənin inkişafının təhlili zamanı bu dövrdə Şərq xalqlarının yaratdıqları (ilk növbədə ərəblərin) nəzərdən keçirilməsəydi yarımçıq olardı. Asiyanın mənəvi mədəniyyətinin özünəməxsusluğunu müsəlman dini müəyyən edirdi. Ərəblər çox sürətlə Kiçik Asiyanı, Misiri, İranı işğal etdilər. Bu müharibələr zamanı antik sivilizasiyanın qalıqları məhv oldu. Əgər ərəb döyüşçüləri yunan heykəllərini və əlyazmalarını məhv edirdilərsə, əksinə ərəb alimləri antik dövrün elmi ənənələrinin qoruyucuları və davamçıları kimi fəaliyyət göstərirdilər. Ərəb filosofları Aristotelin, riyaziyyatçılar Evklidin və Ptolemeyin, həkimlər isə Qalenin və Dioskoridin ideyalarını inkişaf etdirir və onların təvsirini verirdilər.

Ərəblər həm də Dünya ticarətinin inkişafı üçün çox iş görmüşdülər. Orta əsrin mədəniyyətinin inkişafında Şərq xalqlarının roluna obyektiv qiymət verməklə Herder özünün dahi sələfi Hegeldən üstünlüyü ilə fərqlənir. Hegel özünün əsərlərində ərəb fəlsəfəsinə, mədəniyyətinə və müsəlman dininə əhəmiyyətli yer ayırmamışdır. Herder bəşəriyyətin mədəni inkişafının ancaq XIV əsrin sonlarına qədərki dövrünü nəzərdən keçirmişdir. Herderin humanizminin fəlsəfi əsasını bəşəriyyətin tərəqqisi haqqında təlim təşkil edirdi. Cəmiyyətin yüksək halına doğru hərəkətini o humanizm adlandırmışdır. Herder "Bəşər tarixi fəlsəfəsinə dair ideyalar" əsərində yazırdı: "Mən istərdim ki, humanizm özü ilə indiyə qədər insan haqqında, onun mərdlik tərbiyəsi, ağlı, azadlığı, yüksək məram və səyləri, gücü və sağlamlığı, Yer qüvvələri üzərində üstünlüyü haqqında nə demişəmsə hamısını əhatə edim" (3, III, XV, s.428). Əgər insanlar belə bir səviyyəyə çatmayıblarsa, onlar ancaq özlərini

günahlandırmalıdırlar, heç kim onlara göydən kömək etməyəcək, həm də heç kim onların əllərini bağlamır. Onlar özlərinin keçmişindən ibrət dərsi götürməlidirlər, bunu bəşəriyyətin harmoniyaya və təkmilləşməyə səy göstərməsi əyani surətdə sübut edir. Xalqların bütün tarixi humanizmin sürətlə əldə edilməsi üçün yarış məktəbi hesab olunur. Heç bir despotizm və ənənə onu ləngidə bilməz. Despotizmə qarşı güc tətbiq etmək lazımdır. Herder bu şəkildə cəmiyyətin inkişafının zəruri elementi kimi inqilabın rolunu qəbul edir. Maraqlıdır ki, o "inqilab" anlayışını, onun əsas mənasını çevriliş, sıçrayış anlayışları ilə yanaşı qoyurdu. Buna görə o inqilabın ümumiliyini elan edərkən onu tədrici proses kimi, yeni keyfiyyətlərin nəzərə çarpmadan toplanması kimi təqdim etmək istəyirdi. Herder insanların bir çox bədbəxtliklərinin səbəbini despotik dövlətin mövcudluğunda görürdü.

Avropa dövlətləri barbar tayfalarının hücumu nəticəsində meydana gəlmişdir, onların rəhbərləri zəbt olunmuş torpaqları öz aralarında bölmüşdülər. Herder dövlətin yaranmasının "müqavilə nəzəriyyəsi" ilə polemikaya girir, bu nəzəriyyədən irəli getməyə cəhd edir və göstərmək istəyir ki, hər hansı dövlət zorakılıq, zülm ilə bağlıdır. Herder Lessinqin "dövlətin məhv edilməsi bəşəriyyətin azad olunmasının şərtidir" kimi fikrini daha da inkişaf etdirdi. Dövləti o, maşın adlandırır, despotizmi idarəetmənin təkcə monarxiya formasında deyil, harada hakimiyyət xalqın marağı naminə istifadə olunmurdu, orada görürdü. Herder səmərəli dövlətin mümkünlüyünə inanmır.

İ. Herderin "Bəşər tarixi fəlsəfəsinə dair ideyaları" həyatdan uzaq alimin ehtiraslı rəvayəti deyil, öz xalqının gözəl gələcəyi üçün özünün qüvvəsini verməyə hazır olan filosof-publisistin əsəridir. Herderin fikri ictimai vəziyyətindən asılı olmayaraq insanı azadlığa, adamların maariflənməsi və rifahı naminə bütün bəşəriyyətə xidmət etməyə çağırır. Herder əmindir ki, taxt-tax sahibləri nadir hallarda xeyirxah dəyişikliklər edirlər, müasirlərinə müraciət edərək onları özlərinin talelərinin sahibi olmağa və hökmdarların etmədiklərini həyata keçirməyə çağırır.

**Ədəbiyyat**


1. Aslanova R. Tarixə fəlsəfi baxış. B., 2021
2. Paşayev V., Paşayev M. Tarix fəlsəfəsi. Bakı, 2019
3. Гердер И.Г. Идеи к философии истории человечества. М., Наука, 1977
4. Гегель Г.В. Философия истории. М., 1935
5. Ясперс К. Смысл и назначение истории. М., 1991
6. Гулика А.В. Гердер. М., 1975.
7. Фрейд З. Неудовлетворенность культурой. Избранное. М., 1991.


## ORTA ƏSRLƏRDƏ (IX-XIV ƏSRLƏR) TÜRK-İSLAM MƏDƏNİYYƏTİ. MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ. " QƏTRAN TƏBRİZİ" NIN HƏYAT VƏ YARADICILIĞI


***Firudin Zirəddin oğlu Məmmədov***
***firidunmemmedov 333@gmail.com***
***Azərbaycan Dövlət Pedaqoji Unversitetinin baş müəllimi, p.ü.f.d***


Təbriz yaxınlğında Şadiabad kəndində anadan olmuş şair və dilçi alim, farsdilli Azərbaycan saray ədəbiyyatının ilk görkəmli nümayəndəsi Qətran Təbrizi olmuşdur.

XI əsrdə yaşamış Qətran Təbrizinin (1012-1081) ana dili dəri dili olmuşdur. Onun bizə gəlib çatmış "Divan"ı əsas etibarilə dövrün hökmdarlarına yazılmış mədhiyyə-qəsidələrdən ibarətdir.

Qətran Təbrizi 1012-ci ildə Təbriz yaxınlığındakı Şadiabad kəndində anadan olmuşdur. Şairin tam adı Əbu Mənsur Qətran Cili Azərbaycanidir. İlk təhsilini Şadi-abadda almış, sonra Təbrizdə oxumuşdur.

Qətran Təbrizinin zamanında Şəddadilər dövlətinin paytaxtı olan Gəncə çox inkişaf etmiş bir şəhər idi və Şərqin bir çox ölkələrindən alimlər, şairlər, memarlar, sənətkarlar Gəncəyə axışırdı. Qətran da təhsilini başa vurduqdan sonra buraya gəlir. O, tezliklə Gəncədə Şəddadilərin sarayına dəvət olunur və az bir

vaxtda böyük nüfuz qazanır. Həmin dövrdə ölkənin başında Əbdülhəsən Ləşkəri dururdu və təbii ki, Qətran da bir çox şerlərini ona və onunla əlaqədar baş vermiş hadisələrə həsr edir. Bu şerlərdən çıxış edərək, Qətranın Gəncədə yaşadığı dövrü müəyyənləşdirmək mümkündür. Misal üçün, bir şerində Qətran Rəvvadilər dövlətinin başçısı Əbu Mansur Vəhsudanın Əbdülhəsən Ləşkərinin qonağı kimi Gəncəyə gəlişindən danışır. Qətran yaradıcılığını araşdıran alimlərin fikrincə, bu görüş 1035-1040-cı illər arasında baş verə bilərdi. 1042-ci ildə isə şair artıq Təbrizdə şəhərin yarısını yerlə yeksan etmiş dəhşətli zəlzələnin şahidi olmuşdu. Deməli, Qətran Təbrizə bu təbii fəlakətdən əvvəl qayıtmışdı. Lakin bir çox tədqiqatçılar Qətranın Gəncəyə zəlzələdən sonra gəldiyini göstərirlər. Görünür, şairin yenidən Gəncəyə dönüşünü də istisna etmək olmaz. 1046-cı ildə Qətran Təbrizdə böyük İran şairi və filosofu Nasir Xosrovla görüşür. Nasir Xosrov özünün məşhur "Səfərnamə" əsərində Qətran adlı gözəl bir şairlə görüşdüyünü qeyd edir. Qətranöz şeirlərində Azərbaycan hökmdarlarının qəhrəmanlığı, şücaətini, ədalətini, vətənpərliyini, əxlaqi mənəvi keyfiyyətlərini mədh etmişdir. QətranınmədhetdiyihökmdarlarXI ərdə Arran dövlətinin və Azərbaycanda hakimiyyətbaşında duran uç sülalənin üzvlərindən, habelə onlann saraylarının və ordularının xadim və sərkərdələrindən ibarətdir. Bu üç sülalə əsasən Şəddadilər, Vəhsudanlar və Rəvvadilərdən ibarətdir. Qətranın yaradıcılığında həm yüksək bədiilik, həm tarixi hadisələrin təsviri, həm tarixilik, həm də tərbiyəvi əxlaqi keyfiyyətlərin şərhi yüksək dərəcədədir. Qətran Təbrizinin «Divan»ını oxuduqca gözümüz qarşısında yalnız yüksək ilhama malik bir şair deyil, həm də bir pedaqoq, müəllim, tərbiyəçi, qədim Yunan və Şərq elm və mədəniyyətinə dərindən bələd olan görkəmli bir alimin siması canlanır.

Təbrizi bir müəllim-metodist kimi fars dilinin ilk izahlı lüğətinin müəllifidir. «Ət-təfasir» adlanan fars dilinin bu izahlı lüğəti ilk didaktik əsərlərdən sayıla bilər. Qeyd edək ki, bu sadəcə olaraq bir sözlük deyil, həm də burada xüsusi metodika ilə hər sözün izahında əxlaqi fikirlər, atalar sözləri və məsəllər verilir ki, bu da sözün mənasının yaxşı mənimsənilməsinə, uzun müddət yadda

qalmasına, dərk edilməsinə səbəbolur.

XI əsrdə yaşamış məşhur şair və səyyah Nasir Xosrov 1046 il-də Təbrizə gəldikdə Qətranla görüşmüş, onun bu kitabı ilə tanış olmuş və özünün «Səfəmamə» əsərində belə yazmışdır: «Bu fars dilinin ilk izahlı lüğətidir. Bu lüğətdə Qətran bir metodist kimi sözlərin izahını misallarda elə vermişdir ki, onu oxuduqda uzun müddət yadda qalır. Onun yazdığı lüğət kitabı uzun illər boyu fars dilini öyrənənlər üçün mühüm metodik kitab olmuş, bir növ dərs vəsaiti rolu oynamışdır". Orta əsr Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Q.Təbrizi fars leksioqrafiyası tarixində ilk izahlı lüğətin yaradıcısı olmuşdur. Bu barədə «Lüğəti-fars»ın müəllifi Məhəmməd Hinduşah Naxçıvani (XII əsr) və başqaları yazmışlar. Bu yazılardan məlum olur ki, XI –XII əsrlərdə fars dilçiliyi sahəsində aparıcı rolu məhz azərbaycan-lılar olmuşlar. Bu əsərin başa çatmasında Qətran hər vasitədən, o cümlədən təsadüfən rastlaşdığı səyyahdan, yəni Nasir Xosrovdan da istifadə etməyə çalışmışdır. Bunu da qeyd edək ki, məhz Q.Təbrizinin yazdığı lüğətin əsasında sonralar Əsəd «Müstəş-hədat», Əbu Nəfs Sədi «Risalə», Əlaəddin «Zübdətül-lüğət kitablarını yazmışlar.

Qətranm şeirləri də əxlaqi, mənəvi ibratamiz fikirlərlə zəngindir. O, həyat haqqında fikirlərini mənsub olduğu sadə xalq kütləsinə müraciətlə belə deyir:

Ey ciyəri yanan, bu bağdan meyvə axtarma
Bu bağ ancaq ikiqapılı bir söyüdlükdür.
Bihudə danışma ki, bağban arxada durub
Torpaq kimi aram ol, yel kimi ötüb keç.

Şair demək istəyir ki, yaşadığımız həyat olum və ölüm adlı iki qapısı olan söyüdlükdən ibarətdir. Olum qapısından bu söyüdlüyə daxil olan insan dadlı meyvələr axtarır, nəsə bir şey toplamaq istəyir. Lakin nəzərə almır ki, bu bağ söyüdlükdür. Bu söyüdlükdən dərilmiş «meyvə» heç nəyə yaramayacaq. Əcəl adlı bağban pusquda durmuş, insanı ölüm qapısından içəri atmaq üçün fürsət gözləyir. Şair bildirir ki, bu həyatda insan torpaq könüllü olmalı, aza qane olmalı, maddiyyətə, dünyagirliyə, mala, pula hərisliyə, yüksək könüllüyə meyl etməməlidir. Çünki əldə heç nə qalmayacaqdır. Bu dün-yada heç nə əbədi deyildir. Qətran sanki

deməmk istəyir ki, «Bir şey tapdınsa sevinmə, onsuz da sənin olmaycaqdı. Bir şey itirdinsə kədərlənmə, onsuz da o sənin olmayacaqdı». Şeirin bu açıqlamasından belə qənaətə gəlmək olar ki, Qətran maddiyyət aləminin adamı olmamış, mənəviyyat aləminin adamı olmuşdur. Başqa bir şeirində o, belə yazır:

Bədənimin yarısı zəhmətdə, yarısı əzabdadır,
Qördüyün hər işi əvvəlcə ağıltərəzisi ilə ölç.
Kim ki, mal toplamaqdan ötrü dərd, qəm və əzab çəkir,
Mal-dövlət gedəcək .ona ancaq əzabı qalacaqdır.

Qətranın şeirlərindən duyulur ki, dövlətçilikdə, hökmdarların dövləti idarə etməsində ilk növbədə onların ağlı, biliyi, maarifçiliyi, ədaləti böyük rol oynayır. Qətran hökmdarları tərif etməklə sanki onları dövləti ağılla, mənəviyyatla, elm və biliklə idarə etməyə çağırır. Q.Təbrizinin Aərbaycan hökmdarlarını dostluğa və birliyə çağırır, ölkədə vahid qüdrətli bir dövlət yaratmağı zəruri hesab edirdi. Buna görə də Gəncənin Şəddadilər sülaləsinin altıncı hökmdarı Əbülhəsən Ləşkəri (1033-1050) ilə Əmir Əbüfəzl Cəfərin barışıb dostluq etməsini yüksəkqiymətləndirir. Q. Təbrizinin şeirləri, demək olar ki, tərbiyənin bütün sahələrini əhatə edir. Q.Təbrizi öz məmduhlarının daha çox mənəvi keyfıyyətlərinə üstünlük vermişdir.

Bumənəvikeyfiyyətlərsırasındavətənpərvərlik, qəhrəmanlıq, şü caət,cəsarət,düşmənə qarşı amansızlıq, dostluqda sədaqət, comərdlik, insanpərvərlik, sülhsevərlik, səxavət, əliaçıqlıq, fədakarlıq, xeyirxahlıq, ədalət və s. kimi sifətlər mühüm yertutur.Q.Təbrizi öz həyat və fəaliyyəti ilə mənəviyyat nümunəsi olan, insanlara öz əxlaqi ilə örnək olan Məhəmməd Peyğəmbərin nümunəsindən geniş istifadə edir. İnsanların əxlaqi, mənəvi keyfiyyətlərini tarixi şəxsiyyətlərin nümunəsində izah edir. Bu da şairin geniş məlumatlılığını göstərməklə bərabər, həm də onların özünəxas, əxlaqi sifətlərini oxuculara açıqlayır, onlardan nümunə gətirməyə çalışır. Məsələn, şair Əbülmüzəffər Fəzlu haqqında belə deyir: «Bu şah Firudin hörmətli, / Ənuşirəvan ədalətlidir /Bilikdə Buqrat və Əflatunun adları xatirələrdən çıxarmışdır».

Qətran Təbrizi irsi amillərin insanın formalaşmasında müəyyən rol oynamasını qeyd edir və “Ot kökü üstündə bitər” misalına istinad

edir. Mütəffəkirin fikrincə hər canlı varlığın öz təbiəti var, o ancaq öz təbiətinin xususiyyətlərini ifadə edir:

Hər qırmızı mərcan olmaz, hər yaşıl mina olmaz,
Dagda olan hər bir daş yaquti–rummani ola bilməz.
Sədəfə düşənhərnadir mirvari ola bilməz

Qətran Təbrizi böyük şair,bir pedaqoq, metodist, tərbiyyəçikimi də XI əsrpedaqoji fikir tariximizdə mühum yer tutmuşdur.

“AZƏRBAYCAN IX-XI ƏSRLƏR DÖVLƏTÇİLİK TARİXİNDƏ YENİ MEYLLƏR VƏ NAXÇIVAN” (Qatran Təbrizinin əsərləri üzrə) məqaləsinə istinad edilib.

Məqalədə XI əsrdə yaşamış görkəmli mütəfəkkir-şair Qətran Təbrizinin yaradıcılığı əsasında, xüsusilə onun “Divanı "nda Azərbaycan tarixi ilə bağlı, dövlətçiliyin möhkəınləndirilməsi və inkişafı ilə əlaqədar irəli sürdüyü məsələlərə diqqət yetirilir. Müəyyən edilmişdir ki, onun yaradıcılığında Azərbaycan hökmdarlarım dostluğa, birliyə çağırış, ölkədə vahid, qüdrətli bir dövlət yaratmaq arzusu üstün yer tutmuşdur. 0, göstərirdi ki, xarici basqınlardan müdafiə olunmaq, iqtisadi cəhətdən qüvvətlənmək üçün hökmdarlar arasında barışıq olmalı, vahid dövlət yaradılmalıdır Qətran Təbrizinin bir müddət Rəvvadilər sarayında olduqdan sonra Gəncəyə, Şəddadilər sarayına getdiyi (S.Kəsrəviyə görə 1034- 1038-ci illərdə) bildirilir. “Ləşgəri hakimiyyətinin (1033-1049 - İ.H.) başlanğıcında Gəncəyə gəlmiş şair bir neçə il burada yaşayıb-yaratmış, ancaq Təbriz sarayını - Rəvvadiləri, Naxçıvan saraymı - Deyranilər hakimi Əbu Duləfi də yaddan çıxarmamışdır” (2, s. 316). Beləliklə, tarixi faktlardan aydın olur ki, Qətran Təbrizi dövrün siyasi hadisələrindən, dövlət rəhbərlərinin hərəkət və baxışlarından kifayət qədər məlumatlı olmuşdur. Belə güman etmək olar ki, Azərbaycan dövlətinin birliyi ideyası həmin dövrdə hökmranlıq etmiş hakimlər arasında da müzakirə predmeti olmuşdur. Qətran Təbrizi ayrı-ayrı hökmdar və ya digər şəxslərin adma mədhiyyələr yazsa da, Əbülhəsən Ləşgəri ilə Əmir Əbülfəzi Cəfərə birlikdə mədhiyyə həsr edir, burada onların birliyi və dostluğunu yüksək qiymətləndirir:

Dostların ağlı və ruhu birləşdi,
Düşmənlərin əli və dili qısaldı...

Hiyləgər düşmənlərin əlaqələri pozuldu.
Sədaqətli dostların peymanları bağlandı.
O iki şahzadənin əhd-peymanlarının yeniləşməsindən,
O iki gənc şahın görüşüb bir-birinə məhəbbət bəsləməsindən
İndi pələnglə şir bir-birinə yaxın oldu,
İndi ayla günəş bir-birinə yaxınlaşdı.
Artıq düşmənlərin bədənləri kədərlənib əriyəcəkdir,
Bədxahların bədənləri şiddətli qüssəyə məruz qalacaqdır... (1, s. 242).

Ölkənin, xalqın birliyinin tarixi əhəmiyyətinin dərk edilməsi və tərənnümü ilə birlikdə onun həyata keçirilməsi yolları, siyasi liderin rolu və s. mühüm məsələlərin də irəli sürülməsi barədə fikir yürüdülməsi zəruridir. Təsadüfi deyil ki, dövrün siyasi liderləri içərisində Naxçıvanşah Əbu Duləf də xüsusi yer tutmuşdur. Əbu Duləfin şəxsiyyətinin əhəmiyyətini müəyyən etmək üçün qeyd etmək lazımdır ki, həyatının bəzi dövrlərini Naxçıvan və Gəncədə keçirmiş məşhur fars-tacik şairi Əbu Nəsr Əli İbn Əhməd Tusi (XI əsr) də Əbu Duləf haqqında əsərlər yazmışdır. O, "Kərşasbnamə"ni (457/1065-1066) ona həsr etmişdir. Görünür Əbu Duləfin Əsədiyə münasibəti elə ibrətamiz olmuşdur ki, Nizami Gəncəvi Sultan Mahmud və Firdovsi ilə müqayisədə, məhz onu vəsf etməyi lazım bilmişdir. Böyük şair "Yeddi gözəl" poemasında yazmışdır:

Soltan Mahmud ilə şair Firdovsi
Andıdır nisbətdə Əqrəblə Qövsi.
Əsədi, Əbu Duləf bəxtiyar oldu.
Çünki taleləri güldü yar oldu (3, s. 16).

Bu bir daha təsdiq edir ki, Əbu Duləfin şəxsiyyəti mühüm əhəmiyyətə malik olmuşdur. Bu da təbii ki, Naxçıvanın rolu və mövqeyi ilə də bağlı olmuşdur. Qətran Təbrizinin də dövrün digər görkəmli dövlət adamları ilə eyni zamanda, Əbu Duləfə də əsərlər həsr etməsi təsadüfi hesab edilə bilməz və janrın poetik məziyyələri ilə birgə, xeyli dərəcədə reallığı əks etdirdiyini söyləmək olar. Bu qəsidələrdən biri "Naxçıvan 119 qalasında düşmənə qələbə çaldığı zaman Əbu Dələfın mədhi (1, s. 84-85) (orijinaldakı kimi verilir İ.H.) adlanır. Orada deyilir:

Düşmənlərin bəlası şah Əbudələf,

Bədxahların şadlığını əskildər, qəmini artırar.
Bəxşiş günü onun əlindən xəzinədə dirəm göz yaşı tökər.
Döyüş günü düşmənin dəbilqəsi qan ağlayar.
O qədər düşmən öldürdü ki, qılıncının bucaqları qırıldı.
O qədər düşmən tutdu ki, kəməndinin halqası sürtüldü...

Qəsidədə Naxçıvanın adınm çəkilməsi də diqqətəlayiqdir. Burada Naxçıvanı ələ keçirmək istəyən qüvvələrdən və Əbu Duləlın onu müdafiə etməsindən bəhs olunur və burada da o, Naxçıvanın şahı kimi təqdim edilir:

Naxçıvana tamah etmişdi, oraya yaxınlaşdı,
Həmişəlik olaraq oranı tərk etdi, Naxçıvanla vidalaşdı,
Məni yola sal gedim, ey şah, çünki mənim burada qalmağımdan
Mənə ziyan olar, sənə də bir mənfəət olmaz...

Qətran Təbrizi "Əbudələfin mədhi" adlanan digər bir iri həcmli qəsidəsində (1, s. 119-123) bir sıra yeni məsələlərə toxunur. Ölkənin (Naxçıvanın - İ.H.) siyasi həyatı ilə eyni zamanda iqtisadi və sosial həyatına da toxunur:

... Bu kamallı hökmdar, bu ədalətli şahənşah.
Bu bəndəpərvər padşah Məlik Əbudələfdir...
Onun əməllərindən ölkə yüksəldi,
Onun işlərindən böyüklüyün şöhrəti artdı...

Qətran Təbrizinin bir qəsidəsinin adı isə daha konkretdir: "Naxçıvan şahı Əbudələfin mədhi" (1, s. 127-129). Bu qəsidə də mədhnamənin tələblərilə birgə, yeni fikirlərə də təsadüf olunur. O, Əbu Duləf haqqında yazır:

Ey türk heykəlli mələk, ey mələk xasiyyətli türk!
Həm behiştin zinətisən, həm də Xəzərin bəzəyi.

Beləliklə, Qətran Təbrizinin Əbu Duləfə həsr edilmiş mədhiyyələrinin təhlili göstərir ki, şairin bu şəxsiyyətə müraciəti təsadüfi olmamış, onun güclü və vahid dövlət yaradılmasına dair baxışlarında Naxçıvanşah və onun hakimiyyətinə də böyük ümidlər olmuşdur. Qətran Təbrizinin həyat və yaradıcılığını Azərbaycan dövlətçiliyinin tarixini öyrənmək üçün əhəmiyyətli edən məsələlərdən biri də ondan ibarətdir ki, o ölkə tarixində baş verən yeni bir döyüş dövrünün - Səlcuqlar dövrünün də şahidi olmuş, bu mühüm mərhələnin məna və mahiyyətini doğru-düzgün

dəyərləndirmişdir. Əvvəla, şair “Azərbaycan hökmdarlarının səlcuqlarla birlikdə ümumi düşmənə qarşı vuruşunda çox vaxt səlcuq hökmdarlarını ad çəkmədən mədh etmişdir” (2, s. 325). İkinci, Qətran Təbrizi oğuzlardan bəhs edərkən oğuzları yalnız gəlmə hesab etmir, yerli oğuzlardan da bəhs edir. “Ərəb istilası dövründə qılınc gücünə tabe edilmiş yerli oğuzları XI yüzillikdə xilafətin gücdən düşməsi və ölkənin daha çox ərəb və fars soylu əmirlərin tərəfindən feodal dağınıqlığı şəraitində idarə edildiyini gördükdə özləri vətənlərinin sahibi, hökmdarı olmağın zamanı gəlib çatdığım duymuş, üsyanlar qaldıraraq siyasi hakimiyyəti ələ keçirməyə çalışmış və bunun uğrunda vuruşmuşlar. Bu həqiqət kənardan “Oğuz yürüşü” kimi qələmə vermək yanlışdır. Qətranın tarixi mənzumələri bu yanlışlığı ortadan qaldıran ən dəyərli tarixi-ədəbi abidə kimi çox qiymətlidir. Qətranın tarixi mənzumələrindən istifadə edən tarixçi mənzumələrindən istifadə edən tarixçi və ədəbiyyatşünaslardan heç biri bu qiymətli cəhəti görə bilməmişlər: Sənin meylin oğuzlara tərəf olan zamanlar 120 Onlara heç bir xalqdan dəhşət və qorxu yox idi. Artıq bir dəfəlik onlardan üzün döndü. Onların özləri də özlərinə düşmən oldular... Onların əmirləri və başçıları sənin hökmün olan halda Ondan bir ovuc günahkar üsyançının nə qorxusu ola bilər? (1, s. 328-329) Azərbaycanın Səlcuq imperiyası dövrünə aid belə bir baxış, bütövlükdə həmin dövr tarixinin, o cümlədən Azərbaycanın dövlətçilik tarixinin tədqiqi üçün mühüm əhəmiyyətə malikdir. Səlcuq dövrü, xüsusilə imperiyanın zəifləməsindən sonra yaranan Atabəylər dövlətləri sistemində önəmli yer tutan Azərbaycan Atabəylər və ya Eldənizlər dövləti tarixində Naxçıvanın rolu daha da artdı (4, s. 8-38).

Qətran bir müddət Naxçıvanda, yerli hakimlərin saraylarında yaşadıqdan sonra vətəni Təbrizə dönür. Qətran Təbrizi hələ sağlığında ikən istedadlı şair, müdrik filosof və alim kimi bir çox ölkələrdə şöhrət qazanır. Özünün yazdığına görə, onu Xorasanda və İraqda yaxşı tanıyır və sevirdilər.

Qətran 1080-ci ildə Təbrizdə dünyasını dəyişmiş və Surxab məhəlləsindəki məşhur Şairlər məqbərəsində dəfn olunmuşdur.

Qətran "Tövsnamə", "Quşnamə", "Vamiq və Əzra" adlı əsərlərin, habelə əsasən qəsidələrdən ibarət iri həcmli divanın müəllifidir.

XII əsrdə yaşamış Orta Asiya şairi Rəşidəddin Vətvat yazır ki, o ömrü boyu bircə həqiqi şair tanımışdır – həkim (müdrik) Qətran Təbrizini.

Qətran poeziya ilə gənc yaşlarından məşğul olmağa başlamış və bu sahədə böyük yaradıcılıq uğurları qazanmışdı. Şeir yaradıcılığında əsas yeri dövrün müxtəlif hökmdarlarını tərif edən qəsidələr tutur. Bu əsərlər müasir oxucu və tədqiqatçılar üçün qəsidələrdə mədh olunan qəhrəmanların saraylarında baş verən tarixi hadisələri öyrənmək və anlamaq baxımından çox qiymətlidir. Misal üçün, Qətran Təbrizinin şeirlərində oğuzların Azərbaycana bir neçə yürüşü öz əksini tapmışdır ki, həmin məlumatlar indi bizim üçün böyük əhəmiyyət daşıyır.

Orta əsr mənbələrinə əsaslanan Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Qətran Təbrizi fars leksikoqrafiyası tarixində fars dilinin ilk izahlı lüğətinin yaradıcısı olmuşdur. Bu barədə "Lüğəti-fürs" ("Fars lüğəti") müəllifi, şair və tərtibçi Əsədi Tusi (XI əsr), "Sihahül-fürs" müəllifi Məhəmməd Naxçıvani (XIII əsr) və başqaları yazmışlar.

Məşhur İran şairi Nasir Xosrov Ələvi adını çəkdiyimiz "Səfərnamə"sində Qətranın lüğət üzərində iş prosesini belə təsvir edir: "Təbrizdə mən Qətran adlı bir şairlə görüşdüm. O, avazla yaxşı şeir oxuyur, ancaq fars dilini pis bilirdi. O, Dəqiqi və Mənciqin divanlarını mənə gətirib, avazla oxudu və anlaşılmayan sözləri izah etməyimi xahiş elədi. Sonra mənim izahatlarımı qeydə alıb, öz şeirlərini oxudu." Əksər alimlər Nasir Xosrovun bu fikirlərini onunla izah edirlər ki, fars dili Qətranın ana dili deyildi və o, farsca yazan ilk Azərbaycan şairi olub.

Orta əsr müəlliflərinin əksər qismi bu lüğəti yaradıcısının adı ilə sadəcə "Lüğəti-Qətran", yaxud "Fərhəngi-Qətran" (hər iki ifadə "Qətranın lüğəti" anlamına gəlir) kimi qeydə alır. Sonralar isə bu lüğət "Təfasir fi lüğatül-fürs" ("Fars dili sözlərinin izahları"), yaxud da qısa şəkildə "Təfasir" ("İzahlar") adlandırılır.

Qətran Təbrizi Azərbaycan və İran xalqlarının poeziya və leksikoqrafiya tarixində dərin izlər buraxmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Qətran Təbrizi Azərbaycan

Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir[1].

## Ədəbiyyat

1. Qətran Təbrizi. Divan. Bakı: 1967.
2. "Qətran, Kəsvərinin göstərdiyi kimi, birinci Gəncə səfərindən 430 (1038-39)-cu ildə dönmüşdürsə, onda 428 (1036-37)-ci ildə Rəvvadilər hökmdarı Vəhsudan Gəncəyə gəlib Şəddadilər sarayı ilə danışıqlar apararkən, bu danışıqlarda Qətran da yaxından iştirak etmiş, iki Azərbaycan hökmdarı arasında bağlanan əhdnamələri o da alqışlamışdır". Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. İkinci cild, s. 316.
3. Nizami Gəncəvi. Əsərləri 2 cilddə. II cild. Bakı: 2012.
4. Çingizoğlu Ə., Qacar M. Türk atabəyləri. Bakı: Mütərcim, 2015. *. Altıcildlik Azərbaycan ədəbiyyatı tarixində həyat illəri 403-483/1012-1091 kimi göstərilmişdir. Bax: Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. İkinci cild. Bakı: 2007, s. 312.
5. Henry Corbin, History of Islamic Philosophy, Routledge, 2014, p. 174. Henry Corbin, Avicenna and the Visionary Recital, Princeton University Press, 2014, p. 425
6. Van Gelder, Geert Jan, ed. (2013), "Introduction", Classical Arabic Literature, Library of Arabic Literature, New York: New York University Press,
8. Lenn Evan Goodman (2003), Islamic Humanism, pp. 8–9, Oxford University Press
9. Nasr, Seyyed Hossein; Oliver Leaman (1996). History of Islamic philosophy. Routledge. pp. 315
10. McGinnis, Jon (July 2003). "Scientific Methodologies in Medieval Islam". Journal of the History of Philosophy

# AZƏRBAYCAN TƏHSİLİNİ ALİ KÜRSÜYƏ QALDIRMIŞ ŞƏXSİYYƏT

***Sahib Əmirxan oğlu Məmmədov***
***Pedaqogika üzrə fəlsəfə doktoru***
***Mingəçevir Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının dosenti,***
***əməkdar müəllim***

***Ülviyyə Murad qızı Məmmədova***
***Mingəçevir Dövlət Universitetinin müəllimi***

Bu günlər xalqımız özünün böyük oğlu, dahi şəxsiyyət, dünya miqyasında tanınmış siyasətçi və dövlət xadimi, müstəqil Azərbaycanımızın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ilini böyük sevinc və fəxarətlə qeyd edir.

Xalqını, vətənini, torpağını sonsuz məhəbbətlə sevən, bütün həyatını Azərbaycanın inkişafına, tərəqqisinə həsr edən, müasir Azərbaycanın müəllifi olan Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə ölkəmizin daha da çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına, dövlətçiliyimizin möhkəmlənməsinə, dilimizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına, bütün sahələrlə yanaşı təhsilimizin də daim inkişaf etdirilməsinə çalışmış, onun titanik zəhməti, uzaqgörən siyasəti nəticəsində ölkəmiz cəmiyyət həyatının bütün sahələrində böyük uğurlar əldə etmişdir.

Təhsili milltəin gələcəyi hesab edən, ölkənin tərəqqisinin, mədəni yüksəlişə gedən yolun, insan kapitalının hazırlanmasının məhz təhsildən keçdiyini çox gözəl bilən Ulu öndər özünün genişmiqyaslı və çoxşahəli fəaliyyətində daim təhsilin inkişafına böyük önəm vermiş, xalqımızın maariflənmə, təhsillənmə səviyyəsinin yüksəldilməsi yolunda əlindən gələni əsirgəməmişdir. İstər sovetlər dönəmində, istərsə də müstəqil Azərbaycanda aparılan bütün təhsil islahatlarının ideya müəllifi və təşkilatçısı olan ümummilli lider hər zaman təhsilin üstün inkişafını təmin etmiş, aparılan islahatlara düzgün istiqamət vermişdir. Müstəqil

Azərbaycanda milli təhsil quruculuğunun konsepsiyası və inkişaf strategiyasının işlənməsi, təhsil sahəsində beynəlxalq standartlara uyğun islahatların aparılmasına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi də, bilavasitə Ulu öndərimizin adı ilə bağlıdır. Təhsilin aktual problemlərini və perspektivlərini incəliklərinə qədər dərindən bilən, təhsilin cəmiyyətdə rolunu və şəxsiyyətin formalaşmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dünya Azərbaycanlılarının milli liderinin təhsillə bağlı mülahizə və müddəaları – ciddi elmi əsaslara malik baxışları pedaqoji fikir tariximizin nadir incilərindəndir.Güclü məntiqə və qibtə olunası uzaqgörənliyə əsaslanmış həmin mülahizə və müddəalar, tarixi tövsiyələr Azərbaycan təhsilinin inkişaf yolunun proqramı rolunu oynamış və bu gün dəyərini saxlamaqdadır.

Heydər Əliyev təhsilin mütləq inkişafyönümlü xarakter daşımalı olduğunu göstərmiş, təhsilin, cəmiyyətin, dövlətin, hər bir şəxsin məhz inkifaşına, tərəqqisinə xidmət etməli olduğunu dönə-dönə vurğulamışdır. “Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı – şagird də, müəllim də, bütün kollektiv də inkişafdadır”. Ulu öndər, əslində, məktəbdəki inkişafın bilavasitə burada həyata keçirilən təhsilin nəticəsi olduğunu diqqətə çatdırmışdır. Heydər Əliyev Azərbaycan təhsilinin inkişaf hədəflərini müdrükcəsinə müəyyənləşdirmişdir, hansı ki, bu gün Azərbaycanda təhsilin məqsədi sözügedən çağırışa istinad edir. Bu çağırışın məğzi belədir: “Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib gələcəyə hazırlamaqdır”.

Heydər Əliyev biliklərə əzmlə yiyələnməyi, daha çox bilik əldə etməyi, əsas diqqəti biliklərə əsaslanan cəmiyyətin qurulmasına yönəltməyi zəruri sayırdı və bu prosesdə orta təhsilin roluna böyük qiymət verirdi. O, göstərirdi: “ ... İnsan təhsilin əsasını orta məktəbdə alır... Əgər onun fundamental, köklü orta təhsili varsa, o cəmiyyətdə özünə yer tapacaq... cəmiyyətimizin qürurlu üzvü olacaqdır .. bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur”.

Heydər Əliyevin orta məktəblərdə fənlərin tədrisinin təşkili ilə əlaqədar fikirləri də metodolji dəyərə malikdir. Milli Liderin “ ... Bizim məktəb şagirdlərin riyaziyyat, fizika, kimya. biologiya və

başqa fundamental fənlər sahəsində möhkəm biliklərə yiyələnməsini təmin etməlidir. Gənclər elmi işçilərin sırasına daha fəal qoşulmalı, elmi texniki tərəqqinin tətbiq edilməsinin önündə getməlidir. Fundamental və texniki fənləri dərindən mənimsəmək, bu fənlərin tədrisi səviyyəsinə daim diqqət yetirmək lüzumu bundan irəli gəlir. İctimai fənlərin təlimi keyfiyyətinin böyük əhəmiyyəti vardır. Gənc şəxsiyyətin təşəkkülünə, gənclərin dünyagörüşünün formalaşmasında ictimai fənləri yaxşı bilmək hər bir məktəblidə Vətənə məhəbbət hissinin, xalqın rifahı naminə fədakarlıqla çalışmaq əzminin tərbiyə olunmasına və inkişaf etdirilməsinə kömək edir" müddəaları hazırda ümumi təhsil sisteminə daxil olan həmin fənlərin məqsəd və vəzifələrini aydın ifadə edir. Böyük öndərin təhsil siyasətində məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi mərkəzi yer tuturdu. Ümummilli lider belə hesab edirdi ki, müstəqil Azərbaycanımızın müəllimləri yaxşı şəraitdə işləməli, şagirdləri yaxşı şəraitdə oxumalıdırlar.

Hələ Ulu öndərin sağlığında bu tapşırıq – tövsiyənin reallaşdırılması yönündə ciddi addımlar atılmış, ötən əsrin son və yeni əsrin ilk illərində ölkədə yeni məktəblərin tikintisi, mövcud təhsil ocaqlarının əsaslı təmiri və yenidən qurulması sahəsində böyük iş görülmüşdür. Məktəb tikintisini dövlət üçün prioritet sahə hesab edən Ulu öndər "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi – texniki bazasının möhkəmləndirilməsi haqqında" *4 oktyabr 2002-ci il tarixində* imzalamış, bundan bir qədər sonra məktəb tikintisi ilə bağlı beşillik dövlət proqramı qəbul olunmuşdur. Fərəhli haldır ki, bu sahədə iş Ulu öndərimizin layiqli varisi, yeni təfəkkürlü siyasətçi və dövlət xadimi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir.

Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərkən uzaqgörənliklə atdığı addımları həm də gənclərin təhsili və tərəqqisi idi. Ulu öndərin gəncləri düşünməsi, onları xarici ölkələrə təhsil almağa göndərməsi gənclərimiz üçün ən böyük töhfə oldu. Bu yolda həm Azərbaycanın elmi kadr potensialı gücləndi, həm də xalqımızın milli-mənəvi dəyərlərinin təbliği həyata keçirildi. Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səciyyədədir. Bu sahədə keçirilən hər islahat, baş verən hər bir hadisə ilk növbədə

Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır. Azərbaycanda təhsilə diqqət və qayğı hələ ötən əsrin 60-cı illərinin sonundan başlamışdır. Ulu öndər Heydər Əliyev 1969-cu ilin yayından başlayaraq Azərbaycanda təhsil müəssisələrinin yeniləşdirilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin keyfiyyətinə şəxsən özü nəzarət etmişdir. İstedadlı və qabiliyyətli gənclərin üzə çıxarılması, o zaman üçün müasir və yeni sayılan texnologiyaların tətbiqi ölkə rəhbərinin daim diqqət mərkəzində olmuşdur. Ulu öndərin daha çox maraq və diqqət ayırdığı məsələ azərbaycanlı gənclərin SSRİ-nin və xarici ölkələrin nüfuzlu ali məktəblərinə oxumaq üçün göndərilməsi idi. Bir qayda olaraq gənclərin ali məclislərində, qurultaylarında gənc nəslin estetik tərbiyəsi ilə bağlı gündəlik həyat-davranış normasında mühüm əhəmiyyət kəsb edən məsələləri diqqət mərkəzinə gətirirdi. Belə ki, 1969-1982-ci illərdə 15 minə yaxın istedadlı gənc Moskva, Leninqrad, Kiyev, keçmiş Sovetlər birliyinin başqa böyük şəhərlərinin aparıcı universitetlərinə oxumağa göndərilmişdir. Ümummilli lider hər il həmin tələbələrin başqa şəhərlərə göndərilməsindən əvvəl onlarla görüşmək ənənəsi yaratmışdır.Tələbə gənclərə müraciət edərək deyirdi ki, sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaq və ona nail olma bacarığına yiyələnməkdən ibarətdir. İndi həmin gənclər respublikamızda ziyalı təbəqəsinin, elmin, təhsilin və ictimai həyatın digər sahələrinin aparıcı şəxsləri, dövlət idarəçiliyində ali struktur rəhbərləridir.

Ulu öndərin nəzəri irsində və fəaliyyətində ali təhsil sisteminin inkişafı, ali məktəblə orta məktəblər arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, yeni universitetlərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi kimi ali təhsil məsələləri də önəmli yer tutur. Sovet dönəmində Azərbaycanın ali təhsil ocaqları sovet cəmiyyətinin tələbləri əsasında inkişaf etmiş və elmin bir sıra istiqamətləri üzrə mühüm nailiyyətlər qazanmışlar. Lakin, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi, iqtisadi sahədə sistem transformasiyası prosesinə başlaması bütün sahələrdə olduğu kimi, ali təhsildə də köklü islahatları zəruri etmiş və onun yeni cəmiyyətin tələblərinə uyğun yenidən qurulmasını qarşıya

vəzifə kimi qoymuşdur. Şübhəsiz ki, bu istiqamətdə irəli sürülən ilk sistemli təşəbbüs ümummilli lider Heydər Əliyev tərəfindən 15 iyun 1999-cu ildə "Azərbaycan Respublikasında təhsil sahəsində islahat proqramı"nın qəbul edilməsidir. Proqramın icrası nəticəsində ali təhsil sistemində bir sıra struktur dəyişiklikləri aparılmış, ali təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması istiqamətində addımlar atılmış, ali təhsilli mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar əlavə edilmişdir. Bu mərhələdə aparılan islahatların mühüm istiqamətlərindən biri də məhz ali təhsil müəssisələrinin muxtariyyətinin artırılması olmuş və 6 ali məktəbə daha yüksək muxtariyyət – özünüidarəetmə statusu verilmişdir. 3 sentyabr 2001-ci ildə ən yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş gənclərlə görüşdə ümummilli lider Heydər Əliyev ölkədə universitet təhsili sahəsində aparılan islahatların bir növ başlıca strateji məqsəd və vəzifəsini ifadə edir:... biz istəyirik ki, ali təhsil müəssisələrimiz, universitetlərimiz, birinci özləri öz işlərini daim təkmilləşdirsinlər və dünya səviyyəsində olsunlar. İkincisi də universitetlərin varlığı ona görə lazımdır ki, ali təhsil almaq həvəsi və qabiliyyəti olan gənclərimiz universitetlərə, ali məktəblərə daxil olsunlar və yüksək səviyyəli mütəxəssislər olsunlar. Əgər bu olmasa, bizim müstəqil ölkəmiz dünyada gedən proseslərin sürəti ilə ayaqlaşa, inkişaf edə bilməz".

Fundamental olaraq əsası Ulu öndər tərəfindən qoyulmuş ali təhsilin inkişafı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Azərbaycanın 2005-ci ildə Bolonya prosesinə qoşulması ölkədə ali təhsil islahatlarının yeni mərhələsinə start vermişdir. Bu dövrdə atılan mühüm strateji addımlardan biri də Prezident İlham Əliyevin irəi sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövltə Proqramı"nın qəbul edilməsi olmuşdur.

Aparılan islahatların son məqsədi yüksək insan kapitalına və innovasiyalara əsaslanaraq davamlı inkişaf edən və rəqabətli Azərbaycan iqtisadiyyatının formalaşdırlmasına xidmət etməkdir. Qeyd edilən məqsəd Prezident İlham Əliyevin bu fikirlərində daha mükəmməl şəkildə öz əksini tapmışdır: "Mən Azərbaycanda, rəsmi

tədbirlərdə dəfələrlə demişəm və indi də deməkdə davam etmək istəyirəm ki, ölkənin uğurunu müəyyən edən enerji ehtiyatları deyil, onun intellektual potensialıdır. Ölkəni tərəqqiyə doğru aparan kadrların, mütəxəssislərin hazırlnaması, təhsil, elmin inkişafıdır”.

Dünya tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, gələcəyini, ölkədə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Çağdaş tariximizdə Azərbaycan dövlətinin özünütəsdiq faktına çevrilmiş bu fenomen lider respublikaya rəhbərliyinin birinci və ikinvci dövrlərində möhkəm təməllərə əsaslanmaqla fundamental dövlətçilik ənənələri formaladırmış, milli müstəqillik, azadlıq məfhumlarını illüziya və şüarçılıq səviyyəsindən milli ideologiya fəlsəfəsinə çevirməyi bacarmışdır. Onun nurlu zəkasından qaynaqlanan müstəqil Azərbaycanımızın dövlət təshil siyasəti və uzunmüddətli milli təhsil islahatı strategiyası bu gün təhsilimizin inkişaf yollarını işıqlandırmaqda, onun ideya və tövsiyələri bütün təhsil qurumlarının və çoxmilli təhsil işçilərinin fəaliyyəti üçün mayak rolunu oynamaqdadır. Təhsil sahəsində davamlı olaraq ilbəil islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli mənəvi ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Çünki qazanılan bütün nailiyyətlər məhz Ulu öndər Heydər Əliyev ideyalarından güc alır. Məhz bu səbəbdən də Heydər Əliyev dühası həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi hər bir azərbaycanlının qəlbində yaşayır və ehtiramla yad edilir.

## Ədəbiyyat


1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, “Təhsil”, 2002.
2. Əliyev H.Ə. Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı XXX qurultayının materialları. 10-11 mart 1978.
3. Müstəqilliyimiz əbədidir. II kitab. Bakı. 1997.

4. Azərbaycan Prezidenti Heydər Əliyevin respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə nitqi, 31 avqust 1999-cu il/Azərbaycan təhsil siyasəti (1998-2004). I kitab. Bakı: Çaşıoğlu, 2005.
5. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. bakı, 1999.
6. Ağayev Ə.Ə. Nəsillərə örnək insan. Bakı: Mütərcim. 2016.
7. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) "Kurikulum" jurnalı, 2008, № 1.
8. Ağayev Ə. Heydər Əliyev irsində vətəndaşlıq tərbiyəsi məsələləri //Azərbaycan məktəbi, 2005, № 3.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFI

***Zəhra Rəşid qızı Həsənova***
***ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müəllimi***
***tal_1961@mail.ru***

Ulu öndər Heydər Heydər Əliyevin yetişən gənc nəslin təhsilin bütün pillərində mükəmməl təhsilə yiyələnməsini təmin etmək, ümumtəhsil və ali məktəblərimizdə verilən bütün fənlərin yaxşı mənimsəmənilməsinə nail olmaq və gənclərin hərbi məktəblərə, hərbi təlimə istiqamətləndirilməsi, azərbaycanlılardan ibarət zabit heyətinin yaradılmasına xüsusi diqqət və əhəmiyyət verməsi bu günkü qələbələrimizin rəhni olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri irsi təhsilimizin inkişafında zəngin bir xəzinədir. Onun təhsil haqqında müdrik fikirləri özqnqn praktik fəaliyyəti ilə təhsilimizn inkilşafına işıq tutmuş və aydın yol göstərmişdir. Heydər Əliyev təhsilimizin həqiqi vəziyyətini yaxşı bilmiş və təhsilin bütün sahələri ilə ciddi maraqlanmış, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi haqqında dəyərli fikirlər söyləmiş, mühüm əhəmiyyətli sərəncamlar imzalaməşdır.

Heydər Əliyevin hələ 1970-ci illərin əvvəllərində Bakıda orta ixtisas hərbi məktəbinin açılması haqqında göstərişlər verdi, sərəncamlar imkzaladı. Yaradılmış bu hərbi məktəbin məzunları sonrdan müxtəlif Ali Hərbi məktəblərdə təhsilləlrini davam etdirdilər və ixtisaslı zabitlər kimi yetişdilər. Vətənimizin bir parçası olan Qarabağın və digər rayonlarımızn işğaldan azad oluynmasında, 44 günlük Vətən müharibəsində Zəfər qazanmağımızda həmin zabitlərin böyük rolu olmuş, vətənpərvər ruhlu gənclərimiz fədakarcasına vuruşaraq üç rəngli qalibiyyət bayrağımı Vətən torpağında ucaltmışılar.

Heydər Əliyevin 1970-1980-ci illərdə təhsilimizin milli zəmin üzərində qurulmasının, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə almalarının, təhsil ocaqlarımızın müasir maddi texniki bazasının möhkəmləndirilməsi və səriştəli müəllim kadrlarının yetişdirlməsinin təməllərini qoymuşdur.

Heydər Əliyevin göstərişi ilə 1980-ci illərin əvvəllərindən başlayaraq təhsilimzidə millilik, Azərbaycançılıq, milli ideoligiya xüsusi yer tutmağa başladı, Azərbaycan tarixi, ədərbiyyatı daha geniş tədris olunmağa başladı, Azərbaycan məktəbi və pedaqoji fikir tarixi, məktəbəqədər pedaqogika ali pedaqoji təhsil ocaqlarında xüsusi sahə kimi geniş tədris edilməyə başlandı.

Ulu öndər Heydər Əliyevin təhsil sahəsində xidmətləri və uzaqgörənliyi onun imzaladağıı çox saylı, mühüm və əhəmiyyətli Sərəncamlarda, dəyərli Fərmanlarda, Yeni Təhsil Proqramının və yeni Təhsil Qanunun qəbulu və həyata keçirilməsində, dəyərli tövsiyə və göstərişlərində özünü göstərirdi.

Heydər Əliyev müasir Azərbaycan təhsilinin məzmununu cəmiyyətin tələblərinə uyğun qurulmasını, xalqın mənəviyyatına müvafiq qurulmasını vacib sayırdı. "Təhsil millətin gələcəyidir"- deyən Heydər Əliyev 1999-cu ilin 19 aprelində təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı nitqində demişdir: " ... təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sahəsinə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" (Heydər Əliyev).

Heydər Əliyev nəzəri irsində təhsilin, elmin, milli kadr hazırlığının inkişaf konsepsiyası həm siyasi, həm sosial-iqtisadi, həm əxlaqi-mənəvi dəyərlərə əsaslanmışdır ki, bütün bunlar da Təhsil haqqında Qanunda öz əksini tapmişdir (Təhsil haqqında Azərbaycan Respubliksaının Qanunu 2009). Təhsilimizin inkişafı sayəsində Heydər Əliyevin nəzəri irsi, praktik fəaliyyəti geniş öyrənilməıli, tədqiq və təhlil edilməli və davamlı olaraq praktik fəaliyyətimizdə həyata keçirilməlidir.

Təhsilimizin sabahını düşünərkən deyə bilərik ki, Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetişdirmək deyil, həm də müstəqil, demokratik, açıq cəmiyyət quruculuğu işində fəal iştirak edən, Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə kömək göstərən, yüksək mənəviyyatlı, əxlaqlı, əsl vətənpərvər vətəndaşlar, layiqli şəxsiyyətlər tərbiyə etməkdir.

Cəmiyyətdə tıhsilin inkişafına və dövlət quruculuğuna bir sistem kimi yanaşan Heydər Əliyev burada təhsilin əsas yerini müəyyənləşdirərək vurğulayırdı ki, həyat böyük bir prosesdir və bu prosesdə uğurla inkişaf etmək üçün müasir tələblərə uyğun təhsil sistemi yaradılmalıdır. Təhsilsiz heş bir insan irəli gedə bilməz və uğur qazana bilməz.

## Ədəbiyyat

1. Heydər Əliyev. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı". Bakı, "Çaşıoğlu, 1999, 72 səh.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, "Hüquq ədəbiyyatı", 2009, 80 səh

# UNUDULMAYAN TARİXİ ŞƏXSİYYƏT

***Hümeyrə Dadaş qızı Nadiri***
***ADPU- nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tarix müəllimi***
***nadirihumeyri@gmail.com***

Həyatın mənasını xalqa, vətənə, millətə sevgi və xidmətdə görən insan əsl lider, rəhbər və öndərdir. Ölkəmizə rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyevin böyük quruculuq işləri, ölkənin inkişafı və tərəqqi illəri kimi tarixə yazılmışdır. O ən çətin məqamlarda xalqının köməyinə çatan, onu məhv olmaq, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsindən xilas edən dahi rəhbər, milli lider, ulu öndərdir. Bu gün dünyanın istənilən yerində "Azərbaycan" deyərkən "Heydər Əliyev", "Heydər Əliyev" deyərkən "Azərbaycan" başa düşülür. Çünki müstəqil və qüdrətli Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir.

Ulu Öndər Heydər Əliyevin nümunəsində tərbiyə ümüumtəhsil məktəblərimzin ən ümdə başlıca tərbiyə və təlim istiqaməti olmalıdır. Hazırkı dövrdə şagirdlərin ideya inamının formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin irsindən istifadə olunması, onun həyat və fəaliyyətinin öyrənilməsi çox böyük uğurlar əldə etməyə imkan verər.

Bu sahədə ümumtəhsil və orta ixtisas məktəblərimizdə, koolleclərimzidə, ali təhsil müəssisələrimizdə təlim və tərbiyə işlərinin təşkilində zəngin iş forma və metodları vardır. Dahi rəhbərin mənalı həyatı və yorulmaz fəaliyyəti, hər yerdə əla qiymətlərlə təhsil illəri, çox yönlü apardığı siyasi işləri, xarizmatik idarəçiliyi, diplomatik görüşləri, insanlarla səmimi ünsiyyəti yetişən gənc nəslimiz üçün ən yaxşı tərbiyə vasitəsi, mənəviyyat və əxlaq məktəbidir.

Təlim prosesində xüsusilə humanitar fənlərin tədrisində Ulu Öndər Heydər Əliyevlə bağlı keçilən dərslər xüsusi əhəmiyyət və aktuallıq kəsb edir. Belə dərslərdə texniki vasitələrdən istifadə olunması, audio və video disklərdən, slaydlardan, müxtəlif foto şəkillərdən istifadə etmək çox faydalı və əhəmiyyətli olar, dərsin

keyfiyyəti də xeyli yüksəlmiş olar.

Heydər Əliyevin ədalət, mənəviyyat, yüksək iradə və əzmkarlığa malik olması, səbr və təmkinlə, dərin zəkası və mahir siyasəti ilə, yüksək təşkilatçılığı ilə, həmişə uğurlu fəaliyyəti ilə hər bir ölkə vətəndaşının qürur mənbəyi, yetişən gənc nəslimizin nümunə məktəbidir.

Heydər Əliyevin Tanrıya inamı, inancına sədaqəti, yüksək vətənpərvərliyi və xalqına, millətinə bağlılığı, həmişə, hər yerdə azərbaycanlı olmasıyla qürur duyması, həqiqətsevərliyi, reallığı düzgün qiymətləndirə bilməsi, sözü ilə əməlinin bütövlüyü, haqqı çılpaq və sərt deyə bilmək cəsarəti, pisliyə nifrət və onun daşıyıcılarını tənqid etmək, yaxşıları isə mükafatlandırmaq və xalqın gözündə ucaltmaq səyləri, fəzilət sahibi, mərhəmətli və şəfqətli olması, natiqlik məharəti və səmimi ünsiyyət qabiliyyəti, yüksək milli vətənpərvərliyi və azərbaycançılığı bugünkü nəslin tərbiyə məktəbi, əxlaq və mənəviyyat nümunəsidir.

***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm, həyatımı ən xoşbəxt adam kimi başa çatdıracağam. Məhz buna nail olmağa çalışıram və çalışacağam".*** Bu fikirlər ulu öndər Heydər Əliyevin ülvi, müqəddəs həyat amalı, ideyaları, həyat fəaliyyətinin meyarı, ölçü vahidləri olmuşdur.

***"Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir", -*** deyən dahi şəxsiyyət həm də bildiridi ki, ***"Azərbaycana bəxş etdiyim bu töhfələr mən həyatda olmayanda da Heydər Əliyevin izləri kimi yaddaşlarda yaşayacaqdır".***

Ulu öndər Heydər Əliyevin ideyalarını əqidəyə çevirmək, bu əqidəni yetişən nəslin ruhuna hopdurmaq, onları əsl vətəndaş kimi yetişdirmək, ölkənin, xalqın mənafeyi uğrunda fədakar mübarizlər kimi formalaşdırmaq, müstəqillik qazanmış suveren ölkənin tələblərinə cavab verən bir səviyyəyə qaldırmaq qarşımızda duran mühüm, ümdə vəzifədir. Belə bir vəzifənin uğurlu həlli üçün bütün tərbiyə işinin qoyuluşuna, onun daxili məzmun istiqamətinə nüfuz

etmək, şagirdlərin idrakına və qəlbinə Heydər Əliyev ideyaları ilə təsir göstərmək bu günkü tərbiyə və təhsil prosesinin əsas istiqaməti olmalıdır.

**Ədəbiyyat**


3. Əliyev Heydər. Ali Məktəb İşçilərinin Respublika Müşavirəsində nitq/ Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: ali məktəb işçilərinin respublika müşavirəsində nitq; 28 may 1980-ci il/Heydər Əliyev; burax. məs. Ə.Ağayev.- Bakı: Azərnəşr, 1980, 46 s.
4. Əliyev İlham Heydər oğlu.Müəllimlərin XIII qurultayının iştirakçılarına göndərdiyi məktub. 22 sentyabr 2008-ci il/ Azərbaycan müəllimlərinin XIII qurultayı (22 sentyabr 2008-ci il) Bakı: Çaşıoğlu, 2009, 302 s.


## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ BƏZİ MÜƏLLİM VƏ MƏZUNLARI HAQQINDA


***Sara Bayramova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində***
***Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***
***Pedaqogika üzrə fəlsəfə doktoru***
***Ülkər Qədirova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində***
***Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***
***9bineqedi2@gmail.com***


Çar Rusiyası dövrü Azərbaycan məktəb və pedaqoji fikir tarixində İrəvan Müəllimlər Seminariyasının özünəməxsus yeri vardır.

1881-ci ildə təsis edilən seminariya 1918-ci ilədək davam etmiş, buranı 300-dən çox məzun bitirərək ibtidai sinif müəllimi hüququ qazanmışdır ki, bunlardan da 60-dan çoxu azərbaycanlı

olmuşdur.

Seminariyada uzun müddət müsəlman bölməsinin işinə orada həm də şəriət və ana dili müəllimi kimi çalışan Axund Molla Məmmədbağır, Hacı Molla Mehdi oğlu Qazızadə rəhbərlik etmişdir. [15]

Sonralar burada Rəhim Xəlilov, Həmid və Rəşid Şaxtaxtinskilər, Məmmədvəli Qəmərlinski ana dili müəllimi kimi pedaqoji fəaliyyət göstərmişlər.

Əhməd bəy Qaziyev, Əli Əşrəf Qaziyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qaziyev (Qazızadə), Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, ictimai xadim Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Q.Fətəlibəyov, Mir Haşım bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Mirzə Bağır Əliyev, Şixəli bəy Firudinbəyov, İbrahim Şahtaxtlı və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar. İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar.

Seminariyanı müəllim və məzunlardan aşağıdakıları xüsusi qeyd etməliyik.

**Həmid bəy Şahtaxtinski** 1895-ci ildə İrəvan müəllimlər seminariyasına daxil olmuşdur. Həmid bəy 5 iyun 1899-cu il tarixdə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Qafqaz Təhsil Dairəsinin əmri ilə 1 sentyabr 1899-cu tarixdən İrəvan rus-tatar məktəbinə Azərbaycan dili müəllimi təyin edilir. Həmid bəy 27 oktyabr 1901-ci tarixdə Qafqaz Təhsil Dairəsinin rəhbərinin 14622 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasına tatar (Azərbaycan) dili müəllimi təyin edilir. 9 aprel 1902-ci ildə Qafqaz Təhsil Dairəsinin 4958 №-li əmri ilə seminariyada Azərbaycan şöbəsinin rəhbəri təyin edilir. 23 oktyabr 1907-ci ildə Qafqaz Təhsil Dairəsi rəhbərinin 19273 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasının tatar dili müəllimi vəzifəsindən azad edilir. 2 fevral 1915-ci ildə Qafqaz Təhsil Dairəsinin 2568 №-li əmri ilə Yelizavetopol müəllimlər seminariyasına bir ştatdan artıq riyaziyyat müəllimi təyin

edilir. 1 avqust 1916-cı ildə Qafqaz Təhsil Dairəsi rəhbərinin 21266№-li əmri ilə Yelizavetopol quberniyasının xalq məktəblərinin inspektoru təyin edilir. 14 iyul 1917-ci ildə Qafqaz Xüsusi Komitəsinin 6319№-li əmri ilə Qafqaz Təhsil Dairəsinin inspektoru təyin edilir. Həmid bəy Azərbaycanda Xalq Cumhuriyyəti dövründə Maarif və dini etiqad naziri vəzifəsində çalışmışdır. Yeni əlifba üzrə Dövlət Komissiyasının üzvü kimi yeni əlifba ideyasının həyata keçirilməsi işində böyük rolu olmuşdur. Bakı Dövlət Universitetinin yaradılmasında xüsusi xidməti olan Həmid bəy bir müddət həmin təhsil müəssisəsində prorektor vəzifəsində çalışmışdır. O 1928-ci ildə Tiflisdəki Zaqafqaziya Universitetinin tibb fakültəsini bitirib, sonralar Azərbaycan Tibb Universitetinə (1930-1940) professor vəzifəsində çalışıb. 1930-cu illərin repressiyası maarif fədaisindən yan keçməmiş Həmid bəy Şahtaxtinski 1944-cü il fevral ayının 3-də Arxangelskidə sürrgündə olduğu Solovkidə vəfat edib [4, s. 27; 36].

1907-ci ildə Həmid bəy İrəvan Müəllimlər Seminariyasından azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Mirzə Cabbar Məmmədzadə 19 yanvar 1913-cü il tarixinə qədər İrəvan Müəllimlər Seminariyasında tatar (Azərbaycan) dili müəllimi işləmişdir [13, s.25; 33].

**Mirzə Cabbar Məmmədzadə** 20 yanvar 1882-ci ildə qədim İrəvan şəhərində anadan olmuşdur. Onun atası İrəvanda “Fars Abbas” ləqəbi ilə tanınan, xalq müəllimi şair və alim Abbas Razi Məmmədzadənin ailəsində dünyaya göz açmışdır. M.C.Məmmədzadə 1894-cü ildə İrəvan Müəllimlər Seminariyası nəzdində fəaliyyət göstərən birsinifli ibtidai məktəbə daxil olur. 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra həmin ilin sentyabr ayından Nehrəm kənd 2 sinifli məktəbinə müəllim təyin edilir. 23 may 1908-ci il tarixindən etibarən Qafqaz tədris dairəsi müdirinin əmrinə əsasən M.C.Məmmədzadə İrəvan Müəllimlər Seminariyasına Azərbaycan dili müəllimi və kollej katibi vəzifəsinə təyin olunur. 1910-cu ildə İrəvanda Daşlı küçəsi 51-də III dərəcəli xüsusi məktəb açır. 1920-ci ilin sentyabrında ailəsi ilə birlikdə Bakıya köçür. Azərbaycan Dövlət Universitetində, sonra isə Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitetində)

Azərbaycan dili fənnini tədris edir. 1928-ci ildə M.H.Qədirli adına Əczaçılıq Texnikumuna Azərbaycan dili müəllimi vəzifəsinə keçən Mirzə Cabbar Məmmədzadə 1930-cu ilin sentyabrından başlayaraq Azərbaycan dili metodikası müəllimi kimi fəaliyyət göstərir.

**Cəfərbəy Cəfərbəyov** İrəvan şəhərində anadan olmuşdur. 1897-ci ildə İrəvan gimnaziyası nəzdində hazırlıq məktəbini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. O seminariyanı bitirdikdən sonra Yenigicə kəndində, sonra isə Günrüdə (Aleksandropolda) müəllimlik etmişdir. Cəfər bəy Cəfərbəyov 1909-cu ilə İrəvan Müəllimlər Seminariyasında həm də müəllim kimi fəaliyyət göstərmişdir.

**Saleh Məşədi Teymur oğlu Güllücinski** 1899-cu ildə İrəvan yaxınlığındakı Güllücə kəndində anadan olmuşdur. İrəvandakı Puşkin adına şəhər məktəbini bitirdikdən sonra İrəvan müəllimlər Seminariyasına daxil olur. 1915-ci ildə seminariyanı bitirmişdir. 5 mart 1916-cı ildə dairə məhkəməsində işləməyə başlayır. 1923-cü ildə Tiflisdə açılmış Zaqafqaziya Kommunist Universitetində təhsil almağa göndərilmişdir. Universiteti bitirdikdən sonra Bakı şəhərinə köçərək burada müxtəlif vəzifələrdə çalışmışdır. 1937-ci ildə amansız repressiyanın qurbanı olaraq güllələnmişdir.

**Əhməd Haşimov** İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Seminariyanı bitirdikdən sonra Çobankərə kəndində müəllim işləmişdir. 1922-ci ildə Naxçıvan Xalq Maarif Kəmissarı vəzifəsini əvəz etmişdir. Onun da "Şərq qapısı" qəzetinin nəşr edilməsində zəhməti vardır. 1923-cü ildə "Şərq qapısı" vəzetinin redaktoru olmuşdur.

**Əhməd bəy Qazıyev** İrəvan şəhərində anadan olmuşdur. O 1891-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Bir müddət Sərur (Noraşen) rayonunun Yengicə kəndində müəllim işləmişdir. Əhməd bəy Qazıyev 1896-cı ildə Yaycı kəndinə müəllim təyin edilmişdir.

**Haşım bəy Vəzirov** 4 fevral 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşa şəhərində almışdır. Şuşa şəhər məktəbini bitirdikdən sonra İrəvan Müəllimlər Seminariyasına daxil olmuş və oranı uğurla baıa vurduqdan sonra, ilk dəfə İrəvan yaxınlığındakı Böyük Vedi kəndində müəllimlik fəaliyyətinə

başlamışdı. H.Vəzirov 1898-ci il oktyabr ayının 6-da Şuşada açılan ikisinifli rus-tatar məktəbinə müdir təyin edilir. Haşım bəy təkcə müəllimlik fəaliyyəti ilə deyil, eyni zamanda milli mətbuatının inkişafında da böyük rol oynamışdır. O 1907-1916-cı illərdə "Tazə həyat", "İttifaq", "Səda", "Kovkozets" (rus dilində), "Sadayi Vətən", "Sədayi Həqq", "Məzəli" və s. mətbuat orqanların nəşr etdirmişdir. Haşım bəy 1916-cı ildə vəfat etmişdir.

**Vahid Musabəyov** 1 avqust 1864-cü ildə Qutqaşendə (indiki Qəbələ) anadan olmuşdur. 1885-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1889-cu ildə seminariyanı bitirmişdir. Seminariyada aldığı təhsil onun pedaqoji baxışlarının formalaşmasına güclü təsir göstərmişdir. Araşdırmalar göstərir ki, o seminariyanı təhsil aldığı illərdə nümunəvi şagirdlərdən olmuşdur. Seminariyanı bitirdikdən sonra o Yelizavetpol quberniyasının Nuxa qəzasının Qutqoşan kəndində 1 sinifli məktəbə müəllim təyin edilir. Məktəbdə tədris Azərbaycan və rus dilində aparılırdı. Məktəbin müdiri və ilk müəllimi görkəmli Azərbaycan pedaqoqu və maarifçisi Rəşid bəy Əfəndiyev olmuşdur. Rəşid bəyin təlim üsulunu onun davamçısı V.Musabəyov davam etdirirdi. V. Musabəyov 55 il fasiləsiz olaraq Qutqaşen kənd məktəbində rus dili fənnini tədris etmişdir.

**Həsən Axund Molla Xəlil oğlu Qazıyev** 1879-cvu ildə İrəvan şəhərində anadan olmuşdur. O 1891-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1896-cı ildə İrəvan Müəllimlər Seminariyasını birtirdikdən sonra Uluxanlı məktəbinə rus dili müəllimi təyin edilmişdir. 1918-ci ilə kimi İrəvanda müxtəlif azərbaycanlı məktəblərində rus dili fənnini tədris etmişdir. Həsən bəy həm də qardaşı Abdulla bəylə birlikdə İrəvan quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. XX əsrin 20-50-ci illərində Naxçıvanda maarifin inkişafında böyük xidmətləri olmuşdur. Naxçıvan pedaqoji texnikumunda da rus dili fənnini tədris etmişdir. Səmərəli pedaqoji fəaliyyətinə görə Əməkdar müəllim adına layiq görülmüşdür. 1950-ci ildə vəfat etmişdir.

**Əli Əzim oğlu İbrahimov** 1894-cü ildə Ağdamda anadan olmuşdur. Həmin müddət xalq maarifi sahəsində fəaliyyət göstərmişdir. Ə. İbrahimov 1910-cu ildə İrəvan Müəllimlər

Seminariyasına daxil olmuş, 1914-cü ildə bu təhsil ocağını bitirmişdir. Sonra inqilabi hərəkata qoşulmuş və bu hərəkatın fəallarından biri olmuşdur. O, 1914-cü ildən 1916-cı ilə qədər Böyük Vedi kəndində müəllim işləmişdir. 1916-cı ilin əvvəllərində Ağdama köçmüş və burada rus dili fənnini tədris etmişdir.

**Fərrux bəy Əlikişi oğlu Ağakişibəyov** 1879-cu ildə Şuşa qəzasının Pərioğlular (indiki Ağdam rayonunun Pərioğlular kəndi) kəndində anadan olmuşdur. 1895-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1899-cu ildə bu təjsil ocağını bitirmişdir. Seminzriyanı bitirdikdən sonra Zəngəzur qəzasının Lənbəran, Qarıqaşlaq, Minkənd kənd məktəblərində və o cümlədən Gəncə şəhər məktəbində dərs demişdir. F.Ağakişıbəyov 1909-1914-cü illərdə Odessa Universitetinin tibb fakültəsində ali təhsil almışdır. Odessa qəzasında həkim, Odessa-Poltava cəbhəsində həkim işləmişdir. 1915-ci ildə Odessa cərrahi qospitalında ordinator qəbul edilmişdir.

F. Ağakişibəyov 1918-ci ildə Azərbaycana qayıtmış, qısa zamanda ölkəmişdə cərrah kimi böyük nüfuz qazanmışdır. Şuşa xəstəxanasında cərrah işləmiş, 1920-ci ildə isə həmin rayonun səhiyyə şöbəsinin müdiri olmuşdur. 1925-ci ildə həkimlərin Mockvada keçirilən I Ümumittifaq qurultayının nümayəndəsi olmuş F.Ağakişibəyov 1942-ci ildə Azərbaycanın Əməkdar həkimi adına layiq görülmüşdür. O 1956-cı ildə Bakıda vəfat etmişdir.

**Fəraməz Mahmudbəyov** İrəvan qəzasının Qəmərli bölgəsində anadan olmuşdur. İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Böyük Vedi dördillik məktəbinin ilk müəllimi və təşkilatçılarından biri olmuşdur.

**Hüseynəli bəy Həsən bəy oğlu Rüstəmbəyov** 1878-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almış, sonra isə Şuşa realnı məktəbində oxumuşdur. O İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 19 sentyabr 1895-ci ildə Şuşada III dərəcəli xüsusi məktəb açmışdır. Amma müəyyən çətinliklər səbəbindən məktəb bir il fəaliyyət göstərmişdir. O 2 dekabr 1920-ci ildə Şuşa şəhərində vəfat etdi.

**Ağabəy Rəhimbəy oğlu Firudinbəyov** 1885-ci ildə İrəvanda anadan olub. 1901-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil

olub, 1905-ci ildə seminariyanı bitirib. 1905-ci ildən 1915-ci ilə kimi müxtəlif məktəblərdə müəllim kimi çalışıb. 1915-ci ildə İrəvan quberniya idarəsində çalışmağa başlayıb. 1917-ci ilin dekabr ayından o həmin idarənin katibi təyin edilib.

Beləliklə, əldə edilmiş tarixi-pedaqojiyönümlü faktlara, arxiv mənbələrinə istinadən bu görkəmli Vətən övladlarının simasında İrəvan seminariyasının müəllim və məzunlarından bir qismi haqqında verilmiş məlumatlar bu dövr maarifçi mədəniyyəti haqqında məlumatlarla yekunlaşmış gələcək tədqiqatlara ziyalıları səfərbər edir. İrəvan seminariyasının fəaliyyət dövrü Rusiyada başlanmış yeni ictimai hərəkat dövrü olmuşdur. "... 60-cı illərdən pedaqoji hərəkatı o döcrdəki ictimai hərəkatın bir hissəsi idi. Təhkimçilik tərbiyəsinin tənqidi, silki məktəb və erkən ixtisaslaşma əleyhinə çıxışlar ümumi təhsil, qadın təhsili uğrunda mübarizə, uşaq şəxsiyyətinə ehtiram, xalq məktəblərinin açılması, yeni rəsmi təhsilin şəbəkələşməsi, milli ucqarlardakı təhsilin ümumimperiya modelinə tarixi transformasiyası kimi məsələlər dövrün vacib sosial-maarifçi çağırıları idi [11, s.49].

## Ədəbiyyat


11. Allahverdiyev Cəlal. İrəvan pedaqoji məktəbi. "Vedibasar" qəzeti, 2014, 16-31 yanvar
12. Bayramov H. "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmasının formalaşması", Monoqrafiya, Bakı: "Elm", 2015, 368 s
13. Bayramov İ, Nazim M. Həqiqətin onomastikası. Bakı, 2021, 463 s
14. Cəfərov Cəfər, Allahverdiyev Cəlal. İrəvanda milli maarifçilik mühiti. "Şərq-qərb", 2017, 440 s.
15. Əhmədov H.M. Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. Bakı: Maarif, 2012, 542
16. Heydərov Əli. Bizim məktəbimiz. "Sovet Ermənistan" qəzeti, 1941, №273
17. Həbibbəyli İ.Ə. Naxçıvandan Naxçıvana. Bakı, Elm və təhsil. 2015, 846 s.

# ÇAR RUSİYASI DÖVRÜ İRƏVAN-NAXÇIVAN MÜHİTİ: FİRUDİN BƏY KÖÇƏRLİ, AXUND MOLLA MƏMMƏDBAĞIR QAZIZADƏ VƏ MOLLA MƏHƏMMƏTTAQİ SİDQİNİN XİDMƏTLƏRİ


***Şükufə Xankişiyeva***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***
***Pedaqoji elmlər namizədi, əməkdar müəllim***
***Məlahət Rəhimva***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***
***9bineqedi2@gmail.com***


Yeri gəlmişkən, İrəvan gimnaziyasının müəllimi Firidun bəy Köçərli və Uluxanlı kənd məktəbinin müəllimi Cəlil Məmmədquluzadə seminariya ilə yaxından əməkdaşlıq etmişlər. İlk dövrlərdə kənd məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Axund Məmmədbağır Qazızadənin rəhbərliyi ilə eksteri imtahan mərkəzi də burada fəaliyyət göstərmiş, bir çox savadlı gənclər ibtidai məktəb müəllimi sertifikatı verilmişdir.

İrəvan pedaqoji mühitinə dair ən səhih məlumat olaraq Firudin bəy Köçərlinin, "Kəskul" qəzetində nəşr etdirdiyi (20.04.1890. №104) "İrəvandan məktub" adlı məşhur məqaləsinə istinadən geniş məlumatı onun İrəvan təhsil mühitinə xüsusi önəm verməsini gsötərir. [5, s. 212-216].

Etiraf olunmalıdır ki, bu dövrdə ana dili dərsliklərinin tərtibində Rusiyanın mütərəqqi məktəb və pedaqoqlarının mühüm rolu oldu. Rus dilində təhsil almış gənclərin qabaqcıl dəstəsi mütərəqqi rus mədəniyyəti və pedaqogikasının təsiri altında Şimali Azərbaycanda elm və mədəniyyəti, məktəb və xalq maarifini inkişaf etdirdilər. Görkəmli maarifçi F.Köçərli yazırdı: "Onlardan bəziləri dərskliklər, tərtib etmək, başqaları rus ədəbiyyatından tərcümələr etməklə məşğul olur, bəziləri də povest və romanlarda öz gücünü

sınayır, bir hissəsi də özlərini tamamilə dramatik ədəbiyyata həsr edirdilər" [8, s.77].

Göstərmək lazımdır ki, Şimali Azərbaycan ziyalılarının ədəbi, elmi və pedaqoji yaradıcılığında yeni üsullu dərsliklər tərtib etmək əsas yer tuturdu. A.O.Çernayevskinin "Vətən dili" sövtü üsul əsasında azərbaycanlılar üçün nəşr edilmiş ilk dərslik idi. Bu üsulun Azərbaycanda yayılmasında böyük rus pedaqoqu K.D.Uşinskinin ana dili təlimi ideyası və onun Qafqazdakı ardıcılları olan D.D.Semyonovun, A.O.Çernayevskinin xüsusi rolu olmuşdur. Bütün türk-tatar xalqları içərisində sövtü üsulla dərs demək və dərslik tərtib etmək təşəbbüsü Azərbaycandan başlamış və ilk dəfə Azərbaycan məktəblərində tətbiq olunmuşdur. F.Köçərlinin yazdığına görə, bütün islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır.

Azərbaycan məktəbşünaslığının zəhmətkeş fədailərindən F.Köçərli bu tipli məktəblərin uğurlarından bəhs edərək yazırdı ki: "Bu vaxtlarda (1891-ci il nəzərdə tutulur-H.Ə.) Qafqazda maarif müdiri olan Yanovski Qənizadə ilə Mahmudbəyovun təzə qayda ilə açılmış məktəblərini ziyarət edib, həm şagirdlərin oxumasından və həm də cavan müəllimlərin səy və hümmətindən artıq dərəcədə razı qalmışdır və bu məktəbi hər yerdə vəsf etmişdir" [10, s. 290].

Yeri gəlmişkən, Qori seminasiyasının azərbaycan şöbəsi Gürcüstanın sovetləşməsi ilə ləğv edildikdə orada, yəni Gürcüstanda-Qoridə pedaqoji məktəbə çevrilərək yaşamasına imkan vermədilər. Son nəticədə şöbənin müdiri xalqımızın görkəmli maarifçi ziyalısı Firidun bəy Köçərli onu Azərbaycana, -Qazax şəhərinə köçürə bildi və həmin məktəb sonralar Qazax Pedaqoji məktəbi kimi fəaliyyətini davam etdirdi. Amma Ermənistan azərbaycanlıları İrəvanın paytaxt elan edilməsi ilə hər cür müqavimətə qarşı dirənərək seminariyanın İrəvanda qalmasına nail oldular

Naxçıvanda yeni tipli təhsil müəssisələrinin şəbəkələşməsində mühüm xidməti olan maarifçilərdən biri Molla Məhəmmədtağı Sidqi idi.

1896-cı ilin "İrəvan quberniyasının icmalı"nda məşhur pedaqoq Məhəmmədtağı Sidqinin Naxçıvandakı "Məktəbi Tərbiyə" haqqında yazılırdı: "... bununla belə son zamanlar müsəlmanlar arasında aksiya

doğru dəyişikliklər var. Hesabat ilində Naxçıvan şəhərində rus dili məcburi fənn olmaqla yaxşı təşkil edilmiş məktəb meydana gəlmişdir. Məktəbə çox tezliklə 100 nəfər şagird daxil olmuşdur. Bu rəqəmə uyğun olaraq yerli məscid məktəblərində uşaqların sayı azalmışdır. Belə bir məktəbin İrəvanda da açılacağı gözlənilir” [15, s. 27-32].

İrəvan-Naxçıvan ictimai-pedaqoji mühiti böyük müsəlman maarifçisi İsmayıl bəy Qaspiralının üsuli-cədid (yeni təhsil üsulu) hərəkatının Mirzə Həsən Rusdiyyə, Mirzə Əsgər Bağçaban və Məhəmmədtağı Sidqinin açdıqları yeni tipli məktəblər yeni maarifçi mərhələnin daşıyıcısına çevrildilər. Sonralar M.H. Rüsdiyyənin simasında Təbrizdə dövlər səviyyəsində bu tip məktəblərə xüsusi diqqət yetirilməsi İrəvan-Naxçıvan ictimai-maarifçi mühitin Qori seminariyasının azərbaycanlı müdavimlərinin ölkənin hər yerində yeni tipli maarifiçi ideyasının ortaya atmaqla cənublu-şimallı ümumazərbaycan ictimai-maarifçi hərəkatın, - yəni milli-düşüncənin, son nəticəsində isə ümumazərbaycan davasının əsaslarına çevrildi. İrəvan Müəllimlər Seminariyasının şəriət tatar dili (Azərbaycan) fənlərini Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadə tədris edirdi. O, 1813-cü ildə İrəvanda  anadan olmuşdur. İlk təhsilini atası Hacı Molla Mehdi oğlu Qazızadən almışdur.

Sonra isə mədrəsədə dini təhsilini başa vurduqdan sonra, Şərqdə elm və bilik mərkəzi kimi tanınan Nəcəf şəhərinə gedərək orada ali dini təhsil almışdır. Nəcəf şəhərindəki ali dini tədris mərkəzində on il təhsil almış, yüksək elmi və dini biliklərini daha da təkmilləşdirmişdir. Nəcəf şəhərindəki on illik təhsil dövrü Məhəmmədbağırın ərəb dilinin daha da incəliklərinə və eyni zamanda qədim və müasir riyaziyyat sahəsində dərin biliklərə yiyələnməsinə böyük stimul vermişdir.  Yeri gəlmişkən onu da qeyd edək ki, Qazızadələr soyu 18-19-cu əsrlərdə nəinki Cənubi Qafqazda, yaxın Şərqdə tanınırdılar. Yüksək elmi və dini biliklərə sahib olan Molla Məhəmmədbağır Qazızadə  axund tituluna yiyələnmək üçün Zaqafqaziya ruhani idarəsində imtahan verərək, həmin adı almağa layiq görülmüşdü. Onun ilahiyyət və dəqiq elmlər sahəsindəki dərin biliyi, təşkilatçılıq qabiliyyəti və istedadı, ictimai-siyasi, pedaqoji, dini fəaliyyəti həmişə onun uğurlara nail olmasına böyük rəvac

vermişdir. O həm də qədim Şərq ədəbiyyatın gözəl bilicisi idi. Axund Molla Məhəmmədbağır Qazızadə İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məhəmmədbağır Qazızadə həm də seminariyada azərbaycanlı bölməsinə rəhbərlik edirdi. O, 1911-ci ildə bir neçə İrəvan müəlliminin Tiflisdə Azərbaycan dilində nəşr etdirdiyi "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın azərbaycanlı bölməsinin rəhbəri Axund Məhəmmədbağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, soydaşlarının seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır. Onu da qeyd edək ki, Axund Məhəmmədbağır Qazızadə İrəvanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış, demək olar ki, azərbaycanli əhalinin hüquqlarının keşiyində dayanan bir şəxs olmuşdur. O, azərbaycanlılarının elmə, təhsilə cəlb edilməsində böyük fədakarlıq göstərmişdir. Onun fədakər və qabaqcıl müəllim kimi əməyini yüksək qiymətləndirən soydaşlarımızın tələbi ilə o, dövlət tərəfindən gümüş medalla təltif edilmişdir. O 1902-ci ildə öz evində rus-tatar (azərbaycanlı) qızlar məktəbi açmışdır. Məktəbin himayəçisi İrəvan quberniyasının vitse-qubernatoru knyaz Aleksey Çaqadayevin arvadı Yelena Çaqadayeva, müdir Antonina Valerianovna Kalinina, müəllimləri Yevgeniya Georgiyevna Pxakadze, Məmmədvəli Qəmərlinski və başqaları olmuşdur.

M.Ə.Elxanov, A.O.Çernyayevski, S.B.Vəlibəyov, R.B. Əfəndiyev, M.T. Sidqi və b. görkəmli rus aliminin ardınca ana dilində yeni üsullu dərslik tərtib etməyin təşəbbüsçüləri oldular.

Göründüyü kimi İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti dövrü burada maarif və mədəniyyət xeyli inkişaf etmiş, görkəmli maarifçilərə öz təsirini göstərmişdir.

Həmin dövrdə İrəvanda və Naxçıvanda fəaliyyət göstərmiş Firudin bəy Köçərli, Axund Molla Məmmədbağır Qatırzadə və Molla Məmmədtağı Sidqi İrəvan – Naxçıvan maarifçi mühitinin yenidən dirçəldilməsində tarixi xidmətlər göstərmişlər. Yeri gəlmişkən, Firudin bəy Köçərli sonralar Qori Müəllimlər Seminariyasının azərbaycanlı şöbəsinə rəhbərlik etmişdir.

## Ədəbiyyat


1. Allahverdiyev Cəlal. İrəvan pedaqoji məktəbi. "Vedibasar" qəzeti, 2014, 16-31 yanvar
2. Bayramov H. "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmasının formalaşması", Monoqrafiya, Bakı: "Elm", 2015, 368 s
3. Bayramov İ, Nazim M. Həqiqətin onomastikası. Bakı, 2021, 463 s
4. Cəfərov Cəfər, Allahverdiyev Cəlal. İrəvanda milli maarifçilik mühiti. "Şərq-qərb", 2017, 440 s.
5. Əhmədov H.M. Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. Bakı: Maarif, 2012, 542
6. Həbibbəyli İ.Ə. Naxçıvandan Naxçıvana. Bakı, Elm və təhsil. 2015, 846 s.
7. Xanlar rayon Dövlət Arxivi, (indiki-Göygöl): Xanlar Pedaqoji məktəbinin 1948-1949-cu tədris ili üçün əmr kitabı. № 1-288. Fond 131, Qeyd № 2, saxlama vahidi 1, əlaqə vərəqi 1
8. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1974, 488 s.
9. Mahmudov Y. və b. İrəvan xanlığı. Bakı, 574s-s21
10. Məmmədov X. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan realist ədəbiyyatı. Bakı: Maarif, 1976, 112 s.
11. Mustafa Nazim. İrəvan şəhəri. Baki: "Rednlike", 292 s.
12. Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı: "Nurlan", 2006, 748 s.
13. Rzayev V. V. Naxçıvanda məktəb və pedaqoji fikir. (XIX əsr və XX əsrin əvvələri). Naxçıvan, 2018, 392 s.
14. Yusifov Bəhlul. 15 illik yubiley. "Sovet Ermənistan" qəzeti, 7 dekabr, 1940
15. Образование ереванской губернии в 1896 году, Ереван ,1987 с.27-32

# AZƏRBAYCANDA DÖVLƏT DİLİNİN QURULMASINA RƏHBƏRLİK EDƏN DAHİ HEYDƏR ƏLİYEV

*Fəridə Mikayıl qızı Allahverdiyeva*
*Bakı Qızlar Universiteti*
*feride.esed1@gmail.com*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev keçən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda gedən milliləşmə prosesinə, 90-cı illərdən isə milli və müstəqil Azərbaycan dövlətinin qurulmasına bilavasitə rəhbərlik etməklə yanaşı dil məsələsinə də xüsusi diqqət yetirmiş, yalnız Azərbaycan da deyil, ümumən dünya tarixinə böyük dil siyasətçilərindən biri kimi daxil olmuşdur. Heydər Əliyevin yürütdüyü dil siyasəti, onun milli dövlət quruculuğu siyasətinin üzvü tərkib hissəsidir. Ümumiyyətlə, dövlət quruculuğu prosesində Heydər Əliyevin dil məsələsinə xüsusi önəm verilməsinin tarixi təcrübəsi kifayət qədər zəngindir.

Türkiyə Cümhuriyyətinin qurucusu M.K.Atatürk də vaxtilə mükəmməl bir dil siyasəti yürütmüş, hətta əsrlərcə tarixi olan osmanlıcanı yeni türkcəyə çevirməyə böyük bir dil inqilabı həyata keçirməyə nail olmuşdur. H.Əliyevin yürütdüyü dil siyasəti daha çox Azərbaycan dilini sözün həqiqi mənasında dövlət dili kimi qərarlaşdırmaqdan, onun beynəlxalq nüfuzunun təmin etməkdən ibarət olmuşdur.

Heydər Əliyev xalqımızın dünya tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, insanlar, yeniləşən nəsillər zaman-zaman onun ömür yoluna müraciət edərək, zəngin irsini araşdıracaq, təhlil edəcək, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Azərbaycan tarixinin dönüş məqamında xalqın çağırışı ilə vətənə qayıdan Heydər Əliyev ölkəni təhdid edən qeyri- müəyyən gələcəkdən onu xilas etdi. Yalnız XX əsrin sonlarında həqiqətə çevrilməsi mümkün olan bu müstəqil Azərbaycan amalı, ümummilli liderin bütün həya- tının, siyasi fəaliyyətinin mənasını təşkil etmişdir. Heydər Əliyevin bütün fəlsəfi konstepsiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanıb. Heydər Əliyev milli dövlət quruculuğu dövründə xalqın mənəvi-mədəni yaddaşının

bərpası üçün məqamlar aşkarlayır, cəmiyyəti böyük bir dil abidəsi ilə qürur duymağa dəvət edirdi. Ümumiyyətlə, Heydər Əliyevin dil siyasətində millilik və beynəlmiləlçilik münasibəti optimal bir şəkildə əlaqələnir, vətəndaş-cəmiyyət-dövlət inteqrasiyası mükəmməl bir şəkildə aparılır. XXI əsrin formalaşdırğı yeni mədəniyyət məkanına adekvat olan bu siyasət Azərbaycanın mənəvi bütövlüyünü təmin etməklə yanaşı, onun dünya birliyində layiqli yer tutmasına sosial-mədəni şərait yaradır. Ümummilli lider Heydər Əliyevin siyasi kursu mədəni və mənəvi müqəddaratımızın qarantıdır.

Milli-mənəvi dəyərlərimizin, dilimizin, dinimizin sədaqətli daşıyıcısı, yorulmaz təbliğatçı, hamisi, mədəniyyətimizin və elmimizin dərin bilicisi olan ümummilli liderimizi əbədiyaşar edən, ona xalqın əbədi sevgisini qazandıran səbəblər sırasında mənəviyyat amili ön cərgədə durur. Şübhəsiz, Heydər Əliyevin dil siyasətində mənəvi amilin ön planda olması xüsusi əhəmiyyət daşıyır. Çünki bu və ya digər siyasi ideya o zaman cəmiyyəti hərəkətə gətirə, siyasi lideri milli liderə çevirə bilər ki, xalqın ruhuna mənəvi streotiplərinə uyğun olsun.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin genişmiqyaslı siyasi- ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tuturdu. Bu siyasət birdən-birə ortaya çıxmamış, Azərbaycanda milli dövlətçilik təfəkkürünün inkişafı prosesində müəyyənləşmiş, müstəqil Azərbaycan Respublikasının yaranması ilə özünün ən yüksək səviyyəsinə gəlib çıxmışdır. Uzun müddət Dövlət Təhlükəsizlik orqanlarında çalışan, sovet ideologiyasının mahiyyətini, Moskvanın milli siyasətinin əsaslarının dərindən bilən və mənsub olduğu xalqa möhkəm bağlı olan Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gətirilməsi ilə respublikada milli mənəvi- mədəni həyat canlanmağa başladı. Azərbaycan xalqının ümummilli liderinin hakimiyyətə qayıdışı, dövlətçiliyin və müstəqilliyin qarantına çevrilməsi respublikada mənəvi yüksəlişin siyasi və iqtisadi dayaqlarını daha da möhkəmləndirdi, onun sürətlənməsinə imkanlar açdı. «Hər bir xalqın milliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir» deyən Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı andan mədəniyyətimizə və mənəviyyatımıza dərindən bağlılığını dönə-dönə

sübut etmiş, öz siyasi təcrübəsi, yüksək intellekti ilə milli dilin inkişafı istiqamətində məqsədyönlü iş aparmış və bu siyasəti bütün çətinliklərə baxmayaraq, var qüvvəsi ilə həyata keçirmişdir». Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasətinin formalaşmasında, artıq qeyd olunduğu kimi, Azərbaycan dövlətinin müstəqilliyə qədərki dövrü xüsusi mərhə təşkil edir.

Ana dilinin respublikanın dövlət dilinin təbliği işinə məhz Universitetlərdən, elmi-pedaqoji mühitdən başlaması təbii olduğu qədər də strateji, gələcəyə hesablanmış bir təşşəbbüs idi. Eyni zamanda məhz həmin illərdə müxtəlif bölgələri gəzib yerli əhali ilə görüşən, xalqa öz ana dilində- anlaşıqlı bir üslubda danışan və nəticə etibarilə dövlətlə xalq arasında ünsiyyət yaradan Heydər Əliyev milli dil siyasətinin ilk addımlarını atırdı. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin işləyib hazırladığı və həyata keçirdiyi dil siyasəti mükəmməl elmi-nəzəri əsaslara dayanır ki, onları diferensial şəkildə nəzərdən keçirmədən, həmin siyasətin əsas prinsiplərini müəyyən etmədən ümumilli liderin bu sahədəki xidmətlərinin miqyasını təsəvvür etmək çətin olardı.

H.Əliyevin dil siyasətinin əsas prinsiplərini millilik və müasirlik təşkil edirdi. Sovetlər Birliyinin dağılması keçmiş sovet respublikalarında təzahür edən azadlıq hərəkatı daha mürəkkəb problemləri ortaya çıxardı ki, bunlardan birincisi əlifba məsələsi idi. Azərbaycanda milli azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizə gedişində çox tez-tez müzakirə mövzusu olan bu məsələ, nəhayət, 1990-cı ilin mayında Azərbaycan KP MK-nın İdeoloji şöbəsində keçirilən müşavirədə mütəxəssislərin iştirakı ilə geniş təhlil edildi. Həmin ilin sentyabrında isə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti məsələni hərtərəfli öyrənmək üçün xüsusi komissiya yaratdı. Latın əlifbasına keçidin zəruriliyinə şübhə etməyən komissiya üç variantı müzakirə etdi:

1) Azərbaycan əlifbasının bərpası;
2) Türkiyə türklərinin işlətdiyi formanın qəbul edilməsi;
3) türk xalqları üçün ortaq olan latın əsaslı əlifbadan istifadə.

Uzun müzakirələrdən sonra Azərbaycan Parlamenti 25 dekabr 1991- ci ildə «Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında» qanun qəbul etdi. Qanunun adında «bərpa» sözünün

işlənməsi o demək idi ki, Azərbaycanın 30- cu illərdə repressiyaya məruz qalmış tarixi dəyərlərinə qayıdılırdı. Heydər Əliyev xalqın təkidli tələbi ilə müstəqil Azərbaycanın rəhbərliyinə gəldikdən sonra dil məsələləri ilə dərindən məşğul olmağa başladı. Azərbaycançılıq ideologiyasını yeni yaranmış dövlətin ideoloji əsası kimi qəbul edən ümummilli liderin rəhbərliyi ilə 1995- ci ilin payızından etibarən, yəni müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı müzakirələr geniş vüsət aldı. Yenidən hakimiyyətə gəlmiş Heydər Əliyev qısa bir zamanda ölkədə iqtisadi, ictimai-siyasi ideoloji- mənəvi həyatın normallaşmasına nail olduğu kimi, dil məsələsinə də xüsusi hessaslıq nümayiş etdirdiyindən həmin məsələni geniş ictimai müzakirələrin obyektinə çevirdi. Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır.

## HEYDƏR ƏLİYEV VƏ ONUN HAKİMİYYƏTİ DÖVRÜNDƏ TƏHSİL SİSTEMİ

***Sücayə Natiq qızı Qarayeva***
***BDU-nun II kurs magistrantı***
***sucayaqarayeva@gmail.com***

Görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə Azərbaycanın təhsil sisteminin formalaşmasında mühüm rol oynamışdır. Heydər Əliyev 1993-cü ildən 2003-cü ilə qədər istefaya gedənədək Azərbaycanın prezidenti olub və onun siyasəti ölkənin təhsil sisteminə böyük təsir göstərib. Bu esse Heydər Əliyevin hakimiyyəti dövründə təhsil sistemini, onun təkamülünü, Azərbaycanın sosial və iqtisadi inkişafına təsirini

araşdıracaq.

Heydər Əliyevin ilkin təhsil siyasəti Sovet İttifaqının dağılması nəticəsində ciddi şəkildə pozulmuş təhsil sisteminin yenidən qurulmasına yönəlmişdi. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Azərbaycan təhsil sistemini sıradan çıxaran mühüm iqtisadi və siyasi problemlərlə üzləşdi. Məktəblər az maliyyələşdirilirdi, müəllimlərə isə az maaş verilirdi ki, bu da təhsil standartlarının aşağı düşməsinə səbəb oldu. Heydər Əliyev hökuməti təhsilin ölkənin inkişafında oynadığı mühüm rolu dərk etdi və təhsil sisteminin təkmilləşdirilməsi üçün mühüm səylər göstərdi.

Heydər Əliyevin atdığı ilk addımlardan biri təhsil büdcəsinin artırılması oldu. Bu maliyyə artımı məktəblərin təmirinə, yeni avadanlıq və dərsliklərin alınmasına imkan verdi. Hökumət həmçinin müəllimlərin maaşlarını artırdı və tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün əlavə təlimlər keçirdi. Bu islahatlar məktəbə qəbulun artmasına və təhsil standartlarının təkmilləşdirilməsinə səbəb oldu [1].

Heydər Əliyev hökuməti ali təhsil sistemində də bir sıra islahatlar apardı. Ölkənin universitetləri və elmi-tədqiqat müəssisələri modernləşdirilib və genişləndirilib, iqtisadiyyatın dəyişən ehtiyaclarını ödəmək üçün yeni proqramlar tətbiq edilib. Azərbaycan universitetləri əmək bazarında yüksək tələbat olan kompüter elmləri, mühəndislik və biznes kimi sahələr üzrə dərəcələr təklif etməyə başladılar.

Heydər Əliyevin həyata keçirdiyi digər mühüm islahat təhsil haqqında yeni qanunun qəbulu oldu. Bu qanun təhsil sistemini yenidən qurmuş, yeni standartlar və qaydalar tətbiq etmişdir. O, həmçinin Azərbaycan dili və mədəniyyətinin əhəmiyyətini vurğulayan yeni kurrikulumun əsasını qoydu. Qanun həmçinin tələbələrin fəaliyyətini qiymətləndirmək üçün yeni standartlaşdırılmış testlər sistemini təqdim edib.

Heydər Əliyev siyasəti Azərbaycanın sosial və iqtisadi inkişafına mühüm təsir göstərmişdir. Təhsil standartlarının yüksəldilməsi və təhsil sisteminin müasirləşdirilməsi savadlılıq göstəricilərinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub.

**Qrafik 1: Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) məlumatına görə Azərbaycanda savadlılıq səviyyəsi**




**Mənbə:** [2]

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) məlumatına görə, Azərbaycanda savadlılıq səviyyəsi 1990-cı ildəki 98,8%-dən 2000-ci ildə 99,8%-ə yüksəlmişdir. Savadlılıq əmsalının bu artımı ölkənin sosial inkişafına müsbət təsir göstərmişdir, çünki daha çox insan oxuya bilir, vətəndaş həyatında iştirak edə və məlumat əldə edə bilir.[2].

Təhsil standartlarının təkmilləşdirilməsi Azərbaycan iqtisadiyyatına da ciddi təsir göstərib. Təhsil sisteminin müasirləşdirilməsi ölkədə ixtisaslı işçilərin sayının artmasına səbəb olub. Bu, xarici investisiyaları cəlb etdi və yeni sənaye sahələrinin inkişafına səbəb oldu. Mühəndislik və kompüter elmləri kimi sahələrdə yeni dərəcə proqramlarının tətbiqi sürətlə dəyişən qlobal iqtisadiyyatın tələblərinə cavab verə bilən ixtisaslı işçi qüvvəsinin yaradılmasına kömək etdi [3].

Yekun olaraq qeyd etmək lazımdır ki, Heydər Əliyev siyasəti Azərbaycanın təhsil sisteminə mühüm təsir göstərmişdir. Onun hökuməti təhsilin ölkənin inkişafında oynadığı mühüm rolu dərk etdi və təhsil sisteminin təkmilləşdirilməsi üçün mühüm səylər göstərdi. Heydər Əliyevin həyata keçirdiyi islahatlar məktəbə qəbulun artmasına, təhsil standartlarının yaxşılaşmasına, təhsil sisteminin müasirləşməsinə səbəb oldu. Bu təkmilləşdirmələr Azərbaycanın sosial və iqtisadi inkişafına müsbət təsir göstərib və Heydər Əliyevin təhsil siyasətinin irsini bu gün də ölkədə görmək mümkündür.

Nəticədə Heydər Əliyev dövründə təhsil büdcəsinin artırılması, məktəblərin təmiri və müəllim hazırlığının təkmilləşdirilməsi kimi

islahatlarla təhsil sistemi xeyli təkmilləşdi [4]. Ali təhsildə aparılan islahatlar sayəsində universitetlər müasirləşib, yeni proqram və standartlar tətbiq edilib. Bu inkişaflar savadlılıq səviyyəsinin artmasına və əmək bazarının tələbatını ödəyə biləcək işçi qüvvəsinin yaradılmasına səbəb olub. Nəticədə Heydər Əliyevin təhsil siyasəti Azərbaycanın sosial-iqtisadi inkişafına mühüm töhfə verdi.

**Ədəbiyyat**


1. "Education in Azerbaijan." United Nations Development Programme, www.az.undp.org/content/azerbaijan/en/home/library/human_development/education-in-azerbaijan.html.
2. "Heydar Aliyev and His Role in Azerbaijan's Development." Azerbaijan International, Summer 2003, www.azer.com/aiweb/categories/ magazine/ai113_ folder/113_ articles/113 _ heydar_aliyev.html.
3. Heydar Aliyev: His Vision, His Achievements." Embassy of the Republic of Azerbaijan to the United States, www.azembassy.us/heydar-aliyev/.
4. "Education in Azerbaijan." Embassy of the Republic of Azerbaijan to the United States, www.azembassy.us/azerbaijan/education/.


## AZƏRBAYCAN TƏHSİLİNİ PARLAQ GƏLƏCƏYƏ APARAN İRS


***Narın Möhübbət qızı Əbilova***
***BDU- nun Psixologiya kafedrasının***
***"Hüquqi Psixologiya" ixtisası üzrə doktorantı***
***abilovanarin777@gmail.com***


"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" – Ümummilli liderimiz Heydər Əliyev.

Mənalı ömrünü Vətənimizdə qurub-yaratmağa həsr etmiş ümummilli lider Heydər Əliyevin gərgin və əməli fəaliyyəti nəticəsində mühüm geostrateji ölkə kimi dünyanın Azərbaycana diqqəti daha da artdı. Bu müdrik insanın, Qafqazda sülh ideyasının alovlu təbliğatçısının gərgin səyləri və qətiyyətli mövqeyi sayəsində milli dövlətçiliyimizi qoruyub saxlamaq mümkün oldu. Azərbaycanda demokratiyanın inkişafına, insan və vətəndaş hüquqlarının bərqərar olmasına nail olundu, iqtisadiyyatda tənəzzülün qarşısı alındı. Ümummilli lider Heydər Əliyevin əməyi sayəsində ölkəmizdə sülh və asayiş bərqərar oldu.

“Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram” deyərək əməli siyasi fəaliyyəti ilə bunu sübut edən ümummilli lider Heydər Əliyev ömrünün 50 ilindən çoxunu xalqın taleyi ilə sıx bağlamışdır. İqtisadiyyatımızda, milli ideologiya və mənəviyyatımızda, mədəniyyətdə, elmdə, təhsildə, səhiyyədə və digər sahələrdə misilsiz xidmətləri olmuş dünya şöhrətli şəxsiyyətin fəaliyyəti heç vaxt xalqımızın yaddaşından silinməyəcəkdir.

Bir fakt aydındır ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu dəfələrlə vurğulayaraq demişdir ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Ümummilli lider müstəqillik dövründə hakimiyyətə qayıtdıqdan sonra da gənclər siyasətini diqqətdə saxladı. Bununla bağlı neçə-neçə sərəncam imzaladı. Ulu öndərin Azərbaycanda digər sahələrdə də başladığı işlər dövlət müstəqilliyinin bərpasından sonra da davam edirdi. Azərbaycanın ədəbiyyat, incəsənət, mədəniyyət tarixində misilsiz xidmətləri olmuş tarixi şəxsiyyətlərin adının əbədiləşdirilməsi milli mentalitet səviyyəsinə yüksəldilmişdir. Ulu öndər SSRİ dövründə - 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəblərini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil

məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul etdi. Bu qərarların reallaşması nəticəsində respubikamızda orta ümumtəhsil məktəbləri şəbəkəsi 765-dən 2117-yə çatdırıldı. Ucqar bölgələrimizdə orta ümumtəhsil məktəbləri açıldı.

Bu dövrdə ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, yüzlərlə yeni ixtisaslar açılmış, kafedralar, problem laboratoriyaları fəaliyyətə başlamışdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu illərdə ali məktəblərdə təhsilalanların sayı 70 mindən 100 minə yüksəlmişdi. Ulu öndər respublikanın zəruri mütəxəssisə ehtiyacını və gələcəyini nəzərə alaraq bu illərdə yüzlərlə gəncin Sovet İttifaqının ən nüfuzlu ali təhsil müəssisələrində oxumasına nail olub. Bu proses 1970-ci ildən başlayaraq və hər il 800-900 nəfər azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali təhsil məktəblərində təhsil almağa göndərilib.

Müstəqillik illərində də Ümummilli Lider tərəfindən ali təhsilin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. 2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi. 1993-1994-cü tədris ilindən ödənişli təhsil tətbiq edildi. Həmin dövrdə ödənişli təhsilin tətbiqi, demək olar ki, çətin iqtisadi şəraitdə ali təhsil müəssisələrinin maliyyə imkanlarını xeyli yaxşılaşdırdı. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar.

İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir.

Dahi rəhbər Heydər Əliyev təhsil sahəsi ilə bağlı mühüm fərman və sərəncamlar imzalayıb və bu sahənin inkişafında həmin sənədlərin xüsusi rolu olub.

Ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılması istiqamətində qətiyyətli addımlar atan ulu öndər Heydər

Əliyevin diaspor quruculuğu prosesini dövlətin siyasətində prioritet məsələ kimi öndə saxlaması da bu məqsədə xidmət edirdi ki, bütün dünya azərbaycanlıları bir ideya, bir amal – azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşsinlər. Ulu öndərin təşəbbüsü ilə 2001-ci il noyabr 9-10-da Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor quruculuğu prosesinin geniş vüsət almasında əhəmiyyətli rol oynadı. Ümummilli lider bildirmişdir: "Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik". Onun "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" tezisi harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları vahid ideya ətrafında sıx birləşdirdi, Azərbaycanın qüdrətlənməsinə öz töhfələrini vermək üçün səylərini birləşdirməyə çağırışlar etdi.

Zaman keçdikcə ideyaları qəlbimizdə əbədi yer alan Heydər Əliyevin zəngin dövlətçilik həyatı, fəaliyyəti, təcrübəsi, siyasi irsi Azərbaycanı daha parlaq gələcəyə aparır. Heydər Əliyev irsi dövləti idarəetmə nümunəsi olmaqla yanaşı, həm də nəsilləri tərbiyələndirən nümunəvi mənəviyyat örnəyidir.

## QƏDİM DİYARIN QƏDİM TƏHSİL İZLƏRİ

***Gültac Hüseyn qızı Muradova***
***Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının doktorantı***
***gultacmuradova87@gmail.com***

Qədim tarixə və zəngin mədəniyyətə malik Naxçıvan və bu yurdun qədim sakinləri hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Lakin zaman-zaman bu diyara edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi, mədəni irsin mühüm bir qismi tələf edilmiş, böyük bir

mənəvi xəzinə vətəndən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də itirilmişdir.

Zəngin maddi və mənəvi abidələrimz – "Kitabi Dədə Qorqud", "Nuhtaban", kimi dastanlarmız, Oğuznamələr, Ustadnamələr, daşlar, qaya və dağlar üzərindəki yazılar xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Naxçıvanda Gəmiqaya, Oğlanqala, Kültəpə, "Fərhad evi" kimi tariixi abidələrimz üzərində müxtəlif yazılar, piktoqrafik işarələr, rəsmlər vardır ki, bunlar qədim insanlarımızın yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək kimi mədəni, təhsil vərdişlərinə sahib olmasından, həyat tərzindən xəbər verir.

Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni, tibbi səviyyəsindən , müalicə üsullarından xəbər verir. Bütün bunlar göstərir ki, Naxçıvanda hələ miladdan əvvəl insanların mədəniyyətə, yazıya, oxuya, tibbi biliyə, təsərrüfatçılığa sahib olduqlarını təsdiq edir.

Ulu öndərimiz Heydər Əliyev demişdir: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənələrinin, etnoqrafiaysının öyrənilməsi barədə çox az iş görülübdür" [1,17].***

Naxçıvanda tunc dövrünə aid Gəmiqaya abidəsi eramızdan əvvəl I-III minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr, əlifba nümunələri insanların bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Mənbələrdə göstərilir ki, Gəmiqayadakı yazıları oxumaq mümkün olsaydı orada nəhəng bir mədəniyyətin üzə çıxmasına səbəb olardı [2,5].

Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək

alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Ay, Günəş, ağac, çay kimi rəsmlər qədim qədim insanlarımızın inancından, mifik təfəkküründən xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xət və ya çox xət Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını,iki təkərli, dörd təkərli araba rəsmləri onların mühəndis zəkasını bildirir. Gəmiqayalıların bəbir, canavar, ilan, dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını, xəttatlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühit, ərazinin flora və faunası, təbiəti, coğrafiyası haqqında biliklər verir.

Gəmiqayada bir atlının başında papaq, əynində kürk, ayağında çəkmə olan rəsm vardır. Bu onu göstərir ki, hələ qədim dövrlərdən bu ərazidə atı əhliləşdirmişlər, sürət əldə edib ondan minik kimi istifadə etmişlər, həmçinin o dövrdə papaqçılıq, çəkməçilik, toxuculuq kimi peşələr də olmuşdur. Şübhəsiz böyüklərin əldə etdiyi bilik, bacarıq və təcrübələr, qazandıqları peşələr kiçiklərə öyrədilmiş və yaxud da kiçiklər böyükləri müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmişlər ki, bu da o dövrün savad təlimi, öyrətmə- öyrənmə prosesini əks etdirir.

Gəmiqayalılar nəqliyyat vasitəsi kimi at, dəvə, ulaq və arabadan istifadə etmiş, maldarlıq, ovçuluq, əkinçiliklə məşğul olmuşlar. Buradakı iki təkərli, dörd təkərli araba rəsmləri xüsusilə diqqətimizi cəlb edir. Belə ki, qədim tarixi mənbələrdən, "Oğuzna-mə"lərdən məlum olur ki, arabanı kəşf edənlər, atı əhliləşdirənlər Kanqlı tayfaları olmuşlar. Kanqlı tayfaları isə Naxçıvanda məskunlaşmış ən qədim Kəngərli tayfalarının adıdır [3,23].

Oğuzanamədə deyilir: "...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə "Kanq, kanq" deyə səs çıxarırdılar. Onun üçün arabaya "Kanğa" adı qoydular" [4,28]. Qeyd edildiyi kimi, Bu ad Naxçıvanda məskunlaşmış qədim Kəngərli tayfasıdır ki, onlar Naxçıvan ərazisində hələ m.ö. II minilliyin əvvəllərindən məskunlaşmışlar.

Görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov "Az-

ya" əsərində türk xalqlarına məxsus maraqlı bir məlumatı yazır ki, onun da bilavasitə xalqımızın yazı mədəniyyəti ilə bağlılığı vardır: "Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu ("Kanqlı") xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə - horizontal xətlə yazılar yazırmış" [5, 28].

Bütün bunlar göstərir ki, qədim Naxçıvan diyarında qədim dövrlərdən insanların yazı, oxu mədəniyyəti, tibbi biliklkəri, mühəndis zəkası, müəyyən təhsil səviyyəsi rəssamlıq qabiliyyəti olmuşdur.

**Ədəbiyyat**


1.Əliyev Heydər. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi.Bakı: Nurlan, 2005.
2.Аждар Фарзали. Ноев Ковчег и Гямигая –Гобустанский алфавит. Баку, 2014
3.Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərslik. Ali təhsilin bakalavr təhsil səviyyəsi üçün. Bakı: , ADPU, 2021, 538 s
4.Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, 126 s.
5.Süleymenov O. Az-Ya.Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993.


## HEYDƏR ƏLİYEV VƏ TƏHSİLİN PRİORİTETLƏRİ


***Ülviyyə Edilxanova***
***Bakı Qızlar Universitetinin magistri***
***ulviyyedilxanova@gmail.com***
***Elmi rəhbəri p.ü.e.d., prof. Həsən Bayramov***


Azərbaycan təhsil sisteminin müxtəlif inkişaf mərhələlərində özünəməxsus xüsusiyyətləri təhlil edən Heydər Əliyev onun yeni təhsil strategiyasını hazırladı. Azərbaycan təhsilinin son 40 illik tarixi inkişafının təhlili göstərir ki, milli təhsilimiz aşağıdakı mərhələlərdən keçmişdir.

a) Azərbaycan təhsili yüksəliş illərində (1969-1987-ci illər);

b) Azərbaycan təhsili (1988-1993-cü ilin I yarısı)

c) Müstəqil Azərbaycanda yeni təhsil quruculuğu dövrü (1993-cü ilin iyunundan başlanan indiki dövr) [4.səh 385]

Ulu öndərimiz Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatinin bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşandı. Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu kontekstdə yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir  inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi.

1968-1978-ci illərdə Azərbaycanda orta məktəblərin sayı 77 faiz artmış, kənd məktəblərinin sayı 680-dən 1264-ə çatmışdı. Bütün bunların nəticəsində Azərbaycan kəndinin siması sürətlə dəyişirdi. Elmə və təhsilə maraq sürətlə artır, məktəblər kənddə mədəniyyət mərkəzləri kimi formalaşırdı. Ümumiyyətlə, Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi illərində Azərbaycan başdan-başa savadlılar diyarına çevrilmişdi. 1980-ci ildə Azərbaycanda fəaliyyət göstərən ümumtəhsil məktəblərində 1 mln. 400 min şagird təhsil alırdı və bu Azərbaycanın bütün tarixi ərzində görünməmiş bir uğur idi. Moskva, Leninqrad və ölkənin başqa şəhərlərindəki ali məktəblərə qəbul olunmuş birinci kurs tələbələri ilə 1981-ci il avqustun 29-da keçirilən görüşdəki nitqində Heydər Əliyev deyirdi ki, indi Azərbaycanda təhsilin müxtəlif növləri üzrə 1 mln. 857 min nəfər əhatə olunub, onlardan 1,5 mln.-dan çoxu orta ümumtəhsil, qalanları isə ali məktəb və texnikumlarda oxuyur. [5.səh 49]

İkinci mərhələdə Heydər Əliyevin keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illəri əhatə edir. Bu illərdə, digər sahələrlə yanaşı, Heydər Əliyev SSRİ kimi super dövlətin bütövlükdə təhsil sisteminə rəhbərlik edirdi. Heydər Əliyev bu reallığı etiraf

edərək deyir: “Mənim bir çox vəzifələrim var idi, bir çox nazirliklərə bilavasitə rəhbərlik edirdim. Onların içərisində Sovet İttifaqının Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi də var idi. Mən Sovet İttifaqında bu üç təhsilə aid olan nazirliklərə 5 il rəhbərlik etmişəm, onların işində bilavasitə iştirak etmişəm. Mən onların məsələlərini həll etmişəm, məruzələrini dinləmişəm, kollegiyalarda “böyük iclaslarında iştirak etmişəm, nitq söyləmişəm, söz demişəm və bir çox qərarlar qəbul etmişəm.[4.səh 386]

Üçüncü mərhələ çağdaş təhsil tariximizin ən mürəkkəb, böhranlı illərini (1988-1993) tənəzzül və depressiya illərini əhatə edir. Bu mərhələdə Azərbaycan təhsilinə rəhbərlik edənlər onun cəmiyyətdəki rolunu düzgün qiymətləndirə bilmədilər. Təhsilin “inqilabi yolla” yenidən qurulması məqsədi ilə 1992-ci ildə “Təhsilin qanunu” qəbul etdilər. Amma idarəetmədə təhsilə münasibətdə populizm hökm sürdüyündən təhsil də bərbad vəziyyətə düşdü.

Dördüncü mərhələ müstəqil Azərbaycanın dünya standartlarına uyğun təhsil islahatları əsasında yeni milli təhsil quruculuğuna onun rəhbərliyi ilə başlananindiki dövrü əhatə edir.

Müstəqillik haqqında tarixi qərarın qəbul olunmasından sonra milli təhsil sisteminin yaradılması üçün də müəyyən təşəbbüslər göstərildi. Hətta 1992-ci ilin sonlarında "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunla bağlı müvafiq əsasnamələrin, normativ aktların hazırlanmasına başlandı. Təhsilin məzmununun yeniləşdirilməsi, proqram və dərsliklərin yenidən yazılması sahəsində də təşəbbüslər edildi. [2.səh.1] Amma idarəetmədə təcrübəsizlik ölkəni böhrana sürüklədiyindən təhsil də zərər gördü.

Heydər Əliyevin tarixi qayıdışından sonra ölkədə hazırlanan və həyata keçirilən strateji xətt təhsil müəssisələrini normal fəaliyyət halına gətirməklə, təhsilin milli tərəqqimizin həqiqi, güclü amilinə çevrilməsi üçün bu sahədə geniş islahatlar proqramının işlənib hazırlanması və həyata keçirilməsi vəzifəsini irəli sürdü. Təhsil sahəsində islahatlar aparılmasının dövlət təminatı gücləndirildi. Bu məqsədlə ölkə prezidenti 1998-ci ilin martında “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradılması haqqında” sərəncam imzaladı. Dövlət Komissiyası

tərəfindən çox qısa müddətdə "Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı" hazırlandı, hərtərəfli müzakirələrdən sonra təkmilləşdirilmiş variantda 1999-cu ilin iyununda dövlət başçımız tərəfindən imzalandı və qüvvəyə mindi. Həmin proqram Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib saysa da, eyni zamanda milli təhsil ənənələrimizə sədaqətin və varisliyin də parlaq təzahürünə çevrildi, respublikamızda heç bir başqa ölkələrin təhsil sisteminin olduğu kimi tətbiq edilməsinin yol verilməzliyini göstərdi. [3.səh 190]

Azərbaycan tarixən müxtəlif dövlətlərin, siyasi sistemlərin təsiri altında olması üzündən bizim çox dəyərlərimiz öz inkişafını davam etdirə bilməmişdir. Bunların bərpaçısı Heydər Əliyev oldu. Klassik şəxsiyyətlərimizin, ideya və mənəvi dəyərlər mənbələrimizin bərpasına Heydər Əliyev çox böyük əziyyət çəkdi. Ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul olundu.

Heydər Əliyev təhsilin cəmiyyətin, xüsusən də müstəqil dövlətin inkişafındakı rolundan, son on illərdə keçilmiş yolun uğurlu nəticələrinin əhəmiyyətinin düzgün qiymətləmdidilməsi zərurətindən danışarkən deyir: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasayıdı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasayıdı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq"[1.səh 12]

**Nəticə.** Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq - Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Bu böyük insanın ideyaları bundan sonra da daim yaşayacaq, gələcək nəsillərə örnək olaraq qalacaqdır. Azərbaycan xalqı xoşbəxtdir ki,

onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

**Ədəbiyyat**


1. M. Mərdanov, Ə. Quliyev. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil" 2002, 580 səh.
2. M. Mərdanov. Azərbaycan təhsili müstəqillik illərində. "Azərbaycan" - 2011. – 2 oktyabr. -N 217. -S 3
3. "Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi". Bakı, "QAPP-POLİQRAF" Korporasiyası, 2003, 368 s.
4. H. M. Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələr üçün dərslik. Bakı: ADPU, "Elm vəTəhsil", 2014, 432 səh.
5. Hümeyir Əhmədov. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, "Elm" nəşriyyatı, 2010, 800 səh.


## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN HÜQUQİ NORMATİV TƏMİNATI


***Ülkər Mirzəyeva***
***Bakı Qızlar Universitetinin magistrı***
***E-mail:ulkermirzeyeva002@gmail.com***
***Rəyçi: prof.Bayramov Həsən***


Azərbaycan respublikasının müstəqilliyinin bərpasından və «Təhsil haqqında» Qanunun qəbulundan xeyli vaxt keçməsinə baxmayaraq, Qanunda nəzərdə tutulan bir çox məsələlər öz həllini tapmamışdı. Çünki bu məsələləri həyata keçirmək üçün normativ-

hüquqi baza yox idi və məktəblərdə hələ də sovet təhsil sistemindən qalan normativ sənədlərə istinad olunurdu. Buna görə də, müstəqil Azərbaycanın ilk «Təhsil Qanunu»na uyğun olaraq 1993—1994-cü illərdə ümumi təhsilin normativ-hüquqi bazasının yaradılmasına başlandı. Təhsil Nazirliyinin mütəxəssisləri tərəfindən Qanunun müddəalarının tələbləri baxımından ümumi təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən bir çox normativ-hüquqi sənədlər hazırlandı, təsdiq olundu və yerli təhsil orqanları və müəssisələrinə göndərilməsi təmin edildi. Həmin normativ-hüquqi sənədlər aşağıdakılardan ibarət idi: Ümum təhsil məktəbləri üzrə: 1. «Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi Əsasnaməsi». Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.03.1994-cii il tarixli qərarı ilə təsdiq edilmişdir. 2. «Əsas və orta təhsil kursu üzrə eksternat qaydasında imtahanlara hazırlıq və onun keçirilməsi haqqında Təlimat». Təhsil Nazirliyinin 14.10.1993-cü il tarixli əmri ilə təsdiq edilmişdir. 3. «Gündüz ümumtəhsil məktəbləri bazasındakı axşam sinifləri və qiyabi qruplar haqqında Əsasnamə». Təhsil Nazirliyinin 28.07.1993- cü il tarixli əmri ilə təsdiq edilmişdir. 4. «Orta təhsil haqqında attestatların və əsas təhsil haqqında şəhadətnamələrin hazırlanması, saxlanılması, verilməsi, uçotu və doldurulması qaydaları haqqında Təlimat». Təhsil Nazirliyinin 25.10.1993-cü il tarixli əmri ilə təsdiq edilmişdir. 5. «Məktəblilərin fənn olimpiadaları haqqında Əsasnamə». Təhsil Nazirliyinin 11.01.1994- cü il tarixli əmri ilə təsdiq edilmişdir. 6. «Əsas təhsil haqqında fərqlənmə şəhadətnaməsinin verilməsi barədə Təlimat». Təhsil Nazirliyinin 16.02.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir. 7. «Məktəb sənədlərinin aparılması və saxlanılması haqqında Təlimat». Təhsil Nazirliyinin 25.03.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir. 8. «Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində imtahanlar, şagirdlərin sinifdən-sinfə keçirilməsi və buraxılışı haqqında Təlimat». Təhsil Nazirliyinin 01.04.1994-cii il tarixli əmri ilə təsdiq edilmişdir. 9. «Orta təhsil haqqında fərqlənmə attestatının verilməsinə dair Təlimat». Təhsil Nazirliyinin 20.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir. 10. «Ümumtəhsil məktəbinin Pedaqoji Şurası haqqında Əsasnamə». Təhsil Nazirliyinin 20.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir. 11. «Ümumtəhsil məktəbinin

Valideyn Komitəsi barədə Əsasnamə». Təhsil Nazirliyinin 20.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir. [5, s.83].

Bu gün haqlı olaraq həmin dövrü Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibahı dövrü kimi qiymətləndirirlər. [7].Hakimiyyətə gəlişinin ilk günlərindən Heydər Əliyev Azərbaycan təhsilinin inkişafına böyük qayğı göstərmiş, ölkənin sosial-iqtisadi inkişafında təhsilin həlledici rola malik olduğunu nəzərə alaraq, onun tərəqqisinə nail olmaq üçün bütün potensial imkanlardan istifadə etmişdir. [6, s.18].

Təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulması ideyası Heydər Əliyevin başlıca məqsədlərindən biri idi. Ümumtəhsil məktəbləri üçün yeni dərsliklərin hazırlanması məsələsi həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuş, bu sahədə aparılan işlərlə müntəzəm maraqlanmış, daim Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi dərsliklərinin təhsil sistemində müstəsna əhəmiyyətə malik olduğunu vurğulamışdır. [4, s.7-11].Hazırda ümumtəhsil məktəblərində istifadə edilən dərslik və dərs vəsaitləri bütünlüklə yeniləşdirilmişdir. Heydər Əliyevin imzaladığı «Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında» qərarı yerinə yetirilmişdir

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. [1].Konstitusiyanın «Təhsil hüququ» adlanan 42-ci maddəsində dövlətin təhsil siyasətinin əsas prinsipləri təsbit olundu: I. hər bir vətəndaşın təhsil almaq hüququ vardır; II. dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir; təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir; maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir; dövlət minimum təhsil standartlarını müəyyən edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.11.1995-ci il tarixli Qərarına əsasən Təhsil Nazirliyinin nəzdində Təhsil qanunvericiliyinin icrasına və təhsilin dövlət standartlarına nəzarət idarəsi yaradıldı, Nazirliyin 25.12.1995-ci il tarixli əmri ilə həmin idarənin Əsasnaməsi təsdiq edildi, idarənin yaradılmasında məqsəd təlim-tərbiyə müəssisələri tərəfindən təhsil qanunvericiliyi və təhsilin dövlət standartlarına tam əməl olunmasına nəzarət etməkdən ibarət

idi. Azərbaycan Respublikasının «Təhsil Qanunu»nun 49-cu maddəsinə uyğun olaraq Təhsil Nazirliyinin 06.03.1996-cı il tarixli əmri ilə «Azərbaycan Respublikasının təhsil sistemində olan metodiki xidmət rəhbərləri və metodistlərinin növbəti attestasiyasının keçirilməsi haqqında Əsasnamə» təsdiq olundu. Attestasiyanın keçirilməsində məqsəd metodiki xidmət rəhbərlərinin və metodistlərin iş keyfiyyətini yaxşılaşdırmaq, işin səmərəliliyini artırmaq, metodiki xidməti günün tələbləri səviyyəsinə yüksəltmək, vəzifə məsuliyyətini gücləndirmək, metodistlərin tərkibini respublikanın qabaqcıl və təcrübəli müəllimləri hesabına möhkəmləndirməkdən ibarət idi. [5, s.84].

1991-ci ildən başlayaraq Təhsil qanunvericiliyində dəyişikliklər, yeni yanaşmalar meydana gəlirdi. Qanunvericiliyin yenişləndirilməsi istiqamətində işlər həyata keçirildi. İlk işlərdən biri 1992-ci ilin oktyabr ayının 7-də müstəqil Azərbaycanın Təhsil haqqında Qanunun qəbul edilməsi oldu. Bundan sonra ümumi təhsil fəaliyyətini tənzimləyən bir sıra normativ hüquqi sənədlər hazırlandı və təsdiq olundu. 1995-ci ilin noyabr ayının 12-də Azərbaycan Respublikasının Konstitutsiyasının qəbul edilməsi ilə Əsas Qanunun irəli sürdüyü prinsip və tələblərə uyğun olaraq, təhsil sahəsində yeni qanunvericilik sənədləri hazırlandı və qəbul edildi. 1998-ci ilin sentyabr ayının 25-də keçirilən Azərbaycan müəllimlərinin ənənəvi XI qurultayında yeni dövrün tələblərini nəzərə alaraq mükəmməl yeni Qanun layihəsinin hazırlanması tövsiyyə olundu. Eləcə də 1998-ci ildən təhsil sahəsində islahatların aparılması üçün əlverişli şərait yarandı. 1998-ci ilin mart ayında təhsil sahəsində Azərbaycan Respublikasında İslahatlar üzrə Dövlət Komissiyası haqqında Azərbaycan Respublikasının prezidenti H.Əliyev sərəncam imzaladı və İslahat Proqramı hazırlamaq üçün Komissiya yaradıldı.1999-cu ilin iyunun 15-də 168 saylı sərəncamla “Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı” dövlət başçısı tərəfindən təsdiq olundu. İslahat hazırlıq mərhələsi olan 1999-cu ildən başlayaraq 3 mərhələdə keçirildi. Proqramın əhatə etdiyi istiqamətlər belə idi: Təhsil strukturunda, təlim-tərbiyənin məzmununda, kadr hazırlığı və təminatında, tədris sistemini tədris elmi-metodiki və informasiya təminatında təhsil sisteminin idarə olunmasında, təhsil sisteminin

maddi texniki bazasında, təhsilin iqtisadiyyatında yeni yanaşmalar və innovasiyalar həyata keçirmək.

Təhsilin müasir standartlar səviyyəsinə yüksəldilməsi məqsədilə ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaratmış və 15 iyun 1999-cu il tarixdə imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" təsdiq edilmişdir. [2].Proqramda irəli sürülən "Demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" ideyası Azərbaycanda təhsil standartlarının yeni dövrün tələblərinə uyğunlaşdırılmasında mühüm rol oynamışdır.

Çətinliklərə baxmayaraq, 1993-cü ildən I-IV siniflər üçün bütün dərsliklər, V-XI sinflər üçün humanitar profilli (azərbaycan dili, ədəbiyyat, tarix, coğrafiya) dərslikləri milli tərzdə hazırlanmış və nəşrinə başlanmışdır. Bu istiqamətdə aparılan bütün işlər üç mərhələni: 1991-1998-ci, 1999-2003-cü, 2004-2011-ci illəri əhatə etdi. 1994-95-ci tədris ilində X-XI siniflər üçün 77 adda 6069000 nüsxədə dərslik çap edilmişdir. Yeni hazırlanan dərsliklər əvvəlkilərə nisbətən xeyli təkmilləşmiş olsa da, dərsliyin məzmunu, tərtibatı, ideoloji istiqaməti, poliqrafik keyfiyyəti tələblərə cavab vermirdi. Sonrakı illərdə bu dərsliklərdən istifadə etməklə onların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində işlər genişləndirilmişdir. 1999-2000-ci tədris ilindən başlayaraq modernləşdirməyə doğru hərəkat daha da gücləndirildi. Dövlətin 26 aprel 1999-cu il tarixli qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları-bazis tədris planı işlənib hazırlanmış və təsdiq olunmuşdur. Yeni işçi tədris planları tətbiqə başlanmışdır. 1999-cu ildən dərslik siyasətinin II mərhələsinə start verilmişdir. Dərsliklərin, tədris planları və proqramların, dərs vəsaitlərinin və digər tədris-metodik ədəbiyyatın məzmunca və keyfiyyətcə yeniləşdirilməsi, müasir təhsil standartlarına cavab verən yeni nəsil dərsliklərin hazırlanması və

ümumi təhsil məktəblərinin bu dərsliklərlə dövlət vəsaiti hesabına təmin edilməsi həyata keçirilməyə başlanılmışdır. Tədris planına I siniflər üçün xarici dil, həyat bilgisi yeni fənlər olaraq daxil edilmiş, əmək təlimi, texnologiya, bədən tərbiyəsi-fiziki tərbiyə adı ilə təqdim edilmişdir. Dərslik islahatının II mərhələsindəki ən mühüm yeniliklərədn biri fizika, riyaziyyat, kimya, biologiya fənləri üzrə yeni nəsil milli dərsliklərin hazırlanması və nəşri olmuşdur. Sonrakı illərdə biologiya, fizika, kimya, astronomiya, azərbaycan dili, ədəbiyyat dərslikləri yeniləşdirildi və ümumtəhsil məktəblərinə pulsuz olaraq çatdırıldı. Bazis tədris planında təhsil müəssisəsinin növündən asılı olaraq ümumtəhsilin səviyyələri, siniflər üzrə Respublika və məktəb komponentləri, tədris vaxtının bölünməsi və təlimin müddəti müəyyən olundu

Nəticə.Məqalədən alınan nəticələri belə ümumiləşdirmək olar: 1993-cü ildən başlayaraq Azərbaycan Respublikasında təhsilin normativ-hüquqi bazasının yaradılması, təhsilin bütün pillələrində, o cümlədən ümumi təhsilin müasirləşdirilməsi istiqamətində əsaslı işlər görülmüş, bir cox ölkənin təhsil sistemi, orada tətbiq olunan modellər, mexanizmlər dərindən öyrənilmişdir. Azərbaycanın milli xüsusiyyətləri, regional spesifikası, ötən illərdə qazanılmış zəngin təcrübə, mütərəqqi ənənələr nəzərə alınaraq güclü elmi-pedaqoji potensiala arxalanaraq təhsilin müxtəlif pillələri, o cümlədən ümumi təhsil pilləsi üçün yeni modellər işlənib hazırlanmış, konkret addımlar atılmağa başlanmış, eksperimentlər keçirilmiş, analitik təhlillər aparılmışdı. Respublikada ictimai-siyasi sabitlik formalaşmış, Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülən, Azərbaycan təhsilində mühüm əhəmiyyət kəsb edən Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramı XXI əsr Azərbaycan təhsilinin strategiyasını müəyyənləşdirmiş, modernləşməyə şərait yaratmışdır. Nəzərdə tutulan təhsilin məzmununun yeniləşdirilməsi, yeni proqramların, dərsliklərin, təhsil standartlarının hazırlanması, müasir təlim texnologiyalarından istifadə öz real həllini tapmışdır. Ümumi təhsil sistemində dərslik siyasətinin həyata keçiril məsinin yeni meyarları müəyyənləşdirilmiş, təhsilin məzmununda tələbyönümlülük, şəxsiyyətyönümlülük, nəticəyönümlülük, inteqrativlik istiqamətləri öz həllini tapmışdır.

**Məqalənin aktuallığı**.Tədqiqatın aktuallığı ondan ibarətdir ki,Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan təhsil sisteminin hüququi normativ təminatı yüksək qiymətləndirilir.

**Məqalənin elmi yeniliyi**. Müasir dövrdə Azərbaycanda təhsilin inkişaf tarixinin araşdırılması və tədqiqi bu sahədəki boşluğu doldurmaqla yanaşı, həyata keçirilən təhsil islahatının memarı Heydər Əliyevin tarixi xidmətlərinin üzə çıxarılmasına kömək etmişdir. Eyni zamanda, Azərbaycanda təhsilin inkişafının dövrləşməsi tarixi yeni mövqedən işıqlandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti.** Tədqiqat işi aşağıdakı praktiki problemlərin həlli üçün mühüm əhəmiyyətə malikdir: a) onun materiallarından pedaqoji universitet və institutlarda «Pedaqogika tarixi», «Azərbaycan məktəbi və pedaqoji fikir tarixi», pedaqoji biblioqrafiyaların, müntəxabatların tərtibində; b) pedaqogika tarixi üzrə dərslik və tədris vəsaitlərinin yazılmasında, təkmilləşdirilməsi və yeniləşdirilməsində istifadə etmək faydalı ola bilər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının konstitusiyası. https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncami. https://e-qanun.az/ framework/5363
3. Baxşəliyev Fərid .Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (monoqrafiya) /ADPU-nun nəşriyyatı, 2009, 168 s
4. Cəfərov Cəfər. Heydər Əliyev və Azərbaycan təhsilinin milliləşdirilməsi strategiyası."Azərbaycan məktəbi" 2017/3.s-7-11
5. Mərdanov Misir.Təhsil tarixi .Təhsil nəşriyyatı.Bakı 2011.III cild. 671 s
6. Səmədov Abbas.Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. 500 s
7. Təhsil. https://republic.preslib.az/az_c7-1.html

# ГЛУБОКИЙ СЛЕД В ИСТОРИИ АЗЕРБАЙДЖАНА И ВСЕЙ МИРОВОЙ ПОЛИТИКИ

***Ниджат Сейхун оглы Гусейнов***
***БГУ, студент факультета Международных отношений и экономики***

**Без великих целей нет великих дел.** Без достойного народа нет выдающихся лидеров. Мир знает немного таких выдающихся личностей, как **Гейдар Алиев**. Он оставил глубокий след в истории Азербайджана и всей мировой политики.

Политическая деятельность – не только счастливое призвание, но и одновременно великая ответственность за посылы времени. Высокий долг и предназначение перед своим народом, родиной явились мотивом всей жизнедеятельности Гейдара Алиева. Гений Гейдара Алиева определил четкий курс и стиль обновления Азербайджанской Республики, обозначив переломный исторический этап конца XX столетия как веху развития и созидания, а еще высокой ответственности – перед временем и будущим. Его имя стало подлинным символом нашего народа, исторического развития, необъятности духовного наследия.

О Общенациональном лидере Гейдаре Алиеве можно говорить бесконечно, это поистине феноменальная личность масштабных дарований. Он обладал уникальными качествами – политической прозорливостью, историческим опытом, мудростью стратега и мыслителя.

Будучи подлинным Патриотом, Гейдар Алиев являлся примером любви к родной земле, народу, идей гражданственности, гуманизма, высокой нравственности, культуры. Вся его жизнедеятельность являлась олицетворением высокого понятия Патриот. Это был необыкновенный по своим человеческим и профессиональным качествам Человек и Гражданин, достойный представитель своего народа, Великий

Азербайджанец.

Возможности газетной статьи составляют лишь малую толику описания колоссального вклада великого Гейдара Алиева в развитие Азербайджана. Каждый час, каждую минуту жизни он посвятил служению Азербайджану, всегда боролся за единственную цель, единственную идею – видеть республику благополучной и процветающей, а азербайджанский народ – счастливым, истинным хозяином своих богатств. Об этом мечтал Гейдар Алиев, этому он посвятил свою жизнь. На всех исторических этапах лейтмотивом жизнедеятельности нашего общенационального лидера оставались взвешенные политические решения, дальновидная стратегия и тактика, масштабность целей и задач, характеризующие самоотверженную любовь к Родине. Политик, историк и философ, блестящий оратор и замечательный государственный и общественный деятель, умеющий четко и твердо, шаг за шагом, следовать к намеченной цели, Гейдар Алиев воплотил в своей творческой и профессиональной биографии целый пласт новой азербайджанской, да и всей мировой истории, дипломатии, культуры. Воскрешая в памяти вехи жизнедеятельности нашего общенационального лидера, поражаешься энергии, жизнелюбию и стойкости, которыми он обладал. Его яркая и насыщенная биография отмечена рядом важных этапных событий, характеризующих не только личную жизнь Гейдара Алиева, но и судьбу всей республики. Он стоял у руля власти в самые сложные и драматические периоды, когда решалась судьба Отечества, государственности и независимости Азербайджана.

Практически, ни одна область нашей жизни не оставалась вне его неустанных, пристальных внимания и заботы, компетенции и контроля, спектр его деятельности был поистине безграничен. Как человек универсально талантливый, Гейдар Алиев глубоко, на высоком профессиональном уровне разбирался в различных сферах духовной и материальной жизни, что давало ему возможность успешно управлять социально-культурным развитием республики в целом, включая такие области, как идеология, образование, наука, экономика,

искусство, право, международные отношения и другие сферы общественно-политической системы, уверенно ведя нашу страну по пути исторического прогресса. Своими пламенными выступлениями он демонстрировал компетентность и принципиальность не только политика мирового уровня, но, в первую очередь, патриота высочайшей пробы, знатока национальной жизни. В его пожеланиях и наказах отражались колоссальные возможности самопознания азербайджанского народа, его духовной реализации и расцвета, вопреки всем выпавшим на долю нашей республики треволнениям и испытаниям. Где бы он ни работал, какой бы коллектив ни возглавлял, – всегда был неоспоримым лидером, достойным примером для всех. О чем бы он ни говорил, где бы ни участвовал, – каждое его слово было на вес золота, являясь всеобщим руководством к действию. Во все времена он подавал пример своими оперативностью, творческой целеустремленностью, самобытностью. Но главное, конечно, были дальновидные и взвешенные политические решения, благодаря которым мы живем сегодня в свободном, демократическом, набирающем темпы обществе.

Общенациональный лидер Гейдар Алиев был сильной личностью и выдающимся политическим деятелем, выдвинутым самой историей. Расцвет его политической деятельности совпал со сложным неоднозначным периодом в истории нашего государства: эпохой социалистического строительства, затем – перехода государственных отношений к рыночным, эйфорических идеалов – к реалиям демократических ценностей. В период правления в советском Азербайджане он поднял на новый уровень раз вития всех очаги образования, начиная с дошкольного образования до высших учебных заведений по сравнению с предыдущими годами. Последовательная и целенаправленная государственная политика сыграла исключительную роль в повышении образования, общей культуры и интеллектуального уровня Азербайджанского народа. В 70-е и в начале 80-х годов были проделаны большие работы в направлении укрепления материально-технической

базы высших учебных заведений. По инициативе и заботы руководителя страны были построены многочисленные учебные корпуса и общежития для высших учебных заведений. Одним из больших заслуг в развитии высшего образовании Азербайджана в 1970-80-х годов Гейдара Алиева является создание новых очагов высшего образования. В целом, 1970-1982-х годах в Азербайджане было создано 5 новых учебных заведений, открыты новые специальности, кафедры, проблемные лаборатории. Если в конце 60-х годов в республике было 12 высших школ, в них насчитывались 105 факультетов, 450 кафедр и в них подготовка кадров велось по 139 специальностям, то уже в 1982-м году действовал 17 высших учебных заведений объединяющих 136 факультетов и 530 кафедр. Все эти успехи были достигнуты благодаря гражданской заботы о кадровом потенциале республики, для развития высшего образования многоуважаемым Гейдаром Алиевым. Одной из исключительных заслуг перед Азербайджанским образованием выдающей личности Гейдара Алиева является создание возможности и условий для получения высшего образования за пределами республики свыше 15 тысяч азербайджанской молодежи в более 170 очень солидных учебных заведениях в более чем 50 больших городах бывшего СССР. Это было осуществлено по собственной инициативе и заботе Гейдара Алиева позволявшегося, подготовить высококвалифицированных специалистов по 250 специальностям охватывающих более 80 отраслей народного хозяйства, науки, образования и культуры, в которых особенно нуждалась республика. Необходимо отметить, что до 1970-х годов среди получивших образования за пределами Азербайджана численность азербайджанцев, если составляла 40%, в результате проводимой дальновидной политики общенационального лидера Гейдара Алиева уже в 1976-м году этот показатель поднялся до уровня 85%, в 1977-м году до 92%, а в на чале 1980-х года до 97,6%. В настоящее время образование всё больше и больше улучшается благодаря нашему общенациональному лидеру Гейдару Алиеву и его сыну Ильхаму Алиеву.

## *V B Ö L M Ə*

## *PSİXOLOGİYANIN ÜMUMİ MƏSƏLƏLƏRİ*

# PSİXOLOGİYADA EMOSİONAL İNTELLEKT ANLAYIŞININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

***Aytən İlham qızı Alışanlı***
***alishanli.aytan.ilham@bsu.edu.az***
***Bakı Dövlət Universiteti***

Müasir psixologiyanın tədqiqat predmetinə çevrilən emosional intellekt anlayışı özünəməxsus təşəkkül və inkişaf yolu keçmişdir. Psixologiya elminin müxtəlif inkişaf mərhələlərində emosional və koqnitiv proseslərin qarşılıqlı münasibətləri daim diqqət mərkəzində olaraq ən müxtəlif aspektlərdən tədqiqata cəlb olunub. XX əsrin əvvəllərində emosiyaların və intellektin öyrənilməsi əsasən ayrılıqda aparılırdı. Bu da intellektin strukturu barədə təsəvvürlərin qeyri-dəqiqliyindən irəli gəlirdi. İntellektin tədqiqi zamanı onun müxtəlif növləri fərqləndirilmirdi. İntellektin strukturu barədə təsəvvürlərin sonrakı inkişafı onun differensasiyası yolu ilə getdi. 1920-ci ildə amerikan psixoloqu E.L.Torndayk sosial intellekti intellektin digər formalarından ayıraraq onu "insanları başa düşmək və onları idarə etmək bacarığı – insani münasibətlərdə müdrik hərəkət etmək" kimi müəyyənləşdirdi. Sonrakı dövrdə bu mövzudakı emosional faktorlar İQ (intelligence quotient) testlərinin banisi sayılan Devid Veksler tərəfindən öyrənildi.

1970-1980-ci illərin sonunda emosiyalarla şüurun qarşılıqlı fəaliyyətinin öyrənilməsinə maraq artır. Emosional və koqnitiv proseslərin səmərəli qarşılıqlı fəaliyyəti ilə bağlı ehtimallar bir sıra tədqiqatlarda öz əskini tapır. Depressiyaların şüurun realistliyinə təsirinin, əhvalın dəyişilməsinə meylliliklə kreativlik arasında qarşılıqlı əlaqənin, emosional özünü tənzimləmə bacarığının öyrənilməsini bu sıraya aid etmək olar. Özündə əhvalı və mühakiməni birləşdirən "koqnitiv halqa"nın mövcudluğu ehtimalı

yaranır. Onun mahiyyəti bundan ibarətdir ki, mənfi emosiyalar neqativ fikirlər yaradır və onlar da öz növbəsində emosional həyəcanların intensivliyini artırır. Eyni zamanda müsbət emosiyalar pozitiv fikirləri aktivləşdirir.

Emosional intellekt termini ilk dəfə 1985-ci ildə U.Peynin dissertasiyasında işlədilib. Həmin il məşhur psixoloq R.Bar-On ənənəvi "psixometrik intellekt" termininə alternativ olaraq "emosionallığın əmsalı" anlayışını irəli sürür və 1996-cı ildə onun ölçülməsi üçün sorğu təklif edir.

1990-cı ildə iki amerikan tədqiqatçısının – C.Mayer və P.Saloveyin Eİ konsepsiyasının təsvir edildiyi əsəri çap olunub. Eİ-nin bu müəlliflər tərəfindən çox sonralar formalaşdırılmış təriflərindən biri belədir: "Emosiyaları dərindən anlama, qiymətləndirmə və ifadə etmə bacarığı; emosiyaları və emosional bilikləri dərk etmə bacarığı; eləcə də şəxsiyyətin emosional və intellektual inkişafına səbəb olan emosiyaları idarə etmə bacarığı". P.Salovey və C.Mayer hesab edirdilər ki, "İnsan təfəkkürü rasional hesablama ilə məhdudlaşmır. Emosiyalar və intellektin qarşılıqlı əlaqələrinin çox müxtəlif olmasına baxmayaraq, onlardan yalnız bir neçəsi bizi həqiqətən də ağıllı edir. Elə bu qarşılıqlı kəsişmə və təsirin kifayət qədər məhdud sahəsini emosional intellekt kimi müəyyənləşdirmək olar". Beləliklə, C.Mayer və P.Salovey sübut etdilər ki, Eİ mövcuddur və intellektin əsas növlərindən biridir.

Emosional intellektin psixoloji tədqiqatların predmetinə çevrildiyi 1990-1994-cü illərdən sonra bu anlayışa münasibətdə yeni bir mərhələnin başlandığını söyləmək olar. Belə ki, "Emosional intellekt" termini populyarlaşmağa başladı, tədqiqatlar sahəsi isə genişləndi. Populyarlaşma D.Qoulmenin "Emosional intellekt" kitabının çapından sonra başladı. Emosional intellekt anlayışının populyarlaşdırılması tərəfdarları onun həyatın əksər sferalarındakı uğurun açarı olmasını elan etdilər. Emosional intellektin ölçülməsi üçün çox sayda metodikalar hazırlandı. Məqsədlərinin biznes və təhsil sferalarında emosional intellekti inkişaf etdirmək olduğunu bəyan edən psixoloji agentliklər meydana çıxdı.

1998-ci ildən bu günə qədər emosional intellekt konsepsiyasını təkmilləşdirmək üçün çoxlu variantlar təklif olunur, onun ölçülməsi

üçün yeni metodikalar tətbiq edilir. Bu sahədəki tədqiqatları emosional intellekt barədə populyar təsəvvürlərin, onun ölçülməsi üçün elmdən uzaq yanaşmaların olması mürəkkəbləşdirir. C.Mayerin fikrincə hazırki dövrdə ədəbiyyatda "iki" emosional intellekt mövcuddur. Onlardan "populyar" olanı müxtəlif şəkildə müəyyən olunmasına baxmayaraq tez mənimsənilir və elmi əsaslara malik olmur. Digər emosional intellekt isə elmi fenomen olaraq qalır.

Müasir psixologiyada emosional intellektin strukturu və səviyyəsinin ölçülməsi ən müxtəlif yanaşmalarla səciyyələnən və geniş mübahisələr doğuran problemlərdəndir. Emosional intellektin ümumi konsepsiyasının hələ də formalaşmamasına baxmayaraq, onun müxtəlif sahələrdə elmi-praktiki əhəmiyyəti barədə son tədqiqatlar psixologiya elmini yeni nailiyyətlər və nəticələrlə zənginləşdirir.

Beləliklə, deyilənləri ümumiləşdirsək, "emosional intellekt" anlayışının meydana çıxması koqnitiv və affektiv proseslərin təbiəti, onların qarşılıqlı əlaqəsi barədə təsəvvürlərin inkişafının nəticəsidir. Bu prosesdə mühüm nailiyyətlər bunlardır: emosiyalar barədə təsəvvürlərin zənginləşməsi (onlara şüurun alt sistemlərindən biri kimi, motivasiya faktoru kimi baxmağa başladılar); intellekt haqqında təsəvvvürlərin zənginləşməsi (intellektual təzahürlərin çoxtərəfliliyi ideyası, sosial intellektin kəşfi); eləcə də emosiyalar və intellektə aid tədqiqatlarda affektiv və koqnitiv proseslərin birliyi və səmərəli qarşılıqlı fəaliyyətinin öyrənilməsi.

## Ədəbiyyat


1. Андреева И.Н. Азбука эмоционального интеллекта / И.Н.Андреева. СПб.: БХВ-Петербург, 2012.
2. Гоулман Д. Эмоциональный интеллект. М: АСТ, Москва, 2009.
3. Карпов А.В., Петровская. Психология эмоционального интельекта: теория, диагностика, практика. Ярославль 2008.
4. Bar-On.R. The Bar-On model of emotional-social intelligence (ESI). Psicothema, 2006.

# QLOBALLAŞAN CƏMİYYƏTİN İNKİŞAFINDA ŞAGİRDLƏRİN NİTQ BACARIQLARININ İNKİŞAFI

***Könül Zaur qızı Şxəliyeva***
***Pedaqogika üzrə fəlsəfə doktorantı, müəllim***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı şəhəri***
***konul.eliyeva.17@mail.ru***

Elm və texnikanın sürətlə inkişaf etdiyi qloballaşan müasir dünyada nitq inkişafı təkmilləşməyə ehtiyacı olan daimi bir prosesdir. Nitq inkişafı üzrə planlı, perspektiv, məqsədyönlü iş uşaq məktəbə gəldiyi ilk gündən başlayır. Bu baxımdan da ölkəmizdə əsas ağırlıq ibtidai siniflərdə Azərbaycan dili dərslərinin üzərinə düşür. Azərbaycan dilindən öyrədilən hər bir mövzu və ya hər hansı dil faktı bilavasitə şagirdlərin nitq inkişafı ilə əlaqələndirilməlidir.

İbtidai siniflərdə Azərbaycan dili dərslərində nitq bacarıqlarının inkişafı üzrə aparılan işlər eyni zamanda şagirdlərin təfəkkürünün inkişafına kömək edir. Qloballaşma şəraitində şagirdlərin şəxsiyyət kimi formalaşmasında təfəkkürün inkişafı çox mühüm amildir. İbtidai siniflərdə nitq bacarıqlarının inkişafı üzrə aparılan işlərin istiqaməti çoxdur: nitqin səs mədəniyyəti üzrə iş, lüğət üzrə iş, cümlə qurmaq vərdişləri üzrə iş, ədəbi tələffüz və rabitəli nitq üzrə işlər, üslubi çalışmalar və s. bura daxildir. İbtidai siniflərdə keçilməsi nəzərdə tutulan hər bir mövzu nitq bacarıqlarının inkişafı üzrə işin bu və ya digər istiqaməti ilə sıx bağlı olur.

Cümlə ilə şagirdlər praktik şəkildə I sinifdən tanış olurlar. Mətndən cümlələri seçmək, onların sərhəddini müəyyənləşdirmək. Cümləni sözlərə ayırmaq, verilmiş sözlərdən cümlələr düzəltmək, cümlədə sözlərin sayını və sırasını müəyyənləşdirmək və s. kimi işlər cümlə haqqında ilk real təsəvvürlərin yaranmasına səbəb olur. Sonrakı prosesdə şagirdlər buraxılmış sözləri əlavə etməklə cümlələri tamamlayır, suallar əsasında cümlələri kəskinləşdirir, müəyyən mövzu üzrə və ya verilmiş suallara cavab şəklində özü müstəqil cümlələr qurur, qurulan cümlələrin sxemini tərtib edir və ya sxemlər əsasında cümlələr düzəldir və s. Bütün bunlar bir tərəfdən cümlə anlayışının formalaşmasına kömək edir, digər tərəfdən də şagirdlərin

cümlə qurmaq vərdişlərinin inkişafına səbəb olur. Cümlə anlayışının ilk formalaşdırılması prosesində tək, seriya və sujetli şəkillər əsasında aparılan işlər, şagirdlərin ailələri, sevdikləri oyunlar, başlarına gələn və ya şahidi olduqları maraqlı əhvalatlar əsasında mətn, hekayə, nağıl tərtib etmələri də nitq inkişafı baxımından çox əhəmiyyətlidir.

Cümlə anlayışının formalaşdırılması ilə əlaqədar aparılan işlər praktik xarakter daşımalı və nitq inkişafı ilə paralel aparılmalıdır. Cümlə üzərində iş apararkən cümlədə sözlərin düzgün sıralanması məsələsinə də diqqət verilməlidir. Mübtədanın əvvəldə, xəbərin sonda işlədilməsi, təyin edən sözün təyin olunan sözdən əvvəl gəlməsinə, mübtədaya aid olan sözlərin mübtədadan əvvəl, xəbərə aid sözlərin isə xəbərdən əvvəl gəlməsinə və s. diqqət yetirilməlidir. Cümlə anlayışının formalaşdırılması üçün tədricən cümlənin bitmiş fikir bildirməsi, cümlənin intonasiya cəhətdən də bitmiş olması, bitmə intonasiyasının xüsusiyyəti, yəni cümlənin sonuna doğru səs tonunun alçalması və bitməsi, cümlələr arasında fasilələrin gözlənilməsi praktik şəkildə şagirdlərə mənimsədilməlidir. Cümlə dilin bütün xüsusiyyətlərini özündə cəmləşdirən, birləşdirən ən vacib ünsiyyət vahididir. Rabitəli nitqin inkişafı da bilavasitə cümlə ilə bağlıdır, çünki rabitəli nitq cümlələrdən əmələ gəlir. Düzgün və rəngarəng cümlələr qurmağı bacarmadan aydın, rəvan rabitəli nitqə yiyələnmək mümkün deyildir. Cümlə anlayışının formalaşdırılması prosesində cümlədəki sözlər arasında əlaqəni müəyyənləşdirməyin də böyük əhəmiyyəti vardır.

Azərbaycan Respublikası prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında " fərmanında qeyd olunur ki, "Azərbaycan respublikasının onillik inkişaf yolunun təcrübəsi göstərir ki, digər sahələrdə olduğu kimi , ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac vardır." Bu baxımdan da deməliyik ki, cümlə və söz birləşmələri anlayışlarının formalaşdırılması prosesində nitq inkişafı ilə əlaqədar ibtidai siniflərin Azərbaycan dili dərsliklərində verilmiş çalışmalarla yanaşı, cümlə və söz birləşmələri

anlayışlarının formalaşdırılması prosesində şagirdlərin nitqini inkişaf etdirmək baxımından əhəmiyyətli olan digər iş növlərindən də istifadə etmək lazımdır.

1. Şəkillərlə iş prosesində nitq inkişafı üzrə aparılan işlər.

2. Verilmiş sözlərdən cümlələrin qurulması.

3. Verilmiş söz birləşmələrindən cümlələrin qurulması.

4. Suallar vasitəsilə cümlələrin genişləndirilməsi.

5. Verilmiş mövzu üzrə cümlələrin qurulması və ya kiçik hekayələrin düzəldilməsi. 6. Verilmiş və ya şagirdlər tərəfindən düzəldilmiş cümlələrdə sözlər arasındakı əlaqənin müəyyənləşdirilməsi.

7. Verilmiş sxem əsasında söz birləşmələrinin düzəldilməsi.

8. Verilmiş sözlərdən söz birləşmələrinin düzəldilməsi və həmin birləşmələrdən bir neçəsinin cümlələrdə işlədilməsi.

9. Verilmiş sözlərə söz qoşmaqla söz birləşmələrinin düzəldilməsi.

10. Verilmiş söz birləşmələrinin hərəsinin bir cümlədə işlədilməsi.

11. Yanaşı verilmiş söz birləşmələri və cümlələrin fərqləndirilməsi.

12. Söz birləşmələri və cümlələr yanaşı verilir. Onlardan hansının bitmiş fikir bildirməsinin göstərilməsi.

13. Qarşı-qarşıya verilmiş söz birləşmələrinin məna fərqinin izah edilməsi və onların hər birindən bir cümlənin düzəldilməsi və s.

Əlbəttə, cümlə və söz birləşmələri anlayışlarının formalaşdırılması ilə bağlı nitq inkişafı üzrə aparılan işlər yuxarıda dediklərimizlə məhdudlaşa bilməz. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 aprel 2013-cü il tarixində“Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında”sərəncamında Azərbaycan dilinin zənginləşməsi və tədqiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsi tələb edilir. Qabaqcıl müəllimlərimiz bu məqsədlə daha səmərəli, faydalı iş növlərindən istifadə edirlər ki, bu da şagirdlərin nitq və təfəkkürünün inkişafına əhəmiyyətli kömək göstərir. Söz ehtiyatı zəngin olan, hər bir sözün

mənasını bilən və onlardan yerli-yerində, dəqiq istifadə etməyi bacaran adamın nitqi aydın, cazibədar və təsirli olur. Belə adamların nitqində söz çox elastik olmaqla sehrli bir aləm yaradır. Nitq Allahın hər bir insana bəxş etdiyi və insanı digər canlılardan fərqləndirən ən vacib faktorlardan biridir. İnsanın nitqinin formalaşmasında məktəbəqədərki yaş dövrü mühüm rol oynayır. Belə ki, uşağın nitqə yiyələnməsində ətraf aləmi qavramağı, öz fikirlərini ifadə etməyi, ona təfəkkürünü inkişaf etməyə kömək edir. Buna görə də hər bir valideyn bilməlidir ki, uşaqda düzgün nitqi inkişaf etdirmək yalnız estetik əhəmiyyət daşımayıb, eyni zamanda onun şəxsiyyət kimi kamilliyi, əqli və psixi inkişafı üçün də çox vacibdir. Əqli və psixi inkişafın mənfi təsiri nitqin pozulmasına gətirib çıxarır. Nitqin də düzgün olmaması uşaqları utancaq, özünə qapanmış və aqressiv edir. Məktəbdə belə uşaqlar özünü daha çox narahat hiss edir. Müəyyən yaşa qədər səslərin səhv tələffüzü, lüğətin azlığı, cümlənin düzgün qurulmaması dilə yiyələnmə prosesində norma sayılır. Təcrübələr göstərir ki, müasir dövrdə altı yaşına qədər uşaqların 30 faizdən çoxu tələffüz qüsurlarına malikdir. Lüğət üzrə işi normal təşkil etmək üçün ilk növbədə şagirdlərin lüğət ehtiyatının xüsusiyyətlərini öyrənmək, məktəbə yenicə gəlmiş uşaqların bu sahədəki nöqsanlarını və onların baş vermə səbəblərini aşkara çıxarmaq lazımdır.

Məktəblilərin nitqi öyrənildikdə məlum olur ki, hər birinin öz lüğət ehtiyatı, öz aləmi var. Ona görə də müəllim sözün hər bir uşaq tərəfindən işlədilmə xüsusiyyətini aşkara çıxarmağa çalışmalıdır. Şagirdlərin lüğətinin mühüm xüsusiyyətlərindən biri ibtidai siniflərdə ümumiləşdirmə ilə təsnifetmə arasındakı fərqdir. Sözün mənasının genişlənməsi hallarına şagirdlərin nitqində də rast gəlmək mümkündür. Təlim əməyi ilə məşğul olmaq üçün, uşaq məktəbə gələnədək kifayət qədər söz ehtiyatına yiyələnməlidir. Uşaqlar məktəbə gələndən sonra müəllim onların lüğətindəki nöqsanları diqqətlə öyrənməli, necə zənginləşdirilməsi yollarını müəyyənləşdirməlidir. Şagirdlərin söz ehtiyatı yeni sözlərin hesabına zənginləşir. Şifahi nitqdə möhkəmlənməmiş, ictimaiyyət tərəfindən işlənən sözün, uşaqlar tərəfindən mənimsənilməsi lüğət işinin mərkəzi həlqəsini təşkil edir. K.D.Uşinski yazır: “Uşaq ana dilini mənimsəməklə, yalnız sözləri, onların birləşmələrini deyil, həm də

hədsiz-hesabsız anlayışları, əşyalara dair görüşləri, bir çox fikirləri, hissləri, bədii obrazları, dilin məntiq və fəlsəfəsini də mənimsəyir. O dərəcədə tez mənimsəyir ki, sonralar iyirmi illik səy və metodik təlim nəticəsində onun yarısını belə mənimsəyə bilmir. Altı yaşlıların monoloji nitqi beş və yeddi yaşlıların nitqindən də müəyyən xüsusiyyətlərinə görə fərqlənir. Bu fərq hər şeydən əvvəl, onlarda fiziki-fizioloji proseslərin inkişafı ilə şərtlənir. Uşaqların fiziki cəhətdən müxtəlifliyi onların monoloji nitqinə də təsir göstərir".

Ana dili təbiəti ona heç bir təbiətçinin izah edə bilmədiyi bir şəkildə izah edir; o, uşağı, onu əhatə edən adamların səciyyəsi ilə, içərisində yaşadığı cəmiyyətlə, onun tarixi ilə, onun arzuları ilə heç bir tarixçinin tanış edə bilməyəcəyi bir şəkildə tanış edir; o uşağı xalq etiqadlarına, xalq poeziyasına heç bir estetikin edə bilməyəcəyi bir tərzdə daxil edir, nəhayət, o elə məntiqi məfhumlar və fəlsəfi görüşlər verir ki, əlbəttə, bunu heç bir filosof uşağa verə bilməzdi. Bu baxımdan ibtidai siniflərdə ana dili təlimi böyük əhəmiyyət kəsb edir" [3;13].

Ana dili təlimi uşaqlara savadlı yazmaq, ifadəli, şüurlu oxumaq, dəqiq və məntiqi şəkildə ifadə etmək bacarıq və vərdişləri aşılamaqdan, elmi dünyagörüşünü formalaşdırmaqdan ibarətdir.

## Ədəbiyyat


1.Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı metodikası Bakı, 2009
2.Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası Bakı, 2003
3.Rəhimov A. N. Ana dilinin tədrisi metodikası Bakı, 2015
4.Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008

## *VI B Ö L M Ə*

## *MƏKTƏBİN İDARƏ EDİLMƏSİ*

# MƏKTƏB DİREKTORUNUN İNNOVATİV MÜHİTDƏ PEDAQOJİ MÜHƏNDİSLİK FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

***Nərmin İlham qızı Nadirzadə***
***Bakı Dövlət Universitetinin doktorantı***
***nadirzadanarmin@gmail.com***

İdarəetmə, məqsədə başqaları vasitəsilə nail olmaq sənəti və elmidir. Təhsil idarəsi isə dövlətin və cəmiyyətin ümumi idarəçiliyinin bir qoludur. Bu, cəmiyyətdə təhsilin milli məqsədlərinə çatmaq üçün cəmiyyətin ideologiyasına və onun siyasi, iqtisadi və sosial şərtlərinə uyğun olaraq idarə olunduğu bir prosesdir. Bu gün dünya müxtəlif təhsil, elm və intellektual sahələrdə elmi-texniki sürətlənmə və inqilabla səciyyələnir. Bu baxımdan təhsil müəssisələatinin də innovativ idarə olunması zərurəti yaranır. İnnovasiya ixtira və kəşf fəaliyyətləri etməklə yeni obyektlər tapmaq səyi kimi müəyyən edilə bilər.Bununla əlaqədar olaraq, innovasiya bir şəxs və ya insanlar qrupu üçün yeni bir şey kimi müşahidə olunan ideya, əşya, hadisə, üsul şəklində ola bilən ixtiradır. Məktəbin innovativ idarə edilməsi qlobal islahat dövründə təhsil müəssisələrini yenilikçi idarə etmək səyidir və məqsədi insan resurslarının yenilənməsi və keyfiyyətinin yüksəldilməsi istiqamətində innovasiyalara sadiq olmaqla təhsilin və öyrənmənin keyfiyyətini yüksəltməkdir. Müxtəlif dəyişikliklərin cəmiyyətdə həm təhsil, həm sosial, həm də mədəni aspektlərdə baş verir. Bu dəyişikliklər elm və texnologiyanın getdikcə daha sürətli inkişafının təsiridir ki, bu da öz növbəsində səriştəli cəmiyyətin xüsusiyyətlərini formalaşdıracaq. Bu dövrdə transformasiya və innovasiya lazımdır, bu, məktəb idarəçiliyində dəyişiklik və yeniləşmə gətirəcək. Öz növbəsində hər

bir qurumdan bu gün qloballaşmanın çağırışlarına cavab vermək üçün yeniliklər edə bilməsi tələb olunur.

Əvvəlcə pedaqoji elmlərdə təhsil menecerlərinin funisiyaları, məqsəd və vəzifələri, fəaliyyət sahələri, malik olmalı olduqları səriştələr, münasibətləri, bir sözlə, onun müasir məktəbdə innovativ idarəetməyə texnoloji yanaşmasının bütün sahələrini nəzəri baxımdan öyrənəcəyik.

E.Y.Kərimova təhsilin idarə edilməsinin, yəni təhsil menecmentinin metodoloji problemlərinə aydınlıq gətirərək idarəetmə sahəsində innovasiyaların vacibliyini belə əsaslandırır: *"Təhsilin indiki məzmunu bütün peşələrdə şəxsiyyətin dünya baxışının düzgün formalaşdırılmasına əngəl törədir, onun yüksək ixtisaslı mütəxəssis olmaq imkanını məhdudlaşdırır. Donub qalmış təhsil strukturları, formaları, elmi-pedaqoji fəaliyyətdə hökmranlıq edən mühafizəkralıq, idrakla real həyat, diplom və attestatla biliklərin həqiqi vəziyyəti qarşıdurma əmələ gətirmişdir. Şagird, tələbə, müəllim, idarəetmə orqanları işçiləri, habelə valideynlərin pedaqoji əməyinin nəticələrinə görə məsuliyyət və cavabdehlik dairəsi aydınlaşdırılmamışdır. Əməyin düzgün qiymətləndirilməsi mexanizmi yaradılmamışdır. Respublikada təhsilin məzmununda milli xüsusiyyətlər kifayət qədər nəzərə alınmamış, bu işin elmi-pedaqoji strategiyası lazımi səviyyədə işlənməmişdir" [59, s. 88-89].*

Hər bir təhsil menecerinin qoyulmuş məqsədləri yerinə yetirməsi keyfiyyəti, hesab edirik ki, bu prosesin optimallaşdırılmasında özünü göstərir. F.İbrahimov və R.Hüseynzadə optimallaşdırmanı nəzərivə praktik izah edirlər: *"Optimallaşdırma" anlayışının sinonim variantları uçotaalma, müqayisə, tutuşdurma hesab olunur. Praktik aspektdə "optimallaşdırma" pedaqoji sistemin innovasiyası, yenidən təşkili və qurulması, qarşıya qoyulmuş vəzifələri həll etmək üçün onun ən yaxşı vəziyyətə gətirilməsi kimi başa düşülür. Optimallaşdırma vəzifələrin həlli meyarlarının seçilməsindən başlayır. Optimallaşdırmanın meyarı əlamətdir, göstəricidir. Onun əsasında inkişaf prosesinin mümkün variantları qiymətləndirilir və onlardan ən yaxşısı seçilir. Məntiq tələb edir ki, meyarda ancaq və ancaq bir göstərici (parametr) olsun. Amma pedaqogikada o, kompleks halda olur. Çünki pedaqoji sistemdə baş*

*verən proseslərin səbəb-nəticə əlaqələrini bir-birindən ayırmaq mümkün deyil.*

Məktəb idarəçiliyində təhsil meneceri öz fəaliyyətini işləyib hazırladığı innovativ idarəetmə texnologiyaları vasitəsi ilə reallaşdırır. Məhz bu texnologiyalar məktəbdə idarəetmənin bütün sahələrində təşkil ediləcək prosesləri əhatə edərək müvafiq icraedici kadrların köməyi ilə həyata keçirir. Əsas məsələ isə texnologiyaların düzgün qurulmasıdır. Məhz bu səbəbdən hazırda təhsil menecerlərini yeni bir anlayışla, "təhsil mühəndisləri" anlayışı ilə əvəzləməyə başlayıblar. İlkin olaraq idarəetmə texnologiyalarının mahiyyətinə yenə həmin müəlliflərin izahlarında baxaq: *"Texnoloji yanaşmanın belə iyerarxik, şaquli strukturunda, bir-biri ilə əlaqəli - meta, makro və mikro texnologiyaları ayırmaq lazımdır" [59, s. 260]:*

Məlumdur ki, məktəb rəhbərinin peşə səriştəsi bilikdən, peşə və həyat təcrübəsindən, dəyərlərdən və meyllərdən istifadə edərək, peşəkar idarəetmə fəaliyyətinin real vəziyyətlərində yaranan peşə problemləri və tipik peşə vəzifələrini həll etmək bacarığını xarakterizə edən ayrılmaz peşəkar və fərdi keyfiyyətdir. Səriştəlilik həmişə fəaliyyətlərdə özünü büruzə verir. Məktəb direktorunun peşəkar səriştəsi peşəkar idarəetmə problemlərinin həllində özünü göstərir. Peşəkar səriştəliyin təbiəti belədir ki, yalnız liderin dəyərləri ilə üzvi vəhdətdə özünü büruzə verə bilər, yəni bu fəaliyyət növünə dərin şəxsi marağa məruz qalır.

Onu da qeyd edək ki, İ.V.Qrişinanın apardığı tədqiqat prosesində təklif etdiyi məktəb rəhbərinin peşə səriştəsinin formalaşması konsepsiyası rəhbərin özünütəşkili, insan potensialını (mövcud mənəvi, əxlaqi, psixofizioloji, sosial-mədəni, yaradıcı və digər mənbələri) və özünü tanıya bilən subyekt kimi düşüncəsinə əsaslanır. Yəni, məktəb rəhbərinin peşə səlahiyyətlərinin formalaşması üçün meyl, prinsip və amillərin öyrənilməsinin zəruri nəzəri şərti yalnız məktəb rəhbərinin şəxsiyyətinin tələbatı olan motivasiya, əməliyyat-texniki və refleksiv-qiymətləndirmə sahələri şəklində təqdim olunan quruluşa bütöv yanaşma olmayıb, eyni zamanda onların formalaşma səviyyəsidir. Bunlarla yanaşı, tədqiqatçının qənaəti belədir ki, direktorun peşə səritəliliyi əsasında təhsil müəssisələrinin fəaliyyətindəki müsbət dəyişikliklər aşağıdakı

göstəricilərdə özünü göstərir: müəllim heyətinin fəaliyyətinə diqqəti artırmaq, məktəbin inkişaf strategiyasını müəyyənləşdirmək (müəllimlərin rəyi, məktəbin inkişaf proqramının mövcudluğu və onun həyata keçirilmə dərəcəsi, qarşıya daha iddialı hədəflərin qoyulması və s.); kollektivin işinin səmərəli təşkili (idarəetmə sisteminin təkmilləşdirilməsi; informasiya sistemi; idarəetmə və nəzarət metodları; məktəbin pedaqoji şuralarının səmərəliliyinin artırılması və s.; idarəetmə fəaliyyətinin üslub və metodlarının təkmilləşdirilməsi (pedaqoji ünsiyyətin demokratikləşdirilməsi və humanistləşdirilməsi; komanda ilə işdə fəal metodlardan istifadə; məktəbin müəllim heyətində şəxsiyyətlərarası və ya qruplararası münaqişələrin azaldılması və ya olmaması və s.; müəllim heyətində psixoloji mühitin yaxşılaşdırılması (müəllimlərin, şagirdlərin, valideynlərin rəyi); psixoloji testin nəticələri və s.; cəmiyyətdə məktəbin artan nüfuzu; məktəbin tədris prosesinin səmərəliliyinin artırılması (əlaçıların, universitetlərə daxil olmuş olimpiada qaliblərinin artması) [90, s. 374].

S.D.Yakuşeva "pedaqoji mühəndislik" anlayışının mahiyyətini bel izah edir: *"Pedaqoq-mühəndis - pedaqoji-psixoloji istiqamətə, pedaqoji və artistlik qabliyyətinə, innovativ yaradıcı təfəkkürə, səriştəliliyə və imicə, təşkilatçılıq və idarəetmə qabiliyyətlərinə, pedaqoji mühəndislik sahəsində peşə ustalığına və biliklərə malik olan inteqrativ şəxsiyyətdir" [126, s. 16].*

Müasir təlim texnologiyaları müəllimdən yaradıcılıq bacarığı tələb edir. Bu prosesdə daha çox üstünlük verilən məsələ şagirdlərin yeni informasiya mənbələrinə və bu informasiyaları alma vasitələrinə münasibəti ilə bağldır. Bu baxımdan yeni təlim vasitələri içərisində kompüter və informasiya texnologiyaları üstünlük təşkil edir. Həmin texnologiyalar formalarına görə aşağıdakı altsistemlər üzərində qurulur: fərdi təlim texnologiyaları; kooperativ təlim texnologiyaları; interaktiv təlim texnologiyaları; distant təhsil texnologiyaları və b.

Ə.Ə.Ağayev yeni texnologiyalardan istifadənin zəruri olduğunu vurğulayır və bu baxımdan yeni texnologiyaların təcrübi məsələlərini şərh edərkən aşağıdakı metodları önə çəkir: debatlar (yazılı debatlar); tədqiq etmə bacarıqları; təqdimat; sənədlərlə iş; vəziyyət üzrə praktikum; sosioloji tədqiqat; diskussiya və b.

Gəldiyimiz qənaət budur ki, məktəb - şagirdlərin sosial mövqeyinin, davranış və münasibətlərinin formalaşmasına planlaşdırılmış, məqsədyönlü, sistemli qaydada, həmçinin müasir inovativ yanaşmalar əsasında təsir göstərən təşkilat kimi fəaliyyət göstərməlidir. Bu təşkilat öz işini dövlətin strateji maraqlarına, gənc nəslin təlim və tərbiyəsinin taktikasına münasib qurmalıdır. Məktəb kollektivini hər bir üzvü özünün peşə fəaliyyətindən irəli gələn vəzəifələrindən, qrup və vətəndaşlıq maraqlarından çıxış edərək həmin vəzifələrin yerinə yetirilməsinə səy göstərməlidir. Bu mənada məktəb vətəndaşların həyatında başlıca təsir obyektinə çevrilir, onun sosial mövqeyini müəyyənləşdirir, müxtəlif yaş mərhələlərində əsas fəaliyyət formasına uyğun olaraq psixikada baş verən dəyişmələrə təsir edən aparıcı amillərdən biri olur. Bütün bunların gerçəkləşməsi üçün məktəb rəhbərləri öz peşəsinin mühəndisi olmalıdırlar.

## Ədəbiyyat


1. Ağayev, Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar // Azərbaycan məktəbi, 2013, №5, s. 25-32
2. Məmmədzadə, R., Abdullayev A., Kərimova E. və b. Menecment, marketinq və təhsilin iqtisadiyyatı / R.Məmmədzadə, A.Abdullayev, E.Kərimova. -Bakı: -Müəllim, -2015. - 464 s.
3. Məmmədzadə, R., Abdullayev A., Kərimova F. və b. Təhsilin idarə edilməsinin bəzi problemləri / R.Məmmədzadə, A.Abdullayev, E.Kərimova.- Bakı: -Müəllim, -2008. - 237 c.
4. İbrahimov, F., Hüseynzadə R. Pedaqogika. I cild / F.İbrahimov, R.Hüseynzadə. -Bakı: -Mütərcim, -2012. - 811 s.
5. Гришина, И.В. Профессиональная компетентность директора школы: теория и практика формирования: // дисс…на соис. уч. степ. док. пед. наук. СПб.: 2004, Академия постдипломного педагогического образования, 416 с.
6. Якушева, С.Д. Профессионально-педагогический инжиниринг в инновационной деятельности образовательного учреждения: теория и практика. / С.Д. Якушева. - М.: -АПКиППРО, -2012. - 307 с.

# TƏHSİLİ KOLLEGİAL İDARƏETMƏDƏ MƏKTƏB RƏHBƏRLİYİNİN İDARƏETMƏDƏ ROLU

*Ülviyyə Edilxanova*
*Bakı Qızlar Universitetinin magistri*
*Email: ulviyyedilxanova@gmail.com*
*Elmi rəhbər: p.ü.e.d. prof. Həsən Bayramov*

Təhsil hər bir dövlətin və onun təmsil etdiyi cəmiyyətin təməlidir Təhsilin qayğısına və inkişafına diqqət göstərən dövlət tarixdə həmişə öz varlığı ilə iz qoyur. Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm, mədəniyyət və xalqın intellektual potensialının formalaşması və daha da irəli getməsi, onun təhsil sistemi ilə təmin olunur.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun (2009) 30-cu maddəsi "Təhsil müəssisəsinin idarə olunması" adlanır. Burada deyilir: " Təhsil müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ-hüquqi aktlara və öz nizamnaməsinə idarə edilir. Dövlət təhsil müəssisinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır [1.səh 156]

Təhsil sistemində idarəetmə bazar iqtisadiyyatının tələblərinə, ictimai-siyasi həyatımızda aparılan demokratikləşmə prosesinə uyğun qurulmalı, onun planlaşdırma, əlaqələndirmə, tənzimləmə, nəzarət və sair funksiyaları yeni məzmun və formalarda tətbiq olunmalıdır. İdarəetmənin əsas məqsədi şəxsiyyətin, cəmiyyətin təhsilə olan tələbatını ödəmək üçün dövlət-ictimai xarakterli təhsil sisteminin yeni idarəetmə modelinin yaradılmasıdır. [3.səh 135]

İlk növbədə "məktəbi idarəetmək" və "ona rəhbərlik" anlayışlarını fərqini başa düşək. Məktəbin idarə edilməsi, onun əsasları və prinsipləri, pedaqoji kollektiv, o cümlədən məktəb direktoru və onun müavinlərinin fəaliyyətinin təşkili, müəllim əməyinin nizamlanması, məktəbdə metodiki iş, məktəbdaxili nəzarət, məktəb sənədləri, maddi-texniki baza və s. məktəbin rəhbərliyi bu məsələlərin həlli ilə bağlı vəzifələri yerinə yetirərkən proqram sənədlərinə, Azərbaycan Respublikasının Təhsil Qanununa (2009),

həmin qanuna uyğun aktlara və təhsil müəssisələrinin nizamnamələrinə əsaslanır. Məktəbə rəhbərlik edərkən təlim-tərbiyə prosesinin özünəməxsus qanunauyğunluqlarını nəzərə almaq vacibdir. Tədris tərbiyə prosesini idarə etməkdə məqsəd şəxsiyyətin ahəngdar inkişafını təmin etməkdir. Tərbiyə, təhsil prosesi dövlət təhsil sistemi, ictimai təşkilatlar və ayrı-ayrı vəzifəli şəxslər tərəfindən idarə olunur.

İdarəetmənin mahiyyətini aşağıdakı prinsiplər tam və hərtərəfli əks etdirir.

1) Kollegiallıqda vahid rəhbərliyin əlaqələndirilməsi;
2) İdarəetmədə dövlət və ictimai əsasların əlaqələndirilməsi;
3) İdarəetmədə elmlilik, nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi;
4) İdarəetmədə planlılıq;
5) İdarəetmədə sistemlik və komplekslilik;
6) İdarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli;
7) İdarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi;
8) İdarəetmədə demokratikləşdirmə və humanistləşdirmə [4.səh 9]

Məktəbin kollegial orqanlarının təşkili və fəaliyyəti rayon(şəhər) təhsil şuraları tərəfindən tənzim edilir və istiqamətləndirilir. Məktəbin kollegial orqanlarına və ictimai təşkilatlara aşağıdakılar daxildir: məktəb konfransı, pedaqoji şura, metodik birləşmələr, valideyn komitəsi, uşaq və gənclər birlikləri, həmkarlar təşkilatı, şagird komitəsi, müxtəlif klub şuraları, könüllü cəmiyyətlər və b. Bu təşilatların hər biri məktəbin idarəedilməsində özünəməxsus rol oynayır və konkret vəzifələri yerinə yetirir. [2.səh 61]

**Məktəb konfransı**. Məktəbin ümumi yığıncağı məktəb konfransıdır. Ümumi yığıncaq məktəbin vacib məsələlərinin izah edir. Bu məsələlər aiddir: maliyyə vəziyyəti, təlim-tərbiyə, müəyyən mövzu ərafında müzakirələr və s.

**Pedaqoji şura**. Ümumtəhsil məktəblərinin pedaqoji Şuraları haqqında Əsasnamədə Şuranın məktəb haqqında hökumət

qərarlarının yerinə yetirilməsində, tədrisin yüksək elmi səviyyəsinin təmin edilməsində şüurlu, hərtərəfli inkişafa, həm fiziki, həm də əqli əmək bacarığına malik məktəbli gənclərin tərbiyə olunmasında və hazırlanmasında məktəbin, ailənin və əmək kollektivlərinin səyini birləşdirən «daim fəaliyyətdə olan» orqan kimi təşkil edildiyi göstərilir. Şuranın tərkibinə məktəbin pedaqoji işçiləri, şagird ictimai təşkilatlarının nümayəndələri, kitabxanaçı, tibb işçiləri, valideyn komitəsinin sədri, baza müəssisəsinin nümayəndələri, yaşayış yerlərində uşaq və yeniyetmələrlə tərbiyə işi aparan təşkilatçı-müəllimlər, istehsalat təlim ustaları daxildirlər. Şuranın iclaslarına lazım gələrsə başqa şəxslər də dəvət oluna bilər. Mövcud qaydalara görə pedaqoji şuranın sədri məktəbin direktorudur. Onun katibi isə şuranın tərkibindən açıq səsvermə yolu ilə seçilir.

**Metodik birləşmələr.** Metodik birləşmələr (bundan sonra-metodbirləşmələr) müəllimlərin elmi-metodik cəhətdən inkişafında əsas rol oynayır. Məktəbdə müəllimlərlə aparılan kollektiv iş əsasən metodbirləşmələrdə mərkəzləşir. Metodbirləşmənin illik fəaliyyət planı məktəbin tələbatlarına və mühitin tələblərinə uyğun olmalıdır. Qarşıya qoyulan məqsədlər real və əldə edilə bilən olmalıdır. Bununla belə, yadda saxlamaq lazımdır ki, məqsəd- təhsildən gözlənən nəticədir.

**Valideyn komitəsi.** Valideyn komitəsinin əsas məqsədi uşaqların meyl və qabiliyyətlərini, valideynlərin arzularını nəzərə almaqla şagirdlərin təhsillərini başa çatdırmaq yollarını seçməkdə onlara kömək göstərməkdir. Valideynlərin məktəb həyatında fəal iştirak etməyə, onların sinifdənxaric və məktəbdənkənar işlərin təşkilinə cəlb etməyə, çalışır. Valideynin övladına qarşı olan məsuliyyətini artırır.

**Uşaq və gənclər birlikləri.** Müasir mərhələdə uşaqlarla işin təşkili ölkənin təhsil və gənclər siyasətinin tələblərinə əsasən həyata keçirilir. Bu mənada uşaqların tərbiyəsinə müxtəlif sosial təsisatların təsiri nəzərə alınmalıdır. Onların arasında uşaq birliklərinin xüsusi yeri vardır. “Onun perspektiv məqsədi öz qüvvə və imkanlarına əsaslanmaqla uşaqlara kömək etmək, uşaq maraqlarının təmin olunmasındakı boşluğu doldurmaqdır” Uşaqlar həm məktəbdə, həm də ondan kənarda öz maraq dairələrinə görə birləşirlər.

**Həmkarlar təşkilatı.** Məktəb həmkarlar təşkilatı məktəbdə çalışan bütün müəllimləri və pedaqoji işçiləri əhatə edir. Məktəbdə növbətçilik, təmizlik, yanğından təhlükəsizlik işlərinin həyata keçirilməsində də məktəb həmkarlar təşkilatının rəhbərliyi və üzvləri yaxından iştirak edirlər. Demək olar ki, bu işlərə həmkarlar təşkilatının üzvləri nəzarət edir və məktəb rəhbərliyinə mütəmadi olaraq məlumat verir.Məktəb həmkarlar təşkilatının müəllimlərin hüquqlarının qorunmasında və onların bir çox başqa problemlərinin həll olunmasında çox böyük rolu var.

**Şagird komitəsi.** Şagird komitəsinin yaradılmasındakı məqsəd şagirdlərin hüquqlarının müdafiəsi ,problemlərə kömək edilməsi, şagird sağlamlığının qayğısına qalınması, təlimdə zəif oxuyan şagirdlərə yardım edilməsi, istedadlı şagirdlərə şərait yaradılması, tədbirlərin təşkil olunması, məktəbin nizam-intizama yaxından dəstək olunması fəal şagirdlərin vəzifəsinə daxildir.

Ümumtəhsil məktəbkərində kollegial idarəetmənin bir neçə tiplərinə diqqət yetirək. Kollegiallıqda **seqment** tipli idarəetmə modeli vardır. Burada fənn müəllimlərinin müstəqilliyinə daha geniş üstünlük verilir. Müəllim fənnin tədrisində öz metod və üsulu ilə işləməyi rəhbər tutur. O, tədris prosesinin tələblərinə müvafiq təlim-tərbiyə prosesinin təşkili formasını, dərs materialının planlaşdırılmasını özü seçir, şagirdlərlə necə işləməyi, onların fəaliyyətini hansı üsullarla qiymətləndirməyi müəyyənləşdirir. Kollegial idarəetmə sisteminin tiplərindən biri də **matris** modelidir. Kollegiallıqda matris idarəetmə modelinin tətbiqi o biri modellerdən fərqli olaraq iki əsas üzərində qurulur. Burada xüsusi təşkil olunmuş uarımbölmələrdə şagirdlərin təlim-tərbiyə işinin idarəedilməsi daha da təkmilləşdirilir. Bu yarımbölməyə daxil olan müəllimlər şagirdlərin tələb və maraqlarını nəzərə alaraq işçi fənn proqramlarını hazırlayır, proqramları mövzuları üzrə paylaşdırır və onların yerinə yetirilməsinə nəzarət edirlər. Kollegial idarəetmənin **modul** tipli təşkilində tədris və idarəetmə işləri tamamilə inteqrasiya olunur. Modul tipli idarəetmədə də müəllimlər komandalara ayrılırlar. Komandanın tərkibindəki müəllimlər bütün fənlərin tədrisi ilə məşğul olur. Bir müəllim bir neçə fəndən dərs deyir. Müəllimlər həm tədrisetmə, həm də şagirdlərin idarəedilməsi vəzifələrini yerinə

yetirirlər. [5.səh 104]

**Nəticə.** Cəmiyyətimizin günü-gündən daha da inkişaf etməsi və demokratikləşməsi istiqamətində görülən işlər bütün sahələrdə olduğu kimi xalq təhsilinin idarə olunmasına da təsir etmişdir. Son vaxtlar təhsil sisteminin idarə olunmasında aparılan dəyişikliklər diqqəti cəlb edir. Əvvəlki illərdən fərqli olaraq, indi tədris müəssisələrinin, o cümlədən ümumtəhsil məktəblərinin idarə edilməsində kollegial orqanların təşkilatçılıq fəaliyyətinə geniş şərait yaradılır. Əsas məqsədimiz ümumtəhsil məktəblərində kollegial idarəetmə fəaliyyətinin təşkili sisteminin yaradılmasın və moderləşdirilməsinə nail olmaq, problemli vəziyyətini təhlil edib araşdırmaq, fəaliyyət dairəsini sistemləşdirməkdir.

## Ədəbiyyat

1. A.O. Mehrabov, A.N Abbasov, M.C. Mahmudov. Təhsilinin moderləşdirilməsinin aktual problemləri. Bakı: Mütərcim, 2013. 412səh.
2. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi. Pedaqoji institut və universitet tələbələri üçün dərs vəsaiti. Bakı, 2012, 236 səh.
3. Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I cild. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2012, 656 səh.
4. Təhsilin idarə olunmasının əsasları. Dərs vəsaiti/Tər.ed. O. H. Rzayev, S. M. Məmmdov, Ş. N. İsmayılov. – Bakı: Mütərcim, 2010. 476 səh.
5. P.B. Əliyev, M.S. Kazımov, Ş.H. Qəribov, İ.M. Əsədova, V.Y. Kərimov. Təhsilin idarə edilməsinə yeni yanaşmalar. Bakı: Mütərcim, 2018.180 səh.

# KOLLEGİAL İDARƏETMƏDƏ MƏKTƏB RƏHBƏRLİYİNİN ROLU

*Ülviyyə Edilxanova*
*Bakı Qızlar Universitetinin magistri*
*Email: ulviyyedilxanova@gmail.com*
*Elmi rəhbəri p.ü.e.d., prof. Həsən Bayramov*

İlk növbədə "məktəbi idarə etmək" və "ona rəhbərlik" anlayışlarının mahiyyətini açıqlayaq. Pedaqogika üzrə dərslik və dərs vəsaitlərində bu anlayışlara müxtəlif mövqedən yanaşırlar. Bəzi müəlliflərin nöqteyi nəzərincə, rəhbərlik elə idarəetmənin funksiyalarıdır. Belə ki, onlar idarəetməyə təhsilin dövlət orqanlarının müstəqil hüquqi kimi, rəhbərliyə isə məktəb direktorunun fəaliyyət dairəsi kimi yanaşırlar. [2.səh 156].

Ümumi təhsil məktəblərinin kollegial idarə edilməsinin mahiyyəti dedikdə pedaqoji məntiqlə əsaslandırılmış olan məqsədin irəli sürülməsidir. Bu zaman idarə edilən obyektin ilk vəziyyətini hərtərəfli öyrənib müəyyənləşdirir və əldə olunmuş məlumat əsasında planlaşdırma aparılır. Müntəzəm əks-əlaqələrin yaradılması ilə idarə olunan obyektdən müəyyən parametrlər üzrə müntəzəm şəkildə məlumat alınır. Görülən işlər təhlil olunur və qiymətləndirilir. Kollegial idarəetmənin obyektiv imkanı subyektiv amildən asılıdır, yəni pedaqoji kollektivin rolundan düzgün istifadə edildikdə əməli gerçəkliyə çevrilə bilər. [1.səh 93].

"Təhsil haqqında" qanunun 30-cu maddəsinin 2-ci bəndində deyilir: "Dövlət təhsil müəssisəsinə rəhbərliyi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilmiş dövlət təhsil müəssisəsinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır. Elmi və pedaqoji şuraların yaradılması və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnaməyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən müəyyən edilir [1.səh 91].

Ümumtəhsil məktəblərinin ali idarəetmə orqanı pedaqoji şura adlanır. Ancaq buna baxmayaraq kollegial idarəetməni, demokratikliyi və şəffaflığı təmin etmək məqsədi ilə özünüidarə orqanları kimi bir sıra qurumlar yaradılır. Bunlar, himayəçilər şurası,

elmi-metodiki, , qəyyumlar şuraları, ümumi yığıncaq, şagird təşkilatı, məzun şəbəkələri, özünüaudit qurumları, məktəb icması və s. Bu qurumların yaradılması qaydaları və səlahiyyətləri təhsil müəssisinin nizamnaməsinə ilə müəyyən edilir.

Çoxluğundan, mahiyyətindən və siyasi tabeliyindən asılı olmayaraq məktəbdaxili kollegial orqanların hamısı bir məqsədə - məktəbin düzgün idarə edilməsinə xidmət edir. Hər kəsin də bildiyi kimi məktəbin idarə edilməsində təkcə məktəb rəhbərlərinin iştirakı kifayət deyildir. Bu işdə kollegial orqanların iştirakı etməsi mühüm rol oynayır. Təbii haldır ki, onların idarəetmədə olan fəaliyyəti məktəb rəhbərlərinin təşkilatçılıq fəaliyyətindən təcrid oluna bilməz.

Kollegiallıq pedaqoji şuranın mahiyyətini təşkil edir. Bu, kollegial idarəetmə təşkilatı olduğundan onun istər qanunların qəbulunda, istər hazırlanmasında, istər iclasın gedişində, istər planlaşdırılmasında, istərsə qərarların yerinə yetirilməsində və istərsə də qərarların icrasına nəzarətin aparılmasında kollegiallıq təmin edilməlidir. Bütün məsələlər şura üzvlərinin əksəriyyətinin rəyi əsasında həll edilmədir. Hər bir qərar əsl məsləhətləşmə, diskussiya nəticəsində qəbul olunmalıdır. Planlaşdırma zamanı kollegiallıq, əsasən məsləhətləşmə yolu ilə təmin edilirsə, iclasın gedişində, qərarların qəbul edilməsində diskussiyaya daha geniş yol verilməlidir. Şuranın bütün fəaliyyəti kollektivin iradəsini ifadə edən kollegial idarəetmə tapşırıqlarına çevrilməlidir. Bu qərarın – tapşırıqlarının hər hansı birini yerinə yetirməmək və ya onu yerinə yetirməkdən imtina etmək kollektivin hər bir üzvünün öz qərarından imtina etməsi deməkdir.

## Ədəbiyyat


1. P.B. Əliyev, M.S. Kazımov, Ş.H. Qəribov, İ.M. Əsədova, V.Y. Kərimov. Təhsilin idarə edilməsinə yeni yanaşmalar. Bakı: Mütərcim, 2018. 180 səh.
2. Mehrabov, A.N. Abbasov, M.C. Mahmudov. Təhsili moderinləşdirilməsinin aktual problemləri. Bakı: Mütərcim, 2013. 412 s.

# İNKLÜZİV TƏHSİLİN SƏMƏRƏLİ HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN VACİB OLAN ŞƏRTLƏR

***Gülşən Tahir qızı Eminova***
***ADPU-nun İbtidai təhsilin***
***pedaqogikası kafedrasının baş müəllimi,***
***p.ü.f.d.***
***E-mail: eminovagulsn@gmail.com***

Elə bir tarixi dövrdə yaşayırıq ki, təhsil sahəsində bir çox yeniliklərin həyata keçdiyinin həm şahidi olur həm də bu prosesin iştirakçılarına çevrilirik. Deməк olarki, ən çox müzakirə edilən mövzulardan biri inklüziv təhsilin necə həyata keçirilməsi,iştirakçıların hüquqları və təhsil verənlərin vəzifələrinin həm də öhdəliklərinin nələrdən ibarət olmasıdır.

1948-ci ildə qəbul edilmiş İnsan Hüquqları haqqında Ümumi Bəyannaməyə əsasən, bütün insanların eyni hüquqlara sahib olması fikrinə əsaslanan ilk beynəlxalq sənədlərdəndir. Hər bir fərdin hüquqlarını qoruyan 30 maddədən ibarət olan bəyannamədə təsbit olunmuş hüquqlar ümumbəşəri dəyərlərdir. Onlar hər kəsə, məhz insan olduğuna görə, şamil edilir. İrqindən, dilindən, dinindən, cinsindən, milli mənsubiyyətindən, maddi və sosial durumundan, mövqeyindən, dünyagörüşündən, yaşından asılı olmayaraq bütün insanlar bərabər hüquqlara malikdir. Ümumilikdə, inklüziya heç bir fərdə fərq qoymadan, gözardı etmədən, bərabər gözlə baxılaraq eyni fürsətlərin verildiyi, nisbətən yeni olan, həssas təhsil mühitinə üstünlük verilən bir anlayışdır. Eyni zamanda, digər uşaqlar üçün də əlçatan olan və onların da bəhrələnməyinə şərait yaratmaqla əqli və fiziki imkanları fərqli uşaqların məktəb və tədrisin bütün hissələrinə əskiksiz şəkildə cəlb edilməsi nəzərdə tutulur. Bura fərqliliyi lazımi dərəcədə qiymətləndirməklə həqiqətən bütün uşaqların ehtiyaclarına uyğunlaşa bilən icma daxilindəki məktəblər və sinif otaqları da aid ola bilər. İnklüziv təhsilin məqsədlərindən biri də əlilliyi olan insanların cəmiyyətə inteqrasiyasını stimullaşdırmaq və onu reallığa çevirməkdir. İnklüziv təhsildə əlilliyi olan uşaqların təlimə cəlb edilməsi həm çətin həm də çox fədakarlıq tələb olunan bir prosesdir. İnklüziv təhsilin qarşısında duran çətinliklərin aradan qaldırılması və səmərəli

həyata keçirilməsi üçün vacib olan şərtlərə aşagıdakılardır:

-Əlilliyi olan uşaqların valideynlərini sosial modelin əhəmiyyətli olduğuna inandırmaq,əlilliyi olan uşaqların sinif mühitinə uyğunlaşdırılması. Eyni zamanda sosial mühit də elə təşkil olunmalıdır ki, həmin uşaqlar burada təhsil almaq istəsin, zərurəti anlasın. Bu iş üçün müəllimdən yüksək səviyyədə həvəs, maraq, motivasiya və bacarıq tələb olunur. Təhsil verənlərin təhsilalanlar üçün yaratdığı imkan və şəraitin davamlı olması, müəllim və valideynin birgə hərəkət etməsi, şagirdlərin psixoloji vəziyyətinə hər zaman diqqət yetirilməsi lazımdır.

- İnklüziv siniflərdə dərs deyən müəllimlər həmişə öz peşəkar inkişafı barədə düşünməli, daim yeni metodlar axtarışında olmalı və tədris prosesində ən səmərəli öyrənmə yollarından istifadə etməlidirlər.

- Universal təlim dizaynın prinsiplərinə əsaslanaraq müəllim hədəflərə görə tədris məkanın hazırlamalı,hər kəs üçün əlçatan müvafiq resurs ərazilərin təklif etməlidir. Sinif mühitinin uyğunlaşdırılmasının əsas məqsədi bütün uşaqlar üçün öyrənmənin əlçatanlığını, habelə şagirdlərin təhlükəsiz şəraitdə bilik, bacarıq və vərdişlərə yiyələnməsini təmin etmək məqsədilə əlverişli təlim mühiti yaratmaqdır. Həmçinin müəllim tədris proqramlarının rəngarəngliyinin təmin olunması, müxtəlif yanaşma üsullarından istifadə etməklə inklüziv siniflərdə diferensiallaşdırma – şagirdlərin və ya kiçik şagird qrupunun təlim ehtiyaclarına diqqət yetirilməsini özündə ehtiva edir.Məsələn:

**Görmə əlilliyi olan uşaqlar üçün zəruri şərtlər:**

• Yazılıtəlimat və ya tapşırıq verdikdə mətnin qısa şəkildə və böyük hərflərlə yazıldığına əmin olun;

• Həm şifahi, həm də yazılı təlimatlar zamanı elektron mətn danışma sistemləri təqdim edin;

• Hər bir ifadəni lövhədə yazıldığı kimi söyləyin;

• Sinif keçidlərini vurğulamaq məqsədilə səs vasitələrindən istifadə etmək və gün ərzində sinfin planına uyğun hərəkət etmək üçün sinif şablonları hazırlayın və onları çatdırmaq üçün əyani olmayan vasitələri təqdim edin;

• Təlim yerlərində orientasiya və səfərbərlikdə köməyə ehtiyacı olduqlarından sinfin planı, kitabxana, yeməkxana və məktəbin digər əsas ərazilərinə bələd olması üçün onlara vaxt verin;

• Məktəbin texniki planını və fövqəladə hallar üzrə prosedurları

görmə əlilliyi olan uşaqlara izah edin (məsələn, ayaqyolu, idman zalı,yeməkxana, oyun meydançası və s.);

• Sinif yoldaşları ilə kiçik qruplar və ya fərdi şəkildə tanış ola biləcəkləri fəaliyyət və təcrübələr təşkil edin.

**Fiziki əlilliyi (dayaq-hərəkət sistemi ilə bağlı) olan uşaqlar üçün zəruri şərtlər**:

• Məktəbdə və sinif otağında hərəkət etmək üçün geniş əlverişli yer təmin edin ki, sinif materiallarına və təchizatlarına müstəqil şəkildə yaxınlaşa bilsinlər;

• Sinifdən kənarda və məktəb daxilində sərbəst hərəkət etməsi üçün şagirdlərə vaxt verin, onları tələsdirməyin;

• Yazıyla bağlı çətinliyi varsa, onu qeydlər aparmaqda köməkçi ola biləcək şagird yoldaşı ilə birlikdə əyləşdirin;

• Şagirdin yazmaq imkanı məhduddursa və ya yaza bilmirsə, ona mövzunu kompüter, kiçik səsyazan və ya kamera kimi vasitələrlə qeydə almağa icazə verin və s.

- Hər bir şagirdin məktəbin akademik və sosial həyatında iştirak səviyyəsinin yüksəldilməsi;
- Əlilliyi olan uşaqların məktəbin daxilində baş verən proseslərdən təcrid olunmaması;
- İnklüziv təhsilin tətbiqində uşaqyönlü pedaqogikanın əhəmiyyətinin başa düşülməsi;
- İnklüziv təhsillə bağlı aparılan işlərin ancaq həssas təbəqədən olan qruplara, məsələn, əlilliyi olan uşaqlara deyil, bütün məktəblilərə aid olunması.

Yuxarıda qeyd olunan fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, inklüziv təhsil sosial birliyi stimullaşdırır, əlilliyi olan uşaqların yaşıdlarından təcrid olunmalarının qarşısını alır, onların intellektual inkişafına, cəmiyyətə inteqrasiyasına və hüquqlarının təmin olunmasına kömək edir. Bu uşaqların öz yaşıdları ilə məqsədəuyğun şəkildə təmasda olmaları hesabına çox zaman onların emosional zəkası artır, nitqi inkişaf edir. İnklüziv təhsil zamanı yeni bacarıq və vərdişlərin mənimsənilməsi və onlardan istifadə olunması funksional olaraq həyata keçirilir, uşaqların güclü cəhətlərinə, qabiliyyətlərinə və maraqlarına fokuslanaraq aparılır. Onlar üçün əlilliyi olmayan yaşıdları ilə dostluq münasibətləri yaratmaq və ictimai həyatda iştirak etmək imkanları yaradır.

## MÜNDƏRİCAT

### *I BÖLMƏ*
### *PEDAQOGİKANIN ÜMUMİ ƏSASLARI*


1. ***Muxtarova N.M.*** *Ulu öndər Heydər Əliyevin pedaqoji fəaliyyətimdə yeri*..........4
2. ***Hüseynzadə R. L.*** *Ulu öndər Heydər Əliyevin nəzəri irsində müəllimlik*..........12
3. ***İsmixanov M.A., Çıraqova V.M.*** *İnsan və onun inkişafi ilə bağlı konseptual yanaşmalar*..........16
4. ***İsmixanov M.A., Hüseynova C.S.*** *Pedaqoji proses və onun səciyyəvi cəhətləri*..........20
5. ***İsmixanov M.A., Bəxtiyarova R.Ə.*** *Pedaqoji sistemin yeniləşməsi və optimallaşdırılması*..........28
6. ***İsmixanov M.A., Əliyeva F.*** *Müəllimin pedaqoji nüfuzu*..........36
7. ***Qəhrəmanova K.K. T****ədris prosesində müəllim mühüm fiqur kimi*..........43
8. ***Məmmədov F.Z.*** *Elmi fərziyyənin yoxlanilmasinda pedaqoji eksperimentin təşkili və keçirilməsinin əhəmiyyəti*..........49
9. ***İlyasov M.İ.*** *Müasir müəllimi xarakterizə edən başlica keyfiyyətlər*..........51
10. ***Daşdəmirova A.T.*** *İnkişafetdirici mühitin şəxsiyyətin formalaşmasinda rolu*..........64
11. ***Tağıyeva T.Ə.*** *Müasir müəllim modeli*..........68
12. ***Zamanova N.İ.*** *Müasir müəllim modeli*..........71
13. ***Hacıyeva G.S.*** *Təhsilimizin böyük himayədarı*..........73
14. ***Muradova G.Ç.*** *Yaradıcı məktəblər yaradıcı şəxsiyyət yaradır*..........76
15. ***Nağıyeva G.A.*** *Münaqişələrin yaranma səbəblərindən*..........79
16. ***Mirzəyeva Ü.M.*** *Təhsildə dövlət siyasətinin əsas prinsipləri*..........82
17. ***Qurbanlı S.M.*** *Ulu öndər Heydər Əliyevin dünyagörüşündə müəllim*..........87
18. ***Насирова Г.Н.*** *Модель современного учителя*..........91

## *II BÖLMƏ*
## *TƏLİM VƏ TƏHSİL NƏZƏRİYYƏSİ*


1. **Abbasov A.N.** *Ümummilli lider Heydər Əliyev təhsilimizin inkişafi və müəllim şəxsiyyəti haqqinda*.................................98
2. **Qasımova L.N.** *Təhsil Millətin Gələcəyidir* ...........................101
3. **Rüstəmov F.** *Ulu öndər Heydər Əliyevin təhsil diplomatiyası*..................................................................108
4. **Muxtarova N.M.** *Ulu öndər Heydər Əliyevin milli təhsil konsepsiyası* ...............................................................115
5. **İsmayılov İ.M.** *Təhsil texnologiyalarına müasir baxiş: təkamülü, bu günü və perspektivləri* ......................................120
6. **Mahmudova R.M.** *Öyrənənin müstəqil fəaliyyətinin təşkili inkişafetdirici təlimin həyata keçirilmə yolu kimi*....................124
7. **Əliyeva S.S.** *Ali təhsilin dəyişən paradiqmaları*.....................127
8. **Гусейнова Ш.В.** *Тенденции развития образования в мире* ...................................................................................132
9. **Cəfərov H.A.** *Şəxsiyyət yönümlü təhsilin valeoloji və didaktogen amillərlə şətrlənməsi*.............................................137
10. **Məmmədov F.Z.** *Tədris prosesində interaktiv təlim metodlarından istifadə və İKT-nin əhəmiyyəti*........................140
11. **Məmmədov F.Z.** *Ayrı-ayrı fənnlərin tədrisində səmərəliliyin və kefiyyətin yüksəldilməsində təlim texnologiyalarından istifadənin əhəmiyyəti* ..............................................................154
12. **Abdinova N.C.** *Müasir məktəbdə keyfiyyətin idarə olunmasında monitorinqin rolu* ...............................................167
13. **Əliyeva T.M.** *Students with special educational needs* ...........171
14. **Sadıxova M.İ.** *İKT-nin təhsildə tətbiqi və inteqrasiyasəna təsir edən amillər* ..............................................................174
15. **Kərimova C.V.** *Dərsə verilən müasir tələblər* .........................177
16. **Baxşəliyeva A.N.** *Alternativ qiymətləndirmə üsullarının akademik nailiyyətə, davamlılığa, davranış və münasibətə təsiri* ..................................................................................179
17. **Əhmədova A.H.** *Təhsilin inkişafinda Heydər Əliyev nəzəri irsindən istifadənin əhəmiyyəti* ...................................183
18. **Əliyeva K.İ.** *Kiçik məktəbli yaşlı autizmli uşaqların təlim prosesində fərdi təlim proqramının hazırlanmasının əhəmiyyyəti* ........................................................................185

19. ***Səfərova H.D.*** *Dərs təlimin əsas təşkili forması kimi* .............188
20. ***Sadıqova S.O.*** *Ekoloji təhsildə inkluziv yanaşmalar*..............190
21. ***Baxışova Ş.A.*** *Məktəbəqədər təhsil inkişafetdirici təlim paradiqmasında* ..........................................................................192
22. **Abdullayeva G.M.** *Təhsildə birgə yaradıcılıq modelinin tətbiqi əhəmiyyəti*................................................................................195
23. ***Əzizova M.Ə.*** *Şagirdlərin təlimə motivasiyasını artıran yeni texnologiyalar* .............................................................197
24. ***İskandarovaA.R.*** *Süni intellekt əsrində tədris metodlarının tətbiqi fəlsəfəsinə baxış* ......................................200
25. ***Cəfərova S.E.*** *Tələbələrin elmi yaradıcılığı*..........................204
26. ***Quliyeva Ü.İ.*** *Müasir məktəbdə şagirdin qiymətləndirilməsi prinsipləri (ingilis dili dərslərinin nümunəsində)*.................................................................................209
27. ***Mirzəzadə V.A.*** *Şagirdlərdə yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi müasir təlim konsepsiyalarının tələbi kimi* .........................................................................................212
28. ***Nağızadə Z.H.*** *Kimya tədrisində müasir yanaşmalar*............215
29. ***Qurbanlı S.R.*** *Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşma*.......................................218
30. ***Mirzəyeva Ü.M.*** *Azərbaycanda təhsil və təhsil sahəsində dövlət siyasətinin prinsipləri*..................................................220
31. ***Ağazadə Ü.Q.*** *Şəxsiyyətyönümlü təhsil* ................................222

## *III BÖLMƏ*
## *TƏRBİYƏ NƏZƏRİYYƏSİ*

1. **Muxtarova N.M.** *Heydər Əliyevin milli tərbiyə konsepsiyası* ..................................................................................226
2. ***Cəbrayılov İ.H.*** *Ümummilli lider Heydər Əliyev irsində mənəvi dəyərlər*.................................................................................235
3. ***Əlizadə H.Ə.*** *Ulu öndər Heydər Əliyevin ali təhsil siyasəti və onun müasir dövrdə inkişaf tendensiyaları* ........................238
4. **Quliyeva M.A.** *Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsinin mahiyyəti və əhəmiyyəti* .............242
5. **Quliyeva M.A.** *Ailə tərbiyəsi ibtidai sinif şagirdlərinin mənəvi tərbiyəsində həlledici amillərdən biri kimi*................246

6. ***İmamverdiyeva N.B.*** *Ulu öndər Heydər Əliyevin milli şüur - elmi konsepsiyası!* ........................................................251
7. ***Tağıyeva Q.H.*** *Ulu öndər Heydər Əliyevin milli mənlik şüuru-elmi konsepsiyasi!* ........................................................254
8. ***Tağıyeva Q.H.*** *Ulu öndər Heydər Əliyev: öz kökünə sadiq olmalidir !* ........................................................256
9. ***Kərimova G.H.*** *Ulu öndər Heydər Əliyev gənclərin milli- mənəvi tərbiyəsi haqqında* ........................................258
10. ***Bayramova A.A.*** *H.Əliyev kəlamları uşaq və gənclərin əxlaqi şüurunun formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi* ........................................................263
11. ***Allahverdiyeva S.B.*** *M.C.Paşayevin "Açiq kitab", "Bir gəncin manifesti" əsərlərində tərbiyə məsələlər* ......................268
12. ***Mollayeva E.Ə.*** *Ümummilli lider Heydər Əliyev irsində azərbaycançılıq konsepsiyasının pedaqoji istiqamətləri* ........271
13. ***Agabəyova Ü.R.*** *Cübran Xəlil cübran yaradıcılığında sevgi məsələsi*........................................................276
14. ***Vəliyeva Y., Şəkərəliyeva Ə.R.*** *Cinayətkar yeniyetmələrin cinayi davranışına təsir edən amillər* ....................................283
15. ***Гусейнова Ш.В.*** *Общенациональный лидер Гейдар Алиев и роль в образовании*..................................................288
16. ***Hüseynova C.S.*** *Heydər Əliyev irsində vətənpərvərlik tərbiyəsi*........................................................294
17. ***Фараджева Ф.Ф.*** *Глобализация как важнейший фактор влияния на культуру и человеческие ценности*........................................................307
18. ***Əliyev R.C.*** *Ümummilli lider Heydər Əliyevin irsi və gənclərin mənəvi tərbiyəs* ........................................................312
19. ***Асланзаде Н.Ф.*** *Воплощение национально-духовных и общечеловеческих идей в концепции "азербайджанизма" великого лидера Гайдера Алиева*........................................................317
20. ***Cəfərova S.N.*** *Məktəbəqədər yaşlı uşaqlarda valeoloji biliklərin formalaşdırılması yolları* ........................................321
21. ***İsmayılova A.F.*** *Heydər Əliyev ailə tərbiyəsi və ailə dəyərləri haqqında*........................................................325
22. ***İmanova Ü.A.*** *Heydər Əliyev və Azərbaycan dilinin inkişafi*........................................................329

23. ***İsmayılova N.R.*** *Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafında bağçanın rolu*........................................334
24. **Orucova S.A.** *Sosial qayğıya ehtiyacı olan uşaqların himayədarı*..................................................................337
25. ***Abışova M.Ə.*** *Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti nəsillərə nümunədir*..............................................343
26. ***Həsənova N.Ə.*** *Milli təhsilin və milli-mənəvi dəyərlərin himayədarı*..................................................................347
27. ***Əliyeva S.Q.*** *Uşaqlara sevgi və hörmət stimullaşdırıcı amil kimi*.......................................................................350
28. **Ramazanova X.S.** *Ümummilli lider, dahi şəxsiyyət*..............353
29. ***Mirzəliyeva N.S.*** *Yeniyetmələrin ailə tərbiyəsində sosial amillərin rolu*...............................................................355
30. **Orucova A.N., *Çıraqova V.M.*** *Çətin tərbiyə olunan yeniyetmələrlə aparılan korreksiya işləri*..............................361
31. ***İsgəndərova İ.H.*** *Təhsilə yeni yanaşmada şagirdlərdə gender amilinin nəzərə alınmasının üstünlükləri*.................367
32. **Cavadova N.A.** *Ailə tərbiyənin əsas mühiti kimi*...................370
33. ***Ələkbərova A.F.*** *Mir Cəlal Paşayevin "Plovdan sonra" hekayəsində tərbiyə məsələləri*.............................................373
34. ***Vəliyev D.C.*** *Azərbaycan multikulturalizmi və milli mənəvi dəyərlər*..........................................................................376
35. ***İmamverdiyeva N.B.*** *Ailədə uşaqların sosiallaşması*............380
36. **Allahverdiyeva S.B.** *Ulu öndər Heydər Əliyev nümunəsində gənc nəslin tərbiyəsi*.........................................................382
37. ***Тагиева Г.Г.*** *Воспитание патриотизма у младших школьников как педагогическая проблема*..........................385
38. ***Шихалиева И.В.*** Воплощение национального патриотизма во второй Карабахской войне........................390
39. ***Arıxova G.X.*** *Məktəbə hazırlıq qruplarında varislik prinsipinin yerinə yetirilməsi*..................................................397
40. **Camalova Ə.C.** *Milli-mənəvi dəyərlər tədqiqatlarda*.............401
41. ***Cəfərova S.E.*** *Ulu öndər Heydər Əiyev irsində gənclərin milli-mənəvi tərbiyəsi*...........................................................404
42. ***Əliyeva N.M.*** Ailədə uşaqların düzgün davranış mədəniyyəti..........................................................................406

## *IV BÖLMƏ*
## *PEDAQOGİKANIN TARİXİ*

1. **İsayev İ.** *Heydər Əliyevin təhsil strategiyası və reallıqlar ........................................................................409*
2. **Məmmədova A.N.** *Azərbaycanda etnopedaqoji fikrin təşəkkülü və inkişafına heydər Əliyev qayğısı ..........................419*
3. **Şahbazova Q.L.** *İrəvan maarifçiliyində gimnaziya..............424*
4. **Kərimova N.İ.** *Lev Meçnikovun ictimai inkişaf konsepsiyası ...................................................................427*
5. **Bayramova A.A.** *Alovlu Mübariz Əlibəy Hüseynzadənin maarifçilik və türkçülük ideyası............................................433*
6. **Bayramov H., Məmmədova M.** *Rusiya türklərinin maarifçilik hərakatında İsmayil bəy Qasprinskinin rolu haqqında ...................................................................439*
7. **Qasımova A.Q.** *Azərbaycan təhsilinin inkişafinda Heydər Əliyev mərhələsi......................................................444*
8. **Allahverdıyeva L.Z.** *Azərbaycan təhsilinin inkişafinda Heydər Əliyev dühası ...................................................................448*
9. **Pənahova K.H.** *Akademik Zərifə Əliyevanin Azərbaycanda bioetikanin inkişafinda rolu..................................................451*
10. **Əlizadə B.X.** *İ.Q.Herderin tarix fəlsəfəsi ..............................457*
11. **Məmmədov F.M.** *Orta əsrlərdə (ix-xiv əsrlər) türk-islam mədəniyyəti. məktəb və pedaqoji fikir tarixi. "Qətran Təbrizi" nin həyat və yaradıcılığ............................................469*
12. **Məmmədov S.Ə., Məmmədova Ü.M.** *Azərbaycan təhsilini ali kürsüyə qaldırmış şəxsiyyət ................................................479*
13. **Həsənova Z.R.** *Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafi...................................................................................485*
14. **Nadiri H.D.** *Unudulmayan tarixi şəxsiyyət ............................488*
15. **Bayramova S.** *İrəvan müəllimlər seminariyasının bəzi müəllim və məzunları haqqında..............................................490*
16. **Xankişiyeva Ş., Rəhimova M.** *Çar Rusiyasi dövrü İrəvan-Naxçivan mühiti: Firudin bəy Köçərli, axund molla Məmmədbağir Qazizadə və molla Məhəmmə ttaqi Sidqinin xidmətləri ..................................................................................497*
17. **Allahverdiyeva F.M.** *Azərbaycanda dövlət dilinin qurulmasına rəhbərlik edən dahi Heydər Əliyev.....................502*

18. **Qarayeva S.N.** *Heydər Əliyev və onun hakimiyyəti dövründə təhsil sistemi* ........................................................505
19. **Əbilova N.M.** *Azərbaycan təhsilini parlaq gələcəyə aparan irs*..............................................................................508
20. **Muradova G.H.** *Qədim diyarin qədim təhsil izləri* .................511
21. **Edilxanova Ü., Bayramov H.** *Heydər Əliyev və təhsilin prioritetləri* .........................................................................514
22. **Mirzəyeva Ü., Bayramov H.** *Heydər Əliyev və Azərbaycan təhsilinin hüquqi normativ təminatı*......................................518
23. **Гусейнов Н.С.** *Глубокий след в истории Азербайджана и всей мировой политики* ..................................................525

## *V BÖLMƏ*
## *PSİXOLOGİYANIN ÜMUMİ MƏSƏLƏLƏRİ*

1. **Alışanlı A.İ.** *Psixologiyada emosional intellekt anlayışının təşəkkülü və inkişafı* .........................................................529
2. **Şxəliyeva K.Z.** *Qloballaşan cəmiyyətin inkişafında şagirdlərin nitq bacarıqlarının inkişafı* ...................................532

## *VI BÖLMƏ*
## *MƏKTƏBİN İDARƏ EDİLMƏSİ*

1. **Nadirzadə N.İ.** *Məktəb direktorunun innovativ mühitdə pedaqoji mühəndislik fəaliyyətinin xüsusiyyətləri* .................537
2. **Edilxanova Ü., Bayramov H.** *Təhsili kollegial idarəetmədə məktəb rəhbərliyinin idarəetmədə rolu*.............542
3. **Edilxanova Ü., Bayramov H.** *Kollegial idarəetmədə məktəb rəhbərliyinin rolu* ..................................................547
4. **Eminova G.** *İnklüziv təhsilin səmərəli həyata keçirilməsi üçün vacib olan şərtlər* .........................................................549

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**SOSİAL ELMLƏR və PSİXOLOGİYA FAKÜLTƏSİ**

**PEDAQOGİKA KAFEDRASI**

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ
100-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
«**TƏHSİLDƏ MODERNLƏŞMƏ VƏ İNNOVASİYALAR DÖVRÜN TƏLƏBİDİR**» MÖVZUSUNDA
RESPUBLİKA ELMİ KONFRANSIN

# MATERİALLARI

**2-3 may 2023-cü il**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

Yığılmağa verilmişdir: 22.04.2023
Çapa imzalanmışdır: 01.05.2023
Format: 60 ×84 1/16
Şərti çap vərəqi – 35
Sifariş № 168
Tiraj – 100 nüsxə

“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69